TARİX VƏ ONUN PROBLEMLƏRİ

2

BAKI - 2026

“Milli ideologiyamız, şübhəsiz ki, tarixi keçmişimizlə, millətimizin adət-ənənələri ilə, xüsusiyyətləri ilə, xalqımızın, dövlətimizin bu günü və gələcəyi ilə bağlı olmalıdır”.

Heydər ƏLİYEV

TARİX VƏ ONUN PROBLEMLƏRİ

1997-113

HİSTORY AND İTS PROBLEMS **ИСТОРИЯ И ЕЁ ПРОБЛЕМЫ**

NƏZƏRİ, ELMİ, METODİK JURNAL

ISSN 2708-0641 (print)
2708-065X (online)

2

ADİLOĞLU
BAKI – 2026

Baş Redaktor **-** **Əsməd İmamməmməd qızı Muxtarova**
tarix elmləri doktoru, Bakı Dövlət Universiteti

Baş redaktorun müavini **-** **İsmayıl Məhəmməd oğlu Məmmədov**
tarix elmləri doktoru, Bakı Dövlət Universiteti

Məsul katib **-** **Məmmədağa Ələkbər oğlu Baxışov**
tarix üzrə fəlsəfə doktoru, Bakı Dövlət Universiteti

Elm sahələri üzrə redaktorlar:
Tarix və Antropologiya üzrə redaktor – **Qabil Əli oğlu Əliyev**
tarix elmləri doktoru, Bakı Dövlət Universiteti

Siyasi elmlər üzrə redaktor – **Məmmədli Sabir Rza oğlu**
siyasi elmlər doktoru, Bakı Dövlət Universiteti

Redaksiya heyəti (əlifba sırası ilə)

Axundova Nərgiz Çingiz qızı – *AMEA-nın həqiqi üzvü, AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu*
Andrzej L.Bonusiak – *tarix elmləri doktoru, Jeşuva Universitetinin Tarix İnstitutu (Polşa)*
Barış Özdal – *siyasi elmlər doktoru, Bursa Uludağ Universiteti (Türkiyə)*
Dadaşov Əmrah Nemət oğlu – *tarix elmləri doktoru, Bakı Dövlət Universiteti*
Danish Miroslav – *tarix elmləri doktoru, Bratislava Komenski Universiteti (Slovakiya)*
Əliyeva Sevinc İsrafil qızı – *tarix elmləri doktoru, Azərbaycan Dövlət Pedaqoji Universiteti*
Əlizadə Hikmət Əbdül oğlu – *pedaqoji elmlər doktoru, Bakı Dövlət Universiteti*
Hacıyev İsmayıl Muxtar oğlu – *AMEA-nın həqiqi üzvü, AMEA Naxçıvan bölməsi*
Hacıyev Sani Tofiq oğlu – *tarix elmləri doktoru, Bakı Dövlət Universiteti*
Hatice Palaz Erdemir – *tarix elmləri doktoru, Manisa Calal Bayar Universiteti (Türkiyə)*
Hüseynova İradə Mehtiqulu qızı – *tarix elmləri doktoru, Bakı Dövlət Universiteti*
Hüseynova Lalə Cavid qızı – *tarix elmləri doktoru, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Siyasi sənədlər arxivi*
İsgəndərov Anar Camal oğlu – *tarix elmləri doktoru, Bakı Dövlət Universiteti*
Qasımlı Musa Cəfər oğlu – *AMEA-nın müxbir üzvü, Bakı Dövlət Universiteti*
Quliyeva Nərgiz Məlik qızı – *tarix elmləri doktoru, AMEA Arxeologiya və Antropologiya İnstitutu*
Kvitsiani Johni Jokiyevich – *tarix elmləri doktoru, İ.V.Cavaxişvili adına Tbilisi Dövlət Universitetinin "Qafqazşünaslıq" Elmi-Tədris İnstitutu (Gürcüstan)*
Mahmudov Yaqub Mikayıl oğlu – *AMEA-nın həqiqi üzvü, Bakı Dövlət Universiteti*
Mamoulia Georges Quramovich – *tarix elmləri doktoru, Sosial Elmlər üzrə Ali Araşdırmalar Məktəbi (Fransa)*
Mirabdullayev Adil Mirabdulla oğlu – *siyasi elmlər doktoru, Bakı Dövlət Universiteti*
Mohammad Salmansızadeh – *tarix elmləri doktoru, Təbriz Universiteti (İran)*
Turichın İqor Victoroviç – *tarix elmləri doktoru, Moskva Tarix, İqtisadiyyat və Hüquq Elmi-Tədqiqat İnstitutu (Rusiya)*
Vəlixanlı Nailə Məmmədəli qızı – *tarix elmləri doktoru, Azərbaycan tarx müzeyi*
Yusifzadə Sevinc Ziya qızı – *tarix elmləri doktoru, Bakı Dövlət Universiteti*
Zeynalov İbrahim Xudaverdi oğlu – *tarix elmləri doktoru, Bakı Dövlət Universiteti*

Web-sayt: https://tarixveonunproblemleri.az/
Redaksiya ilə əlaqə: TarixVeOnunProblemleri@gmail.com
Şəhadətnamə № 0060079 (1997)
©Lisenziya ser.AB - №22477

MÜNDƏRİCAT

	QƏDİM DÖVR VƏ ORTA ƏSRLƏR	
BALAYEV X., MEHTİYEV R.	*Azərbaycan ümumşərq sivilizasiyasının mərkəzlərindən biri kimi*	5-10
MƏMMƏDLİ A., HƏSƏNOV H.	*Azərbaycan və Şumerin tarixi əlaqələrinə dair*	11-17
NƏSİBLİ X.M.	*Hülaku-Qərb diplomatiyasında xristian vasitəçiliyi: Hülakü xan və Abaqa xanın Papalara ünvanlanmış məktublarının təhlili*	18-25
RÜSTƏMZADƏ F.	*Şah Təhmasibin hakimiyyəti illərində Səfəvi imperiyasının hərbi strategiyası*	26-31
	YENİ DÖVR	
ƏLİYEV Q.Ə.	*Ərəş, Qəbələ və Qutqaşın Sultanlıqları: sosial-iqtisadi və etno-demoqrafik vəziyyəti*	32-38
BAĞIŞOV E.	*Rusiya imperiyasının Şimali Azərbaycanda apardığı inzibati-ərazi dəyişiklikləri (1830-1840)*	39-42
İSMAYILOVA J.M.	*Əhməd bəy Ağaoğlunun publisistik fəaliyyətində milli və ümumbəşəri dəyərlər*	43-48
	MÜASİR DÖVR	
HACIYEV İ.	*Azərbaycan Xalq Cümhuriyyəti dövründə Naxçıvan diyarının siyasi vəziyyəti*	49-59
MƏMMƏDOVA Y.	*Naxçıvan MSSR Mərkəzi İcraiyyə Komitəsinin sovet quruculuğu dövründə fəaliyyəti*	60-65
RZAYEV R.	*Azərbaycanın ilk ədliyyə naziri Xəlil bəy Xasməmmədov*	66-71
HÜSEYNOVA N.	*AXC dövründə Azərbaycan - Almaniya əlaqələri (1918-ci il)*	72-78
SULEYMANOVA M.	*Repressions in Nakhchivan in the 1930s and the Attempts of Soviet Special Service Agencies to Trace a "Turkish Footprint"*	79-85
İSMAYILOV Ş.	*Azərbaycan və Türkiyə münasibətləri: "Bir millət, iki dövlət" modelinin tarixi və strateji analizi*	86-90
RUİNTƏN S.F., MƏMMƏDLİ Ə.O.	*II Qarabağ müharibəsi kontekstində Türkiyə-Ermənistan münasibətlərinin tarixi təkamülü: analitik baxış*	91-100
RUİNTƏN K.F.	*ABŞ-nin Yaxın Şərq siyasətinə İsrail lobbisinin təsir mexanizmləri və manevr imkanları ("Mavi Mərmərə" və "Qüds" qərarları nümunəsində)*	101-113
CƏFƏROV T.	*Amerika Erməni Assambleyası və Amerika Erməni Milli Komitəsinin strukturu, əlaqələri və fəaliyyət istiqamətləri*	114-120
ШЕИН О.В.	*«Беженцы бакинского совета» и репрессивная политика в Астрахани (1918–1919 гг.)*	121-126
BABAZADƏ S.	*Bəşər tarixinin faciəsi - II dünya müharibəsi*	127-130
QULUZADƏ G.İ.	*Heydər Əliyev və tarix elmi*	131-133
CƏFƏRLİ Z.C.	*Azərbaycan – Özbəkistan münasibətlərində mədəni diplomatiya və yumşaq güc*	134-138
ƏLİYEV B.M.	*Türkiyə və Azərbaycan arasında hərbi-strateji əməkdaşlığın siyasi-nəzəri məsələləri*	139-145
RZAXANOV R.	*Azərbaycanda müasir miqrasiya siyasəti və işğaldan azad edilmiş ərazilərə "Böyük qayıdış" proqramının həyata keçirilməsi*	146-152

АГАЛАРОВА Р.	*Ветераны Карабахских войн в общественном пространстве Азербайджана (1991-2025)*	153-159
YUSİFOVA G.E.	*Asiya ölkələri ilə Azərbaycan SSR arasında incəsənət əlaqələri*	160-165
MƏMMƏDLİ B.	*"Azadlığı müdafiə aktı"na 907-ci düzəlişin səbəblərinin tarixşünaslığı*	166-173
HÜSEYNZADƏ Ş.	*Azərbaycanda milli azlıqlar: tarixi inkişaf və müasir reallıqlar*	174-179
QULİYEV S.	*Mərkəzi Asiya ölkələrinin 44 günlük Vətən müharibəsinə reaksiyası*	180-183
MİRİYEV K.	*ABŞ-ın Orta Şərq siyasətində transformasiya: realist və konstruktivist yanaşmaların sintezi kontekstində regional sabitlik modelləri*	184-190
EHAB MOHAMED JABER ISMAEL, DINULESCU ALEXANDRA-ŞTEFANIA	*Energy in Hybrid Warfare (2022–2024): Media and Diplomacy*	191-199
АМИРОВ Ф.	*Водная дипломатия между Турцией, Сирией и Ираком (2000-2025)*	200-207
MƏLİKOVA X.V.	*Suriya və İraq münaqişələrinin təhlili: səbəblər, nəticələr və üçüncü dövlətlərin rolu*	208-214
RƏHİMLİ E.	*Müasir münaqişələrdə etnik və dini amillərin qarşılıqlı əlaqəsi: nəzəri yanaşmalar*	215-220
MEHBALIYEV M.	*Dövlət idarəçiliyində kadr potensialının formalaşmasında kadr texnologiyalarının rolu*	221-225
ƏLİYEVA X.A.	*İnfrastruktur layihələrinin regional inkişafın sürətləndirilməsinə təsiri məsələləri*	226-233
АСКЕРЛИ А.	*Арктика и Азербайджан: стратегические и экономические пересечения в условиях глобальной климатической и ресурсной трансформации*	234-238
SƏDİROVA X.	*Konstitusiya və onun təsnifatı*	239-243
ARXEOLOGİYA, ETNOQRAFİYA, MUZEYŞÜNASLIQ		
PIRQULIYEVA Q.	*Ideological and Semiotic Dimensions of Safavid Coinage (Based on Persian-Language Sources and Azerbaijani Numismatic Materials)*	244-250
HÜSEYNOVA G.	*Azərbaycan Hərb tarixi muzeyi – silah və texnikalarda yaşayan tarix*	251-257
MƏMMƏDOVA N.	*Şəmkir orta əsr şəhərinin qoruq statusunda mühafizə yolları və arxeoparkın təşkili imkanları*	258-262
MƏNBƏŞÜNASLIQ, TARİXŞÜNASLIQ, TARİXİ ÇOĞRAFİYA, DEMOQRAFİYA, METODİKA		
MƏMMƏDOV A.	*Tədqiqat analitikasının aktual məsələlərinə dair*	263-274
ZEYNALOVA S.Ə.	*Rusiya tarixşünaslığında Səfəvi-Osmanlı münasibətlərinin araşdırılmasına dair*	275-280
YUBİLEYLƏR, XATİRƏLƏR		
QULİYEV O.	*Bir əsrin izi ilə: AMEA Mərkəzi Elmi Kitabxana - 100*	281-288
GÖYÇAYSKİ Ş.	*Zəhmətkeş alim, qayğıkeş müəllim, dəyərli ziyalı: Sabir Kərimov – 100*	289-291

UOT 94(479.24)

XAQAN BALAYEV
Bakı Mühəndislik Universitetinin "Ümumi fənlər" kafedrasının dosenti, siyasi elmlər üzrə fəlsəfə doktoru
xabalayev@beu.edu.az

RABİL MEHTİYEV
Bakı Mühəndislik Universitetinin "Ümumi fənlər" kafedrasının dosenti, fəlsəfə üzrə fəlsəfə doktoru
ramehdiyev@beu.edu.az

AZƏRBAYCAN ÜMUMŞƏRQ SİVİLİZASİYASININ MƏRKƏZLƏRİNDƏN BİRİ KİMİ

DOI: https://doi.org/10.36719/2708-065X/113/5-10

Azərbaycan tarixən zəngin mədəni irsi ilə məşhur olmuş, ərazimizdə meydana gəlmiş Şirvanşahlar, Ağqoyunlu, Səfəvi və digər dövlətlərimizdə elmə, mədəniyyətə, incəsənətə, təhsilə xüsusi önəm verilmiş, orta əsr Azərbaycan şəhərləri Şərqin yüksək inkişaf səviyyəsində olan elm və mədəniyyət mərkəzləri kimi qəbul edilmişdi. Eyni zamanda Səfəvilər dövlətində Azərbaycan dili dövlət dili statusu qazanaraq böyük bir coğrafi ərazidə hakim dillərdən biri olmuşdur. XIX yüzillikdə Rusiya və İran imperiyaları tərəfindən bölüşdürüldükdən sonra da Azərbaycan Ümumşərq Sivilizasiyaları tarixində önəmli mövqeyini qoruyub saxlaya bilmişdi. Rusiyada şərqşünaslıq elminin yaradılmasında və inkişaf etdirilməsində azərbaycanlı alimlərin böyük xidmətləri olmuşdu. Rusiya imperiyası dağıldıqdan sonra şərq xalqları tarixində ilk demokratik cümhuriyyətin əsası məhz Azərbaycan xalqı tərəfindən qoyulmuşdu. Azərbaycan Demokratik Respublikası (1918-1920) qərb siyasi idarəçilik qaydalarını uğurla tətbiq edə bilmişdi. Müasir dövrdə Azərbaycan Respublikası ADR-in varisi kimi uğurla fəaliyyət göstərməkdədir.

Açar sözlər: Sivilizasiyalar, Azərbaycan, mədəniyyət, şərq ölkələri, intibah dövrü.

Giriş. Zəngin tarixi keçmişə malik Azərbaycan Respublikası ən qədim dövrlərdən etibarən mədəni-mənəvi dəyərlərin geniş yayıldığı areallardan biri olmuş, ərazimizdə formalaşmış mədəniyyət ocaqları əbədi olaraq ümumdünya mədəni irsinin qızıl fonduna daxil edilmişdir. Burada meydana gəlmiş dövlətlərdə xalqların tərəqqisi naminə iqtisadiyyatın, ticarətin və mədəni qarşılıqlı əlaqələrin inkişafı üçün hərtərəfli şərait yaradılmışdır. Müasir Azərbaycan ərazisində formalaşmış Manna, Atropatena, Albaniya, Səfəvilər və digər dövlətlər şərqin mədəni mərkəzləri kimi qəbul edilmiş, onlarda elmə, incəsənətə, ədəbiyyata, sənətkarlığa, mədəniyyətə xüsusi önəm verilmişdir.

Klassik feodalizm dövründə Azərbaycan bütün şərqdə ən yüksək tərəqqi səviyyəsində olan ölkələrdən biri sayılırdı, burada elm, mədəniyyət, fəlsəfi fikir öz uğurları və nailiyyətləri ilə digər xalqların da inkişafına öz təsirini göstərmişdi. Tarixin bu dönəmində Azərbaycanda meydana gəlmiş Eldənizlər, Ağqoyunlular, Səfəvilər şərqin ən əzəmətli və qüdrətli dövlətlərindən olmaqla yanaşı ümumşərq sivilizasiyasının inkişafına ən dəyərli töhfələrini vermişdilər. Eldənizlər dövlətinin baş memarı Əcəmi Əbubəkr oğlunun XII əsrdə inşa etdirdiyi memarlıq abidələri (onlardan Möminə Xatun Mavzoleyi YUNESKO-nun mədəni irsinə daxil edilmişdir) bu gün də dünya memarlığının nadir inciləri sırasındadır. Bu dövrdə yaşayıb yaratmış Nizami Gəncəvi isə ərəb əfsanələri əsasında yazdığı "Leyli və Məcnun" poeması ilə bütün şərqdə şöhrət qazanmışdı. Sonralıqca onun qələmə aldığı digər poemalarla ("Xosrov və Şirin", "Yeddi gözəl", "İsgəndərnamə", "Sirlər xəzinəsi") birlikdə "Leyli və Məcnun" əsəri də şairin "Xəmsəsi"nə (Şərq, o cümlədən Azərbaycan ədəbiyyatında bir müəllifin beş böyük məsnəvisinin məcmusu) daxil edilmişdi. Xüsusilə təqdirəlayiq haldır ki, bütün şərqdə ilk "Xəmsə"ni məhz Nizami Gəncəvi yaratmışdır. Nizaminin ədəbi irsindən yararlanaraq şərqin digər məşhur şairləri – Əmir Xosrov Dəhləvi, Əbdi bəy Şirazi, Cami, Nəvai və başqaları, öz "Xəmsə"lərini yaratmışdılar. Gürcü ədəbiyyatının nüfuzlu nümayəndələrindən olan Nodar Sisişvili isə Nizami Gəncəvinin təsiri ilə "Yeddi Səyyarə" ("Baqramquriani") poemasını qələmə almışdır. XIII yüzillikdə Nəsi-

rəddin Tusinin rəhbərliyi ilə Marağada tikilmiş rəsədxana dövrünün ən böyük elm mərkəzlərindən biri idi. "Marağa rəsədxanasının kitabxanasında 400 min ədəd əlyazması var idi" (2, 57). Marağa rəsədxanasının elmi irsi şərqin digər məşhur astronomiya mərkəzləri olan Uluqbəy rəsədxanası, Caypur, Pekin və bir çox Qərbi Avropa rəsədxanalarının elmi fəaliyyətinə böyük təsir göstərmişdir. Həmçinin tarixin bu dönəmindən bəhs edərkən Azərbaycan-türk dilinin də inkişafını xüsusi qeyd etməliyik, dilimiz bu dövrdə bütün Yaxın Şərqdə ən işlək və geniş yayılmış dillərdən olmuşdur. Təsadüfi deyil ki, xalqımıza məxsus ümumtürk mədəni irsinin ən parlaq nümunələrindən olan "Kitabi-Dədə-Qorqud" dastanı (XI-XII yüzilliklər) Azərbaycan-türk dilində yazıya alınmış ən qədim yazılı abidəmizdir. Akademik Yaqub Mahmudov "Azərbaycan tarixinin intibah dövrü" adlı kitabında yazır ki, "Kitabi-Dədə-Qorqud" boyları bugünkü nəsillərə həm də yazılı abidə kimi yadigar qalmışdır. Məşhur qəhrəmanlıq dastanımızın hələ o zaman – erkən orta əsrlərdə konkret bir müəllif tərəfindən yazıya alınması Azərbaycan türk dilinin qədim yazılı ədəbiyyat ənənələrinə malik olduğunu sübut edir" (4, 27). Lakin eyni zamanda qeyd etməliyik ki, bu zaman şərqin siyasi-kulturoloji həyatında ərəb və fars dillərinin mövqeyi hələ də güclü idi.

Qaraqoyunlu (1410-1468) və Ağqoyunlu (1468-1501) dövlətlərində Azərbaycan dilinin poeziya dili kimi yayılmasına və inkişafına qayğı göstərilsə də (sarayda şeir məclisləri təşkil edən Qaraqoyunlu hökmdarı Cahanşahın özü də "Həqiqi" təxəllüsü ilə Azərbaycan dilində şeirlər yazmışdır; Ağqoyunlu hökmdarı Sultan Yaqub da sarayda şeir məclisləri təşkil edir, Əlişir Nəvai ilə məktublaşırdı), ənənəyə görə rəsmi dil, dövlət dili fars dili idi. Dövlət fərmanları bu dildə elan olunurdu. Uzun Həsənin verdiyi "Qanunnamə" fars dilində idi. O dövrdə məşhur olan Nəsriyyə və Məqsudiyyə mədrəsələrində tədris ərəb və fars dillərində aparılırdı. Yalnız Səfəvilər dövlətinin meydana gəlməsi ilə vəziyyət köklü şəkildə dəyişilmişdi (1, 43).

Ağqoyunlu dövlətinin yerində yaranmış yeni Azərbaycan dövləti – Səfəvilər impariyası – həm ərazicə, həm də hərbi-siyasi baxımdan Ağqoyunlular imperiyasına nisbətən daha qüdrətli idi. Eyni zamanda, bu imperiya bütün Yaxın və Orta Şərqdə Osmanlı imperiyasından sonra ikinci böyük hərbi-siyasi qüvvə olmaqla yanaşı, Azərbaycan dilini dövlət dili səviyyəsinə qaldırması ilə də əlamətdardır. Səfəvilərin əhatə etdiyi geniş ərazilərdə (İran, İraqi-Ərəb, Əfqanıstanın böyük hissəsi, Cənubi Türkmənistan, Şərqi Gürcüstan) yaşayan xalqlar arasında dilimiz əsas dillərdən (ərəb və fars dilləri ilə yanaşı) biri kimi işlədilmiş və böyük nüfuza malik olmuşdur. Beləliklə, XVI əsrdən etibarən Azərbaycan dili şərq sivilizasiyaları tarixində dövlət dili statusu qazanaraq üstün mövqeyini bərqərar edə bilmişdir. Dövlətin xarakterinə müvafiq olaraq Azərbaycan dili sarayda və orduda hakim dil idi. Mədrəsələrdə ərəb, fars dilləri ilə yanaşı Azərbaycan dilində də təlim-tədris işləri aparılırdı. Azərbaycan dili fars dili ilə yanaşı dövlət dili kimi işlədilir, diplomatik yazışmalarda istifadə olunurdu.

Səfəvilər dövləti Azərbaycan tayfalarının – Zülqədər, Əfşar, Qacar, Şamlı, Rumlu və sair tayfaların müştərək hərbi qüvvələri ilə yaradılmışdı, dövlətin iqtisadi istinadgahını zəngin Azərbaycan vilayətləri təşkil edirdi, mədəniyyət mərkəzi Azərbaycan idi, ölkənin paytaxtı Təbriz şəhəri Səfəvilər dövründə daha da tərəqqi etmiş, Yaxın Şərqin ən qabaqcıl elm və mədəniyyət mərkəzlərindən birinə çevrilmişdi. Əhalisinin etnik və mədəni birliyə malik əksəriyyəti azərbaycanlılardan ibarət idi, onlar dövlətin siyasi həyatında rəhbər mövqe tuturdular. Hərbi komandanlıq, maliyyə işləri, vilayətlərin idarəsi və demək olar ki, bütün saray mənsəbləri Azərbaycan əyanlarının əlində idi. Göründüyü kimi Səfəvilər zamanında xalqımız kifayət qədər böyük etno-mədəni ərazilərin hakim xalqına çevrilmişdi. Yaxın və Orta Şərqin bir sıra müxtəlif inkişaf səviyyəsində olan xalqları məhz Azərbaycanın hakim Qızılbaş sülaləsi tərəfindən idarə olunurdu. Bütün bunlarla yanaşı qeyd etməliyik ki, xalqımız hər zaman olduğu kimi, tarixin bu dönəmində də bütün başqa xalqlara qarşı öz humanist və tolerant mövqeyi ilə seçilirdi. Ümumiyyətlə, orta əsrlərin bütün Azərbaycan feodal dövlətlərində digər millətlərə münasibətdə dözümlülük prinsipi, onların mədəniyyətlərinə, adət-ənənələrinə, dini etiqadlarına hörmət edilməsi dövlət siyasəti səviyyəsində həyata keçirilirdi. Orta əsr salnaməçilərinin əsərlərində də bu barədə məlumatlar əks olunmuşdu. Məsələn, mənbələrin birində Eldənizlər dövlətinin banisi Şəmsəddin Eldənizlə bağlı qeyd olunur ki, "Atabəy Eldəniz xristianları sevir və ölkənin abadlığına qayğı göstərirdi, xeyirxah xasiyyəti və sülhsevərliyi ilə fərqlənirdi. Onun hakimiyyəti illərində çox ölkələrdə əmin-amanlıq hökm sürürdü" (2, 55).

Orta əsr erməni səyyahı Artyomi Araratski isə vurğulayır ki, öz sərtliklərinə baxmayaraq İran orduları (burada Səfəvi hökmdarı I Şah Abbasın əsasən azərbaycanlılardan təşkil edilmiş ordusu nəzərdə tutulur) heç vaxt müqəddəs yerlərə toxunmur, məbədlərə hörmətlə yanaşırlar. Xüsusilə diqqətəlayiq haldır ki, orta əsr qaynaqlarında xalqımızın tolerantlığı barədə, dini dəyərlərə hörmətlə yanaşmasına dair kifayət qədər geniş məlumat vardır. Lakin təəssüflə qeyd etməliyik ki, tarixi dönəmin sonrakı mərhələlərində xalqımız öz siyasi nüfuzunu sonadək qoruyub saxlaya bilmədi. I Şah Abbas hakimiyyət başına gələndən sonra Səfəvilər dövlətinin xarakterində ciddi dəyişikliklər baş verdi. Sarayda, orduda farsdilli ünsürlərin rolu gücləndi, azərbaycanlılar dövlət işlərindən kənarlaşdırılır, bütün sahələrdə hüquqları məhdudlaşdırılırdı. Dövlətin paytaxtı İsfahana köçürüldü, İranın daxili vilayətlərinin iqtisadi və siyasi cəhətdən əhəmiyyəti artdı. İran əyanlarına və ruhanilərinə, irandilli ünsürlərə arxalanan I Şah Abbasın islahatları nəticəsində Səfəvilər dövləti tədricən İran dövlətinə çevrildi və süqutunadək belə mahiyyətdə qaldı. Tarixi proseslərin sonrakı gedişindən məlumdur ki, Səfəvilər dövlətinə son qoyulduqdan sonra (1736-cı il) və Əfşarların qısa hakimiyyəti dövrü (1736-1747-ci illər) bitdikdən sonra Azərbaycan ərazisində müstəqil xanlıqlar yarandı. Xanlıqlar arasında gedən ara müharibələri, həmçinin digər dövlətlərin mütəmadi hərbi müdaxilələri Azərbaycanı siyasi baxımdan zəiflətməklə yanaşı xalqımızın mədəni irsinə də ciddi ziyan vurmuşdur. Bütün bunlar isə nəticə etibarilə XIX yüzillikdə torpaqlarımızın Rusiya və İran arasında bölüşdürülməsinə (1813-cü ilin Gülüstan və 1828-ci ilin Türkmənçay müqavilələri ilə Azərbaycan bu iki imperiya arasında bölüşdürülmüş, Şimali Azərbaycan Rusiya, Cənubi Azərbaycan isə İran tərəfindən işğal edilmişdir) və müstəqilliyimizin böyük tarixi dövr ərzində itirilməsinə səbəb olmuşdur. Beləliklə xalqımızın dövlətçilik ənənələri ləğv edilmiş, ərazilərimiz Rusiya və İran dövlətlərinin əyalətinə və xammal mənbəyinə çevrilmişdi. Eyni zamanda Azərbaycanın şimalı ilə cənubu tam fərqli inkişaf yolları keçməyə məcbur edilmişdi. Bütün bunlarla yanaşı imperiyalar tərəfindən işğal edilib əsarətə məruz qaldıqda belə Azərbaycan yenə öz elmi, maarifi, mədəniyyəti, fəlsəfi görüşləri ilə Şərqdə ən öncül yerlərdən birini tutmuşdur. Təkcə onu demək kifayətdir ki, bütün Rusiya imperiyasında şərqşünaslıq elminin banisi azərbaycanlı alim Mirzə Kazım bəy idi. Rusiyada şərqşünaslıq elminin yaranması və inkişafında onun çox böyük xidmətləri olmuşdu. Xüsusilə təqdirəlayiq haldır ki, o, Peterburq universitetinin şərq fakültəsinin ilk dekanı vəzifəsinə təyin edilmişdi. Mirzə Kazım bəy müsəlman hüququnun Rusiyada ilk tədqiqatçısı, İranda babilər hərəkatının, Dağıstanda Şamil hərəkatının ilk tədqiqatçılarından biri olmuş, Sədinin "Gülüstan" əsərini rus dilinə tərcümə etmişdir. Eyni zamanda qeyd etməliyik ki, Mirzə Kazım bəy təkcə Rusiyanın deyil, Avropa şərqşünaslıq elminin də inkişafına öz töhfələrini vermişdir. O, məşhur tarixi əsər olan "Dərbəndnamə"ni ingilis dilinə tərcümə edərək şərhlərlə birlikdə nəşr etmişdir. Bütün bu xidmətlərinə görə Mirzə Kazım bəy Britaniya Kral Asiya cəmiyyətinin həqiqi üzvü, Peterburq EA-nın müxbir üzvü, Kopenhagen Kral cəmiyyətinin üzvü seçilmişdir. Beləliklə, Rusiya və Avropa şərqşünaslıq elmlərinin inkişafında və yeni çalarlarla daha da zənginləşməsində azərbaycanlı alimin müstəsna xidmətləri olmuşdur.

XIX yüzillikdə Azərbaycan mütəfəkkirlərindən və onların dünya elminə verdikləri töhfələrdən danışarkən Abbasqulu ağa Bakıxanovun adını xüsusi vurğulamalıyıq. Gəncliyində mükəmməl təhsil almış Bakıxanov fars və ərəb dillərini, klassik ədəbiyyatı, ilahiyyatı dərindən öyrənmişdi. Bakıxanov o dövrdə şərqin ən görkəmli filosoflarından biri idi. O, fəlsəfəyə və əxlaqa dair əsərləri ilə şərq fəlsəfi fikrini daha da zənginləşdirmişdi. Onun məşhur əsərləri olan "Riyaz ül-qüds", "Təhzib ül-əxlaq", "Kitabi-nəsayeh", "Eyn ül-mizan" şərq fəlsəfəsinin şah əsərləri sırasında yer almışdır. Ensiklopedik zəkaya malik Bakıxanov elmin bir çox sahələri ilə məşğul olmuşdur. O, rus və Avropa mədəniyyətləri ilə tanış olmuş, onların inkişafına dəyərli töhfəsini vermişdir. Nümunə üçün deyə bilərik ki, Bakıxanov qədim yunan və ərəb astronomlarının əsərlərini oxumuş, N.Kopernik, İ.Nyuton, Q.Qaliley, İ.Kepler və başqa alimlərin əsərlərini tədqiq etmiş, dünyanın heliosentrik sistemi təlimini müdafiə edən "Əsrar ül-Məlәkut" əsərini yazmışdır. Qərb coğrafiya elminin inkişafında da Bakıxanovun rolu olmuşdur. Onun "Kəşf ül-qəraib" ("Qəribə kəşflər") əsəri Amerika qitəsinin avropalılar tərəfindən kəşfinə və coğrafi təsvirinə həsr olunmuşdur. Avropa elmi ilə yanaşı rus elminin inkişafında da Bakıxanovun xüsusi xidmətləri olmuşdur. Onun fars dilinin qanun və qaydalarına dair yazdığı "Qanuni-Qüdsi" əsəri bütün Rusiya imperiyasında fars dilinin ilk qrammatikası dərsliyi idi.

Azərbaycan Çar imperiyasının tərkibində bir əsrlik müddət ərzində qalmışdır. Rusiyanın yeritdiyi ekspansionizm və müstəmləkə siyasətinə baxmayaraq ölkəmiz bu zaman ərzində nisbətən tərəqqiyə nail olmuş, ictimai-siyasi həyatın bir sıra sahələrində ciddi dəyişikliklər baş vermişdi. Azərbaycan öz sosial-mədəni inkişaf səviyyəsinə görə şərqdə xüsusi olaraq seçilirdi. Artıq XIX yüzilliyin ikinci yarısında Azərbaycanda milli teatrın və mətbuatın əsası qoyulmuş, kapitalist münasibətləri bərqərar olmuşdu (bir çox Asiya xalqları isə hələ də feodal qaydaları ilə idarə olunurdu). XX əsrin əvvəllərində isə Üzeyir Hacıbəyli "Leyli və Məcnun" operasını bəstələməsi ilə Azərbaycan bütün şərqdə ilk operanın vətəni oldu.

Rusiya dövlətinin tənəzzülündən sonra (1917-ci ildə V.Lenin başda olmaqla bolşeviklər çar hakimiyyətini devirmiş köhnə rus imperiyasına son qoymuşdular) Azərbaycan yenidən öz dövlətçilik ənənələrini bərpa etməyə nail oldu. 1918-ci ildə Azərbaycan Demokratik Respublikasının yaranması ilə Şərq sivilizasiyaları tarixində ilk dəfə olaraq respublikaçılıq prinsiplərini hakim tutan dövlətin əsası qoyulmuş oldu. Şərqin ilk demokratik respublikası olmaqla bərabər ADR qərb siyasi idarəçilik qaydalarını uğurla tətbiq edə bilmişdi. Burada hakimiyyət parlamentli respublika kimi uğurla fəaliyyət göstərmişdi. 1918-ci ildə yaradılmış Azərbaycan parlamenti Asiya xalqları tarixində ilk çoxpartiyalı sistem əsasında təşkil edilmiş qanunvericilik orqanı idi. ADR sözün həqiqi mənasında humanist prinsipləri, tolerantlığı, dini dözümlülüyü və s. vətəndaş cəmiyyəti və hüquqi dövlət üçün xarakterik olan dəyərləri özünün dəyişməz dövlət siyasəti elan etmişdi. Bu baxımdan insan hüquqlarına hörmət prinsipləri M.Ə.Rəsulzadənin parlamentimizin çağırılması ərəfəsində, 1918-ci il noyabrın 29-da xalqa etdiyi müraciətdə də vurğulanmışdı: "Yeni başlayan həyatın təbii məşəqqətlərini asanlıqla çəkmək üçün yaşayışımızı aqil və insani əsaslar üzərində quraq, bir-birimizi sevək, ehtiram edək. Milli və məzhəb fərqlərinə baxmayaraq, bütün Azərbaycan vətəndaşları bir vətənin övladıdır. Ümumi vətəndə müştərək həyatlarını qurmaq və öz səadətlərinə birlikdə yetişmək üçün onlar bir-birlərinə əl uzatmalı və yardım etməlidirlər" (3). ADR-in demokratik mahiyyətini göstərən faktorlardan biri də ondan ibarətdir ki, Azərbaycan bütün Asiyada qadınlara seçki hüququ verən ilk ölkə olmuşdu. Göründüyü kimi, XX yüzilliyin əvvəllərində Azərbaycan bütün Asiyanın dövlətçilik tarixində mühüm rol oynamışdı. Təsadüfi deyil ki, keçən əsrin əvvəllərində İranda baş vermiş bütün inqilabların (Məşrutə inqilabı, Xiyabani hərəkatı və s.) ideoloji mərkəzi və hərəkətverici qüvvəsi Azərbaycan (Cənubi Azərbaycan) və azərbaycanlılar olmuşdur.

1920-ci ildə Sovet Rusiyası tərəfindən işğal edildikdən sonra ADR-in suverenliyi ləğv edildi. Azərbaycan yenidən öz müstəqil dövlətçiliyini itirdi və 70 il totalitar Sovet İttifaqının hakimiyyətində qaldı. Yalnız 1991-ci ildə Sovet rejiminin dağılmasından sonra xalqımız yenidən müstəqil dövlətçiliyini bərpa etdi. Müasir dövrdə Azərbaycan Respublikası ADR-in varisi kimi uğurla fəaliyyət göstərməkdədir. Həmçinin Sovet İttifaqının süqutu, dünyanın geosiyasi xəritəsində yeni müstəqil dövlətlərin yaranması nəticəsində və yeni geostrateji maraqlar zəminində dünya dövlətləri tərəfindən Böyük İpək Yolunun bərpası məsələsi aktuallaşdırıldı. Təbii ki, geosiyasi mövqeyi və Böyük İpək Yolunun ənənəvi tranzit maqistrallarından biri olduğuna görə Azərbaycana bu layihələrin həyata keçirilməsində mühüm yer ayrılmışdı. Məhz bu kontekstdə bir sıra Asiya dövlətlərinin qatıldığı İpək Yolunun Bərpası üzrə beynəlxalq konfrans Bakıda keçirilmişdi (1998-ci il sentyabr). Bu tədbir zamanı "Avropa-Qafqaz-Asiya" dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında əsas çoxtərəfli saziş və Bakı bəyannaməsi imzalandı. Bu konfransda beynəlxalq təşkilatın yaradılan mənzil-qərərgahı Bakıda yerləşdirildi.

Nəticə. Müasir dövrdə Avropa və Asiya mədəniyyətlərinin qovuşduğu məkan kimi Azərbaycanın rolu və beynəlxalq nüfuzu yenə də artmaqdadır. Çin dövlətinin təşəbbüsü ilə Bakıda şərqin ən qədim fəlsəfi məktəblərindən olan Konfutsi məktəbi açılmışdı. 2000-ci ildə Bakıda Türkiyənin və Mərkəzi Asiya respublikalarının dövlət rəsmilərinin iştirakı ilə ümumtürk sivilizasiyasının möhtəşəm ədəbi-tarixi abidəsi "Kitabi Dədə-Qorqud" dastanının 1300 illik yubileyi təntənə ilə keçirilmişdi. Azərbaycanın YUNESCO ilə də mədəni sahələrdə əlaqələri xeyli genişlənmişdi.

Tarixin bütün dövrlərində olduğu kimi, Azərbaycanda bu gündə ərazimizdə yaşayan bütün xalqların və etnik qrupların adət-ənənələrinə və həyat tərzinə hörmət prinsipləri əsas yer tutmaqdadır. Respublikamızda uğurla həyata keçirilən tolerantlıq və multikulturalizm siyasəti Avropa və Asiyanın bir çox dövlətlərinə örnək ola biləcək nümunələri özündə əks etdirmişdir. Təsadüfi deyil ki, "Azər-

baycan dünyanın humanitar kataklizmlər baş verməyən nadir ölkələrindəndir. Humanitar məsələ bu gün mədəniyyətlərin, sivilizasiyaların, konfessiyaların qarşılıqlı münasibətlərini özündə ehtiva etməkdədir. Ölkəmizdə tarixən bu sahəyə ən pozitiv mövqe sərgiləndiyi üçün bu gün Azərbaycan dünyanın humanitar əməkdaşlıq mərkəzinə çevrilib" (5). Məhz bu kontekstdə Humanitar Əməkdaşlıq Forumunun ilk tədbiri 2010-cu ildə Bakıda baş tutmuşdur. Dini icmalara da dövlətimiz tərəfindən xüsusi qayğı göstərilmişdir. Bakıda Roma katolik və Rus pravoslav icmalarının kilsələri əsaslı şəkildə təmir edilib onların istifadəsinə verilmişdi. Hər iki icma bu gün də dövlətin himayəsindədir. 2014-cü il mayın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fərmanı ilə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılmışdı. Mərkəz ölkə daxilində və xaricdə multikulturalizm və tolerantlıq mövzuları üzrə maarifləndirmə layihələri həyata keçirməkdədir. Elə həmin ildə respublika prezidentinin digər fərmanı ilə multikulturalizm və dini məsələlər üzrə Dövlət müşavirliyi təsis edilmişdi. Beləliklə, Azərbaycanda həyata keçirilən uğurlu dövlət siyasəti nəticəsində dövlətimiz Avropa və Asiya qitələrini kulturoloji və geosiyasi cəhətdən birləşdirən məkan kimi ənənəvi geostrateji mövqeyini bərpa edə bilmişdir. Azərbaycanda müxtəlif xalqların, dinlərin və mədəniyyətlərin nümayəndələrinin azad yaşamaları və fəaliyyətləri üçün lazımi zəruri və sosial şərait yaradılmışdır.

ƏDƏBİYYAT

1. Balayev X. Azərbaycan dilinin dövlət dili kimi təşəkkülü tarixindən. Bakı: Elm, 2002, 200 s.
2. Bünyadov Z. Azərbaycan Atabəyləri dövləti. Bakı: Şərq-Qərb, 2007, 312 s.
3. Mahmudov Y. Azərbaycan Xalq Cümhuriyyəti dövlətçilik tariximizdə // "Dirçəliş-XXI əsr", №7(65), iyul 2003, s.47-56.
4. Mahmudov Y. Azərbaycan tarixi: erkən intibah dövrü (IX əsrin ikinci yarısı – XIII əsrin əvvəli). Bakı: Altay dünyası, 1996, 140 s.
5. Respublika News – Multikulturalizm Azərbaycanın dövlət siyasəti, cəmiyyətin həyat tərzidir, www.respublica-news.az. [20.02.2026].

ХАГАН БАЛАЕВ
Доцент Бакинского Инженерного Университета,
доктор философских наук по политическим наукам

РАБИЛ МЕХТИЕВ
Доцент Бакинского Инженерного Университета,
доктор философских наук по философским наукам

АЗЕРБАЙДЖАН КАК ОДИН ИЗ ЦЕНТРОВ ПАН-ВОСТОЧНОЙ ЦИВИЛИЗАЦИИ

Азербайджан исторически славился своим богатым культурным наследием. В государствах Ширваншахов, Аггёюнлу, Сефевидов и других, возникших на нашей территории, особое значение придавалось науке, культуре, искусству и образованию, а средневековые азербайджанские города считались центрами науки и культуры с высоким уровнем развития на Востоке. В то же время азербайджанский язык получил статус государственного языка в Сефевидском государстве и стал одним из доминирующих языков на обширной территории. Даже после разделения Российской и Иранской империями в XIX веке Азербайджан смог сохранить своё важное место в истории восточных цивилизаций. Азербайджанские учёные внесли огромный вклад в создание и развитие науки востоковедения в России. После распада Российской империи азербайджанский народ заложил основы первой демократической республики в истории восточных народов. Азербайджанская Демократическая Республика (1918-1920) смогла успешно применять правила западного политического управления. В современную эпоху Азербайджанская Республика успешно функционирует как преемница АДР.

Ключевые слова: цивилизации, Азербайджан, культура, страны Востока, Возрождение.

KHAQAN BALAYEV
Associate Professor of Baku Engineering University
Doctor of Philosophy in Political Science

RABIL MEHTIYEV
Associate Professor of Baku Engineering University
Doctor of Philosophy in Philosophy Science

AZERBAIJAN AS ONE OF THE CENTERS OF PAN-EASTERN CIVILIZATION

Azerbaijan has historically been famous for its rich cultural heritage, and in the Shirvanshahs, Aggoyunlu, Safavid and other states that emerged on our territory, special importance was given to science, culture, art, and education, and medieval Azerbaijani cities were considered centers of science and culture with a high level of development in the East. At the same time, the Azerbaijani language gained the status of the state language in the Safavid state and became one of the dominant languages in a large geographical area. Even after being divided by the Russian and Iranian empires in the 19th century, Azerbaijan was able to maintain its important position in the history of Eastern Civilizations. Azerbaijani scientists made great contributions to the creation and development of the science of Oriental studies in Russia. After the collapse of the Russian Empire, the foundation of the first democratic republic in the history of the eastern peoples was laid by the Azerbaijani people. The Azerbaijan Democratic Republic (1918-1920) was able to successfully apply the rules of Western political governance. In modern times, the Republic of Azerbaijan is successfully operating as the successor of the ADR.

Keywords: Civilizations, Azerbaijan, culture, eastern countries, Renaissance.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 20 fevral 2026-cı il.
Məqalənin çapa qəbul olunma tarixi: 21 may 2026-cı il.
Rəyçilər: t.ü.f.d. Elnur Nəciyev, t.e.d. İsmayıl Məmmədov.

UOT 94(479.24); UOT 94(3)

AKİF MƏMMƏDLİ
AMEA-nın Şəki Regional Elmi Mərkəzinin Tarix və epiqrafika şöbəsinin böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru
TarixVeOnunProblemleri@gmail.com

HƏSƏN HƏSƏNOV
TarixVeOnunProblemleri@gmail.com

AZƏRBAYCAN VƏ ŞUMERİN TARİXİ ƏLAQƏLƏRİNƏ DAİR

DOI: https://doi.org/10.36719/2708-065X/113/11-17

Məqalədə Şumer sivilizasiyası ilə Azərbaycan tarixi, dili və mədəniyyəti arasında mümkün əlaqələr kompleks şəkildə araşdırılır. Müəlliflər Şumerlərin bəşər tarixində ilk əkinçilik, yazı, mədəni həyat və dastan ənənələrinin yaradıcıları olduğunu vurğulayaraq, bu sivilizasiyanın yalnız bir xalqa deyil, ümumbəşəri irsə məxsus olduğunu əsaslandırır. Tədqiqatda "Şumer", "Gilqamış", "Subar", "gen/genezis" kimi açar anlayışlar dilçilik, toponimika, mifologiya və tarixi köçlər kontekstində təhlil edilir, Şumer dilinin aqqlütinativ xüsusiyyətlərinin Azərbaycan dili ilə oxşarlıqları göstərilir. Məqalədə Şumerlərin Mesopotamiyaya gəlmə yolları, Qobustan qayaüstü təsvirləri, Kərimli kurqanı materialları və Ay kultu kimi arxeoloji-mifoloji paralellər əsasında Xəzər hövzəsi və Azərbaycan ərazisinin bu sivilizasiya ilə əlaqələri təhlil olunur. Müəlliflər həmçinin Subarların böyük miqrasiyalarda rolu, Şumer mədəniyyətinin Altay və Himalay istiqamətində yayılması ehtimalları üzərində dayanır. Nəticə etibarilə, Şumer irsinin Azərbaycan tarixində izlərinin olduğu fikri irəli sürülür və bu sahədə çoxşaxəli, kollektiv elmi tədqiqatların aparılmasının zəruriliyi vurğulanır.

Açar sözlər: Şumer, Azərbaycan, Gilqamış dastanı, Subarlar, aqqlütinativ dillər, Mesopotamiya, Kərimli kurqanı, Ay kultu.

Giriş. Nə bir olan Allaha şərik ol, nə də allahsızlığa. Yerdə qalan hər nə varsa hamısını bölüşmək olar. İşıldayan həqiqətlərə, doğru tarixdə ilk əkinçilik, ilk mədəniyyət, ilk yazı və ilk dastan yaradan Şumerlər idi. Kiçik görünən, lakin mahiyyət etibarı ilə günümüzə qədər bəşəriyyəti düşündürən Şumerlərə həsr olunmuş bu məqaləyə məşhur alman filosofu Hegelin bir ifadəsi ilə başlamaq istəyirəm: *"Həmişəyaşar və əbədi görünən uca dağların səhər açıb axşam da solan güllərdən üstünlüyü nədədir?"*. Bu məqalə də daxil olmaqla nə vaxtsa sübut edilsə ki, indiyidək ölü hesab edilən Şumerlərin dili Azərbaycan ləhcəsində aydınlaşır "dirilir" - bu fakt bizim digər xalqlardan heç bir üstünlüyümüzə əsas vermir.

Bugünkü günümüzdə az və ya çox dərəcədə güc sahibi olan xalqlar, dövlətlər Şumer sivilizasiyasına sahiblənməyə çalışırlar. Düşündüyüm odur ki, Şumer mədəniyyəti o qədər böyük və möhtəşəmdir ki, dünyada yaşayan hər bir xalqın, hər bir millətin bu sivilizasiyada öz payı və yeri vardır. İndiyənə kimi gəlmiş – keçmiş canlı varlıqların ən böyüyü mavi balina ömrünü başa vurduqdan sonra okeanın dibinə enir, əvvəlcə akulalar getdikcə isə balaca balıq və qurdlar üçün uzun müddət qida mənbəyi olur, axıra qalan sümükləri isə daş – qaşa çevrilir, özünü bütün orqanları ilə birlikdə okean sularına bəxş edir. Şumerlər sivilizasiyası da eyni aqibəti yaşayıb, dövrünü başa vurmuş bu sivilizasiyanın qalıqları üzərində neçə-neçə ölkələrin və xalqların mədəniyyətləri intişar tapmışdır.

Tarixin bir çox mərhələlərində öz sözünü demiş Azərbaycan xalqı olaraq bu istiqamətdə üzərimizə düşən işləri görməli, elmi tədqiqatları daha dərindən aparmalıyıq. Hətta bir sıra dövlətlərdə bu sivilizasiya ilə bağlı böyük elmi mərkəzlər fəaliyyət göstərir. Bu sivilizasiya ilə əlaqədar bizim əsas vəzifəmiz münasib elmi sahələrin koordinasiyasını təşkil edərək, səbrlə düşüncə ilə doğru bildiyimiz səmtdə fəaliyyət göstərməkdir. Dəqiqini Allah bilir!

Şumerlərdən Himalaya, Subarlardan Sibirə tarixin böyük köçü. Elə araşdırmanın əvvəlində bu qədim mədəniyyətin (e.ə.V minillik – e.ə.II minilliyin əvvəllərinə kimi) aşkar olunmasında Avropa, yəhudi, türk araşdırmaçıların – Roulson, Hinks, Oppert, Baur, Kramer [3], Müəzzəz İlmiyə Çığın

[2] zəhmətləri əvəzsizdir. Bu tədqiqatçılar fars, elam, babil mixi yazılarını deşifrə etməklə Şumerlərin öyrənilməsi üçün böyük xidmət göstərmişlər.

Tibbdə "kök" hüceyrələr, dəqiq elmlərdə maddələrin nüvəsi, dilçilikdə və tarixdə isə "açar" sözlər deyilən ifadələr var. Hər hansı tarixi prosesin və hadisənin adı onun mahiyyətinin nüvəsini təşkil edir və açar rolunu oynayır. Məsələn "40 il qul kimi yaşamaqdansa bir gün azad yaşamaq" – göründüyü kimi buradakı Hürr sözü möhtəşəm hürrəmilər hərəkatının mahiyyətini bir azadlıq hərəkatı kimi açaraq tam ortaya qoyur. Almaniyada protestanizm, Çində "Tiryək" müharibələri və s. kimi misallar gətirmək olar ki, bu başlıqlar tarixi proseslərin mənasını xeyli dərəcədə aydınlaşdırır.

Adlarını yazının əvvəlində çəkdiyimiz həm Avropa alimləri, daha sonra Rusiyada fəaliyyət göstərən İ.Dyakonov kimi mütəxəssislər də Şumerlər ifadəsinin deşifrə olunmasına dəfələrlə cəhd göstərsələr də, heç bir uğura nail ola bilmədiklərindən Şumer dilini "ölü" dil hesab edərək bir kənara qoymuşlar [7, s.193-194]. Bu yöndə nisbətən uğurlu addımı qazax alimi Oljas Suleymanov atmışdır. Belə ki, o məşhur "Az-i-ya" əsərində Şumer sözünə verdiyi izah bu formadadır - o bu ifadəni su və yer sözünün birləşməsi kimi izah edir [6, s.245]. Lakin göründüyü və eşidildiyi kimi Şumer ifadəsi ilə suyer sözü həm orfoqrafik, həm də fonetik olaraq bir-birindən çox fərqlənir. Yəni O.Süleymanovun Şumer ifadəsinə bu yanaşması da onu tam açmır, həll etmir və çevrə qapanmır.

Bu sivilizasiyaya aid olan açar sözlərdən mən yalnız 4 ifadə üzərində, xüsusən də Şumerlər termini ətrafında tədqiqat aparmağa çalışacağam.

1. ŞUMER və ya Şumerlər.

2. Gilqamış dastanı.

3. Subarlar.

4. Gen və Genezis

I. İndi isə bu dörd ifadədən ən ümdə hesab edilən Şumer və ya Şumerlərin deşifrəsini verib, sonra isə izah etməyə cəhd edək. Həm forma, həm məna, həm də toponimik baxımdan şərh edək.

a) Şumlanmış yerlər, Şum yerləri, Şumerlər.

b) Şum edən ərlər (erler) Şumərlər və ya Şumerlər.

Tədqiqatçılar daha çox Şumer deyil, Şumerlər ifadəsinə üstünlük verirlər. Bizdə A bəndinə üstünlük verək (Lakin məncə hər iki variantda mahiyyət eynidir). A bəndinə önəm verilsə belə bir forma yaranır. Şum və yer sözünün birləşməsi halında Y hərfi ixtisara düşməlidir. Çünki iki sözün birləşməsi zamanı samitlər üz-üzə gələrsə onda dodaqlanmayan samitin öz yerini dodaqlanan samitə güzəştə getməsi qrammatikanın qanunauyğun halıdır.

Bu gün də Azərbaycan kəndlisi alatorandan durub torpaq sahəsinə, Şum yerlərinə gedir torpaqı becərmək üçün. Buradan isə B variantı üçün də cığır açılır-şumla məşğul olan insanlara Şumərlər və ya Şumerlər deyilə bilərdi. Ancaq mən də o versiya ilə razıyam ki, həmin ərazilər şumyerləridir, Şumerlərdi, yəni toponimdir, coğrafi addır.

Bu sözün izahı zamanı bizim bəxtimiz yalnız onda gətirib ki, Şumerlərlə məşğul olan bütün tədqiqatçılar bir məsələdə bütünlüklə həmrəydilər - tarixdə ilk mədəni həyatın bel sütunu olan əkinçilik Şumerlərlə bağlıdır.

Noy Samuel Kramer isə deyir ki, insanlıq, mədəniyyət tarixi Şumerlərlə başlar [3, s.3]**.**

II. İkinci əsas açar söz hesab edilən Gilqamış terminini İkiçayarası vadisinin təbii-coğrafi panoraması ilə birlikdə təhlil etməyə çalışaq.

Tanrının peyğəmbərləri - Musaya Tövratın kimsənin qalxa bilməyəcəyi Tur dağının zirvəsində, İsaya İncilin insanlığın dirilməyə möhtac olduğu çökmüş bir mühitdə Məhəmmədə Quranın bir dolça suya həsrət qalan qumlu səhralarda vəhy olunması hansı səbəbdən idisə - əkinçilik üçün əlverişli yerlərin bol olduğu halda, bir yanı bataqlıq olan Mesopotamiyada Şumerlərin ilk əkinçiliyə başlaması da eyni səbəbdən idi. Düşünürəm ki, bataqlığa yaxın ərazilərin seçilməsini sanki Tanrı özü diqtə etmiş və bu seçim özündə bir neçə vacib şərti birləşdirirdi.

1. İnsanların mədəni həyata başlamalarının ən vacib şərti əkinçilik idi, çünki əkin sahələri ilboyu əkinə qulluq və onu qorumaq tələb edirdi. Dədə Qorqudda bu yanaşma daha lakonik halda ifadə edilib - əgər torpağı qorumursansa əkməyə, əkmirsənsə də qorumağa dəyməz. Belə olan halda insanlar oturaq həyata keçib kiçik də olsa evlər, daxmalar qurmalı idilər. Bu üçün tələb olunan material gildən olan kərpic və qamış idi, bu materiallar üçü də ən münasib məkan bataqlıqdır.

2. Oturaq həyat üçün tələb olunan ikinci şərt yazının bir sistem halına gətirilməsi və tədrisin mütəmadi təşkili idi, yəni dəftər kağız əvəzinə yaş gil tabletlərdən, qələm əvəzinə isə çəpinə kəsilmiş qamış çubuqlardan istifadə olunması idi.

3. Nəhayət bataqlığa yaxın ərazinin seçilməsinin üçüncü şərti əvvəlki iki material səbəbdən fərqli olaraq metafizik bir anlam daşıyırdı. Yəni uca yaradan insanın nə torpaq, nə də sudan deyil, onların hər ikisinin qarışığı olan palçıqdan yaratdıqına işarət verirdi.

İnsan bu dünyanı tərk edib dəfn olunarkən torpaq üzərinə su tökülməsi ritualı da həmin inancların bir simvolikasıdı.

II. Gilqamış tarixin ilk dastanı hesab olunur, qənaətim belədir ki, gil tabletlər mismar ilə yazılan mətnlərdən fərqlidir. Mixi yazılarında ucu itilənmiş çubuqlardan və ya iti daş parçalarından istifadə olunurdu. Gil yazıda isə bunlar, yəni mixi gil tabletlər üzərində idioqram ifadələri yazarkən, hərf və işarə yerlərini oyarkən oradan çıxan gil palçıqlar elə həmin lövhənin üzərində qala bilərdi. Bu da münasib olmayan bir görüntü yaradardı. Məsələn mətnlərin birində belə deyilir; dərs zamanı şuluqluq edən, oxumaq istəməyən uşaqları Ludingirra müəllim uşaqları əlindəki qamış çubuq ilə cəzalandırırdı. Beləliklə yaş gilin üzərində bir ucu çəpinə kəsilmiş qamışla yazmaq daha asan və əlverişli olmalı idi [2, s.32-33]. Tabletdə işarələrin yeri açıldıqca artıq qalan gil hissəcikləri qamışın içərisinə dolaraq yazı prosesinə əngəl ola bilmirdi. Qamışın içərisinə dolmuş gil qalıqlarını təmizləmək üçün sudan da bir vasitə kimi istifadə oluna bilərdi.

III. Subarlar ifadəsi: su sözü hər kəs üçün aydın olduğundan keçək bar sözünə. Bar bu gün aşağıda olan mənaları özündə birləşdirir; çoxlu, barlı, sıx, toplam və cazibə anlamını verir. Subarların yerləşdiyi məkan Mesopotamiyanın şimalı, Anadoludakı böyük dağ massivlərinin ətəkləridir. Kür-Araz, Dəclə-Fərat və bir çox digər çaylar sularını bu mənbədən toplayır.

E.ə. III minilliyin sonlarına yaxın başlayan xalqların böyük köçü zamanı subarlar da bu tarixi miqrasiyadan kənarda qala bilməzdilər. Ciddi iqlim dəyişikliyi və aramsız müharibələr zəminində baş verən bu köçlər həm qərbə, həm də şərqə istiqamətlənməklə çarpaz xarakter daşıyırdı. Subarlar uzun müddət məskunlaşdığı şəraitə uyğun gələn, bol sulu çaylarla zəngin olan Ural dağlarından Yakutiyanın şərq sərhədlərinə qədər səpələnmişlər. Subar sözünün Sibirə doğru aşınması hər iki coğrafiyada su hövzələrinin bol olması ilə əlaqəli ola bilərdi. Bu tarixi köç vaxtı Şumerlərin bir hissəsi də şərqə tərəf üz tutaraq Altay, Himalay dağ silsilələrinin şimal qərb səmtdə məskunlaşdılar. Şumerlərin elmi bilik və dünya görüşünün genişliyindən xəbər verən bir ələməti xatırlatmaq yerinə düşər. Onlar birinin hündürlüyü təxminən 7000 m, digərinin hündürlüyü 9000 m olan iki dağ massivinə bir-birindən fərqlənən gözəl adlar veriblər, birincisi ayın altı kimi görünən-Altay, ikincisi isə daha uca olduğundan zirvələri buludlardan yuxarı qalxan, sanki aydan him alırmış kimi - Himalay. Şumerlər mədəniyyətin dərin kökləri onu Himalay zirvələrinə qalxmasına imkan vermişdir.

IV. Gen sözü – bu gün hansı formada yazılır, hansı mənada ifadə olunursa, Şumerlərdə də həmin formada yazılıb, həmin məzmunda da işlənib. Yəni hər bir işi aşağıdan, ən xırda detallardan, təmiz, əsaslı, özüldən görülməsi gen, bol və şen olsun mənasında. Hər bir işi möhkəm görmək gennen gərmək, tarım etmək, buradan da daha bir ifadənin aydınlaşmasına da imkan yaranır; bir sıra mənbələrdə Şumerlərin özlərini həm də Gengərlər adlandırdıqları söylənilir.

Eşitdiyim qədəri səmavi kitabların birində belə bir ayə var: *"Heç nəyin tumunu, dengəsini dəyişməyin"* yəqin ki, gen nəzərdə tutulur.

XX əsrin ortalarında DNT-nin (dezo nuklein turşusu - yəni genetik informasiyanın daşıyıcısı) kəşfi tibb, təbiət, eləcə də digər sahələrdə böyük rezonans yaratdı. Qidaların geninin dəyişməsi haqqında, onun verəcəyi ağır fəsadları haqqında demək olar ki, hər kəsin məlumatı var. Lakin ən təhlükəli insan geninin dəyişilməsidi. Təəssüf ki, bütün şeylərin genini də dəyişən insandır. Bəşər yaranandan bu günümüzə qədər insan yaddaşı DNT geni üzərindən nəsildən nəsilə ötürülərək min illikləri əhatə edən bir zəncirvari əlaqə yaradır. Əgər bu DNT geni dəyişilərsə insan manqurtda çevirilib kökü, əcdadı ilə bütün əlaqələri kəsir. Texniki tərəqqinin belə sürətli gedişi qlobal olaraq ictimai-sosial münasibətlərdə öz təsirini göstərir, ədalət, bəşəri dəyərlər dağılır və qırılır. Bu yerdə Xudu Məmmədovun bir fikri yadıma düşür; O deyir ki, məktəbdə şeiri əzbər söyləyəndə ortada yaddan çıxan vaxt qayıdıb şeiri əvvəlindən bir də deməyə başlayırdıq. O sözə qüvvət biz elə bil 5000 min il əvvəlki Şumer mədəniyyətinin dağıldığı yerə qayıdıb yenidən gəlməliyik.

Eynşteynin nəzərincə surət artdıqca cisimlərin çəkisi və zaman mütənasib olaraq itməyə, yox olmağa doğru gedir. Məncə bəşərilikdə də, ədalətdə də eyni proses baş verir.

Mesopotamiya əraziləri XXI əsrin əvvəllərində bir daha şumlandı, bu dəfə müasir silahların, raketlərin vasitəsi ilə. Şumerlərin sivil həyatlarının bir çox sahələri məhv edildi, onlardan qalan qamışla yazılan gil tabletler oldu. Gilqamış dastanında digər qəhrəmanlarla yanaşı mən vacib daha 2 persona da görürəm; Gil və qamış - gil üzərində qamışla yazılan dastan. Düz 4-6 min il əvvələ aid bu gil lövhələr [1, s. 6] Şumerlərin qələminin qırılmasına imkan vermədi.

Əmək bölgüsünün başlanması ticarətin geniş vüsət almasına, ilk ipək yolunun formalaşmasına şərait yaratdı. İnsaların təbii mühitə uyğunlaşması üçün ən əlverişli zolaq ekvatorla şimal qütbündən təxminən bərabər məsafədə yerləşən 4-cü və 5-ci paralellər ətrafı idi. Elə bu paralellər boyunca da Çindən başlayıb Hindistanın şimalı, Tibet, Pakistan, Kasıb dənizinin (yəni Kaspinin) altından keçərək Şumerlər ərazisinə qədər gəlib çatmış və buradan da iki şaxəyə bölünməklə a) Afrikanın şimalı, Cəbəllütariq boğazı, b)Dardanel, Bosfor boğazı vasitəsi ilə Avropa kontinentinin içərilərinə doğru uzanmışdır.

Rənglərin ya ağ, ya da qaradan ibarət olaraq qəbul edilməsi diktatura əlamətidir. Demokratiya isə ağ və qara arasında onlarla rəngin onlarla müxtəlif çalarların bir arada mövcud olmasıdır. Bu hal tolerantlığın və multikulturalizmin qida mənbəyidir.

İstər qərb, istərsə də kommunist tarixşünaslığı Şumer sivilizasiyasına bu qədər maraq və tədqiqatdan sonra onun dilini ölü dil hesab edərək üstündən qara bir rəng çəkmişdir. İndi bizlər də ”ağ” etmədən çalışıb bu dili işıq üzünə çıxardaraq ağartmalı, diriltməliyik.

O ki qaldı Şumerlərin avtoxton deyil, gəlmə olduqları məsələsinə bu tam absurd bir yanaşmadı. Çünki insanların əkinçiliyə bağlanıb bir yerdə qərar tutmasına qədər tayfaların və xalqların istisnasız olaraq hamısı Ç.Aytmatovun təbirincə desək qatarlar şəklində şərqdən-qərbə və qərbdən də şərqə doğru daima hərəkətdə olmuşlar. Şumerlərin Altaylardan ya da Kasıb Dənizinin qərb sahillərindən gəldikləri barədə mütəxəssislər 2 versiya üzərində dayanıblar.

İkinci versiyanı mən daha real hesab edirəm. Bununla bağlı yalnız bir fakt gətirəcəm. Dünyanın ən çox tanınmış, nüfuzlu səyyahlarından olan Norveçli Tur Heyerdal Qobustan qayaüstü piktoqrafik (şəkilli yazılar) yazılarını araşdırmaq üçün Azərbaycana 3 dəfə səyahət etmişdir. T.Heyerdalı bura cəlb edəndə vikinqlərin Azərbaycandan getməsi məsələsi idi. Onun əsaslandığı faktor o idi ki, həm Qobustanda, həm də Skandinaviya yarımadasında qaya üzərində vikinq qayıq təsvirləri və od ətrafında yallı rəqsləri bir-birinin eynisi idi. Qayıq təsvirləri bir sıra qədim mədəniyyətlərdə də Misirdə, Babildə, Aralıq dənizi hövzələrində rast gəlinsə də onlar e.ə VII-VI minillikdən o tərəfə keçmir. Qobustanda isə bu dövr e.ə XII-X min. aid edilib mezolitin (orta daş dövrü) başlanması dövrünə təsadüf edir. T.Heyerdalın fikrincə qayıq insanların ilkin nəqliyyat vasitəsi olub. Qobustan məsələsinə nisbətən geniş yer verməyimiz Şumerlərin Kasıp dənizi sahillərindən getməsi versiyasını əsaslandırmaq cəhdimizlə bağlıdır. Belə ki öz varlıqlarını davam etdirmək üçün mezolit dövr insanları yalnız yığıcılığın və ovçuluğun ümidinə qala bilməzdilər, çünki yığıcılıq 3-4 ay davam edib, mövsümü xarakter daşıyırdı. Ovçuluğa gəldikdə isə ola bilərdi ki, insanlar aylarla ov edə bilməsin. Məhz belə bir çıxılmaz vəziyyətdə onlar Xəzər dənizinə ümid edə bilərdilər. Ona görə ki bu dəniz ən müxtəlif keyfiyyətli balıq növləri ilə zəngin olub, ilin 365 günü boyunca balıqçılıq üçün əlverişli idi.

Odun qorunması üçün mağaraların, ovçuluq üçün dağ keçilərinin və dağ kəllərinin, balıqçılıq üçün isə dənizin lap yaxın məsafədə olması insanların əkinçilikdən əvvəl Qobustan vadisində uzun müddət məskunlaşmasını şərtləndirə bilərdi.

Məncə Tur Heyerdalın Azərbaycana-Qobustana olan sirli səyahətlərinin səbəblərini burada axtarmaq lazımdır, elə Şumerlərin buradan cənuba yəni Mesopotamiyaya doğru istiqamət almalarını da.

Ən amansız, dar məqamlarda əlacsız qalan insanların köməyinə gələn Xəzər dənizini elə bu anlamda mən “Kasıbların dənizi” deyə təqdim etdim. XX əsrin 90-cı illərində bu dəniz əli hər yerdən üzülmüş bir milyon qaçqın və məcburi köçkünü öz qoynuna alaraq ümidsizlərin, kasıbların dənizi olduğunu bir daha sübut etdi.

Tarixin atası hesab edilən Herodot ”Tarix” əsərində Kaspi dənizinin qərb sahillərin də müxtəlif dillər də danışan 20-dən çox tayfa və xalqların adını çəkir və onların birgə yanaşı yaşadıqları haqqında məlumat verir. Bu fakt hələ qədim zamanlarda Azərbaycan ərazisinin necə tolerant və beynəlmiləl

tərkibə malik olduğunu göstərir. Belə bəşəri dəyərlər genofondumuzu təşkil edərək indiki günümüzə qədər də davam edir.

Düşünürəm ki ikinci dəfə Xudu Məmmədovun adını çəkməklə onun ruhunu şad etmiş olarıq. Dünyaca məşhur olan alimimiz deyir ki, *"Vətənin sərhədləri insan sevgisinin hüdudları qədərdir-sevgin nə qədər böyükdürsə Vətənin də bir o qədər genişdir"*. Ehtimal edirəm ki, bizim vətən sevgimizin işıldayan alovları Şumerlər sivilizasiyasının işıldayan közlərini körükləyir, sərhədlərinə dəyir, toxunur və bumeranq kimi Kaspinin Qobustan sahillərinə qayıdır.

Bu ilk sivilizasiyaya soyuq münasibətdən yaranmış buz dağları artıq çat verib, oradan ayrılan "Şumer Aysberqi" cənuba tərəf yön alıb, gec-tez demokratiyanın isti sularına qovuşacaqdır.

A.Eynşteyndən yenə bir fikir gətirib də mövzunu hələlik yekunlaşdırmağa çalışacam. O deyirdi ki – hisslərimiz, təsəvvürlərimiz, fərziyyələrimiz elmdən öndə gəlir, onun üzərində qərarlaşır. Keçmiş tariximizə, gələcəyimizə, uzaq-uzaq məkanlara təsəvvürlərimizlə iz açırıq, sonra isə elm bu cığırları faktlara əsaslanaraq dayanıqlı geniş bir yola çevirir; hisslər axtarıb tapır, elm isə təsdiq edir.

Bu kiçik yazıda mənim istinad etdiyim, arxalandığım-təsəvvürlər, məntiqi yanaşma, çoxlu sayda Şumer və Azərbaycanca sözlərin forma və məzmun eyniliyi hər iki dilin aqqlütinativ dillər sisteminə aid olması idi, bizi o sivilizasiya ilə bağlayan münasibətlərin konturları idi.

Belə bir qənaətdəyəm ki, bu qədər zəngin və qədim mədəniyyətə obyektiv və real münasibətlər getdikcə daha geniş vüsət alacaqdır. Bu baxımdan belə bir ağır yükün qaldırılması üçün çox sayda mütəxəssislər qrupunun cəlb olunmasına ehtiyac var. Yalnız belə bir birliyin köməyi ilə uğura nail olmaq olar. Ona görə deyirlər ki, təklikdə güc Allaha məxsusdur.

Tariximizdə Şumer izləri, yoxsa, Şumerin özü. Bəşər tarixinin başlanğıcının Şumerlərlə bağlı olduğunu bir çox alimlər, o cümlədən məşhur arxeoloq Leonard Vulli, Kramer və başqaları qeyd etmişlər. Şumer tarixini "Tarixin sübh çağı" adlandırmışlar və haqsız da deyillər. Bizim məqsədimiz bununla bağlı hər hansı bir dəyişiklik etmək, deyilənlərə yeniliklər gətirmək deyil. Mərhum arxeoloq Nəsib Muxtarovun Oğuz rayonunun Kərimli kəndində tədqiqata cəlb etdiyi kurqanda (burada 10-adək kurqan aşkar etmiş və onlardan cəmi ikisində qazıntı apara bilmişdi) aşkar edilən arxeoloji materialların verdiyi faktları oxucuların nəzərinə çatdırmaqdır.

Yuxarıda adı qeyd olunan ərazidə arxeoloji qazın aparılan kurqanda hakimiyyət simvolu olan öküz başlı hökmdar əsası, yerə daş döşənməklə kurqanın içərisində, torpaq döşəmədə yaradılan Ay təsviri eramızdan əvvəl ikinci minilliyin birinci yarısına aid olduğu arxeoloq tərəfindən müəyyən edilmişdi. Məlumdur ki, Mesopotamiyada aparılan arxeoloji qazıntılar vaxtı hakimiyyət simvolu olan bir neçə "öküz başlı hökmdar əsası" aşkar edilib. Öküz qədim şərq xalqlarında ayı simvolizə edən simvollardan biri idi [8, s.25]. Təəssüf ki, bu nadir tapın barədə elmi ədəbiyyatlarda gərəkli məlumat yoxdur. Kurqanda qazıntı zamanı aşkar olunan muncuqlar, hələ eradan əvvəl ikinci minilliyin əvvəllərində Mesopotamiya və Hindistanla ticarət əlaqələrinin olduğunu göstərirdi [5, s.27]. Fədlun Əfəndinin tədqiqat əsəri Şumerlərin Ay inancı ilə Azərbaycanda da bununla bağlı paralellər olduğunu deməyə əsas verir [9, s.19]. N.Muxtarovun Kərimli kurqanında üzə çıxardığı faktlar bu bənzərliyin bir təsadüf olmadığını, əksinə, Şumerlərlə çox sığ bağlılığın sübutu idi [4, s.32-33].

Bu gün də nənə və babalarımızın dilində işlədilməkdə olan əppək, tənə, mintənə, su, hava sözlərinə minillər öncəki şumer gil kitabələrində də rastlanır.

Nəticə. Bu məsələyə indi də mifoloji aspektdən yanaşaq: istər şifahi xalq yaradıcılığı və bədii ədəbiyyat, istərsə də tarixi əsərlər daima əsatir və mifologiyadan qaynaqlanmağa çalışıblar.

E.ə.VI-V əsrdə yaşamış yunan - roma dramaturqu Esxilin "Zəncirlənmiş Prometey" əsərinin qısa xronikası belədir – Olimpiya ətrafında yaşayan insanları təhlükələrdən xilas etmək üçün Prometey Elladaya atəş və bilik aparmağa cəhd göstərir, lakin gizli görmək istədiyi bu xeyirxah iş Allahların başçısı Zevsə məlum olur, Prometey Qaf dağlarında zəncirlənir (Qaf - Qafqaz, yəni Baş dağları Alpdan Himalaya qədər olan məsafədə ən hündür dağ silsiləsi olub, istiqamət - oriyentasiya anlamında mayak rolu oynayıb).

Burada məni düşündürən nədir?

Ehtimal etmək olar ki, Prometey Kaspinin qərb sahillərindən bu günə kimi də od - istilik üçün istifadə olunan neft apara bilərdi. Bilik işinə gəldikdə isə qeyd etdiyimiz kimi Şumerlərdən əvvəl Ab-

şeron yarımadasında insanların uzun müddət nisbətən sabit qərarlaşması onlarda yaşamaq uğrunda mübarizədə bir çox elmləri və adət - ənənələri formalaşdırmağa imkan verərdi.

ƏDƏBİYYAT

1. Bilqamıs dastanı (hər şeyi bilən insanın dastanı) / Tərcümə edəni: İ.Ömərоğlu. Bakı: Azərbaycan Ensiklopediyası NPB, 1999, 92 s.
2. Çığ, M.İ. Sumerli Ludingirra: Geçmişe Dönük Bilimkurgu. İstanbul: Kaynak yayınları, 2007, 192 s.
3. Kramer, S.N. Tarix Şumerdən başlayır / Tərcümə edən: P.F.Kazımi. Bakı, 2009, 280 s.
4. Məmmədli, A. Arxeoloqlar. Kurqan və nekropollarda tarixin xəzinələri. Bakı: Adiloğlu, 2010, 112 s.
5. Məmmədli, A. Azərbaycanın Şimal-Qərb bölgəsinin tarixi abidələri. Bakı: Turxan NPB, 2013, 228 s.
6. Suleymanov, O. Az İ Ya / Rusça aslından çeviren Natık Seferoğlu. İstanbul: Türk dünyası araştırmaları vakfı, 1992, 272 s.
7. Церен, Э. Библейские холмы. Москва: Наука, 1986, 486 с.
8. Церен, Э. Лунный Бог. Москва: Наука, 1976, 386 с.
9. Эфенди, Ф, М-С. Этносознания турецких народов и их искусство. Баку: Нурлар, 2002, 160 с. + 102 илл. (50 с.)

АКИФ МАМЕДЛИ
Старший научный сотрудник отдела истории и эпиграфики Шекинского регионального научного центра НАНА, доктор философии по истории.

ГАСАН ГАСАНОВ

ОБ ИСТОРИЧЕСКИХ СВЯЗЯХ МЕЖДУ АЗЕРБАЙДЖАНОМ И ШУМЕРОМ

В статье комплексно исследуются возможные связи между шумерской цивилизацией и историей, языком и культурой Азербайджана. Авторы подчеркивают, что шумеры являлись создателями первых в истории человечества земледелия, письменности, культурной жизни и эпической традиции, обосновывая тем самым мысль о том, что данная цивилизация принадлежит не одному народу, а является общечеловеческим наследием. В исследовании такие ключевые понятия, как «Шумер», «Гильгамеш», «Субары», «ген/генезис», анализируются в контексте лингвистики, топонимики, мифологии и исторических миграций; показываются сходства агглютинативных особенностей шумерского языка с азербайджанским языком. В статье также анализируются пути прихода шумеров в Месопотамию, археолого-мифологические параллели, основанные на наскальных изображениях Гобустана, материалах Кремлинского кургана и культе Луны, а также связи этой цивилизации с бассейном Каспийского моря и территорией Азербайджана. Авторы также останавливаются на роли субаров в великих миграциях и на возможных направлениях распространения шумерской культуры в сторону Алтая и Гималаев. В результате выдвигается идея о наличии следов шумерского наследия в истории Азербайджана и подчеркивается необходимость проведения многопрофильных, коллективных научных исследований в данной области.

Ключевые слова: Шумер, Азербайджан, эпос о Гильгамеше, субары, агглютинативные языки, Месопотамия, Кремлинский курган, культ Луны.

AKIF MAMMADLI
Senior Research Fellow at the Department of History and Epigraphy, Shaki Regional Scientific Center of the Azerbaijan National Academy of Sciences, PhD in history

HASAN HASANOV

ON THE HISTORICAL CONNECTIONS BETWEEN AZERBAIJAN AND SUMER

The article provides a comprehensive examination of the possible connections between the Sumerian civilization and the history, language, and culture of Azerbaijan. The authors emphasize that the Sumerians were the creators of the first agriculture, writing system, cultural life, and epic

tradition in human history, thereby substantiating the view that this civilization does not belong to a single people but constitutes a universal heritage of humanity. The study analyzes key concepts such as “Sumer”, “Gilgamesh”, “Subars” and “gene/genesis” within the contexts of linguistics, toponymy, mythology, and historical migrations, and demonstrates similarities between the agglutinative features of the Sumerian language and those of the Azerbaijani language. The article also examines the routes by which the Sumerians arrived in Mesopotamia and analyzes the connections of this civilization with the Caspian basin and the territory of Azerbaijan on the basis of archaeological and mythological parallels, including the Gobustan rock carvings, materials from the Kerimli kurgan, and the cult of the Moon. The authors further discuss the role of the Subars in the great migrations and the possible directions of the spread of Sumerian culture toward the Altai and the Himalayas. As a result, the idea is put forward that traces of the Sumerian heritage exist in the history of Azerbaijan, and the necessity of conducting multidisciplinary and collective scientific research in this field is emphasized.

Keywords: Sumer, Azerbaijan, Epic of Gilgamesh, Subars, agglutinative languages, Mesopotamia, Kerimli kurgan, Moon cult.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 28 yanvar 2026-cı il.
Məqalənin çapa qəbul olunma tarixi: 21 may 2026-cı il.
Rəyçilər: f.ü.f.d. Faiq Ələkbərli, t.e.d. İsmayıl Məmmədov.

UOT 94

XƏZƏR NƏSİBLİ
AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun
"Azərbaycanın VII-XIV əsrlər tarixi"şöbəsinin doktorantı
nasibkhazar@gmail.com

HÜLAKU-QƏRB DİPLOMATİYASINDA XRİSTİAN VASİTƏÇİLİYİ: HÜLAKÜ XAN VƏ ABAQA XANIN PAPALARA ÜNVANLANMIŞ MƏKTUBLARININ TƏHLİLİ

DOI: https://doi.org/10.36719/2708-065X/113/18-25

XIII əsrin ikinci yarısında Elxani dövləti ilə Qərb arasında formalaşan diplomatik münasibətlər orta əsr beynəlxalq əlaqələrinin ən mürəkkəb səhifələrindən birini təşkil edir. Bu tədqiqat Elxani hökmdarı Hülakü xanın oğlu Abaqa xan (1265-1282) tərəfindən Roma papalarına göndərilən rəsmi məktubların təhlili və bu diplomatik sənədlərin hazırlanması prosesində xristian elementlərinin oynadığı rolun araşdırılmasına həsr olunmuşdur.

1260-cı ildə Əyn Cəllut döyüşündə monqol ordusunun məğlubiyyəti Elxani hökmdarlarını Məmlüklərə qarşı mübarizədə Qərb xristian dövlətlərini özünə müttəfiq etmək üçün intensiv diplomatik fəaliyyətə sövq etdi. 1262-ci ildə Hülakü xan Papa IV Urbana məktub göndərərək "kafirlərin əlində olan müqəddəs Qüds şəhərini" xristianlığa qaytarmaq niyyətini bəyan etdi. Lakin bu məktubda ənənəvi monqol ideologiyası öz əksini tapırdı: "Əbədi Göyün qüvvəsi ilə" ifadəsi Çingiz xan və onun varislərinə verilmiş ilahi mandatı vurğulayır və dolayı yolla Qərb dövlətlərindən monqol supremasiyasını tanımaq tələbini irəli sürürdü.

Abaqa xan atasının diplomatik xəttini davam etdirərək, lakin daha çevik və diplomatik yanaşma nümayiş etdirdi. Onun hakimiyyəti dövründə Elxanilər dövləti şimaldan Qızıl Orda, şərqdən Çağatay xanlığı və cənub-qərbdən Məmlük sultanlığı ilə eyni vaxtda mübarizə aparmalı idi.

Açar sözlər: Abaqa xan, Hülakülər, Elxanilər, Qızıl Orda, Qərb diplomatiyası.

Giriş. XIII əsrin ikinci yarısında Elxani dövləti ilə Qərb arasında formalaşan diplomatik münasibətlər orta əsr beynəlxalq əlaqələrinin ən mürəkkəb səhifələrindən birini təşkil edir. Bu dövrün ən önəmli şəxsiyyətlərindən biri də Elxanilərin ikinci hökmdarı, Hülakü xanın oğlu Abaqa xan olmuşdur. Abaqa Xan 27 fevral 1234-cü ildə Monqolustanda anadan olmuşdur və Elxanilər dövlətinin qurucusu Hülakü Xan ilə Yesunçin Xatunun (Yesünjin Khatun) böyük oğludur. Abaqa gənc yaşlarından hərbi yürüşlərdə iştirak etmiş, Hülakü xanın döyüş düşərgələrində olmuşdur. Abaqa Monqol dilində "əmi" deməkdir. 1265-ci ildə Hülakü xanın vəfatından sonra o, şəhzadələr və noyonlar tərəfindən yekdilliklə Hülakü dövlətinin hökmdarı təyin edildi və 1282-ci ilə qədər Elxanilərin dövlətinin hökmdarı oldu. Abaqa xanın hakimiyyət dövrü Monqol İmperiyasının daxilində çəkişmələr, Məmlüklərə, Qızıl Ordaya və Çağataylara qarşı mübarizə ilə keçmiş, lakin eyni zamanda dövlət idarəetməsi, dövlət strukturunun möhkəmləndirilməsi, habelə mədəniyyət sahəsində böyük inkişaf ilə tarixin yaddaşına həkk olunmuşdur. Abaqa xanın ilk addımlarından biri Elxanilərin paytaxtının Təbrizə köçürülməsi olmuşdur. Hülakü xanın siyasətini davam etdirən Abaqa xan Məmlüklərə qarşı ittifaq qurmaq məqsədilə Avropa hökmdarları və Papa ilə danışıqlar aparmışdır. O, Azərbaycanın şimal əraziləri uğrunda Qızıl Orda və Çağatay xanlığı ilə müharibələr aparmışdır. Abaqa xan Qızıl Orda ilə sülh əldə etmiş, lakin Çağatay xanlığından gələn davamlı təhdidlər səbəbilə Məmlüklərə qarşı mübarizədə çətinlik çəkmişdi. Onun hakimiyyəti dövrü monqol və Avropa qüvvələrini ortaq düşmənlərə qarşı birləşdirməyə yönəlmiş cəhdlərlə xarakterizə olunur.

Bərkə xan Hülakü xanın ölümündən sonra Elxanilərin daxilində gedən sabitsizlikdən və Abaqa xanın taxta çıxmasından öz xeyrinə istifadə etmək niyyətində idi. O, Qızıl Orda Bəylərbəyi Noğayın başçılığı altında cənuba doğru ordu göndərdi. Monqol ordusu Yuşmutun (Abaqanın qardaşı) başçılığı ilə 1265-ci ilin iyulun 19-unda böyük bir ordunun başında Elxanilər ərazisinə soxulmuş olan Noğaya qarşı şimala irəlilədi. Qafqazın cənub yamaclarından Şirvana axan Ağsu çayı üzərində gedən şiddətli

döyüşdə Noğay yaralandı və qaçmağa məcbur edildi [5, s.356]. Daha sonra Abaqa xan özü 300.000 atlınıdan ibarət qoşuna malik olan Bərkə Xanla müharibə üçün qardaşının ardınca Kür çayını keçdi, lakin çayın digər sahilinə geri qayıtdı və iki ordu təxminən iki həftə ərzində suyun əks tərəfində üz-üzə dayandı, qarşılıqlı olaraq ox yağışı ilə atışdılar. Kür çayını keçmək üçün yol axtaran Bərkə yuxarı axın istiqamətində Tiflisə doğru hərəkət etdi. Lakin, yolda olarkən vəfat etdi və cəsədi dəfn edilmək üçün Saraya (Qızıl Orda paytaxtına) aparıldı. Ruhdan düşmüş Qızıl Orda ordusu Azərbaycanı tərk etdi. Abaqa xan, şimal sərhədi boyunca böyük bir "sibə" və ya hasar tikdirməyi əmr etdi. Abaqa xan şimal sərhədlərini müdafiə etmək üçün qardaşı Məngu Teymuru həmin əraziyə təyin etdi. Abaqa xanın özü isə Xorasana yola düşdü və 1266-1267-ci il qışını Mazandaran və Gürgandakı müxtəlif düşərgələrdə keçirdi. beləliklə Qızıl Orda ilə Elxanilərin münaqişəsinin bu mərhələsi sona çatdı.

Abaqa Xan və 1260–1277-ci illərdə Məmlük Sultanı olmuş Sultan Baybars arasındakı münaqişə 13-cü əsrin ikinci yarısında yaxın şərqin taleyini həll edən münaqişə kimi görülür. Bu müharibənin əsası 1260-cı ildə, o dövrdə məmlük ordusunun komandiri olan Baybarsın iştirak etdiyi Əyn Cəllut döyüşündə Monqol qoşunlarının qəti şəkildə məğlub edilməsi ilə qoyuldu. Sultan Baybars Qıpçaq türklərindən olub, hərbi yürüşlərdə əldə etdiyi nailiyyətlər sayəsində Məmlük sultanı olmağa layiq görülmüşdür. O, təkcə hərbi qələbələrlə deyil, həm də İslamın əsas müdafiəçisi kimi öz nüfuzunu daha da artırmışdır. Baybarsın xarici siyasəti Monqollara qarşı İslam dünyasının müdafiəsi, Xaçlı dövlətlərini zərərsizləşdirmək və Yaxın Şərqdə xristianlığın tərsirini azaltmağa yönəltmişdi. Əyn Cəllut qələbəsi Məmlüklər üçün Suriya və Misir üzərindəki suverenliklərinin təməlini qoydu. Lakin Elxanilər üçün bu qəbul edilməz idi. Elxanilər Suriyaya iddialar irəli sürür və Məmlük sultanlarının bu ərazilərə legitimliyini qəti şəkildə rədd edirdilər. Baybarsın qıpçaq mənşəli olması, ordusunun çox hissəsinin qıpçaq tayfasından ibarət olması, Monqolların hərbi strategiyasında istifadə etdiyi “Vur-qaç”və saxta geri çəkilmə taktikasına bələd olması Monqollar üçün ciddi manelər yaratmışdı. Baybars üçün Suriya Məmlük sultanlığının geosiyasi vəziyyəti üçün çox mühüm idi. Çünki Elxanilər üçün Suriyanın işğalından sonra növbəti hədəf Məmlük sultanlığı olacaqdı. Abaqa öz hakimiyyəti dövründə Suriyanı fəth etməyi əsas hərbi məqsəd kimi müəyyənləşdirsə də, onun strategiyası daxili Monqol çəkişmələri, xüsusən də şimaldan Qızıl Orda ilə davamlı qarşıdurma ciddi şəkildə mane oldu. Bu şəraitdə Abaqa Avropa dövlətlərinə ardıcıl şəkildə elçilər və məktublar göndərməyə başladı, Məmlüklərə qarşı xristianları özlərinə müttəfiq etmək istəyirdi.

1260-cı ildə Əyn Cəllut döyüşündə baş verən hadisələr monqol-məmlük münasibətlərinin sonrakı inkişafına həlledici təsir göstərmişdir. Bu döyüşdə sayca az olan monqol ordusunun məğlubiyyəti məmlük qoşunlarının hərbi ruhunu əhəmiyyətli dərəcədə yüksəltsə də, əks tərəfdən Elxanilərin və hərbi-siyasi aparatının mənəviyyatına ağır zərbə vurmuşdur. Mənbələrdən əldə edilən məlumatlara görə, Hülakü məhz bu strateji məğlubiyyətin acı nəticələrini dərk etdikdən sonra Qərb dövlətləri, xüsusilə də franklar ilə hərbi-siyasi ittifaq yaratmaq istiqamətində aktiv diplomatik fəaliyyətə başlamışdır.

1262-ci il aprel ayının 10-da Marağa şəhərindən göndərdiyi rəsmi məktubunda Hülakü Papa IV Urban və Qərb ölkələrinin hökmdarlarına müraciət edərək "hələ də kafirlərin əlində olan müqəddəs Qüds şəhərini" xristianlığın ixtiyarına qaytarılması niyyətini bəyan etmişdir. Bu təklif monqol-xristian ittifaqının əsasını təşkil edən mərkəzi ideya idi.

Abaqa xanın dövründə artıq Qərb dövlətlərinə qarşı siyasət dəyişmişdi. Belə ki, qərb dövlətlərini birtərəfli zor gücü ilə öz itaətləri altına alma siyasətdən imtina etmişdilər. Bunun əvəzinə, Elxanilər Xristianlara danışıqlara bərabərtərəfli şəkildə yanaşmağa başlamışdılar. Abaqa xanın xristianlara qarşı münasibətinin formalaşmasında onun həyat yoldaşı Mariya Palaiologinanın da xüsusi rolu olmuşdur. Bizans imperatoru VIII Mixail Palaioloq (1259-1282), qızı Mariya Palaiologinanı Hülakü xan ilə evləndirmək üçün göndərmişdi. Bizans imperatoru Hülakü xanla qohumluq siyasəti vasitəsi ilə Məmlüklərə qarşı mübarizə, Qüds şəhərinin Məmlüklərdən geri almaq, habelə Anadolu və Suriya ərazilərində xristian mövqeni möhkəmləndirmək ilə şərq sərhədlərinin təhlükəsizliyini hədəfləyirdi. Lakin, Hülakü xan Mariya Palaiologina Elxani dövlətinə çatmamışdan əvvəl vəfat etdi və buna görə də Mariya Abaqa xan ilə evləndirildi. Bu evlilik nəticəsində Elxani ərazisində Bizans tacirləri rahat hərəkət edə bilir və Bizan misionerləri Azərbaycan və Şimali İran ərazisində öz fəailiyyətlərini davam etdirirdilər. Hülakü xanın baş həyat yoldaşı olan Doqquz xatun Nestorian xristianları arasında dini lider kimi görülürdü,

Mariya isə tezliklə Doqquz Xatun kimi monqollar arasında dini fiqur kimi formalaşdı. Doquz xatun ölümündən sonra monqollar arasında dini rəğbət Mariyaya yönəldi və ona "Despina Xatun" adı verildi.

Abaqa xanın məktublarının birində papaya təklif etmişdi ki, Qərb orduları onun və Bizans imperatoru VIII Mixail Palaioloqusun orduları ilə birləşərək Məmlüklərə qarşı birləşib hər iki tərəfdən hücum etsinlər. Baybars Abaqa xanın Məmlüklərə qarşı qərb dövlətlərinə müttəfiqlik təkliflərindən xəbardar idi və onun bu strategiyasının qarşısını almaq üçün fəaliyyətə keçdi. O, 1265–1271-ci illər arasında Acre ətrafındakı Xaçlı qalalarını (Haifa, Arsuf, Səfəd və 1271-ci ildə Krak des Chevaliers) sistemli şəkildə fəth etdi. Xaçlı dövlətlərinin məğlub edilməsi və arxa-arxaya məhv edilməsi Abaqa xanın Levantda mümkün görünən dayaq məntəqələri qurmaq planını tamamilə alt-üst etdi.

Baybarsının əsas məksədlərindən biri də Hülakülərin Anadoludakı xristian dayağı olan Rum Səlcuq Sultanlığına zərbə endirmək idi. 1276-cı ildə Baybars Elxanilərin anadoludakı xristian vassalarını ləğv etmək üçün böyük bir yürüşə başladı. 15 aprel 1277-ci ildə Baybars Məmlük süvariləri ilə Əlbistan (Abulustayn) yaxınlığında Monqol qüvvələri ilə qarşılaşdı. Məmlük ordusu təxminən 14,000 nəfərdən ibarət idi. Monqol qüvvələri nisbətən kiçik idi, lakin Monqollar xristianlardan yəni gürcülər və Rum Səlcuqlarından ibarət süvari dəstələrlə öz ordusunu gücləndirilmişdi və monqol qoşunlarının ümumi sayını təxminən 14,000 əsgərdən ibarət idi. Döyüş Məmlüklərin qəti qələbəsi ilə nəticələndi. Monqol komandirləri Tödə Noyan, Tuqu Noyan və Uruqtu Noyan həlak oldular. Əlbistan qələbəsi Anadoluda Monqol hökmranlığını ciddi şəkildə zərbə endirdi. Abaqa Xan döyüşdə iştirak etməmişdi, döyüş bölgəsinə gəldikdə artıq Baybars Suriyaya geri çəkilmişdi. Məğlubiyyətə görə Abaqa, yerli hakimi Mu-in-ad-Din Pərvanəni edam etdirdi. Pərvanə titulu təlimatçı və ya hakimiyyət nümayəndəçisi mənası daşıyırdı, o Səlcuq Sultanlığı və Elxanilər dövlətləri arasında böyük nufuza malik olan vasitəçi idi. Bu addım Elxanilər dövlətinin daxilində Abaqa xana tabe olan vassallar arasında narazılığa səbəb olduvə qismən Abaqa xana qarşı inamı itirdi. Abaqa xan Anadalonun idarəsini kiçik qardaşı Qongqortaya verdi və digər qardaşı Möngke-Temürü isə (1256–1282) böyük bir ordu ilə Suriyaya göndərdi [2, s.234].

Dörd illik nisbi sülhdən sonar 1281-ci il 29 oktyabrda Abaqa Xan qardaşı Möngke təxmini 40,000-50,000 nəfərlik böyük bir ordunun başında Teymuru Məmlüklərə qarşı döyüşə göndərdi. Bu orduda ermənilər (II Lev rəhbərliyində) və gürcülər (II Demetrius rəhbərliyində) iştirak edirdi. Məmlüklər uzun müddətdən sonar ilk dəfə bu qədər güclü donanmış Monqol qoşunları ilə üz-üzə gəldi. 29 oktyabr 1281-ci ildə Suriyanın qərbində, Homs şəhərinin cənubunda baş verən döyüşdə, Birləşmiş monqol, erməni və gürcü qüvvələri Məmlük ordusunun hücum mövqeyinin sol cinah döyüş ordusunu məğlub etəsə də, Sultan Qalavunun şəxsən rəhbərlik etdiyi Məmlük ordusu Monqolların mərkəzi və sağ hisəsini demək olar ki, tamamilə dağıtdı. Möngke Teymur ağır yaralanaraq geriya qalan monqol ordusu ilə birlikdə döyüş mövqeyindən qaçdı. Ordu daxilində nizamsızlıq və komunikasiyanın zəif olması məğlubiyyətin əsas səbəblərindən biri idi. Döyüş Məmlük ordusun mütləq qələbəsi ilə başa çatdı. Nicholas Mortonun fikrincə, İkinci Homs Döyüşü Monqol işğallarının qərb sərhəddində "vacib bir dönüş nöqtəsi" oldu.

1266-cı ilin sonlarında və ya 1267-ci ilin əvvəlində Abaqa xan qərblə münasibətləri gücləndirmək üçün qərbə məktublar və elçilər göndərdi. Bu elçilər Papa IV Klementə (1265–1268) və Araqon kralı I Ceymsə (1213–1276) çatdı [6, s.92]. 1267-ci ildə Papa IV Klement və Araqon kralı I Ceyms səfir Ceyms Alariç (Jacme Alarich) vasitəsilə Abaqaya cavab məktubu göndərdi. Bu məktub papalığın monqollara qarşı həm dini, həm də diplomatik münasibətini əks etdirirdi. Məktubda Klement Abaqanın xristianlığa olan münasibətindən məmnunluğunu vurğulayır, Fransa ilə Navarranın kralları, bir sıra yüksək nüfuza malik xristian zadəgan və əsgərlərinin səkkizinci xaç yürüşünə çıxdıqlarını haqqında məlumat vermişdir. Məktubun əsas məksədlərindən biri Abaqa xan ilə Suriya və Misir ərazisində Məmlüklərə qarşı mübarizədə müttəfiqlik qurmaq idi.

Abaqa xan 1267-ci ildə Papaya göndərdiyi növbəti məktubunda atası Hülakünün irəli sürdüyü bu tarixi təklifi yenidən gündəmə gətirmişdir. Lakin bu dəfə məktuba latın dilində tərcümə əlavə edilməmişdi və Liondakı kilsə məmurlarından heç biri monqol dilini başa düşə bilmədiyi üçün məktubun məzmunu ilə tanış ola bilməmişdir. Bu diplomatik səhvin aradan qaldırılması məqsədilə Abaqa 1268-ci ildə Papa IV Klementə həm monqol, həm də latın dillərində hazırlanmış yeni məktub göndərərək öz təkliflərini bir daha təsdiqləmişdir. Bu sonuncu məktubda Abaqa xan maraqlı bir izahat vermişdir:

əvvəlki il (1267-ci ildə) niyə yalnız monqol dilində məktub göndərdiyini aydınlaşdıraraq bildirmişdir ki, həmin dövrdə onun latın dilini bilən tərcüməçisi Təbriz şəhərində olmadığı üçün sənədi latın dilinə tərcümə etmək mümkün olmamışdır (quia illo tempore scriba noster Latinus presens non affuerat). Bu faktdan görünür ki, Elxanilər sarayında latın dilini bilən mütəxəssislərin sayı məhdud idi və onların iştirakı diplomatik əlaqələrin uğurlu həyata keçirilməsi üçün vacib əhəmiyyət kəsb edirdi. Bu məktubdan görmək olur ki, Abaqanın əsas marağı, əvvəlki kimi, müsəlmanlara qarşı birgə yürüş idi. Abaqa xan məktubda xristianlara və kilsələrə dair münasibətini açıqca bildirmiş, xristianların bölgə üçün əhəmiyyətindən bəhs edib oları müdafiə etdiyini vurğulamışdı.

1270-ci ilin yayında IX Lüdovik, Roma Papası IV Klementin 1267-ci ildə Abaqa xana yazdığı Səlib yürüşünə başladı. Lakin gözlənilənin əksinə qoşunlarını Misir və Suriya istiqamətinə deyil, Tunis istiqamətində hücum etdi. Abaqa xan anti-Məmlük ittifaqında nə qədər maraqlı olsa da, həmin dövrdə o, şəxsən Xorasanda Baraqla şiddətli müharibə ilə məşğul idi. Qərb tərəfdə isə İngiltərə şahzadəsi Edvard Sultan Baybarsla vuruşmaq və Suriyanı fəth etmək üçün yol axtarırdı. IX Lüdovik ilə birlikdə Tunisdə olan Edvard 1271-ci ildə Akkaya (acre) çatdı. Müqəddəs torpaqlara çatdıqdan sonra Edvard 1271-ci ildə Abaqa xana elçi göndərdi. Ancaq Abaqa həmin dövrdə Qızıl Orda ilə apardığı intensiv hərbi münaqişəyə bütün diqqətini yönəltdiyindən Edvardın hərbi yardım tələbinə müsbət cavab verə bilmədi və ona qoşun dəstəyi göndərməkdən imtina etdi.

"Məsələni müzakirə etdikdən sonra, biz sizə yardım üçün böyük bir qoşunu Cemakarı [Samaxar] komandanlığı altında göndərməyə qərar verdik, buna görə də, siz, Cemakarla bağlı digər planları öz aranızda müzakirə edərkən düşmənə qarşı vuruşacağınız dəqiq ay və gün barədə açıq-aydın razılaşma əldə etdiyinizə əmin olun".

Samaxar və Pərvanənin rəhbərlik etdiyi bir monqol qoşunu Suriyanın şimalına hücum etdi, monqollar Hərim (Harim) və Əfəmiyyə (Apamea) ətrafına qədər cənuba doğru irəlilədilər. Artıq Suriyada olan Bəybars qüvvələrini tez bir zamanda topladı, Misirdən əlavə qüvvələr çağırdı və şimala doğru hərəkətə başladı. Ehtimal olunur ki, Baybars həm monqolların, həm də xristianların hücum planlaşdırdığı barədə əvvəlcədən məlumat almışdı. Yaxınlaşan Məmlük ordusundan çaşqınlığa düşən monqol qüvvələri geri çəkildi və beləliklə, bu dövrdə monqol-frank əməkdaşlığı reallığa əsaslanmadığı faktiki olarak öz təsdiqini tapdı.

1274-cü ildə Abaqa xan yenidən diplomatik fəaliyyətə qayıtdı və Papa X Qriqoriyə, eləcə də İngiltərə kralı I Edvarda səfirlik nümayəndə heyəti göndərdi. Qeyd etmək lazımdır ki, bu altı il ərzində papalar və İlxan arasında aparılan yazışmalara dair heç bir arxiv materialı günümüzə çatmamışdır. Eyni zamanda, bu sükut dövrü Araqon, Fransa və İngiltərə ilə olan diplomatik əlaqələrə aid deyildi - bu dövlətlərlə münasibətlər davamlı şəkildə inkşaf etdirilirdi.

1274-cü ildə Abaqa xan Papa X Qriqoriyə rəsmi məktub ünvanlayır. Bu tarixi əhəmiyyətli məktub Lion Şurasına göndərilmişdi. 1274-cü ilin mayında keçirilən Lion Şurasının əsas məksədi müqəddəs torpaqların taleyi, Latın və Yunan Kilsələrinin islahatları və gələcək taleyi ilə bağlı idi. Abaqa xan on altı nəfərdən ibarət nümayəndə heyəti göndərmişdi. Nümayəndə heyətinin tərkibi çoxmillətli xarakter daşıyırd belə ki, monqollar, şərqi xristianlar, David adlı din xadimi və Abaqanın tərcüməçisi frank mənşəli notarius Riçard bu heyətə daxil idilər. Abaqanın Papa qarşısında irəli sürdüyü təkliflər və diplomatik yanaşma tamamilə atası Hülakünün həyata keçirdiyi xarici siyasət xəttinin davamı və təkamülü idi. Heyəti bir neçə il Elxani saray məhkəməsində işləmiş, daha sonra Fələstinə qayıdan, Yerusəlim Patriarxı Tomas Aqni və Yerusəlim Kralının III Huqonun elçisi olaraq Şuraya gəlmiş Eşbili David müşayiət edirdi. Monqol nümayəndə heyəti Şuraya İyul ayının əvvəlində təqdim edildi. Onların Abaqadan gətirdikləri orijinal məktub dövrümüzə qədər gəlib çatmamışdır, lakin Şura iştirakçılarını maarifləndirmək üçün Rixard tərəfindən yazılmış bir memorandum mövcuddur.

1274-cü ildə Abaqanın göndərdiyi məktub mahiyyət etibarilə atası Hülakünün 1262-ci ildə Papa IV Urbana ünvanladığı məktubun əsas məzmununu təkrarlayır və dərinləşdirir. Sənədlərin müqayisəli təhlili göstərir ki, sənədləşdirmə və üslub baxımından bu iki məktub arasında ciddi oxşarlıqlar və struktural paralelliklər mövcuddur. Tədqiqatçıların apardığı filoloji təhlil nəticəsində məlum olmuşdur ki, hər iki məktub monqol dilində yazılmış orijinal mətnin əsasında birbaşa latın dilinə tərcümə edilmişdir. Əhəmiyyətli məqamdır ki, bu zaman şərqi xristianların diplomatik yazışmalarda geniş istifadə etdikləri

fars dili vasitəçi dil kimi işlədilməmiş, tərcümə prosesində birbaşa monqol-latın dil cütlüyü tətbiq olunmuşdur.

Əsas fərq ondaydı ki, bu məktubda Çingiz xana və onun varislərinə dünya üzərində hökmranlıq etmək üçün ilahi hüquq verilməsi barədə heç bir ifadə yox idi. Buna uyğun olaraq, məktubun heç bir yerində Avropanın monqolların üstünlüyünü tanıması tələbi irəli sürülmürdü [1, s.153]. Üslubun yumşaldılması, görünür, Avropanın ittifaqın belə şərtlərini - yəni monqolların dünya üzərində aliliyini qəbul etməsini - heç vaxt qəbul etməyəcəyi reallığından irəli gəlirdi. Məktubda həmçinin Hülakü xanın xristianlara qarşı necə xeyirxah münasibət bəsləməyə başladığı təfərrüatlı şəkildə izah edilirdi. Sənəddə Hülakünün həyat yoldaşı Doquz xatun Keşiş Yəhyanın (Prester John) qızı kimi təqdim olunurdu. Lakin məktub elə bir üslubda tərtib edilmişdi ki, Hülakü xanın özü Keşiş Yəhyaya, hətta bəzi yerlərdə peyğəmbər Musaya bənzədilirdi. Məktubda dominikan rahibi Aşbilə Devidin xidmətləri də layiqincə qiymətləndirilirdi. David Hülakünün sarayına göndərilmiş və orada qalaraq xanı katolik inancı ilə tanış etmişdi. Məktubun müəllifinə görə, yuxarıda göstərilən səbəblərə əsaslanaraq, xan xristianlara himayədarlıq göstərməyə başlamışdı ki, bu da vergi azadlıqları, onların əmlakının toxunulmazlığının təmin edilməsi və bütün kilsələrdə dini mərasimlərin keçirilməsinə icazə verilməsi şəklində özünü göstərmişdi [1, s.153].

Hər iki tarixi sənədin müəllifi barədə aparılan araşdırmalar göstərir ki, onları şübhəsiz ki, 1274-cü il tarixli Abaqa məktubunda adı açıq şəkildə qeyd olunan notarius Riçard tərtib etmişdir. Məktubda latın dilində belə yazılmışdır: "Ego Richardus notarius dicti domini regis at principis ac interpres latinorum" (mətni tərcümədə: "Mən, adıçəkilən kral və hökmdarın notariusu və latınların tərcüməçisi Riçardam"). Haqqında məlumatlarda ciddi boşluqlar olan Riçard Müqəddəs Kitabı dərindən mənimsəmiş və onun mətnlərini sərbəst şəkildə istifadə edə bilən savadlı şəxs olmuşdur. Uzun müddət Elxanilər sarayında yaşayıb işləyən Riçard, şübhəsiz ki, Elxani dövlətinin divan (dövlət katiblər) idarəsinin yerli işçiləri ilə sıx əməkdaşlıq edərək öz diplomatik fəaliyyətini həyata keçirmiş və Qərblə münasibətlərdə əvəzolunmaz körpü rolu oynamışdır.

Notarius Riçard bu bibliya istinadlarından məktubun ünvanlandığı şəxslər - Papa IV Urban və Qərbin kralları və knyazları üçün başa düşülən dildə monqol ideologiyasını ifadə etmək məqsədilə istifadə edir. Çingiz xana və beləliklə onun nəsillərinə verilmiş ilahi mandatın xüsusi vurğulanması monqolların dünyanın hökmdarları olduğunu göstərmək məqsədi daşıyır.

Hülakünün məktubunda mahiyyət etibarilə belə bir mesaj vardır: "Biz, Əbədi Göyün (möngke tengri) qüvvəsi ilə, sarasinlərin (müsəlmanların) xain millətlərini məhv etməyə can atan Hülakü, Fransanın görkəmli kralı Luiyə müraciət edirik. Sizə bildiririk ki, diri Tanrının adını çəkdiyimiz üçün bizə tərəddüd etmədən itaət etməlisiniz; O bizə qüdrət bəxş etmişdir" [11, s.252]. Hülakü özünü müsəlmanların gücünün məhv edəni və xristianlığın dostu kimi təqdim etməklə yanaşı, bu məktubda dolayı yolla tabe olmaq tələbini irəli sürür.

Abaqanın 1274-cü il məktubu bir növ memorandum xarakteri daşıyır və Papaya Hülakünün fəthləri ilə xristianlara qarşı yaxşı niyyətlərini xatırlatmaq məqsədi güdür. Girişdə krallar və knyazlara xatırladılır ki, Hülakünün sələfləri diri Tanrının qüvvəti və öz güc-qüdrəti vasitəsilə (per virtutem dei vivi et potenciam sua) öz hakimiyyətlərini Şərqin bütün torpaqlarına, hətta Gyon (Oxus) çayına qədər genişləndirmişlər. Bu məktubun tonu xeyli daha mülayimdir. Çingiz xan və onun nəsillərinə verilmiş səmavi mandat artıq xatırlanmır və buna görə də tabe olmaq tələbi məsələsi gündəmdə deyil.

Abaqa açıq şəkildə Latın Qərbi ilə ittifaq əldə etməyə çalışırdı. O, 1268-ci ildə olduğu kimi, Müqəddəs Roma Kilsəsi ilə əbədi sülh müqaviləsi bağlamaq təklifini yeniləyir (confederacionem habere volens et pacem firman cum omnibus Christianis sacrosante ecclesie Romane subiectis - "Roma Müqəddəs Kilsəsinə tabe olan bütün xristianlarla birlik qurmaq və möhkəm sülh bağlamaq istəyən") [10, s.230].

Abaqanın məktubunda Tomas Agni de Lentini tərəfindən Hülakünün yanına göndərilmiş David d'Aşbinin oynadığı rol xüsusi qeyd olunur. Tomas Agni de Lentini monqol xanının 1260-cı il Suriya səfərləri zamanı niyyətləri barədə məlumat əldə etmək istəmişdi. David d'Aşbi İlxan sarayında qalaraq krala "katolik inancı ilə bağlı çoxlu məsələlər" barədə izahatlar vermişdir.

Məktubdə qeyd olunduğuna görə, sonradan "ilahi ilhamla" (divinitus inspiratus) ruhlanmış Hülakü xristianlara Elcigedey məktubunda tələb olunan güzəştlərlə bütün cəhətlərdən oxşar imtiyazlar

bəxş etmişdir: xristianlara tam sülh vermək, onları vergi və xərac ödəməsindən azad etmək, onların mülkiyyətinə hörmət göstərmək və bütün kilsələrə ibadət azadlığı tanımaq. Riçard yazır ki, Hülakü bu tədbirlərin hamısını həyata keçirərdi, əgər Tanrı bizim günahlarımıza görə xanı öz dərgahına aparmağa icazə verməsəydi (que omnia perfecisset, nisi peccatis nostris exigentibus ipsum deus de medio nostri tolli permisisset). Burada söhbət gedən günahkarlar, şübhəsiz ki, İlxanlarla hər hansı ittifaqı rədd etmiş franklardır.

Papa X Qriqori bu məktuba cavabı 1275-ci il martın 13-də vermişdi. Abaqa xanın məktubunun Şurada oxunmasından və elçilərin dinlənilməsindən sonra Papa, Abqanın həqiqi imana aparan yolu görməsi üçün dua etdiyin**i** bildirdi. Hətta Kilsə liderlərini təsirləndirmək üçün Abaqa xanın on altı səfirindən üçü, missiyaları zamanı Ostiya yepiskopu (gələcək Papa V İnnokenti) tərəfindən idarə olunan bir mərasimdə vəftiz edildi [9, s.50], lakin mərasim iştirakçıları monqolların niyyətlərinə şübhəylə yanaşırdılar. Papa, Səlib ordusu yola düşməzdən əvvəl, mümkün olan kimi tezliklə elçilər göndərəcəkdi. Ümumi müddəalarla çıxış etməsi Qriqorinin Səlib yürüşünə olan həvəssizliyindən qaynaqlanmırdı. O, Papalığının əvvəlindən Müqəddəs Torpaqlar üçün yeni bir Səlib yürüşü təşkil etmək istəyirdi.

Levanta (Yaxın Şərqə) qarşı təsirli bir hərbi əməliyyat planı baş tutmadı, müxtəlif Avropa hökmdarlarının özlərinin şəxsi maraqları və daxili problemləri var idi. 1276-cı ildə Qriqorinin ölümü bu diplomatik münasibət cəhdlərə formal olaraq son qoydu. Elxanilər və qərb dünyası arasında münasibətləri demək olar ki diplomatik əlaqələr ilə kifayətləndi. Monqollar Məmlükləri məğlub etdikdən sonra qərb dövlətlərinə hücum etməyəcəyinə qarşı heç bir zəmanət yox idi. Belə ki monqollar Şərqi Avropada, indi ki Polşa və Macarıstan ərazilərində, qanlı döyüşlər aparmış, xristianlara qarşı xüsusi bir tolerantlıq göstərilməmişdi. Xristanlar arasında gedən hərc-mərclik və daxili vəziyyətin stabil olmamasından Səlib yürüşlərinə o qədər də maraq göstərilmirdi. Qərb dünyasında Monqollara etimadın olmaması münasibətlərin həqiqi müstəvidə reallaşmasına imkan vermədi. Hülakülərə qarşı bu Avropa etimadsızlığının başqa bir nümunəsi, Abaqa xanın nümayəndə heyəti danışıqlar üçün Fransa sarayına gəldiyi zaman Parisin şimalındakı monastırlardan birində rahib olan fransız tarixçisi Vilyam Nanjis qeyd edir ki, Bunlar (Monqol səfirləri) həqiqətən elçilərdir, yoxsa aramızda casus kimi gəliblər? [16, s.145]

Nəticə. Sənədlərin formalaşdırılması zamanı xristian elementlərinin nə dərəcədə təsir göstərdiyi mühüm sual olaraq qarşıda durur: onlar monqol dövlət strukturlarında məsləhətçi mövqeyindən çıxış edərək birbaşa mətn yaradılmasında rol oynayırdılarmı, yoxsa hazır sənədləri başqa dilə köçürərkən özbaşına dəyişikliklər edirdilər? Mənbələrin diqqətli araşdırılması məktubların hazırlanması və dil köçürülməsi mexanizmində iki fərqli məqamın mövcud olduğunu ortaya qoyur.

İlkin fazada rəsmi yazışmalar monqol ənənəvi dünyagörüşü və dövlət strategiyası prinsiplərinə uyğun olaraq monqol dilində formalaşdırılırdı. Bu fazada İlxan hökmdarlarının inzibati aparatında xidmət edən müxtəlif mənşəli məmurlar - xüsusilə Şərq xristian icmalarından və yerli İran ərazisindən olan katib heyəti - sənədləşmə işlərində öz töhfələrini verirdilər. Sonrakı faza latın qrafikli mətnlərin yaradılması mərhələsi ilə səciyyələnir. Bu məqamda Riçard tipli Avropa mədəniyyəti daşıyıcıları əvəzedilməz funksiya icra edirdilər.

Dil transformasiyası sadəcə leksik ekvivalentlərin tapılması ilə məhdudlaşmırdı - eyni zamanda informasiyanın Qərb dünyası üçün məntiqi və qəbuledilən şəkildə strukturlaşdırılması baş tuturdu. Müqəddəs Yazılardan sitatlar, xristian etik dəyərlərinə çağırışlar və danışıq üslubunun yumşaldılması bu transformasiya prosesinin tərkib hissələri idi. Deməli, xristian dilçilər və ekspertlər sırf texniki vasitəçiliklə kifayətlənmir, əksinə diplomatik kommunikasiyanın formalaşmasında yaradıcı subyekt rolunu daşıyaraq monqol dövlətinin xarici siyasət mesajlarını Avropa mədəni kontekstinə uyğunlaşdırırdılar. Bu ikitərəfli dinamika monqol-xristian diplomatik əlaqələrinin çoxyönlü və mürəkkəb strukturunu göstərir.

ƏDƏBİYYAT

1. Aigle, D. (2005). The letters of Eljigidei, Hülegü and Abaqa: Mongol overtures or Christian ventriloquism? *Inner Asia, 7*(2), 143–162. - https://hal.science/hal-00381967 [19.03.2026].
2. Atwood, C. P. (2004a). *Encyclopedia of Mongolia and the Mongol Empire*. Indiana University Press.

3. Atwood, C. P. (2004b). Validation by holiness or sovereignty: Religious toleration as political theology in the Mongol World Empire of the thirteenth century. *The International History Review, 26*(2), 237–256. - http://www.jstor.org/stable/40109471 [19.03.2026].
4. Bar Hebraeus, G. (2003). *The chronography of Gregory Abu'l Faraj* (E.A.W. Budge, Trans.). Gorgias Press. (Original work published 1932)
5. Boyle, J. A. (Ed.). (1968). *The Cambridge history of Iran: Vol. 5. The Saljuq and Mongol periods*. Cambridge University Press.
6. Fujisaki, M. (2019). Diplomatic communication between the popes and the khans until the 1270s. *Journal of Western Medieval History, 44*, 69–99. https://doi.org/10.21591/jwmh.2019.44.2.069
7. Jackson, P. (2017). The Mongols and the faith of the conquered. In R. Amitai & M. Biran (Eds.), *Mongols, Turks, and others: Eurasian nomads and the sedentary world* (pp. 245–290). Brill.
8. Jackson, P., & Morgan, D. (1990). *The mission of Friar William of Rubruck: His journey to the court of the Great Khan Möngke 1253–1255* (P. Jackson, Trans.). Hakluyt Society. - https://adm0502.synology.me/blava0704/knihy/a/ami/amitaireuven/mongolsturksandothers/amitaireuv_mongolstur_1.pdf [19.03.2026].
9. Lane, G. (2003). *Early Mongol rule in thirteenth-century Iran: A Persian renaissance*. Routledge Curzon.
10. Lupprian, K. E. (1981). *Die Beziehungen der Päpste zu islamischen und mongolischen Herrshen im 13. Jahrhundert* [The relations of the popes to Islamic and Mongol rulers in the 13th century]. Studi et Testi.
11. Meyvaert, P. (2013). An unknown letter of Hulagu, Il-Khan of Persia, to King Louis IX of France. In *The spiritual expansion of medieval Latin Christendom: The Asian missions* (pp. 245–262). Routledge. (Reprinted from *Speculum, 55*[1], 1980, pp. 245–259)
12. Rachewiltz, I. de (Ed.). (2004). *The secret history of the Mongols: A Mongolian epic chronicle of the thirteenth century* (Vols. 1–2). Brill.
13. Rashid al-Din. (1998). *Jami'u't-tawarikh: Compendium of chronicles* (W.M.Thackston, Trans.). Harvard University Department of Near Eastern Languages and Civilizations. - https://www.scribd.com/document/793669947/Rashid-Al-Din-Jami-u-T-Tawarikh-Thackson-2nd-Edition [19.03.2026].
14. Richard, J. (2003). *La croisade: L'évolution des conceptions et des stratégies* [The crusade: The evolution of concepts and strategies]. Routledge. - https://doi.org/10.4324/9781003554998
15. Spuler, B. (1968). *History of the Mongols: Based on Eastern and Western accounts of the thirteenth and fourth centuries*. Routledge & Kegan Paul.
16. Wiltz Orakei. (1974). *Pope ambassadors in the court of the Mongol dynasty* [In Persian]. Kharazmi Publishing.

ХАЗАР НАСИБЛИ
Докторант кафедры «История Азербайджана VII-XIV веков» Института истории и этнологии им. А.А. Бакиханова, НАНА

ХРИСТИАНСКОЕ ПОСРЕДНИЧЕСТВО В ДИПЛОМАТИИ ХУЛАГУ И ЗАПАДА: АНАЛИЗ ПИСЕМ ХУЛАГУ И АБАГАНЫ К ПАПАМ РИМСКИМ

Дипломатические отношения, сформировавшиеся между Ильханским государством и Западом во второй половине XIII века, составляют одну из наиболее сложных страниц средневековых международных отношений. Данное исследование посвящено анализу официальных писем, направленных сыном ильхана Хулагу-хана Абага-ханом (1265-1282) римским папам, и изучению роли христианских элементов в процессе подготовки этих дипломатических документов. Поражение монгольской армии в битве при Айн-Джалуте в 1260 году побудило ильханских правителей к активной дипломатической деятельности с целью привлечения западных христианских государств в качестве союзников в борьбе против мамлюков. В 1262 году Хулагу-хан направил письмо папе Урбану IV, заявив о намерении вернуть христианству «священный

город Иерусалим, находящийся в руках неверных». Однако в этом письме нашла отражение традиционная монгольская идеология: выражение «силой Вечного Неба» подчеркивало божественный мандат, данный Чингисхану и его наследникам, и косвенно выдвигало требование к западным государствам признать монгольское превосходство. Абага-хан продолжил дипломатическую линию своего отца, но продемонстрировал более гибкий и дипломатичный подход. В период его правления Ильханское государство вынуждено было одновременно вести борьбу с Золотой Ордой на севере, Чагатайским ханством на востоке и Мамлюкским султанатом на юго-западе.

Ключевые слова: Абага-хан, Хулагуиды, Ильханы, Золотая Орда, западная дипломатия.

KHAZAR NASIBLI
Doctoral student of the "History of Azerbaijan in the 7th-14th centuries" department of the A.A.Bakikhanov Institute of History and Ethnology,ANAS

CHRISTIAN MEDIATION IN HULAGU-WESTERN DIPLOMACY: AN ANALYSIS OF HULAGU AND ABAGA'S LETTERS TO THE POPES

The diplomatic relations that formed between the Ilkhanid state and the West in the second half of the 13th century constitute one of the most complex pages of medieval international relations. This study is dedicated to the analysis of official letters sent by Abaga Khan (1265-1282), son of Ilkhan Hulagu Khan, to the Roman popes, and to investigating the role of Christian elements in the preparation process of these diplomatic documents. The defeat of the Mongol army at the Battle of Ain Jalut in 1260 prompted the Ilkhanid rulers to intensive diplomatic activity aimed at securing Western Christian states as allies in the struggle against the Mamluks. In 1262, Hulagu Khan sent a letter to Pope Urban IV, declaring his intention to return "the holy city of Jerusalem held in the hands of infidels" to Christianity. However, this letter reflected traditional Mongol ideology: the expression "by the power of Eternal Heaven" emphasized the divine mandate given to Genghis Khan and his successors, and indirectly put forward a demand for Western states to recognize Mongol supremacy. Abaga Khan continued his father's diplomatic line, but demonstrated a more flexible and diplomatic approach. During his reign, the Ilkhanid state had to simultaneously wage struggle against the Golden Horde in the north, the Chagatai Khanate in the east, and the Mamluk Sultanate in the southwest.

Keywords: Abaga Khan, Hulaguids, Ilkhanids, Golden Horde, Western Diplomacy.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 19 mart 2026-cı il.
Məqalənin çapa qəbul olunma tarixi: 21 may 2026-cı il.
Rəyçi: AMEA-nın həqiqi üzvü Nərgiz Axundova.

UOT 94(479.24); UOT 94”04/15”

FƏRHAD RÜSTƏMZADƏ
AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya institutu-doktorantı
ferhadrustemzade@gmail.com

ŞAH TƏHMASİBİN HAKİMİYYƏTİ İLLƏRİNDƏ SƏFƏVİ İMPERİYASININ HƏRBİ STRATEGİYASI

DOI: https://doi.org/10.36719/2708-065X/113/26-31

Bu tədqiqat Şah I Təhmasibin hərbi strategiyasının formalaşma prinsiplərini, onun siyasi düşüncəsi ilə qarşılıqlı əlaqəsini və Səfəvi dövlətinin müdafiə sistemində oynadığı rolu təhlil edir. Araşdırmada göstərilir ki, şahın strategiyası yalnız hərbi tədbirlərlə məhdudlaşmır, eyni zamanda daxili sabitliyin qorunması, tayfa birliyinin təmin edilməsi və mənəvi-ideoloji mühitin möhkəmləndirilməsi kimi faktorları da əhatə edirdi. Osmanlı və özbək təhlükəsi şəraitində Təhmasib birbaşa toqquşmadan çox, düşmənin logistikasını zəiflədən müdafiə taktikalarına üstünlük vermiş, köçürmə və “yandırılmış torpaq” siyasəti kimi üsullardan istifadə etmişdir. Tədqiqat həmçinin Səfəvi ordusunun təşkilati quruluşunu, etnik tərkibini, daimi və qeyri-daimi qüvvələr sistemini, qorçu institutunu və odlu silahların tətbiqini geniş şəkildə işıqlandırır. Nəticə etibarilə, Şah Təhmasibin hərbi strategiyası realist, müdafiə yönümlü və dövlətin uzunmüddətli mövcudluğunu təmin etməyə hesablanmış kompleks siyasi-hərbi model kimi qiymətləndirilir.

Açar sözlər: Şah I Təhmasib, Səfəvi dövləti, qorçular.

Giriş. XVI əsrin birinci yarısı Səfəvi dövlətinin həm geosiyasi mövqeyi, həm də daxili idarəçilik mexanizmləri baxımından ən gərgin mərhələlərindən biri idi. Şah I Təhmasibin hakimiyyətə gəlişi (1524) dövlətin institusional konsolidasiyası hələ tamamlanmamış bir şəraitə təsadüf edirdi: mərkəzi hakimiyyətin əyalətlər üzərində real nəzarəti, tayfa elitası arasında balansın qorunması və hərbi resursların davamlı səfərbərliyi eyni anda idarə olunmalı idi. Paralel şəkildə, Səfəvi sərhədlərinin iki əsas istiqamətdə – qərbdə Osmanlı imperiyası, şərqdə isə özbək xanlıqları tərəfindən təzyiq altında qalması dövlətin təhlükəsizlik gündəmini müəyyənləşdirirdi. Belə bir mühitdə hərbi strategiya təkcə döyüş meydanında qələbə qazanma texnikası deyil, dövlətin uzunmüddətli yaşaması üçün siyasi qərarvermə və resurs idarəçiliyi modelinə çevrilirdi.

Şah I Təhmasibin hərbi-strateji xətti məhz dövrün mürəkkəb hərbi-siyasi reallıqları fonunda formalaşmışdı. O, birbaşa və genişmiqyaslı toqquşmaların dövlət üçün doğura biləcəyi təhlükələri soyuqqanlı şəkildə qiymətləndirərək, daha çox müdafiə xarakterli, düşmənin irəliləmə imkanlarını mərhələli şəkildə sıradan çıxarmağa yönəlmiş taktikalara üstünlük verirdi. Onun tətbiq etdiyi köçürmə siyasəti, “yandırılmış torpaq” taktikası və düşmən logistikasının sistemli zəiflədilməsi kimi tədbirlər Osmanlı imperiyası kimi güclü, yaxşı təşkilatlanmış və yüksək resurs imkanlarına malik hərbi maşına qarşı birbaşa simmetrik cavab deyildi. Əksinə, bu tədbirlər mahiyyət etibarilə asimmetrik müqavimət mexanizmi idi və daha güclü rəqibə qarşı mövcud imkanlardan səmərəli istifadə etmək xəttini ifadə edirdi. Eyni zamanda, Şah Təhmasibin hərbi strategiyası təkcə sərhədlərin müdafiəsinə xidmət etmirdi. Bu strategiya daxili sabitliyin qorunmasına, tayfa birliyinin saxlanmasına, əyalətlərlə mərkəz arasındakı münasibətlərin tənzimlənməsinə, saray təhlükəsizliyinin möhkəmləndirilməsinə və ideoloji-mənəvi intizamın gücləndirilməsinə də söykənirdi. Başqa sözlə, onun hərbi düşüncəsi yalnız müharibə meydanı ilə məhdudlaşmır, dövlətin ümumi dayanıqlığını təmin edən siyasi və sosial mexanizmlərlə tamamlanırdı.

Atası Şah İsmayıldan Şah Təhmasibə böyük əraziləri əhatə edən geniş və mürəkkəb bir səltənət miras qalmışdı. Belə bir siyasi mirasın qorunması və gələcək nəslə ötürülməsi hökmdarın müəyyənləşdirdiyi hərbi strategiyanın nə dərəcədə realist, işlək və davamlı olmasından birbaşa asılı idi. Şah Təhmasibin hərbi strategiyasını şərtləndirən bir neçə mühüm amil vardı və bu amillərin nəzərə alınmaması strategiyanın səmərəliliyini zəiflədə bilərdi. Bu faktorların ən mühümlərindən biri səltənətin hərbi-siyasi və mədəni dayaqlarının türk həyat mühitinə söykənməsi idi. Türk tayfaları Səfəvi dövlətinin

aparıcı qüvvəsi olaraq qalırdı və dövlətin ictimai-siyasi, hərbi və mədəni ritmini onların fəallığı müəyyənləşdirirdi. Dövlət daxilində məsuliyyətli mövqelər əsasən həmin tayfaların nümayəndələrinin əlində cəmləşmişdi. Eyni zamanda, hərbi potensialın əsasını da onlar təşkil edirdi. Bu reallıq türk tayfalarının həyat tərzi ilə sıx bağlı idi: at belində keçən gündəlik həyat, silahla davranış vərdişləri və döyüşə hazır mühit, demək olar ki, hər bir türkü potensial döyüşçüyə çevirirdi. Şah Təhmasibin hakimiyyəti illərində də ordunun əsas nüvəsi məhz türklərdən ibarət idi. Türk döyüş ənənələri ordunun canlı və praktik dayağı kimi çıxış edirdi. Bu səbəbdən türk tayfalarının birliyinin və gücünün qorunması faktiki olaraq Səfəvi hərbi qüdrətinin saxlanılması demək idi. Əksinə, tayfalar daxilində və tayfalar arasında ixtilafların dərinləşməsi dövlətin hərbi gücünü zəiflədə biləcək ciddi təhlükəyə çevrilə bilərdi. Məhz buna görə Şah Təhmasib üçün birlik və vəhdətin qorunması daimi diqqət tələb edən həyati məsələ idi.

Şah Təhmasibin hərbi strategiyasına təsir edən ikinci mühüm amil səltənətin geniş coğrafiyası və mərkəzlə əyalətlər arasındakı bağların real vəziyyəti idi. Böyük ərazilərə malik siyasi qurumda sabitliyin qorunması yalnız paytaxtın iradəsi ilə deyil, vilayətlərin nə dərəcədə nəzarətdə saxlanılması ilə də müəyyən olunurdu. Vilayət hakimlərinin eyni zamanda hərbi rəhbər kimi çıxış etməsi, onların ixtiyarında xeyli sayda qoşun dəstələrinin olması və mərkəzlə inzibati əlaqələrin həmişə yetərincə möhkəm olmaması potensial risk yaradırdı. Belə şəraitdə hərbi-siyasi sabitliyin qorunması hökmdardan çeviklik, operativlik və qətiyyət tələb edirdi. Şah Təhmasib həm xarici təhdidlərə qarşı müdafiə qurmalı, həm də daxildə separat meyillərin və mərkəzdənqopma cəhdlərinin qarşısını almalı idi. Əgər belə hallar yaranırdısa, onların qəti tədbirlərlə aradan qaldırılması zəruri olurdu. Deməli, daxili idarəçiliklə hərbi idarəçiliyin birbirinə uyğunlaşdırılması onun hakimiyyət fəlsəfəsinin əsas istiqamətlərindən biri idi.

Şah Təhmasibin hərbi strategiyasının formalaşmasına təsir edən amillərdən biri də etiqad məsələsi idi. O, yalnız hökmdar deyildi; eyni zamanda Səfəvi təriqətinin mürşidi-kamili sayılırdı. Onun ətrafında birləşənlərin müəyyən hissəsi də məhz dini-təriqət bağlılığı səbəbilə ona sədaqət göstərirdi. Çoxsaylı sufi çevrələri üçün Şah Təhmasib sadəcə siyasi hakim deyil, mənəvi rəhbər idi. O özü də təriqət mühitinin bir üzvü kimi yaradana və müqəddəslərə bağlı dərin etiqad sahibi idi. Buna görə hərbi kampaniyaların uğurunda təkcə maddi və təşkilati amilləri deyil, ilahi iradəni və müqəddəslərin himayəsini də mühüm sayırdı. Bəzi yürüşlərin başlanmasına dair qərar verərkən müqəddəslərdən yuxuda aldığı işarələri nəzərə alması da bu düşüncə tərzinin əlaməti idi. Bu hal göstərir ki, onun hərbi strategiyası təkcə rasional hesablamalara deyil, dövrün dini-ideoloji dünyagörüşünə də söykənirdi.

Şah Təhmasibin hərbi strategiyasının müəyyənləşməsində həlledici amillərdən biri də onun dövlətçilik təfəkküru idi. Səltənət üçün yaranmış risklərin düzgün qiymətləndirilməsi, mövcud potensialın real şəkildə dərk edilməsi və uzunmüddətli nəticələrin nəzərə alınması ilk növbədə hökmdarın siyasi düşüncə və analiz qabiliyyəti ilə bağlı idi. O, xüsusilə Osmanlı təhlükəsi qarşısında birbaşa meydan döyüşünün hər zaman səmərəli nəticə verməyəcəyini başa düşürdü. Buna görə də Osmanlı qoşunlarının irəliləməsi ehtimal edilən marşrutlar üzrə müdafiəni qurarkən, düşmənlə açıq toqquşmadan daha çox, onun logistik imkanlarını sıradan çıxarmağı məqsədəuyğun sayırdı. Bu çərçivədə Osmanlı ordusunun keçəcəyi ərazilərdə ərzaq ehtiyatlarının aradan qaldırılması, yerli əhalinin isə daxili bölgələrə köçürülməsi əsas müdafiə vasitələrindən biri idi. Əhali yaşayış yerlərini tərk etdikdən sonra həmin ərazilərə daxil olan Osmanlı qoşunları ciddi ərzaq çatışmazlığı ilə üzləşməli idi. Şah Təhmasib bu ərazilərdə hər hansı ərzaq ehtiyatının saxlanılmasını qəti qadağan etmişdi. Köçürülən əhali ərzağını özü ilə aparmalı, mümkün olmadıqda isə onu məhv etməli idi ki, düşmən qüvvələrinin əlinə keçməsin. Onun düşüncəsinə görə, Osmanlı ordusunu ağır vəziyyətə salmağın və geri çəkilməyə məcbur etməyin ən səmərəli yolu məhz bu idi.

Belə bir siyasətin əhali üçün ağır nəticələr doğuracağı aydın idi. Köçürmə və ərzaq ehtiyatlarının məhv edilməsi insanlar üçün ciddi maddi itkilər, məişət çətinlikləri və sosial sarsıntılar yaradırdı. Məhz buna görə Şah Təhmasib köçürülməsi nəzərdə tutulan yaşayış məntəqələrinin kətxudalarını çağıraraq onlara mövcud vəziyyəti izah etmişdi. O, açıq şəkildə bildirmişdi ki, bu müharibənin təşəbbüskarı Səfəvi dövləti deyil və əgər əhali öz yerlərində qalsa, qarşılaşacağı fəlakətlər daha ağır ola bilər. Bununla yanaşı, ərzaq itkilərinin dövlət tərəfindən nəzərə alınacağını və bu itkilərin vergi öhdəlikləri hesabına silinəcəyini bəyan etmişdi. Beləliklə, əhalinin çəkdiyi zərərin müəyyən hissəsi dövlətin üzərinə götürülür, itkilər vergi kimi hesablanırdı. Bu, bir tərəfdən əhalinin müqavimətini azaltmağa, digər tərəfdən isə hökmdarın öz siyasətini müəyyən sosial legitimlik çərçivəsində həyata keçirməsinə xidmət edirdi.

Məlum olduğu kimi, Şah Təhmasibin tətbiq etdiyi bu taktika nəticə verdi və Osmanlı qoşunlarını geri çəkilməyə məcbur etmək mümkün oldu. Sözügedən strategiya son nəticədə iki dövlət arasında Amasiya sülh razılaşmasının əldə olunmasına da şərait yaratdı. Şah Təhmasib ümumən qonşu dövlətlərlə münasibətlərdə sülh və sabitlik şəraitində yaşamağa üstünlük verən hökmdar idi. Hərçənd ki, qərb sərhədləri boyunca bəzi ərazilər Osmanlı nəzarətinə keçmişdi, o, buna baxmayaraq, iki dövlət arasında sülh razılaşmasının bağlanmasını məqsədəuyğun saymışdı. Bu, zəiflik əlaməti deyil, tarixi şəraitin realist qiymətləndirilməsi idi. Şah Təhmasib başa düşürdü ki, Səfəvi dövlətinin hərbi imkanları Osmanlı dövləti ilə fasiləsiz müharibəni sonsuzadək davam etdirməyə kifayət etməyə bilər. Buna görə də sülh, itirilmiş bəzi ərazilərə baxmayaraq, daha məntiqli seçim kimi görünürdü. Müvəqqəti itkilər uzunmüddətli sabitlik və daxili möhkəmlənmə imkanları ilə kompensasiya oluna bilərdi.

Şah Təhmasib öz hakimiyyəti dövründə yalnız ordu daxilində deyil, ümumilikdə səltənət miqyasında şərab içilməsini və yüngül əyləncələrlə məşğul olmağı qadağan etmişdi. Onun bu mövqeyi təzkirəsində də açıq ifadə olunur: "Allaha şükür olsun ki, mənim hakimiyyətim altında yaşayan bütün qoşun və rəiyyət çaxır və başqa haram işlərdən tövbə etmişdi. Bütün ölkədə şərabxanalar, qumarxanalar, beytül-lütflər və başqa fitnə-fəsad ocaqlarının qapıları bağlanmışdır" [1, 123]. Bu siyasət sadəcə dini mövqe deyildi; o, eyni zamanda cəmiyyətin və ordunun intizamının möhkəmləndirilməsi məqsədi daşıyırdı. Şah Təhmasib üçün hərbi güc yalnız silah və canlı qüvvə ilə ölçülmürdü; mənəvi-intizam amili də ordunun döyüş qabiliyyətinin vacib elementi sayılırdı.

Qoşunların təşkili və təchizat məsələləri də onun hərbi siyasətinin mühüm istiqamətlərindən idi. Onun hakimiyyəti illərində səltənət daxilində odlu silahların geniş istifadəsinə başlanmışdı. Bu silahların əldə edilməsi üçün Avropa dövlətləri ilə münasibətlərin qurulması zərurəti yaranmış və Şah Təhmasib bu istiqamətə diqqət yetirmişdi. Müharibələrin başlanması ərəfəsində qarşı tərəfin hökmdarları ilə məktublaşmalara üstünlük verməsi də diqqətəlayiqdir. Özbək hakimləri ilə yazışmalar ardıcıl xarakter daşımadığı halda, Osmanlı sultanları ilə aparılan məktublaşmalar daha sistemli idi. Bu məktublarda tərəflərin hərbi-siyasi mövqeləri, niyyətləri və ziddiyyətlərə yanaşma forması aydın ifadə olunurdu. Qarşılıqlı anlaşmanın alınmaması isə münaqişələrin silahlı müstəvidə həllini qaçılmaz edirdi.

Şah Təhmasib dövrünün qoşunları səltənətin hərbi gücünün ən görünən ifadəsi idi. Ordunun necə qurulması, hansı səviyyədə təchiz edilməsi və döyüş hazırlığının nə dərəcədə saxlanılması dövlətin resurslarını nə qədər real gücə çevirə bilməsi ilə bağlı idi. Səltənətin iqtisadi imkanları, xəzinəyə toplanan vəsaitlərin həcmi, əhali potensialı və hərbi istehsalın inkişaf səviyyəsi ordunun təşkilinə birbaşa təsir göstərirdi. Şah Təhmasib dövründə ordunun qurulması sıfırdan başlanan proses deyildi; bu, Şah İsmayıl dövründən miras qalmış təşkilatlanmanın davamı idi. Əsasən tayfa və ərazi prinsipi ordunun təşkilində aparıcı rol oynayırdı. Türk tayfaları həm siyasi dayaqlar, həm də hərbi resursun daimi mənbəyi idi. Uşaqlıqdan at sürməyi və ox atmağı öyrənən bu tayfa üzvləri faktiki olaraq döyüşçü ehtiyatı rolunu oynayırdı. Tayfanın silah tutmağa qadir hissəsi silahlı döyüşçü sayılırdı və ordu daxilində birləşdikdə bu potensial daha aydın görünürdü [4, 245].

Şah Təhmasibin hakimiyyəti illərində səltənət qoşunları mərkəzi və əyalət qoşunlarından ibarət idi. Mərkəzi qoşunlar paytaxtda və ya onun ətrafında yerləşən, birbaşa şahın nəzarətində olan qüvvələr idi. Şah yürüşlərə çıxdıqda ilk növbədə bu qüvvələri özü ilə aparırdı. Say baxımından mərkəzi qoşunların əyalət qoşunlarından az olması ehtimal edilsə də, onların daha yaxşı təchiz olunduğu və daha yüksək döyüş keyfiyyətlərinə malik olduğu düşünülür. Birbaşa şahın nəzarəti altında olmaq bu qoşunlarda intizamın daha ciddi saxlanılmasını və onlardan daha böyük tələblərin irəli sürülməsini şərtləndirirdi.

Əyalət qoşunları isə ərazi prinsipi üzrə formalaşdırılırdı. Dəstələr türk tayfalarının məskunlaşdığı bölgələrdə təşkil edilir və yerli idarəçilik strukturlarının nəzarətinə verilirdi. Ümumilikdə, əyalət qoşunları Şah Təhmasib ordusunun əsas kütləsini təşkil edirdi. Bu qüvvələr yerli hakimlərin tabeliyində qalır, yerli tapşırıqları yerinə yetirir, zərurət yarandıqda isə şahın əmri ilə mərkəzi qoşunlara birləşdirilərək daha geniş əməliyyatlarda iştirak edirdilər. Bununla yanaşı, tayfa prinsipi ilə təşkil olunmuş dəstələr də mövcud idi. Hər tayfanın öz əmiri olur, tayfanın sayından və silah tuta bilən kontingentindən asılı olaraq onun rəhbərliyi altında ayrıca dəstələr formalaşırdı. Bu tayfa qoşunları bəzən əyalət və ya mərkəzi qüvvələrin tərkibində çıxış edir, bəzən də ayrıca tapşırıqları yerinə yetirirdi. Şah Təhmasibin hakimiyyətinin ilk illərində qızılbaş tayfaları arasında baş verən qarşıdurmaların əsas icraçıları da məhz bu tayfa qüvvələri idi.

Ordunun əsasını qızılbaş türklər təşkil edirdi və dəstələr çox zaman tayfa adları ilə tanınırdı. Bununla yanaşı, bölgələrin adı ilə tanınan qoşun dəstələri də vardı. Məsələn, "Əhsənüt-təvarix"də Qarabağ və Muğan qoşunlarının adı çəkilir. Mənbələrdə xatırlanan əmirlərin böyük hissəsi də türk tayfalarına mənsub idi. Bununla belə, orduda başqa xalqlardan toplanmış dəstələr də mövcud idi. Mənbələrdə Fars vilayətindən toplanmış dəstələrin fəaliyyəti qeyd olunur. 1526-cı ildə Badıncan sultan Rumlunun rəhbərliyi altında kürdlərdən və talışlardan ibarət bir dəstənin olduğu göstərilir. Özbək hücumlarının dəf edilməsi zamanı Astrabaddan toplanmış qüvvələr də iştirak etmişdi. Bəhram Mirzənin oğlu Bədiüzzaman Mirzənin rəhbərlik etdiyi dəstələrdən birində farslardan formalaşdırılmış qüvvənin də olduğu bildirilir. Mütəxəssislərin fikrincə, 1530-cu ildə Şah Təhmasib ordusunun təxminən 20 faizini qeyri-türk elementlər təşkil edirdi [5, 100].

Xarici təhlükə yarandıqda Şah Təhmasib vilayət hakimlərinə hökm göndərərək qoşun toplamağı və mərkəzi qüvvələrə birləşməyi əmr edirdi. Bu məqsədlə vilayətlərə "tovaçi" adlanan şəxslər və ya şahın etibar etdiyi qorçular göndərilirdi. Bəzən bu iş üçün təcrübəli əmirlər də ayrılırdı. Şah Təhmasib öz təzkirəsində Şahqulu xəlifə ilə Məhəmməd sultan Əfşarın könüllüləri toplamaq üçün vilayətlərə göndərildiyini yazır. Venesiyalı elçi V. Alessandri isə vilayət qoşunlarının toplanma mexanizmi barədə belə qeyd edir: "Krallıq 50 hissəyə bölündüyündən onun qoşunları 50 sultan tərəfindən toplanır… Kağızda daha çox olmasına baxmayaraq onlar 60 min süvaridən çox toplaya bilmirlər" [2, 121].

Şah Təhmasib dövründə ordunun ümumi sayını sabit bir rəqəmlə ifadə etmək çətindir. Müxtəlif dövrlərdə və fərqli ehtiyaclara uyğun olaraq müxtəlif sayda qoşun səfərbər edilirdi. Şah Təhmasib Sultan Süleymana yazdığı məktubda 100 min nəfərlik atlı qüvvənin mövcudluğunu xatırladır. "Xülasüt-təvarix"də isə ümumi sayın 120 min olduğu göstərilir [3, 517]. Lakin bu rəqəmlərin hamısının daimi və tam döyüş heyəti olmadığını nəzərə almaq lazımdır. 1530-cu ildə özbəklərə qarşı yürüş ərəfəsində sıra baxışında iştirak edən müxtəlif dəstələrin cəmi 103 minə yaxın görünsə də, burada xidmətçi və təminat bölmələrinin də nəzərə alındığı məlumdur. Buna görə bu rəqəm daha çox səltənətin ümumi canlı ehtiyat potensialını göstərir. Real döyüş üçün eyni anda toplanan qüvvələrin isə daha az olması mümkündür.

Ordunun struktur vahidlərə bölünməsində də əvvəlki dövrdən gələn ənənələr qorunurdu. Mənbələrdə minlik, yüzlük, onluq bölgüsünə, eləcə də "fövc", "həng", "tip", "tümən" kimi vahidlərə rast gəlinir [3, 521]. Vilayət hakimlərinə təyinat zamanı bayraq və təbil verilməsi onların həm inzibati, həm də hərbi statusunu ifadə edirdi. Bayraq döyüş şəraitində həm səfərbərlik, həm də tanınma vasitəsi idi. Şah Təhmasib dövrünə aid miniatürlərdə dini məzmunlu bayraqların təsviri görünür. Bu ənənə Şah İsmayıl dövründən gəlirdi və "Nəsri min Allah və fəthi qərib" kimi Quran ayələrinin bayraqlarda yer alması ordu daxilində dini ruhun mühüm rol oynadığını göstərirdi. Şah Təhmasib dövrünün ordusu atlı və piyada qüvvələrdən ibarət idi. Hərbi dəniz qüvvələrinin mövcudluğu barədə isə məlumat yoxdur. Atlı qoşunlar ordunun əsasını təşkil edirdi. Bunun səbəbi geniş ərazilər daxilində sürətli hərəkət, operativ əlaqə və döyüş meydanında manevr üstünlüyü idi. Atlı qüvvələr ordunun əsas zərbə gücü idi. Piyada qüvvələr isə daha çox tamamlayıcı xarakter daşıyırdı. Bununla belə, piyada döyüşçülər də yürüş zamanı atlardan istifadə edir, döyüş anında piyadaya çevrilirdilər. Mühasirələr və qala döyüşlərində atlıların da piyada kimi fəaliyyət göstərməsi adi hal idi.

Ordunun tərkibində tüfəngçilər, topçular, nəqəbçilər, tovaçilər, ləşgərnevislər, musiqiçilər, ələmdarlar, həkimlər və xidmət personalı kimi müxtəlif ixtisas qrupları vardı. Bu qruplar olmadan ordunun normal fəaliyyəti mümkün deyildi. Tüfəngçilər və topçuların ayrıca təşkilatlanması Səfəvi ordusu üçün yeni mərhələnin göstəricisi idi. Odlu silahların kütləvi istifadəsi məhz Şah Təhmasib dövründə genişlənmişdi. Topların daşınması üçün əlavə qüvvələrin ayrılması isə ordunun logistikasının mürəkkəbləşdiyini göstərirdi. Nəqəbçilər isə qala müharibələrinin geniş yayıldığı şəraitdə ordunun vacib hissəsi idi. Xidmət müddətinə görə qoşunlar daimi və qeyri-daimi qüvvələrə bölünürdü. Say baxımından qeyri-daimi qoşunlar daha çox idi. Onlar əsasən müharibə zamanı müəyyən müddət üçün toplanır, tapşırıq bitdikdən sonra evlərinə buraxılırdı. Daimi qoşunlar isə sayca az olsa da, hazırlıq və intizam baxımından daha keyfiyyətli idi. Sarayın, şahın və ailəsinin mühafizəsi, habelə dövlət daxilində asayişin qorunması daimi qüvvələrin əsas vəzifəsi idi. Bu daimi qüvvələrin əsas nüvəsini qorçular təşkil edirdi. Qorçular faktiki olaraq şah qvardiyası idi və birbaşa şaha tabe olurdu. Onların əsas funksiyası sarayı və şahın həyatını qorumaq olsa da, zaman keçdikcə məsul tapşırıqların icrası və döyüşlərdə iştirak da bu dəstəyə həvalə edilmişdi.

Qorçular şaha sədaqəti ilə seçilən xüsusi kontingent idi. M. Membre onların tərkibinə şaha yaxın əmir və əyanların, eləcə də vilayət hakimlərinin övladlarının seçildiyini qeyd edir. Qorçuların əsasını türk tayfalarının nümayəndələri təşkil edirdi və seçim zamanı sədaqət əsas meyar idi. Bununla yanaşı, fiziki keyfiyyət və döyüş qabiliyyəti də nəzərə alınırdı. Onlar xüsusi geyimləri, bəzəkli silahları və fərqli məvacibləri ilə seçilirdilər. İntizamsızlıq ciddi cəzalandırılır, fərqlənənlər isə mükafatlandırılırdı. Hətta bəzi qorçuların sonradan vilayət hakimliyinə yüksəldilməsi barədə də məlumat vardır. Dünyasını dəyişmiş qorçuların Ərdəbildə Şeyx Səfi türbəsi ətrafında dəfn olunması da onların statusunun nə qədər yüksək olduğunu göstərirdi.

Beləliklə, Şah I Təhmasibin hərbi strategiyası yalnız döyüş meydanında tətbiq olunan taktiki qərarlarla məhdudlaşmırdı. Bu strategiya dövlətin sosial bazasını, tayfa dayaqlarını, coğrafi miqyasını, dini-ideoloji mühitini, iqtisadi imkanlarını və idarəçilik mexanizmlərini nəzərə alan geniş və çoxşaxəli bir model idi. Onun müdafiə yönümlü yanaşması, logistikaya zərbə vurmağa əsaslanan asimmetrik taktikası, daxili sabitliyi hərbi təhlükəsizliyin ayrılmaz hissəsi kimi dərk etməsi və ordunun strukturunu real ehtiyaclara uyğun qurmağa çalışması göstərir ki, Şah Təhmasibin siyasəti təsadüfi deyil, rasional dövlətçilik düşüncəsinin məhsulu idi. Bu səbəbdən onun hərbi-strateji xətti Səfəvi dövlətinin sadəcə müəyyən bir dövr ərzində deyil, bütövlükdə uzunömürlü siyasi mövcudluğunun başlıca dayaqlarından biri kimi qiymətləndirilməlidir.

Nəticə. Aparılan təhlil göstərir ki, Şah I Təhmasibin hərbi strategiyası klassik "hücum-qələbə-işğal" məntiqindən daha çox, dövlətin uzunmüddətli yaşamasına xidmət edən müdafiə konsepsiyası kimi formalaşmışdır. Osmanlı imperiyası və özbək xanlıqlarının təzyiqi şəraitində şahın əsas xətti açıq meydan döyüşlərindən maksimum yayınmaq, rəqibin logistik üstünlüyünü zəiflətmək və müharibəni düşmən üçün bahalı, davam etdirilməsi çətin prosesə çevirmək olmuşdur. Köçürmə və "yandırılmış torpaq" siyasəti məhz bu məqsədə xidmət etmiş, yerli ərzaq ehtiyatlarının düşmənin istifadəsinə keçməsinin qarşısını almış, Osmanlı ordusunun təchizat zəncirini pozaraq geri çəkilməyə məcbur etməyə imkan vermişdir. Bu taktikanın sosial-iqtisadi baxımdan ağır nəticələr doğurduğu aydındır; lakin Şah Təhmasib bu itkiləri vergi güzəştləri ilə kompensasiya etməyə çalışaraq strategiyanın icrasında daxili narazılığı minimallaşdırmağa yönəlmiş addımlar atmışdır.

Şahın hərbi siyasəti yalnız döyüş texnikaları ilə məhdudlaşmamış, eyni zamanda dövlətin daxili dayanıqlılığına bağlanmışdır. Tayfa sisteminin Səfəvi hərbi gücünün nüvəsini təşkil etməsi bir tərəfdən böyük səfərbərlik potensialı yaratsa da, digər tərəfdən daxili rəqabət və separat meyillər riskini artırırdı. Bu səbəbdən Şah Təhmasib üçün tayfalararası balansın qorunması, mərkəzlə əyalət arasındakı idarəetmə bağlılığının gücləndirilməsi və vilayət hakimlərinin hərbi resurslar üzərində nəzarətinin tənzimlənməsi strategiyanın ayrılmaz hissəsi olmuşdur. Ordu sistemində mərkəzi və əyalət qoşunlarının birgə fəaliyyət mexanizmi, çağırış və səfərbərlik prosedurları, elçilərin (tovaçi və s.) rolu bu idarəetmə logikasını aydın şəkildə nümayiş etdirir.

Eyni zamanda, daimi qoşunların – xüsusilə qorçuların – gücləndirilməsi Şah Təhmasibin dövlət təhlükəsizliyini yalnız sərhəddə deyil, saray daxilində də təmin etməyə çalışdığını göstərir. Qorçu institutunun genişlənməsi mərkəzi hakimiyyətin "sərt dayağı" kimi çıxış etmiş, şahın şəxsi təhlükəsizliyini və icra intizamını artırmışdır. Odlu silahların tətbiqinin genişlənməsi və tüfəngçi-topçu kimi ixtisaslaşmış dəstələrin təşkili isə Səfəvi ordusunda texnoloji- təşkilati transformasiyanın sürətləndiyini göstərən mühüm göstəricidir; bu, eyni zamanda Avropa ilə münasibətlərdə hərbi-texniki maraqların artmasına da zəmin yaratmışdır. Nəhayət, Şah I Təhmasibin strategiyasının siyasi nəticəsi kimi Amasiya sülhü (1555) xüsusi vurğulanmalıdır: bu razılaşma Səfəvi dövlətinə müvəqqəti ərazi itkiləri bahasına da olsa, nəfəs almaq, daxili resursları toparlamaq və institusional dayanıqlığı artırmaq imkanı vermişdir. Beləliklə, Şah I Təhmasibin hərbi strategiyası realist risk qiymətləndirməsinə əsaslanan, müdafiə yönümlü, logistika və resurs idarəçiliyini önə çəkən, daxili sabitlik və ideoloji intizamla tamamlanan kompleks siyasi-hərbi model kimi dəyərləndirilə bilər. Bu modelin mahiyyəti qısa müddətli "parlaq qələbə" dən çox, Səfəvi dövlətinin davamlılığını təmin etməkdə idi və məhz buna görə də Təhmasib dövrü Səfəvi təhlükəsizlik düşüncəsinin yetkinləşdiyi mərhələlərdən biri sayılmalıdır.

ƏDƏBİYYAT

1. Şah Təhmasibin təzkirəsi. Tərcüməçi Ə. Rəhimovdur. Bakı, Azərnəşr, 1996, 128 s.

2. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi. Tərcümə edənlər – Oqtay Əfəndiyev və Namiq Musalı. I cild. Bakı, "Təhsil", 2009, 1144 s.
3. Rumlu H. Əhsənüt-təvarix (Tarixlərin ən yaxşısı). Tərcümə edənlər: Oqtay Əfəndiyev, Namiq Musalı. Kastamonı, 2017, 217 s.
4. Əbdi bəy Şirazi. Təkmilətül-əxbar. Tərcüməçi Ə. Rəhimli. Bakı, Elm, 1996, 198 s.
5. Karadağ Çinar G. Safevi-özbek siyasi ilişkileri ve Osmanlının təsiri (1524-1630). Doktora tezi. Afyon-Karahisar, 2011, 334 s.

ФАРХАД РУСТЕМЗАДЕ
Докторант Института истории и этнологии им. А.А. Бакиханова НАНА

ВОЕННАЯ СТРАТЕГИЯ СЕФЕВИДСКОЙ ИМПЕРИИ В ПЕРИОД ПРАВЛЕНИЯ ШАХА ТАХМАСИБА

Данное исследование анализирует принципы формирования военной стратегии шаха Тахмасиба I, её связь с его государственным мышлением и роль в системе обороны государства Сефевидов. Показано, что стратегия шаха не ограничивалась исключительно военными мерами, а включала обеспечение внутренней стабильности, сохранение единства племён и укрепление духовно-идеологической среды. В условиях угроз со стороны Османской империи и узбекских ханств Тахмасиб отдавал предпочтение оборонительным тактикам, направленным на ослабление логистики противника, применяя переселение населения и тактику «выжженной земли». В работе также рассматриваются структура сефевидской армии, её этнический состав, система постоянных и непостоянных войск, институт корчиев и внедрение огнестрельного оружия. В целом военная стратегия шаха Тахмасиба оценивается как реалистичная, оборонительно ориентированная и комплексная политико-военная модель, направленная на обеспечение долгосрочного существования государства.

Ключевые слова: Шах Тахмасиб I, государство Сефевидов, корчи (гвардия шаха).

FARHAD RUSTEMZADE
PhD student, Institute of History and Ethnology named after A.A. Bakikhanov, ANAS

THE MILITARY STRATEGY OF THE SAFAVID EMPIRE DURING THE REIGN OF SHAH TAHMASP

This study examines the formation principles of Shah Tahmasp I's military strategy, its connection with his political mindset, and its role in the defensive system of the Safavid state. The research demonstrates that his strategy extended beyond purely military measures and included maintaining internal stability, preserving tribal unity, and strengthening the ideological and moral environment. Facing threats from the Ottoman Empire and the Uzbek khanates, Tahmasp preferred defensive tactics aimed at weakening enemy logistics rather than direct confrontation, employing relocation policies and scorched-earth methods. The study also explores the organizational structure of the Safavid army, its ethnic composition, the system of permanent and non-permanent forces, the institution of royal guards (qorchis), and the introduction of firearms. Overall, Shah Tahmasp's military strategy is evaluated as a realistic, defense-oriented, and comprehensive political-military model designed to ensure the long-term survival of the Safavid state.

Keywords: Shah Tahmasp I, Safavid State, Qorchis.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 19 mart 2026-cı il.
Məqalənin çapa qəbul olunma tarixi: 21 may 2026-cı il.
Rəyçilər: t.ü.f.d. Əhməd Quliyev, t.e.d. İsmayıl Məmmədov.

UOT 94(479.24)

QABİL ƏLİYEV
tarix elmləri doktoru, professor
Bakı Dövlət Universiteti, Azərbaycan Universiteti,
https://orcid.org/0000-0002-2372-5907
qabilalioglu1956@gmail.com

ƏRƏŞ, QƏBƏLƏ VƏ QUTQAŞIN SULTANLIQLARI: SOSİAL-İQTİSADİ VƏ ETNO-DEMOQRAFİK VƏZİYYƏTİ

DOI: https://doi.org/10.36719/2708-065X/113/32-38

Azərbaycanın Ərəş, Qəbələ və Qutqaşın sultanlıqlarının inzibati quruluşunun, sosial-iqtisadi həyatının, etno-demoqrafik proseslərin araşdırılması mühüm əhəmiyyətə malikdir. Təqdim edilən məqalədə bu bölgələrin əvvəlcə Şəki xanlığına tabe edilməsi, XIX əsrin başlanğıcında isə Rusiya imperiyası tərəfindən işğalı gedişində yerli idarəçilikdə, əhalinin iqtisadi həyatında baş vermiş dəyişikliklər və onun doğurduğu nəticələr tədqiq edilmişdir.

Açar sözlər: Ərəş, Qəbələ və Qutqaşın sultanlıqları, Şəki xanlığı, sosial-iqtisadi hadisələr, etno-demoqrafik proseslər, Rusiya imperiyası.

Giriş. Azərbaycanda XVIII əsrin 40-cı illərində yaranmış müstəqil və yarımüstəqil feodal hakimlikləri içərisində Qazax, Şəmşəddil, Borçalı, İlisu, Ərəş, Qəbələ və Qutqaşın sultanlıqları da mühüm yer tuturdu. Bu sultanlıqlar içərisində bir-biri ilə qonşu olan və oxşar tarixi tale yaşamış Ərəş, Qəbələ və Qutqaşın sultanlıqları regionda cərəyan edən ictimai-siyasi proseslərdə fəal iştirak edirdilər.

XVIII əsrin ortalarında ərazisinə və əhalisinin sayına görə **Ərəş sultanlığı** xüsusilə seçilirdi. Bu sultanlıq indiki *Yevlax rayonunun* Kür çayından şimal hissəsini, *Ağdaş rayonu* ərazisini, eləcə də indiki *Mingəçevir şəhəri* ərazisini əhatə edirdi. XVIII əsrin sonunda sultanlıq Şəki xanlığına tabe edildikdən sonra, onun yerində xanlığın inzibati bölgüsünə uyğun olaraq ***Ərəş, Ağdaş, Alpout və Padar mahalları*** yarandı.

Qəbələ sultanlığı indiki *Qəbələ rayonunun* qərb hissəsini, *Oğuz rayonu* ərazisini, həmçinin *Ağdaş rayonu* ərazisinin şimal bölgəsini əhatə edirdi. XVIII əsrin 50-ci illərinin ortalarında Qəbələ şəhəri kütləvi yoluxucu xəstəlik və zəlzələ səbəbindən tənəzzül etdi. Eyni adlı sultanlıq tarix səhnəsindən çıxdı, ərazisində Şəki xanlığına tabe olan ***Bum və Xaçmaz mahalları*** təşkil edildi.

Qutqaşın sultanlığı indiki *Qəbələ rayonunun* şərq hissəsini, həmçinin *İsmayıllı rayonu* ərazisinin qərb hissəsini əhatə edirdi. XVIII əsrin sonunda sultanlıq ləğv edilərək Şəki xanlığı tərkibində mahala çevrildi. Şəki xanlığı ləğv edildiyi zaman bu mahalın kəndlərinin çoxu Qutqaşın sultanları nəslindən olan Əhməd sultan və Hacı Nəsrulla sultan qardaşlarına məxsus idi [1, c.89].

Təqdim edilən məqalədə Ərəş, Qəbələ və Qutqaşın sultanlıqlarında XVIII əsrdən başlayaraq XIX əsrin ilk onilliklərinə qədərki dövrdə baş vermiş sosial-iqtisadi hadisələr, etno-demoqrafik proseslər tədqiq edilmişdir. Bu bölgələrin əvvəlcə Şəki xanlığına tabe edilməsi, XIX əsrin başlanğıcında isə Rusiya imperiyası tərəfindən işğalı gedişində və sonrakı dövrdə yerli idarəçilikdə, əhalinin iqtisadi həyatında baş vermiş dəyişikliklərin və onların doğurduğu nəticələrin təhlil edilməsi, müəllif tərəfindən diqqət mərkəzində saxlanılmışdır.

Məqalənin əsas elmi yeniliyi Ərəş, Qəbələ və Qutqaşın sultanlıqlarının öncə Şəki xanlığına, sonra da Rusiya imperiyasına birləşdirilməsi zamanı və sonrakı onilliklər ərzində ənənəvi idarəetmənin ləğv edilməsi və yeni idarəçiliyin tətbiqi məsələlərinin araşdırılmasıdır. Müəllif həyata keçirilən inzibati dəyişiklikləri, eləcə də bu hadisələr fonunda baş verən etno-demoqrafik prosesləri hərtərəfli və müqayisəli şəkildə təhlil etmişdir.

Müstəqillik ərəfəsində idarəçilk sistemi. XVI əsrin 30-cu illərində Şirvan şahlığının, ardınca da Şəki hakimliyinin Səfəvi dövlətinə birləşdirilməsi gedişində Ərəş, Qəbələ və Qutqaşın bölgələri də oxşar taleyi yaşadı, Şirvan bəylərbəyiliyinə qatıldı. Səfəvi şahlarının hakimiyyəti dövründə ayrı-ayrı bölgələr sədaqətli hərbi xidmət əvəzində iri feodalların idarəsinə verilirdi və **ölkə** adlanırdı. Ölkə ha-

kimləri onlara verilən torpaqları ya *tiyul* – şərti torpaq mülkiyyəti, ya da *soyurqal* – irsi torpaq mülkiyyəti kimi idarə edirdilər. Ölkə hakimi vergi immunitetinə malik idisə ***sultan***, malik deyildisə sadəcə ***hakim*** adlanırdı. Səfəvi şahlarının iradəsi ilə **Ərəş ölkəsi** onun hakiminin – sultanının irsi mülkiyyətində qalmışdı və vergi immunitetinə malik idi [2, c.73]. Elə o zamandan da tarixi qaynaqlarda Ərəş sultanlığı adlanırdı. XVIII əsrin başlanğıcında ***Ərəş sultanlığına*** **Əli sultan** başçılıq edirdi.

XVIII əsrin ilk onilliklərində ***Qutqaşın kəndində*** müsəlman məliklərinin nəsli hakimlik edirdi. Həmin nəsildən olan **məlik Mahmud** bütün **Qəbələ ölkəsinin sultanı** idi [3, s.72]. Tarixi mənbələrdə məlik Mahmudun istedadlı, bacarıqlı ölkə hakimi olması qeyd olunmuşdur. Rəqibləri Məlik Mahmudu çoxlu sərvət toplayaraq şaha qarşı çıxmaqda günahlandırdılar. Səfəvi şahı məlik Mahmudun bütün mülkiyyətini əlindən alıb xəzinəyə verməyi əmr etdi. Məlik Mahmud xəzinəyə çoxlu sayda mülk və mal-qaradan əlavə, 70 min tümənlik başqa əmlak da verməli oldu. Mənbələrdə onun çoxlu dəyirmanı, çəltik döymək üçün 500 qurğusu, baramaaçan 500 küm və mancanağı, geniş torpaqları, əkin sahələrini suvarmaq üçün çoxlu sayda arxlarının olduğu [3, s.73] xəbər verilir.

XVIII əsrin ilk onilliklərində Səfəvi şahının vergiləri artırması, feodal hakimlərin özbaşınalığı əhalinin vəziyyətini olduqca ağırlaşdırdı. 1719-cu ildə Qubada, Şirvanda və digər qonşu bölgələrdə güclü xalq çıxışları baş verdi. Üsyanlar Səfəvi dövlətinin tənəzzülünü sürətləndirdi. Bundan yararlanan Osmanlı dövləti 1723-1725-ci illərdə Cənubi Qafqazdakı Səfəvi mülklərinin əksər hissəsini özünə tabe etdi. Bu zaman Ərəş hakimi Əli sultan Osmanlı qoşunlarına yardım göstərdi və əvəzində Şəki vilayətinin hakimi təyin edildi [4, III c., s.340].

Osmanlı sultanı Qəbələ bölgəsinin idarəsini də Qazıqumuqlu Surxay xana tapşırdı. Lakin Surxay bununla kifayətlənmədi və Ağdaş bölgəsini də ələ keçirdi və yalnız bundan sonra sultan III Əhmədə sədaqət andı içdi [4, III c., s.341].

1730-cu ildə Nadir xanın başçılığı ilə Səfəvi qoşunları işğal altında olan torpaqları azad etmək üçün hərbi əməliyyatlara başladı və qısa müddət ərzində bütün Cənubi Qafqazı Osmanlı və Rusiya qüvvələrindən təmizlədi. 1736-cı ildə Nadir xan Cavadda keçirilən qurultayda Səfəvi sülaləsinin hakimiyyətinə son qoydu və özünün şah seçilməsinə nail oldu. Bütün Azərbaycan torpaqları ilə birlikdə Ərəş, Qəbələ və Qutqaşın torpaqları da Nadir şah Əfşarın (1736-1747) imperiyasına qatıldı.

Nadir şahın hakimiyyəti dövründə Şirvan vilayəti ilə yanaşı, Ərəş, Qəbələ və Qutqaşın mahallarında yaşayan əhali də vergilərin artırılmasından və çox qəddarlıqla toplanmasından, bütün gənclərin zorla orduya səfərbər edilməsindən narazı idi. Ona görə də insanlar Nadir şahın hakimiyyətinə qarşı yönəlmiş və "yaxşı hökmdar" ideyası ilə baş verən üsyanlara rəğbətlə yanaşır, onların sıralarına qoşulurdular. ***Ərəş, Qəbələ və Qutqaşın bölgələrinin əhalisi bu üsyanlarda fəal iştirak edirdi.*** 1743-cü ildə Şəki vilayətində Hacı Çələbi Qurban oğlunun başçılığı ilə böyük üsyan başladı. *Qəbələ mahalının əhalisi* də bu xalq çıxışında fəal iştirak etdi. "Qəbələlilər silah qaldıraraq sıx meşələrə çəkildilər, Hacı Çələbinin özlərinə başçı seçdilər və alınmaz Gələsən-Görəsən dərəsində onun dəstəsinə qoşuldular" [5, c.357]. Bu hadisədən sonra Şəki ilə yanaşı, Ərəş, Qəbələ və Qutqaşın bölgələri də Nadir şahın tabeliyindən çıxdı. A.Bakıxanov bu hadisə ilə bağlı yazmışdır: "Hacı Çələbi Qurban oğlu istiqlaliyyət bayrağı qaldıraraq, Şəki, Ərəş və Qəbələ mahallarını özünə tabe etdi" [6, s.162].

Müstəqil feodal hakimliklərinin yaranması. 1747-ci ildə Nadir şahın öldürülməsindən sonra *onun yaratdığı nəhəng imperatorluq dağıldı*, qoşunu da Azərbaycandan çəkildi. Azərbaycanda və imperiyanın digər yerlərində müstəqil və yarımüstəqil feodal hakimlikləri: xanlıq, sultanlıq və məlikliklər yarandı. A.Bakıxanovun qeyd etdiyi kimi: "hər bir vilayətdə bir həşəmət sahibi baş qaldıraraq, istiqlaliyyətdən dəm vurub başqasına tabe olmurdu" [6, s.161]. **Ərəş, Qəbələ və Qutqaşın sultanlıqları da bu zaman müstəqilliklərini elan etdilər** [2, c.110]. Lakin bu uzun sürmədi.

Hacı Çələbi xan **1748-ci ildə** Bayat savaşından geri döndükdən sonra qüvvələrini möhkəmləndirməyi qərara aldı, *Ərəş, Qutqaşın və Qəbələ sultanlıqlarını Şəki xanlığına birləşdirdi* [7, s.517]. Bu sultanlıqlar Şəki xanlığının vassalına çevrildilər. Hacı Çələbi xan **1749-cu ildə** *Ağamoğlan bəyi Qutqaşın hakimi təyin etdi.* Ərəş və Qəbələ sultanları isə Hacı Çələbi xanın ali hakimiyyətini qəbul etməklə, mülklərinin idarəçiliyini özlərində saxladılar [5, c.357].

XVIII əsrin 50-ci illərində Ərəş, Qutqaşın və Qəbələ sultanlıqlarının Şəki xanlığından tam asılı vəziyyətdə olması mənbələrdə və tarixi ədəbiyyatda açıq şəkildə əks olunmuşdur [2, c.98; 8, s.140]. Yalnız 1760-cı ildə Şəki hakimi Ağakişi xan öldürüldükdən sonra vəziyyət qarışdıqda, Ərəş sultanı

məlik Əli bu fürsətdən istifadə edib, müstəqil siyasət yeritməyə başladı. Qutqaşın sultanlığı da öz müstəqilliyini bərpa etdi [9, s.15].

Qəbələ sultanlığında isə vəziyyət fərqli məcrada cərəyan etdi. XVIII əsrin 50-ci illərinin ortalarında baş verən müharibə və hərbi toqquşmalar, həmçinin təbii fəlakətlər, epidemiyalar Qəbələ şəhərinin tənəzzülünü sürətləndirdi. Azərbaycan və Cənubi Qafqaz tarixinə aid qiymətli əsərlərin müəllifi **Rəşid bəy İsmayılov** qeyd etmişdir ki, 1754-cü ildə Azərbaycan bədbəxtliyə düçar olmuş, vəba epidemiyası on minlərlə insanı məhv etmişdi. Ağsu əhalisinin yarısından çoxu həlak olmuşdu [10, s.80]. Bəla Qəbələdən də yan keçməmişdi. Bir sıra mənbələrdə həmçinin Ağakişi xanın hakimiyyətə gəldiyi 1755-ci ildə bu bölgədə güclü zəlzələ baş verdiyi qeyd olunmuşdur. Həm kütləvi epidemiya, həm də güclü zəlzələ Qəbələyə sarsıdıcı zərbə vurdu, şəhərin iqtisadi-siyasi cəhətdən rolu zəiflədi, əhalisinin çoxu müxtəlif yerlərə köçüb getdi. Bütün bunlar Qəbələnin şəhər, sultanlıq mərkəzi statusunu itirməsinə gətirib çıxardı. Qəbələ sultalığının torpaqlarında **Bum və Xaçmaz mahalları** yaradıldı. Bu mahalları Şəki xanlarının təyin etdiyi naiblər idarə etməyə başaldılar.

XVIII əsrin ikinci yarısında yalnız Qəbələ şəhər yerinin Qala sahəsinin cənub tərəfində yaşayış davam etmişdi. Lakin həmin yaşayış yerinin qərb kənarından axan Qaraçayda tez-tez baş verən sel təhlükəsinə görə, əhali oranı da tərk edərək bir qədər aralıya – yeni əraziyə köçdü. Beləcə, *Çuxur Qəbələ* adlı yeni yaşayış məntəqəsi yarandı [3, s.75].

Urmiyalı Fətəli xan Əfşar Azərbaycanın şimal xanlıqlarına hücum etdiyi zaman Qutqaşın sultanlığı onun tabeliyinə keçdi. [4, III c., s.383]. ***Ərəş sultanı məlik Əli*** də tələsik Urmiyalı Fətəli xanın hüzuruna gedərək, itaət göstərdi, ardınca da Şəki xanlığının idarəsini ona verməyi təmənna etdi. Lakin Hüseyn xan zirək tərpənib ***Qutqaşınlı Kəlbəli sultan*** və digər tərəfdarları ilə birlikdə Fətəli xanın hüzuruna getdi, bahalı hədiyyələr təqdim edib itaət göstərdi. Fətəli xan da ona xan ləqəbi verdi və Şəki xanlığının idarəsini tapşırdı. Hüseyn xan geri qayıdan kimi məlik Əlini öldürtdü, bütün mülklərini də yenidən Şəki xanlığına birləşdirdi [6, s.165; 7, s.519].

XVIII əsrin 80-ci illərində Şəki hakimi Məhəmmədhəsən xan mövqeyini möhkəmlətmək üçün Qubalı Fətəli xanla yaxınlaşdı, sonra da Qutqaşın və Ərəş sultanlıqlarında öz hakimiyyətini gücləndirdi. Lakin **1793-cü ildə** Şamaxılı Mustafa xan Şəki xanlığının təsirindən qurtulmaq üçün Qazıqumuqlu Surxay xanla ittifaqa girdi [11, c.28]. O zamankı Ərəş hakimi ***sultan Şəhabəddin*** də bu ittifaqa qoşuldu. Müttəfiqlər eyni zamanda 3 istiqamətdən Şəki xanlığına hücum etdilər [6, s.178]. Bütövlükdə bu hücumlar nəticəsiz oldu. Məhəmmədhəsən xan Ərəş sultanlığında separatizmə qəti son qoydu: sultanlıq adını ləğv etdi, adi mahal səviyyəsinə endirdi. Ərazisində 4 yeni inzibati vahid: **Ərəş, Ağdaş, Alpout və Padar mahalları yaradıldı.** Həmin mahalları Şəki xanının təyin etdiyi naiblər idarə etməyə başladılar.

XVIII əsrin sonunda Qutqaşın sultanlığı da yarımüstəqil feodal hakimliyi statusunu itirdi, adi mahala çevrildi. Bununla belə, Qutqaşın sultanı Şəki xanlığına loyal münasibətinə görə, öz titulunu saxlaya bildi. Lakin o da mahal naibi səviyyəsində hüquqlara malik idi. Tarixçi **Kərim Şükürov** bununla bağlı yazmışdır ki, sultanlığı Şəki xanının yerli Qutqaşın sultanlarından təyin etdiyi naiblər idarə edirdi [12, s.197]. Lakin bu müəllifin Qutqaşın sultanı Məhəmməd Şəfinin malikanəsinin bir hissəsini XVIII əsrin sonunda Şəki hakimi Məhəmmədhəsən xana, qalan hissəsini isə XIX əsrin əvvəllərində Cəfərqulu xana satması [12, s.197] haqqında mülahizələri mənbələrdə təsdiqini tapmır. Əksinə, XIX əsrin ilk onilliklərinə aid mənbələrdə Qutqaşın mahalındakı kəndlərin əksəriyyətinin Nəsrullah sultan və Əhməd sultan qardaşlarının mülkiyyətində olduğu əks olunmuşdur [1, c.77,89].

1805-ci il mayın 14-də Kürəkçayda bağlanan müqaviləyə görə Şəkili Səlim xan Rusiya himayəsinə keçmək haqqında müqavilə imzaladı. Şəki xanlığı ilə birlikdə Ərəş, Qəbələ və Qutqaşın bölgələri də Rusiya tabeliyinə düşdü. 1819-cu ildə isə xan hakimiyyəti ləğv edildi, Şəki xanlığı qəti şəkildə Rusiyaya birləşdirildi. Xanlığın ləğvindən sonra, yerində yaradılmış **Şəki əyalətinin** 8 mahalı var idi. O dövrə aid mənbədə Şəki mahalı ilə yanaşı, *Ərəş, Ağdaş, Alpout, Padar, Bum, Xaçmaz və Qutqaşın da mahal kimi əks olunmuşdur* [1, c.5; 5, c.323-392; 23].

İnzibati idarəçilik. Şəki əyalətinin 1819-cu il üzrə təsvirinə görə əyalətin ən böyük mahalı keçmiş Şəki xanlığının ərazisini əhatə edən eyni adlı mahal idi. ***Şəki mahalında*** 78 kənd var idi. Həmin kəndlərdən 66-sı yerli bəylərin irsi idarəçiliyində sayılırdı. 53-də Azərbaycan türklərinin, 13-də xristianların yaşadığı bu kəndlərin əhalisindən ildə 20 488 Rusiya gümüş rublu həcmində vergi toplanırdı

[1, c.9-39]. 12 kənd isə yerli bəylərin irsi mülkiyyətində idi və onların 10-dan xəzinəyə heç bir gəlir daxil olmurdu. Bu kəndlərdən yalnız 2-si öncə xana, 1819-cu ildən sonra isə Rusiya xəzinəsinə illik taxıl məhsulunun onda biri, xam ipəyin beşdə biri həcmində malcəhət vergisi ödəyirdi [1, c.93].

Şəki xanlığı ləğv edilib Rusiyanın əyalətinə çevrildiyi zaman ***Ərəş mahalının*** 27 yaşayış məntəqəsi var idi. Həmin kəndlərin 6-sı bəylərin xüsusi mülkiyyətində idi və xəzinəyə heç bir vergi ödəmirdilər.Qalan 21 kənd isə bəylərin idarəçiliyində sayılırdı və toplanan vergilər xəzinəyə çatırdı [1, c.91, 51-59]. Ərəş mahalında əhalinin əksər hissəsini sünni təriqətinə aid Azərbaycan türkləri təşkil edirdilər.

1819-cu ildə ***Ağdaş mahalında*** 39 yaşayış məntəqəsi var idi, hamısında Azərbaycan türkləri yaşayırdı [21, c.40-50]. Bu kəndlərin 27-si yerli bəylərin irsi idarəçiliyində idi və əhalisindən ildə 5 097 Rusiya gümüş rublu həcmində vergi toplanırdı [1, c.50]. Qalan 12 kənd isə yerli bəylərin irsi mülkiyyətində idi və onlardan xəzinəyə heç bir gəlir daxil olmurdu [1, c.90].

Şəki əyaləti yaradılan zaman **Alpout mahalında** 18 yaşayış məntəqəsi var idi, hamısında Azərbaycan türkləri yaşayırdı [1, c.60-67]. Bu kəndlərin əhalisindən ildə 3 719 Rusiya gümüş rublu həcmində vergi toplanırdı [1, c.67].

1819-cu ildə ***Padar mahalında*** 10 yaşayış məntəqəsi var idi, hamısında Azərbaycan türkləri yaşayırdı [1, c. 70-75]. Bu kəndlərin əhalisi hər il xəzinəyə 2 277 Rusiya gümüş rublu həcmində vergi ödəyirdi [1, c.75].

Bütövlükdə, 1819-cu ildə keçmiş Ərəş sultanlığının ərazisində 85 yaşayış məntəqəsi mövcud idi. Bu isə o demək idi ki, Ərəş sultanlığı ərazisinə, əhalisinin sayına və illik gəlirinə görə Azərbaycanın bir çox xanlıqlarından daha böyük idi.

1819-cu ildə ***Xaçmaz mahalında*** 14 yaşayış məntəqəsi var idi, hamısında Azərbaycan türkləri yaşayırdı [1, c.68-69]. Həmin kəndlər aşağıdakılar idi: *Xaçmaz, Xalxal, Söyüdlü, Qaraoğlan, Qarasu (Qarabulaq?), Ərmənət, Böyük Söyüdlü, Tayıflı, Xalxalqışlaq, Mollalı, Şirvanlı, Vartaşen, Top və Padar*. Bu kəndlərin əhalisindən ildə 3 197 Rusiya gümüş rublu həcmində vergi toplanırdı [1, c.69].

Şəki xanlığı ləğv edilən zaman ***Bum mahalında*** 17 yaşayış məntəqəsi var idi. Bu kəndlərin 7-si – *Quşlar, Sarıhacallı, Zirik, Bəyli, Dızıxlı, Şamlı, Zərgərli* yerli bəylərin xüsusi mülkiyyətində idi və sahibləri tərəfindən xəzinəyə heç bir vergi ödənmirdi [1, c.92]. Digər 10 kənd – *Həmzəli, Bum, Mamaylı, Məlikli, Çuxur-Qəbələ, Carrı, Tossık (Tevfik – Q.Ə.), Tikanlı, Mıxlı-qovaq və Nic* yerli feodal hakimlər: **Əlirza bəy, Səfərəli bəy, Hacı Ağa bəy, Kərim bəy və digər bəylər** tərəfindən idarə edilirdi [1, c.78-79]. Bu 10 kəndin əhalisindən ildə 4 473 Rusiya gümüş rublu həcmində vergi toplanırdı [1, c.79].

1819-cu ildə ***Qutqaşın mahalında*** 26 yaşayış məntəqəsi var idi, 25 kənddə Azərbaycan türkləri, 1 kənddə - Əmirvanda xristianlar yaşayırdılar. Bu kəndlərdən 11-i **Əhməd sultan, Hacı Nəsrullah**

sultan qardaşlarının və Hacı Şəfi bəyin irsi idarəçiliyində idi [1, c.76-77]. Həmin kəndlər aşağıdakılar idi: *Qutqaşın, Tüntül, Qaputı (Bunud?), Sultannuxa, Tövlə, Bəngi?, Zarağan, Aydın-qışlaq, Pirəli, Kürd Eldarbəyli və Əmirvan*. Bu kəndlərin əhalisindən ildə 1 761 Rusiya gümüş rublu həcmində vergi toplanırdı [1, c.77].

Qutqaşın mahalının digər 15 yaşayış məntəqəsi isə **Əhməd sultan və Hacı Nəsrullah sultan qardaşlarının, həmçinin Şəfi bəy, Xanbaba bəy, Kərim bəy və Taşdi bəyin** irsi mülkiyyətində idi. Bu kəndlər aşağıdakılar idi: *Yengicə, Bəyli, Solquca, Topbağ, Mollaşıxalı, Böyük Əmili, Kiçik Əmili, Zalam, Sabur(Zabar?), Eleqan?, Bılıx, Daşca, Cocuq (Kiçik) Pirəli, Vann (Vəndam?), Girdadul.* Bu kəndlərin ilk 13-dən xəzinəyə heç bir gəlir daxil olmurdu. [1, c.89]. Sonuncu 2 kənd Əhməd sultan və Hacı Nəsrullah sultan qardaşlarının xüsusi mülkü olsa da, sakinləri xəzinəyə vergi ödəyirdilər.

Xaçmaz, Bum və Qutqaşın mahalları XIX əsrin ilk onilliklərində ayrıca inzibati vahidlər kimi rəsmi sənədlərdə əks edilsə də, onların hamısı yerli əhali arasında daha əvvəlki zamanlarda adlandığı kimi, Qəbələ mahalı sayılırdı.

Sultanlıqların əhalisi və sosial tərkibi. 1824-cü ildə Şəki əyalətində əhalinin ilk siyahıyaalması keçirildiyi zaman **əhalisinin sayı 97 338 nəfər** idi. Həmin ilə aid *kameral sayıma görə,* bu əhalinin 33 794 nəfəri Şəki mahalının 90 kəndinin, 13 351 nəfəri Şəki (Nuxa) şəhərinin payına düşürdü. Həmin vaxt Ərəş mahalında 27 kənddə 4 835 nəfər, Ağdaş mahalında 34 kənddə 5 179 nəfər, Padar mahalında 14 kənddə 3 107 nəfər, Alpout mahalında 24 kənddə 4 813 nəfər, Qutqaşın mahalında 38 kənddə 12 939 nəfər, Xaçmaz mahalında 26 kənddə 11 810 nəfər, Bum mahalında 20 kənddə 7 510 nəfər əhali yaşayırdı [13].

Ərəş, Qəbələ və Qutqaşın sultanlıqlarında əhalinin əksəriyyətini yerli Azərbaycan türkləri təşkil edirdi. Xristian əhalinin çoxu XVIII əsrin sonu - XIX əsrin ilk onilliklərində Qarabağdan Qəbələ və Ərəş bölgələrinə köçüb məskunlaşmışdılar [5, c.352-353]. Qarabağın xristian alban əhalisinin bir hissəsinin Qəbələ və Ərəş mahallarına köçməsinin əsas səbəbi bəhs olunan dövrdə Qarabağ xanlığı ərazisinin hərbi əməliyyatlar meydanına çevrilməsi və əmin-amanlığın pozulması idi.

1833-cü il kameral sayımına görə *Şəki əyalətinin 270 kəndində və Şəki (Nuxa) şəhərində cəmisi 21 624 ailə yaşayırdı* ki, bu ailələrdə kişi əhalisinin sayı 55 723 nəfər idi. Kişi əhalisinin 46 630 nəfəri tatar (Azərbaycan türkü – Q.Ə.), 8 938 nəfəri xristian, 485 nəfəri yəhudi idi [5, c.359].

Şəki xanlığında, o cümlədən onun tərkibindəki Ərəş, Qəbələ və Qutqaşın mahallarında əhali *bəy, ruhani, maaf, rəiyət və rəncbərlərə* bölünürdü. ***Bəylər*** əhalinin yüksək təbəqəsi sayılırdı. *Bəy* titulunu xan nəslindən olanların övladları və qohumları, *sultan, məlik və kəndxuda* titullarını isə nisbətən kiçik torpaq sahibləri daşıyırdılar. Şəki xanlığı əyalətə çevrilən zaman mövcud kəndlərin 32 faizi xan sülaləsinin üzvləri, qohumları və digər nüfuzlu bəy, ağa və sultanların mülkiyyətində idi [14, s.35]. Sultan və məlik titulu daşıyan şəxslər irsi feodal hakimlər idilər və nəsildən-nəsilə keçən mülklərə sahib idilər [15, c.21]. Xan qarşısında xüsusi xidmətləri olan maafa da bəylik verilirdi. Qutqaşın mahalının hakimi isə sultan adlanırdı. Xristian kəndlərinin kəndxudaları bəzən məlik titulu daşıyırdılar. 1833-cü il kameral sayımına görə həmin vaxt Şəki əyalətində 1 sultan, 2 məlik, 260 azərbaycanlı və 11 xristian bəy ailəsi var idi [5, c.360].

1833-cü il kameral sayımına görə Şəki əyalətində 546 tatar (azərbaycanlı – Q.Ə.), 75 xristian, 10 yəhudi ***ruhani*** ailəsi var idi [5, c.361]. Bütün məzhəblərdən olan din xadimləri vergi və mükəlləfiyyətlərdən azad idilər, əhalinin ayin və mərasimlərə görə, həmçinin uşaqlara savad öyrətmələri əvəzində ödədiyi könüllü ianələr hesabına yaşayırdılar.

Maaflar xanlıq dövründə qoşunun əsasını təşkil edirdilər və ona görə də bütün vergi və mükəlləfiyyətlərdən azad edilmişdilər. Maaf da bunun əvəzində döyüşə öz atı və silahı ilə getməli idi. [16, c.39; 15, c.22]. XIX əsrin 30-cu illərində Şəki əyalətində 670 maaf ailəsi mövcud idi [5, c.364].

Rəiyət xəzinə, yəni keçmiş xan torpaqlarında yaşayan insanlar idilər və yalnız xəzinəyə vergi ödəyirdilər. Bəylərə məxsus torpaqlarda yaşayan kəndlilər də rəiyət sayılırdı. Onlar həm xəzinəyə, həm də torpaq sahiblərinə vergi ödəyir, mükəlləfiyyətlər icra edirdilər. Tacir və sənətkarlar da rəiyət hesab edilirdilər. [5, c.364].

Rəncbər xan, bəy və ya din xadimlərinə məxsus, onlardan tam asılı olan şəxs idi. Vaxtı ilə xana məxsus olan rəncbərlər, xanlığın ləğvindən sonra xəzinəyə məxsus sayılırdılar və ipəkçiliklə məşğul

olur, çəltik becərirdilər. İpəkçiliklə məşğul olan rəncbər ailələrinin sayı 447-ə qədər, çəltikçiliklə məşğul olan rəncbər ailələrinin sayı 315-ə qədər idi [5, c.367].

İqtisadi həyat. Ərəş, Qəbələ və Qutqaşın sultanlıqlarının iqtisadi həyatında, Azərbaycanın digər bölgələrində olduğu kimi, taxılçılıq və heyvandarlıq tarixən önəmli yer tutmuşdur. Bu bölgələrin əkinə yararlı torpaqlarında buğda, arpa, darı, çəltik əkinləri geniş miqyasda davam edirdi. Ərəş, Qəbələ və Qutqaşın sultanlıqları, həm də Azərbaycanın əsas və ən keyfiyyətli ipək istehsal edilən bölgələrindən sayılırdı. Ərəş sultanlığının 2 kəndində 74 təsərrüfatda, Qəbələ-Ağdaş bölgəsinin 12 kəndində 206 təsərrüfatda tut bağı salınmış və barama becərilirdi. Ərəş hakimi sultan Əli özü üçün Məlik-arx kəndində 3 tut bağı satın almış və kənd əhalisini baramaçılıqla məşğul olmağa yönəltmişdi [1, c.38]. Bu bağlardan əlavə, xan bağları adlanan yerlər də var idi ki, Şəki xanlığında istehsal olunan xam ipəyin yarısını verirdi. 1819-cu ildə bu bağlardan 4,5 batman (1 batman 8 kq-a bərabərdir – Q.Ə.) xam ipək əldə edilmişdi ki, bazar qiyməti ilə Rusiya gümüş rublu dəyərində idi. Rus tacirləri xam ipək və ipək parça satın almaq üçün daha çox bu yerlərə gəlirdilər [2, c.8,121]. Ərəş sultanlığında taxıl və bağ-bostan əkinlərini süni suvarma məqsədi ilə çoxlu sayda kanallar və arxlar çəkilmişdi [2, c.122].

Nəticə. Ərəş, Qəbələ və Qutqaşın bölgələrindən keçən yollar Azərbaycan və Qafqaz miqyasında ticarətdə mühüm rol oynayırdı. XVIII əsrdə Xəzər dənizi sahili boyunca Bakıya, oradan da Şamaxı-Şəki-Laqodex-Tiflis və Qara dəniz istiqamətində karvan yolu böyük əhəmiyyətə malik idi. Bu yoldan Ərəş mahalında Xaldandan cənub-şərqə tərəf Qarxun kəndi yaxınlığında Qarabağa doğru başqa bir yol ayrılırdı [17, s.34]. Bu yollar ilə əsasən dəvə karvanları vasitəsi ilə yük daşınırdı. Lakin Mingəçevir keçidindən Şəkiyə və Şamaxıya doğru yollar araba ilə yük daşınması üçün də münasib idi. Bütün bu faktlar aydın göstərir ki, Ərəş, Qəbələ və Qutqaşın sultanlıqları XVIII yüzillikdə və XIX yüzilliyin əvvələrində Azərbaycanın sosial-iqtisadi həyatında önəmli rol oynamaqda davam edirdilər.

ƏDƏBİYYAT

1. Описание Шекинской провинции составленное в 1819 году генерал-майором Ахвердовым и стат.сов. Могилевским. Тифлис, Тип. Гл. упр. Наместника Кавказа, 1866, 98 с.
2. Абдуллаев Г. Азербайджан в XVIII веке и взаимоотношения его с Россией. Баку, изд-во АН Азерб.ССР, 1965, 621 с.
3. Qəbələ tarixi. Baş red. akad. T.Ə.Bunyadov. Bakı, “GPS PP” MMC, 2017, 312 s.
4. Azərbaycan tarixi. Yeddi cilddə, III c., Bakı: Elm, 2007, 592 s.; IV c., Bakı: Elm, 2007, 504 s.
5. Шекинская провинция // Обозрение Российских владений за Кавказом, в статистическом, топографическом и финансовом отношениях. ч. III, СПб: Тип. Департамента внеш.торговли, 1836, 392 с., с.323-392
6. Bakıxanov A. Gülüstani-İrəm. Bakı, Az.SSR EA nəşriyyatı, 1951, 255 s.
7. Azərbaycan tarixi (uzaq keçmişdən 1870-ci illərə qədər). S.S.Əliyarlının redaktəsi ilə. Bakı, “Azərbaycan” nəşriyyatı, 1996, 872 s.
8. Mustafazadə T.T. Azərbaycan xanlıqlarının qısa tarixi. Bakı, “VIKTORI” NPM, 2011, 388 s.
9. Kərim ağa Fateh. Şəki xanlarının müxtəsər tarixi // Şəki xanlığının tarixindən. Bakı, “Azərbaycan Ensiklopediyası” nəşriyyat-poliqrafiya birliyi, 1993, s.9-21
10. İsmayılov R. Azərbaycan tarixi. Bakı: Azərnəşr, 1993, 164 s.
11. Мустафаев Дж.М. Северные ханства Азербайджана и Россия (конец XVIII – начало XIX в.). Баку, Элм, 1989, 128 с.
12. Şükürov K.K. Azərbaycan tarixi.Üç hissədə. 2-ci hissə. Bakı, Bakı Universiteti nəşriyyatı, 2004, 380 s.
13. Şeki eyaleti // https://www.shaki.info/wiki/Sheki_eyaleti (müraciət tarixi - 22.08.2025)
14. Abdullayev M.Q. Xanlıqlar və rus müstəmləkəçiliyi dövründə Şimali Azərbaycanda aqrar münasibətlər (XIX əsrin 40-cı illərinə qədər). Bakı, “Adiloğlu” nəşriyyatı, 2005, 232 s.
15. Абдурахманов А.А. Азербайджан во взаимоотношениях России, Турции и Ирана в первой половине XVIII в. Баку, Изд-во Акад. наук АзССР, 1964, 135 с.

16. Петрушевский И.П. Персидские официальные документы XVI – начала XIX вв. как источник для истории феодальных отношении в Азербайджане и Армении // Проблемы источниковедения, т. III, изд. АН СССР. 1940, с. 15 50.
17. Əliyev Q.Ə. Qafqazda nəqliyyatın inkişafı (XVIII əsrin sonu – XX əsrin başlanğıcı). Bakı, Turxan NPB, 2019, 400 s.

ГАБИЛЬ АЛИЕВ
Доктор исторических наук, профессор
Бакинский государственный университет,
Азербайджанский университет

СУЛТАНАТЫ АРАШ, ГАБАЛА И ГУТГАШЫН: СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКАЯ И ЭТНО-ДЕМОГРАФИЧЕСКАЯ СИТУАЦИЯ

Изучение административной структуры, социально-экономической жизни и этно-демографических процессов, происходивших в султанатах Араш, Габала и Гутгашын Азербайджана имеет большое значение. В статье исследованы изменений, произошедших в управлении султанатах, экономической жизни населения в период подчинения этих регионов Шекинскому ханству, и их последующей оккупации Российской империей в начале XIX века.

Ключевые слова: султанаты Араш, Габала и Гутгашын, Шекинское ханство, социально-экономические события, этно-демографические процессы, Российская империя.

GABIL ALIYEV
Doctor of Historical Sciences, Professor
Baku State University, Azerbaijan University

THE SULTANATES OF ARAS, GABALA, AND GUTGASHYN: SOCIO-ECONOMIC AND ETHNO-DEMOGRAPHIC SITUATION

The study of the administrative structure, socio-economic life, and ethno-demographic processes that took place in the Arash, Gabala, and Gutgashin sultanates of Azerbaijan is of great importance. This article examines the changes that occurred in the governance of the sultanates and the economic life of the population during the period of these regions' subordination to the Shaki Khanate and their subsequent occupation by the Russian Empire in the early 19th century.

Keywords: Arash, Gabala, and Gutgashin sultanates, Shaki Khanate, socioeconomic events, ethnodemographic processes, Russian Empire.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 05 may 2026-cı il.
Məqalənin çapa qəbul olunma tarixi: 21 may 2026-cı il.
Rəyçilər: t.ü.f.d. Mehman Abdullayev, t.e.d. İbrahim Zeynalov.

UOT 94(479.24); UOT 94”16/18”

ELBRUS BAĞIŞOV
Bakı Dövlət Universitetinin doktorantı
Orcid: https://orcid.org/0009-0003-7408-1675
elbrus2080@gmail.com

RUSİYA İMPERİYASININ ŞİMALİ AZƏRBAYCANDA APARDIĞI İNZİBATİ-ƏRAZİ DƏYİŞİKLİKLƏRİ (1830-1840)

DOI: https://doi.org/10.36719/2708-065X/113/39-42

Məqalədə Rusiya imperiyasının Türkmənçay müqaviləsindən sonra Arazdan şimalda yerləşən Azərbaycan torpaqlarında apardığı inzibati-ərazi dəyişiklikləri araşdırılmışdır. Öyrənilən problem göstərir ki, XIX əsrin 30-cu illərində Rusiyanın Cənubi Qafqazda idarəetmə sistemi tənəzzülə uğramışdı. Öyrənilən tədqiqat obyekti göstərir k, işğal edilmiş Azərbaycan xanlıqları əyalət və dairələrə çevrildikdən sonra faktiki olaraq ölkənin idarəçiliyi komendantların əlində cəmləşmişdi. Hökm sürən dərəbəylik komendatlara yerli əhaliyə ölüm hökmü vermək hüququnu da vermişdi. Rusiyanın müstəmləkə siyasətinin eybəcər təzahürünə çevrilmişdilər. Məhz bu səbəbdən Rusiya imperiyası Cənubi Qafqazda mövqelərini möhkəmləndirmək üçün islahatlar keçirməyə məcbur idi. Belə islahatlar Şimali Azərbaycanda da keçirilmişdi. Bu islahatlar nəticəsində ərazi bölgüləri dəyişdirilib, qəza və quberniyalarla əvəz olundu. Göstərilən xronoloji çərçivədə tədqiqat obyekti faktiki materiallar və problemin öyrənilməsi səviyyəsi əsasında araşdırılmışdır.

Açar sözlər: Şimali Azərbaycan, Rusiya imperiyası, Dərbənd qəzası, inzibati-ərazi islahatları, İrəvan şəhəri, Zaqafqaziya komitəsi

Giriş. Türmənçay müqaviləsindən sonra Arazdan şimalda yerləşən Azərbaycan torpaqlarının işğalını başa çatdıran Rusiya imperiyası müstəmləkə siyasətinə söykənib müsəlman ölkəsində siyasi hökmranlığını bərqərar etmək üçün müxtəlif vasitələrə əl atırdı və onlardan biri də vaxtaşırı olaraq keçirilən inzibati-ərazi islahatları idi. Bu inzibati-ərazi islahatları hələ XIX əsrin əvvəllərində xanlıqların ləğvi, komendant idarə üsulunun qurulması, daha sonra 1828-ci ildə, İrəvan və Naxçıvan xanlıqlarının ləğvi, onların yerində “erməni vilayəti” adlı qondarma qurumun yaradılması ilə başlanmışdı. Bununla belə, bu islahatlar lokal xarakter kəsb etdiyinə görə, Rusiya imperiyası aparılan islahatları tədricən genişləndirməyə başlamışdı və Şimali Azərbaycan əraziləri də daxil olmaqla bütün Cənubi Qafqaz inzibati-ərazi islahatlarına məruz qalmışdı. Rusiya hakim dairələrinin bu islahatlara əl atmasının bir sıra səbəbləri var idi və bunlardan biri də komendantların özbaşınalığı , mərkəzi hakimiyyətin tələblərindən uzaqlaşması və dərəbəyliyin fonunda işğal edilmiş torpaqlarda yerli əhalinin antirusiya çıxışlarına başlaması idi. Bu dəlillər göstərir ki, komendant idarəçiliyi artıq Rusiyanın Cənubi Qafqazda apardığı müstəmləkə siyasətinə cavab vermirdi. Bütün bunları nəzərə alan mərkəzi hakimiyyət Cənubi Qafqazın təftişini həyata keçirməyə başladı. Təftişdə əsas məqsəd Cənubi Qafqazda gələcək inzibati-ərazi dəyişikliklərinə hazırlıq səviyyəsinin yerində öyrənilməsi, bölgənin bu dəyişikliklərə nə dərəcədə hazır olmasını yoxlamaq idi.

Cənubi Qafqazda inzibati-ərazi islahatlarının keçirilməsi ilə bağlı təkliflər. Cənubi Qafqaza göndərilən Rusiya məmurları imperiyanın bölgədə dayaqlarının itirilməsindən ehtiyat edərək bir sıra təkliflər irəli sürdülər. Bu təkliflər sırasında Cənubi Qafqazın idarə edilməsi, bölgənin saxlanılması üçün xərclərin daxili imkanlar hesabına təmin edilməsi, eləcə də regiounun Rusiya ilə siyasi tellərlə bağlanılması məsələləri xüsusi yer almışdı. Məsələlər təkcə bununla bitmirdi. Təkliflər içərisində Cənubi Qafqazın dövlətin qorunması işlərinə yaxından cəlb olunması da yer almışdı [6, s.321]. Bundan başqa, təkliflər içərisində iqtisadi məsələləri özündə ehtiva edən müddəalar da yer almışdı.

Öyrənilən tədqiqat obyekti göstərir ki, Rusiya imperiyasının Cənubi Qafqazda islahat layihələrinin hazırlanması və həyata keçirilməsində Rusiyanın Cənubi Qafqazdakı baş hakimi İ.Paskeviç daha çox çalışırdı. Görülən işlərlə bağlı olaraq o, 1830-cu ilin aprelində I Nikolaya layihənin mətnini göndərdi. Layihənin mətnindən aydın olur ki, Cənubi Qafqazda Rusiyanın daxili quberniyalarında olduğu

kimi quberniya, vilayət, qəza inzibati və məhkəmə idarələrinin yaradılması nəzərdə tutulurdu. Bu qurumlara rus zadəganları içərisindən çıxmış məmurlar başçılıq etməli və ən əsası isə bu inzibati-ərazi vahidlərində Rusiya qanunları işləməli idi [1, s.119]. Beləliklə, Rusiya Cənubi Qafqazda siyasi hökmranlığını möhkəmləndirmək məqsədi ilə islahatlara başaldı. Əslində, bu islahatlar bölgənin etnik mənzərəsinə də ciddi şəkildə təsir edirdi. Belə ki, rus məmurlarının yerlərdə vəzifələrə cəlb edilməsi, ölkədə rus elementinə artıma gətirib çıxarır və Azərbaycan əhalisinin tərkibində demoqrafik dəyişikliklər yaradırdı.

Daha sonra 1837-ci ilin iyunun əvvəlində imperator I Nikolyaın tapşırığı ilə Cənubi Qafqazda islahatların həyata keçirilməsi üçün P.V.Qanın rəhbərliyi altında xüsusi komissiya yaradıldı və Cənubi Qafqaza göndərildi. Komissiyanın tərkibinə həmçinin ədliyyə naziri D.N.Bludov və hərbi nazir A.İ. Çernışev də daxil edilmişdilər [3, s.7].

1837-ci ilin noyabrın əvvəllərində P.V. Qan A.İ.Çernışevə tərtib etdiyi "Zaqafqaziya vilayətinin hazırkı vəziyyəti haqqında" qeydini göndərir. Qeydlərdən aydın olur ki, Cənubi Qafqazın idarəçiliyi üçün o, bir sıra təkliflər irəli sürür ki, onların sırasında Azərbaycan türklərinin, gürcü və ermənilərin nəzərə alınması, kənd təsərrüfatının inkişaf etdirilməsi, bölgədə istehsal olunan məhsulların Rusiya bazarlarına sərbəst şəkildə daxil olmasının təmin edilməsi, eləcə də yerli feodal qruplar arasında münasibətlərin tənzimlənməsi kimi məsələlər yer almışdı [3, s.9]. Məsələ təkcə bununla yekunlaşmırdı. Təklif olunan layihələrdə icra hakimiyyətinın məhkəmə sistemindən ayrılması və onun regional idarəetmə kimi məsələlər də yer almışdı. Burada həmçinin birja, incəsənət kimi məktəblərin açılması da nəzərdə tutulmuşdu.

Hazırlanmış islahat layihəsi 1838-ci ilin əvvəlində tamamlanmış və "Zaqafqaziya Rusiyasının idarə edilməsi haqqında Əsasnamə" adını almışdı. Əsasnamə 1839-cu ilin dekabrında Nazirlər Komitəsi və Zaqafqaziya Komitəsində müzakirə olunmuş və bu müzakirələr asan keçməmişdi. Müzakirə zamanı bir sıra fikir ayrılıqları özünü göstərdi. Bunlardan biri Qafqazın idarə edilməsi ilə bağlı idi. Fikir ayrılıqlarından biri maliyyə naziri E.F.Kankrinin çıxışı zamanı səsləndirdiyi "Gürcüstana Rusiyanın tərkib hissəsi kimi deyil, daha çox müstəmləkə kimi baxmaq lazımdır" kimi fikirləri ilə bağlı idi. Digər tərəfdən isə o qeyd edirdi ki, Cənubi Qafqazı Rusiyadan ayırmaq tamamilə yalnışdır [5, s.292].

Əsasnaməyə mənfi münasibət bildirənlər sırasında əmlak naziri P.D.Kiselev da var idi. O qeyd edirdi ki, Cənubi Qafqaza daxili əyalətlərin inzibati sisteminin tətbiq edilməsi məqsədəuyğun deyil və bütün bunlara şübhə ilə yanaşırdı. P.D.Kiselevun fikrincə, həm gürcülərin, həm də müsləman bölgələrinin idarəçiliyində ciddi çatışmazlıqlar var və bu çatışmazlıqlar Gürcüstanda çar Vaxtanqın qanunlarının tətbiqi, müsəlmanların və dağlıların qanunları ilə daha çox bağlı idi [5, s.293].

Cənubi Qafqazın idarə edilməsi ilə bağlı Əsasnamə layihəsinin gərgin keçən müzakirələrindən sonra təsdiqlənməsi həllini tapdı. P.V.Qan tərəfindən hazırlanmış bu layihəni Zaqafqaziya Komitəsi təsdiqlədi və 1840-cı il aprelin 10-da o, qanun şəklini aldı [4, s.237].

Bununla bağlı olaraq imperator I Nikolay reskript imzaladı və Qafqazın baş qubernatoru E.A. Qolovinə qanunu senator P. V. Qan ilə birgə həyata keçirməyi tapşırdı [7, s.301].

"Zaqafqaziya diyarının idarə üçün təsisatlar qanunu" və Şimali Azərbaycan. Cənubi Qafqazda həyata keçirilən islahatlar "Zaqafqaziya diyarının idarəsi üçün təsisatlar" adını aldı. Qanun şəklini almış islahat layihəsi beş hissədən ibarət idi. Bunlar "Zaqafqaziya diyarının idarəsi üçün təsisatlar", "Bütün idarələrin ştatları", "Tiflisdə şəhər ictimai idarəsi haqqında Əsasnamə", "Zemstvo mükəlləfiyyətləri haqqında Əsasnamə", "Qafqazda xidmət edən məmurların imtiyazları haqqında Əsasnamə"dən ibarət idi [4, s.237-240].

1840-cı il 10 aprel tarixli qanun Şimali Azərbaycanın inzibati-ərazi bölgülərini də əhatə etmişdi. Belə ki, yeni qanuna görə Dərbənd əyaləti Dərbənd qəzasına, Quba əyaləti Quba qəzasına çevrildi və bundan sonra mərkəzi şəhəri Dərbənd olan Dağıstan hərbi dairəsinə tabe edildi. Bundan başqa, Yelizavetpol dairəsi və Qazax distansiyası Yelizavetpol qəzasına, Şəmşəddil distansiyası, Car vilayəti, İlisu sultanlığı Balakən qəzasına, Naxçıvan əyaləti Naxçıvan qəzasına, "Erməni vilayəti" İrəvan qəzasına çevrilir və mərkəzi şəhəri Tiflis olan Gürcü-İmereti quberniyasına tabe edilirdi [4, s.237-240].

1840-cı il 10 aprel tarixli qanun Şimali Azərbaycanın digər əyalətlərinin də əvvəlki statusunu dəyişdirdi. Belə ki, qanuna görə, Qarabağ əyaləti Şuşa qəzasına, Şəki əyaləti Nuxa qəzasına, Şirvan

əyaləti Şamaxı qəzasına, Talış əyaləti Lənkəran qəzasına, Bakı əyaləti Bakı qəzasına çevrilir və mərkəzi Şamaxı şəhəri olan Kaspi vilayətinə tabe edilirdi.

Qanunda verilmiş qeydə görə, Duşet, Siqnax və Ordubad zaştat şəhərləri hesab edilir, yəni qəzaya daxil idi, lakin qəza mərkəzi olmayan şəhərlər olaraq qalırdı. Zaqafqaziya diyarı 18 qəzaya, 72 sahəyə bölünürdü [4, s.237-240].

"Zaqafqaziya diyarının idarəsi üçün təsisatlar"ın 7-ci paraqrafının məlumatlarına görə, keçmiş İrəvan əyalətinin mərkəzi İrəvan şəhəri idi. O, bütövlükdə İrəvan qəzasına daxil edilmişdi. Bundan başqa, Naxçıvan və Ordubad əyalətləri də mərkəzi Naxçıvan şəhəri olan Naxçıvan qəzasına tabe edilmişdi. Yeni qanuna görə, Naxçıvan qəzası 3 sahəyə bölünmüşdü. Bunlar Naxçıvan, Ordubad və Dərələyəz sahələri idi [2, s.24].

Bu qanunun idarəetmə sisteminə görə Qafqaz diyarına general-qubernator rəhbərlik etməkdə davam edirdi. O, həm də Əlahiddə Qafqaz Korpusunun komandiri vəzifəsini icra edirdi. Bununla belə, Qan islahatına uyğun olaraq, indi ona faktiki olaraq daxili əyalətlərin general-qubernatorları ilə eyni səlahiyyətlər verildi. Yalnız müstəsna hallarda general-qubernatorun Rusiya qanunlarından kənara çıxmasına icazə verilirdi [4, s.238].

Qan islahatına görə, yeni orqan-Baş İdarə Şurası yaradıldı. Onun tərkibinə baş qubernator (sədr), hərbi qubernator və imperator tərəfindən təyin edilən beş üzv - üç hərbi və iki mülki şəxs daxil olmalı idi. Şuranın vəzifələri çox idi. Onlara əyalət qurumlarının fəaliyyətinə nəzarət etmək, müxtəlif yoxlamalar aparmaq, silki hüquqlarla bağlı şikayət və işlərə baxmaq, göstərişlər hazırlamaq, qanunlara əlavə və ya dəyişikliklər tələb edən layihələr hazırlamaq və s. daxil idi. Baş Qubernator şura üzvləri ilə razılaşmırdısa, məsələ baxılmaq üçün Senata göndərilirdi [4, s.238].

Nəticə. Beləliklə, 1840-cı il 10 aprel tarixli qanunun araşdırılması aydın şəkildə göstərir ki, Rusiya imperiyası Cənubi Qafqazda öz hökmranlığının möhkəmləndirilməsi, dayaqlarının zəifləməsinin qarşısını almaq məqsədilə yeni islahatların keçirilməsinə, inzibati-ərazi dəyişikliklərinə başlanmasına qərar vermişdi. Qanunun mətni onu göstərir ki, bu islahatlar daha çox Şimali Azərbaycanda müstəmləkə siyasətinin eybəcərliyini üzə çıxarmışdı.

ƏDƏBİYYAT

1. Azərbaycan tarixi: 7 cilddə: 4-cü cild. Bakı: Elm, 2007, 504 s.+48 s. illüstrasiya.
2. Əmrahov Z. İrəvan quberniyasının tarixi. 1850-1917-ci illər. Bakı: Nurlar, 2022, 368 s.
3. Блиева З.М. Кавказская реформа сенатора П.В. Гана // Вестник Северо-Осетинского государственного университета им. К.Л.Хетагурова, 2018, № 4, с.7-11.
4. Высочайше утвержденное для управления Закавказском краем // ПСЗРИ. Собрание 2-е. т. XV. СПб., 1841, Зак. 13368, с.237.
5. Иваненко Н.Г. Гражданское управление Закавказьем от присоединения Грузии и до наместничества великого князя Михаила Николаевича. Ист. Очерк / Сост. В.Н. Иваненко. Тифлис, 1901, [3], IV, 527 с., 2 л.ил.
6. Колониального политика Российского царизма в Азербайджане в 20-60-х гг. 19-го в. Часть 2: Феодальные отношения и колониальный режим, 1843-1868. М.-Л., 1937, 478 с., [1] с.
7. Об учреждении особого Комитета для введения Закавказском край // ПСЗРИ, Собрание 2-е. т. XV. СПб., 1841, Зак. 13413, с.301.

ЭЛЬБРУС БАГИШОВ
Докторант Бакинского государственного университета

АДМИНИСТРАТИВНО-ТЕРРИТОРИАЛЬНЫЕ ИЗМЕНЕНИЯ, ПРОВЕДЕННЫЕ РОССИЙСКОЙ ИМПЕРИЕЙ В СЕВЕРНОМ АЗЕРБАЙДЖАНЕ (1830-1840)

В статье рассматриваются административно-территориальные преобразования, осуществленные Российской империей на азербайджанских землях к северу от Араза после Туркменчайского договора. Исследуемая проблема показывает, что в 30-е годы XIX века российская система

управления на Южном Кавказе находилась в упадке. Предмет исследования показывает, что после преобразования оккупированных азербайджанских ханств в провинции и округа управление страной фактически сосредоточилось в руках комендантов. Правящий дерабейлик также наделил комендантов правом приговаривать местное население к смертной казни. Они стали отвратительным проявлением колониальной политики России. По этой причине Российская империя была вынуждена проводить реформы для укрепления своих позиций на Южном Кавказе. Такие реформы были проведены и в Северном Азербайджане. В результате этих реформ территориальные деления были изменены и заменены округами и губернаторствами. В рамках указанной хронологической последовательности объект исследования был изучен на основе фактических материалов и уровня исследования проблемы.

Ключевые слова: Северный Азербайджан, Российская империя, Дербентский район, административно-территориальные реформы, город Ереван, Закавказский комитет.

ELBRUS BAGISHOV
Doctoral student at Baku State University

ADMINISTRATIVE AND TERRITORIAL CHANGES CARRIED OUT BY THE RUSSIAN EMPIRE IN THE NORTHERN AZERBAIJAN (1830-1840)

The article examines the administrative-territorial changes carried out by the Russian Empire in the Azerbaijani lands north of the Araz after the Turkmenchay Treaty. The problem studied shows that in the 30s of the 19th century, the Russian system of governance in the South Caucasus was in decline. The object of the study studied shows that after the occupied Azerbaijani khanates were transformed into provinces and districts, the country's governance was actually concentrated in the hands of the commandants. The ruling derabaylik also gave the commandants the right to sentence the local population to death. They became an ugly manifestation of Russia's colonial policy. For this reason, the Russian Empire was forced to carry out reforms in order to strengthen its positions in the South Caucasus. Such reforms were also carried out in Northern Azerbaijan. As a result of these reforms, territorial divisions were changed and replaced with districts and governorates. Within the indicated chronological framework, the object of the study was examined on the basis of factual materials and the level of study of the problem.

Keywords: Northern Azerbaijan, Russian Empire, Derbent district, administrative-territorial reforms, Yerevan city, Transcaucasian committee.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 27 fevral 2026-cı il.
Məqalənin çapa qəbul olunma tarixi: 21 may 2026-cı il.
Rəyçilər: t.e.d. Həcər Verdiyeva, t.e.d. Qabil Əliyev.

UOT 94(479.24)

JALƏ İSMAYILOVA
t.ü.f.d., Bakı Avrasiya Universiteti,
Azərbaycan Memarlıq və İnşaat Universiteti
ORCID: 0009-0005-8198-8544
zhala.ismayilova2016@gmail.com

ƏHMƏD BƏY AĞAOĞLUNUN PUBLİSİSTİK FƏALİYYƏTİNDƏ MİLLİ VƏ ÜMUMBƏŞƏRİ DƏYƏRLƏR

DOI: https://doi.org/10.36719/2708-065X/113/43-48

Bu məqalədə Əhməd bəy Ağaoğlunun publisistik fəaliyyətində milli və dünyəvi məsələlərin əks olunması geniş şəkildə tədqiq edilir. Tədqiqatın əsas məqsədi onun publisistik irsində milli ideyaların, ictimai-siyasi baxışların və dünyəvi dəyərlərin necə təqdim olunduğunu müəyyənləşdirməkdir. Məqalədə Ağaoğlunun müxtəlif dövrlərdə qələmə aldığı publisistik məqalələr, çıxışlar və ictimai-siyasi mövzulu yazılar təhlil edilərək onun ideya istiqamətləri araşdırılır. Araşdırma zamanı müəllifin publisistikasında milli kimlik, azərbaycançılıq ideologiyası, maarifçilik, cəmiyyətin modernləşməsi və ictimai tərəqqi kimi məsələlərin mühüm yer tutduğu müəyyən edilir. Bununla yanaşı, onun yazılarında qadın azadlığı, təhsil, hüquqi dövlət quruculuğu, demokratiya və vətəndaş cəmiyyətinin inkişafı kimi dünyəvi xarakterli mövzuların da geniş şəkildə işıqlandırıldığı göstərilir. Bu baxımdan Ağaoğlunun publisistik fəaliyyəti yalnız milli oyanış ideyalarının təbliği ilə məhdudlaşmır, eyni zamanda müasir və dünyəvi düşüncə tərzinin formalaşmasına xidmət edir.Tədqiqat nəticəsində müəyyən olunur ki, Əhməd bəy Ağaoğlunun publisistik irsi Azərbaycan ictimai fikrinin inkişafında mühüm mərhələ təşkil edir. Onun ideyaları cəmiyyətin maariflənməsi, milli şüurun güclənməsi və demokratik dəyərlərin yayılması baxımından böyük əhəmiyyət kəsb edir. Məqalədə həmçinin göstərilir ki, Ağaoğlunun publisistikası milli dəyərlərlə ümumbəşəri ideyaların sintezini əks etdirir və bu xüsusiyyət onun yaradıcılığını Azərbaycan publisistika tarixində xüsusi mövqeyə yüksəldir.

Açar sözlər: Əhməd bəy Ağaoğlu, publisistika, milli ideya, dünyəvilik, maarifçilik, ictimai fikir.

Giriş. Görkəmli ictimai-siyasi xadim, öz həyatını milli mübarizəyə həsr etmiş ziyalılarımızdan biri də Əhməd bəy Ağaoğludur. O, həm ictimai-siyasi fəaliyyətində, həm də yaradıcılığında milli ideoloji məsələləri vurğulamış, həmçinin - insan hüquqları, qadın azadlığı, elmin inkişafı kimi bəşəri aktual məsələlərə toxunmuşdur. Fransada təhsil aldığı müddətdə qərb və şərq mədəniyyətinin, ictimai-siyasi həyatda olan fərqləri müqayisə edərək, Şərqdə cəmiyyətin inkişafının elm və maarifin inkişaf etməsində, dinin adından istifadə edənlərə qarşı mübarizədə, millətin inkişafı və birliyinin möhkəmləndirilməsində görmüşdür. Milli ideoloji mübarizədə mühüm rol oynamış şəxslərdən biri kimi, həm fəaliyyətində, həm də yaradıcılığında milli məsələ həmişə ön planda olmuşdur. Ə.Ağaoğlu həm Azərbaycanda və türkiyədə, eyni zamanda bütün Rusiya ərazisində yaşayan türklər arasında millətçilik düşüncələrinin dərk edilməsində mühüm rolu olmuşdur. Məhz buna görə də, sovet dövründə onun fəaliyyəti, əsərləri unutdurulmağa çalışmış, "Panislamist", "Pantürkist" adlandırılaraq lazımsız biri kimi diqqətdən kənar saxlamağa və əahli arasında ona qarşı antipatiya yaratmağa çalışmışlar. Azərbaycan və Türkiyədə müasirləşmə və milli düşüncənin formalaşmasına mühüm töhfələr vermiş Əhməd bəy Ağaoğlunun adı təəssüf ki, sovet dövründə qəsdən yaddaşlardan silinməyə çalışılmışdır. Hətta onun adının çəkilməsi belə qadağan edilmişdi. "Xatalı" şəxs hesab edildiyindən onu yalnız az sayda tədqiqatçı alim tanıyırdı. Onların da bir çoxu ya onun haqqında qısa və səthi qeydlərlə kifayətlənir, ya da istər-istəməz onun obrazını təhrif olunmuş şəkildə təqdim edirdilər. Lakin müasir dövrdə, xüsusilə Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra bu görkəmli ictimai-siyasi xadimin irsi daha geniş şəkildə araşdırılmış və bu mövzuda bir sıra əsərlər ortaya çıxmışdır. Azərbaycanın görkəmli fikir adamlarından biri olan Əhməd Ağaoğlu zəngin yaradıcılığı və fəal ictimai-siyasi fəaliyyəti ilə həm Şərqdə, həm də Qərbdə geniş maraq doğuran şəxsiyyətlərdən biridir. Odur ki, Ə.Ağaoğlunun fəaliyyətini, əsərlərinin əsas qayəsinin

araşdırılması mühüm əhəmiyyətə malikdir. Vaxtilə sovet rejiminin tələblərinə görə unutdu-rulmağa çalışan Ə.Ağaoğlunun milli mübarizədəki rolu araşdırılmalı və gələcək nəslə ötürülməlidir.

Ə.Ağaoğlunun publisistik fəaliyyəti. Bildiyimiz kimi, Ə.Ağaoğlu bir müddət Fransada Sorbonne Universitetində təhsil almış, təhsil aldığı müddətdə burada bəzi mətbuat orqanlarında yazıları dərc olunmuşdur. Onun Fransada təhsil alması dünyagörüşündə və gələcək fəaliyyətində öz bəhrəsini vermişdir. Şərq aləminə ilk dəfə başqa gözlə baxmağa başlayan Ağaoğlu Şərq aləminin geridə qalmasının səbəblərini araşdırmış və gələcək inkişafı ilə bağlı fikirlər səsləndirmişdir. Onun ərəb, fars dillərini mükəmməl bilməsi Fransanın qabaqcıl alimlərinin diqqətini çəkmiş və onlar tərəfindən müxtəlif araşdırmalara cəlb olunmuşdur. Belə bir zamanda Fransada müxtəlif mətbuat orqanlarında, həmçinin, elmi konfrans və müzakirələrdə aktiv iştirak etmişdir. Ə.Ağaoğlu özü bu barədə yazırdı ki, onu Fransa mətbuatında çıxış etməyə müəllimi Ernest Renan təşviq etmişdir. O, burada "Redonobil", "Jurnal de Debat", "Nouve Revu" kimi mətbuat orqanlarında müxtəlif yazılar nəşr etdirmişdir [11, s.127].

1894-cü ildə Ə.Ağaoğlu Azərbaycana qayıtdıqdan sonra burada "Kaspi" qəzetində fəaliyyətə başlamışdır. Paralel olaraq, Tiflisdə nəşr olunan "Qafqaz", Rusiyadakı "Şərqi-rus" qəzetlərində də məqalələrlə çıxış etmişdir. Sonralar "İrşad", "Həyat" kimi qəzetlərdə, "Füyuzat" və "Molla Nəsrəddin" jurnallarında da məqalələri dərc edilmişdir. Bundan başqa, o, Türkiyədə yaşadığı müddətdə də "Türk yurdu", "Yeni məcmuə" kimi müxtəlif qəzet və jurnallarda fəaliyyət göstərmişdir [8, s.7].

Milli məsələlər. Əhməd bəy Ağaoğlunun "Bizim millətçilər" adlı məqaləsi həm yaşadığı dövrün, həm də müəllifin ideoloji və siyasi düşüncə tərzini əks etdirən yazılarından biridir. Müəllif millətçiliyi azadlığın əsas meyarı hesab edərək yazırdı: "millətçilik özü-özlüyündə hörmətə layiq, hətta möhtəşəm bir hadisədir, çünki o, xalqların həyatında bir zərurətdir. Mən hətta düşünürəm ki, bəşəriyyətin təkamülü tarixində millətçilik dindən sonra insan ruhunun ikinci böyük mərhələsidir. O, tarixdə ən böyük qəhrəmanlıqların nədəni olmuş, yenə də olacaq. Onsuz bir sıra xalqlar yenə də yadların zülmü altında inləməli olacaqdı və məhz onun sayəsində hələ bir çoxları uyğun çıxış yolu tapacaq... Həqiqi, dürüst, sonunadək özünə sadiq qalan millətçi, özününkünü müdafiə edərkən, başqasınınkı üzərində hər hansı zülmü də rədd etməlidir" [12, s.154]. Buradan aydın olur ki, Ağaoğlu millətçiliyi vacib amil hesab etsə də, şovinizmi rədd etmiş, başqa millətlərə qarş hörmətlə yanaşmağı əsas götürmüşdür.

Ə.Ağaoğlu bir müddət sonra millətçiliyin zəruriliyi məsələsinə yenidən müraciət edərək "Millət və millətçilik" adlı dörd hissəli məqalə qələmə almışdı. Bu yazısı "Tərcüman" qəzetində dərc olunmuş və Bakı mətbuatını sosializm ("adəmiyyət") ideyalarına həddindən artıq meyil göstərməkdə günahlandıran məqaləyə cavab idi. Belə ki, Əhməd bəy bu iddianın həqiqəti əks etdirmədiyini vurğulayaraq millətçilik barədə öz baxışlarına aydınlıq gətirmişdir [10, s.96]. O, burada Avropa tarixində millətçiliyin oynadığı müsbət rola toxunaraq, Almaniya, İtaliya, İngiltərə kimi dövlətlərin qurulmasında millətçiliyin rolunu izah etmiş, həmçinin, "millətçilik" anlayışının hamı tərəfindən dzgün dərk olunmamasını da izah etmişdir. Müəllif qeyd etmişdir ki, öz millətinin eyibləri ilə yanaşı, başqa millətlərin müsbət keyfiyyətlərini gizlətmək xəyanətdir. Ə.Ağaoğlu keçmişi ideallaşdırmadan, tarixdən dərs çıxarmağın və millətin buraxdığı səhvləri bilməklə gələcəyə yönəlməyin tərəfdarı idi. Ona görə, əsl millətçi millətinin inkişafı üçün bütün bunları düzgün dəyərləndirərək addımlar atmalıdır.

Ə.Ağaoğlunun "Kaspi" qəzetində çıxan "Azərbaycan qadınlarının beşik mahnısı" adlı məqaləsində də Azərbaycanın qəflət yuxusundan oyanmasının və bunun üçün savadın əhəmiyyətini qeyd etmişdir. Burada Azərbaycan övladının yuxuda olmasına, bu qəflətdən oyanmasının vacibliyinə toxunaraq yazırdı ki, "vacib məsələləri - yaxşı işlərə, müqəddəs sədaqətə və dinə kim öyrədəcək? Bəlkə də anan da sənin kimi günahsızdır, amma savadsız və nadandır" [9, s.91]. Bununla Ağaoğlu millətin qəflətdən oyanması üçün savadlı olmağı və savadlı övladı savadlı bir ananın yetişdirməli olduğunu bildirmişdi.

Ə.Ağaoğlunun "Kaspi" qəzetində nəşr edilmiş (20 iyul 1901) "Türk-tatar irqinin özünəməxsus əlifbası varmı?" adlı məqaləsində müəllif türk-tatarların qədim tarixi, onların yürüşləri və xarakterik xüsusiyyətləri barədə məlumat təqdim edir [10, s.95]. O, həmçinin həmin dövrdə istifadə olunan ərəb əlifbasının türk dilinin fonetik və qrammatik xüsusiyyətlərinə tam uyğun gəlmədiyini qeyd edir. Bu mövzuda daha əvvəl aparılmış müzakirələri ümumiləşdirən müəllif türklərin tarixən özünəməxsus əlifbaları ilə bağlı məlumat verərək, milli əlifbanın millətin inkişafı və birliyi baxımından əhəmiyyətinə diqqət çəkmişdir.

Bildyimiz kimi, 1905-1906-cı illərdə ermənilərin xalqımıza qarşə həyata keçirdiyi hücumlarla bağlı Ə.Ağaoğlu "Difai" partiyasını yaratmışdır [7, s.196]. Bu partiyanı yaratmaqda əsas məqsədi türk-müsəlman əhlaini erməni hücumnlarından qorumaq idi. O, bununla yanaşı, məıtbuatda da xalqımıza qarşı trədilən qırğınlara qarşı mübarizəsini davam etdirirdi. Hadisələrin kəskinləşdiyi vaxtda Ə.Ağaoğlu "Sankt-Peterburqskie vedomosti" qəzetində "Bakı hadisələri haqqında həqiqət" adlı məqaləsi ilə çıxış etmişdir. Bu məqaləsində o, rus mıtbuatının hadisələrin günahkarlarının müsəlamnlar olması, müsəlman əhalinin başkəsən, qaniçən" kimi göstərilməsini ifşa etmiş, rus şovinizminin qələminin məhsulu kimi qiymətləndirmişdir. Burada hadisələrdən və onların erməni iştirakçılarından tutarlı faktlar göstərən Ağaoğlu bu qırğınların kəskinləşməsində hakim dairələrin maraqlı olmasına diqqət çəlmiş, çar məmurlarının satqınlığını cəsarətlə dilə gətirmişdi [1, s.141-142]. Ə.Ağaoğlu xalqımıza qarşı törədilən qırğınlara qarşı mübarizə aparması ilə yanaşı, "Bizim vəzifəmiz" adlı məqaləsində qırğınların kökündə duran səbəblərin araşdırılmalı olduğunu qeyd edir. O bildirir ki, növbəti belə qırğınların baş verməməsi üçün günahkarlar cəzalandırılmalıdır: "...biz qorxmadan həmin dəhşətli şər qüvvəni tam və hərtərəfli göstərməliyik. Kimliyindən asılı olmayaraq – istər erməni, azərbaycanlı və ya başqası olsun, həmin şər qüvvənin müəllifi, onu hərəkətə gətirən öz cəzasını çəkməlidir. Nəinki məhkəmə qarşısında, həmçinin, bütün cəmiyyət qarşısında çəkməlidir. İndi mətbuatın təqib etməli olduğu yeganə böyük vəzifə budur" [1, s.143].

Ə.Ağaoğlu Rusiya imperiyası ərazisində yaşayan müsəlman xalqlarının vəziyyətini də dilə gətirir, siyasi rejimin müstəmləkə xarakterindən irəli gələrək müsəlman əhalinin inkişafına maneələr yaradıldığını bildirirdi. O, "Şərqin öyrənilməsinin vacibliyi haqqında" adlı məqaləsində Rusiyanın öz əyalətlərində yaşayan Şərq xalqlarına qarşı laqeyd münasibət göstərdiyini qeyd edir. Müəllif burada Rusiyanı Şərqi kifayət qədər tanımaq və öyrənmək istəməməkdə ittiham edir. Ə.Ağaoğlunun Türkiyədə "Cümhuriyyət" qəzetində nəşr olunan "Tanrı dağında" məqaləsi mifik obrazların təsviri şəklində verilsə də, burada türkçülüyün tarixi və mahiyyəti izah edilmişdir [2, s.79]. Burada türkçülük ideyasının kökləri izah edilmiş, türk olmağın qürurundan bəhs edilmişdir.

Ümumbəşəri dəyərlər. "Sərbəst insanlar ölkəsində" əsərində insan azadlığını, hüquq və vəzifələrinin vacibliyini bildirən Ə.Ağaoğlu qadın hüquqları ilə bağlı mühüm və aktual mövzuya da toxunmuşdur. Qadın hüquqlarının pozulmasına etiraz edən müəllif islamda qadının yeri ilə bağlı tarixi-dini araşdırma apararaq mühüm məqamları şərh etmişdir. İslama görə qadın hüquqlarını məhdudlaşdıran cəmiyyətin əslində cəhalət içərisində olduğunu dini-teoloji baxımdan əsaslandırmış, bu vəziyyətə gələn tarixi prosesləri izah etmişdir. Onun "İslam və qadın", "Müsəlman qadınlarının azadlığı" adlı məqalələri bu qəbildən olub, "Kaspi" qəzetində dərc edilmişdir [13, s.22].

Ə.Ağaoğlu publisistik əsərərində elm və maarifin inkişafının vacibliyini də göstərmişdir. Millətin və cəmiyyətyin inkişafı üçün təhsilin zərurət olduğunu bildirərək, bu baxımdan Şərq və Qərbi müqayisə etmiş, Şərqdə və Azərbaycanda elm və maarifin inkişafına olan maneələrdən bəhs etmiş, onları tənqid etmişdir. Müəllifi olduğu "Səciyyəvi polemika" adlı məqaləsində H.Z.Tağıyevin tikdirdiyi qız məktəbində dünyəvi elmlərin tədrisinə mane olan dövrün din xadimlərini, cəmiyyətdə sözü keçən ağsaqqalların cahil fikirlərini tənqid etmişdir [9, s.108]. Belə ki, həmin şəxslər məktəbdə dini dərslərə kifayət qədər yer ayrılmadığını əsas gətirirdilər, lakin Ağaoğlunun məqaləsindən aydın olur ki, onlar ümumiyyətlə dünyəvi dərslərin tədris olunmasının tərtəfarı olmamış, ancaq özlərinə lazım olan şəkildə dinin təbliğini əsaslı hesab etmişlər. Ə.Ağaoğlu bu məqaləsində dini elmlərin, Qurani-Kərimin öyrədilməsinə qarşı çıxmamış, əksinə bununla yanaşı, dünyəvi təhsilin də vacibliyini əsaslandırmışdır.

"Kaspi" qəzetində dərc olunan "Şekspirin "Otello"su və Şillerin "Qaçaqlar"ı tatar (Türk) dilində" adlı məqaləsində müəllif milli mədəniyyətin tərcümələr vasitəsilə zənginləşdirilməsinin vacibliyini vurğulayırdı [12, s.78]. O qeyd edirdi ki, ilk mərhələdə bu tərcümələrin tam mükəmməl olmaması, məna və ifadə baxımından müəyyən qüsurların mövcudluğu, hətta əsərlərin əvvəlcə geniş oxucu kütləsi qazanmaması ciddi problem sayılmamalıdır. Onun fikrincə, əsas məsələ Avropa yazıçılarının əsərlərini türk dilində oxumaq imkanının yaranmasıdır. Müəllif bildirirdi ki, həmin əsərlərdə əks olunan böyük zəka, incə hisslər və bədii ifadə gözəlliyi, tərcümə zamanı müəyyən dərəcədə dəyişsə belə, sonda oxucuların marağını cəlb edəcək, onların zövqünü formalaşdıracaq və daha keyfiyyətli tərcümələrin meydana çıxmasına təkan verəcək. Buna görə də o, bu cür tərcümələrin gələcəkdə cəmiyyət üçün çox

böyük fayda verəcəyini, hətta bəzən məktəblərin və mətbuatın təsirindən də daha əhəmiyyətli rol oynaya biləcəyini düşünürdü.

Əhməd bəyin panislamizm mövzusuna həsr etdiyi məqalələr də xüsusi maraq kəsb edir. Bu yazılardan biri – "Abasizm istiqamətləri" adlı məqalədə müəllif qeyd edir ki, son dövrlərdə Qərb mətbuatında "panislamizm" adlandırılan hərəkat haqqında tez-tez materiallar dərc olunur. Onun fikrincə, bu yazıların başlıca məqsədi oxucular arasında qorxu yaratmaqdır. Bəzi müəlliflər panislamizmi geriyə dönüş, fanatizmin yenidən baş qaldırması və ya Osmanlı sultanı II Əbdülhəmidin siyasi intriqası kimi təqdim edirlər. Halbuki panislamizmin meydana çıxmasının əsas səbəbi zülm altında qalan İslam dünyasını Qərbin artan təzyiqindən və asılılığından xilas etmək istəyidir. Bundan başqa, Əhməd bəy Ağaoğlu İslamı "fanatiklərin dini" kimi təqdim edən fikirlərə qarşı üç hissədən ibarət məqalə qələmə almışdır. O, bu iddiaların əsassız olduğunu həm Peyğəmbərin davranışları, həm də həmin dövrdə baş verən digər tarixi hadisələr vasitəsilə izah etmişdir. Müəllif İslamın ilkin dövrlərində "kitab əhlinə" göstərilən müsbət münasibəti təsdiqləyən tarixi faktları da xatırlatmışdır [4, s.60-61].

Əhməd bəy "Yuxu, yaxud ölüm" adlı məqaləsində müsəlmanları qəflətdən, cəhalətdən oyanmağa səsləyir, bununla o, müsəlman dünyasının nicatı üçün maairflənməyə tələsməli olduğunu qeyd edirdi. Ə.Ağaoğlunun "Müsəlman alimləri və onların elm sahəsinə verdikləri töhfələr" adlı məqaləsində tarix elminin inkişafı və Şərq və Qərb alimlərinin timsalında göstərir [5, s.100]. O, İbn Xaldunun tarix elmi üçün əvəzsiz şəxs hesab edərək, onun yaratdığı nəzəriyyəni məşhur fransız alimləri Ş.Monteskye və F.Volter ilə müqayisə edir. Müəllif göstərir ki, tarix elminin nəzəri əsaslarını İbn Xaldun onlardan əvvəl izah etmişdir.

Ə.Ağaoğlu cəmiyyətin maariflənməsi üçün ziyalı insanların birliyinin vacibliyini "Ziyalılarımızın vəzifələri" adlı silsilə məqaləsində əsaslandırmışdır. O, bildirirdi ki, cəmiyyətin inkişafı üçün ziyalılar eyni amal uğrunda birlikdə və vicdanla hərəkət etməlidir, yalnız bununla cəmiyyəti inkişaf etdirmək olar [9, s.71; 3].

Ə.Ağaoğlu hüquqi dövlət quruculuğunun tərəfdarı olmuş, bunu əsərlərində də göstərmişdir. Onun Türkiyədəki fəaliyyəti müddətində yazdığı məqalələrdə də bu ideyanı görmək mümkündür. "Cümhuriyyət" və "Kadro" mətbuat orqanlarında gedən silsilə yazılarından "Dövlət və fərd" bu baxımdan xüsusi əhəmiyyət kəsb edir. XX əsrin əvvəllərində türkiyədə milli dövlət quruculuğu prosesində baş vermiş hadisələr fnunda yazılan bu məqaləsində bir daha hüquqi dövlətin vacibliyi, vətəndaşların hüquq və azadlıqları ilə bağlı məsələlərə toxunmuşdur. Daha sonra "Dövlət və fərd"lə başlayan silsilə məqalələrinin toplandığı eyniadlı kitab da nəşr etdirmişdir [6, s.179].

Nəticə. Ə.Ağaoğlu publisistik fəaliyyətində müxtəlif ölkələrdə məqalələr nəşr etdirmiş, burada aktual problemlərə toxunmuşdur. Onun yazılarından aydın olur ki, çarizm istibdadı altında olan xalqların problemləri ilə bağlı məsələlərdən bəhs edir, çarizmə qarşı mübarizədə milli ideologiyaya, milli maraqlara əsaslanırdı. Həmçinin, maarifçi kimi əsərlərində ümumbəşəri dəyərləri təbliğ edir, qadın azadlığı, insan hüquqları, elm və maarifin əhəmiyyətini vurğulayırdı. Eyni zamanda, rus qəzetlərində yayımlanan Azərbaycanla və islam dünyası ilə bağlı haqsız yazılara cavab verir, həmin məsələləri düzgün şəkildə əsaslandırırdı. Ə.Ağaoğlunun toxunduğu milli və ümumbəşəri məsələlər bu gün də öz aktuallığını qoruyub saxlayır. Onun müraciət etdiyi bu məsələlərdə - cəmiyyətdəki sosial-tərbiyəvi məsələyə, milli şüurun oyanışına, Şərqdəki mövcud problemlərin səbəb və nəticələrinə, onların aradan qaldırmaqla inkişafına həsr edilmişdir. Bununla da, Ə.Ağaoğlu bir konsepsiya yaratmış oldu və eyni zamanda milli mübarizədə aparıcı mövqe tutmuşdur. Ə.Ağaoğlu publisistikasında milli problemlər ümumbəşəri ideyalarla vəhdətdə təqdim olunur. O, azadlıq, insan hüquqları, bərabərlik, hüquqi dövlət və cəmiyyətin demokratik inkişafı kimi prinsipləri yalnız bir xalq üçün deyil, bütün bəşəriyyət üçün vacib hesab etmişdir. Bu baxımdan onun publisistik fəaliyyəti təkcə Azərbaycan ictimai fikrinin inkişafına deyil, həm də ümumbəşəri humanist dəyərlərin təbliğinə xidmət etmişdir. Tədqiqat nəticəsində aydın olur ki, Əhməd bəy Ağaoğlu milli-mənəvi dəyərlərin qorunması ilə yanaşı, cəmiyyətin müasir dünyaya inteqrasiyasını zəruri hesab etmiş, Şərq və Qərb mədəniyyətlərinin qarşılıqlı təsirini inkişafın əsas şərtlərindən biri kimi qiymətləndirmişdir. Onun əsərlərində irəli sürülən ideyalar bu gün də öz aktuallığını qoruyur və müasir Azərbaycan cəmiyyətinin ideoloji, siyasi və mədəni inkişafının öyrənilməsində mühüm mənbə kimi çıxış edir.

ƏDƏBİYYAT

1. Ağaoğlu Ə. Qafqazda milli məsələ. Məqalələr ve sənədlər toplusu. / Tərtib edən, ön söz, qeyd və şərhlərin müəllifi F.R.Cabbarov. – Bakı: Mütərcim, 2019. -276 s.
2. Ağaoğlu Ə. Seçilmiş əsərləri. – Bakı: Şərq-Qərb, – 2007, – 392 s.
3. Ağakişiyeva S. Əhməd bəy Ağaoğlu: "Azad qadınsız milli inkişaf ola bilməz". - https://philosophy.edu.az/index.php?newsid=1584 [06.04.2026].
4. Akalın G. Türk düşüncə və siyasi həyatında Əhməd Ağaoğlu. – Bakı: AzAtaM, – 2004, – 164 s.
5. Cabbarlı N. Azərbaycan mühacirət nəsri. – Bakı: Elm və təhsil, – 2011, –140 s.
6. Dəmirli M. Hüquqçu kimliyinin portret çizgiləri, // İstanbul: Avrasya İncelemeleri Dergisi - Journal of Eurasian Inquiries 9, 2 (2020): 171-183. https://doi.org/10.26650/jes.2020.012
7. Əhmədli B. Azərbaycan mühacirət ədəbiyyatı. – Bakı: Elm və təhsil, – 2017, – 376 s.
8. Əliyeva A. Nəhəng fikir və əməl adamlarımızdan biri: Əhməd bəy Ağaoğlu // Bakı, Azad Azərbaycan. – 2019, 18 may. – №65, – s.7.
9. Hacıyeva L. O. Əhmədbəy Ağaoğlunun publisistikası. – Bakı: Elm və təhsil, – 2012. – 404 s.
10. Qəribov M. Əhməd bəy Ağaoğlunun mətbu fəaliyyətində milli birlik ideyası və ideoloji məsələlər // Bakı, Qədim Diyar beynəlxalq elmi jurnal. 2025 / Xüsusi Buraxılış / 92-98. https://doi.org/10.36719/2706-6185/43/92-98
11. Kəsəmənli, R. Əhməd Bəy Ağaoğlu-Cəmiyyətin həyatında jurnalistikanın yeri və rolu haqqında // Akademik Tarih ve Düşünce Dergisi Mass Communication Special Issue, 11 (1), (2024). 125- 140.
12. Mirəhmədov Ə. Əhməd bəy Ağaoğlu. – Bakı: Ərgünəş, – 2014, – 264 s.
13. Süleymanlı M. Əhməd Ağaoğlunun "İslama görə və İslamiyyətdə qadın" əsərinə elmi-tənqidi yanaşmalar. – Bakı: Litterpress, 2008. 148 s.

ДЖАЛЯ ИСМАЙЛОВА
Доктор философии по истории,
Бакинского Евразийского Университета,
Азербайджанский Университет Архитектуры и Строительства

НАЦИОНАЛЬНЫЕ И ОБЩЕЧЕЛОВЕЧЕСКИЕ ЦЕННОСТИ В ПУБЛИЦИСТИЧЕСКОЙ ДЕЯТЕЛЬНОСТИ АХМЕДА БЕКА АГАОГЛУ

В данной статье рассматривается отражение национальных и светских вопросов в публицистической деятельности Ахмед бег Агаоглу. Основной целью исследования является определение того, каким образом национальные идеи, общественно-политические взгляды и светские ценности представлены в его публицистическом наследии. В статье анализируются публицистические статьи, выступления и общественно-политические материалы, написанные Агаоглу в разные периоды его деятельности, что позволяет выявить основные направления его идей и мировоззрения. Исследование показывает, что в публицистике автора важное место занимают такие вопросы, как национальная идентичность, идеология азербайджанства, просветительство, модернизация общества и общественный прогресс. Наряду с этим отмечается, что в его работах широко освещаются и светские темы, такие как освобождение женщин, образование, формирование правового государства, демократия и развитие гражданского общества. В этом смысле публицистическая деятельность Агаоглу не ограничивается лишь пропагандой идей национального пробуждения, но также способствует формированию современного и светского мышления. Результаты исследования показывают, что публицистическое наследие Ахмед бег Агаоглу представляет важный этап в развитии азербайджанской общественной мысли. Его идеи сыграли значительную роль в просвещении общества, укреплении национального самосознания и распространении демократических ценностей. В статье также подчеркивается, что публицистика Агаоглу отражает синтез национальных и общечеловеческих идей, что обеспечивает его творчеству особое место в истории азербайджанской публицистики.

Ключевые слова: Ахмед бег Агаоглу, журналистика, национальная идея, секуляризм, просвещение, общественное мнение.

ZHALA ISMAYILOVA
Phd in History, Baku Eurasian University,
Azerbaijan University of Architecture and Construction

NATIONAL AND UNIVERSAL VALUES IN THE JOURNALISTIC ACTIVITY OF AHMAD BEY AGAOGLU

This article examines the reflection of national and secular issues in the journalistic activity of Ahmed bey Agaoglu. The main aim of the research is to determine how national ideas, socio-political views, and secular values are presented in his journalistic heritage. The study analyzes the publicistic articles, speeches, and socio-political writings produced by Ağaoğlu in different periods in order to reveal the main directions of his ideas and intellectual activity. The research demonstrates that issues such as national identity, the ideology of Azerbaijani nationalism, enlightenment, modernization of society, and social progress occupy an important place in his publicistic writings. At the same time, it is shown that topics of a secular nature - such as women's emancipation, education, the establishment of the rule of law, democracy, and the development of civil society - are widely addressed in his works. In this regard, Ahmed bey Agaoglu's journalistic activity is not limited only to the promotion of national awakening, but also contributes to the formation of modern and secular thinking. The results of the study indicate that the journalistic heritage of Ahmed bey Agaoglu represents an important stage in the development of Azerbaijani social thought. His ideas played a significant role in the enlightenment of society, the strengthening of national consciousness, and the spread of democratic values. The article also emphasizes that Agaoglu's publicism reflects a synthesis of national values and universal ideas, which elevates his work to a special place in the history of Azerbaijani journalism and intellectual thought.

Keywords: Ahmed bey Agaoglu, journalism, national idea, secularism, enlightenment, social thought

Məqalənin redaksiyaya daxil olduğu tarix: 06 aprel 2026-cı il.
Məqalənin çapa qəbul olunma tarixi: 21 may 2026-cı il.
Rəyçilər: t.ü.f.d. Sevil Bəhramova, t.e.d. Qabil Əliyev.

UOT 94(479.24)

İSMAYIL HACIYEV
AMEA Naxçıvan Bölməsi
haciyev.i1951@gmail.com

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ NAXÇIVAN DİYARININ SİYASİ VƏZİYYƏTİ

DOI: https://doi.org/10.36719/2708-065X/113/49-59

Məqalədə Azərbaycan Xalq Cümhuriyyəti dövründə Naxçıvan diyarının siyasi vəziyyəti təhlilə cəlb edilmişdir. Cümhuriyyət hökuməti və parlamentinin fəaliyyətində Naxçıvanla bağlı bir sıra məsələlərə diqqət yetirilmiş, bölgənin ermənilər tərəfindən tutulmasına imkan verilməməsi üçün ona siyasi, hərbi, maddi və mənəvi kömək göstərilməsi əsaslandırılmışdır. Burada həmçinin Müsəlman Milli Komitəsinin Həmyerlilər cəmiyyətinin Naxçıvanı qorumaq uğrunda fəaliyyətləri, erməni daşnaklarına qarşı mübarizələri, Osmanlı dövləti ilə yaratdığı əlaqələr, bölgədə yaradılan Araz-Türk Respublikası, Rusiyanın, İngiltərənin və ABŞ-ın Naxçıvanla bağlı siyasətləri araşdırılmışdır. Tədqiqat nəticəsində belə bir yekun nəticə çıxarılmışdır ki, AXC hökumətinin uğurlu siyasəti, yerli əhalinin istifadə etdiyi müxtəlif vasitələr, xüsusilə naxçıvanlıların inadlı mübarizələri Naxçıvanı Azərbaycanın tərkibində qoruyub saxlamışdır.

Açar sözlər: Azərbaycan Xalq Cümhuriyyəti, naxçıvanlılar, türklər, Rusiya, İngiltərə, ABŞ, Araz-Türk Respublikası, ermənilər.

Giriş. 1918-ci ilin mayın 28-də müsəlman Şərqində ilk dəfə yaradılmış yeni suveren dövlət – Azərbaycan Xalq Cümhuriyyəti (AXC) çətin və mürəkkəb şəraitdə 23 ay yaşayıb fəaliyyət göstərmişdir. Bu Cümhuriyyət Rusiya ilə yanaşı dünyanın böyük dövlətlərinin – ABŞ, İngiltərə və Fransanın siyasi, iqtisadi siyasətlərinin məngənəsində mübarizə aparmalı olmuş, öz suverenliyini qoruyub saxlamaq üçün bütün vasitələrə əl atmış, bu yolda çox mürəkkəb problemlərlə üzləşmişdir. Bu dövlətlərin təzyiqi altında 1918-ci il mayın 29-da Azərbaycan Milli Şurası Azərbaycan – Ermənistan arasındakı sərhəd problemini müzakirə edərkən öz suverenliyini qoruyub saxlamaq naminə İrəvanın ermənilərə verilməsi qərarını çıxarmağa məcbur oldu və bu qərarı ürək ağrısı ilə "tarixi zərurət", "labüd bəla" hesab etmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə qonşu ölkələr Azərbaycana qarşı bir sıra ərazi iddiaları irəli sürürdü. Bu zaman Azərbaycanın ərazisi 113.9 min kv. km idi. Onun 97.3 min kv.km-i mübahisəsiz, 16.6 min kv km-i mübahisəli əraziləri əhatə edirdi.

Azərbaycan Xalq Cümhuriyyəti ölkənin ərazi bütövlüyünü və suverenliyini qoruyub saxlamaq üçün çox çətin şəraitdə mübarizə aparmış, bütün imkanlardan istifadə etmiş, taleyüklü məsələlərin həllinə çalışməşdır.

Azərbaycan tarixşünaslığında Azərbaycan Xalq Cümhuriyyətinin daxili və xarici siyasəti, Antanta ölkələri ilə əlaqələri, qonşu ölkələrlə münasibətləri, daxili regionlarla əlaqələrin inkişaf etdirilməsi kimi məsələlər bir sıra tarixçilər tərəfindən öyrənilmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti ilə Naxçıvanın əlaqələrindən tədqiqat əsərlərində ötəri bəhs edilsə də problemin bütün tərəfləri öyrənilməmişdir. Hətta bu problemlə bağlı müxtəlif fikirlər mövcuddur. Azərbaycan sovet tarixşünaslığında belə bir fikri əsaslandırmağa çalışmışlar ki, guya Azərbaycan Xalq Cümhuriyyəti hökuməti ayrı-ayrı bölgələrin ərazi toxunulmazlığını və onların əhalisinin təhlükəsizliyini nənki təmin edə bilməmiş, hətta buna cəhdlər belə göstərməmişdir. Lakin arxiv sənədləri, obyektiv araşdırmalar bu mövqeyin həqiqətə uyğun olmadığını göstərir. Azərbaycan Xalq Cümhuriyyətinin "rəhbərliyi və yerli hakimiyyət orqanları imkanları daxilində bu problemlərə diqqət yetirmiş, torpaqlarımızın bütövlüyü və suverenlik məsələlərində daxili-xarici düşmən qüvvələrə qarşı barışmaz mövqe tutmuşlar". Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti və parlamenti öz fəaliyyətində, daxili və xarici siyasətində Naxçıvanla bağlı bir sıra məsələlərə diqqət yetirmiş, bölgənin ermənilər tərəfindən tutulmasına imkan verməmiş və ona siyasi, hərbi, maddi və mənəvi köməkliyini göstərmişdir.

Bölgədə yaranmış siyasi vəziyyət. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması ilə əlaqədar Naxçıvan ətrafında yeni konkret tarixi şəraitdə sosial və ictimai-siyasi qüvvələrin yeni nisbəti yaranmışdı. Cümhuriyyətin fəaliyyət göstərdiyi dövrdə baş vermiş sosial və siyasi proseslər bir-biri ilə çox sıx əlaqəli inkişaf edirdi. Bu proseslər daxili və xarici amillərin mürəkkəb qarşılıqlı təsirini əks etdirən bir mənzərə yaratmışdı.

RSFSR çar Rusiyasından miras qalmış millətçilik ideologiyasını hər vəchlə müdafiə və inkişaf etdirərək çox mürəkkəb şəraitdə müsəlman aləmini parçalamaq, bu regionda ona arxa ola biləcək xristian dövləti – Ermənistan Respublikası yaratmaq məqsədi ilə cəhdlərini daha da genişləndirirdi. Rusiya Türkmənçay müqaviləsi əsasında Azərbaycandan qoparıb imperiyaya birləşdirmiş ölkəmizin tarixi torpaqlarının – İrəvan quberniyasının, həmin əraziyə tabe edilmiş Naxçıvan diyarının, Şərur-Dərələyəz və Ordubad qəzalarının süni surətdə yaradılmış Ermənistana birləşdirilməsini elan etmişdi.

Həmin illərdə Naxçıvan məsələsi həm daxildə, həm də beynəlxalq aləmdə müxtəlif mənafelərin toqquşduğu, ziddiyyətlərin kəsişdiyi düyün nöqtələrindən birinə çevrilmişdi. Bu dövr Naxçıvanda hakimiyyətin tez-tez dəyişilməsi illəri olmuşdur. Bu müddətdə Ermənistan Respublikası, Xüsusi Cənubi Qafqaz Komitəsi, müsavatçılardan və daşnaklardan ibarət yaradılmış Milli Komitələr, ABŞ, İngiltərə, Türkiyə arasında Naxçıvana yiyələnmək uğrunda ardı-arası kəsilməyən mübarizə getmişdir.

Ermənistan Respublikasının Naxçıvana hücumları, hakimiyyət çəkişmələri bu ölkəni daha çıxılmaz vəziyyətə salmışdı. Əhalinin xeyli hissəsi qaçqına çevrilmiş, aclıq hökm sürürdü.

Naxçıvan diyarına 1828-30-cu illərdə köçürülmüş və orada məskunlaşmış erməni əhalisi diyarda vəziyyətin daha da mürəkkəbləşməsinə çalışırdı. Naxçıvandakı ermənilərə, xarici silahlı qüvvələrə arxalanan Ermənistan Respublikası Naxçıvan diyarına yiyələnmək üçün öz fəaliyyətlərini daha da genişləndirirdi. ABŞ, İngiltərə, Fransa, Rusiya dövlətləri Ermənistan Respublikasına hərtərəfli yardım göstərirdilər. Naxçıvan ermənilərı diyarın təkləndiyindən, daxildəki ziddiyyətlərdən, habelə hakimiyyətsizlik məngənəsində boğulduğundan istifadə edərək Naxçıvanın ən yaxın vaxtlarda Ermənistana birləşdiriləcəyi barədə şayiələr yayır, bu yerlərin Ermənistanın bir hissəsi olduğunu iddia edirdilər. Erməni qüvvələri vəziyyətin mürəkkəbliyindən, qarışıqlıqdan istifadə edərək "Böyük Ermənistan" yaratmaq üçün ərazi iddiaları irəli sürürdü. Ermənilər torpaq iddiaları ilə bağlı layihə hazırlamış və bunu Ənvər paşaya təqdim etmişdilər. Bu layihəyə görə Naxçıvan və Ordubadla birlikdə Sürməli, Axalkələk, Eçmiədzin, İrəvan (qəzası), Borçalı, Qazax, Şərur-Dərələyəz, Qarabağ və Zəngəzur qəzaları Ermənistana verilməli idi [25, s.116]. Ermənilər bu tələblərini onunla əsaslandırırdılar ki, guya bu qəzaların əhalisinin 70 faizi ermənilərdir [2, v.4]. Əslində isə Şərur-Dərələyəz qəzasında əhalinin 72,3 faizini, Naxçıvan qəzasında 62,5 faizini, İrəvan qəzasında 60,2 faizini, Sürməlidə 70 faizini, Qarayazıda 89 faizini azərbaycanlılar təşkil edirdi [25, s.366].

Azərbaycan Xalq Cümhuriyyəti yarandığı gündən Naxçıvan diyarının əhalisi bu respublika ilə birləşməyə hazır olduğunu bildirsə də mövcud siyasi və beynəlxalq vəziyyət Naxçıvan əhalisinin arzusunu həyata keçirməyə imkan vermirdi.

1918-ci ilin yayında Naxçıvan ikitərəfli təhlükə ilə rastlaşdı. Bir tərəfdən Naxçıvana köçürülən və burada yaşayan erməni əhalisi bu diyarın Ermənistana birləşdiriləcəyi barədə yayılan şayiələrdən ruhlanaraq Naxçıvana Ermənistanın bir hissəsi kimi baxır və diyarın müxtəlif yerlərində hər cür fitnəkarlıq törədirdilər. Digər tərəfdən isə daşnakların ingilislərdən geniş yardım alaraq Culfanı öz əlinə keçirmiş qaniçən Andranik Ozanyan Naxçıvanın şəhər və kəndlərini talan edir, dinc əhalini kütləvi surətdə qırırdı: Yaycı, Dizə, Düylün, Süst, Çeşməbasar, Tumbul və b. kəndlər tamamilə dağıdılmışdı.

Belə ağır vəziyyətdə Naxçıvan Milli Komitəsi haqlı olaraq türklərlə əlaqə yaratmağı lazım bildi. Həmin vaxtda türklər Şərur-Dərələyəz və İrəvan-Culfa dəmir yolunu öz əllərinə keçirərək Naxçıvana doğru irəliləyirdilər. Kazım Qarabəkir paşanın komandanlığı altında olan türk diviziyası Şərur qəzasına daxil olduqdan sonra hücumu müvəqqəti dayandırmış və beləliklə Andranikin Naxçıvanı ələ keçirməsi üçün əlverişli imkan yaranmışdı. Belə bir şəraitdə Naxçıvan Milli Komitəsi daşnakların sayca üstün qüvvələri ilə döyüşə girmədən geri çəkilməyi məqsədəuyğun sayırdı. Bununla belə bütün xalq öz torpaqlarının müdafiəsi üçün ayağa qalxmışdı. Nehrəm kəndində qonşu kəndlərin nümayəndələrinin fəal iştirakı ilə xalq qoşun dəstələri yaradıldı. Xalq qoşunu 1918-ci il iyunun axırlarında Nehrəm kəndi yaxınlığında Andranikin quldur dəstəsi ilə qarşılaşaraq onu əzdi. Andranik rüsvayçılıqla Qarabağ dağlarına qaçmağa məcbur oldu. Bu hadisələrdən sonra, yeni daşnak talanlarına yol verməmək

məqsədilə türk qoşunları Naxçıvana, Ordubada və Culfaya daxil oldular. Türklərin daşnaklara qarşı döyüşdə kifayət qədər qətiyyətli olmaması Naxçıvan Milli Komitəsi ilə onların arasında soyuqluq yaratmışdı. Türklər Naxçıvana daxil olan vaxt ilk siyasi tədbir kimi Naxçıvan Milli Komitəsini və milli hissələri buraxmışdılar. Xəlil bəy isə Naxçıvanın general-qubernatoru təyin olunmuşdu [42, s.36]. Lakin vəziyyət uzun sürmədi. Tezliklə Naxçıvan Milli Komitəsinin və onun silahlı dəstələrinin fəaliyyəti bərpa edildi. 1918-ci ilin ikinci yarısında müharibə cəbhələrində Türkiyənin vəziyyəti çətinləşdikcə o, Naxçıvanda daha güclü və sabit yerli hakimiyyətin yaradılmasına meyl göstərirdi. Elə yerli hakimiyyət ki, daşnakların hücumuna davam gətirsin və diyarı heç vaxt onların tapdağı altına qoymasın. Türkiyə Mudros müqaviləsinin şərtlərinə uyğun olaraq qoşunlarını Naxçıvandan çıxarmağa məcbur oldu [44, c.108].

1918-ci ilin noyabrında yerli əhali Araz-Türk Respublikasının müvəqqəti müstəqilliyini elan etdi. Bu respublika bir tərəfdən erməni iddialarını dəf etməyə, digər tərəfdən isə respublikanın bütün əhalisinin həm din, həm də dil cəhətdən can atdığı Azərbaycanla birləşməni hazırlamağa cəhd edirdi [20, s.47].

Araz-Türk Respublikasının əhalisi 1 milyon nəfər, ərazisi 8,7 min kv.km olmaqla [37, s.33] tərkibinə Naxçıvan və Şərur-Dərələyəz qəzaları, Sərdarabad, Uluxanlı, Vedibasar, Qəmərli, Mehri və s. bölgələr daxil idi [2, v.9]. Respublikanın paytaxtı Naxçıvan şəhəri, hökumətin sədri isə Əmir bəy Nərimanbəyov olmuşdur [22, s.43, 54]. Araz-Türk Respublikasının silahlı qüvvələrinin köməyi ilə yerli əhalinin fəal müqaviməti nəticəsində Ermənistanın daşnak hökumətinin Naxçıvanı ilhaq etmək siyasətinin qarşısı alındı.

Araz-Türk Respublikasının yaradılması ilə türklərin Naxçıvan diyarı ilə əlaqələri tamam kəsilmirdi. Türk ordusunun polkovniki Xəlil bəy Araz-Türk Respublikasında səlahiyyətli nümayəndəliyin başçısı təyin olunmuşdu [36, s.91]. Bundan başqa, türklərin Naxçıvanda 5 zabit və 300 əsgəri qalırdı. Araz-Türk Respublikası qısa müddət fəaliyyət göstərməsinə (1918 noyabr – 1919 mart) baxmayaraq "bölgənin azərbaycanlı əhalisinin qüvvələrinin düşmənlərə qarşı mübarizə üçün birləşdirilməsinə və bölgənin ermənilərə keçməsinə imkan verməməklə onun toxunulmazlığını və bununla da AXC-in ərazi bütövlüyünü təmin etdi" [28, s.76].

Diyarın qorunması uğrunda Cümhuriyyət hökumətinin və Naxçıvan əhalisinin mübarizəsi. Naxçıvan əhalisi bölgənin Azərbaycanın tərkib hissəsi kimi qorunub saxlanılması üçün inadla mübarizə aparırdı. Onlar 1919-cu il yanvarın 4-də Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının sədri Fətəli xan Xoyskiyə ünvanlanmış müraciətdə Naxçıvan, Şərur və Ordubad qəzalarında ermənilərin törətdikləri vəhşiliklər haqqında geniş məlumat verirdi. Müraciətdə deyilirdi: "1917-ci ilin dekabr ayından başlayaraq 1918-ci ilin iyun ayına qədər erməni hərbi hissələri tərəfindən İrəvan quberniyasında 200-dən artıq müsəlman kəndi yandırılmış, əhalinin böyük əksəriyyəti öldürülmüş, bir hissəsi isə dağlara qaçaraq aclıqdan və soyuqdan məhv olmuşdur. Müsəlmanların kütləvi şəkildə yaşadıqları İrəvan quberniyasının Sürməli, Eçmiədzin, Şərur qəzaları erməni qoşunları tərəfindən tutulmağa başladığı vaxt dinc müsəlman əhalisinin bir hissəsi öldürülür, bir hissəsi də öz yaşayış yerlərini tərk edərək dağlara çəkilib İran sərhədlərinə keçməyə məcbur olmuşdular ki, burada onları hər dəqiqə ölüm gözləyirdi. Məcburi təmizlənmiş yerlərə, "Türkiyə Ermənistanından» qaçmış ermənilər yerləşdirirlər" [3, v.9].

1918-ci il noyabrın 4-də İrəvan müsəlmanları, dekabrın 22-də Ordubad şəhərinin və ətraf ərazinin müsəlmanları, yanvarın 2-də İrəvan quberniyasının ictimai xadimləri, yanvarın 4-də Ordubad qəzasının sakinləri yaranmış ağır vəziyyətlə bağlı Azərbaycan hökumətinə müraciət etmiş və tədbirlər görülməsini xahiş etmişlər [12, 1.11].

1918-ci il dekabrın 22-də Ordubad şəhərinin və ətraf ərazinin müsəlmanlarının Milli Komitəsinin sədri Mir Hidayət Seyidzadə Azərbaycan Xalq Cümhuriyyətinin hökumətinə xəbər verirdi ki, "bəzi kəndlərdə bütün Zəngəzur qəzasının Ermənistana birləşməsi barədə Ermənistan hökumətinin elanları asılmışdır. Onların məqsədi bundan ibarətdir. Əgər bunu etməyə gücləri çatmasa, Zəngəzur, Şərur-Naxçıvan və Ordubad qəzalarının bütün müsəlman əhalisini qılıncdan keçirsinlər, bu qəzaları müsəlmanlardan təmizləsinlər ki, xalqların gələcək sülh konfransında özlərinin bu yerlərə sahiblik hüquqlarını sübut etsinlər və həmin əraziləri Ermənistan elan etsinlər, çünki bütün xalqlar müsəlmanların yaşamadığı qəzaları ermənilərinki hesab edəcəklər... Nə vaxta qədər bizim hökumət öz müsəlman qardaşlarının qırılaraq məhv edilməsinə yabançı kimi soyuqqanlıqla tamaşa edəcəkdir... Əgər ermənilər bu

əraziləri müsəlmanlardan təmizləsələr, sonra gec olacaq. Onda bizim torpaqlarda ermənilər məskunlaşacaq və burada bizim xalqımızın izi də qalmayacaq...” [12, 14.1].

1919-cu il yanvarın 7-də Azərbaycan hökuməti Ermənistan hökumətinə nota göndərməyə məcbur oldu. Notada Azərbaycan xalqına qarşı zorakılığa son qoyulması tələb olunurdu [12, 7.1].

Yanvarın 8-də Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti vəziyyəti müzakirə etdi, qəbul olunmuş qətnamədə hökumətə ciddi tədbirlər görməyi tapşırdı.

Yanvarın 25-də Parlament “İrəvan quberniyasındakı hadisələrə dair” məsələni yenidən müzakirə etdi. M.Ə.Rəsulzadə bəyanatla çıxış edərək bildirdi ki, Naxçıvan qəzasında ermənilər günahsız müsəlmanların qanını tökür. O, hökuməti bir daha kəskin tədbirlər görməyə çağırdı [1, s.860].

Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti ermənilərin Naxçıvandakı vəhşiliklərinə son qoymaq üçün Müttəfiqlərin Qafqazdakı Ali Komissarına müraciət etdi.

Quberniya müsəlmanlarının həmyerlilər cəmiyyətinin fəaliyyəti. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti ilə Naxçıvan bölgəsinin əlaqələrinin yaradılmasında və əhalinin problemlərinin həllində İrəvan quberniyasından olan ictimai xadimlərin, onların yaratdıqları müxtəlif təşkilatların mühüm rolu olmuşdur. 1919-cu ilin yanvarın 2-də İrəvan quberniyası ictimai xadimlərinin müşavirəsi keçirilmiş, burada Araz-Türk Respublikasının yaranması, bölgədəki vəziyyət haqqında məlumat verilmiş və çıxış yolları göstərilmişdir. Yanvarın 5-də Bakıda İrəvan quberniyasında yaşayan azərbaycanlı nümayəndələrin fövqəladə iclası keçirilmiş və quberniya müsəlmanlarının həmyerlilər cəmiyyəti yaradılmışdı [5, v.2]. Bir gün sonra həmyerlilər cəmiyyətinin idarə heyəti seçilmişdi: T.Makinski, H.Qasımov, R.İsmayılov, M.Ə.Sidqi, A.Makinski.

Həmyerlilər cəmiyyəti öz nümayəndəsi kimi Mirabbas Mirbağırovu İrəvan quberniyasına göndərdi. Burada əsas məqsəd yerlərdə vəziyyətlə tanış olmaq və müəyyən tövsiyyələr hazırlamaq idi. İrəvan quberniyasından olan qaçqınlar üçün vəsait ayrıldı. Azərbaycan hökumətinin Naxçıvan üçün ayırdığı 900 min manatı P.Bayrambəyov və Y.Qazıyevə vermişdi [28, s.92]. AXC hökumətinin razılığı ilə M.Mirbağırov Gəncəyə gəlmiş, burada ona 12 nəfər Azərbaycan zabiti qoşulmuş və onlar Ordubadda əhali ilə görüşdükdən sonra 1919-cu il fevralın 19-da Naxçıvana çatmışlar [5, v.21].

M.Mirbağırov və onunla gələn heyət yerli hökumətin rəhbərləri, ingilis general-qubernatoru və xalqın nümayəndələri ilə görüşləri oldu. Fevralın 23-də keçirilən yığıncaqda xalq yekdilliklə Azərbaycana birləşmək arzusunda olduqlarını bildirdilər. Nümayəndələr Azərbaycanın təmsilçiləri kimi mövcud yerli hökuməti tanıdıqlarını bildirdilər. M.Mirbağırov könüllü surətdə Azərbaycana birləşmək barədə rəsmi akt tərtib etməyi məsləhət gördü. Siyasi, iqtisadi, hərbi, mülki və mədəniyyət məsələlərinə dair maddələrdən ibarət olan akt hökumətin, Milli Şuranın və əhalinin nümayəndələri tərəfindən imzalandı [28, s.94]. Mirabbas Mirbağırov (Mirbağırzadə) 1919-cu ildə Naxçıvanın Azərbaycana birləşməsi haqqında akt qəbul etdirmiş “Mirbağırzadə missiyası”nın başçısı kimi xatırlanır [40]. M.Mirbağırov Naxçıvanda olduğu müddətdə bölgədəki və ətraf yerlərdəki siyasi-hərbi vəziyyətlə tanış olmuş, əhalinin və ictimai qüvvələrin mövqelərini öyrənmişdir. Bütün bunlardan sonra Azərbaycan hökumətinə aşağıdakı təkliflərini verdi: “1. Bu mahalı idarə etmək üçün müttəfiqlərin, İran və Ermənistanın təsirinə qarşı mübarizə aparmağa qabil olan, özgə təsiri altına düşməyən və müəyyən məqsədyönlü siyasəti inadla və ardıcıllıqla həyata keçirən, habelə iradəli, cəsur, qətiyyətli, rüşvətə meyl etməyən azərbaycanlı general-qubernator təyin olunmalıdır. 2. Bölgəyə Hərbi nazirliyin yuxarıda sadalanan keyfiyyətlərə malik olan nümayəndəsi də göndərilməlidir. 3. Mülki və məhkəmə idarələrinin rəhbərliyinə baş məmurlar mütləq azərbaycanlılar təyin edilməlidirlər. 4. Yerli hərbi işi təşkil etmək üçün göndərilən zabitlər kifayət etmədiyindən əlavə zabitlər dəstəsini bölgəyə yollamaq lazımdır. 5. Azərbaycanın uzaq ucqarları, məhsuldar torpağı, çoxlu məhsulu, duzu və digər faydalı mineralları olan və müttəfiqlərin, fars-erməni diplomatiyasının məkrli siyasəti ilə üzləşən Naxçıvan və Şərur Azərbaycan Respublikası tərəfindən saxavətlə təchiz olunmalıdırlar” [28, s.95].

M.Mirbağırovun Naxçıvana səfəri, Azərbaycan Xalq Cümhuriyyəti ilə Naxçıvanın əlaqələrinin artırılması sahəsindəki təkliflərinin çox böyük əhəmiyyəti oldu. Azərbaycan hökuməti Naxçıvanın problemləri ilə sistematik məşğul olmağa başladı. Azərbaycan hökuməti Naxçıvana kömək göstərilməsində bir sıra addımlar atdı. Regional əlaqələri yaxşılaşdırmaq üçün Ağdam-Karyagin-Naxçıvan poçt-teleqraf xəttinin qaydaya salınması və mühafizə edilməsinə diqqət artırıldı [13, s.12]. Ticarət və sənaye naziri M.Əsədullayev AXC Nazirlər Şurasına məktubla müraciət edərək Naxçıvan bölgəsinin

neft məhsulları ilə təmin edilməsini əsaslandırdı. Azərbaycan hökuməti M.Mirbağırovun və Naxçıvanın Müvəqqəti hökumətinin işlər müdiri B.Naxçıvanskinin təklifləri əsasında 1919-cu il fevralın 28-də Naxçıvan general-qubernatorluğu yaratdı [6, v.2]. Bəhram xan Naxçıvanski general-qubernator, Kərim xan İrəvanski və Hacı Mehdi Bağırov onun köməkçiləri təyin olundular. General-qubernatorluğun nəzdində Şura yaradıldı. Yerli hakimiyyətin təşkili və qoşun hissələrinin saxlanması üçün 500 min manat pul ayrıldı [28, s.96]. Bir qədər sonra – 1919-cu il 30 mart tarixli sərəncamla bölgədə idarəçiliyin təşkilinə daha 1 milyon manat ayrıldı [6, v.3].

1919-cu il martın 8-də Araz-Türk Respublikasının xüsusi missiyası Bakıya gəldi. Bu missiyaya Bəhram xan Naxçıvanski rəhbərlik edirdi. O, yolüstü Tiflisdə və Gəncədə danışıqlar aparmışdı. Bəhram xan özü ilə yerli Cənub-Qərbi Azərbaycan adı altında Naxçıvanı Azərbaycan Xalq Cümhuriyyətinə birləşdirmək təklifini də gətirmişdi. Bəhram xan Bakıdan eyni zamanda maliyyə yardımı, zabit və başqa köməklər də xahiş etdi [35, v.161]. Məhz Bəhram xan Naxçıvanskinin Bakıya səfərindən və AXC rəhbərləri ilə danışıqlarından sonra iki respublika arasında qarşılıqlı əlaqələrin fəallaşması nəzərə çarpır. Nümayəndə heyətinin qaldırdığı məsələlər Azərbaycan Parlamentinin 1919-cu il 10 mart tarixli iclasında müzakirə olundu.

Böyük Britaniyanın Azərbaycan siyasətində Naxçıvan məsələsi. Naxçıvan bölgəsinin müsəlmanları özlərini Azərbaycanın ayrılmaz hissəsi sayır və hökumətdən silah-sursat alacaqlarına ümid edirdilər. Bu dövrdə Şərur-Naxçıvan hissəsində süvari dəstə və top, pulemyotlarla birlikdə 6 minədək qoşun hissələri olmuşdur [28, s.143]. Bunlar öz döyüş keyfiyyətlərinə görə ermənilərinkindən heç də geri qalmırdı. Naxçıvanlılar Baş nazirdən buraya zabit kadrları göndərməyi və 100 min manat pul buraxılmasını xahiş edirdilər [10, v.30]. Azərbaycan hökuməti Naxçıvan, Şərur, Ordubad rayonları üçün Naxçıvan Milli Şurasına 400 min manat göndərmişdi və daha 300 min manat göndərilməsi nəzərdə tutulmuşdu.

Azərbaycan Xalq Cümhuriyyətinin Baş nazirləri olmuş F.Xoyski və N.Yusifbəyli imkanları daxilində Naxçıvana köməklik edir, onun Azərbaycan ərazisi kimi qorunub saxlanılması üçün siyasi, diplomatik, maddi və mənəvi vasitələrdən istifadə edir və qəhrəman naxçıvanlıların fəaliyyətlərini də yüksək qiymətləndirirdilər. F.Xoyski parlamentin iclasında Naxçıvan bölgəsinin qəhrəman əhalisinin Vətənə qovuşmaq üçün öz həyatları və ailələri ilə risq edərək mübarizəyə qalxıb azadlığa çıxdıqlarını söyləmişdi. N.Yusifbəyli 1919-cu il avqustun 18-də parlamentdəki çıxışında bu bölgə ilə bağlı qeyd etmişdir ki, Naxçıvan öz qüvvələri ilə istilaçıları devirərək Azərbaycanla birləşməyə hazır olduğunu bildirmişdi [12, rus dilində, 10.9]. 1919-cu il dekabrın 22-də N.Yusifbəyli parlamentdəki çıxışında yenidən bu məsələyə qayıdaraq demişdir: "İgid naxçıvanlılar, şərurlular və vedibasarlılar bu məsələni özləri həll ediblər; onlar həyatlarını, ailələrinin şərəfini və var dövlətlərini riskə qoyaraq doğma torpağa-vətənə qovuşmaq üçün ayağa qalxıb azad oldular və bununla da hökumətin işini asanlaşdırdılar. Güman edirəm ki, haqq və ədalət tərəfdarları bu qətiyyəti, fədakarlığı və vətənpərvərliyi görəndən sonra onların qanuni hüquqlarını danmayacaqlar..." [3, v.4-5].

Göründüyü kimi, Naxçıvan əhalisi ciddi-cəhdlə Azərbaycan Xalq Cümhuriyyəti ilə sıx əlaqələr yaratmağa çalışmış, onunla birləşmək üçün müxtəlif yol və vasitələr aramışdı. Bütün bunlar isə AXC tərəfindən razılıqla qəbul olunmuş, müəyyən tədbirlər görülmüşdü.

Qeyd etməliyik ki, Azərbaycan Xalq Cümhuriyyəti Naxçıvanla əlaqələrin çətinliyini nəzərə alaraq Azərbaycan Respublikasının nümayəndəsi Qarabağ general-qubernatorunun Naxçıvan bölgəsinin idarəsi üzrə köməkçisi fəaliyyət göstərmişdir. Bir qədər sonra isə Qarabağ general-qubernatorluğu nəzdində Naxçıvan bölgəsinə dair xüsusi tapşırıqlar üzrə müvəkkillik vəzifəsi yaradıldı. Səməd bəy Cəmillinski Naxçıvanın general-qubernatoru təyin edildi [20, s.85]. S.Cəmillinskinin qərargahı əvvəlcə Ordubadda yerləşmiş, sonra isə Naxçıvana köçmüşdü. Naxçıvan və Ordubadda yerli hakimiyyətin və silahlı qüvvələrin təşkili üçün 1919-cu ilin avqustunda S.Cəmillinskinin sərəncamına 1 mln. manat vəsait ayrıldı.

1919-cu ilin əvvəlində ingilislər Naxçıvanı tutaraq Araz-Türk Respublikasını, Naxçıvan Milli Komitəsini ləğv etdilər. İngilislər Naxçıvanı Ermənistanın tərkibinə daxil etmək üçün hər cür üsul və vasitələrə əl atır, fəal danışıqlar aparırdılar. Hələ 1919-cu il yanvarın əvvəllərində Böyük Britaniya ordusunun mayoru Hibbon Naxçıvana gəlmişdi. Onun gəlişinin əsl məqsədi diyarın iqtisadi və siyasi

vəziyyəti ilə tanış olmaq, Araz-Türk Respublikası silahlı qüvvələrinin vəziyyətini, bu dövlətin siyasətinə türklərin təsir dərəcəsini öyrənmək olmuşdu [27, c.56].

1919-cu ilin fevralında digər bir ingilis komissarı kapitan Lautenin başçılıq etdiyi nümayəndə heyəti də Naxçıvana gəlmişdi [33, v.24]. O, Britaniya qoşun hissəsinin Dəvəlidə, Naxçıvanda, Culfada və Şahtaxtıda yerləşdirilməsi, bu yerlərdə bütün məsələlərin ingilis hakimiyyət orqanları tərəfindən həll ediləcəyi barədə danışıqlar aparmışdı. Naxçıvan rəhbərləri yerli muxtariyyəti saxlamaq şərtilə ingilislərin təkliflərini qəbul etmiş və hətta bir neçə ingilispərəst yerli hakimi öz hökumətlərinin tərkibinə daxil etmişdilər [33, v.26]. Əlbəttə, Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq mövqelərinin kifayət qədər aydınlaşmadığı bir şəraitdə məqbul sayılan bu güzəştlər ingilislərə münasibətdə məqsədəuyğun addımlar idi. Bu güzəştlər başqa çıxış yolunun olmamasından və növbəti daşnak təhlükəsinin yaxınlaşmasından irəli gəlirdi.

Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin Naxçıvan bölgəsinə dair suveren hüquqlarının bərqərar edilməsinə yönəldilən tədbirlərin həyata keçirilməsi ingilislər tərəfindən müdafiə olunmur və müxtəlif maneələrlə qarşılaşırdı [28, s.129]. Ümumiyyətlə, Böyük Britaniya komandanlığının Naxçıvana münasibətdə ikiüzlü, riyakar siyasəti həmişə müşahidə olunmuşdur. Məsələn, M.Mirbağırovun başçılığı ilə Naxçıvana gələn nümayəndə heyətinə ingilis valisi "Bakının buraya hərbi işin təşkili üçün zabitlər göndərməyə haqqının olmadığını" bildirib, onlara eşitdirdi ki, "bu ərazi hələlik Azərbaycanın tərkib hissəsi deyil və məlum deyil ki, kimə çatacaq; indi burada ingilis general-qubernatorluğudur... Mən sizə qonaq kimi baxıram, necə ki, qonaq kimi gəlmisiniz, elə də qonaq kimi gedə bilərsiniz" [4, v.3; 20, s.54].

Başqa bir fakt: 1919-cu il martın 10-da Ermənistanla Naxçıvan şəhərindəki daşnak hərbi hissələrindən Ermənistanın daxili işlər nazirinin adına göndərilən məlumatda deyilirdi ki, ingilis komandanlığı daşnakların Şərur qəzasının bir sıra kəndlərini tutmasına etiraz etmir. Elə bu siyasətin nəticəsi olaraq 1919-cu il iyulunda daşnak hərbi dəstələri ingilislərin köməyi ilə Şərur mahalını tutsalar da yerli hərbi qüvvələr daşnakların hərbi hissələrini buradan qovdu [21, s.14].

Yenə başqa bir misal: 1919-cu il mayın 4-5-də ingilis generalı Devi Naxçıvana gələrək bildirmişdir ki, Naxçıvan və Şərur qəzası Ermənistan Respublikası ərazisində yerləşdiyinə görə Ermənistan hökumətinə tabe olmalıdır [34, v.17]. Lakin həmin təklif müsəlmanların yığıncağında müzakirə olunarkən bildirildi ki, ermənilərin tutmuş olduqları ərazilər tarixən Azərbaycan torpaqları olduğundan və müsəlmanlar yaşadıqlarına görə Devinin təklifi məqbul sayıla bilməz. Naxçıvan və Şərur qəzalarının müsəlmanları özlərinin və yaşadıqları ərazinin Azərbaycan Respublikasına tabe olduğunu təsdiq edir və erməni silahlı hissələrini deyilən qəzaların ərazisinə buraxmamağı qərara alırlar [12, rus dilində, 16 s.]. Lakin ingilis komandanlığı xalqın bu haqlı tələbinə də məhəl qoymadı. Daşnaklar ingilis zabitlərinin bilavasitə köməyi və iştirakı ilə 1919-cu ilin iyununda Naxçıvanın bir hissəsini tutsalar da, Naxçıvan Milli Komitəsinin hərbi hissələri daşnakların nizami qoşununu əzərək Naxçıvan ərazisindən kənara atdı [ARDA, f.970, siy.10, iş 47, v.3-4]. Yerlərdə hakimiyyət Milli Şuranın əlində idi. İyulun əvvəllərində ingilis qüvvələri Naxçıvanı tərk etdilər [38, s.165]. Milli Şura əlverişli vəziyyətdən istifadə edib, erməni nizami hissələrini əzdi. Naxçıvan və Şərur qəzalarının, demək olar ki, bütün ərazilərini tutaraq, burada öz şəriksiz nüfuzunu bərpa etdi [27, c.51-53].

İngilislərin Naxçıvan bölgəsində olduqları müddətdə Azərbaycan Xalq Cümhuriyyətinin rəhbərliyi bu ərazıyə dair öz suveren hüquqlarını müdafiə etmək, oranın təhlükəsizliyinin təminatına yardım göstərmək və azərbaycanlı əhalisinə qarşı ermənilərin törətdikləri vəhşiliklərin qarşısını almaq, ən başlıcası isə, mahalı Quzey Azərbaycanın digər torpaqları ilə birləşdirmək sahəsində müəyyən tədbirləri həyata keçirmək istəyirdi. Bir sıra hallarda ingilislər bunlara mane olurdular. İrəvan quberniyası müsəlman əhalisinə 1 mln. manat vəsait çatdırılması üçün F.Xoyski 1919-cu il aprelin 3-də məktubla Tomsona müraciət etdi. Həm də hökumət komissiyasının Naxçıvan, Şərur və s. rayonlara getməsinə şərait yaradılmasını da xahiş etdi. Lakin hər iki xahişə mənfi cavab verildi.

İngilislər bir tərəfdən Naxçıvanın Azərbaycanın bir hissəsi olduğunu tanıyır, maliyyə və silah vəd edir, digər tərəfdən isə Naxçıvanın daşnak Ermənistanın hakimiyyətinə verilməsi təklifini irəli sürürdülər [23, s.251].

Azərbaycan Xalq Cümhuriyyəti rəhbərliyi Naxçıvanla bağlı hərbi səciyyəli müəyyən işləri görə bilməsə də bəzi diplomatik-siyasi yollardan istifadə edirdi. Bu sahədə Azərbaycan hökumətinin İrəvan

və Tiflisdəki diplomatik nümayəndələri səmərəli və işgüzar fəaliyyət göstərir, Azərbaycan rəhbərliyini və Xarici İşlər Nazirliyini obyektiv məlumatlarla təmin edir, bir sıra hallarda təkliflərini də çatdırırdılar. M.Təkinski Naxçıvanla bağlı AXC hökuməti sədrinə yazırdı ki, əgər Ermənistan Qarabağın Azərbaycana keçməsinə razılaşarsa, ingilislər Şərur-Naxçıvan rayonunu ona verəcəklər [10, v.18]. Onun fikrincə, əhalisinin əksəriyyəti müsəlmanlardan ibarət olan Şərur və Naxçıvanı ermənilərə vermək olmazdı. Naxçıvan bölgəsində ermənilərin özbaşınalıqlarının qarşısının alınmasında da M.Təkinskinin böyük əməyi olmuşdur [41]. O, bu məsələlərlə əlaqədar məlumat hazırlayaraq Xarici İşlər Nazirliyinə göndərirdi.

Bununla əlaqədar F.Xoyski Azərbaycan hökumətinin məlum mövqeyni Tomsona bildirmişdi. Yəni, Naxçıvan rayonunun idarəsi müvəqqəti olaraq Ermənistana verilərsə, onlar bu aktla heç vəchlə razılaşmayacaqlarını çatdırmışdı.

ABŞ-ın geosiyasi maraqlarında Naxçıvan. 1919-cu ilin ikinci yarısında Cənubi Qafqaz məsələləri üzrə Paris sülh konfransı adından çıxış edən ABŞ-ın rolu kəskin surətdə artdı. Hələ 1919-cu ilin əvvəllərindən Azərbaycanla ciddi maraqlanan ABŞ nümayəndələri tez-tez Bakıda görünməyə başlamışdılar. Şübhəsiz onların Azərbaycana dair planlarında mühüm strateji mövqedə yerləşən Naxçıvan diyarı da öz əksini tapmışdı. Lakin ilk vaxtlar amerikalıların siyasəti də ermənipərəstliyi ilə ingilislərdən az fərqlənirdi. 1919-cu ilin yayında Naxçıvana gəlmiş ABŞ polkovniki Rey eyni vaxtda həm müsavatçılarla, həm daşnaklarla, həm də türk zabiti Xəlil bəylə danışıqlar aparmışdı [35, v.71]. O, Naxçıvan Milli Komitəsinin başçısı Cəfərqulu xanla apardığı danışıqlarda Naxçıvanda ABŞ-ın general-qubernatorluğunu yaratmaq ideyasını irəli sürmüşdü [23, s.268].

1919-cu il avqustun axırlarında Amerika polkovniki Paris sülh konfransı və Antantanın ittifaq şurası adından AXC hökumətinə bildirmişdi ki, Naxçıvan və Şərur-Dərələyəz qəzaları xüsusi zona təşkil edir və həmin yerlərdə bütün idarəçilik işlərinə cavab verə biləcək Amerika general-qubernatorluğu təşkil olunacaqdır [27, c.65].

1919-cu il sentyabrın 1-də Haskelin Paris sülh konfransı adından Azərbaycan və Ermənistan hökumətlərinə göndərdiyi "Naxçıvan və Şərur-Dərələyəz qəzaları haqqında əsasnamə"də həmin fikirlər bir daha nəzərə çatdırılırdı [35, v.135]. Əsasnaməyə görə, Naxçıvan və Şərur-Dərələyəz qəzalarını əhatə edən rayonlar "bitərəf zona" elan edilir və burada bütün idarəçilik işləri Amerika general-qubernatorluğuna tapşırılırdı [43, c.300-301]. Bütün hərbi qüvvələr, poçt, teleqraf onun tabeliyinə verilir, yerli vəzifəli şəxsləri general-qubernator təyin edirdi. Lakin ABŞ-ın həmin mövqeyi AXC hökuməti və Naxçıvan Milli Komitəsi tərəfindən qəbul edilmədi. Çünki 20 bənddən ibarət Haskel layihəsinin məzmunundan görünürdü ki, belə bir layihə amerikanlar tərəfindən hazırlana bilməzdi. Bu, müttəfiqlərin Ali Komissarı Vilyam Haskelin adı ilə elan edilmiş erməni layihəsi idi. Bu layihə Azərbaycan hökuməti tərəfindən qəbul edilmədiyi üçün sentyabrın 27-də V.Haskel birincidən o qədər də fərqlənməyən 12 bənddən ibarət ikinci layihəni Azərbaycan hökumətinə göndərdi. Azərbaycan xarici işlər naziri sentyabr ayının 29-da Haskelə yazırdı ki, onun hökuməti şərtlərin bir qisminə etiraz edir. Bununla belə hökumət Naxçıvan və Şərur-Dərələyəz qəzalarında xüsusi general-qubernatorluğun yaradılmasının əleyhinə deyildir. Azərbaycan hökuməti 12 bənddən ibarət layihə hazırladı və sentyabr ayında polkovnik Haskelə göndərdi. Layihədə göstərilirdi: "Naxçıvan və Şərur-Dərələyəz qəzalarında müvəqqəti olaraq, xüsusi general-qubernatorluq yaradılır; general-qubernatoru Amerika vətəndaşları içərisindən polkovnik Haskel təyin edir; bu qəzalar ümumi, birbaşa, bərabər və gizli səsvermə yolu ilə seçilən yerli Şuralar tərəfindən idarə edilir; vilayətlərdə bütün hakimiyyət-inzibati, məhkəmə, dəmir və şose yolları, poçt-teleqraf, xalq maarifi və sair Şuranın müstəsna səlahiyyətinə daxil edilir və bu işi general-qubernator tənzim edir; Şura tərəfindən təyin edilən icra hakimiyyəti çoxluq təşkil edən millətin nümayəndəsindən olmalıdır; bütün general-qubernatorluqda mətbuat, vicdan, söz azadlığı, şəxsiyyətin və əmlakın toxunulmazlığı elan edilməlidir; general-qubernatorluğun büdcəsinə Azərbaycan parlamentində baxılmalı, çatışmayan məbləğ Azərbaycan xəzinəsindən əlavə edilməlidir; Azərbaycan pulu rəsmi pul vahidi kimi qəbul edilməlidir; seçkilər keçirilənə qədər general-qubernator Azərbaycandan iki məsləhətçi dəvət edib onların köməyi ilə qayda-qanun yaratmalıdır; neytral zonadan Bakı-Culfa dəmir yolunun keçdiyi xüsusi zolaq ayrılıb, Azərbaycan hökumətinə verilməlidir; general-qubernatorluğun əhalisi tərksilah edilməməlidir; general-qubernatorluğun bütün ərazisində amnistiya keçirilməlidir" [12, 23.10].

V.Haskel Azərbaycan tərəfindən təqdim edilən layihəni qəbul etmədi. Sentyabr ayının ortalarında Haskel Naxçıvan, Şərur və Ordubad nümayəndələri Əli Səbri Qasımovu və K.M.Əsgərovu qəbul edərək bildirdi ki, Birləşmiş Ştatların ordu mühəndisi polkovnik Edmund Delli Naxçıvana qubernator təyin edilmişdir və bir aydan sonra öz vəzifəsinə başlayacaqdır. Nümayəndələr adından Əli Səbri Qasımov Naxçıvan əhalisinin 10 bənddən ibarət olan tələblərini V.Haskelə təqdim etdi. Burada Naxçıvan əhalisinin bu rayona erməni qoşunu yeridilməsinə razı olmayacağı, bu qəzaların əhalisinin Ermənistan hökumətinə tabe olmayacağı və lazım gələrsə, azərbaycanlı əhalinin öz istiqlaliyyətini silahlı yolla qoruyacağı göstərilirdi [12, rus dilində, 23.10].

1919-cu il oktyabrın 23-də Müttəfiqlərin Ali Komissarlığından Azərbaycan Xalq Cümhuriyyəti hökumətinə ünvanlanmış aşağıdakı məlumat alınmışdı: "Naxçıvan və Şərur rayonlarında əminamanlıq yaratmaq məqsədilə Azərbaycan və Ermənistan hökumətləri razılığa gəldilər ki, bu iki rayon bundan sonra da ittifaq səviyyəsində idarə edilən zonada Amerika qubernatorluğunun inzibati hakimiyyəti altında qalacaqdır" [12, 23.10].

1919-cu il oktyabrın 22-də Bakıda AXC-in rəsmi orqanı olan "Azərbaycan" qəzetində Naxçıvanda ABŞ polkovniki Edmund Delli başda olmaqla Amerika general-qubernatorluğunun təşkil olunması haqqında əsasnamə dərc edildi [12, 22.10]. Bu isə çıxılmaz vəziyyətdə qalmış AXC rəhbərliyinin həmin məsələyə qeyri-rəsmi qaydada razılığı kimi qəbul edilə bilərdi. Bununla belə, Azərbaycan hökuməti ilə Naxçıvan Milli Komitəsi arasında qardaşlıq münasibətləri əvvəlki kimi saxlanılırdı. Əldə olunmuş razılığa əsasən, AXC hökuməti altı min nəfərlik qoşun hissələrini silahlandırmağı Naxçıvan Milli Komitəsinə vəd vermişdi [12, 22.10].

Oktyabr ayının 24-də Ceymis S.Rey Naxçıvana gəldi və müsəlman Milli Şurası qarşısında "neytral zona" yaratmaq barədə V.Haskelin bəyanatını elan etdi. Bəyanatda deyilirdi ki, Şərur və Naxçıvan dairəsində, Amerika qubernatorunun rəhbərliyi altında müttəfiq idarəçilik zonasının yaradıldığını... polkovnik Edmund L.Dellinin bu zonaya qubernator təyin edildiyini bildirirəm [25, s.374-375]. Ceymis Rey sərəncamla bəyanatda qeyd olunanları rəsmiləşdirdi. Lakin Naxçıvan Milli Komitəsinin və bütün Naxçıvan əhalisinin təkidi ilə polkovnik Delli Naxçıvanda general-qubernator kimi deyil, Amerika Ali Komissarın nümayəndəsi kimi qaldı. Milli Şuradan C.Reyə məlumat verdilər ki, "xalq azərbaycanlı general-qubernatordan başqa heç kimi tanımaq istəmir". C.Rey başa düşürdü ki, "neytral zona" üçün nəzərdə tutulan ərazini Azərbaycandan ayırmaq qeyri-mümkündür.

Noyabr ayında C.Rey və E.Delli cəhd göstərsələr də general-qubernatorluq yarada bilmədilər, onların missiyası süquta uğradı və Naxçıvanda möhkəmlənmək cəhdi baş tutmadı.

Bunu görən ermənilər 1919-cu ilin sonlarında Naxçıvana yenidən hücum etdilər. Ermənistanın nizami qoşun hissələri ilə Naxçıvan Milli Komitəsinin hərbi dəstələri arasında qanlı toqquşmalar başlandı. Bu qanlı döyüşlər amerikalıların ümidlərini doğrultmadı. Döyüş qabiliyyətini itirmiş Ermənistan ordusu heç bir əhəmiyyətli müvəffəqiyyət qazana bilmədi. Amerikalıların gözlədiklərinin əksinə olaraq hərbi toqquşmalar, azərbaycanlı əhaliyə qarşı törədilən qanlı cinayətlər Naxçıvan Milli Komitəsinin, müsavatçı Kəlbalı xanın hərbi, inzibati və siyasi hakimiyyətini daha da möhkəmləndirdi. O, həmçinin, xəzinəyə, dəmir yoluna, poçt-teleqrafa və vergilərin qoyulmasına nəzarəti ələ keçirdi.

Belə uğurlu vəziyyətə baxmayaraq amerikalılardan yardım alan daşnak Ermənistanı 1920-ci ilin yanvarında Naxçıvanı işğal etmək üçün yeni cəhd göstərdikdə, diyarın müdafiəçilərinin vəziyyəti xeyli mürəkkəbləşdi. Azərbaycan Xalq Cümhuriyyətinin özündə siyasi böhranın dərinləşməsi Naxçıvana hərbi yardım göstərilməsini çətinləşdirdi. Düşmənin üstün qüvvələri qarşısında tək və zəif qalmış Naxçıvan rəhbərliyi kömək üçün türklərə müraciət etməli oldu. Belə cəhd öz növbəsində Naxçıvanda Azərbaycanın mövqelərini xeyli zəiflətdi. Təsadüfi deyil ki, 1920-ci ilin fevralında Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin nümayəndələri Naxçıvanı tərk etməyə məcbur oldular. Naxçıvanda hərbi-siyasi vəziyyət xeyli mürəkkəbləşdi. Naxçıvan əhalisinin misilsiz qəhrəmanlığı sayəsində Şərur, Ordubad, Naxçıvan torpaqları 1920-ci ilin ortalarına doğru tamamilə erməni daşnaklarından təmizləndi.

Kəlbalı xan və onun tərəfdarlarının səyləri nəticəsində Naxçıvandakı general-qubernatorluq 1920-ci ilin martında faktiki olaraq ləğv edilmiş və Naxçıvan yenidən dövlət müstəqilliyi qazanmışdı. Təsadüfi deyildir ki, o günlərdə Naxçıvan, Şərur, Ordubad və Vedibasar rayonu nümayəndələrinin iclası "qəti olaraq AXC-ə birləşmək" cəhdini ifadə edirdi [20, s.116].

Naxçıvan diyarının əhalisini erməni qırğınından xilas etmək üçün türklərin köməyinə ehtiyac duyulurdu. Yerli əhali nümayəndələrinin türk qoşunlarını Naxçıvana dəvət etmək barədə mətbuatda dərc olunmuş müraciətdə də həmin reallıq öz ifadəsini tapmışdı. Elə bunun nəticəsi idi ki, 1920-ci ilin martında Əli Teymur bəy başda olmaqla yeni türk qoşun hissəsinin Naxçıvana gəlməsi əhali tərəfindən böyük şadlıqla qarşılandı. Hadisələrin sonrakı gedişi bir daha təsdiq etdi ki, bu tədbir Naxçıvan əhalisinin yeni qırğınının qarşısını almış, diyarın gələcək siyasi taleyinin həllində, onun məhz Azərbaycan dövlətinin tərkibində muxtariyyət əldə etməsində əhəmiyyətli, bəlkə də müəyyənedici rol oynamışdır.

Nəticə. Beləliklə, aydın olur ki, Azərbaycan Xalq Cümhuriyyəti hökuməti və parlamenti hərbi-siyasi vasitələrdən istifadə edərək ölkənin ərazi bütövlüyünü qorumağa çalışmış, Naxçıvanın itirilməsinə və ermənilər tərəfindən işğal edilməsinə yol verməmiş və bu istiqamətdə ingilislər və amerikalılarla diplomatik danışıqlar aparmış, eyni zamanda Naxçıvana hərbi və maddi köməkliklər göstərmişdir. Lakin bütün bunlarla yanaşı, özlərinin çətin ictimai-siyasi və hərbi vəziyyətlə qarşılaşdıqlarından bir sıra hallarda məqsədlərinə tam nail ola bilməmişlər. Bölgə əhalisinin igidliyi və qəhrəmanlığı sayəsində Naxçıvan ərazisi Azərbaycanın tərkib hissəsi kimi qorunub saxlanılmış və nəhayət beynəlxalq Moskva və Qars müqavilələrinə uyğun olaraq 1921-ci ilin martında və oktyabrında Azərbaycanın tərkibində ona muxtariyyət statusu verilmişdir.

ƏDƏBİYYAT

1. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (1998). I., 976.
2. Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA), F. 894, siy. 10, iş 31
3. ARDA, F. 894, siy. 10, iş 37
4. ARDA, F. 894, siy. 10, iş 76
5. ARDA, F. 894, siy. 10, iş 94
6. ARDA, F. 894, siy. 10, iş 102
7. ARDA, F. 894, siy. 10, iş 178
8. ARDA, F. 970, siy.1, iş 1
9. ARDA, F. 970, siy. 1, iş 42
10. ARDA, F. 970, siy. 1, iş 54
11. Azərbaycan tarixi (2008). Yeddi cilddə. V cild (1900-1920-ci illər). Bakı: Elm, - 696 s.
12. “Azərbaycan” qəzeti, 1919, 1-12
13. Azərbaycan Xalq Cümhuriyyəti və Naxçıvan (2010). Tərtib edəni və ön sözün müəllifi İsmayıl Hacıyev. Naxçıvan: Əcəmi NPB, 384
14. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi (ARPİİ SSA). F. 1, siy.2, iş 16
15. ARPİİ SSA, F.1, siy. 19, iş 127
16. ARPİİ SSA, F.276, siy. 9, iş 40
17. ARPİİ SSA, F.277, siy. 2, iş 37
18. ARPİİ SSA, F.277, siy. 2, iş 57
19. ARPİİ SSA, F.277, siy. 2, iş 58
20. Hacıyev, A. (1994). Qars və Araz-Türk respublikaları tarixindən. Bakı: Azərnəşr, - 124.
21. Hacıyev, İ. (2018). Naxçıvan Azərbaycanın dövlətçilik tarixində. Bakı: Elm, - 372.
22. Hacıyev, İ. (2021). Araz-Türk Cümhuriyyəti. Naxçıvan: Əcəmi NPB, - 160.
23. Hacıyev, İ., Şıxəliyev, E., Cəfərli, E., Şabanov, M. (2017). Böyük güclərin Azərbaycanla bağlı geosiyasi maraqlarında Naxçıvanın yeri. Bakı: Elmin İnkişafı Fondu, - 300.
24. Hacıyev, İ. (2012). Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və qanlı cinayətləri. Naxçıvan: Əcəmi NPB, - 192.
25. Həsənli, C. (2009). Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti (1918-1920). Bakı, Garisma MMC, 576.
26. İsmayılov, K. (2019). Azərbaycanın Naxçıvan bölgəsi regional hərbi-siyasi proseslərdə (1917-1920). Bakı: Turxan NPB, - 200.

27. Мадатов, Т. (1968). Победа Советской власти в Нахичевани и образование Нахчеванской АССР. 188.
28. Musayev, İ. (1996). Azərbaycanın Naxçıvan və Zəngəzur bölgəsində siyasi vəziyyət və xarici dövlətlərin siaysəti (1917-1921-ci illər). Bakı: BDU, - 328.
29. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi (NMRDA), F.1, siy. 3, iş 5.
30. NMRDA, F. 8, siy. 1, iş 395.
31. NMRDA, F. 24, siy. 1, iş 43.
32. NMRDA, F. 25, siy. 1, iş 2.
33. NMRDA, F. 314, siy. 5, iş 67.
34. NMRDA, F. 314, siy. 5, iş 71.
35. NMRDA, F. 314, siy. 5, iş 73.
36. Naxçıvan Muxtar Respublikası (2001). Bakı: Elm, - 220.
37. Naxçıvan tarixi atlası (2010). Bakı. – 55.
38. Nəsibzadə, N. (1996). Azərbaycanın xarici siyasəti (1918-1920). Bakı. – 304.
39. Quliyev, C., Mədətov, Q., Nadirov, A. (1984). Sovet Naxçıvanı. Bakı: Azərnəşr, - 136.
40. Tahirzadə, Ə. (2005). Mirabbas Mirhüseyn oğlu Mirbağırzadə. "525-ci qəzet", 19 fevral.
41. Paşayev, A. (2010). Məhəmməd xan Təkinski kimdir? "Xalq qəzeti", 18 iyul.
42. Atnur, İ.E. (2001). Osmanlı yönetiminden sovyet yönetimine kadar Nahçıvan (1918-1921). Ankara Türk Tarih Kurumu, - 488.
43. Азербайджанская Республика. Документы и материалы. 1918-1920гг. (1998). Баку: Элм, 616.
44. Гаджиев, А. (2004). Демократические Республики Юго-Западного Кавказа (Карсская и Араз - Тюркская республики). Баку: Нурлан, - 280.
45. Гаджиев, И. (2016). Территориальные притязания и кровавые преступления армян против Азербайджана. Москва АП столица, - 182.
46. Нифталиев, И. (2009). Азербайджанская ССР в экспансионистских планах армян. Баку, 2009. – 256.

ИСМАИЛ ГАДЖИЕВ
Нахчыванское отделение НАНА

ПОЛИТИЧЕСКАЯ СИТУАЦИЯ НАХЧЫВАНСКОГО КРАЯ В ПЕРИОД АЗЕРБАЙДЖАНСКОЙ НАРОДНОЙ РЕСПУБЛИКИ

В статье исследована политическая ситуация Нахчыванакого края в период Азербайджанской Народной Республики. Освещены некоторые вопросы в деятельности республиканского парламента и власти, связанные с Нахчываном, политическая, военная материальная и моральная помощь, оказанная области, во имя избегания оккупации со стороны армян. Здесь также исследована деятельность Общества Соотечественников Мусульманского Национального Комитета в целях защиты Нахчывана, борьба против армянских дашнаков, связи с Османским государством, созданная в области Аракс-Тюркская Республика, политика США и Англии в отношении Нахчывана. Во время исследования автор пришел к заключению, что успешная политика правительства АНР, разные методы, использованные населением, особенно упорная борьба нахчыванцев способствовали сохранению Нахчывана в составе Азербайджана.

Ключевые слова: Азербайджанская Народная Республика, нахчыванцы, тюрки, Россия, Англия, США, Аракс-Тюркская Республика, армяне.

ISMAYIL HAJIYEV
Nakhchivan Branch of ANAS

POLITICAL CONDITION OF NAKHCHIVAN REGION IN THE PERIOD OF AZERBAIJAN DEMOCRATIC REPUBLIC

In the article the political condition of Nakhchivan region in the period of Azerbaijan Democratic Republic has been involved in analysis. The following problems were substantiate that during the

activity of the government and parliament of Azerbaijan Democratic Republic they paid special attention to some problems related to Nakhchivan, to prevent the region from capturing by Armenians, the government gave Nakhchivan political, military, material and spiritual help. Here the author also speaks about the activity of Countrymen Society of Muslim National Committee to defend Nakhchivan, the fighting of the Committee against armenian dashnaks, its relations with Ottoman empire, Araz-Turk Republic created in the region, the policy of Russia, England and the USA related to Nakhchivan were investigated. After the investigation the author has got such results that according to the succesful policy of the government of Azerbaijan Democratic Republic, different ways used by aborigine people, especially persistent fighting of Nakhchivani gave opportunity to keep Nakhchivan under the rule of Azerbaijan Republic.

Keywords: Azerbaijan Democratic Republic, Nakhchivani, turks, Russia, England, USA, Araz-Turk Republic, armenians

Məqalənin redaksiyaya daxil olduğu tarix: 23 fevral 2026-cı il.
Məqalənin çapa qəbul olunma tarixi: 21 may 2026-cı il.

UOT 94(479.24)

YEGANƏ MƏMMƏDOVA
Tarix üzrə fəlsəfə doktoru, AMEA Naxçıvan Bölməsi, doktorant
https://0rcid.org/0000-0001-5693-3748
ymemmedova49@mail.com

NAXÇIVAN MSSR MƏRKƏZİ İCRAİYYƏ KOMİTƏSİNİN SOVET QURUCULUĞU DÖVRÜNDƏ FƏALİYYƏTİ

DOI: https://doi.org/10.36719/2708-065X/113/60-65

Arxiv sənədləri göstərir ki, tədqiq edilən dövrdə Naxçıvan MSSR-nın kənd təsərrüfatı və istehsal potensialı məhz Sovnarkomun təşəbbüsü ilə hazırlanan planlara əsasən formalaşırdı. Xüsusilə maliyyə və ticarət komissiyaları, mərkəzi plan üzrə Naxçıvanın iqtisadi göstəricilərini analiz edərək nəticələri Mərkəzi İcraiyyə Komitəyə təqdim etmiş, yeni inkişaf proqramlarının işlənib hazırlanmasına töhfə vermişlər. Həmin illərdə yerli mətbuat da bu prosesi aktiv şəkildə müşayiət etmişdir. "Sovet Naxçıvanı" qəzeti vasitəsilə partiya göstərişləri, Sovnarkom qərarları və kənd sovetlərinə tövsiyələr əhaliyə çatdırılmışdır ki, bu da yerli səviyyədə ideoloji və inzibati idarəetmənin effektivliyini artırmışdır. Qəbul edilən bu qərarlar və tədbirlər kompleksi, gələcəkdə – xüsusilə 1945-ci il müharibədən sonrakı yenidənqurma dövrü üçün əsas prioritetlərin formalaşdırılmasında mühüm rol oynadı. Beləliklə, XX əsrin ikinci yarısında Naxçıvanın sosial-iqtisadi dirçəlişi üçün ideoloji və institusional baza bu mərhələdə formalaşmış oldu.

Açar sözlər: Mərkəzi İcraiyyə Komitəsi, Sovnarkom, sovet quruculuğu, seçki.

Giriş. Naxçıvan MSSR-in ali idarəetmə orqanlarından biri olan Mərkəzi İcraiyyə Komitəsi (MİK), sovet dövründə sosialist quruculuğun əsas təşəbbüskar və icraedici mərkəzlərindən biri kimi çıxış edirdi (1, s.134). 1924-cü ildə Naxçıvan Muxtar Respublikasının statusu təsdiqləndikdən sonra, burada dövlət hakimiyyətinin təşkili və yerli icra strukturlarının sovet modeli üzrə formalaşdırılması MİK-in başlıca vəzifəsi olmuşdur. MİK, sovet ideologiyasının tələblərinə uyğun olaraq iqtisadi, sosial və mədəni sahələrdə genişmiqyaslı islahatların icrasına rəhbərlik etmişdir.

Naxçıvan MSSR MİK-i yerli sovet qurumlarının təşkilində önəmli rol oynamışdır. Kənd, rayon və şəhər sovetlərinin formalaşdırılması, bu strukturların idarəetmə təlimatlarının hazırlanması, seçki sisteminin təşkili və yerli orqanların partiya ilə əlaqəsinin təmin olunması MİK-in daimi nəzarətində idi (2, s.138). Bu dövrdə sovet dövlət quruculuğunun əsas prinsipləri olan demokratik mərkəzləşmə, bürokratik tabeçilik və partiya nəzarəti Naxçıvanda da tətbiq olunurdu. MİK həmçinin hüquqi çərçivələrin hazırlanması, inzibati-ərazi bölgüsünün təkmilləşdirilməsi və yerli qərarların ittifaq qanunvericiliyinə uyğunlaşdırılması funksiyasını yerinə yetirirdi. Qəbul edilən qərar və sərəncamlar, əsasən, Moskvadan və Bakının müvafiq orqanlarından gələn direktivlərə uyğunlaşdırılırdı.

Sovet quruculuğunun əsas dayaqlarından biri olan kollektivləşmə, sənayeləşmə və kooperativləşmə siyasətinin Naxçıvan ərazisində tətbiqinə MİK rəhbərlik edirdi. 1930-cu illərdə həyata keçirilən kollektivləşmə tədbirləri nəticəsində kənd təsərrüfatı subyektləri məcburi qaydada kolxoz və sovxozlara birləşdirilmiş, əhalinin torpaq mülkiyyəti ləğv olunmuşdur (3, s.136). MİK bu tədbirlərin həyata keçirilməsində icraedici orqanları səfərbər edir, həm kadr təyinatlarını, həm də maddi-texniki təminatı koordinasiya edirdi. Planlı təsərrüfat idarəçiliyi, kvotaların müəyyənləşdirilməsi, kənd təsərrüfatı məhsullarının yığım planlarının təsdiqi birbaşa MİK-in vasitəsilə icra olunurdu. Sənayenin təşkili sahəsində isə MİK sənaye obyektlərinin tikintisini, əmək bölgüsünün tənzimlənməsini və istehsal planlarının icrasını nəzarətdə saxlayırdı (2, s.138).

MİK mədəni maarifləndirmə sahəsində də əsas koordinasiyaçı strukturlardan biri idi. Təhsil müəssisələrinin tikintisi, müəllim kadrlarının bölgüsü, mədəniyyət evləri və klubların təşkili, sovet bayramlarının keçirilməsi, mətbuat və nəşriyyat fəaliyyətinin tənzimlənməsi MİK-in mədəni quruculuqdakı rolunu göstərir (4, s.102). Sovet ideologiyasının təbliği məqsədilə təşkil edilən tədbirlərə rəhbərlik edir, məzmunun siyasi uyğunluğunu təmin edirdi.

Naxçıvan Dövlət Teatrının repertuarı, yerli qəzetlərin məzmunu, məktəb dərsliklərinin ideoloji uyğunluğu kimi məsələlər də bu orqanın birbaşa nəzarətində idi. Bu yanaşma göstərir ki, MİK sovet mədəniyyətinin təkcə yayılmasını deyil, həm də inzibati nəzarətlə tənzimlənməsini təmin edirdi (5, s.121).

MİK-in fəaliyyətində mühüm yer tutan istiqamətlərdən biri də sovet kadrlarının hazırlanması və yerləşdirilməsi sayılırdı. İctimai strukturlar, təhsil ocaqları və təsərrüfat sahələrinə təyin olunan şəxslər MİK-in təsdiqi və partiya orqanlarının tövsiyəsi ilə seçilirdi. Bu kadrların ideoloji baxımdan loyallığı və siyasi savadı əsas meyar sayılırdı. 1930-cu illərin əvvəllərində Naxçıvan MSSR-də MİK-in təşkili regionun siyasi idarəçilik sistemində mühüm mərhələ kimi çıxış etmişdir. Sovet hakimiyyətinin bu dövrdə həyata keçirdiyi əsas tədbirlərdən biri, yerli idarəetmənin mərkəzləşdirilməsi məqsədilə MİK-in strukturunun və səlahiyyətlərinin normativ sənədlərlə tənzimlənməsi olmuşdur. Arxiv sənədlərinə əsasən, komitəyə seçilən nümayəndələrin əksəriyyəti partiya təcrübəsi olan, daha əvvəl sovet idarə strukturlarında fəaliyyət göstərmiş şəxslər olmuşdur. Buraya həm gənc, Komsomol fəaliyyəti ilə seçilən kadrlar, həm də veteran komissarlar daxil idi. Qeyd olunan ilk protokollarda Qurbanbəy Xəlilov komitə sədri, dövlətçilik təcrübəsi ilə tanınan Məhəmməd Əhmədov isə katib kimi göstərilmişdir (6, s.115). Tərkibdə kənd sovetlərini təmsil edən nümayəndələrin iştirakı bu orqanın ictimai rəyə əsaslanaraq qərarlar qəbul etməsini təmin etmişdir. Bütün rayonlardan cəlb edilən nümayəndələrin iştirakı ilə keçirilən iclaslarda geniş fikir mübadilələri aparılmış, qəbul edilən qərarlar daha çox yerli reallıqlara uyğunlaşdırılmışdır. Tarixi mənbələrdən məlum olur ki, bu dövrdə Mərkəzi İcraiyyə Komitəsinin başlıca missiyası mərkəzi planlaşdırma ilə yerli ehtiyaclar arasında uyğunluğu təmin etmək olmuşdur (7, s.136).

Moskva xəttinə uyğun olaraq isə kənd təsərrüfatı və ticarət sahələrində sosial rifahı artırmağa yönəlmiş sərəncamlar ilkin mərhələdə bu komitənin iclaslarında nəzərdən keçirilmiş, sonrakı mərhələdə isə Nazirlər Sovetinə təqdim olunmuşdur. Komitə üzvləri digər sovet respublikalarından olan nümayəndələrlə qarşılıqlı məsləhətləşmələr apararaq Naxçıvanın iqtisadi inkişafını regional müstəvidə təhlil etməyə çalışmışlar. Eyni zamanda komitə kadr siyasətini formalaşdırmaqla hüquq-mühafizə orqanları, təhsil və mədəniyyət müəssisələrinin fəaliyyətinə də təsir göstərmişdir.

Komitə protokollarında kənd sovetlərinin təkliflərinin əsasən kənd təsərrüfatı strukturunun təkmilləşdirilməsinə yönəldiyi, bu təkliflərin isə son nəticədə partiya qərarlarına uyğunlaşdırıldığı görünür. Paralel olaraq, Sovnarkom – yəni Xalq Komissarları Şurası – bu dövrdə Naxçıvan MSSR-in icra hakimiyyətinin əsas sütununu təşkil etmişdir. Şura öz tərkibinə maliyyə, daxili işlər, kənd təsərrüfatı, maarif və ticarət üzrə komissarları daxil etmiş, bu şəxslərin əksəriyyəti isə bolşevik ideologiyasına sadiq partiya üzvləri olmuşdur.

Sovnarkom və Mərkəzi İcraiyyə Komitəsi arasında səlahiyyət bölgüsü SSRİ Konstitusiyasına və Nazirlər Sovetinin qərarlarına əsaslanaraq hüquqi şəkildə tənzimlənmişdir. Sovnarkom tərəfindən iclaslarda kommunal infrastruktur layihələrinin icrası, eləcə də təhsil və mədəniyyət sahələrində genişləndirmə təşəbbüsləri irəli sürülmüşdür. Büdcə vəsaitlərinin bölgüsü Mərkəzi İcraiyyə Komitə ilə razılaşdırılmış, Sovnarkom isə onların praktiki istifadəsinə məsul olmuşdur (8, s.143).

Arxiv sənədləri göstərir ki, regionun kənd təsərrüfatı və istehsal potensialı məhz Sovnarkomun təşəbbüsü ilə hazırlanan planlara əsasən formalaşdırılmışdır. Xüsusilə maliyyə və ticarət komissiyaları, mərkəzi plan üzrə Naxçıvanın iqtisadi göstəricilərini analiz edərək nəticələri Mərkəzi İcraiyyə Komitəyə təqdim etmiş, yeni inkişaf proqramlarının işlənib hazırlanmasına töhfə vermişlər. Həmin illərdə yerli mətbuat da bu prosesi aktiv şəkildə müşayiət etmişdir. "Sovet Naxçıvanı" qəzeti vasitəsilə partiya göstərişləri, Sovnarkom qərarları və kənd sovetlərinə tövsiyələr əhaliyə çatdırılmışdır ki, bu da yerli səviyyədə ideoloji və inzibati idarəetmənin effektivliyini artırmışdır (9, s.35).

1930-1933-cü illərdə Naxçıvan MSSR-də Sovet idarəetmə sisteminin formalaşması və funksional mexanizmlərinin tənzimlənməsi çərçivəsində rayon mətbuat şöbələri də Sovnarkomun verdiyi göstərişlər əsasında fəaliyyət göstərmiş, bu göstərişlərin icrasına nəzarət funksiyasını daşıyırdılar. Həmin dövrdə Mərkəzi İcraiyyə Komitəsi ilə Sovnarkomun qərarlarının sənədləşdirilməsi və saxlanılması üçün xüsusi arxiv şöbəsi təsis edilmişdi. Bu arxiv materialları göstərir ki, 1932-ci ildən etibarən idarələrarası əlaqələr daha da intensivləşdirilmiş, Sovnarkom iclaslarında qəbul edilən təkliflər dərhal Mərkəzi İcraiyyə Komitəsinin gündəliyinə salınmışdır.

Bu qərarların həyata keçirilməsində partiya təlimatları həlledici rol oynamış, onlar vasitəsilə Sovnarkom müxtəlif tədbirləri ya sürətləndirməyə, ya da ləngitməyə yönəldilmişdi. Məsələn, partiya xəttinə əsasən razılaşdırılmış strateji iqtisadi plan çərçivəsində kənd təsərrüfatı komissarı tərəfindən yeni subsidiya proqramı təsdiqlənmiş və bu proqram kənd sovetləri üçün əsas prioritetlərdən birinə çevrilmişdi. 1933-cü ilin əvvəlində Sovnarkomun rayon komissarları ilə keçirdiyi müşavirələrdə köçürmə siyasəti, kollektiv təsərrüfatların təşkili və yeni tikinti layihələrinin maliyyələşmə qaynaqları ətraflı müzakirə edilmişdi. Bu müşavirələrin protokollarında rayon komissarlarının konkret təkliflərlə Sovnarkoma müraciət etdiyi, həmin müraciətlərin isə sonradan Mərkəzi İcraiyyə Komitəsinin müzakirəsinə verildiyi qeyd olunur.

Beləliklə, Sovnarkom və Mərkəzi İcraiyyə Komitəsi arasında qərar qəbuletmə və icra prosesi koordinasiyalı şəkildə həyata keçirilmişdir. Paralel olaraq, rayon partiya komitələrinin təsir dairəsi də genişlənmiş, onların katibləri həm Sovnarkomun, həm də Mərkəzi İcraiyyə Komitəsinin qərarlarının yerinə yetirilməsinə nəzarət funksiyasını daşımağa başlamışlar. Bu vəziyyət rayon partiya strukturlarını Sovet hakimiyyətinin həm hesabatverici, həm də təşəbbüskar qurumuna çevirmişdir. Onlar həm ali strukturlara hesabat verir, həm də yerli problemlər üzrə təkliflərlə çıxış edirdilər.

Siyasi-inzibati koordinasiya modeli, xüsusilə 1933-cü ildə keçirilmiş rayon partiya konfranslarında daha da gücləndirilmiş, yeni seçilmiş rayon partiya komitələri Mərkəzi İcraiyyə Komitəsinin protokollarında rəsmi şəkildə qeyd edilmişdir. Bu konfranslar zamanı regional inkişafın prioritetləri müəyyənləşdirilmiş və həmin istiqamətlər üzrə Sovnarkom ilə qarşılıqlı fəaliyyət planı hazırlanmışdır.

Arxiv mənbələri göstərir ki, məlumat axınını təmin etmək üçün xüsusi təlimatlandırılmış katiblər təyin edilmiş, onların əsas funksiyası rayon partiya komitələri ilə sıx əlaqə qurmaq, ictimai rəy və təklifləri ali orqanlara çatdırmaq olmuşdur. Bu dövrdə rayon partiya komitələrinin katibləri kənd sovetlərinə icra üçün konkret planlar göndərmiş, onların həyata keçirilməsi isə rayon sovet icraiyyə komitələrinin məsuliyyəti altında olmuşdur.

1931-ci ildən etibarən Mərkəzi İcraiyyə Komitəsinin arxivində saxlanılan protokollar, rayon partiya yığıncaqlarının nəticələrini əks etdirərək, bu qurumların kənd sovetləri ilə sistemli əməkdaşlıq etdiyini sübut edir. Həmin sənədlərdə, dövlət fondlarının kənd təsərrüfatı obyektlərinin texniki təchizatına yönəldilməsi ilə bağlı partiya tövsiyələri qeyd olunmuşdur. Bu tövsiyələr həm Sovnarkom, həm də Mərkəzi İcraiyyə Komitə tərəfindən dəstəklənmiş və 1932-1933-cü illərdə istixana və südçülük təsərrüfatlarının inkişafı üzrə layihələrin icrasına təkan vermişdir (10, s.116).

Beləliklə, arxiv araşdırmaları sübut edir ki, Mərkəzi İcraiyyə Komitə, Sovnarkom və rayon partiya komitələri arasında qarşılıqlı inteqrasiyaya əsaslanan, lakin funksional olaraq paralel şəkildə fəaliyyət göstərən üçtərəfli struktur formalaşmışdır. Bu strukturun əsas məqsədi regionda planlaşdırılmış siyasətin yerli səviyyədə həyata keçirilməsini təmin etmək və idarəetmədə kadr intizamını gücləndirmək olmuşdur. Həmin dövrün sənədlərinə əsaslanaraq demək mümkündür ki, Naxçıvan MSSR-də ali hakimiyyət orqanlarının formalaşması, planlaşdırma və icra strukturunun sinxronizasiyası, sovet idarəetmə sisteminin klassik modelinə uyğun olaraq qurulmuş və regional inkişafın dayanıqlı təməllərini yaratmışdır (11, s.147).

1934-cü ildən başlayaraq Naxçıvan MSSR-də Sovet İttifaqının yeni qəbul olunmuş Konstitusiyasına uyğun olaraq institusional islahatlar daha da sürətləndirilmişdir. 1936-cı ilin dekabrında SSRİ Konstitusiyasının qəbul edilməsi, digər ittifaq respublikalarında olduğu kimi, Naxçıvanda da ali hakimiyyət strukturlarının yenidən təşkili zərurətini yaratmışdır. Azərbaycan SSR-i 1937-ci ilin yayında yeni Konstitusiyasını qəbul etdikdən sonra Naxçıvan MSSR-in əsas qanunvericilik sənədi də buna uyğunlaşdırılmışdır. Bu Konstitusiya ilə Mərkəzi İcraiyyə Komitəsinin funksiyaları ləğv edilərək, yerinə yeni təsis edilən Ali Sovet orqanı gətirilmişdir. Ali Sovet sisteminə keçidlə birlikdə əsas diqqət seçki mexanizmlərinin formalaşdırılmasına yönəldilmiş və bu məqsədlə bütün yaşayış məntəqələrində seçki dairələri yaradılmışdır. Hər dairədən bir deputat seçilməsi prinsipi tətbiq edilmiş, namizədlərin təsdiqi üçün partiya komitələri ilə Sovnarkom birgə hazırlıq tədbirləri həyata keçirmişdir (12, s.148).

Namizədlərin irəli sürülməsi mərhələsində geniş ictimai müzakirələr təşkil olunmuş, bu müzakirələrdə əvvəlki dövrün Mərkəzi İcraiyyə Komitəsinin üzvləri, Sovnarkom şöbə rəhbərləri və partiya fəalları namizədlik üçün irəli çəkilmişdir. Seçki komissiyalarının formalaşdırılmasında mərkəzi hakimiyyət strukturları ilə partiya orqanları arasında koordinasiya təmin edilmiş, birgə monitorinq vasitə-

silə seçkilərin şəffaf və demokratik keçirilməsi məqsəd qoyulmuşdur. 1937-ci ilin noyabrında keçirilən seçkilərin nəticəsində birinci çağırış Naxçıvan MSSR Ali Soveti formalaşdırılmış və onun ilk iclasında SSRİ Ali Sovetinin nümayəndələri də iştirak etmişdir. İclas zamanı Ali Sovetin səlahiyyət sahələri müəyyənləşdirilmiş, rayon və kənd sovetləri ilə hesabat əlaqələri qurulmuşdur (13, s.149).

Eyni zamanda, 1937-1938-ci illərdə SSRİ miqyasında güclənən repressiya siyasəti Naxçıvanda da öz təsirini göstərdi. Repressiya tədbirlərinin yerli icrası üçün NKVD-nin Naxçıvandakı şöbəsi fəaliyyətə başladı və xüsusi "troyka"lar yaradıldı (14, s.152). Bu dövrdə MİK-in (və sonradan Ali Sovetin) arxivində saxlanılan protokollar və sənədlər repressiyaların miqyası, qurbanların sosial tərkibi və proseslərin hüquqi əsasları haqqında məlumat verir. 1939-cu ildə Ali Sovet tərəfindən repressiya qurbanlarının reabilitasiyası və onların ailələrinə sosial yardım göstərilməsi ilə bağlı ilkin tədbirlər planı təsdiq edildi (15, s.135).

1940-cı ilin əvvəllərində beynəlxalq vəziyyətin pisləşməsi ilə əlaqədar Naxçıvan MSSR-də müdafiə hazırlıqları gücləndirildi. Ali Sovet tərəfindən təsdiqlənmiş "Hərbi Sənaye İnkişaf Proqramı" çərçivəsində rayonlarda hərbi məhsul istehsalı üçün emalatxanaların qurulması, yerli kadrların hazırlanması nəzərdə tutulurdu (16, s.95). Həmçinin, "Mülki Müdafiə" komissiyası yaradıldı və hava hücumlarına qarşı sığınacaqların təşkili, hərbi tibb infrastrukturu kimi məsələlər həll edilməyə başlandı.

MİK-in və onun davamçısı olan Ali Sovetin qəbul etdiyi qərarlar kompleksi təkcə müharibəyə hazırlıq məqsədilə deyil, həm də müharibədən sonrakı bərpa dövrü üçün regionun sosial-iqtisadi inkişafının əsaslarını qoydu. Kənd təsərrüfatı və sənaye sahələrində mərkəzləşdirilmiş planlaşdırma, kadr hazırlığı və infrastruktur layihələri sonrakı onilliklərdə Naxçıvanın inkişafında mühüm rol oynadı.

1938-ci ildə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasında Konstitusiya və mövcud qanunvericiliyə uyğun şəkildə Ali Sovetin ikinci çağırışı yenidən təşkil olundu. O dövrdə keçirilən seçkilərdə kənd və rayon Sovetlərindən çıxan nümayəndələr – vəzifəli şəxslər, partiya nümayəndələri və ziyalı təbəqəyə mənsub mütəxəssislər deputat seçildilər. Arxiv sənədləri göstərir ki, Ali Sovetin sessiyaları ildə iki dəfə baş tutmuş, bu iclaslarda qanunverici təşəbbüslər, büdcə layihələri və icraedici strukturların hesabatları ətraflı müzakirə olunmuşdur (17, s.99).

1938-ci ilin ilk sessiyasında Naxçıvan regionunun planlaşdırma fəaliyyətinə nəzarətin təkmilləşdirilməsinə dair qərarlar qəbul edildi. Bu sessiyada Mərkəzi İcraiyyə Komitəsi ilə Nazirlər Soveti arasında funksional əlaqələrin gücləndirilməsi məqsədilə normativ sənədlər təsdiqləndi. Eyni zamanda, Nazirlər Sovetinin tərkibinə Xalq Təminatı, İctimai Təhsil, Sənaye, Kənd Təsərrüfatı və Daxili İşlər Nazirlikləri ilə yanaşı Müəssisələrarası Planlaşdırma İdarəsi də daxil edildi. Bu qurumların fəaliyyət istiqamətləri Ali Sovetin müvafiq komissiyaları tərəfindən müəyyənləşdirilərək icraya yönəldildi. Paralel olaraq, Mərkəzi Komitə tərəfindən ideoloji koordinasiyanı təmin etmək məqsədilə xüsusi İdeologiya Bürosu yaradıldı.

İlin ikinci sessiyasında isə repressiya tədbirləri və NKVD-nin regional strukturunun qurulması əsas müzakirə mövzusu oldu. NKVD-nin yerli idarəsi təsis olundu və onun rəhbəri kimi daha əvvəl Sovet Mərkəzi Bankında yüksək vəzifə tutmuş Əli Qasım oğlu İbrahimov təyin edildi. Bu təyinatla repressiya proseslərinə nəzarət və onların həyata keçirilməsi daha sistemli şəkildə təşkil edildi. Həmin sessiyada NKVD nəzdində "troyka" adlı xüsusi komissiya – prokuror, NKVD rəhbəri və məhkəmə nümayəndəsindən ibarət üçlük – formalaşdırıldı və repressiya qərarlarının sürətli icrasına məsul oldu (18, s.153).

NKVD tərəfindən tərtib edilmiş protokollarda 1938-1939-cu illər ərzində həyata keçirilmiş repressiyaların miqyası, zərərçəkənlərin sosial qrupları və statusları kodlaşdırılmış şəkildə əks olunmuşdur. Rayonlardan daxil olan hesabatlara əsasən, repressiyalar əsasən intellektual şəxslərə, kənd rəhbərlərinə və keçmiş müstəqil fəaliyyətlə məşğul olmuş şəxslərə yönəlmişdi. Ali Sovetin üçüncü çağırış sessiyasında isə repressiyaların humanitar aspektləri müzakirə edildi və Sovnarkom ilə Xalq Təhsil Nazirliyi birgə "hüquqi maarifləndirmə" proqramını təsdiq etdilər. Bu proqram vətəndaş hüquqları, məhkəmə prosedurları və repressiya tədbirlərinin hüquqi əsaslarının ictimaiyyətə izahını hədəfləyirdi. Həmçinin, məhkəmə və prokurorluq sisteminin yenidən qurulması üçün hüquqi əsaslar müəyyən edildi və rayon məhkəmələrinə yeni, əsasən yerli hüquqşünaslardan ibarət hakimlər təyin olundu.

1938-ci ilin sonunda Naxçıvanın Məhkəmə Palatası Ədliyyə Xalq Komissarlığı nəzdində müstəqil orqana çevrildi və bu qurum daxilində hüquq və insan haqları üzrə yeni bir şöbə fəaliyyətə baş-

ladı. Bu struktur repressiya ilə bağlı arxiv sənədlərinin toplanması, xüsusi məhkəmə icraatlarının təşkili və prokurorluq əməkdaşlarının maarifləndirilməsi işlərini həyata keçirdi (19, s.152).

1938-1940-cı illər arasında Naxçıvan MSSR-in ali hakimiyyət orqanlarının fəaliyyəti, ümumittifaq səviyyəsində qəbul edilmiş repressiya və müdafiə siyasətinə uyğunlaşdırılarak, həm repressiv idarəetmənin hüquqi və institusional bazasının möhkəmləndirilməsini, həm də müharibə dövrünə sistemli hazırlığın həyata keçirilməsini təmin etdi. Bu dövr, Naxçıvanın sovet dövrü dövlət quruculuğu tarixində mühüm mərhələ olaraq çıxış edir və tədqiqatçılara regional idarəetmənin transformasiyası ilə bağlı yeni elmi yanaşmalar təqdim edir. Sessiyada eyni zamanda, reabilitasiya olunacaq şəxslərin siyahısının tərtibinə dair qərar qəbul olundu. Bu siyahıya daxil edilmiş şəxslərin sosial təminatı üçün ayrıca proqramlar hazırlandı. Sovnarkom bu məqsədlə dövlət büdcəsində vəsait ayıraraq repressiya qurbanlarının ailələrinə birbaşa maddi yardım göstərilməsini təşkil etdi. Bu tədbirlər Ali Sovetdə müzakirə olunduqdan sonra Nazirlər Sovetinə icra üçün tövsiyə verildi və qərarların qanuniləşdirilməsi təmin olundu.

Qəbul edilən bu qərarlar və tədbirlər kompleksi, gələcəkdə – xüsusilə 1945-ci il müharibədən sonrakı yenidənqurma dövrü üçün əsas prioritetlərin formalaşdırılmasında mühüm rol oynadı. Beləliklə, XX əsrin ikinci yarısında Naxçıvanın sosial-iqtisadi dirçəlişi üçün ideoloji və institusional baza bu mərhələdə formalaşmış oldu

Nəticə. Naxçıvan MSSR Mərkəzi İcraiyyə Komitəsi sovet dövründə regionun siyasi, iqtisadi və mədəni həyatında mərkəzi rol oynamış dövlət qurumu idi. Onun fəaliyyəti mərkəzi hakimiyyətin direktivləri ilə yerli şəraitin tələblərini uzlaşdırmaq, sovet modelini hər səviyyədə tətbiq etmək və cəmiyyətin ideoloji transformasiyasını həyata keçirmək istiqamətində olmuşdur. 1924-1938-ci illərdə MİK, sovet quruculuğunun əsas alətinə çevrilmiş, kollektivləşmə, sənayeləşmə, mədəni inqilab kimi proseslərə rəhbərlik etmişdir. Arxiv materialları, MİK-in fəaliyyətinin regionun kənd təsərrüfatı və istehsal potensialının formalaşmasında, eləcə də müharibəyə hazırlıq və sonrakı bərpa dövrü üçün prioritetlərin müəyyənləşməsində həlledici rol oynadığını təsdiqləyir. 1936-cı il Konstitusiyasından sonra onun funksiyaları Ali Sovetə keçsə də, qurulan idarəetmə modeli və institusional baza davam etdirilmiş, nəticədə XX əsrin ikinci yarısında Naxçıvanın sosial-iqtisadi dirçəlişinin təməli qoyulmuşdur. Beləliklə, Mərkəzi İcraiyyə Komitəsinin fəaliyyəti Naxçıvan MSSR-in sovet tarixinin ayrılmaz və təhlilinə ehtiyac olan bir hissəsini təşkil edir.

ƏDƏBİYYAT

1. Abdullayev R. Sovet dövründə Azərbaycanın sosial-iqtisadi inkişafı. Bakı: ADPU, 2014, 210 s.
2. Babayev T. Sovet Azərbaycanında repressiyalar: sənədlər və faktlar. Bakı: Qanun, 2015, 320 s.
3. Cəbrayılov V. Sovet repressiyaları və Naxçıvan. Bakı: Qanun, 2017, 180 s.
4. Cəfərov B. Sovet dövründə Naxçıvanın inzibati quruluşu. Bakı: Elm, 2020, 245 s.
5. Cəfərov B. İnformasiya mənbələri və arxiv sənədləri əsasında Naxçıvanın erkən sovet dövrü. Bakı: ADPU, 2022, 195 s.
6. Cəfərov F. Naxçıvan Muxtar Respublikasında mədəni quruculuq (1920–1941-ci il iyun). Bakı: ADPU, 2018, 230 s.
7. Əliyev İ. Naxçıvan tarixi: 1918-1991. Bakı: Şərq-Qərb, 2018, 450 s.
8. Hacıyev M. Sovet Azərbaycanında siyasi proseslər. Bakı: Təhsil, 2016, 280 s.
9. Hüseynova N.A. Naxçıvan MSSR-də gənclər siyasəti (1970-1980-ci illər). Bakı: İnformasiya Texnologiyaları, 2019, 165 s.
10. İsmayılov E.R. Hakimiyyət və xalq: müharibədən sonrakı stalinizm Azərbaycanda (1945–1953). Bakı: Adiloğlu, 2003, 340 s.
11. Məmmədova Y. Naxçıvan Muxtar Respublikasında ümumtəhsil məktəblərinin inkişaf tarixi (1991–2015-ci illər): Tarix üzrə fəlsəfə doktoru ... dis. avtoreferatı / və ya dissertasiyası. Naxçıvan: 2017, 160 s.
12. Musayev Ə. Naxçıvan Muxtar Respublikasının formalaşma tarixi. Bakı: Elm və Təhsil, 2021, 275 s.
13. Mustafazadə R. Muxtariyyət ideyasından reallığa: Naxçıvan SSR-in yaradılması prosesi. Bakı: Təhsil, 2020, 215 s.

14. Qasımlı M.C. Azərbaycanın xarici siyasəti və beynəlxalq münasibətləri. Bakı: Mütərcim, 2021, 520 s.
15. Qurbanov S. Naxçıvan MSSR-də iqtisadi islahatlar. Naxçıvan: Əcəmi, 2019, 190 s.
16. Rasizadə A.A. Basqın: qədim Naxçıvanın sovet torpağında bolşeviklərin vəhşilikləri haqqında kədərli əhvalat (1920-1926). Moskva: Vətən Qəhrəmanları, 2009, 200 s.
17. Rüstəmov K. Naxçıvan MSSR-də mədəni həyat. Bakı: ADPU, 2015, 175 s.
18. Vəliyev Ə. Naxçıvan Muxtar Respublikasının dövlətçilik tarixi. Bakı: Elm, 2017, 310 s.
19. Zeynalov K. İkinci Dünya müharibəsi illərində Azərbaycan və Naxçıvan. Bakı: Təhsil, 2020, 240 s.

ЕГАНА МАМЕДОВА
доктор философии по истории, докторант Нахчыванского филиала НАНА

ДЕЯТЕЛЬНОСТЬ ЦЕНТРАЛЬНОГО ИСПОЛНИТЕЛЬНОГО КОМИТЕТА НАХЧЫВАНСКОЙ АССР В ОБЛАСТИ СОВЕТСКОГО СТРОИТЕЛЬСТВА

Архивные документы свидетельствуют о том, что сельскохозяйственный и производственный потенциал региона формировался именно на основе планов, разработанных по инициативе Совнаркома. В частности, финансово-торговая комиссии анализировала экономические показатели Нахчывана в соответствии с центральным планом, представляла результаты Центральному исполнительному комитету и способствовала разработке новых программ развития. В те годы местная пресса также активно сопровождала этот процесс. Через газету «Совет Нахчывани» до населения доносились партийные инструкции, решения Совнаркома и рекомендации сельским советам, что повышало эффективность идеологического и административного управления на местном уровне. Этот комплекс принятых решений и мер сыграл важную роль в формировании основных приоритетов на будущее, особенно на период послевоенного восстановления в 1945 году. Таким образом, на этом этапе сформировалась идеологическая и институциональная основа для социально-экономического возрождения Нахчывана во второй половине XX века.

Ключевые слова: Центральный исполнительный комитет, советское строительство, совнарком , выборы.

YEGANA MAMEDOVA
PhD in History,
Postgraduate Student at the Nakhchivan Branch of the National Academy of Sciences

ACTIVITIES OF THE CENTRAL EXECUTIVE COMMITTEE OF THE NAKHCHIVAN ASSR IN THE FIELD OF SOVIET CONSTRUCTION

Archival documents show that the agricultural and production potential of the region was formed precisely on the basis of plans prepared at the initiative of the Sovnarkom. In particular, the financial and trade commissions analyzed the economic indicators of Nakhchivan according to the central plan, presented the results to the Central Executive Committee, and contributed to the development of new development programs. In those years, the local press also actively accompanied this process. Through the newspaper “Sovet Nakhchivani”, party instructions, Sovnarkom decisions, and recommendations to village soviets were conveyed to the population, which increased the effectiveness of ideological and administrative management at the local level. This complex of decisions and measures taken played an important role in shaping the main priorities for the future, especially for the period of post-war reconstruction in 1945. Thus, the ideological and institutional basis for the socio-economic revival of Nakhchivan in the second half of the 20th century was formed at this stage.

Keywords: Central Executive Committee, Soviet construction, sovnarkom elections.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 03 fevral 2026-cı il.
Məqalənin çapa qəbul olunma tarixi: 21 may 2026-cı il.
Rəyçilər: t.e.d. Emin Şıxəliyev, t.e.d. Qabil Əliyev.

UOT 94(479.24)

RAUF RZAYEV
tarix üzrə fəlsəfə doktoru,
Ədliyyə Akademiyasının Elmi tədqiqat və doktarantura şöbəsinin baş elmi işçisi
Rzayev.rauf*1955 @ gmail.com

AZƏRBAYCANIN İLK ƏDLİYYƏ NAZİRİ XƏLİL bəy XASMƏMMƏDOV

DOI: https://doi.org/10.36719/2708-065X/113/66-71

Zəngin arxiv materialları, dövri mətbuat nümunələri və monoqrafik mənbələr əsasında hazırlanmış bu məqalə Xəlil bəy Xasməmmədovun həyat və fəaliyyət yolunun araşdırılmasına, xüsusilə Azərbaycan Xalq Cümhuriyyəti dövründə ədliyyə sistemin formalaşması və inkişafındakı xidmətlərinin təhlilinə həsr edilmişdir.

Açar sözlər: Xəlil bəy Xasməmmədov, Azərbaycan Xalq Cümhuriyyəti, Ədliyyə Nazirliyi, Dövlət Duması, Məhkəmə sistemi.

Giriş. Azərbaycan Demokratik Respublikasının banilərindən biri, dövrünün görkəmli siyasi və ictimai xadimi, Azərbaycanın ilk ədliyyə naziri Xəlil bəy Hacıbaba oğlu Xasməmmədov 1873-cü il oktyabrın 25-də Yelizavetpol şəhərində [1] (indiki Gəncə) anadan olmuşdur. 1881-ci il avqustun 20-də Yelizavetpol şəhərinin sakini Əli Xasməmmədov tərəfından Yelizavetpol kişi gimnaziyası direktorunun adına verilmiş ərizədə deyilirdi: "7 yaşlı Xəlil Xasməmmədovu tərbiyə üçün sizin gimnaziyaya vermək istəyirəm" [2]. Həmin gün gimnaziyanın direktoru bu ərizəyə dərkənar yazmışdır: "Hazırlanan sinif üçün imtahan etmək" [3]. Oğlanın qabiliyyətini görərək gimnaziyanın direktorluğu onu 1-ci sinfə danışıqsız götürmüşdür. Təhsil dövründə Xəlil özünü istedadlı şagird kimi göstərmişdir. Gimnaziyanı bitirdikdən sonra onun aldığı attestatda yalnız "yaxşı" və "əla" qiymətlər olmuşdur. O, artıq 5 dil: rus, latın, yunan, alman və fransız dillərini bilirdi. Yaxşı bilik ona təhsilini davam etdirməyə imkan vermiş və onun gimnaziya direktorunun adına yazdığı ərizədə deyilirdi: "Sonrakı təhsilimi Moskva İmperator Universitetinin tibb fakültəsində davam etdirmək istəyirəm, məni kamillik sınağından keçirməyi Cənabımzdan acizanə surətdə xahiş edirəm". Sonra isə 1891-ci il 22 mart tarixi və Xəlil Xasməmmədovun imzası qoyulmuşdur [4].

Universitetə daxil olarkən X.Xasməmmədov öz qərarını dəyişib hüquq fakültəsinə daxil olur və oranı 1895-ci ildə 1-ci dərəcəli diplomla bitirir. Həmin ildə Moskva şəhərindən Yelizavetpol Dairə Məhkəməsinə göndərdiyi ərizəyə əsasən, X.Xasməmmədov məhkəmə vəzifələrinə kiçik namizəd vəzifəsinin icrasına buraxılır, avqustun 1-də isə Mülki İdarə üzrə Ali əmrlə həmin vəzifəyə təyin edilir [5]. X.Xasməmmədovun əmək fəaliyyəti belə başlayır. Sonralar öz ağlı və qabiliyyəti sayəsində o, vəzifədə sürətlə irəli çəkilir:

- 1895-ci il oktyabrın 16-da Yelizavetpol Dairə Məhkəməsi sədrinin əmri ilə prokurorla razılaşdırılmaqla məhkəmənin mülki bölməsində məşğələlərə ezam edilir;
- 1896-cı il martın 16-da Yelizavetpol Dairə Məhkəməsi sədrinin əmri ilə prokurorla razılaşdırılmaqla məhkəmənin cinayət bölməsinə keçirilir;
- 1896-cı il sentyabrın 21-də Yelizavetpol Dairə Məhkəməsi sədrinin əmri ilə cinayət bölməsi üzrə məhkəmə katibinin köməkçisi göndərilir;
- 1896-cı il oktyabrın 29-da Mülki İdarə üzrə Ali əmrlə Kollec katibi rütbəsinə (10-cu dərəcəli mülki rütbə. Bu rütbəyə malik olan şəxslər aşağı rəhbər vəzifələri tuturdular) təsdiq edilir;
- 1897-ci il fevralın 20-də Tiflis Məhkəmə Palatasının böyük sədrinin əmri ilə Yekaterinodar (indiki Krasnodar şəhəri) Dairə Məhkəməsində işə keçirilməklə böyük namizəd rütbəsi alır;
- -1897-ci il iyunun 7-də Yekaterinodar Dairə Məhkəməsinin bölmələrin ümumi yığıncağı üzrə təyinatla istintaq işlərinin müstəqil icraatı hüququnda Yekaterinodar şöbəsinin 3-cü sahəsinin məhkəmə müstəntiqinə köməyə ezam edilir;
- 1897-ci il iyunun 21-də Yekaterinodar Dairə Məhkəməsinin təyinatı ilə ona Bataliaş şöbəsi-

nin 3-cü sahəsinə rəhbərlik həvalə edilir;

- 1897-ci il oktyabrın 16-da Yekaterinodar Dairə Məhkəməsinin təyinatı ilə Yeysk şöbəsinin 3-cü sahəsinə rəhbərlik həvalə edilir;

- 1898-ci il yanvarın 15-də Yekaterinodar Dairə Məhkəməsinin təyinatı ilə Labinsk şöbəsinin 4-cü sahəsinin məhkəmə müstəntiqi vəzifəsinin icrasına ezam edilir;

- 1898-ci il martın 26-da Yekaterinodar Dairə Məhkəməsinin təyinatı ilə məhkəmə müstəntiqi hüququnda ilkin istintaqların müstəqil icraatı hüququ ilə Labinsk şöbəsinin 1-ci sahəsinin məhkəmə müstəntiqinə köməyə ezam edilir;

- 1899-cu il iyulun 1-də Mülki İdarə üzrə Ali əmrlə titulyar müşavir (şəxsi zadəgan titulu verən 9-cu dərəcəli rütbə) keçirilir;

- 1902-ci il aprelin 6-da Mülki İdarə üzrə Ali əmrlə xidmət illərinə görə üstün olmaqla kollec asessoru (8-ci dərəcəli mülki rütbə) keçirilir;

- 1903-cü il dekabrın 6-da Rusiya Ədliyyə Nazirliyinin İdarəsi üzrə əmrlə Yekaterinodar şəhərinin 2-ci sahəsinin məhkəmə müstəntiqi təyin edilir;

- 1904-cü il oktyabrın 26-da məhkəmə bölmələrinin ümumi yığıncağının təyinatı ilə Yekaterinodar şəhərinin mühüm işləri üzrə məhkəmə müstəntiqinin sahə müdiri təyin edilir;

- 1906-cı il martın 23-də məhkəmə bölmələrinin ümumi yığıncağının təyinatı ilə yeni yaradılmış 1-ci istintaq dəmir yolu sahəsinin müdiri təyin edilir;

- 1906-cı il iyulun 29-da Ali əmrlə Yekaterinodar Dairə Məhkəməsi Prokurorunun yoldaşı (müavini) təyin edilir.

Rusiyanm bütün xalqlarını silkələyən birinci rus inqilabı illərində (1905-1907-ci illər) cəmiyyətin bütün təbəqələrinin siyasi fəallaşması üçün əlverişli şərait yaranmışdı. Yekaterinodar Dairə Məhkəməsində işləyən Xəlil bəy Xasməmmədov dövlət idarəetməsinin yenidən qurulması və öz xalqına daha geniş sosial və siyasi hüquqlar verilməsi haqqında siyasi tələblər irəli sürərək, Rusiya imperiyasının bütün müsəlman xalqlarının birləşməsi sahəsində fəal işə başlayır.

Azərbaycan burjuaziyasının bütün qabaqcıl adamları kimi o da, öz xalqının tələbləri və ehtiyaclarını daha geniş şəkildə bildirmək üçün imkanlar axtarırdı.

1906-cı il avqustun 16-21-də Nijni Novqorodda keçirilən 3-cü Ümumrusiya müsəlmanları qurultayında X.Xasməmmədov fəallardan biri kimi birdən-birə iki komissiyanın: hüquq və din üzrə komissiyaların tərkibinə daxil edilərək, Azərbaycan xalqının hüquqlarının pozulması və çar administrasiyasının müstəmləkəçilik siyasəti ilə əlaqədar narazılığı ifadə edən müraciət və ərizələrin tərtib olunmasında fəal iştirak etmişdir.

1906-cı il iyulun 18-də Rusiyanın Baş naziri P.A.Stolıpin 2-ci Dövlət Dumasına (20 fevral - 3 iyun 1907-ci il) seçkiləri elan edir. İnqilabi və milli əhval-ruhiyyənin artmasından ehtiyat edərək o, Azərbaycanın bir çox quberniyalarında fövqəladə vəziyyət tətbiq edir [19]. Lakin buna baxmayaraq, Bakıda və Yelizavetpolda fəal seçkiqabağı kampaniya genişlənir.

Azərbaycanlı seçicilərin əsas kütləsi 1-ci Dumaya seçkilərdə olduğu kimi məşhur olan yerli ictimai xadimlərin ətrafında qruplaşmışdı. Nəticədə Yelizavetpol quberniyasında yerli əhali böyük fəallıq göstərərək üç nəfər deputat seçmiş və onlardan biri "34 yaşlı mülkədar, kollec asessoru, Yekaterinodar Dairə Məhkəməsi prokurorunun yoldaşı, şöbənin, beş komissiyasının üzvü, "Xalq azadlığı" partiyasına mənsub olan Xəlil bəy Hacıbaba oğlu Xasməmmədov olmuşdur [22]. Dumanın işinin ilk günlərindən özünü savadlı hüquqşünas kimi göstərərək X.Xasməmmədov müsəlman parlament fraksiyasının və onun bürosunun tərkibinə [6], habelə milli-dini bərabərlik üzrə komissiyaya üzv seçilmişdir [7].

Hərbi-səhra məhkəmələrinin ləğvi haqqında qanun layihələrinə baxılması məsələsinin gündəliyə sahnmasından istifadə edərək X.Xasməmmədov azərbaycanlı deputatlar qrupu ilə hərbi nazirə Qafqaz hərbi-səhra məhkəmələri tərəfindən ölüm cəzasına məhkum edilənlərin taleyinin yüngülləşdirilməsi vəsatəti ilə müraciət etmişdir [8].

Duma komissiyasının yerli məhkəmə haqqında məruzəsi X.Xasməmmədovda xüsusi maraq doğurmuşdur. Parlament auditoriyası qarşısında çıxış edərək o, peşəkar hüquqşünas kimi məhkəmə icraatının yerli əhalinin dilində aparılmasının zəruriliyini söyləmiş, təsdiq etmişdir ki, "tərcüməçi vasitəsilə aparılan ədalət mühakiməsi, Duma komissiyasının da etiraf etdiyi kimi, həyati şərtlərdən -

şifahilikdən və bilavasitəlikdən məhrumdur" [17].

1907-ci il iyunun 3-də 2-ci Dövlət Dumasının buraxılması haqqında çar manifesti verilmişdir. Orada deyildiyi kimi, "Rusiyanı sakitləşdirmək məqsədi ilə çağırılmış Duma ümidləri doğrultmamışdır, belə ki, onun tərkibinin xeyli hissəsi dövlətin dağılmasına imkan yaratmağa səy göstərmişdir" [15]. 1907-ci il iyunun 22-də kollec asessoru X.Xasməmmədov Yelizavetpol Dairə Məhkəməsinə ərizə göndərir və onun Andlı vəkillər (dairə məhkəməsində və ya məhkəmə palatasında vəkil müsəlmanın bu vəzifəni alması üçün Rusiya ədliyyə nazirinin şəxsi təsdiqi tələb olunurdu) sırasına qəbul olmasını xahiş edir [10].

1907-ci il iyulun 28-də Yelizavetpol quberniyasında bu ərizəyə baxaraq və vəsatətin təmin olunmasını qəbul edərək dairə məhkəməsi bölmələrinin ümumi yığıncağı X.Xasməmmədovun Tiflis məhkəmə palatası dairəsinin andlı vəkillər sırasına qəbul olunması barədə ədliyyə nazirindən xahiş etmişdir.

İkinci Duma buraxıldıqdan sonra qəzetlərdə 3-cü Dövlət Dumasına seçkilər haqqında seçki qanunu dərc edilmişdir. Yeni seçki qanununa əsasən, Duma üzvləri sırasında müsəlmanların sayı kəskin surətdə azalmışdır. Əgər əvvəlki Dumada Bakı, Yelizavetpol və İrəvan quberniyalarının hər birinin 3 nümayəndəsi var idisə, indi birlikdə bu quberniyalar yalnız iki nümayəndə seçə bilərdilər [11].

Azərbaycan xalqı özünün ən layiqli oğullarından biri Xəlil bəy Xasməmmədovu seçdi. Dumanın işinin ilk günündə o, imperatora ünvanların hazırlanması üzrə, sorğular üzrə, köçürülmə işləri üzrə, məhkəmə islahatı üzrə komissiyaların üzvü seçildi. Qafqazın bütün müsəlmanlarının ehtiyac və ümidlərini öz üzərinə götürərək X.Xasməmmədov Duma üzvlərinin nəzərinə çatdırdı ki, keçən illər ərzində müisəlmanların yerli əhali ilə hüquqlarının bərabərləşdirilməsi, müsəlmanların maarifləndirilməsinin inkişafı və onların rifahının yüksəldilməsi üçün heç nə edilməyib [15].

Parlaq hüquq savadı X.Xasməmmədova qanun layihələrinin geniş dairəsi üzrə çıxış etməyə imkan verirdi. Öz çıxışında X.Xasməmmədov mülki və siyasi azadlıqların verilməsi, köçürülmə məsələsinin qaydaya salınması, təlimin və məhkəmə icraatının ana dilində aparılması, zemstvo təsisatlarının tətbiqi və s. kimi Azərbaycan xalqını narahat edən qlobal məsələlərə daha çox diqqət yetirirdi. X.Xasməmmədov Dumanın tribunasından deyirdi: "Hakimiyyət millətlər arasında heç bir fərq qoymamalıdır, biz hesab edirik ki, millətlər eyni hüquqlardan istifadə etməli və eyni vəzifələr daşımalıdır. Xalqın hakimiyyətə inamı yalnız bu şərtlə mümkündür, bunsuz isə sağlam idarəetmə yoxdur" [12]. Sonralar onun çıxışları daha sərt olmuşdur: "Qafqazda ədalət mühakiməsi yoxdur. Müstəntiqlər yerli dilləri bilmirlər və savadsız tərcüməçilərin apardığı ilkin istintaq icraatı texnikasından xəbərləri yoxdur. Yerli dili, adətləri, xüsusiyyətləri bilməyən dünyəvi məhkəmələr də axırıncıların əlindədir" [13].

Dövlət Dumasında X.Xasməmmədovun fəaliyyəti, iclaslarda onun çıxışları, çoxsaylı komissiyalarda və yardımçı komissiyalarda iştirakı onu göstərirdi ki, ərizə və müraciətlərdə söylənilən müsbət nəticələrə nail olmaq səylərində o, məhdudiyyətin ləğv edilməsini, təlimin ana dilində aparılmasını, onun məhkəmə icraatında tətbiq olunmasını və s. necə qətiyyətlə tələb edirdi.

Lakin Rusiya Dumasının real mənzərəsi onu göstərirdi ki, X.Xasməmmədov Rusiyanın ucqarlarından birinin nümayəndəsi kimi öz xalqının vacib milli problemlərinin təmin olunmasında və həll edilməsində olduqca məhdud səlahiyyətə malik idi.

1912-ci il iyunun 9-da Çarın göstərişinə əsasən, Dumanın iclasları dayandırıldı. 3-cü Duma fəaliyyətini dayandırdıqdan sonra 1912-ci ilin sonundan 1917-ci ilədək Xəlil bəy Xasməmmədov Bakı və Yelizavetpol dairə məhkəmələrində vəkil olmuşdur. Həmin illərdə Bakı və Yelizavetpol mılli-azadlıq hərəkatının yaranmasının mərkəzi olmuşdur. Burada sırf milli partiyalar yaranmağa başlamışdır. İlk belə partiyalardan biri 1905-ci ilin fevralında Gəncədə yaranmış və "Qeyrət" adını alaraq Azərbaycan sosial-federalistlərinin partiyası olmuşdur. Bu partiyanın rəhbərlərindən biri X.Xasməmmədovun qardaşı, mülkədar, Yelizavetpol Dairə Məhkəməsində vəkil Ələkbər bəy Xasməmmədov olmuşdur [16]. Partiyanın proqramında göstərilirdi ki, "Qeyrət" cəmiyyətinin məqsədi müsəlman əhalisinin üstünlük təşkil etdiyi rayonların muxtariyyəti ilə Qafqazın ayrılmasıdır [21].

"Daşnaksütyun" (ittifaq) partiyasının rəhbərlik etdiyi erməni terrorçularının azğınlığma cavab olaraq müsəlman liderləri öz xalqlarının fəaliyyətini əlaqələndirməyə başladılar.

Xəlil bəy baş verən hadisələrdən kənarda qala bilməzdi. Öz xalqının tələblərini bilərək o, erməni terrorçularının qarşısında dayana bilən yeni partiyanın yaradılması haqqında düşünür. 1906-cı ildə

Bakıda "Difai" (müdafiə) Azərbaycan milli partiyası yaradılır. Partiyanın təşkilatçılaıından və rəhbərlərindən biri artıq öz siyasi karyerasını müəyyən etmiş olan X.Xasməmmədov idi [23]. Mahiyyətcə "Difai" partiyası 1917-ci ilədək həm sayına, həm də kütlələrə təsirinə görə Azərbaycanın ən iri partiyası idi.

Öz işinin çoxluğuna baxmayaraq X.Xasməmmədov ictimai işlərdən bir dəqiqə də ayrılmırdı.

Əgər 1917-ci ilin fevralına qədər X.Xasməmmədov həmvətənlərinin əksəriyyəti kimi Azərbaycan dilinin və mədəniyyətinin sərbəst inkişafı üçün müvafıq şərait yaradılması, milli məhdudiyyətlərin ləğv edilməsi tələbi ilə kifayətlənirdisə, artıq 1917-ci ilin martında Rusiyanın bütün müstəmləkələrində milli azadlıq mübarizəsinin yüksəlməsi şəraitində o, azərbaycanlıların ayrıca millət kimi müəyyən olunması uğrunda, Rusiya dövləti çərçivəsində Azərbaycanın ərazi muxtariyyəti uğrunda çıxış etməyə başlayır. X.Xasməmmədov öz ideyalarını həyata keçirməyə çalışaraq N.Usubbəyov, Ş.Rüstəmbəyov və Q.Ağayevlə birlikdə Gəncədə "Türk federalistlər pariyası"nı (TFP) yaradır. Bu partiya milli hərəkat tarixində ilk dəfə olaraq yalnız yerli deyil, həm də ümumdövlət məsələlərində Azərbaycan xalqının müstəqilliyi ideyasını irəli sürmüşdür[18].

Azərbaycan xalqınm milli-azadlıq mübarizəsinin məqsəd və metodları barədə TFP və "Müsavat" partiyasının ideologiya və siyasi proqramlarının yaxınlığı bu iki partiyanın yaxınlaşmasına səbəb olmuşdur. 1917-cı il iyunun 3-də siyasi təşkilat olan "Müsavat" Türk demokratik federalistlər partiyası adını almışdır.

1917-ci il oktyabrın 26-dan 31-dək Bakıda "Müsavat" TFP-nin birinci qurultayı olmuşdur. Qurultay qarşıdakı siyasi mübarizədə partiyanın strategiyasını və taktikasını müəyyənləşdirmiş və onu yeni proqram kimi qəbul etmişdir. Qurultayda demək olar ki, Azərbaycanın bütün regionlarını təmsil edən 100 nəfərə yaxın nümayəndə iştirak etmişdir. Qurultayın işində fəal iştirak edən Xəlil bəy Xasməmmədov partiyanın fəallarından biri kimi onun Mərkəzi Komitəsinin üzvü seçilmişdir [14]. O, Rusiyanın dövlət quruluşunun demokratik respublika formasında, milli-ərazi muxtariyyəti əsasında yenidən qurulmasını nəzərdə tutan partiya proqramının hazırlanmasında fəal iştirak etmişdir. Proqramda deyilirdi: "Ən normal və düzgün dövlət milli dövlət sayılmalıdır, yoxsa nə müstəqilliyi, nə də milli muxtariyyəti olmayan heç bir xalq öz mədəniyyətini və azadlığını müdafiə etmək iqtidarında olmayacaq [20].

1917-ci ilin oktyabrın 25-də Rusiyada çevriliş nəticəsində bolşeviklər Müvəqqəti Hökuməti devirərək hakimiyyətə gəldilər. Cənubi Qafqazın idarəçiliyini həyata keçirən Xüsusi Zaqafqaziya Komitəsi öz fəaliyyətini dayandırdı. Cənubi Qafqazın aparıcı üç əsas xalqının nümayəndələri Tiflisdə müşavirə keçirdilər. Müşavirədə Cənubi Qafqazın icraedici orqanı olmuş Xüsusi Zaqafqaziya Komitəsinin yerinə yeni bir orqanın yaradılması istiqamətində müəyyən addımlar atmağa başladılar. 1917-ci ilin noyabrın 15-də Zaqafqaziya Komissarlığı yarandı. Cənubi Qafqazın idarəçiliyini həyata keçirən Zaqafqaziya Komissarlığında gürcü və ermənilərlə yanaşı, dörd nəfər Azərbaycan nümayəndəsi də təmsil olundu. 44 nəfər deputatla Seymdə təmsil olunan Azərbaycan siyasi qüvvələrinin içərisində öz siyasi fəaliyyəti və müzakirə edilən məsələlərdə öz fəallığı ilə seçilən X.Xasməmmədovda var idi. 1918-ci ilin ilk günlərində Rusiya Müəssislər Məclisinin buraxılmasından sonra Zaqafqaziya Komissarlığı Cənubi Qafqazda siyasi vəziyyəti müzakirə edərək Zaqafqaziya Seyminin yaradılması istiqamətində ciddi addımlar atdı və fevralın 10-da qanunverici orqan olan Zaqafqaziya Seymi öz fəaliyyətinə başladı. Həmin ilin mayın 26-da Zaqafqaziya Seyminin buraxılması və gürcü fraksiyası tərəfindən Gürcüstanın müstəqilliyinin elan edilməsi Cənubi Qafqazda hakimiyyət boşluğu yaratdı. Yaranmış vəziyyətdən çıxış yolu tapmaq üçün Seymin Azərbaycan fraksiyası 1918-ci ilin mayın 27-də fövqəladə iclas keçirdi. İclasda Müvəqqəti Azərbaycan Milli Şurasının yaradıldığı elan edildi. Daha sonra Milli Şuranın 9 nəfərdən ibarət İcraiyyə Komitəsi yaradıldı. İcraiyyə Komitəsinə X.Xasməmmədov da daxil edilmişdi. 1918-ci ilin mayın 28-də Milli Şuranın ilk iclası keçirildi və Azərbaycanın müstəqilliyinin elan edilməsi haqda qərar qəbul edildi. Daha sonra isə Azərbaycan Xalq Cümhuriyyətinin qurulduğunu bəyan edən "İstiqlal Bəyannaməsi"nin mətni təsdiq edildi. Elə həmin gün Azərbaycanın ilk hökumət kabinetinin yaradılması barədə qərar qəbul olundu. F.Xoyskiyə ilk hökumət kabinetini formalaşdırmaq səlahiyyəti verildi. Onun rəhbərlik etdiyi ilk kabinəyə X.Xasməmmədov daxil edilərək hökumətdə ədliyyə naziri vəzifəsinə təyin olundu. X.Xasməmmədov gənc Azərbaycan dövlətinin ədliyyə sisteminin formalaşması və fəaliyyətində mühüm xidmətlər göstərmiş,

Azərbaycan Xalq Cümhuriyyəti dövründə 5 hökumət kabinetinin 4-də iştirak etmişdir. 1918-ci ilin iyunundan Tiflisdən Gəncəyə köçən Azərbaycan hökuməti yenidən formalaşdırıldı və ikinci hökumət kabinetində də X.Xasməmmədov təmsil olundu. O, əvvəl portfelsiz nazir, daha sonra isə Yollar naziri vəzifələrində çalışmışdır. Həmin dövrdə İstanbul Konfransında iştirak edən X.Xasməmmədovun təmsil olunduğu Azərbaycan diplomatik nümayəndə heyətinə konfransın digər iştirakçıları olan ölkələrlə - Türkiyə, Almaniya, Avstriya-Macarıstan, Bolqarıstan, Gürcüstan və Dağlı Respublikası ilə siyasət, iqtisadiyyat, maliyyə məsələləri və hərbi problemlər üzrə danışıqlar aparmaq tapşırılmışdı. Nümayəndə heyəti Türkiyədə yenicə hakimiyyətə gəlmiş Sultan VI Mehmetə təqdim olunan zaman ölkəmizin düşmənlərdən azad edilməsi işində Türkiyənin qardaşlıq köməyi xüsusi vurğulanmışdır. 1918-ci ilin sentyabr ayının 15-də Osmanlı-Azərbaycan qüvvələri Bakını qondarma "Sentrokaspi Diktaturası"nın əsarətindən azad etdi və iki gün sonra F.Xoyskinin başçılıq etdiyi Azərbaycan hökuməti Gəncədən Bakıya köçdü. Dekabrın 7-də Bakıda Azərbaycan Parlamentinin ilk iclası keçirildi və parlamentə seçilən deputatların sırasında X.Xasməmmədov da var idi. Parlament tərəfindən üçüncü hökumət kabinetinin yaradılması yenidən F.Xoyskiyə həvalə edildi və dekabrın 26-da təşkil edilən yeni kabinetdə X.Xasməmmədov daxili işlər naziri vəzifəsinə təyin olundu. O, dördüncü hökumət kabinetində yer almasa da, Parlamentin deputatı kimi müxtəlif sahələri əhatə edən qanunların tərtibi və qəbul edilməsində yaxından iştirak etmiş, Cümhuriyyətin sonuncu — N.Yusifbəylinin başçılıq etdiyi beşinci kabinetində yenidən ədliyyə naziri vəzifəsində çalışmışdır. Xəlil bəy Ədliyyə Nazirliyinin ilk Əsasnaməsini milli maraqları nəzərə almaqla, dünyəvi dəyərlər zəminində hazırlamışdır. Təsadüfi deyil ki, Azərbaycanda məhkəmə palatasının, onun Əsasnaməsinin, fəaliyyət mexanizminin yaradılması da X.Xasməmmədovun adı ilə bağlıdır. Xəlil bəy Xasməmmədov 1920-ci ilin aprelin 1-də Azərbaycan Xalq Cümhuriyyətinin Osmanlı dövlətində səfiri təyin edilir. Lakin 1920-ci ilin aprelində Sovet Rusiyasının XI Qırmızı Ordusu tərəfindən Cümhuriyyətin işğal edilməsi nəticəsində Xəlil bəy Türkiyəyə yola düşə bilmir. Süqut etmiş Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları məcburiyyət qarşısında ölkəni tərk etməyə başladılar. Onlar əsasən Avropa ölkələri və Türkiyəyə mühacirət etməyi üstün tutmuşdular. X.Xasməmmədov Nəriman Nərimanovun təkidi və köməkliyi ilə Azərbaycanı tərk edir. 1920-ci il iyunun 19-da Tiflis şəhərində Azərbaycanın siyasi xadimlərinə - F.Xoyskiyə və X.Xasməmmədova "Daşnaksütyun" partiyasının terrorçu dəstələri tərəfindən suiqəsd təşkil edildi. Bu suiqəsd nəticəsində Fətəli xan Xoyski qətlə yetirildi, Xəlil bəy Xasməmmədov isə ağır yaralandı. Xoşbəxtlikdən yara ölümcül olmadı və həkimlər Xəlil bəyin həyatını xilas edə bildilər. Bundan sonra X.Xasməmmədov Türkiyəyə köçməyə məcbur oldu. Həmin dövrdə Azərbaycanın Türkiyədə səfiri olan Xəlil bəy bu vəzifədə 1922-ci ilə qədər qala bildi. Ə.M.Topçubaşovun Türkiyədə olan Azərbaycan mühacirlərinə maliyyə yardımları kəsildikdən sonra X.Xasməmmədov vəzifəsindən istefa verməyə məcburiyyətində qaldı.

Nəticə. Ömrünün sonuna kimi Xəlil bəy mühacirət həyatı yaşadı, eyni zamanda siyasi fəaliyyətini də davam etdirir, publisistika ilə məşğul olurdu. O, qəzet və jurnallarda dərc etdirdiyi məqalələrdə dünya ictimaiyyətinə Sovet hakimiyyəti tərəfindən Azərbaycanın işğal faktını göstərməklə yanaşı, müstəqil Azərbaycan dövlətinin bərpası təbliğatını aparırdı. Həyatının son günlərini xəstəxanada keçirən Xəlil bəy Xasməmmədov 1945-ci ilin avqust ayının 11-də İstanbulda vəfat etmişdir. Xəlil bəy Xasməmmədov İstanbulda, Fəriköy məzarlığında dəfn edilmişdir.

ƏDƏBİYYAT

1. DTAAR, fond.309, s. 4, v. 1727, səh. 23.
2. DTAAR, fond.319, s. 3, v. 1148, səh. 22.
3. DTAAR, fond.313, s. 3, v. 1148, səh. 22.
4. DTAAR, fond 309, s. 4, v. 1727, səh. 4.
5. DTAAR, fond 170, s. 1, iş. 240, vər. 2.
6. История Азербайджана. Баку, 1960, Т.2, с.624.
7. Сеидзаде Д.Б. Азербайджанские депутаты в Государственной Думе России. Баку, 1991, с.54.
8. "İrşad" qəzetı, 27 fevral 1907-ci il
9. "Kaspi" qəzeti, 13 mart 1907-ci il

10. “Kaspi” qəzeti, 20 aprel 1907-ci il
11. Государственная дума. Стенографические отчеты, 1907. т. 2, с.1424.
12. “Kaspi” qəzeti, 5 iyun 1907-ci il
13. “Kaspi” qəzeti, 1 mart 1906-ci il.
14. “Kaspi” qəzeti, 5 iyun 1907-ci il
15. Seyidzadə D.B. Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yollar. Bakı, 1998, s.178.
16. “Kaspi” qəzeti, 11 fevral 1909-cu il
17. “Kaspi” qəzeti, 11 fevral 1909-cu il.
18. Багирова И.С. Политические партии и организации Азербайджана в начале XX века. Баку, 1997, с.166.
19. «Православный Боговестник», 1906, №3, с.116.
20. Тадеуш Святоховский. Русский Азербайджан. 1905-1920 // Журнал «Хазар», 1990, №1, с.78.
21. Гусейнов М.Д. Тюркская демократическая партия федералистов «Мусават» в прошлом и настоящем. Тифлис, 1927.
22. “Odlar yurdu” qəzeti, 7 noyabr 1917.
23. Программа тюркской демократической партии федералистов «Мусават». Баку, 1919, с.3.

РАУФ РЗАЕВ
Доктор философии по истории,
старший научный сотрудник отдела научных исследований
и докторантуры Академии юстиции

ПЕРВЫЙ МИНИСТР ЮСТИЦИИ АЗЕРБАЙДЖАНА ХАЛИЛ БЕК ХАСМАММАДОВ

В статье на основе богатого архивного материала, периодической печати и монографий, предпринимается попытка исследовать жизненный путь пройденный Халил беком Хасмаммадовым и раскрыть ту роль историю он сыграл в становлении системы юстиции в период Азербайджанской Демократической Республики.

Ключевые слова: Халил-бей Хасмаммадов, Азербайджанская Демократическая Республика, Министерство юстиции, Государственная Дума, система правосудия.

RAUF RZAYEV
PhD in History, Senior Research Fellow,
Department of Scientific Research and Doctoral Studies,
Academy of Justice

THE FIRST MINISTER OF JUSTICE OF AZERBAIJAN KHALIL BEY KHASMAMAMODOV

In this article, based on rich archival material, periodicals and monographs, an attempt is made to explore the life path of Khalil Khasmammadov and to reveal the role he played in the development of the justice system during the period of the Azerbaijan Democratic Republic.

Keywords: Khalil Bey Hasmammadov, Azerbaijan Democratic Republic, Ministry of Justice, State Duma, judicial system.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 05 mart 2026-cı il.
Məqalənin çapa qəbul olunma tarixi: 21 may 2026-cı il.
Rəyçilər: t.ü.f.d. Azad Rzayev, t.e.d. İbrahim Zeynalov.

UOT 94(479.24)

NAİLƏ HÜSEYNOVA
AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu
Dünya tarixi şöbəsi a.e.i., t.ü.f.d. dosent
ORCID: 0000-0002-4910-6717
naile-bayramova@rambler.ru

AXC DÖVRÜNDƏ AZƏRBAYCAN - ALMANİYA ƏLAQƏLƏRİ (1918-Cİ İL)

DOI: https://doi.org/10.36719/2708-065X/113/72-78

Azərbaycan Xalq Cümhuriyyəti tarixinin ən vacib problemlərindən biri dövlətin xarici siyasətində Almaniya ilə olan münasibətlərin tədqiq edilməməsidir. Məqalədə AXC elan olunarkən müstəqillik haqqında istiqlaliyyət bəyyannaməsinin Almaniyaya da göndərilməsi faktı aşkarlanır. Hökumətlərarası nümayəndəliklərin açılması barədə tövsiyyələrin tərəflər arasında müsbət qarşılanması məqalədə təqdim edilir. Bununla bərabər məqalədə Azərbaycanda mövcud olan alman koloniyaları ilə bağlı alman reyxinin himayədalıq missiyası AXC hökumətinə çatdırılır. AXC-nin Almaniya ilə olan siyasi əlaqələri Almaniyanın və Osmanlı dövlətinin Cənubi Qafqaz siyasətindəki paralellik prinsipləri əsasında təhlil edilir. Nuru paşanın Bakıya daxil olmasına qədər AXC - Almaniya münasibətlərində qarşılıqlı siyasi anlaşmaların olmasına baxmayaraq sonda Azərbaycan hökumətinə qarşı etimadsızlıq hallarının təhlili məqalədə öz əksini tapır.

Açar sözlər: Borçalı, Bakı nefti, koloniyalar, parlament, Şulenburq.

Giriş. Qədim və orta əsrlərdən fərqli olaraq yeni dövrdə - I Dünya müharibəsinin davam etdiyi dövrdə yaranmış Azərbaycan Xalq Cümhuriyyəti bu müharibədə qalib gələn dövlətlərin siyasi maraqlarından asılı olaraq ciddi sınaqlar qarşısında qalmışdı. Qafqaz uğrunda geosiyasi, strateji və iqtisadi maraqların artdığı 1918-1920-ci illərdə AXC-nin movcudluğu böyük əhəmiyyət kəsb edirdi. AXC beynəlxalq münasibətlərin gərgin vaxtında öz müstəqilliyini qoruyub saxlamaq üçün həm daxili, həm də xarici siyasətdə lazımi tədbirlərin görülməsinə çalışır, xüsusilə xarici siyasətdə dünya dövlətləri ilə siyasi, iqtisadi və mədəni əlaqələr qurmaq və genişləndirmək əzmində olmuşdu. 1918-ci ildə AXC-nin xaricisi yasətinin əsas istiqamətlərindən birini bu baxımdan Almaniya ilə siyasi,iqtisadi əlaqələr təşkil edirdi. Məqalədə AXC dövründə Azərbaycan - Almaniya əlaqələri daha çox bolşevik Rusiyasının, həm də Osmanlı dövlətinin Qafqaz siyasəti konteksində araşdırılır. Qafqazda müstəqil dövlətlərin yaranması prosesinə Almaniyanın da münasibəti birmənalı olmamışdı və bu proses çox çətin və təlatümlü bir dövrə təsadüf etmişdi.

AXC - Almaniya münasibətlərində siyasi amillər. Bakı neftə görə bir çox dövlətlərin, o cümlədən Almaniyanın da diqqət mərkəzində idi. Bakı neftinə görə AXC hökumətinin diplomatik münasibətlərində alman hökuməti ilə əlaqələri öz spesifkasına görə xeyli fərqli idi. Almaniya AXC-ni müstəqil dövlət kimi nəzərə almasa da, iqtisadi sabitliyini və geosiyasi mövqelərini möhkəmləndirmək üçün neftə görə gələcəkdə bu istiqamətdə hərəkət edən türkləri İrana və Yaxın Şərqə doğru sıxışdırmağı planlaşdırırdı [24, 43-44].

Qeyd etdiyimiz kimi, Bakı neftinə sahiblik etmək istəyən Almaniyaya müstəqil Azərbaycan Cümhuriyyətinin yaranması sərf eləmirdi, çünki neftə olan tələbatını Bakı nefti ilə təmin etməyi planlaşdıran Almaniya bununla həm də kerosinə görə Amerikadan olan asılılığına son qoyacağını hesab edirdi. Mayın 28- də AXC müstəqillik haqqında "Bəyannamə"ni elan edərkən həmin sənədin surətini Almaniyanın İstanbuldakı elçisi Bernsdorfa da göndərir və bəyannamənin tezliklə rəsmi şəkildə Almaniya imperatoruna göndəriləcəyini bəyan edir [23, 9].

Azərbaycan hökuməti ilə bərabər Osmanlı dövləti də iyunun 14-də Azərbaycanın müstəqilliyinin Almaniya və Avstriya- Macarıstan tərəfindən tanınması öhdəliyini öz üzərinə götürürdü [26].

Türklərin Bakıya daxil olduğunun səhəri günü 1918-ci il sentyabrın 16-da Azərbaycan hökuməti yanında alman nümayəndəliyi açılır. Qarşılıqlı siyasi əlaqələrin qurulmasında nümayəndəliyin açılmasına hər iki tərəf çox böyük önəm verirdi və I Dünya müharibəsinin hələ davam etdiyi bir

dövrdə bu çox böyük bir siyasi addım idi. AXC hökumətinin fəaliyyətinin Bakı dövrünə təsadüf edən belə bir siyasi addımın atılmasından hökumət başçısı Fətəli xan Xoyski çox məmnun qalır [16, 94] və 1918-ci il oktyabrın 6-da Tiflisdəki Azərbaycan nümayəndəliyinin vasitəsilə elə həmin şəhərdə olan alman nümayəndəsi fon Kressə müraciət edilir. Müraciətdə bildirilir ki, Azərbaycanda alman hökumətinin öz nümayəndəliyini açmasına və fon der Qoltsu buraya nümayəndə təyin etməsinə rəğmən Berlində də Azərbaycan nümayəndəliyi açılsın [20, 113].

Almaniya hökuməti AXC ilə əlaqələrində Osmanlı - AXC münasibətlərindəki müsbət amilləri də nəzərdən qaçırmırdı və bu münasibətlər Almaniya tərəfindən birmənalı qarşılanmırdı. 1918-ci il iyunun 4-də imzalanan Batum müqaviləsinə əlavə olaraq Bakı neftinin Batuma nəqlinin davamlılığını həyata keçirmək üçün Osmanlı-Azərbaycan-Gürcüstan üçtərəfli sazişi [9, 163], həmçinin Batum müqaviləsnin 4-cü maddəsinə uyğun olaraq Osmanlı qoşunlarının Azərbaycana gəlişinin rəsmiləşməsi də Azərbaycan - Almaniya münasibətlərinə təsirsiz qalmamışdı. Xüsusilə, AXC-nin Batum müqaviləsinə əsasən Osmanlı dövlətinin hərbi dəstəyini alması Almaniya hökumətində müəyyən inamsızlıq yaradırdı.

1918-ci il sentyabrın 15-də Nuru paşanın komandanlığı altında Osmanlı qoşunlarının Bakıya daxil olması ilə AXC - Almaniya münasibətlərində yaranan etimadsızlıq halları getdikcə artır. Sentyabrın 20-də fon Kress Tiflisdəki AXC nümayəndəsi M.Y.Cəfərova müraciət edərək, türklərin Bakıya daxil olmasından sonra Azərbaycanda alman koloniyalarındakı əhaliyə qarşı münasibətin dəyişməsindən narahat olduğunu və türklərin qızışdırıcı rol oynadığını, hətta bəzi almanların qızışdırıcı addımın qurbanı olduğunu bildirir. Fon Kress yaranmış vəziyyətə dərhal son qoyulmasını AXC hökumətindən tələb edir [7, 98]. 1918- ci il sentyabrın 23-də Tiflisdəki Azərbaycan nümayəndəsi öz cavabında fon Kressə bildirir ki, nə şəxsi, nə də rəsmi şəkildə almanların təzyiqə məruz qalması haqqında Bakıdan nümayəndəliyə heç bir məlumat daxil olmamışdır. Türklər Bakıya daxil olmamışdan əvvəl alman koloniya əhalisi ilə bağlı baş verənlər haqqında mətbuat vasitəsilə alman nümayəndəliyinə məlumatlar bir qədər də şişirdilmiş şəkildə çatdırılırdı. Ümumiyyətlə, AXC – Almaniya münasibətlərində gərginlik türklərin Bakıya daxil olmasından sonra yaranır, getdikcə yaranan şübhələr isə artırdı [22, 100].

Bəzi tədqiqatlarda Bakının azad edilməsindən sonra AXC ilə alman hökuməti arasında münasibətlərdə müsbətə doğru dəyişikliyin yaranmasına işarə edilir [25, 150]. Əslində alman koloniyalarının əhalisi üzərinə ermənilər basqınlar etmişdilər və bu hadisə 1918-ci ilin may-iyun aylarında olmuş, sonralar da onların hücumları daha da intensiv xarakter almışdı. Bunu təşkil edib həyata keçirən də Gəncədə yerləşən Erməni Vətəndaş Komitəsi idi. Alman koloniya komissarlığının dəfələrlə etdiyi müraciətlərinə məhəl qoymayan ermənilər talançı basqınlarını davam etdirmişdilər [13].

Almanların AXC hökuməti ilə münasibətlərində yaranan belə bir narahatlıq və gərginlik yalnız türklərin Bakıya doğru hərəkəti və şəhərə daxil olması ilə əlaqədar açıq şəkildə özünü büruzə verirdi. Baxmayaraq ki, iyun ayında Almaniya ilə Osmanlı dövləti arasında maliyyə məsələsi ilə əlaqədar danışıqlar aparılmış və müsbət həllini tapmışdı [9, 163]. 1918-ci il 27 avqust sovet-alman sazişindən sonra almanların belə bir mövqedə olmasını təbii hesab etmək olar. Fon Kress bu münasibəti və ya tələbi ilə türklərin Bakıya daxil olmasına şərait yaratdıqları üçün AXC hökumətinə göstərdiyi etimadsızlığı nümayiş etdirirdi.

27 avqust sazişinin imzalanması üçün ilkin danışıqlar iyun ayından başlanmışdı. 1918-ci il iyunun 30-da Lenin İ.Stalinə göndərdiyi gizli teleqramda almanlarla" Bakının əvəzinə Bakı neftinin bir hissəsi" prinsipinə əsaslanan bir sövdələşmənin mümkünlüyünü qeyd edirdi. Rusiyanın Berlindəki səlahiyyətli nümayəndəsi İoffe ilə Almaniyanın xarici işlər üzrə dövlət katibi Rixard Kühlman arasında bu barədə danışıqlar getmişdi [24, 43]. Danışıqların əsasında türklərin Bakıya buraxılmaması məsələsi dayanırdı ki,bununla bolşevik hökumətinin diplomatik səyləri öz nəticəsini göstərməkdə idi. AXC hökumətinin Gəncə dövrünə təsadüf edən bu " sövdələşmə" 1918-ci il 27 avqust sazişi ilə rəsmiləşir və bu bir tarixi reallıqdı ki, sovetlərin vasitəsi ilə Bakı neftinin 4/1-nə sahiblənmək ümidi AXC-alman münasibətlərinə birbaşa öz təsirini göstərmişdi.

1918-ci il sentyabrın 6-da M.Ə.Rəsulzadə İstanbuldan M.Hacınskiyə göndərdiyi hesabat xarakterli məlumatında bildirir ki, 27 avqust sazişi ilə əlaqədar İstanbulda olan alman nümayəndəsi Bernsdorf vasitəsilə həmin sazişə qarşı öz etiraz bəyanatını göndərmişdi. Mətbuatda da bu məsələ ilə

bağlı sərt bəyanatlarla çıxış edən Rəsulzadə 27 avqust sazişinin təkcə Azərbaycan üçün deyil, regionda böyük maraqları olan Osmanlı dövləti üçün də təhlükəli olduğunu bəyan edirdi [10, 254]. 1918-ci il sentyabrın 12-də isə Almaniyanın Türkiyədəki elçisi qraf Valdburqa etiraz notası göndərilir. Etiraz notasında 27 avqust sazişində nəzərdə tutulan maddənin - Almaniyanın Bakının Rusiyanın nəzarətində qalmasına razılıq verməsinə Azərbaycan nümayəndəliyi adından M.Ə.Rəsulzadə kəskin öz etirazını bildirir. Tarixi faktlarla əsaslandırılır ki, Bakı Azərbaycanın iqtisadi, siyasi və mədəni mərkəz şəhəri olmuşdur.

AXC-Almaniya münasibətlərində ərazi məsələləri. AXC-Almaniya münasibətlərində ərazi məsələləri birbaşa rol oynamasa da dolayısıyla ziddiyyətli amillərlə müşaiyət olunurdu, xüsusilə də AXC-Gürcüstan arasında sərhəd məsələlərinin həllində alman hökuməti öz maraqlarına uyğun olaraq Gürcüstanın mövqeyində dururdu.

AXC-dən fərqli olaraq Gürcüstanın müstəqilliyini dərhal tanıyan alman hökuməti iki dövlət arasında Borçalı ətrafında münaqişə baş verəndə Azərbaycan Xalq Cümhuriyyətinin Xarici işlər nazirinin qraf Şülenburqla danışıqları olur, Şülenburq AXC hökuməti ilə rəsmən tanış olmadığını bildirir və münaqişənin dinc yolla həll olunmasını təklif edir [2].

Azərbaycan və Gürcüstan arasında etnoərazi ixtilafları bu dövlətlər öz müstəqilliklərini elan etməmişdən əvvəl başlamışdı. Hələ mayın 21-də tərəflər arasında məsləhətləşmələr zamanı N.Jordaniyanın rəhbərlik etdiyi gürcü tərəfi Zaqataladan başqa digər ərazilərin güzəştə gedilməyəcəyi fikrini bəyan etmişdi. AXC öz müstəqilliyini elan etdikdən bir müddət sonra Borçalı ilə bağlı tərəflər arasında hətta silahlı toqquşma vəziyyəti yaranır və M.Hacınski gürcü qoşunlarının Borçalını tərk etməsi barədə gürcü hökumətinə nota göndərir [11, 54]. Hadisələr elə bir zamanda cərəyan edirdi ki, Osmanlı dövləti Cənubi Qafqazda yaranmış vəziyyətdən istifadə edərək müstəqil hərbi-siyasi güc nümayiş etdirir, Almaniyanın hakim dairələri isə türklərin Anadolu istiqmətdən Qafqaza doğru hərəkəti nəticəsində özlərinin strateji planlarının pozulması faktı qarşısında qalır, hətta 1918-ci ilin iyununda Borçalıda alman və türk əsgərləri arasında toqquşmalar baş verir [11, 68]. Gürcüstan hökuməti Borçalı və Qarayazıda, Poylu və Ağstafa stansiyalarında alman hərbi birləşmələrinin yerləşməsinə güvənərək bir sıra ixtilaflı əraziləri öz nəzarəti altında saxlayır [11, 68]. Alman hökuməti sırf öz maraqlarına uyğun olaraq bir tərəfdən Osmanlının Cənubi Qafqazdakı siyasi üstünlüyünün və AXC ilə müsbət münasibətdə olmasının fərqində olduğu üçün , digər tərəfdən isə bölgədə özünün hərbi qüvvələrini yerləşdirdiyinə görə ərazi məsələlərində Gürcüstanın tərəfini saxlayırdı. Bununla belə Azərbaycan - Gürcüstan münasibətlərində hər hansı bir münaqişənin baş verməsini istəmirdi. 1918-ci il iyul- sentyabr aylarında Azərbaycanla-Gürcüstan arasında Qarayazı ərazisinə görə yaranan sərhəd münaqişəsində gürcü hökuməti burada yerləşən "Vəhşi diviziya"nın hərbi hissələrinin həmin ərazini öz ərazisi hesab etdiyi üçün buradan çıxarılması barədə AXC hökumətinə ultumatum göndərir. AXC Xarici İşlər Nazirliyi isə hərbi münaqişənin baş verəcəyinin qaçılmaz olduğuna görə eyni məzmunlu ultimatumu Gürcüstan hökuməti ilə bərabər Almaniya hökumətinə də göndərir. AXC hökuməti bununla ərazi məsələlərində alman hökumətinin Gürcüstan hökumətinə təsir göstərəcəyinə ümid edirdi. Çünki AXC ilə Gürcüstan hökuməti arasında ərazi münaqişələri yalnız Qarayazı ərazisi ilə bitmirdi, Borçalı, Sığnaq, Zaqatala dairəsi, hətta Tiflis qəzası və Qazax qəzasının da Azərbaycana birləşdirilməsi AXC Xarici İşlər naziri M.H.Hacınskinin təklifi ilə İstanbulda keçiriləcək konfransda müzakirə edilə bilən məsələ hesab edilirdi [27, 1-2]. İstanbulda olan alman nümayəndə heyəti bu məsələyə təbii ki, loyal yanaşmayacaqdı.

AXC- Almaniya münasibətlərində alman koloniyaları. AXC dövründə alman hökumətini daha çox alman koloniyalarının müdafiəsi maraqlandırırdı. Dövrün gərginliyi fonunda AXC-nin daxili siyasətinin ən həssas istiqamətlərindən biri də bu baxımdan etnik məsələ idi. AXC-Almaniya münasibətlərində Azərbaycanda olan alman koloniyaları ilə bağlı məsələlər bu baxımdan xüsusi yer tutur. 1918- ci ildə Azərbaycanda olan alman kolonyalarında təxminən 6 minə yaxın əhali yaşayırdı [13]. Alman koloniyaları Azərbaycanın siyasi həyatında yaxından iştirak etmişdilər. AXC parlamentində milli azlıqlardan olan 4 fraksiyadan birini alman koloniyalarından seçilən Lorens Kun təmsil edirdi. Lorens özü 1884-cü ildə Yelenendorfda anadan olmuş və bir müddət burada fəaliyyət göstərmişdi. Parlament iclasında Lorents almanların Azərbaycanda yaşadıqları 100 il ərzində səmimi və mehriban münasibətlərin heç bir zaman pozulmadığından bəhs edərək "gələcəkdə də AXC hökuməti ilə alman

koloniyaları arasında sülh və əmin-amanlıq şəraitində dinc münasibətlərin davam edəcəyini bildirmişdi [18, 9].

Almaniyanın Cənubi Qafqaz siyasəti AXC- nin dövlət maraqlarına cavab verməsə də parlamentin çağırılması zamanı dövlət koloniya əhalisinə olan münasibətini dəyişmədi və parlamentin deputat seçkilərində milli azlıq kimi alman əhalisini də nəzərə alaraq alman kolonistlərinin bir nəfər deputatla parlamentdə təmsil olunmasına şərait yaratdı. Azərbaycan Parlamentinin yaranması nəinki Azərbaycanın ictimai həyatında, eyni zamanda alman koloniyalarında da nisbi sabitliyin yaranmasına xidmət etmişdi [13].

Kun parlamentdəki çıxışında AXC hökumətinin alman hökumətinə göndərdiyi bəyannamədən dərhal sonra nümayəndəliklər vasitəsilə danışıqların aparıldığını gündəmə gətirir. 1918-ci il avqustun 9-da AXC-nin Tiflisdəki diplomatik nümayəndəsinə alman nümayəndəsi fon Kress Azərbaycanda olan alman kolonistləri ilə bağlı məsələni də danışıqlar layihəsinə daxil edilməsi xahişi ilə müraciət edir [21, 16]. 1918 -ci il avqustun 18-də alman imperatorluğunun Qafqazdakı nümayəndəsi də eyni xahişlə - Yelenendorfdakı alman koloniyası barədə Fətəli xan Xoyskiyə məktub vasitəsilə müraciət edir. Müraciətdə bildirilir ki, danışıqlardan sonra koloniyaların tarlalarına basqınlar olmuş,talanlar törədilmişdir. Bunu edənlərin də tatar alayının əsgərləri olduğu iddia edilirdi. Nümayəndəlik bu istiqamətdə təcili tədbirlərin görülməsini və koloniyalarda sabitliyin bərpa edilməsini xahiş edir [17, 36]. 1914-cü ilin avqustunda II Nikolayın əmri ilə təşkil edilmiş "Vəhşi diviziya"ya daxil olan Süvari Tatar korpusunun - alayının komandanı P.Polovsev tərəfindən hələ 1917-ci il oktyabrın 26-da Yelenendorfda Tatar süvari alayı yerləşdirilmişdi [6]. Həmin atıcı alayının əsgərləri arasında "İran təbəəsi, Arşak Arutyunov təbliğat apararaq, alman kolonistlərinin tatarlarla -azərbaycanlılarla birlikdə ruslara, ermənilərə qarşı fəaliyyət göstərmələri haqqında yanlış fikirlərin təbliğatını aparır, əsgərləri almanlara qarşı zor tətbiq etməyə təşviq edirdi [1, 268].

Alman reyxi koloniyaları Almaniyanın Qafqazdakı forpostu hesab edirdi [5, 35]. 1918-ci ilin avqustunda Almaniyanın Şərq Xəbərləri Agentliyinin əməkdaşı Kosak təklif edirdi ki, Qafqazdakı alman koloniyaları alman reyxinin kilsə təşkilatlarına daxil edilsin və oradakı məktəb proqramları Almaniyanın proqramlarına uyğunlaşdırılsın. Çünki,koloniyaların əhalisi onilliklər idi ki, Rusiya imperiyasının təəbəliyində olmuşdu [5, 36].

İqtisadi əməkdaşlığın siyasi müstəvidə möhkəmlənməsi ulu öndər Heydər Əliyevin Türkiyəyə rəsmi səfərləri ilə paralel şəkildə inkişaf etmişdir. Türkiyə Prezidenti Süleyman Dəmirəlin dəvəti ilə 5 may 1997-ci ildə baş tutan səfər çərçivəsində "Çankaya köşkü"ndə iki ölkə arasında əməkdaşlığın dərinləşdirilməsinə dair bəyannamənin imzalanması Azərbaycan–Türkiyə münasibətlərinin strateji məzmun almasının mühüm mərhələsi kimi qiymətləndirilir. Qarşılıqlı səfərlər və imzalanan tərəfdaşlıq sənədləri dövlətlərarası münasibətlərin institusional əsaslarını möhkəmləndirmişdir.

Strateji tərəfdaşlığın ən mühüm komponentlərindən biri enerji təhlükəsizliyi sahəsində əməkdaşlıqdır. Bu baxımdan 26 iyun 2013-cü ildə İstanbul şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Cümhuriyyətinin Baş naziri Rəcəb Tayyib Ərdoğan tərəfindən Transanadolu Təbii Qaz Boru Kəməri (TANAP) üzrə Hökumətlərarası Müqavilənin imzalanması xüsusi əhəmiyyət kəsb edir. TANAP layihəsi Xəzər qazının Avropa bazarlarına nəqlini təmin etməklə Azərbaycan və Türkiyənin enerji təhlükəsizliyini gücləndirmiş, eyni zamanda hər iki ölkənin beynəlxalq enerji sistemində strateji rolunu artırmışdır [2].

İqtisadi və enerji əməkdaşlığı hərbi-siyasi müttəfiqliklə sıx şəkildə əlaqəlidir. Qarabağ məsələsində Türkiyənin daim Azərbaycanın yanında olması, ölkəmizin haqlı mövqeyini beynəlxalq platformalarda ardıcıl şəkildə müdafiə etməsi bu müttəfiqliyin sarsılmaz xarakterini nümayiş etdirir. Azərbaycan Silahlı Qüvvələrinin Türkiyədə keçdiyi təlimlər, birgə hərbi manevrlər və texniki əməkdaşlıq Azərbaycan ordusunun döyüş qabiliyyətinin yüksəlməsinə mühüm təsir göstərmişdir. Bu hazırlığın nəticələri 2016-cı il Lələtəpə əməliyyatı, 2018-ci il Günnüt zəfəri və xüsusilə 2020-ci il Vətən müharibəsi zamanı aydın şəkildə özünü göstərmişdir. Müharibə dövründə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana verdiyi açıq siyasi dəstək, Türkiyə mediasının informasiya müharibəsində oynadığı rol və "Bayraktar" pilotsuz uçuş aparatlarının tətbiqi tarixi Zəfərin əldə olunmasında həlledici amillərdən olmuşdur [2].

Bu hərbi-siyasi həmrəylik beynəlxalq təşkilatlar müstəvisində də öz əksini tapmışdır. Azərbaycan və Türkiyə BMT, NATO, İKT, Avropa Şurası, QDİƏT və Türk Dövlətləri Təşkilatı kimi beynəlxalq qurumlarda əksər hallarda vahid mövqedən çıxış edir, bir-birinə qarşılıqlı dəstək göstərir. 1993-cü ildə Ermənistanın Kəlbəcəri işğal etməsindən sonra Türkiyənin Ermənistanla sərhədləri bağlaması və bu mövqedən bu günədək geri çəkilməməsi strateji müttəfiqliyin prinsipial xarakterini təsdiqləyir.

44 günlük Vətən müharibəsindən sonra imzalanmış Şuşa Bəyannaməsi Azərbaycan–Türkiyə münasibətlərində yeni mərhələnin başlanğıcı olmuşdur. Bu sənəd iki ölkə arasında münasibətləri rəsmi müttəfiqlik səviyyəsinə yüksəltmiş, hərbi-təhlükəsizlik məsələlərində ümumi müdafiə platformasının əsaslarını müəyyən etmişdir. Şuşa Bəyannaməsi regionda yeni geosiyasi və geoiqtisadi reallıqların formalaşmasına təkan verən tarixi sənəd kimi qiymətləndirilir.

Strateji tərəfdaşlığın iqtisadi ölçüsü müharibədən sonrakı dövrdə də aktuallığını qoruyur. Qarabağda aparılan bərpa və yenidənqurma işlərində Türkiyə şirkətlərinin fəal iştirakı bu həmrəyliyin praktiki təzahürüdür. Bununla yanaşı, qarşılıqlı ticarət dövriyyəsinin artırılması, qeyri-enerji sektorunda əməkdaşlığın genişləndirilməsi və yeni qaz sazişlərinin imzalanması iki ölkənin iqtisadi potensialının tam reallaşdırılması baxımından prioritet olaraq qalır.

Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum və TANAP kimi enerji layihələri ilə yanaşı, Bakı–Tbilisi–Qars dəmir yolu xətti Azərbaycan və Türkiyəni qlobal nəqliyyat-logistika zəncirinin əsas iştirakçılarından birinə çevirmişdir. Bu layihələr regionun enerji və nəqliyyat təhlükəsizliyinə mühüm töhfə verməklə yanaşı, iki ölkənin strateji tərəfdaşlığının iqtisadi səmərəliliyini də artırmışdır. Perspek-

tivdə isə xüsusi dəmir yolu xətlərinin çəkilməsi və yeni nəqliyyat dəhlizlərinin yaradılması Azərbaycan–Türkiyə iqtisadi münasibətlərinin daha da dərinləşməsinə xidmət edəcəkdir.

Beləliklə, Azərbaycan–Türkiyə münasibətlərində strateji tərəfdaşlıq iqtisadi və enerji layihələri ilə möhkəmlənən, hərbi-siyasi müttəfiqliklə tamamlanan və regional sabitliyə xidmət edən kompleks əməkdaşlıq modeli kimi çıxış edir. Bu model yalnız iki dövlətin milli maraqlarını deyil, bütövlükdə regionun təhlükəsizliyi və davamlı inkişafını təmin edən nümunəvi ittifaq formasıdır.

Nəticə. Aparılan tədqiqat göstərir ki, Azərbaycan–Türkiyə münasibətləri klassik ikitərəfli əməkdaşlıq çərçivəsindən çıxaraq institusional, strateji və müttəfiqlik xarakteri daşıyan unikal bir modelə çevrilmişdir. "Bir millət, iki dövlət" konsepsiyası tarixi-mədəni yaxınlıqla yanaşı, konkret siyasi qərarlar, hüquqi sənədlər və birgə layihələr vasitəsilə real məzmun qazanmışdır. Xüsusilə enerji, nəqliyyat və hərbi-təhlükəsizlik sahələrində həyata keçirilən əməkdaşlıq regional sabitliyin möhkəmlənməsinə və iki ölkənin beynəlxalq sistemdə mövqelərinin güclənməsinə mühüm töhfə vermişdir.

ƏDƏBİYYAT

1. Azərbaycan–Türkiyə əlaqələri tarixdə və bu gün – Naxçıvan : [Elektron resurs] / Nuhçıxan informasiya portalı. – Naxçıvan, 2022. - https://nuhcixan.az/news/cemiyyet/70045-azerbaycan-turkiye-elaqeleri-tarixde-ve-bu-gun [20.02.2026].
2. Azərbaycan–Türkiyə münasibətləri : [Elektron resurs] / Heydər Əliyev irsi elektron kitabxanası. – Bakı, 2011. - https://lib.aliyev-heritage.org/az/4610235.html [20.02.2026].
3. Azərbaycan–Türkiyə münasibətləri daha da möhkəmlənir : [Elektron resurs] / Azərbaycan qəzeti. – Bakı, 2010. – http://anl.az/down/meqale/azerbaycan/2010/may/120280.htm [20.02.2026].
4. Azərbaycan–Türkiyə münasibətləri: Strateji tərəfdaşlığın perspektivləri / Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi. – Bakı, – 2014.
5. Hüseynova, F. Türkiyə əlaqələrinin kulturoloji aspektləri : [Elektron resurs] / Azərbaycan Milli Kitabxanasının elektron fondu. – Bakı, 2007. - http://anl.az/el/h/hf_mdateka.pdf [20.02.2026].
6. Ömərov, V. Azərbaycan–Türkiyə mədəni inteqrasiyası müstəqillik illərində : [Elektron resurs] / Səs qəzeti. – Bakı, 2013. – İnternet ünvanı: https://sesqazeti.az/news/mia/369514.html [20.02.2026].

ШАХИСМАИЛ ИСМАИЛОВ
Азербайджанский университет языков, Азербайджанский университет, Бакинский славянский университет, доктор философии по истории, доцент

АЗЕРБАЙДЖАНО-ТУРЕЦКИЕ ОТНОШЕНИЯ: ИСТОРИЧЕСКИЙ И СТРАТЕГИЧЕСКИЙ АНАЛИЗ МОДЕЛИ «ОДИН НАРОД — ДВА ГОСУДАРСТВА»

Целью исследования является комплексный анализ азербайджано-турецких отношений в рамках модели «Одна нация — два государства» с точки зрения исторических, стратегических и институциональных оснований. Методология включает историко-сравнительный анализ, исследование официальных документов, институциональный и качественный подходы. В результате выявлено, что отношения двух стран сформировали устойчивую многоуровневую структуру, основанную на культурной дипломатии, образовательном сотрудничестве, энергетической безопасности, экономической интеграции и военно-политическом союзничестве. Ключевыми элементами стратегического партнерства выступают проекты TANAP, BTC, BTQ, а также Шушинская декларация. Ограничения исследования связаны с динамичностью региональной политической среды и ограниченной актуальностью отдельных статистических данных. Оригинальность работы заключается в комплексном рассмотрении отношений не только в политическом, но и в гуманитарном, культурном и диаспоральном измерениях. Научная новизна состоит в концептуализации азербайджано-турецких связей как целостной стратегической модели. Практическая значимость проявляется в возможности использования результатов при формировании государственной политики, энергетической стратегии, образовательных программ и механизмов региональной безопасности.

Ключевые слова: Азербайджано-турецкие отношения, стратегическое партнерство, модель «Один народ - два государства», энергетическое сотрудничество, военно-политический союз, культурная дипломатия, региональная безопасность.

SHAHISMAYIL ISMAYILOV
Azerbaijan University of Languages, Azerbaijan University,
Baku Slavic University, PhD in History, Associate Professor

AZERBAIJAN–TÜRKİYE RELATIONS: A HISTORICAL AND STRATEGIC ANALYSIS OF THE "ONE NATION, TWO STATES" MODEL

The purpose of this study is to provide a systematic analysis of Azerbaijan–Türkiye relations within the framework of the "One Nation, Two States" model, focusing on their historical, strategic, and institutional foundations. The methodology is based on a historical-comparative approach, document analysis, institutional assessment, and qualitative research methods. The findings demonstrate that bilateral relations have evolved into a multi-dimensional structure grounded in cultural diplomacy, educational cooperation, energy security, economic integration, and military-political alliance. Strategic projects such as TANAP, BTC, BTK, and the Shusha Declaration have significantly strengthened the institutional architecture of this partnership. The main limitations of the study relate to the dynamic nature of regional political processes and the partial obsolescence of some statistical data. The originality of the research lies in its comprehensive approach that integrates political, humanitarian, cultural, and diaspora dimensions. The scientific novelty consists in conceptualizing Azerbaijan–Türkiye relations as a unified strategic model. The practical significance of the study is reflected in its applicability to policymaking, energy strategy development, educational cooperation frameworks, and regional security planning.

Keywords: Azerbaijan–Türkiye relations, strategic partnership, "One nation, two states" model, energy cooperation, military-political alliance, cultural diplomacy, regional security.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 20 fevral 2026-cı il.
Məqalənin çapa qəbul olunma tarixi: 21 may 2026-cı il.
Rəyçilər: t.e.d. Habil Məmmədov, t.e.d. İsmayıl Məmmədov.

UOT 32:93/94; UOT 94

SEVİNC RUİNTƏN
Bakı Dövlət Universitetinin dosenti
ORCID ID: 0000-0002-8211-1577
sevinjruintan@bsu.edu.az

ƏSGƏR MƏMMƏDLİ
Bakı Dövlət Universitetinin "Ölkəşünaslıq (Türkiyə üzrə)" ixtisası II kurs magistrantı
ORCİD ID: https://orcid.org/0009-0000-0121-9694
asgermemmedli2020@gmail.com

II QARABAĞ MÜHARİBƏSİ KONTEKSTİNDƏ TÜRKİYƏ-ERMƏNİSTAN MÜNASİBƏTLƏRİNİN TARİXİ TƏKAMÜLÜ: ANALİTİK BAXIŞ

DOI: https://doi.org/10.36719/2708-065X/113/91-100

Azərbaycanın II Qarabağ müharibəsində qələbəsi, sözün həqiqi mənasında müasir dövr beynəlxalq münasibətlər sistemində mühüm əhəmiyyətli hadisələrdən biri olmuşdur. Belə ki, məsələnin mahiyyəti yalnız itirilmiş torpaqların geri qaytarılması ilə çərçivələnməməlidir. Bu qələbə həmçinin bərabərində yalnız bir bölgə üçün deyil, bütünlükdə dünya miqyasında qüvvələr balansına əhəmiyyətli dərəcədə təsir edə biləcək reallıqlar gətirmişdir. Elmi araşdırmalarda bu məsələlərə fərqli rakurslardan aydınlıq gətirilməsinə cəhd göstərilməkdədir. Bu baxımdan istisna təşkil etməyən hazırki məqalədə bu yeni geosiyasi reallıqlar fonunda Türkiyə-Ermənistan münasibətlərinin inkişaf dinamikası və gələcək perspektivləri təhlil edilmişdir. Məqalədə elmi-siyasi ədəbiyyat və rəsmi sənədlər əsasında tərəflər arasındakı münasibətlərin XI əsrdən etibarən formalaşan ilk təmaslarından günümüzə qədər olan tarixi təkamülü müqayisəli şəkildə təhlil edilmişdir. Araşdırmanın yekununda belə bir qənaətə gəlinmişdir ki, XX əsrin 80-cı illərinin sonundan etibarən Ermənistanın Azərbaycana təcavüzü, torpaqlarını işğal altında saxlaması məsələsinə münasibətdə Türkiyənin mövqeyi iki dövlət arasındakı münasibətlərdə mövcud olan gərginliklərdən sadəcə biri olmuşdur. Bu gərginliyin aradan qaldırılması, və ya heç olmasa azaldılmasına əngəl olan səbəblər əslində heç ermənilərin yaddaşına məqsədli şəkildə yeridilmiş qondarma "tarixi travma" ilə də bağlı olmamışdır. Problemin mahiyyətini düzgün dərk etmək üçün ona daha geniş rakursdan yanaşılmalıdır. Belə yanaşıldıqda aydın olur ki, iki dövlət arasındakı münasibətlər regional və qlobal maraqların toqquşması kontekstində daha düzgün dəyərləndirilə bilər. Araşdırmalar həmçinin onu da göstərir ki, münasibətlərdəki problemlərə rəğmən, tərəflər arasında əməli nəticə əldə edilməsi üçün də kifayət qədər güclü və müsbət tarixi yaddaş zəmini də mövcuddur. Və məhz bu zəmin II Qarabağ müharibəsindən sonra yaranmış yeni şəraitdə normallaşma prosesi üçün real perspektivlər vəd edir.

Açar sözlər: Türkiyə-Ermənistan münasibətləri, "Sadiq təbəə" (tebaa-i sadıka), 1915-ci il hadisələri, II Qarabağ müharibəsi, Xüsusi nümayəndələr vasitəsilə normallaşma prosesi.

Giriş. Günümüzdə Türkiyə-Ermənistan münasibətləri ümumilikdə həm regional təhlükəsizlik, həm də qlobal geosiyasət baxımından olduqca kritik və çoxşaxəli məsələlərdən biridir. XX əsrin sonlarında Ermənistanın beynəlxalq hüququn tam hüquqlu subyektinə çevrilməsindən sonrakı dövrdə iki dövlət arasındakı münasibətləri "dondurulmuş münaqişə" ilə "normallaşma cəhdləri" arasında mübarizə dövrü münasibətləri kimi xarakterizə etmək mümkündür. Problemə yaşadığımız dövrün gerçəkləri çərçivəsində baxarsaq, "yaşadığımız qloballaşmaqda olan dünyada konkret götürülmüş iki dövlət arasındakı münasibətlər hansı səbəbdən əhəmiyyətli ola bilər?" deyə düşünülməsi də mümkündür. Bununla bağlı qeyd etməyi lazım bilirik ki, qloballaşan dünyada sərhədlər sanki şəffaflaşır və hər şey vahid mərkəzdən idarə olunurmuş kimi görünə bilər. Lakin reallıqda, istənilən iki dövlət arasındakı münasibətlər hələ də qlobal sistemin "kərpicləri" rolunu oynayırlar. Türkiyə-Ermənistan arasındakı münasibətləri "kiçik" münasibətlərin "böyük" təsiri kontekstində dəyərləndirsək, bu münasibətlər enerji

dəhlizlərinə, logistik marşrutlara (məsələn, Orta dəhliz) və beynəlxalq ticarət yollarına birbaşa təsir edir və bu nöqtədəki qeyri-müəyyənlik qlobal iqtisadi zənciri qıra bilməsi baxımından çox da diqqətəlayiq məsələdir. Türkiyə-Ermənistan münasibətləri həm də NATO-nun şərq cinahının Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) ilə kəsişməsidir. Bu nöqtədəki istənilən qığılcım qlobal hərbi balansın pozulmasına səbəb ola bilər. Ümumilikdə Türkiyə-Ermənistan münasibətlərində XIX əsrin sonlarından başlayaraq, davamlı olaraq böyük güclər "lokomotiv" rolunda çıxış ediblər. Təəssüf ki, hətta günümüzdə belə vəziyyət çox da dəyişməyib. Bu gün Fransanın Ermənistana silah satışı və ya ABŞ-ın "erməni kartı"ndan Türkiyəyə qarşı istifadə etməsi, vaxtilə Çar Rusiyasının və ya Britaniyanın apardığı siyasətin müasir, modernləşmiş formasıdır. Metodlar dəyişsə də, subyektlər və hədəflər (məsələn, regiona nəzarət) sabit qalır. Hesab edirik ki, əgər Türkiyə-Ermənistan münasibətləri sadəcə "iki xalqın tarixi davası" olsaydı, bu məsələ çoxdan həllini tapmış olardı. Məsələnin beynəlmiləlləşməsi onun qlobal xarakterli olmasının sübutudur.

Bütün bu deyilənlərdən çıxış edərək, hazırki məqalədə bu məsələlərə aydınlıq gətirilməsinə cəhd ediləcəkdir. Qeyd edək ki, II Qarabağ müharibəsi hazırki məqalədə Türkiyə-Ermənistan münasibətləri üçün xronoloji çərçivə olaraq müəyyənləşdirilmişdir. İki dövlət arasındakı münasibətlər II Qarabağ müharibəsinə qədərki və sonraki çərçivədə tarixi təkamül baxımından nəzərdən keçiriləcəkdir.

II Qarabağ müharibəsinə qədər Türkiyə - Ermənistan münasibətlərinə baxış. İlk təmasları XI əsrə aid olan Türk(iyə) - Erməni(stan) münasibətlərini Osmanlı imperiyası dövrü və Cümhuriyyət dövrü münasibətləri olmaqla iki mərhələdə izləmək mümkündür. Bu iki mərhələnin arasında bir də, 1918-1923-cü illəri əhatə edən "imperiyadan cümhuriyyətə keçid dövrü" hesab edəcəyimiz mərhələdən xüsusi bəhs edəcəyik. Osmanlı dövrü münasibətlərini də XIX əsrin sonlarından əvvəl və sonra olmaqla aşağıdakı altmərhələlərə ayıra bilərik.

"Tebaa-i sadıka" və ya "millət-i sadiqə" altmərhələsi. Ermənilərin Osmanlı idarəçiliyində və mədəniyyətində ən aktiv və stabil yaşadığı dövr olmuşdur. Bu mərhələdə ermənilər imperiyanın bütün digər xalqları kimi, onlar üçün nəzərdə tutulan hüquq və azadlıqlardan istifadə edirdilər. Belə ki, Osmanlı təməl prinsiplərinə görə, qurucuları baxımından türk və müsəlman, sərhədləri daxilində yaşayan əhali baxımından isə kosmopolit bir dövlət olmuşdur. 1800-cü illərə qədər Sultanlar tərəfindən təsdiqlənən və zamanına görə əlavələr edilən bu hüquq və imtiyazlar 1839-cu il Tənzimat və 1856-cı il İslahat Fərmanları ilə bir daha təsdiqlənmiş, bir qədər də genişləndirilmişdi. Bu fərmanların qəbulu nəticəsində digər təbəələr kimi ermənilər də "millət" olaraq dini qrup kimi tanınır, Osmanlı vətəndaşlarının istifadə etdiyi hüquqlardan faydalanırdılar. Lakin bu tənzimləmə ilə qazanılan hüquq və imtiyazlar, xüsusilə II Əbdülhəmidin (1876-1909) hakimiyyəti dövründə və sonrakı illərdə ortaya çıxacaq erməni məsələsi və erməni üsyanları üçün də "əlverişli" şərait yaratmış oldu, Avropa dövlətlərinin Osmanlının daxili işlərinə müdaxiləsi üçün zəmin hazırladı [13, s.81]. Burada xüsusi olaraq qeyd etmək istərdik ki, Osmanlı idarəçiliyi altında ermənilər 4 fərqli kilsəyə mənsub olmuşlar: hər kəsə məlum olan Qriqoryan kilsəsi (1381-ci ildən), Ortodoks kilsəsi (pravoslav ermənilər Fənər Rum Patrikliyinə tabe idilər), Katolik kilsəsi (1831-ci ildən) və Protestant kilsəsi (1859-cu ildən) [20, s.145; 22, s.23]. Hesab edirik ki, türkiyəli və erməni araşdırmaçılara istinadən qeyd etdiyimiz bu fakt bir tərəfdən imperiyadakı dözümlülük və hüquq sisteminin göstəricisi kimi dəyərləndirilə bilərsə, digər tərəfdən, Fransanın katolik ermənilərı, İngiltərə və ABŞ missionerlərinin isə protestant ermənilərı "himayə etmək" bəhanəsi ilə Osmanlının daxili işlərinə müdaxilə etməsi üçün əlverişli şərait yaratmışdır. Və məhz bu daxili və xarici amillərin "üst-üstə düşməsi" bir qədər sonrakı dövrdə aktivləşəcək "erməni məsələsi" üçün ilkin geosiyasi zəmini hazırlamış oldu.

"Diplomatik böhran" dövrü altmərhələsi. "Erməni məsələsi"nin beynəlxalq müstəviyə çıxmasından I Dünya müharibəsinin sonlarına qədərki dövrü əhatə edən, münasibətlərin ən travmalı dövrü olan bu altmərhələdə, xüsusən də, 1878-ci il San-Stefano və Berlin müqavilələrindən sonra "erməni məsələsi" beynəlxalq diplomatiyanın alətinə çevrilmişdir. Berlin müqaviləsinin 61-ci maddəsi böyük güclərə Osmanlı ermənilərinin yaşadığı vilayətlərdə "islahatlar həyata keçirilməsini nəzarətdə saxlamaq" hüququ vermişdi ki, bu da münasibətlərdə açıq düşmənçilik və silahlı üsyanlar mərhələsinə keçməyə şərait yaratmışdı. Bu gərginliyin kulminasiya nöqtəsini təşkil edən hadisələr, təsiri günümüzə qədər uzanan siyasi-psixoloji travmalar isə I Dünya müharibəsi illərində baş verdi. Azərbaycan tarixşünaslığında belə hesab edilir ki, Osmanlı dövlətinə qarşı irəli sürülən "kütləvi qırğın və sistemli soy-

qırım" iddialarının ilkin ideoloji müəllifləri ermənilər olmayıblar. İlk dəfə, müharibə illərində Osmanlını parçalamaq istəyən xristian dövlətlərin missionerləri belə 1 iddia ilə çıxış ediblər. Bunlar: 1913-1916-cı illərdə ABŞ-ın Osmanlıdakı səfiri yəhudi Henri Morgentau, Alman-Erməni Cəmiyyətinin sədri Alman İohann Lepsius, İngilis-Erməni Cəmiyyətinin sədri ingilis tarixçi, hüquqşünas və siyasətçi Ceyms Brays, fransız tarixçi və arxeoloq Jak de Morqan, rus yazıçı Valeri Bryusov və b. olmuşlar [2, s.132-133]. Bu faktın özü belə, əslində həmin ideyaların formalaşdırılmasında məqsədin "tarixi həqiqətləri üzə çıxarmaq", yaxud "ədaləti bərpa etmək" deyil, daha çox siyasi təzyiq vasitəsi kimi istifadəsi olduğunu göstərir.

İmperiyadan Cümhuriyyətə keçid mərhələsi münasibətləri. Münasibətlərdə I Dünya müharibəsinin sonu, yəni 1918-ci il Mudros Atəşkəsindən 1923-cü ilə qədər davam edən mərhələnin özünü də iki altmərhələdə izləmək mümkündür: 1918-1920-ci illər - Osmanlı ilə münasibətlərə son qoyan final; 1920-1923-cü illər - Osmanlı ilə münasibətlərdən Cümhuriyyətlə münasibətlərə keçid, ya da Cümhuriyyət dövrü münasibətlərinin başlanğıc mərhələsi. 1920-ci ildə TBMM-nin yaradılmasından sonrakı dövrdəki hadisələrin əsasən Ankara hökuməti ilə tənzimlənməsi baxımından bu mərhələnin Cümhuriyyət quruculuğunun başlanğıc mərhələsi kimi təqdim edilməsinin yanlış olmayacağını hesab edirik. Belə ki, bu mərhələdə TBMM ilə Ermənistan arasında Türkiyə-Ermənistan münasibətlərinin gələcək vəziyyətini müəyyənləşdirən Gümrü (1920), Moskva (1921) və Qars (1921) müqavilələrinin imzalanması belə yanaşma üçün müəyyən qədər əsas verir. Müasir Türkirə-Ermənistan coğrafi və siyasi sərhədlərini müəyyənləşdirən bu müqavilələrin sonrakı dövrlərdə Ermənistanda müəyyən qüvvələr tərəfindən şübhə altına alınması isə günümüzdəki böhranın səbəblərindən biridir.

Cümhuriyyətin elanından sonrakı münasibətləri də 3 altmərhələdə izləmək mümkündür. Bunlar:

1922-1991-ci illər - Ermənistanın SSRİ-nin ittifaq respublikalarından biri olduğu dönəmdəki münasibətlər və ya "Sovet dövrü" münasibətlər altmərhələsi. Bu altmərhələdə münasibətlər birbaşa deyil, Moskva üzərindən formalaşırdı, "sakit", amma məsafəli, dərin qatlarında etimadsızlıq mövcud olan münasibətlər idi. Bu gərginlik xüsusən də 1970-ci illərdə ASALA və digər erməni terror təşkilatlarının fəallaşması, dünyanın müxtəlif ölkələrində türk diplomatlara qarşı sistemli şəkildə sui-qəsdlərin və terror aktlarının həyata keçirilməsi ilə münasibətlərdəki gizli gərginliyi kulminasiya nöqtəsinə çatdırdı və sonrakı dövr üçün mənfi psixoloji miras qoymuş oldu.

1991-2020-ci illər - SSRİ-nin dağılması, Ermənistanın beynəlxalq hüququn tamhüquqlu subyektinə çevrilməsi ilə başlayan və II Qarabağ müharibəsinə qədər davam edən münasibətlər, və ya post-sovet dövrü münasibətləri altmərhələsi. 1991-ci ildə Sovet İttifaqının dağılmasından sonra Ermənistanın müstəqilliyini tanıyan ilk dövlətlərdən biri Türkiyə oldu (16 dekabr 1991) [6, s.38; 19]. Hətta, Türkiyəyə aid rəsmi mənbələrdə təsdiqini tapmasaq da, Türkiyənin Yerevanda konsulluğunun açılması, 1992-ci ilin əvvəllərində səfirin təyin olunması haqqında fikirlər də mövcuddur (Türkiyənin SSRİ-də/Rusiyada 1988-1993-cü illərdə səlahiyyətli və rəsmi səfiri olmuş Volkan Vural, 1991-1993-cü illərdə qərargahı Moskvada olmaqla, eyni zamanda Türkiyənin həm də Ermənistanda səfiri təyin edilmişdi) [Ətraflı bax: 6, s.38]. Bundan sonra iki dövlət arasındakı münasibətlərin davam etdirilməməsi və diplomatik münasibətlərin qurulmamasının müxtəlif səbəbləri göstərilir ki, bunlardan biri də odur ki, SSRİ-nin dağılması prosesində Ermənistanın Azərbaycana ərazi iddiaları, torpaqlarının işğalı Türkiyə ilə Ermənistan arasındakı münasibətlərə birbaşa təsir göstərirdi. 1993-cü ilin aprel ayında Türkiyə-Ermənistan quru sərhəddi də məhz Ermənistanın Azərbaycan torpaqlarını işğalına cavab olaraq bağlandı [3, s.50-51]. Belə ki, Azərbaycan ərazilərinin bir-birinin ardınca işğalı şəraitində Azərbaycan beynəlxalq birliyin üzvü olan dövlətlərə, beynəlxaq təşkilatlara müraciət edərək Ermənistanın təcavüzkarlığının dayandırılması işində onlardan yardım istədiyi bir zamanda Türkiyə də öz növbəsində ABŞ-a, Rusiyaya, BMT Təhlükəsizlik Şurasının digər üzvlərinə müraciət edərək, onları Ermənistanın hücumunu dayandırmağa, ermənilər tərəfindən Azərbaycan ərazisinin işğalına mane olmaq üçün tədbirlər görməyə çağırdı. Eyni zamanda, özünün hərbi hava qüvvələrini döyüş vəziyyətinə gətirdi. Ermənistanla sərhəddə uçuşlar edilməsinə başlandı, həmçinin zirehli tank korpusu göndərildi. Ermənistana uçan və Ermənistandan uçan bütün təyyarələr üçün sərhədlərini bağladığını, həmçinin ərazisindən Ermənistana humanitar yardım aparılmasına icazə verməyəcəyini bildirdi. Bu bəyanatından sonra, "Türkiyənin artıq qonşuları arasında münaqişəyə münasibətdə bitərəflikdən uzaqlaşdığı" haqda ittihamlar irəli sürülməyə başlandı. Lakin deyilənlərə baxmayaraq, Türkiyə sərhədlərini açmadı [3, s.96]. Göstərilən

digər səbəb, ondan ibarətdir ki, Türkiyədə dönəmin Baş Naziri Süleyman Dəmirəlin 24 dekabr 1991-ci ildə Ermənistanın müstəqilliyinin tanınması haqqında Levon Ter-Petrosyana göndərdiyi məktubda yer alan "ərazi bütövlüyünə hörmət və sərhədlərin dəyişdirilməməsi prinsipinə sadiq qalmaq" məsələsi gerçəkləşmədiyi üçün Türkiyə Ermənistanla diplomatik münasibətlər qurmadı [17, s.237]. Burada bir məsələni də qeyd etmək istərdik. Türkiyəli diplomat Ömer Engin Lütem yazır ki, Ermənistanın müstəqilliyinin ilk illərində prezidenti olmuş Levon Ter-Petrosyan öz hakimiyyətinin ilk illərində Türkiyə ilə normal münasibətlər qurmağa cəhd göstərmiş, hətta 1993-cü ildə sərhədlərin bağlanmasına rəğmən Turqut Özalın dəfn mərasimində iştirak üçün Türkiyəyə gəlmişdi. İlk baxışdan xoşniyyətli görünə biləcək bu siyasətin əsil məqsədi isə, Türkiyənin Azərbaycanı dəstəkləməsinin qarşısını almaq niyyəti idi [17, s.240]. Türkiyəli diplomatın bu sözlərini təsdiq edən Fiona Hill, Kamal Kirişci, Andrew Moffatt kimi bir sıra araşdırmaçılar həmçinin qeyd edirlər ki, L.Ter-Petrosyanın *məqsədindən asılı olmayaraq* (qeyd müəlliflərə aiddir) məhz elə Türkiyə ilə normal münasibətlər qurmaq "cəhdi" Ermənistandakı millətçilər tərəfindən müsbət qarşılanmamış və nəticə etibarilə onun istefasının səbəblərindən biri olmuşdur [23].

Sonrakı dövrlərdə iki dövlət arasında münasibətlərin normallaşdırılması məqsədilə bir sıra cəhdlər edilsə də münasibətlərdə müsbət dəyişikliklər baş vermədi. Xüsusilə, 2009-cu ildə böyük dövlətlərin iştirakı ilə imzalanmış Sürix protokolları iki dövlət arasında diplomatik münasibətlərin qurulmasını və sərhədlərin açılmasını hüquqi müstəviyə daşısa da, gözlənilən nəticələr əldə edilmədi. Bu uğursuzluğun əsas səbəblərindən biri hər iki ölkə ictimaiyyətinin, həmçinin elmi-siyasi elitasının paradiqma dəyişikliyinə hazır olmaması idi [15, s.909]. Bu dövrdə həm Türkiyədə, həm də Ermənistanda prosesə yanaşmada kəskin daxili qütbləşmə müşahidə olunurdu. Türkiyə elmi-siyasi elitasında prosesi dəstəkləyənlər bunu Qərblə əlaqələrin güclənməsi və regional liderlik üçün bir fürsət kimi qiymətləndirir, qeyd edirdilər ki, protokollar təkcə İrəvanla münasibətləri tənzimləmir, həm də onu Türkiyənin iqtisadi və siyasi nüfuz dairəsinə daxil etmək potensialı daşıyır. Kürşad Zorlu, Kamer Kasım kimi digər fikir sahibləri isə, Azərbaycan torpaqlarının işğalı fonunda razılaşmanı "strateji xəta" hesab edirdilər. Məsələn, Kamer Kasım haqlı olaraq vurğulayırdı ki, Ermənistanın işğalçılıq siyasətində heç bir geri addım atılmadığı şəraitdə sərhədlərin açılması Türkiyə ilə Azərbaycan arasındakı qarşılıqlı etimad mühitini sarsıdar, Ankaranın geosiyasi mövqelərini zəiflədər. Türkiyə-Azərbaycan münasibətlərində gərginliyin yaranması və iki ölkənin siyasətindəki fikir ayrılıqları isə Ermənistanın əlini xeyli gücləndirər. Davam edən hərbi işğala diplomatiya yolu ilə son qoymaq onsuz da çox çətindir. Ermənistan yeni təsir gücü əldə edərsə, Dağlıq Qarabağ probleminin həlli daha da çətinləşəcək [14, s.98]. Analoji olaraq, Ermənistan tərəfində dominant olan radikal-ideoloji xətt nümayəndələri də normallaşmanı milli kimliyə xəyanət kimi qiymətləndirirdilər. Məsələn, erməni tədqiqatçı A.Mersopyan bu yanaşmanı radikal şəkildə ifadə edərək qeyd edirdi ki, "nə qədər ki, ermənilər yaşayırlar, hətta bir nəfər də olsa sağ erməni qalarsa, erməni məsələsi aktual olacaq... amma son zamanlar nədənsə Erməni – Türkiyə danışıqları fonunda bu məsələ unudulur... əgər Ermənistan bu gün Türkiyəyə münasibətdə məntiqli, düşünülmüş siyasət yeritməzsə, sabah yeni 1 soyqırım abidəsi ucaltmağa ehtiyac ola bilər. Belə ki, türklər bu gün də 100 il əvvəl olduğu qədər təhlükəlidirlər" [7, s.127]. Bu yanaşma sübut edir ki, Türkiyə əleyhinə tarixi iddialarından imtina etməyi qətiyyən düşünməyən Ermənistan elitası, eyni zamanda həm də Cənubi Qafqazda Azərbaycan torpaqlarının işğalına əsaslanan status-kvonunun qorunub saxlanmasını milli təhlükəsizliyin yeganə qarantı hesab edirdi. Bununla belə, erməni analitik mühitində problemin geosiyasi reallıqlarını daha praqmatik qiymətləndirən fərqli baxış bucaqları da mövcud idi. Məsələn, Yerevan Erməni Milli və Beynəlxalq Araşdırmalar Mərkəzinin direktoru Riçard Giragosyan məsələyə daha rasional prizmadan yanaşaraq yazırdı ki, "... Türkiyə üçün Ermənistanla münasibətlərin normallaşdırılmasının çətinliyi onun uzunmüddətli müttəfiqi olan Azərbaycanın reaksiyasından qaynaqlanır... Əgər bu çətinliklərdən xilas ola bilərsə, həm Türkiyənin, həm də Ermənistanın fikir ayrılıqlarını aradan qaldırmaq üçün real şansının olduğu görünür... əks halda bu iki ölkə keçmişin girovluğunda qalmaq təhlükəsi ilə üzləşir" [25, s.4]. Bu təzadlı yanaşmaların qarşılıqlı və müqayisəli təhlili göstərir ki, 2009-cu il prosesində hər iki dövlətin daxili siyasi iradəsi radikal imkanlar sərhəddini aşa bilmədi. Hər iki tərəfdə qeyd edilən "Azərbaycan amili" Türkiyənin xarici siyasətində sadəcə emosional bir qardaşlıq prioriteti deyil, bölgədə ədalətli sülhün bərqərar olması üçün strateji zərurət idi. Nəticə etibarilə, Ermənistanın həm işğalçılıq siyasətini davam etdirmək,

həm də Türkiyə ilə sərhədləri açmaq istəyi geosiyasi cəhətdən absurd yanaşma tərzi idi və məhz bu destruktiv təzad Sürix protokollarını real nəticəsi olmayan ölü bir diplomatik təşəbbüsə çevirdi.

II Qarabağ müharibəsi və müharibədən sonrakı dövrdəki münasibətlər altmərhələsi. Yeni geosiyasi reallıqlar yaratmış və münasibətlərin dönüş nöqtəsi hesab edilən bu mərhələ haqqında sonrakı yarımbaşlıqda məlumat veriləcəkdir. Burada isə, yeri gəlmişkən II Qarabağ müharibəsi, və ya başqa adı ilə Azərbaycanın Vətən müharibəsi haqqında bir neçə məqamı bir daha xüsusi olaraq diqqətə çatdırmaqla kifayətlənmək istərdik: 1). II Qarabağ müharibəsi mahiyyəti etibarı ilə Azərbaycan tərəfdən ədalətli müharibə idi; 2). Azərbaycan həm müharibədən əvvəl, həm də müharibə dövründə beynəlxalq hüquq prinsiplərinə uygun davranmışdır; 3). Müharibənin ilk günlərdən Azərbaycanın ortaya qoyduğu şərtlərə uyğun olaraq Ermənistanın işgal altında qalan torpaqları boşaldacağına dair öhdəlik götürməsindən dərhal sonra hərbi əməliyyatlar dayandırıldı. Başqa sözlə, Azərbaycan növbəti dəfə verdiyi sözə əməl etdi; 4). Müharibədən sonrakı dövrdə Azərbaycan Ermənistanın və bölgədə maraqlı digər dövlətlərin qeyri-konstruktiv mövqelərinə baxmayaraq işğalın və müharibənin nəticələrini aradan qaldırmaqla məşğuldur [4, s.19].

Bütün yuxarıda deyilənləri ümumiləşdirərsək, ümumilikdə Türkiyə-Ermənistan münasibətlərini mahiyyəti baxımından aşağıdakı kimi xarakterizə etmək mümkündür: Osmanlı dövründə "təbəə-dövlət" xarakterli münasibətlər; Cümhuriyyət dövründə isə dövlətlərarası və beynəlxalq hüquq müstəvisində olan münasibətlər mövcud olmuşdur. Araşdırmaçıların böyük əksəriyyəti Cümhuriyyət dövründəki bir çox siyasi problemlərin kökünün Osmanlı mərhələsindəki, xüsusilə də XIX əsrin sonları - XX əsrin əvvəllərindəki münasibətlərdən qaynaqlandığı qənaətindədirlər. Ermənistanın 1915-ci il "soyqırım" iddiası və bu məsələnin Ermənistanın xarici siyasətində prioritet təşkil etməsi, XX əsrin 80-ci illərinin sonu - 90-cı illərindən isə iki dövlət arasındakı münasibətlərdə bir də Azərbaycan amilinin mühüm təsir vasitəsi kimi ortaya çıxması, II Qarabağ müharibəsindən sonrakı dövrdə Zəngəzur dəhlizi məsələsi və s. münasibətlərin normallaşması prosesinə maneə yaradan, həmçinin iki ölkə arasındakı etimadsızlığın əsasını təşkil edən ən böyük əngəllər olaraq hesab edilməkdədir [1, s.421; 5; 21]. Tərəfimizdən bir daha vurğulamağı lazım bilirik ki, münasibətlərdəki "problemlərin" səbəbini daha dərinlərdə axtarmaq hadisələri daha düzgün dərk etmək baxımından doğru olacaqdır.

II Qarabağ müharibəsindən sonra Türkiyə - Ermənistan münasibətlərinə baxış və ya "idarə olunan xaos" strategiyası. Qeyd etdiyimiz kimi, Türkiyə - Ermənistan münasibətləri həmçinin dünya siyasətində böyük güclərin regiondakı maraqlarının kəsişdiyi nöqtədir. 44 günlük müharibə ərəfəsində, dövründə və sonrasında Ermənistanın Qərblə yaxınlaşma cəhdləri, həmçinin Türkiyənin NATO üzvü olması bu münasibətləri qlobal güc balansının bir parçasına çevirir. Böyük güclərin maraqlarının heç də hər zaman üst-üstə düşməməsini nəzərə alarsaq, onların heç də Türkiyə-Ermənistan münasibətlərində vəziyyətin ədalətli həllinə nail olmaq niyyətində olmadıqlarını, mövcud vəziyyətin "idarə olunan xaos" səviyyəsində saxlanmaqdan uzağa getməyəcəyini deməyimiz üçün kifayət qədər əsasımızın olduğunu düşünürük. Belə ki, bu güclər üçün Türkiyə-Ermənistan münasibətlərinin tam həll olunması (sərhədlərin tam açılması, tam diplomatik münasibətlərin qurulması vs.) onların bölgədəki "vasitəçi" rolunu, "xilaskar" imicini heçə endirə bilər; Türkiyənin regiondakı gücü maksimuma çatar, Ermənistanın isə Qərbdən asılılığı azala bilər. Münasibətlər gərgin qaldıqca isə, həm Türkiyə, həm də (və xüsusilə) Ermənistan daim kənar dəstək axtarışında olacaq ki, bu da böyük güclərə "regionun qapısını hər zaman açıq saxlamaq" imkanı vermiş olacaq. Bütün deyilənləri ümumiləşdirsək, böyük güclər görə "problem" həll edilmək üçün deyil, idarə etmək və siyasi dividend qazanmaq üçün mövcud olmalıdır. Bu mənada, Türkiyə-Ermənistan münasibətləri özündə həm tarixi yaddaş, həm sərhəd məsələsi, həm də üçüncü tərəflərin maraqlarını cəmləməsi baxımından ideal bir "problem"dir.

II Qarabağ müharibəsindən sonra Türkiyə - Ermənistan münasibətlərində baş vermiş dəyişikliklər. Postmüharibə dövründə yaranmış yeni regional şərait mühitində Türkiyə və Ermənistan arasında dialoq prosesi başladıldı. Bu altmərhələ post-status-kvo və nəqliyyat diplomatiyası dövrü də adlandırılır. Belə ki, hədəf olaraq Zəngəzur dəhlizinin, digər regional kommunikasiyaların açılması, "3+3" formatında əməkdaşlıq və s. məsələlər əsas prioritetlər hesab olunurlar [1, s.421]. Postmüharibə dövründə iki dövlət arasında cərəyan edən hadisələri xronoloji ardıcıllıqla nəzərdən keçirsək aşağıdakı mənzərə yaranır:

2021-ci il - Türkiyədən xüsusi və səlahiyyətli səfir Serdar Kılıç, Ermənistandan Milli Məclisinin vitse-spikeri Ruben Rubinyandan ibarət Türkiyə-Ermənistan münasibətlərinin normallaşma üzrə xüsusi nümayəndələri müəyyənləşdirildilər.

2022-ci ilin əvvəllərində ilk toplantısı keçirilən bu görüşlərdə ilk olaraq diqqət qarşılıqlı etimadın yaradılmasına və texniki məsələlərin həllinə yönəlsə də, sonrakı müzakirələrdə sərhəd keçidləri, nəqliyyat marşrutları və iqtisadi əməkdaşlıq kimi konkret addımlar ön plana çıxarıldı. 2022-ci ilin fevral ayında FlyOne Armenia aviaşirkəti və Türk Hava Yolları tərəfindən Yerevan-İstanbul birbaşa uçuşlarının keçirilməsinə başlandı. Razılaşmalar nəticəsində həmçinin, 1 yanvar 2023-cü ildən hava yolu ilə birbaşa karqo daşımaları bərpa edildi və sərhədin üçüncü ölkə vətəndaşları və diplomatik pasport sahibləri üçün açılması qərara alındı. Ermənistanda türk istifadəçilərinin hökumət saytları istisna olmaqla digər resurslara giriş məhdudiyyəti aradan qaldırıldı [16; 19].

2023-cü ilin fevral ayında Qəhrəmanmaraşda baş verən zəlzələdən sonra quru sərhəd qapıları humanitar yardım daşınması məqsədilə müvəqqəti açıldı. Burada qeyd edək ki, bu sərhəd qapısı bir də 21-23 mart 2025-ci il tarixlərində Ermənistandan Suriyaya göndərilən humanitar yardımların çatdırılması məqsədilə Türkiyənin icazəsi ilə 10 günlük müddət üçün açılmışdı [16].

2024-cü il sentyabr ayının 24-də Nyu-Yorkda Ermənistanın Baş naziri N.Paşinyan və Türkiyə Prezidenti R.T.Ərdoğan heç bir şərt qoymadan normallaşmanı davam etdirməyə hazır olduqlarını təsdiqlədilər [11].

2025-ci il sentyabr ayının 12-də İrəvanda keçirilən görüşdə xüsusi nümayəndələr sərhəd keçidləri ilə bağlı barışıq prosesini sürətləndirmək barədə, həmçinin texniki əməkdaşlıq çərçivəsində Qars-Gümri dəmir yolu xəttinin və elektrik birləşdiricisinin bərpası ilə bağlı lazımi işləri görməklə bağlı qərara gəldilər; Ani körpüsünün bərpası və akademik mübadilə kimi məsələləri də müzakirə etdilər; normallaşma prosesini qeyd-şərtsiz davam etdirmək öhdəliklərini bir daha təkrarladılar və s. Bunlardan əlavə, 2026-cı ilin yayından etibarən müxtəlif istiqamətlərə uçuşlara başlanmasına imkan yaratmaq, iki ölkə arasında hava yollarının və uçuşların sayını artırmaq üçün lazımi işlərin görülməsi ilə bağlı razılıq əldə edilib; və nəhayət, bu prosesi qeyd-şərtsiz davam etdirmək öhdəliklərini bir daha təsdiq ediblər [8; 19]. Türkiyə ilə Ermənistan Xarici işlər nazirlikləri öz tərəflərindən 29 dekabr 2025-ci ildə ortaq bəyanatla 1 yanvar 2026-cı ildən etibarən hər iki ölkənin diplomatik, xidməti və xüsusi pasport sahiblərinin pulsuz elektron viza əldə edə biləcəyini bildiriblər. Bu addım diplomatik münasibətlərin normallaşdırılması səylərinin real nəticəsi olaraq dəyərləndirilir [18].

2026-cı il aprel ayının 28-də Qarsda Gümrü-Qars dəmir yolu xəttinin bərpası və istifadəyə verilməsi üzrə iki ölkənin birgə işçi qrupunun iclası keçirilib. May ayının 4-də N.Paşinyan tarixi Ani körpüsünün birgə yenidən qurulması ilə bağlı Ermənistan-Türkiyə protokolunun imzalandığını elan edib. May ayının 13-də Türkiyə və Ermənistan arasında birbaşa ticarət əlaqələrinin bərpası prosesinin başa çatdırıldığı elan edilib. Bundan sonra Türkiyə və Ermənistan ixrac etdiyi məhsullarla bağlı sənədlərdə bir-birlərini son təyinat ölkəsi kimi göstərəcəkləri ilə bağlı qərar qəbul ediblər [12]. May ayının 21-də öncə iki dövlətin sərhəd xəttində, daha sonra İrəvan Su komitəsində Arpaçay və Araz çaylarının birgə istifadəsi üzrə Ermənistan-Türkiyə komissiyasının ilk birgə iclası keçirilib [9].

Ümumilikdə, postmüharibə dövründə Türkiyə-Ermənistan münasibətlərinin normallaşdırılması istiqamətində atılan addımlar Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin imzalanmasından birbaşa asılıdır, Türkiyə bu məsələdə Azərbaycanın maraqlarını özünün "qırmızı xətti" hesab edir.

Xüsusi nümayəndələr arasındakı görüşlərlə bağlı fikrimizcə diqqətəlayiq məqamlardan biri də odur ki, 2022-ci ildə keçirilən ilk dörd görüş Moskvada (14 yanvar) və Vyanada (24 fevral, 3 may, 1 iyul) gerçəkləşdirilmişdi. Lakin sonra Türkiyə və Azərbaycan Ermənistanla danışıqlar prosesini sürətləndirmək, üçüncü dövlətlərin geostrateji maraqlarının təsirini azaltmaq və qarşılıqlı etimad mühiti yaratmaq məqsədilə görüşlərin tərəflər arasında birbaşa dialoqla, vasitəçilər olmadan aparılmasını qərara aldılar. Nəticədə, Türkiyə ilə Ermənistan arasındakı sonrakı görüşlər 30 iyul 2024-cü ildə Əlican (Türkiyə) – Marqara (Ermənistan) sərhəd qapısında, 12 sentyabr 2025-ci ildə Yerevanda və s. keçirilmişdir. Bu keçid, sadəcə texniki bir məkan dəyişikliyi deyil, regional diplomatiyada fundamental bir

paradiqma qırılması idi[*]. Başqa sözlə, görüşlərin paytaxtlara daşınması Türkiyə və Azərbaycanın bölgədə kənar aktorların "vasitəçilik inhisarını" qırmaq iradəsinin rəsmi təzahürüdür.

II Qarabağ müharibəsindən sonra baş vermiş dəyişikliklərdən danışarkən, hər iki dövlətin müharibəyə qədərki və sonrakı dövr xarici siyasətində özünü göstərən fərqlərdən də bəhs edilməsinin doğru olacağını düşünürük. 2020-ci il müharibəsində ağır məğlubiyyətdən sonra Ermənistanın rəsmi dairələrinin xarici siyasət kursunda daha praqmatik yanaşmalar özünü göstərməyə başlamışdır. Məsələn, 2022-ci ildə Ermənistanın rəsmi nümayəndələri Türkiyə ilə münasibətlərin tənzimlənməsində onilliklər boyu irəli sürülən qondarma "soyqırım"ın tanınması iddialarını ilkin şərt kimi irəli sürməkdən geri çəkildilər, prosesin sərhədlərin açılması, sərədyanı ticarət kimi praktik maraqlara yönəldiyini təsdiqlədilər. Bu addım rəsmi Ermənistanın xarici siyasətdə qarşıdurma siyasətindən strateji güzəştə və realizmə doğru keçidinin göstəricisidir. Erməni diasporunun radikal etirazlarına və daxili müxalifətin bu normallaşma prosesindən hökumətin legitimliyini zəiflətmək məqsədilə istifadə cəhdlərinə rəğmən N.Paşinyan hökuməti dövlətin varlığının qorunub saxlanması baxımından bu siyasəti davam etdirmək iradəsini nümayiş etdirir [24, s.6-7].

Türkiyənin Ermənistan siyasətində II Qarabağ müharibəsindən əvvəl və sonra müşahidə olunan əsas dəyişikliyin fundamental hədəflərin dəyişməsi deyil, regional status-kvonun transformasiyası nəticəsində Ankaranın diplomatik təsirinin güclənməsi olduğu görünür. Müharibədən əvvəl Türkiyə rəsmi İrəvan qarşısında Azərbaycan torpaqlarının işğaldan azad edilməsini əsas ilkin şərt kimi irəli sürərək blokada siyasəti yürüdürdüsə, postmünaqişə dövründə bu şərt təbii olaraq ortadan qalxmış oldu. Yeni reallıqlar şəraitində Türkiyə prosesin "passiv" şərt qoyan tərəfindən regionun strateji arxitekturasını diktə edən aktiv aktora çevrilmişdir. Türkiyənin hazırki normallaşma strategiyası, artıq qeyd etdiyimiz kimi, Azərbaycanla tam sinxronlaşdırılmış şəkildə həyata keçirilir, Ermənistanın qarşısında Azərbaycanla sülh müqaviləsinin imzalanması, həmçinin regional kommunikasiyaların açılması kimi praqmatik öhdəliklər qoyulur. Bu isə Türkiyənin xarici siyasətində "müdafiə xarakterli sərtləşmə" modelindən "regional inteqrasiyaya yönəlmiş strateji rəhbərlik" modelinə keçidi nümayiş etdirir.

Nəticə. Türkiyə-Ermənistan münasibətlərinin tarixi təkamülünün araşdırılmasına həsr edilmiş mövcud ədəbiyyatın böyük bir qismində tarixi miras və kollektiv yaddaş normallaşma prosesində əsas maneə kimi qeyd edilir. Lakin tərəfimizdən aparılan analitik təhlil göstərir ki, gərginliyin səbəbi heç də erməni cəmiyyətinə məqsədli şəkildə aşılanmış qondarma "tarixi travma" amili ilə deyil, daha geniş bir amillə -regional və qlobal güclərin Cənubi Qafqazdakı maraqlarının toqquşması ilə- birbaşa bağlıdır [16]. Ermənistanın uzun illər ərzində xarici aktorların bölgədəki maraqlarını təmin edən bir forpost və ya plasdarm rolunda çıxış etməsi problemin geosiyasi mahiyyətini şərtləndirən fundamental amil olmuşdur. Bununla belə, araşdırmalar bir faktı da aydın şəkildə göstərir ki, münasibətlərdəki problemlərə rəğmən, tərəflər arasında əməli nəticə əldə edilməsi üçün də kifayət qədər güclü və müsbət tarixi yaddaş zəmini mövcuddur. II Qarabağ müharibəsindən sonra regionda yaranmış yeni reallıqlar, burada kənar qüvvələrin təsir imkanlarını zəiflədərək birbaşa regional aktorların iradəsinə əsaslanan yeni təhlükəsizlik arxitekturasını formalaşdırmışdır. Bu kontekstdə Türkiyə ilə münasibətlərin normallaşdırılması artıq Ermənistan üçün emosional iddialardan imtina edərək rasional dövlət maraqlarına qayıtmaq zərurətini yaratmışdır. Günümüzün reallıqları Ermənistanın illərdir davam edən iqtisadi təcriddən və kommunikasiya blokadasından xilas olmaq, həmçinin ola biləcək daha böyük itkilərin qarşısını almaq üçün yeni xarici siyasət strategiyası yürütməsini diktə edir. Məhz bu praqmatik ehtiyaclar və postmünaqişə dövrünün yaratdığı regional konyunktura iki dövlət arasındakı normallaşma prosesi üçün real

[*] *Burada diqqətə çatdırmaq istərdik ki, əslində, beynəlxalq aktorların (xüsusilə ABŞ və Rusiyanın) Cənubi Qafqazda sülh əldə olunmasında deyil, "uzun sürən münaqişələr" yaratmaqla burada öz iştiraklarını qanuniləşdirmək marağında olduqları elmi mühitdə əvvəlki dövrlərdə də proqnozlaşdırılırdı. Bu yanaşmanı hələ 2020-ci ilin iyul ayında Türkiyədə elmi araşdırma məqsədilə keçirilən bir sorğuya verilən cavabdan da görmək mümkündür: "...vasitəçilik edən böyük güclər regional reallıqları nəzərə almır və münaqişələrin uzanmasında maraqlıdırlar. Problem yalnız Azərbaycan və Ermənistan (eyni zamanda Türkiyə və Ermənistan) arasında, kənar müdaxilə olmadan, birbaşa iki tərəfin masa arxasına əyləşməsi ilə həll edilməlidir. Əgər bir vasitəçi olacaqsa, onun missiyası tərəfləri sadəcə bir araya gətirməkdən ibarət olmalı, müzakirələrə müdaxilə edilməməlidir" [10, s.178]. Bu gün regional nizamın gəldiyi nəticə - xüsusi nümayəndələrin rəsmi görüşlərinin üçüncü dövlətlərin ərazisində keçirilməməsi, həmçinin Azərbaycan-Ermənistan delimitasiya komissiyalarının birbaşa şərti sərhəddə, heç bir kənar vasitəçi olmadan görüşməsi - bu elmi tezislərin regional diplomatiyanın əsas doktrinasına çevrildiyini sübut edir.*

perspektivlər yaratmaqla bərabər, bütövlükdə Cənubi Qafqazın dayanıqlı sabitliyi və gələcək inteqrasiyası üçün də fundamental zəmin vəd edir.

ƏDƏBİYYAT

1. Məmmədli Ə. Azərbaycanın II Qarabağ müharibəsində qələbəsindən sonra Türkiyə-Ermənistan münasibətlərinə baxış // 6. International Congress on Khazar Scientific Rsearch And Innovation, February 1-3, 2026. Turkestan, Kazakhstan. Proceeding Book. ISBN: 979-8-89695-343-2. By Liberty Academic Publishers, New York, USA, s.421.
2. Mustafa Nazim, Qurbanov Araz, Əlili Elşad. Erməni saxtakarlığı. Yalan üzərində qurulan tarix. Bakı, SAM, 2018, 269 s.
3. Ruintən S.F. Azərbaycan türk dövlətləri ilə siyasi əlaqələr sistemində (XX əsrin 90-cı illəri). Bakı, Adiloğlu, 2005, 236 s.
4. Sevinc Ruintən. Azərbaycanın dünya əhəmiyyətli müharibəsi: II Qarabağ savaşı (27 sentyabr – 10 noyabr 2020) // International Scientific Journal "Global Science and İnnovations 2022: Central Asia". Astana, Kazakhstan, №4(18), December 2022, s.17-20.
5. Sevinc Ruintən. Ermənistanın Milli təhlükəsizlik strategiyası sənədində Azərbaycana və Türkiyəyə münasibəti haqqında // Tarix və onun problemləri, 2018, №4, s.95-103.
6. Sevinc Ruintən. Yeni dünya düzəni şəraitində Türkiyə Cümhuriyyəti – Ermənistan münasibətlərinə baxış // Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası, 2015, №3, s.37-43.
7. Sevinc Ruintən, Cavid Əlisgəndərli. Ermənistan ictimaiyyəti Türkiyə - Ermənistan münasibətlərinin normallaşması haqqında (sosial sorğu nəticələrinə əsasən) // Tarix və onun problemləri, 2013, №1, s.122-132.
8. No: 186, 12 Eylül 2025, Türkiye – Ermenistan Normallaşme Süreci Özel Temsilcilerinin Altıncı Toplantısı Hk. / Türkiye Cümhuriyeti Dışişleri Bakanlığı. - https://www.mfa.gov.tr/no_-186_-turkiye-ermenistan-normallesme-sureci-ozel-temsilcilerinin-altinci-toplantisi-hk.tr.mfa [21.05.2026].
9. Aras Nehri ile İlgili Ermenistan-Türkiye görüşmesi yapıldı // Modern.az, 21 Mayıs 2026. - https://modern.az/tr/qerbi-azerbaycan/604980/aras-nehri-ile-ilgili-ermenistan-turkiye-gorusmesi-yapildi/ [21.05.2026].
10. Büşra Öğütçü, Muzaffer Ercan Yılmaz. Dağlık Karabağ Sorununda Uluslararası Arabuluculuk // Giresun Üniversitesi İİBF Dergisi, 2021, 7(1), s.162-191.
11. Cumhurbaşkanı Erdoğan, Ermenistan Başbakanı Paşinyan'ı kabul etdi / Anadolu Ajansı, 24 Eylül 2024. - https://www.aa.com.tr/tr/politika/cumhurbaskani-erdogan-ermenistan-basbakani-pasinyani-kabul-etti/3340425 [21.05.2026].
12. Ermenistan, Türkiye ile doğrudan ticaretin başlatılmasına dair bürokratik hazırlıkların tamamlanmasından memnun / Anadolu Ayansı, 13 Mayıs 2026. - https://www.aa.com.tr/tr/gundem/ermenistan-turkiye-ile-dogrudan-ticaretin-baslatilmasina-dair-burokratik-hazirliklarin-tamamlanmasindan-memnun/3936032 [21.05.2026].
13. Hayrettin Şahin. Osmanlı İmparatorluğunda Ermenilere Verilen Hak ve İmtiyazlar // ERUİFD, 2014/2, Sayı: 19, s.81-99
14. Kamer Kasım. Türkiye-Ermenistan İlişkileri: Protokollere Giden Sürec ve Sonrası // Ermeni Araştırmaları Dergisi, Yıl: 2011, Cilt: Sayı: 37-38, s.83-99.- https://search.trdizin.gov.tr/tr/yayin/detay/124453/turkiye-ermenistan-iliskileri-protokollere-giden-surec-ve-sonrasi [21.05.2026].
15. Kemale Ruintan. Türkiye-Ermenistan ilişkilerinin normalleşmesi. İran bu konuda ne düşünüyor / 1. Uluslararası Türk-Ermeni İlişkileri ve Büyük Güçler Sempozyumu. 2-4 Mayıs 2012. Erzurum/Türkiye. Atatürk Üniversitesi, 2014, s.905-916
16. N.Murat Ersavcı. Türkiye-Ermenistan Normalleşme Süreci: Fırsatlar, Engeller ve Yol Haritası // Türkiye Ekonomi Politikaları Araştırma Vakfı (TEPAV), 29.05.2025. - https://tepav.org.tr/tr/blog/s/7594 [21.05.2026].
17. Ömer Engin Lütem. Türkiye-Ermenistan İlişkilerinin Güncel Durumu // Ermeni Araştırmaları, 2015, Sayı: 50, s.231-373. - https://dergipark.org.tr/tr/download/article-file/639201 [21.05.2026].

18. Türkiye ile Ermenistan Arasında Karşılıklı Vize Kolaylığı Sağlandı / Stratejik Düşünce Enstitüsü, 30 Aralık 2025. - https://www.sde.org.tr/haber/turkiye-ile-ermenistan-arasinda-karsilikli-vize-kolayligi-saglandi-haberi-62243 [21.05.2026].
19. Türkiye-Ermenistan Siyasi İlişkileri - https://www.mfa.gov.tr/turkiye-ermenistan-siyasi-iliskileri.tr.mfa [21.05.2026].
20. Özcan Mert. Osmanlı Türkleri İdaresinde Ermeniler // Yakın Dönem Türkiye Araştırmaları, Yıl: 2023, Sayı: 3, s.143-173. - https://dergipark.org.tr/tr/download/article-file/9935 [21.05.2026].
21. Гусейнова А. Международная реакция на победоносную Карабахскую войну // Tarix və onun problemləri, 2021 №3(94), c.99-107.
22. Осипян Б.А. Национальная Конституция армян Османской империи от 17 марта 1863 года как попытка восстановления армянской государственности // Лоббирование в законодательстве, 2024, Т.3, №1, с.22-30. - https://cyberleninka.ru/article/n/natsionalnaya-konstitutsiya-armyan-osmanskoy-imperii-ot-17-marta-1863-goda-kak-popytka-vosstanovleniya-armyanskoy-gosudarstvennosti [21.05.2026].
23. Fiona Hill, Kemal Kirişci, and Andrew Moffatt. Armenia and Turkey: From normalization to reconciliation // Turkish Policy Quarterly, February 24, 2015, T.13. N4. P.127-138. - https://www.brookings.edu/articles/armenia-and-turkey-from-normalization-to-reconciliation/ [21.05.2026].
24. Hendri Marwan, Anggun Dwi Panorama, Nala Nourma Nastiti. The Reasons Behind Armenia's Normalization of Diplomatic Relations with Turkey (2020–2024) / Proceeding İnternational Conference On Sustainable Environment And İnnovation (ICOSEI), Vol. 1, №1, 2025. https://doi.org/10.53675/icosei.v1i1.1522
25. Richard Giragosian. Turkish-Armenian Normalization and “Great Power Politics”, 4 p.- https://ge.boell.org/sites/default/files/2019-11/Great_Power_Politics-Giragosian.pdf [21.05.2026].

СЕВИНДЖ РУИНТАН
Доцент Бакинского государственного университета

АСКЕР МАММАДЛИ
магистрант Бакинского государственного университета

ИСТОРИЧЕСКАЯ ЭВОЛЮЦИЯ ТУРЕЦКО-АРМЯНСКИХ ОТНОШЕНИЙ В КОНТЕКСТЕ ВТОРОЙ КАРАБАХСКОЙ ВОЙНЫ: АНАЛИТИЧЕСКИЙ ВЗГЛЯД

Победа Азербайджана во Второй Карабахской войне в буквальном смысле стала одним из беспрецедентных событий в современной системе международных отношений. Суть данного вопроса не должна ограничиваться лишь возвращением утраченных земель. Этой победой Азербайджан, вопреки всем трудностям затяжного геополитического конфликта, сумел обеспечить свои национальные интересы в регионе, где сталкиваются интересы определяющих мировую политику крупных держав, вписав собственную летопись победы в сегодняшние страницы мировой истории. Данное событие повлекло за собой новые реалии, способные существенно повлиять на баланс сил не только в региональном, но и в глобальном масштабе. В научных исследованиях предпринимаются попытки осветить эти вопросы, их первопричины и новые геополитические реалии в регионе с различных ракурсов. Настоящая статья, не являющаяся исключением в данном контексте, анализирует динамику развития и будущие перспективы турецко-армянских отношений на фоне этих новых геополитических реалий.

На основе сравнительного анализа научной политической литературы и официальных документов в статье исследуется историческая эволюция и динамика развития отношений между сторонами, начиная с их первых исторических контактов в XI веке и вплоть до современности. В результате исследования сделан вывод о том, что позиция Турции в отношении агрессии Армении против Азербайджана и оккупации его земель с конца 1980-х годов была «всего лишь одним» из проявлений напряженности, существующей в двусторонних отношениях. Причины,

препятствующие устранению или, по крайней мере, снижению этой напряженности, на самом деле не связаны исключительно с надуманной «исторической травмой», целенаправленно внедренной в армянскую коллективную память. Для глубокого понимания сути проблемы к ней необходимо подходить с более широкого ракурса. При таком подходе становится очевидным, что характер этих отношений можно оценить более объективно только в контексте столкновения региональных и глобальных интересов. Исследования показывают, что, несмотря на существующие проблемы, между сторонами имеется достаточно прочный и позитивный фундамент исторической памяти для достижения практических результатов. И именно этот фундамент сулит реальные перспективы для процесса нормализации в новых условиях, сложившихся после Второй Карабахской войны.

Ключевые слова: турецко-армянские отношения, верноподданные ("tebaa-i sadıka"), события 1915 года, Вторая Карабахская война, нормализация через специальных представителей.

SEVINJ RUINTAN
Associate professor of Baku State University

ASGAR MAMMADLI
graduate student of Baku State University

THE HISTORICAL EVOLUTION OF TÜRKIYE-ARMENIAN RELATIONS IN THE CONTEXT OF THE SECOND KARABAKH WAR: AN ANALYTICAL PERSPECTIVE

The victory of Azerbaijan in the Second Karabakh War has, in the true sense of the word, been one of the most significant events in the modern system of international relations. Thus, the essence of the issue should not be limited solely to the return of the occupied territories. This victory has also brought about realities that may significantly affect the balance of power not only in one region but also on a global scale. In academic research, attempts are being made to shed light on these issues from different perspectives. In this regard, the present article analyzes the development dynamics and future prospects of Türkiye–Armenia relations in the context of these new geopolitical realities. Based on scholarly literature and official documents, the article comparatively examines the historical evolution of relations between the two states, from their earliest contacts dating back to the 11th century to the present day. The article also analyzes, based on scholarly-political literature and official documents, the historical evolution of relations between the two sides from their earliest contacts beginning in the 11th century to the present day in a comparative manner. In conclusion, it is argued that since the late 1980s, Armenia's aggression against Azerbaijan and its occupation of Azerbaijani territories has been only one of the factors of tension in Türkiye–Armenia relations. The reasons hindering the resolution, or at least the reduction, of this tension are not in fact solely related to the so-called fabricated "historical trauma" deliberately implanted in Armenian collective memory. To properly understand the essence of the problem, it should be approached from a broader perspective. From this perspective, it becomes clear that relations between the two states can be more accurately assessed in the context of the clash of regional and global interests. Research also shows that despite existing problems in relations, there is also a sufficiently strong and positive historical foundation for achieving practical results between the parties. It is precisely this foundation that offers real prospects for normalization in the new conditions that emerged after the Second Karabakh War.

Keywords: Türkiye-Armenian relations, "tebaa-i sadıka" (loyal subjects), Events of 1915, Second Karabakh War, normalization process through special representatives.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 21 may 2026-cı il.
Məqalənin çapa qəbul olunma tarixi: 21 may 2026-cı il.
Rəyçilər: t.ü.f.d. Fəridə Allahverdiyeva, t.e.d. Qabil Əliyev.

UOT 327

KƏMALƏ RUİNTƏN
Siyasi elmlər üzrə fəlsəfə doktoru,
Bakı Slavyan Universitetinin dosenti
https://orcid.org/0009-0006-1888-5240
k.ruintan@rambler.ru

ABŞ-nin YAXIN ŞƏRQ SİYASƏTİNƏ İSRAİL LOBBİSİNİN TƏSİR MEXANİZMLƏRİ VƏ MANEVR İMKANLARI (“Mavi Mərmərə” və “Qüds” qərarları nümunəsində)

DOI: https://doi.org/10.36719/2708-065X/113/101-113

ABŞ-nin xarici siyasəti ölkə Konstitusiyanın müəyyən etdiyi mürəkkəb institusional mexanizm çərçivəsində formalaşır. Bu prosesdə səlahiyyətlər əsasən Prezident, Milli Təhlükəsizlik Şurası, Dövlət Departamenti və Konqres arasında bölüşdürülür. Lakin ABŞ-nin xarici siyasət (o cümlədən Yaxın Şərq) strategiyası yalnız bu rəsmi qurumlarda deyil, həm də müxtəlif maraq qruplarının fəal şəkildə nüfuz etdiyi geniş siyasi ekosistemdə müəyyənləşir. Bu maraq qrupları arasında İsrail lobbisi öz maliyyə resursları, qanunverici orqana təsir imkanları və mütəşəkkilliyi ilə digərlərindən seçilir. “Mavi Mərmərə” və “Qüds qərarları” nümunəsində İsrail lobbisinin ABŞ-nin rəsmi dövlət strukturlarına təsir mexanizmlərini və onlar arasında manevr imkanlarını təhlil edərək belə qənaətə gəlirik ki, İsrail lobbisi ABŞ-nin Yaxın Şərq regiondakı prioritetlərinin formalaşmasında həlledici aktorlardan biri kimi çıxış edir.

Göstərilən hadisələrlə bağlı proseslər hər iki lider partiyanın hakimiyyəti dövrünə təsadüf etdiyi üçün İsrail lobbisinin təsir dinamikasının hakimiyyətdə olan partiyadan asılı olaraq dəyişdiyini müşahidə edirik. Bu, müşahidə israilyönlü lobbiçilərin “respublikaçıların ənənəvi olaraq İsrailə münasibətdə demokratlardan daha yaxşı mövqe tutur” tezisini, demək olar ki, təsdiq edir.

Açar sözlər: İsrail lobbisi; Amerika-İsrail İctimai Əlaqələr Komitəsi; Mavi Mərmərə; Qüds qərarları.

Giriş. Müasir beynəlxalq münasibətlər sistemində dövlətlərin xarici siyasət istiqamətləri yalnız rəsmi dövlət qurumlarında deyil, həm də müxtəlif maraq qruplarının fəaliyyəti ilə formalaşır. ABŞ-də lobbizm bu prosesdə dövlətin qərar qəbuletmə mexanizmlərinə təsir göstərən ən güclü qeyri-rəsmi vasitələrdən biri olaraq çıxış edir. Lobbizm fəaliyyəti milli maraqların beynəlxalq müstəvidə təşviqindən tutmuş, iqtisadi və siyasi üstünlüklərin əldə edilməsinə qədər geniş sahələri əhatə etməklə dövlətlərin xarici siyasət prioritetlərinin müəyyənləşməsində, onların dövlətlərlə münasibətlərində həlledici rol oynayır. Bu baxımdan, lobbizmin müasir xarici siyasətin ayrılmaz hissəsinə çevrildiyini görürük. Lobbizmin xarici siyasətə təsir mexanizmlərinin və dövlət qurumları arasında manevr imkanlarının araşdırılması ABŞ-nin xarici siyasət qərarlarının arxasında hansı güclərin durduğunu və bu təsirin Yaxın Şərq regionunda güclər balansını necə dəyişdiyini müəyyənləşdirməyə kömək edir. Qeyd edilənlərə uyğun olaraq, məqalənin məqsədi araşdırma, təhlil, müqayişə və s. metodlara əsaslanaraq, ABŞ-nin rəsmi dövlət strukturları ilə İsrail lobbisi arasındakı qarşılıqlı əlaqələri “Mavi Mərmərə” və “Qüds” qərarları kontekstində təhlil edərək, onun ABŞ-nin Yaxın Şərq siyasətinə təsir imkanlarını müəyyənləşdirməkdir.

ABŞ-nin xarici siyasət qərarlarının qəbul edilməsinin rəsmi mexanizmləri. ABŞ Konstitusiyasına əsasən xarici siyasət səlahiyyətləri Prezident və Konqres arasında bölünür. Bu, hakimiyyətin həm icraedici, həm də qanunverici qolunun xarici siyasətin formalaşmasında iştirak etməsinə imkan verir. Bu qollar bir-biri ilə qarşılıqlı əlaqədədir və hər biri xarici siyasətdə fərqli, lakin mühüm rol oynayır. Xarici siyasətin formalaşdırılmasında hər iki qolun rolu və təsiri Prezidentin və Konqres üzvlərinin şəxsiyyəti, həmçinin siyasət üzrə konsensusun dərəcəsi kimi amillərdən asılı olaraq dəyişir. Amerika tarixi boyu xarici siyasətin formalaşdırılmasında Prezidentin və Konqresin dominantlığı müxtəlif alim-

lər tərəfindən fərqli şəkildə müəyyən edilən "qabarma və çəkilmələr" (yəni, gah birinin, gah digərinin üstünlüyü) ilə müşayiət olunur [18].

Konqres Tədqiqat Xidmətinin (*ing. CRS*[1]) hesabatında (1999) ABŞ Prezidentinin və Konqresin dövlətin xarici siyasətinin formalaşdırmasının 12 əsas mexanizmi göstərilir.

Prezidentin (və ya icraedici hakimiyyətin) xarici siyasəti həyatakeçirmə mexanizmlərinə aiddir: 1 - Xarici hadisələrə cavab vermək; 2 - Qanunvericilik təklifləri (qanun layihələrinin irəli sürülməsi); 3 - Beynəlxalq müqavilələr üzrə danışıqlar aparmaq və bağlamaq; 4 - Siyasi bəyanatlar vermək; 5 – Siyasətin həyata keçirilməsi; 6 - Müstəqil fəaliyyət (Prezidentin birbaşa səlahiyyətləri çərçivəsində fəaliyyəti). Prezident müstəqil hərəkət edərsə siyasətin qısa müddət ərzində formalaşması daha çətin baş verə bilər. Bütün bu hallarda Konqres prezidentin yanaşmasını hm dəstəkləyə, həm də onu dəyişdirməyə cəhd edə bilər. Konqres əksər hallarda prezidenti dəstəkləsə də təşəbbüslərin təsdiqlənməsi prosesində onlara tez-tez əhəmiyyətli dəyişikliklər edir. Bununla belə, icraedici hakimiyyət tərəfindən irəli sürülmüş qanunvericilik təklifləri, yaxud təsdiqlənmək üçün Konqresə təqdim edilmiş beynəlxalq müqavilələr üzrə son söz Konqresə məxsusdur [18].

Konqresin xarici siyasət mexanizmləri: 1 - qətnamələr və siyasi bəyanatlar; 2 - Qanunvericilik direktivləri (icrası məcburi olan hüquqi göstərişlər); 3 - qanunvericilik təzyiqi; 4 - Qanunvericilik məhdudiyyətləri, yaxud maliyyələşdirmədən imtina; 5 - qeyri-rəsmi məsləhətləşmələr (prezident və administrasiya ilə); 6 - parlament nəzarəti (icraedici hakimiyyət üzərində təftiş və monitorinq). Bu hallarda icraedici hakimiyyət qanunvericilik göstərişlərini və məhdudiyyətlərini şərh edib həyata keçirərkən, həmçinin təklif və tövsiyələrin nə vaxt və ya ümumiyyətlə, qəbul edilib-edilməməsinə dair qərar verərkən Konqresin siyasətini dəstəkləyə, yaxud onu dəyişməyə çalışa bilər. Beləliklə, ABŞ-nin xarici siyasətinin formalaşması mürəkkəb prosesdir. Onun güclü və effektli olması üçün həm icraedici, həm də qanunverici qolun dəstəyi zəruridir [18].

Eyni zamanda, amerikalı mütəxəssislər ABŞ-nin xarici siyasətinin formalaşdırılmasında bir çox aktorun iştirak etdiyini və bunun fərqli ölkələrə, regionlara, funksional problemlərə yönəlmiş onlarla fərdi siyasətdən ibarət uzunmüddətli bir proses olduğunu qeyd edirlər. Bu prosesin mürəkkəbliyi hər hansı konkret xarici siyasət kursunun başladılmasının, yaxud dəyişdirilməsinin kimə aid olduğunu deməyi çətinləşdirir [18].

ABŞ-də lobbi qruplarının fəaliyyəti və onların xarici siyasətə təsir imkanları. ABŞ-nin siyasi sisteminin xüsusiyyətləri onun xarici siyasətinin formalaşmasında maraq qruplarının və lobbiçilik fəaliyyətinin fəal iştirakı üçün hüquqi və qanuni zəmin yaradır. ABŞ Konstitusiyasına 1791-ci ildə edilmiş birinci düzəliş vətəndaşların hökumətə petisiya vermək və müraciət etmək hüququnu təmin edir [14; 3, s.50]. Bu hüquqi baza müxtəlif maraq qruplarının, korporasiyaların və xarici ölkə nümayəndələrinin Vaşinqtonda öz maraqlarını təşviq etmələrini leqallaşdırır. Bu səbəbə, ABŞ-nin xarici siyasət strategiyası rəsmi qurumlarda müəyyənləşməklə yanaşı, müxtəlif maraq qruplarının (xarici siyast qərarları da daxil olmaqla) qərar qəbuletmə prosesinə fəal şəkildə müdaxiləsi ilə formalaşır.

Lobbi qrupları ABŞ-nin xarici siyasət qərarlarına əsasən dörd əsas istiqamətdə təsir göstərirlər:

1 - Qanunvericilik prosesinə nüfuz: Lobbi təşkilatları Konqres üzvləri və onların köməkçiləri ilə sıx təmasda olur, onlara xarici yardımlar, sanksiyalar, ticarət sazişləri ilə bağlı qanun layihələrinin mətnlərinə birbaşa düzəlişlər təklif edirlər;

2 - Seçki kampaniyalarının maliyyələşdirilməsi: ABŞ-də seçkilər böyük maliyyə resursları tələb edir və lobbi qrupları özlərinin Siyasi Fəaliyyət Komitələri *(ing. PAC)* vasitəsilə onların mövqeyinə sadiq olan namizədlərin kampaniyalarına milyonlarla dollar ianə edirlər. Bu, gələcək qanunvericilərin həmin lobbilərin maraqlarını müdafiə etməsinə gətirib çıxarır;

3 - "Fırlanan qapı" effekti: Ağ Evdə, Dövlət Departamentində və ya Konqresdə çalışmış bir çox təcrübəli dövlət rəsmisi vəzifədən getdikdən sonra məhz böyük lobbi şirkətlərində işə cəlb edilirlər. Eyni şəkildə, peşəkar lobbiçilər də vaxtaşırı olaraq dövlət aparatında mühüm vəzifələrə gətirilirlər. Bu "kadr mübadiləsi" lobbinin dövlət mexanizminə daxildən təsirini asanlaşdırır [29, s.3731];

4 - İctimai rəyin formalaşdırılması və analitik mərkəzlər: Lobbizm yalnız qapalı qapılar arxasında aparılmır. Maraq qrupları kütləvi informasiya vasitələrindən istifadə edərək və "beyin mərkəz-

[1] *Congressional Research Service*

lərini" maliyyələşdirərək öz hədəflərinə uyğun analitik bazalar yaradırlar. Nəticə etibarilə, xarici siyasət qərarlarının qəbulu prosesində lobbi qrupları dövlət aparatının rəsmi institutları qədər həlledici rol oynamağa başlayır [23]. Bu təsir gücü ABŞ-nin xüsusilə Yaxın Şərq regionuna yönəlmiş xarici kursunda daha qabarıq şəkildə nəzərə çarpır.

ABŞ-də lobbi fəaliyyətini izləyən ən nüfuzlu qeyri-hökumət təşkilatı OpenSecrets (Center for Responsive Politics) tərəfindən aparılan federal lobbiçilik hesabatlarının təhlilinə əsasən 2025-ci ildə (inflyasiya nəzərə alındıqdan sonra) illik lobbiçilik xərcləri 2024-cü illə müqayisədə 11 faiz artaraq özünün rekord həddinə - 5,08 milyard dollara çatmışdı [17]. Lobbiçilərin siyasətə bu həcmdə vəsait yatırması ABŞ-da lobbizm artıq siyasətin köməkçi hissəsi deyil, onun mərkəzi hərəkətverici qüvvəsinə çevrildiyini göstərir, eyni zamanda, qərarların necə və kimin xeyrinə qəbul edildiyi sualını doğurur.

İsrail lobbisinin xüsusiyyətləri və təsir imkanları. ABŞ-nin xarici siyasətində fəaliyyət göstərən etnik və siyasi maraq qrupları arasında İsrail lobbisi öz mütəşəkkilliyi, maliyyə gücü, tətbiq etdiyi unikal metodlar və təsir miqyası ilə digərlərindən fərqlənir. Bu lobbi vahid təşkilatdan ibarət deyil, əksinə, eyni strateji hədəf ətrafında birləşmiş onlarla müxtəlif qurumun, beyin mərkəzinin və ictimai birliyin yaratdığı çoxşaxəli bir şəbəkədir [28, s. 111].

İsrail lobbisini digər təsir qruplarından ayıran ***birinci*** mühüm xüsusiyyət odur ki, adi biznes və ya sahə lobbiləri adətən öz hədəflərinə uyğun olaraq yalnız bir partiyaya və ya müəyyən ideoloji qrupa yaxın olduqları halda, İsrail lobbisi siyasi lobbiçiliklə məşğuldur və ABŞ-nin həm Demokratlar, həm də Respublikaçılar partiyaları daxilində eyni dərəcədə güclü dayaqlar qurmağa nail olub [4]. Bu şəbəkənin mərkəzində dayanan ən böyük və həlledici qüvvə isə Amerika-İsrail İctimai Əlaqələr Komitəsidir (ing. AIPAC[1]). AIPAC rəsmi olaraq xarici agent kimi deyil, Amerika vətəndaşlarının birliyi kimi qeydiyyatdan keçdiyi üçün ABŞ qanunvericiliyi çərçivəsində tam sərbəst və leqal şəkildə fəaliyyət göstərir [5; 2, s.223].

İsrail lobbisini fərqləndirən ***ikinci*** xüsusiyyət – əksər etnik lobbilər yalnız rəsmi kabinetlərdə bürokratik təzyiqlər göstərdiyi halda israilyönlü şəbəkənin (AIPAC-ın) ABŞ-nin daxili seçki proseslərinə və yerli icmalara eyni zamanda nüfuz edə bilən mütəşəkkil qüvvə olmasıdır. AIPAC ABŞ Konqresi, Dövlət Departamenti, Müdafiə Nazirliyi və digər dövlət qurumları ilə qarşılıqlı əlaqələrini 1980-ci illərdə genişləndirməyə başlayıb və onun büdcəsi, eləcə də üzvlərinin sayı əhəmiyyətli dərəcədə - 1,2 milyon dollardan 15 milyon dollara qədər artıb. Məhz o zaman AIPAC ABŞ-da siyasi proseslərə təsir göstərə bilən yüksək dərəcədə mütəşəkkil və effektli fəaliyyət göstərən lobbiçilik strukturu olaraq meydana çıxıb [42, s.85]. AIPAC-ın fəaliyyətində ən diqqətçəkən metodlardan biri 1956-cı ildən başlayaraq hər il keçirilən Aparıcı Amerika Yəhudi Təşkilatları Prezidentlərinin Konfranslarıdır [28, s.165]. On minlərlə iştirakçını, yüzlərlə konqresmeni, senatoru və hətta prezidentliyə namizədləri eyni məkanda toplayan bu nəhəng platforma həm ABŞ-nin siyasi dairələrinə, həm də beynəlxalq ictimaiyyətə İsrail lobbisinin gücünü əyani şəkildə nümayiş etdirir. Konfransın əsas mahiyyəti odur ki, dəvət olunan amerikalı siyasətçilər kürsüdən İsrailin təhlükəsizlik maraqlarına sadiq qalacaqları və davamlı hərbi yardım edəcəklərinə dair vədlər verirlər. Bu tədbirlər həm də namizədlərin gələcək seçki kampaniyalarında İsrail lobbisindən maliyyə və siyasi dəstək alması üçün mühüm rol oynayır. Lakin son illərdə, xüsusilə pandemiya dövründə (2021-ci ildən) bu kütləvi tədbirlərin ləğv edilməsinə başlanıb [6] və AIPAC 2022-ci ildə özünün yeni strategiyasını təqdim edib. Təşkilat artıq diqqətini nəhəng və simvolik konfransların keçirilməsindən daha çox, özünün siyasi fəaliyyət komitələri (PAC və Super PAC) vasitəsilə birbaşa seçkilərə yüz milyonlarla dollar yatırmaqla İsrailə sadiq namizədləri dəstəkləmək, ona müxalif olan və ya tənqidi yanaşan siyasətçilərin seçkilərdə məğlub edilməsi üçün aqressiv kampaniyalar aparmağa yönəldib[2] [4]. Məsələn, AIPAC 2024-cü il seçkilərində rəsmi olaraq 100 milyon

[1] *AIPAC (The American Israel Public Affairs Committee) ABŞ Konqresi ilə qarşılıqlı əməkdaşlıq məqsədilə 1954-cü ildə (1949-cu ildə yaradılmış Amerika Sionist Şurasına rəhbərlik etmiş) İ.L.Kinnan (1905-1988) tərəfindən yaradılıb. Komitə 1959-cu ilə qədər "Amerika Sionist İctimai İşlər Komitəsi" (The American Zionist Committee for Public Affairs) adlanırdı* [42, s.84-85].

[2] Qeyd etmək lazımdır ki, AIPAC-ın əsas təsir komponenti, onun mövqeyinə rəğbət bəsləyən siyasi namizədləri dəstəkləmək üçün maliyyə resurslarını səfərbər etmək bacarığıdır. AIPAC özünün lobbi təşkilatı statusuna görə seçki kampaniyalarına birbaşa ianələr etməsə də, onun üzvləri və onunla əlaqəli Siyasi Fəaliyyət Komitələri siyasi kampaniyaların maliyyə-

dollardan çox pul xərcləyib [40]. Digər tərəfdən, AIPAC-in ianələri İsrailə düşmən mövqe tutmuş namizədlər və ya vəzifəli şəxslərin rəqiblərinin dəstək kapmaniyasına yönləndirir [28, s.155]. Məhz bu mütəşəkkil maliyyə və siyasi təzyiq mexanizmi sayəsində AIPAC-ın Vaşinqtonda yaratdığı mühitə uyğun olaraq, İsraili tənqid edən bir çox amerikalı konqresmen üçün birbaşa karyera riski daşıyır və lobbiçilər onların xarici siyasət sahəsində vacib vəzifə tutmasına mane olmağa çalışırlar [28, s.166; 42].

Üçüncü spesifik xüsusiyyət İsrail lobbisinin ideoloji və dini motivlərlə dəstəklənməsidir. Belə ki, İsrail lobbisinin fəaliyyəti təkcə yəhudi icması ilə məhdudlaşmır, o həm də ABŞ-də çox böyük səs çoxluğuna malik on milyon üzvü olan 2006-cı ildə yaradlmış ən böyük evangelist xristianlar qrupu olan "İsrail üçün Xristianlar Birliyi"nin (*ing. CUFI*[1]) kütləvi dəstəyinə arxalanır [42, s.87]. Bu da ona digər xarici siyasi lobbilərin heç vaxt sahib olmadığı nəhəng yerli seçici bazası qazandırır. Bu spesifik xüsusiyyətlər və AIPAC-ın mütəmadi fəaliyyəti ABŞ-nin xarici (xüsusilə Yaxın Şərq) siyasətini idarə edən görünməz, lakin son dərəcə real təzyiq vasitəsidir.

İsrail lobbisinin ***dördüncü*** fərqləndirici xüsusiyyəti onun həm güclü "grasstops" (məsələn, nüfuzlu elita - ABŞ Konqresinin üzvləri ilə birbaşa və strateji əlaqələrə malik AIPAC), həm də milyonlarla üzvü olan (məsələn, 7 milyondan çox üzvü olan CUFI) "grassroots" (kütləvi dəstək) bazasına malik olmasıdır. Bu iki səviyyənin sintezi İsrail lobbisinə qanunvericilik üzərində böyük təsir imkanı verir [20; 2, s.223].

İsrail lobbisini fərqli edən ***beşinci*** ən vacib xüsusiyyət Konqres tərəfindən İsrail ilə bağlı qəbul edilən qərarlardır. Belə ki, uzun illər AIPAC-ın ən böyük gücü onun qanunvericilik strategiyasının hazırlanmasında demək olar ki, rəqibsiz olmasıdır. Konqresdə qanun layihələri çox vaxt AIPAC-ın iştirakı ilə hazırlanır və o, İsraillə bağlı qanunvericiliyi fəal şəkildə təşviq etdikdə, adətən qalib gəlir. AIPAC-ın səsvermə prosesini narahatlıqla izlədiyi qanun layihələri adətən Konqresin hər iki palatasında 90/100 faiz dəstək alır. Konqresin qərar qəbul edərkən, demək olar ki, müqavimət göstrə bilməyəcəyi yeganə məsələ İsrail ilə bağlı olan qərarlardır[2]. Lakin bu, AIPAC-ın siyasəti diktə etməsi demək deyil. Bu o deməkdir ki, lobbi Konqresi öz "əlində saxlayır" və Konqres prezidentə əhəmiyyətli dərəcədə təzyiq göstərə bilər. Bu, istənilən prezidentin nəzərə almalı olduğu amildir [32; 33; 3, s.92].

ABŞ xarici siyasətinin institusional *(Prezident və icraedici struktur)* ***üçbucağı + 1*** *(Konqres).* ***Lobbiçilərin həmin qurumlara təsir mexanizmləri.*** ABŞ-ın xarici siyasətinin formalaşdırılması və həyata keçirilməsində Dövlət Departamenti, Müdafiə Departamenti (Pentaqon) və Milli Təhlükəsizlik Şurası (MTŞ) üç əsas institusional sütun rolunu oynayır. Hər bir qurumun özünəxas səlahiyyətləri və bir-birini tamamlayan funksiyaları mövcuddur. Xarici siyasətin əsas icraçısı olan Prezident Silahlı Qüvvələrin Ali Baş Komandanıdır [14, maddə 2, bənd 2]. Ona xarici siyasət və milli təhlükəsizlik məsələlərində məsləhət verən və müxtəlif dövlət qurumları arasında koordinasiyanı təmin edən ən yüksək orqan MTŞ-dir. Xarici siyasətin aparıcı qurumu Dövlət Departamentidir. Dövlət Katibi Prezidentin əsas xarici siyasət məsləhətçisidir və dövlətin maraqlarını diplomatiya vasitəsilə təmsil edir. ABŞ-nin xarici siyasət strategiyanın hazırlanması və onun icrası üçün məsul qurum olan Pentaqon xarici siyasətin təhlükəsizlik aspektini formalaşdırır. MTŞ isə bu iki gücün eyni mərkəzdə birləşməsinə və onların fəaliyyətlərinin koordinasiyasına cavabdehdir [16]. Vaşinqtonun mühüm xarici siyasət qərarları məhz "Dövlət Departamentinin diplomatiyası", "Pentaqonun hərbi gücü" və "Milli Təhlükəsizlik Şurasının strateji koordinasiyası" üçbucağının qarşılıqlı təsiri ilə formalaşır[3]. Onu da qeyd etmək lazımdır ki, uzun illər ərzində xarici siyasət uğrunda əsas mübarizə dövlət katibi ilə müdafiə naziri

---

ləşdirilməsində həlledici rol oynayırlar. AIPAC özünün İsrailpərəst mövqeyini paylaşan namizədlərə vəsait yönəltməklə qanunvericilərlə münasibətlər qurur və onların İsraillə bağlı məsələlərdəki mövqelərinə təsir göstərir [22, s.43; 7].

[1] *Christians United for Israel*

[2] *İsrail lobbisinin ABŞ Konqresində qalib gələ bilmədiyi hallar haqqında bax:* Ələsgərova S.T. ABŞ xarici siyasətində Yəhudi lobbisinin rolu // – Bakı: Tarix və onun problemləri, – 2019. № 4, s.221-226

[3] *ABŞ-nin xarici siyasət mexanizmindəki bu institusional iyerarxiya və bürokratik rəqabət - ABŞ xarici siyasətinin vahid bir mərkəzdən idarə olunmadığını iddia edən Qreham Allisonun "bürokratiya nəzəriyyəsi"ndə, həmçinin müxtəlif illərdə ABŞ MTŞ-nin sədrləi olmuş H.Kissincer və Z.Bjezinskinin əsərlərində öz əksini tapır* (Bax: Essence of Decision: Explaining the Cuban Missile Crisis (2d ed). By Graham Allison and Philip Zelikow. New York: Longman, 1999. 352 pp.; Kissinger Henry A. White House Years. Boston, Mass., Little, Brown & Co., 1979. 1521 pp.; Power and Principle: Memoirs of the National Security Adviser, 1977-1981, by Zbigniew Brzezinski. New York, Farrar Straus Giroux, 1983. 587 pp.).

arasında getmişdir. Sonralar bu mübarizə dövlət katibi və milli təhlükəsizlik üzrə müşavir arasında getməyə başladı [16].

ABŞ-nin xarici siyasətində müxtəlif regionların xüsusiyyətindən asılı olaraq onlara nəzarət müxtəlif dövlət qurumları arasında rəqabət predmetidir. Bu qurumlar arasında regionlara nəzarət etmək uğrunda mübarizə, siyasət uğrunda mübarizə qədər tez-tez baş verir. 1980-ci illərin əvvəllərindən bir sıra regionlarda Dövlət Departamentinin rolu getdikcə daha çox ikinci plana keçməyə, digər dövlət qurumlarının rolu isə artmağa başlayır. ABŞ-nin Yaxın Şərq siyasətində də təşəbbüs həmin illərədək region üzrə aparıcı rol oynayan Dövlət Departamentindən Ağ Evə keçməyə başlayır. Mərkəzi Amerika üzrə siyasət Ağ Evin nəzarəti altındadır və onu əsasən milli təhlükəsizlik üzrə müşavir həyata keçirir. Uzaq Şərqə aid məsələlərdə, xüsusən də Çinlə münasibətlərdə təşəbbüs əsasən Müdafiə və Ticarət nazirliklərinin əlində cəmləndi. Avropa ilə bağlı məsələlərdə Dövlət Departamenti ABŞ-Avropa münasibətlərinin diplomatiya və müdafiə siyasəti kimi daha ənənəvi sahələrində öz tarixi üstünlüyünü qoruyub saxlamaqla yanaşı getdikcə daha çox Ticarət Nazirliyi və prezidentin xüsusi ticarət nümayəndəsi də bu əlaqələrdə iştirak etməyə başladı. Silahlara nəzarət məsələsində də Dövlət Departamenti və Müdafiə Nazirliyi ikinci plana keçdi. Bu sahədə əsas məsuliyyət ABŞ-nin silahlara nəzarət və strateji siyasət sahəsində uzunmüddətli konsensusun formalaşdırılması vəzifəsi dövlət xadimlərindən ibarət xüsusi ikitərəfli (hər iki partiyanı təmsil edən) ekspert komissiyasına həvalə edildi [16].

Xarici siyasətin vahid mərkəzdən deyil, müxtəlif nazirliklər arasında "səpələnmiş" şəkildə idarə olunması bu gün də ABŞ-nin xarici siyasət mexanizminin ən səciyyəvi xüsusiyyətlərindən biri olaraq qalır və xarici siyasətin formalaşdırılması Dövlət Departamenti ilə yanaşı, həm də Ticarət Nazirliyi, Müdafiə Nazirliyi və Ağ Ev daxilindəki qurumların birgə fəaliyyət sahəsinə çevrilib. Eyni zamanda, kəşfiyyat diplomatiyasının artması ilə Mərkəzi Kəşfiyyat İdarəsi (CIA) və digər kəşfiyyat qurumları da xarici siyasətin formalaşmasında və icrasında fəal rol oynayırlar. Qeyd edək ki, Yaxın Şərq və strateji bölgələr üzrə əsas qərarların qəbulu və danışıqlar prosesi hələ də əsasən Ağ Evin və prezidentin milli təhlükəsizlik üzrə müşavirinin nəzarətindədir.

Lobbi qruplarının bu üç sütuna nüfuzetmə mexanizmləri onların məqsədindən asılı olaraq fərqli metodlar vasitəsilə həyata keçirilir. Dövlət Departamentində lobbiçiliyin ən yumşaq və görünən forması tətbiq olunur. Departament gündəlik diplomatik məsələlər, yardımların ayrılması və xarici ölkələrlə münasibətlərin səviyyəsini müəyyən etmək üçün ən praktiki hədəfdir. Əsas məqamlardan biri odur ki, xarici dövlət nümayəndələri ilə ən çox görüş keçirən və ölkənin xarici siyasət büdcəsinin idarə olunmasında mərkəzi yer tutan bu qurum səviyyəsində formalaşan rəylər MTŞ-nin hazırladığı qərarların əsas məlumat bazasını təşkil edən mühüm elementlərdən biridir. Bu quruma, əsasən, dövlət katibinin regionlar üzrə köməkçiləri və xüsusi elçilər vasitəsilə nüfuz etmək daha məqsədəuyğun sayılır.

Pentaqonda hərbi-sənaye lobbiçiliyi həyata keçirilir. Lobbiçiliyin ən ağır və bahalı hissəsi olan bu sahədə söhbət təkcə siyasətdən deyil, həm də milyardlarla dollarlıq müqavilələrin bağlanmasından gedir. Hərbi yardım, silah satışı və təhlükəsizlik əməkdaşlığı istəyənlər üçün çətin olsa da ən vacib hədəf məhz Pentaqon hesab olunur. Xaricdə ən böyük fiziki iştiraka və büdcəyə malik olan Pentaqonun strateji zəruri hesab etdiyi hər hansı məsələ bir çox hallarda Dövlət Departamentinin və MTŞ-nin problemlərindən daha vacib sayılır. Pentaqona əsas nüfuzetmə nöqtələri müdafiə siyasəti üzrə məsləhətçilər və hərbi satınalma rəsmiləridir. Bu sahədə lobbiçilər adətən hərbi-sənaye kompleksi nəhəngləri ilə birləşir və hər hansı dövlət silah almaq istədikdə Pentaqon rəsmilərinə həmin silahın verilməsinin ABŞ-nin regional təhlükəsizlik maraqlarına uyğun olduğu tezisini təlqin edirlər. Beləliklə, onlar silah satışına icazə almaq, hərbi yardımların həcmini artırmaq və birgə hərbi təlimlərə nail olmaq məqsədi güdürlər. Dövlətin müdafiə siyasəti və tədarükü müdafiə podratçıları, icraedici hakimiyyət (Müdafiə Nazirliyi və NASA) və Konqresdən ibarət "dəmir üçbucaq" arasında həyata keçirilir. Bu üçlük arasında hərəkət edən güclü insan və pul axını kənar şəxsləri və alternativ variantları istisna edir. Lakin hökumət və podratçılar arasında əlaqələr haqqında məlumat əldə etmək çətindir. Həmçinin subpodrat məlumatları açıqlanmır və bu sahədə lobbiçilik fəaliyyətinə dair çox az məlumat əlçatandır [19, s.11].

MTŞ birbaşa Prezidentə tabe olduğu üçün burada strateji lobbiçilik həyata keçirilir. MTŞ-yə müdaxilə etmək olduqca çətindir və məqsədə regionlar üzrə direktorlarla əlaqə qurmaqa nail olmağa çalışırlar. Bu prosesdə lobbiçilər adətən "arxa kanal" diplomatiyasından istifadə edirlər. Yəni, mesajlar lobbiçinin özü tərəfindən deyil, Prezidentin və ya rəhbərliyin şəxsən etibar etdiyi keçmiş rəsmilər va-

sitəsilə ötürülür. Bu yolla lobbiçilər Prezidentin xarici siyasət prioritetlərini dəyişməyə və böhran anlarında Ağ Evin qərarlarına birbaşa təsir göstərməyə çalışırlar [24]. Belə ki, ABŞ-nin xarici siyasətinin ümumi istiqamətini dəyişmək üçün MTŞ həlledici orqandır. Çünki o, Prezidentin birbaşa beyin mərkəzi rolunu oynayır və Dövlət Departamenti ilə Pentaqon da daxil olmaqla bütün nazirliklər arasındakı koordinasiyanı idarə edir. Bu səbəbdən MTŞ-yə təsir etmək digər iki quruma təsir etməyin ən qısa yoludur. Buradan gələn hər hansı göstəriş və ya strateji sənəd həm Dövlət Departamentinin, həm də Pentaqonun fəaliyyət çərçivəsini müəyyən edir. Yaxud əksinə, lobbiçilər məlumat axınını idarə edən kanallar - Dövlət Departamenti, Pentaqon və digər beyin mərkəzlərinə nüfuz edərək qərarın MTŞ-yə çatana qədərki formasını müəyyən etməyə çalışırlar. Beləliklə, qəfil böhran anında lobbiçilərin qərarın qəbulu prosesinə müdaxilə imkanları məhdudlaşdsa da həmin qərarların istiqamətini müəyyən edəcək mühit böhrana qədərki dövrdə (əksər hallarda) məhz lobbiçilərin fəaliyyətinin təsiri altında formalaşmış olur. Böhran anında zaman baxımından qərar qəbuledənlərin də həll variantlarını geniş nəzərdən keçirmək imkanları məhdud olduğu üçün onlar qərarları beynlərində artıq "hazır" fikirlərə əsaslanaraq qəbul edirlər.

Bu üç qurumun hansına təsir etməyin daha vacib olması Prezidentin idarəetmə üslubundan və konkret məqsəddən aslı olaraq dəyişir. Lakin strateji baxımdan bu iyerarxiyada MTŞ-ni ən strateji hədəf hesab etmək olar. CRS-in rəsmi hesabatlarına və Brukinqs İnstitutu[1] kimi aparıcı beyin mərkəzlərinin analizlərinə nəzər saldıqda, son onilliklərdə xarici siyasət qərarlarının Ağ Evdə, yəni MTŞ-də mərkəzləşməsi tendensiyası kəskin şəkildə artığını görürük [13]. Yəni, MTŞ artıq sadəcə koordinator deyil, həm də əsas qərarverici funksiya yerinə yetirir. Lakin bu tendensiya digər iki qurumun funksiyasını itirməsi kimi qiymətləndirilmir. Dövlət və Müdafiə Departamentləri ABŞ-nin xarici siyasətində icraedici qollar kimi öz əhəmiyyətini qoruyub saxlayırlar. Xarici Əlaqələr Şurasının (*ing. CFR*[2]) təhlillərinin də təsdiq etdiyi kimi, artıq ən mühüm və strateji qərarlar birbaşa MTŞ-nin koordinasiya etdiyi daxili komitələrdə qəbul edilir və digər nazirliklər həmin qərarların icraçısı funksiyasını yerinə yetirirlər [15]. Beləliklə, öz məqsədinə ən qısa yolla çatmaq istəyən bir lobbiçi digər iki quruma nə etməli olduqlarını diktə edən MTŞ-yə, yəni Prezidentin yaxın ətrafına nüfuz etməyə çalışır. Lakin bu yol həmişə ən çətin və qapalı üsul olaraq qalır.

Göstərilənlərlə yanaşı, lobbiçilr İcraedici hakimiyyətlə müqayisədə Konqresə daha çox təsiretmə imkanına malikdirlər. Konqresdəki bir fraksiya lobbiçilərin təzyiqi altında müəyyən mövqe tutduqda, icraedici hakimiyyət orqanlarının onlara qarşı müqaviməti də çətinləşir. Funksional olaraq, ABŞ hökumətinin bu xüsusiyyətini "qəribə" adlandırmaq olar. Belə ki, o, güclü qanunvericilik hakimiyyətinə malik olmaqla icraedici hakimiyyətdən tamamilə azaddır, lakin xarici hökumətləri təmsil edən daxili vasitəçilər (burada: lobbiçilər) tərəfindən istismara məruz qalır [41].

İsrail lobbisinin Prezident administrasiyası və Konqres arasında manevr və manipulyasiya siyasəti *(Mavi Mərmərə nümunəsində)***.** İsrail lobbisinin ABŞ-nin xarici siyasətinə təsir imkanlarının ən böyük uğuru icraedici və qanunverici qollar arasındakı institusional rəqabəti və kəsişmə nöqtələrini məharətlə manipulyasiya edə bilməsidir. Xarici siyasətə rəhbərlik Prezident və Konqres arasında bölündüyü üçün İsrailin lobbi qrupları bu iki qütb arasında davamlı manevr siyasəti tətbiq edirlər. Əgər Prezident və onun administrasiyası (həmçinin Dövlət Departamenti) İsrailin maraqlarına tam cavab verməyən və ya tənqidi bir mövqe tutarsa, lobbi üzünü dərhal özünün daha güclü təsir imkanına malik olduğu qanunvericilik qoluna - Konqresə çevirir. Bu zaman, Konqres üzvlərinin seçki kampaniyalarının maliyyələşdirilməsində həlledici rol oynayan və hər bir seçki dairəsində güclü yerli icma dəstəyinə malik olan lobbi, qanunvericilər vasitəsilə icraedici hakimiyyətə qarşı təzyiqlər tətbiq edir. Konqresdən keçirilən xüsusi qətnamələr, hərbi yardımların davamlılığını təmin edən qanunlar və ya xarici siyasəti məhdudlaşdıran qərarlar vasitəsilə Prezidentin manevr imkanları daraldılır, o, İsrailin xeyrinə qərarlar qəbul etməyə məcbur qalır. Digər tərəfdən, Konqresdə hər hansı bir məsələ ilə bağlı ciddi müqavimət yaranarsa, İsrail lobbisi Ağ Ev daxilində əlaqələrini, MTŞ-dəkı təsir gücünü və "arxa kanal" diploma-

[1] *Brukinqs İnstitutu* (*ing. Brookings Institution*) *1916-cı ildə təsis edilmiş tədqiqat institutudur. İnstitut Vaşinqtonda yerləşir və sosial elmlər, dövlət idarəçiliyi, xarici siyasət və qlobal iqtisadiyyat üzrə ixtisaslaşmış dünyanın aparıcı beyin mərkəzlərindən biridir.*

[2] *Council on Foreign Relations*

tiyasını işə salaraq birbaşa Prezident sərəncamları vasitəsilə nəticə əldə etməyə çalışır [28, 161-163]. Beləliklə, İsrail lobbisi hakimiyyətin bu iki qolunu eyni vaxtda öz məqsədləri üçün bir-birinə qarşı balanslaşdırıcı və ya təzyiqedici qüvvə kimi istifadə etməyi bacarır.

İsrail lobbisinin ABŞ-nin xarici siyasətinə təsir və ABŞ-nin icraedici və qanunverici qolları arasında manevr imkanlarını 31 may 2010-cu il tarixində İsrail və Türkiyə arasında baş vermiş "Mavi Mərmərə" hadisəsi ilə bağlı qərarların qəbul edilməsi prosesini nəzərdən keçiridkdə aydın görürük. Belə ki, Qəzza bölgəsinə humanitar yardım aparan Türkiyəyə məxsus "Mavi Mərmərə" gəmisinə İsrail hərbçilərinin basqını ilə əlaqədar olaraq ABŞ-nin tutduğu mövqedə İsrail lobbisinin rolu həm diplomatik müdafiə, həm də konqres səviyyəsində təzyiq baxımından həlledici olmuşdu. ABŞ-nin həmin vaxt prezidenti olan B.Obama İsrailin Baş naziri B.Netanyahu ilə arasında münasibətlər gərgin olduğu, eyni zamanda, həmin vaxt administrasiyanın İrana qarşı sanksiyalarla bağlı BMT TŞ-də Türkiyənin dəstəyinə ehtiyacı olduğu üçün hadisə ilə bağlı daha tənqidi mövqe tutmağa meylli olmuşdu [26; 22]. Bununla belə, Obama adminstrasiyası Qəzzaya doğru gedən gəmilərə edilən basqını birbaşa pisləməmiş, nisbətən ehtiyatlı mövqe tutmuşdu. Hadisə ilə bağlı Dövlət Departamentinin yaydığı bəyanatda deyilirdi: "*Amerika Birləşmiş Ştatları bu gün Qəzzaya gedən gəmilərdəki hadisədə iştirak edənlər arasında baş verən faciəvi ölüm və xəsarətlərdən dərin təəssüf hissi keçirir. Faktları müəyyən etmək üçün çalışırıq və İsrail hökumətinin tam və etibarlı araşdırma aparacağını*[1] *gözləyirik*" [9, s.5]. Yaxınlaşan konqres seçkiləri öncəsi donorların və İsrailpərəst seçicilərin narazılığını qazanmamaq üçün Ağ Ev hadisəni "faciəvi" adlandırsa da İsrailin hərəkətlərini birbaşa "cinayət" kimi xarakterizə etməkdən yayınmışdı. Buna baxmayaraq, bəyanatda həmçinin, ABŞ tərəfinin İsrailin təhlükəsizlik qayğılarını nəzərə alaraq Qəzzaya humanitar yardımın artırılması üçün işlərin davam etdiriləcəyi vurğulanırdı [9, s.5].

Digər tərəfdən, BMT-nin həmin vaxt Baş katibi olan Pan Gi Mun insidentdən dərhal sonra baş vermiş zorakılığı pislədi və tammiqyaslı araşdırma aparılması üçün çağırış etdi. BMT-nin İnsan Hüquqları Şurası da hadisələrlə bağlı müstəqil, beynəlxalq təhqiqatın başladılmasına səs verdi [26]. Məhz bu anda İsrail lobbisi Ağ evə qarşı təzyiq göstərməyə, həmçinin Konqres və Prezident adminstrasiyası arasında manevr etməyə başladı. AIPAC təkid etdi ki, "*ABŞ artıq Təhlükəsizlik Şurasına və BMT-nin İnsan Hüquqları Şurası kimi digər qurumlarına xoşagəlməz hadisələrdən istifadə edərək həqiqəti təhrif edən və heç bir nəticə verməyən qərəzli, İsrail əleyhinə qətnamələr qəbul etməyə icazə verməmək kimi uzunmüddətli mövqeyinə sadiq qalmalıdır*" [21]. Beləliklə, AIPAC ABŞ-nin BMT TŞ-də İsrailə qarşı kəskin sanksiyalara, yaxud birtərəfli təhqiqat aparılmasına dair qərarlara qarşı veto qoymasına nail oldu. ABŞ-nin müdaxiləsi nəticəsində mətndən İsrailin adı çıxarıldı, sadəcə insidentin özü pislənildi [26; 22].

Lobbiçilərin səyləri ilə ABŞ Konqresi də İsrail dövlətinin addımlarına haqq qazandırmağa, həm Respublikaçılar, həm də Demokratlar tərəfindən həmrəylik bəyanatları gəlməyə başladı. Məhz lobbiçilərin təzyiqi nəticəsində Respublikaçılar prezident B.Obamanı İsrailə daha güclü dəstək ifadə etmədiyinə görə tənqid etdilər [21]. Mavi Mərmərə insidenti ilə bağlı beynəlxalq tənqidlərin artdığı bir dövrdə, ABŞ Konqresinin dörddə üçündən çoxu Prezident Obamaya İsrailin "özünümüdafiə hüququnu" dəstəkləyən iki böyük məktub ünvanladı. Məktub həm demokratlar, həm respublikaçılar tərəfindən dəstəklənirdi. Senatda məktub 100 üzvündən 87-si tərəfindən imzalanmışdı. Təşəbbüsə Senatdakı əksəriyyətin - demokratların lideri H.Reyd və respublikaçıların lideri M.Makkonel rəhbərlik edirdi. Bu məktublarda Amerikanın İsrailə olan dəstəyi təsdiqlənir və prezidentdən BMT-də, eləcə də digər beynəlxalq təşkilatlarda İsrailin özünümüdafiə hüququnu dəstəkləməsi tələb olunurdu [11]. İsrail lobbisi, siyasi dairələrdə, eyni zamanda, ABŞ mediasında "Mavi Mərmərə" gəmisində "humanitar yardım" de-

[1] *BMT Baş katibi 2 avqust 2010-cu ildə 31 May 2010 Donanma ("Mavi Mərmərə") İnsidenti üzrə təsis etdiyi İstintaq Panelində həm Türkiyənin yaratdığı Milli İstintaq Komissiyası, həm də İsrail dövlətinin yaratdığı müstəqil İctimai Komissiyası tərəfindən aparılan ətraflı milli təhqiqatların hesabatlarını qəbul etdi və hər bir hökumət tərəfindən təyin edilmiş əlaqələndirici şəxslərlə birbaşa görüşlər vasitəsilə əldə etdiyi əlavə məlumat və aydınlaşdırmaları nəzərdən keçirdi. Lakin bu panelin mandatı İsraili hüquqi məsuliyyətə cəlb etmək deyil, sadəcə "faktları araşdırmaq" idi. Buna uyğun olaraq, toplanmış məlumatlar əsasında Panel hadisənin faktlarını, şəraitini və kontekstini araşdırıb müəyyən etdi, həmçinin gələcəkdə bənzər hadisələrin qarşısını almaq yollarını nəzərdən keçirdi və tövsiyələr verdi. Panelin gəldiyi qənaətlər və tövsiyələr hər hansı hüquqi öhdəlik yaratmaq məqsədi daşımır. Bununla belə, Panel ümid edir ki, bu hesabat hadisə ilə bağlı məsələləri həll edə bilər və mövzuya nöqtə qoyar* [35].

yil, "terrorla əlaqəli provokasiya" olduğu və İsrail hərbçilərinin sadəcə özlərini müdafiə etdiyi rəyi formalaşdırıldı [36]. (Qeyd edək ki, bu fikir Senatın B.Obamaya ünvanladığı məktubda da öz əksini tapmışdı [11].) AIPAC-ın keçirdiyi kampaniya və ABŞ Konqresindəki güclü İsrail lobbisinin dəstəyi Obamanı beynəlxalq platformalarda İsrailin "müdafiəçisi" rolu oynamağa məcbur etmişdi. Göstərilənlər deməyə əsas verir ki, ABŞ-nin "Mavi Mərmərə" insidentinə reaksiyası sadəcə strateji maraqlardan deyil, həm də güclü lobbi təzyiqlərindən qaynaqlanmışdı.

"Qüdsün paytaxt elan edilməsi" prosesinə İsrail lobbisinin təsiri. D.Trampın hakimiyyətə gəlməsi ilə İsrail lobbisi B.Obama dövründə tutduğu müdafiə mövqeyindən çıxaraq özünün onilliklər boyu arzuladığı ən böyük strateji məqsədlərinə az müddət ərzində çatmağa nail oldu. Həmin məsələlərdən biri ABŞ-nin Qüds şəhərini İsrailin paytaxtı kimi tanıyaraq səfirliyini Tel-Əvivdən Qüdsə köçürməsidir. Həm siyasi, həm dini[1] baxımdan xüsusi əhəmiyyətli olan Qüds şəhəri və onunla bağlı qərarların qəbul edilməsi prosesinə İsrail lobbisinin, xüsusilə AIPAC-ın böyük təsiri olduğu artıq bir faktdir.

Qeyd etmək lazımdır ki, 30 iyul 1980-ci ildə Knesset (İsrail parlamenti) Benin hökumətinin təşəbbüsü ilə Əsas (kvazi-konstitusiya) Qanunu qəbul edərək bütün Qüdsü İsrailin "bölünməz və vahid paytaxtı" elan edib [8]. Buna baxmayaraq, 13 sentyabr 1993-cü il tarixində İsrailin Baş naziri İ.Rabin və Fələstin Azadlıq Təşkilatının lideri Y.Ərəfat arasında gizli şəkildə Oslo (və ya Norveç) Sazişləri kimi tanınan ikitərəfli memorandum imzalanaraq, əsasən şəhərin yekun statusu üzrə sülh danışıqlarının növbəti mərhələlərdə müzakirə olunacağı haqda razılığa gəlinmişdi. Lakin bu, Saziş 1995-ci il 24 oktyabr tarixində ABŞ Konqresi tərəfindən "Qüds Səfirlik Aktı"nın qəbul edilməsinə mane olmadı. Həmin vaxt ABŞ prezidenti olan B.Klintonun və İsrailin baş naziri İ.Rabinin etirazlarına baxmayaraq Konqresdə böyük səs çoxluğu ilə qəbul edildimiş ABŞ səfirliyinin köçürülməsi Aktı ABŞ-nin Qüdsü İsrailin paytaxtı kimi tanıması üçün hüquqi öhdəlik yaratdı. Administrasiya rəsmiləri və Konqresdəki tərəfdarları daha əvvəl 1996-cı ildə Qüdsdə ABŞ səfirliyinin tikintisinə başlanılmasını nəzərdə tutan qanun layihəsinə qarşı çıxmış və Oslo prosesini pozacağını bildirmişdilər [37]. Lakin qanun layihəsinin əsas sponsoru, Senatda Respublikaçı çoxluğun lideri B.Doul tikinti işlərinə "1996-cı ildə başlamağı" tələb edən ifadəni layihədən çıxarmağa və "prezidentə milli təhlükəsizlik baxımından bu addımı qeyri-müəyyən müddətə təxirə salmaq səlahiyyəti" verən müddəa daxil etməyə razılaşdıqdan sonra Ağ Evin müqaviməti zəiflədi [12]. Beləliklə, qanunla prezidentə xüsusi səlahiyyət verildi: Səfirliyin köçürülməsi ABŞ-nin "milli təhlükəsizlik maraqlarına" zərər verərsə, prezident hər 6 aydan bir bu prosesi təxirə salan bir fərman imzalaya bilərdi [27, Bölmə 7 (a)]. Bununla belə, qanunda 31 may 1999-cu il tarixinədək ABŞ-nin İsraildəki səfirliyinin Qüdsdə açılması nəzərdə tutulurdu [27, Bölmə 5 (14); 34]. Lakin B.Klinton qanun layihəsinə veto qoymadı, eyni zamanda, İsrail lobbisinin təzyiqinə rəğmən sənədə imza atıb üzərinə "məsuliyyət" də götürmədi və sənədin onun imzası olmadan qüvvəyə minməsinə imkan verdi[2]. Beləliklə, sənəd 10 gün sonra 8 noyabr 1995-ci ildə qüvvəyə mindi [25]. Qanun Konqresdə çox böyük səs çoxluğu ilə qəbul edildiyi üçün B.Klinton ona veto qoysaydı belə, ABŞ Konstitusiyanın 1-ci maddəsinin 7-ci bəndinə əsasən, Konqres bu vetonu asanlıqla ləğv edə bilərdi[3]. Göstərilənlərlə yanaşı, Klinton administrasiyası Konqresin xarici siyasət məsələlərində prezidentin səlahiyyətlərinə müdaxilə etdiyi üçün qanun layihəsinin konstitusiyaya zidd olduğunu göstərən rəsmi memorandum hazırlamışdı [10].

1995-ci il qanununa uyğun olaraq, B.Klinton, C.Buş və B.Obama öz prezidentlikləri dövründə mütəmadi olaraq fərman imzalayaraq Qüdsün paytaxt kimi tanınmasını təxirə salmışdılar. Öz sələflərindən fərqli olaraq D.Tramp 2016-cı il (seçkiqabağı kampaniya zamanı) AIPAC-ın konfransındakı çıxışında verdiyi vədə əməl edərək, 2017-ci ildə 1995-ci il qanununa istinad edərək Qüdsü rəsmən İsrail dövlətinin paytaxtı kimi tanıdı [1] və bu addımı atan ilk dövlət oldu. 2018-ci il may ayının 14-də

[1] Qüds şəhəri (xüsusilə şərq hissəsi) üç din - islam, yəhudilik və xristianlıq üçün müqəddəs hesab olunur.

[2] *ABŞ Konstitusiyasına uyğun olaraq, hər hansı qanun layihəsi Prezidentə təqdim edildikdən sonra on iş günü ərzində Konqresə geri qaytarılmazsa, həmin qanun layihəsi, Prezident tərəfindən imzalanmış kimi qanun qüvvəsinə minir* [14, maddə 1, bənd 7].

[3] *Prezident qanuna veto qoyarsa, sənəd onun etirazları da qeyd edilməklə yenidən Konqresin sənədi irəli sürmüş palatasına qayıdır. Əgər təkrar baxışdan sonra həmin palatanın üçdə iki hissəsi layihənin qəbul edilməsinə razılıq verərsə, sənəd etirazlarla birlikdə digər palataya göndərilir və orada da eyni qaydada yenidən nəzərdən keçirilir; digər palatanın da üçdə iki hissəsi tərəfindən bəyənildiyi təqdirdə, layihə (artıq prezidentin razılığı olmadan) qanuna çevrilir* [14, maddə 1, bənd 7].

İsrail dövlətinin qurulmasının 70-ci ildönümü münasibətilə ABŞ-nin paytaxtı Təl-Əviv şəhərindən Qüdsə köçürüldü [39].

1995-ci il aktının və D.Trampın qərarında İsrailpərəst lobbi qrupları və fərdi donorlar həlledici rol oynayıblar. Belə ki, iddialara görə, 1995-ci il qanun layihəsi respublikaçılar və İsrailyönlü lobbi tərəfindən İsrailin o vaxtkı Baş naziri İ.Rabin və ABŞ Prezidenti B.Klintonun İsrail-Fələstin münaqişəsinə son qoymaq məqsədilə (Oslo Sazişləri çərçivəsində) Fələstin Azadlıq Təşkilatının sədri Y.Ərəfatla əməkdaşlığına qarşı arqument olaraq irəli sürülmüş və dəstəklənmişdi [33]. Xüsusi qeyd edilməlidir ki, Konqresdə qanun qəbul edildiyi tarixlə (24 oktyabr) onun qüvvəyə mindiyi (8 noyabr) tarix arasında – 4 noyabr 1995-ci ildə İsrailin Baş naziri İ.Rabin Tel-Əvivdə keçirilən sülh mitinqindən sonra gənc bir israilli tərfindən qətlə yetirilib [30, s.527].

"Qüds Səfirlik Aktı"nın mətninin İsrailpərəst lobbi, xüsusilə AIPAC tərəfindən hazırlandığı və qəbul etdirdiyi bildirilir. İlkin layihələr də AIPAC-ın rəsmi mövqeyini və strateji hədəflərini tam əks etdirirdi. Belə ki, AIPAC kimi daxili qüvvə ABŞ-nin Yaxn Şərq strategiyasının istiqamətini tam anlamda müəyyən etməsə də müzakirələrin yönləndirilməsində və bəzi qısamüddətli qərarların qəbul edilməsində mühüm rol oynayır. Bu qərarlar da gələcəkdə konkret addımların atılması üçün zəmin yaradır [31]. "Qüds Səfirlik Aktı"nın qəbul edilməsi də həmin vaxt prezident təsdiq etmədiyi üçün mənasız və ya formal görünürdü. Bu "imtina hüququ" illər keçdikcə bir rutinə çevrilmişdi və 2017-ci ildə D.Tramp 1995-ci il qanununa əməl etmək qərarına gəldikdə məhz həmin qanun hüquqi baza rolunu oynayaraq böyük əhəmiyyət kəsb etdi [32].

Qanun qəbul olunduğu vaxtdan AIPAC Qüdsün İsrailin "bölünməz paytaxtı" kimi tanınması üçün Konqres və Ağ Ev səviyyəsində sistemli təbliğat aparırdı [41]. Eyni zamanda, Las-Veqas kazinolarının maqnatı və Respublikaçıların ən böyük donoru olan Ş.Adelson (2021-ci ildə vəfat edib) bu prosesdə müstəsna rola malik olmuşdur. O, Trampın 2016-cı il seçki kampaniyasına və inaqurasiya fonduna on milyonlarla dollar ianə etmişdi. Hesabatlara görə, onun əsas tələbi məhz ABŞ səfirliyinin Qüdsə köçürülməsi və şəhərin paytaxt kimi tanınması idi [38]. Ş.Adelsonun həyat yoldaşı M.Adelson da bu siyasətin iştirakçısı olub. Tramp onu İsrailpərəst siyasətlərin formalaşdırılmasındakı roluna görə "Prezident Azadlıq Medalı" ilə təltif edib. Qüdsü İsrailin paytaxtı kimi tanıması diplomatik addımdan çox D.Trampın özünün ən böyük maliyyə donorlarına və siyasi dəstəkçilərinə (İsrail lobbisinə) verdiyi vədin yerinə yetirilməsi kimi qiymətləndirilir [1; 32].

Siyasi analitik M.Plitnik qeyd edir ki, bəzən mütəxəssislər ABŞ-nin yürütdüyü siyasətin lobbinin maraqları ilə əsaslı ziddiyyət təşkil etdiyinə "əmin olduqları" üçün onun təsirini şişirdirlər. Çünki onlar məsələyə ya konspiroloji nöqteyi-nəzərdən yanaşırlar, yaxud hadisələrin gedişinə digər izah tapa bilmirlər [32].

Nəticə. Araşdırmadan belə qənaətə gəlirik ki, ABŞ-nin xarici siyasəti Dövlət Departamenti – Müdafiə Departamenti – Milli Təhlükəsizlik Şurası – Konqres dördbucağında formalaşan və müxtəlif lobbi qruplarının manipulyasiyasına açıq olan mürəkkəb "maraqlar balansı" üzərində qurulub. Bu sistemdə İsrail lobbisini digər maraq qruplarından fərqləndirən əsas cəhət onun yalnız konkret iqtisadi və ya hüquqi güzəştlər üçün deyil, həm də Vaşinqtonun xarici siyasət prioritetlərinin birbaşa müəyyənləşdirilməsi üçün öz iqtisadi, dini və mütəşəkkil seçici gücünü vahid bir mərkəzdən idarə etməsidir.

"Mavi Mərmərə" və "Qüds qərarları" nümunəsində İsrail lobbisinin ABŞ-nin rəsmi dövlət strukturlarına təsir mexanizmlərini və onlar arasında manevr imkanlarını təhlil edib belə nəticəyə gəlirik ki, İsrail lobbisi ABŞ-nin Yaxın Şərq regiondakı prioritetlərinin formalaşmasında unikal və həlledici qeyri-rəsmi aktor kimi çıxış edir.

Göstərilən hadisələrlə bağlı proseslər iki lider partiya nümayəndələrinin hakimiyyəti illərinə təsadüf etdiyinə diqqət yetirdikdə İsrail lobbisinin təsir imkanlarını hakimiyyətdə olan partiyadan asılı olaraq fərqli dinamika və xarakterə malik olduğunu görürük. Bu dinamikanın aşağıdakı şəkildə dəyişdiyini görmək mümkündür:

- Demokratlar (B.Klinton, B.Obama) dövründə Prezident administrasiyası İsrailə qarşı daha sərt və ya ehtiyatlı mövqe tutmuş, İsrail lobbisi bu müqaviməti Konqres vasitəsilə neytrallaşdırmağı bacarmışdır. Məsələn, ABŞ-nin B.Klinton dövründə "Qüds Səfirlik Aktı"nın (1995) qəbul edildiyi zaman və B.Obamanın hakimiyyəti dövründə "Mavi Mərmərə" hadisəsi ilə bağlı mövqeyini və qəbul etdiyi

qərarları nəzərdən keçirərkən Ağ Evin müvafiq tənqidi mövqeyinin İsrail lobbisinin təzyiqi və Konqresin təsiri ilə yumşaldıldığını müşahidə edirik.

- Respublikaçılar (D.Tramp) dövründə isə Konqres və Ağ Evin qərarlarında tam bir yekdillik müşahidə olunur. Məsələn, 1995-ci ildən bu yana kağız üzərində qalan "Qüds Səfirlik Aktı"nın məhz Tramp dövründə (2018) icra olunması lobbinin, Konqres üzərində olduğu kimi, icraedici hakimiyyət üzərindəki mütləq uğuru kimi qiymətləndirilə bilər.

Bu, müşahidə israilyönlü lobbiçilərin "respublikaçıların ənənəvi olaraq İsrailə münasibətdə demokratlardan daha yaxşı mövqe tutur [40]" tezisini, demək olar ki, təsdiq edir.

Beləliklə, İsrail lobbisinin ABŞ-nin Yaxın Şərq siyasətini "İsrailin təhlükəsizliyi və maraqları" prizmasından nəzərdən keçirdiyini, Ağ Evi daxili siyasi və qanunvericilik alətləri ilə manipulyasiya etməklə dövlətin xarici siyasətində mühüm rol oynadığını demək mümkündür.

ƏDƏBİYYAT

В конце декабря 1918 года состоялся III съезд Советов края. Предыдущий II съезд был объявлен «кулацким», а в составе нового Губисполкома из двадцати руководителей только трое были астраханцами [13, с.22]. Все местные газеты, кроме органа РКП(б) «Коммунист» были закрыты. В сложной ситуации оказался даже упомянутый выше начальник местной милиции Хумарьян, который прожил в Астрахани уже долго, ладил с местными активистами и не разделял радикальных подходов «беженцев». Теперь ему приходилось выдерживать шквальные обвинения в плохой работе его ведомства [13, с.234].

Крайне контрастным на этом фоне выглядела работа Н.Н. Нариманова, возглавившего отдел образования. Нариманов хорошо знал Астрахань, где провел несколько лет в ссылке и даже был депутатом местной Думы. Он с охотой вступил в диалог с астраханцами и в конце декабря провел массовую встречу с муллами и учителями татарских школ, открытых при мечетях. За короткий период он открыл речное училище, несколько детсадов и преобразовал естественный факультет университета в медицинский, что стало основой для создания в будущем медицинского университета [7, 20.09.1919].

Однако такой подход был исключением.

Террор Атарбекяна. Парализация управления, вызванная разрушением астраханских органов власти «беженцами Бакинского Совета», привела к тому, что организацией снабжения губернии продовольствием толком перестали заниматься. Декабрьские наряды на хлеб были отоварены Центром только на 15%, январские — на 80%, а на февраль наряды вообще не были утверждены [7, 13.03.1919].

Зимой 1919 года Астрахань вступила в полноценный кризис, усиленный прибытием в город разбитых на Северном Кавказе частей Красной армии. Реввоенсовет Кавказско-Каспийского фронта, который разместился в Астрахани, возглавил К.А.Механошин, политотдел С.М. Киров, а особый отдел Г.А.Атарбекян. Как вспоминала Н.Н.Колесникова на первой встрече Киров «сказал, что есть много данных о том, что в Астрахани готовится белогвардейский мятеж… ему известно, что среди мятежников есть опытные военные специалисты, предотвратить мятеж мы не сумеем, и надо встретить его во всеоружии» [10, с.289-293]. Такой же точки зрения придерживался и Атарбекян. Несколько позже с трибуны он заявит: «мне рисовали Астрахань (до прибытия) в виде какого-то чудовища контрреволюции» [7, 09.07.1919, 20.09. 1919].

Тем временем на фоне резкого сокращения продуктовых карточек, в Астрахани начались собрания рабочих, принявших решение начать 9 марта забастовку. Однако в ходе демонстрации бастующих произошла кровопролитная стычка с военными моряками, после чего в городе начались столкновения, обе стороны которых были поддержаны частью гарнизона. События унесли жизни примерно 100 человек и были использованы Атарбекяном и Кировым для организации массовых расстрелов. В прессе были опубликованы поименные списки 183 казненных, а профсоюзы как самостоятельные организации фактически были сломлены [9, 25.03.1919]. Письма о произволе ЧК, которые астраханцы писали в губком партии, Колесникова и Киров передавала прямо Атарбекяну [10, с.58].

В мае Колесникова покидает свой пост секретаря губкома РКП(б). Она устраивается на работу по внешкольному образованию в центральном Наркомпросе к Н.К. Крупской. К этому времени распад краевой организации РКП(б) достиг такой глубины, что функции губернского комитета партии поручили горкому. Председателем горкома РКП(б) стал И.Г.Лазьян. Лазьян был редактором газеты «Красный воин», все его мысли были поглощены скорейшим возвращением на Южный Кавказ, и в местную партийную жизнь он глубоко погружаться не стал, что давало астраханцам возможность начать восстанавливать свои позиции.

Летом 1919 года Астрахань накрыла новая волна террора, организованная Атарбекяном при поддержке Кирова и «бакинских беженцев». Арестам и последующим расстрелам подвергались в основном красные командиры и священники.

Наконец, поздним вечером 24 июля астраханский красный казак М.Л.Аристов поднял по тревоге находившуюся под его командованием «коммунистическую роту» и арестовал весь состав ЧК [14, с.74]. Атарбекяна привели под конвоем к Аристову, который пообещал того повесить за казни астраханских рабочих. Срочно прибывшему на выручку особистов Кирову было объяснено, что никто не будет освобожден, пока преступления Атарбекяна не изучит специальная комиссия [2, Ф.17, Оп.109, Д.28, Л.28].

«Бакинские беженцы» были потрясены. Возглавивший местный финотдел Вартанян вспоминал, что они очень рассчитывали на Кирова, который соберет губком партии, обрушится на Аристова и вернет Атарбекяна в прежний кабинет здания Особого отдела [8, 1966, 20 апреля]. Наутро контролируемый Лазьяном губком партии потребовал от «активных участников этой авантюры сдать партийные билеты» [2, Ф.80, Оп.3, Д.1, Л.19].

Однако губком оказался бессилен. Аристова поддержали красные командиры и прибывший 30 июля в Астрахань по военным делам В.В.Куйбышев. Атарбекян под конвоем был отправлен в Москву, где И.В.Сталин взял его на поруки и в личное распоряжение. В 1920 году как представитель ВЧК РСФСР Атарбекян прибудет в Баку, чтобы организовывать террор.

Явное озлобление «бакинских беженцев» подобными событиями проявилось через два месяца. В октябре красная медсестра Р.Вассерман, сравнивая фотографии Кирова и черносотенного иеромонаха Иллиодора, пришла к выводу о явном сходстве и поделилась сомнениями с секретарем губисполкома Ивановым и ЧК, которые ночью пришли к Кирову и допросили его.

Этот нелепый инцидент был раздут «беженцами Бакинского Совета» и Кировым как «нападение на РВС фронта и намерение его арестовать» [2, Ф.80, Оп.22, Д.5]. Куйбышев, сдерживая их агрессию, отвечал: «разделяю возмущение тов. Вартаняна, но не нужно зарываться» [2, Ф.17, Оп.6, Д.7, Л.167]. Лазьян провел срочное заседание горкома партии, заявив, что виновных надо исключить из партии и передать их дело в трибунал. [2, Ф.80, Оп.22, Д.5, микрофильм] В итоге этих решений в Астрахань прибыла комиссия Реввоентрибунала, Вассерман была расстреляна, а Иванов совершил успешный побег из тюрьмы и уехал в Персию.

Но Центр устал от конфликтности «бакинских беженцев» и фактически отказал им в дальнейшей поддержке. Этим воспользовались астраханцы [3, Ф.1025, Оп.1, Д.77, Л.12]. 16 ноября 1919 года открылась III губернская партконференция, на которой команда «беженцев» была подвергнута разгромной и непримиримой критике. Общее мнение большинства собравшихся было едино: никакого управления парторганизацией не существует. Сформированный из аппаратных соображений заведомо недееспособным губком партии не собирался и не работал. «Беженцы» управляли регионом без всякого осмысленного плана. Конференция обернулась устранением «бакинских беженцев» из руководства астраханской парторганизации. Секретарь губкома Лазьян даже не прошел в состав нового губкома [7, 31.10.1919].

Заключение. Прибытие «беженцев Бакинского Совета» стало переломным фактором в политической эволюции Астрахани в 1918–1919 гг. Их курс на концентрацию власти, демонтаж местных советских институтов и опору на репрессивные механизмы привёл к разрушению ранее относительно устойчивой и умеренной системы управления. Усиление внешнего военного влияния и деятельность Г.А.Атарбекяна и С.М.Кирова способствовали эскалации насилия и переходу к массовому террору, кульминацией которого стали события весны и лета 1919 г. В то же время управленческая некомпетентность «беженцев», сопротивление местных

кадров и последующее вмешательство центра привели к ослаблению позиций «бакинской группы» и частичному восстановлению астраханской политической автономии.

ЛИТЕРАТУРА

1. Государственный архив Российской Федерации (ГАРФ)
2. Российский государственный архив социально политической истории (РГАСПИ)
3. Государственный архив Астраханской области (ГААО)
4. Государственный архив современной документации Астраханской области (ГАСД АО)
5. «Астраханский листок»
6. «Известия Совета рабочих, крестьянских, солдатских и ловецких депутатов», астраханская газета
7. «Коммунист», астраханская газета
8. Коммунист, орган ЦК Компартии Армении
9. «Пролетарская жизнь»
10. Колесникова Н.Н., «По дорогам подполья», Баку, 1973
11. «О Сергее Кирове, воспоминания», Москва, 1958
12. «Очерки истории Астраханской областной партийной организации КПСС», Волгоград, 1985
13. «Труды III съезда Советов Астраханского края», Астрахань, 1919
14. Чуйков Ю.С., «Первая заповедь», Астрахань, 1992
15. II Бирюковские чтения // Сычев С.Д. М.Л. Аристов. Факты биографии

OLEQ ŞEYN
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin
Slavyan ölkələrinin tarixi kafedrasının doktorantı

“BAKI SOVETİNİN QAÇQINLARI” VƏ HƏŞTƏRXANDA REPRESSİV SİYASƏT (1918–1919-cu illər)

Bu məqalədə 1918–1919-cu illərdə “Bakı Soveti qaçqınlarının” Həştərxanda siyasi proseslərə təsirinin kompleks təhlili təqdim olunur. Xüsusi diqqət xaricdən gəlmiş inqilabi qüvvələrin təsiri altında yerli sovet idarəetmə sisteminin transformasiyasına, həmçinin Bakı bolşevikləri ilə Həştərxanın yerli partiya və sovet strukturları arasında yaranmış münaqişəyə yönəldilmişdir. Məqalədə hakimiyyət orqanlarına nəzarətin qurulması mexanizmləri, ÇK və hərbi komandanlığın rolu, eləcə də kütləvi terrora gətirib çıxaran repressiv siyasətin güclənməsi araşdırılır. Həmçinin idarəetmə böhranının səbəbləri və Bakı qrupunun mövqelərinin zəifləməsi təhlil olunur.

Açar sözlər: Bakı Soveti, Həştərxan, Vətəndaş müharibəsi, bolşeviklər, ÇK, qırmızı terror, S.M. Kirov, G.A. Atarbekyan, partiya münaqişələri, sovet hakimiyyəti.

OLEQ V. SHEIN
Doctoral Candidate, Department of History of Slavic Countries,
Faculty of History, Baku State University

“REFUGEES OF THE BAKU SOVIET” AND REPRESSIVE POLICY IN ASTRAKHAN (1918–1919)

This article attempts a comprehensive analysis of the influence of the “Baku Soviet refugees” on political processes in Astrakhan in 1918–1919. Particular attention is paid to the transformation of the local Soviet governance system under the impact of external revolutionary actors, as well as to the conflict between the incoming Baku Bolsheviks and Astrakhan’s party and Soviet institutions. The study examines the mechanisms of establishing control over state bodies, the role of the Cheka

and military command, and the escalation of repressive policies that led to mass terror. It also analyzes the causes of the governance crisis and the subsequent weakening of the Baku group's position.

Keywords: Baku Soviet, Astrakhan, Civil War, Bolsheviks, Cheka, Red Terror, S.M. Kirov, G.A. Atarbekyan, party conflicts, Soviet power.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 03 aprel 2026-cı il.
Məqalənin çapa qəbul olunma tarixi: 21 may 2026-cı il.
Rəyçilər: t.e.d. Azad Rzayev, t.e.d. İbrahim Zeynalov.

UOT 94

SƏBİNƏ BABAZADƏ
Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi nəzdində Azərbaycan İstiqlal Muzeyinin elmi-kütləvi işlər şöbəsinin müdiri
sabinaot16@gmail.com

BƏŞƏR TARİXİNİN FACİƏSİ - II DÜNYA MÜHARİBƏSİ

DOI: https://doi.org/10.36719/2708-065X/113/127-130

1 sentyabr 1939-cu ildə Nasist Almaniyasının Polşaya hücumu ilə başlayan II Dünya müharibəsi təxminən 80 milyon insanın həyatına son qoydu və buna görə də bəşəriyyət tarixinin ən böyük fəlakətlərindən biri hesab olunur. Nasist Almaniyasının təcavüzü ilə başlayan münaqişə, demək olar ki, bütün dünyanı bürüdü və bütöv ölkələrin məhvinə, iqtisadi böhrana və ölçüyəgəlməz insan itkilərinə səbəb oldu. II Dünya müharibəsi ən vacib məsələləri ilə bir sıra elmi tədqiqatların obyekti olmuşdur. Bitməsinin 81-ci il dönümündə belə II Dünya müharibəsi hərbi-siyasi aspektləri baxımında aktuallığını itirməmişdir. Mövzunun aktuallığı ondan ibarətdir ki, müxtəlif hərbi-siyasi blokların və koalisiyaların nümayəndələri, eləcə də planetin bütün xalqları keçmiş müharibənin siyasi dərslərini qiymətləndirməkdə birbaşa və bilavasitə maraqlıdırlar. Qələbədən sonra böyüyən yeni nəsillər müharibə haqqında həqiqəti bilmək istəyirlər. Bu, gənclər üçün hərbi-vətənpərvərlik tərbiyəsinin əsas mənbələrindən birinə çevrilib. Təqdim olunan məqalədə II Dünya müharibəsinin başlaması və nəticələri araşdırılmışdır.

Açar sözlər: Dünya müharibəsi, qlobal münaqişə, faşizm, nasizm, humanitar fəlakət.

Giriş. Versalda 28 iyun 1919-cu ildə imzalanan sülh müqaviləsi Almaniyanın hakim dairələrinə görə mümkün qədər tez "düzəldilməli" olan milli rüsvayçılıq aktı idi. Cəmiyyətdə revanşist ideyaların yayılması yeni bir dünya müharibəsinin başlayacağından xəbər verirdi. Nəticə etibarilə Almaniyanın başlatdığı, İtaliya və Yaponiyanın aktiv dəstəklədiyi II Dünya müharibəsi baş verdi.

1933-cü ilin yanvarında Almaniyada nasistlərin hakimiyyətə gəlməsi ilə müharibənin ikinci və əsas alovlanma nöqtəsi Mərkəzi Avropada ortaya çıxdı. Almaniya dünyanı yenidən bölməyə və yeni bir nizam yaratmağa çalışdı. Almaniyaya bu işdə dəstək olan İtaliya 1935-ci ildən Efiopiyaya, 1936-1938-ci illərdə İspaniyaya qarşı müdaxilələrə başladı. Nəhayət 1938-ci ildə Avstriyanın ilhaqından sonra Avropa yeni bir fazaya, müharibə fazasına keçdi. [6, s.246]. Kollektiv təhlükəsizlik sisteminin yaradılması prosesində ən vacib mərhələlər SSRİ-Fransa və SSRİ-Çexoslovakiya qarşılıqlı yardım müqavilələri (1935) və 1936-cı ildə Millətlər Liqasında müharibənin eskalasiyasına qarşı vahid cəbhə yaratmaq cəhdləri idi.

Müharibə ərəfəsində Avropa. Faşizmin aqressiv təbiəti və siyasəti müharibədən əvvəlki dövrdə həlledici amillərdən birinə çevrildi. Hitler mizantrop ideyalarını hələ 1923-cü ildə yazılmış "Mein Kampf" əsərində ifadə etmiş və 1933-cü ilin fevralında Almaniyanın Reyx Kansleri təyin edildikdən sonra rəsmi olaraq "*Şərqdə yeni yaşayış məkanının fəthi və onun amansızcasına almanlaşdırılması*" kursunu elan etmişdir. Bu ideyalar tətbiq olunduqca Avropada gərginlik artdı. Vəziyyət getdikcə fundamental suala cavab tələb edirdi: nasistlərin artan təcavüzünü necə cilovlamaq olar? İki yanaşma ortaya çıxdı. Birincisi, kollektiv müqavimətin təşkili; ikincisi isə kompromis və "sakitləşdirmə" idi. O dövrün Qərb gücləri, qitədəki əksər ölkələr kimi, ikinci yolu seçdilər və nəticədə onun girovlarına çevrildilər [7, s.16]. Lakin hadisələrin sonrakı gedişatı bu qərarın son dərəcə yalnış olduğunu göstədi.

SSRİ-nin Kollektiv Təhlükəsizlik Sistemi Yaratmaq Mübarizəsi. 1939-cu ilin yayına qədər Moskva Hitlerin təcavüzkar istəklərinə kollektiv cavab təşkil etməyə çalışdı, Çexoslovakiyanın ərazi bütövlüyünün təminatlarından sonuna qədər imtina etmədi və bundan əvvəl ardıcıl olaraq Almaniyanın şərq sərhədlərində kollektiv təhlükəsizlik sistemi yaratmağa çalışdı. 1939-cu ilin iyun ayından avqust ayına qədər Moskvada Sovet-İngiltərə-Fransa danışıqları aparıldı. Lakin Qərb dövlətləri bərabərlik və qarşılıqlılıq prinsiplərinə əsaslanaraq təcavüzkara qarşı birgə mübarizə aparmaq üçün Sovet təşəbbüslərini dəstəkləmədi [3, s.10]. Faşist Almaniyasının Sovetlərə hücumunu ləngitmək və vaxt qazanmaq üçün SSRİ 23 avqust 1939-cu ildə qarşılıqlı hücum etməmək haqqında Molotov-Ribbentrop paktını

imzaladılar [14, s.496]. Nasist rejimi ilə razılığa gəlməsi SSRİ-nin siyasi imecinə zərbə vursa da, müharibəyə hazırlaşmaq üçün ona iki il vaxt qazandırdı.

İkinci Dünya Müharibəsi 1 sentyabr 1939-cu ildə Nasist Almaniyasının Polşaya hücumu ilə başladı. 1945-ci il sentyabrın 2-də Yaponiyanın təslim olması ilə başa çatdı. Müharibənin iştirakçıları iki cəbhəyə bölündü: nasist bloku (Almaniya, İtaliya və Yaponiya) və antihitler koalisiyası (SSRİ, ABŞ, Britaniya və Fransa). Məqalədə müharibənin gedişatı haqqında ətraflı şəhr verilməyəcək.

Müharibənin dağıdıcı qüvvəsi. Tam olmayan məlumatlara görə, Avropada hərbi dağıntılardan dəyən ümumi maddi ziyan 260 milyard dollar (1938-ci il qiymətləri ilə) olaraq qiymətləndirilirdi. Müharibə aparan dövlətlərin birbaşa hərbi xərcləri milli gəlirlərinin 60-70%-ni təşkil edirdi. İnsan itkiləri çox böyük idi: 80 milyona yaxın insan həlak oldu. Sovet İttifaqı ən çox zərər çəkdi: ölkənin ümumi insan itkisi 26.610.000 nəfər təşkil etdi [10, s.1]. Bunlardan 8,6 milyonu Qırmızı Ordu və Hərbi Dəniz Qüvvələrinin şəxsi heyəti cəbhə xəttində həlak oldu. Təxminən 4,5 milyon Sovet əsgəri əsir götürüldü. Bunlardan yalnız 1,8 milyonu evə qayıtdı. Qalanlarının demək olar ki, hamısı nasist həbs düşərgələrində məhv edilib. Cəbhə xəttində öldürülənlərin və əsir götürülən sovet hərbi əsirlərinin əksəriyyəti 1941-1942-ci illərə aiddir [9, s.548].

Almaniyada 9,4 milyona qədər insan (o cümlədən Vermaxtda 7,0 milyona qədər), Yaponiyada 2,3 milyon və İtaliyada 500 min nəfər həlak olub və itkin düşüb. Sovet-Alman cəbhəsində əsirlər də daxil olmaqla, Alman silahlı qüvvələrinin itkiləri 7,2 milyon, Müttəfiq ölkələrinin silahlı qüvvələri ilə birlikdə isə 8 milyondan çox olub [8, s.106].

Nasist bloku ölkələrinin hərbi əməliyyatları Alman və Yaponiya işğalı altında mülki əhaliyə qarşı misli görünməmiş vəhşiliklərlə müşayiət olunub. Milyonlarla Sovet vətəndaşı Almaniyaya kütləvi şəkildə məcburi deportasiya nəticəsində həlak olub və işğalçıların işğal etdiyi Sovet ərazisində məhv edilib. Onların ümumi sayı 13,7 milyona çatıb. Nasistlərin işğalı altında olan Polşada 4,1 milyon, Yuqoslaviyada 1,7 milyon, Yunanıstanda 450.000, Hollandiyada 210.000 və Belçikada 88.000 insan öldürüldü [11].Təcavüzkarların işğal etdiyi Asiya və digər ölkələrdə milyonlarla insan öldü.

Nasistlər bütöv xalqların milli xəzinələrini: sənayeni, şəhərləri, nəqliyyat yollarını və milli mədəniyyət mərkəzlərini məhv etdilər. Təkcə Avropada 23,6 milyon yaşayış binası, 14,5 milyon ictimai bina və sənaye müəssisəsi, 200.000 kilometrdən çox dəmir yolu dağıdıldı. Yuqoslaviyada nasistlər 350.000 evi, ölkənin nəqliyyat vasitələrinin 80%-ni, fabrik və emalatxanalarının 60%-ni və mal-qaranın 70%-ni dağıtdılar [12].

Polşada nasistlər ölkənin milli sərvətinin təxminən 40%-ni və sənaye müəssisələrinin demək olar ki, 65%-ni məhv etdilər. Sovet xalqına böyük maddi ziyan dəydi. 25 milyon insan evsiz qaldı. 1710 şəhər və qəsəbə, 70.000-dən çox kənd, 6 milyon bina, 32.000 sənaye müəssisəsi, 4100 dəmir yolu stansiyası və təxminən 63.000 kilometr dəmir yolu xətti, o cümlədən 1870 körpü və digər tikililər dağıdıldı [4].

Müharibə görünməmiş miqyasda və vəhşiliklə müşayiət olundu. Bütün Avropadan on bir milyon kişi, qadın və uşaq nasist ölüm düşərgələrində məhv edildi. Müharibə zamanı Almaniyanın sənayesi tamamilə tükəndi, ölkənin mənzil fondunun və infrastrukturunun 25%-i məhv edildi və sənaye müəssisələrinin 20%-i bərpa üçün yararsız hala düşdü. Almaniyanın istehsal gücü 1936-cı il səviyyəsinə, bəzi sektorlarda isə daha əvvəlki səviyyələrə endirildi. Məsələn, Almaniya 1936-cı ildə 384.000 ton kömür istehsal edirdisə, 1945-ci ilə qədər bu rəqəm cəmi 25.000 ton idi. Ölkənin bütün nəqliyyat sistemi məhv edildi. Mədəni irs ağır itkilərə məruz qaldı. Təxminən min memarlıq abidəsi xarabalığa çevrildi. Ölkənin əvəzsiz milli xəzinəsi olan kitabxana və arxiv kolleksiyalarının üçdə ikisi məhv edildi [13,s.17-18].

Müharibə dünyada güc balansını kəskin şəkildə dəyişdirdi. Müharibədən əvvəl böyük dövlətlər olan Almaniya, İtaliya və Yaponiya məğlub oldu və müvəqqəti olaraq xarici qoşunlar tərəfindən işğal edilmiş asılı ölkələrə çevrildi. Onların iqtisadiyyatı müharibə nəticəsində dağıdıldı və bir neçə il ərzində keçmiş rəqibləri ilə rəqabət apara bilmədilər. Müharibədən əvvəlki mövqeləri ilə müqayisədə Fransanın və hətta Böyük Britaniyanın mövqeləri xeyli zəiflədi. Bütün böyük kapitalist dövlətlər arasında yalnız ABŞ müharibədən xeyli güclü çıxdı.

Böyük Müharibənin təkrarlanmasının və hətta yeni təcavüz ocaqlarının yaranmasının qarşısını almaq üçün 26 iyun 1945-ci ildə San Fransisko Konfransında Birləşmiş Millətlər Təşkilatı (BMT) yaradıldı. Millətlər Liqası kimi, BMT də beynəlxalq problemlərin sülh yolu ilə həlli yolu ilə hərbi

münaqişələrin qarşısını almaq məqsədi daşıyırdı. Lakin Millətlər Liqasının təcrübəsi BMT təşkilatçılarını sülhü qorumaq üçün gücdən istifadə edilə biləcəyinə inandırdı. Daimi üzvləri arasında qalib ölkələr olan SSRİ, ABŞ, Böyük Britaniya, Fransa və Çin olan BMT Təhlükəsizlik Şurasına təcavüzkara sanksiyalar tətbiq etmək və hətta onlara qarşı beynəlxalq hərbi güc tətbiq etmək səlahiyyəti verildi.

Azərbaycan və II Dünya müharibəsi. Sonda Azərbaycan və azərbaycanlıların II Dünya müharibəsindəki iştirakına qısaca da olsa şərh verməyi mütləq hesab edirik. 1941-1945-ci illərdə 600 mindən çox azərbaycanlı cəbhəyə yollandı, onların 450 min nəfəri və ya 65 faizi orden və medallarla təltif olundu, 130 nəfər Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü [1]. Müharibədə iştirak edən soydaşlarımızın təxminən yarısı həlak oldu. Azərbaycanlılardan ibarət 416-cı, 402-ci, 396-cı, 223-cü, 77-ci və s. milli diviziyalar Simferopolun, Odessanın və digər şəhərlərin, 77-ci diviziya Polşa və Çexoslovakiyanın, 223-cü diviziya Yuqoslaviyanın azad olunmasında fəal iştirak etdi, 416-cı diviziya Qafqazdan Berlinə qədər böyük döyüş yolu keçdi, Berlinin süquta yetirilməsində xüsusi fəallıq göstərdi [2. s.370-371].

Nəticə. Qlobal fəlakətin nəticələri bütün bəşəriyyət üçün acı bir xəbərdarlıq idi. Müharibə dərsləri unudulmamalıdır; onların son istifadə tarixi yoxdur və bir çoxu bu gün də aktualdır. Bu dərslər göstərir: başqalarının təhlükəsizliyi hesabına öz təhlükəsizliyinizi təmin edə bilməzsiniz.Təcavüzün qarşısını almağın ən təsirli yolu kollektiv təhlükəsizlik, vahid səylər və qarşılıqlı yardımdır. Sülh bölünməzdir, onun təhlükəsizliyi də. Tarixin, xüsusən də İkinci Dünya Müharibəsinin tarixinin yenidən nəzərdən keçirilməsi və xüsusilə də yeni bölünmələr, ziddiyyətlər və qarşılıqlı ittihamlarla dolu olan nəticələrinin yenidən nəzərdən keçirilməsi cəhdləri təhlükəli, zərərli və qəbuledilməzdir. Müharibənin və onun milyonlarla qurbanının xatirəsi müqəddəs və toxunulmazdır; bu xatirə diqqətlə qorunmalı və böhtandan qorunmalıdır [5, s.421] İdeoloji fərqlər və qarşılıqlı şübhələr, təcavüzkarı başqalarının hesabına sakitləşdirmək istəyi ortaq strateji maraqlar və bu maraqları birlikdə müdafiə etmək qabiliyyətinin tanınmasından üstün olmamalıdır. Yalnız belə bir təməl üzərində hamı üçün təsirli, etibarlı və bölünməz qlobal təhlükəsizlik yaratmaq olar ki, bu da möhkəm beynəlxalq hüquqi çərçivəyə və dövlətlərin xəyali deyil, real çağırışlara və təhdidlərə cavab vermək üçün effektiv mexanizmlər qurmaq üçün kollektiv səylərinə əsaslanır.

ƏDƏBİYYAT

1. İsmayılov İ.Z. Azərbaycanlıların II dünya müharibəsində iştirakı. Bakı, 2000, 128 s.
2. Kərimov B. II Dünya müharibəsi illərində yaradılmış 396-cı Azərbaycan diviziyasının döyüş yolu (Milli Azərbaycan Tarixi Muzeyinin materialları əsasında) // Milli Azərbaycan Tarix Muzeyi. Məqalələr toplusu. Bakı. "Aspoliqraf", 2020, s.369-391.
3. Анфилов В.А. Провал плана Барбаросса // Ред. Л.П.Петренко. Москва: Знание, 1986, 64 с.
4. Вторая мировая война: Исторический очерк. Москва, Наука, 2002, 597 с.
5. Вторая мировая война и трансформация международных отношений. От многополярности к биполярному миру // Под.ред. Белоусова, Л.С.; Маныкина А.С. Москва, Издательство Московского университета, 2020, 885 с.
6. Клаузевиц К. О войне / Пер. с нем. А.К.Рачинского. Москва, АСТ, 2022, 340 с.
7. Кулаков В.В., Пономарев Ю.Н., Каширина Е.И. Проблемы войны и мира в XX–XXI вв. // Вестник Академии военных наук, 2019, № 1 (66), С.14–22.
8. Купцов В.П. Итоги Второй Мировой войны // Россия вчера и сегодня. Москва, 2008, с.102-110.
9. Мировые войны XX века. В четырех книгах. Москва: Наука, 2002, // Кн. 3. 597 с.
10. Никто не забыт: [Уточненные данные межведомственной комиссии по подсчету потерь в годы Великой Отечественной войны]// Военнопромышленный курьер. –2010. №18 (12–18 мая).
11. Поляков А.Е. Цена второй мировой войны. Демографический аспект. Москва, Финансы и статистика, 1985.136 с.
12. Проэктор Д. М. Мировые войны и судьбы человечества : размышления. Москва, Мысль, 1986, 961 с.

13. Цукертот И. Германский милитаризм и легенда о «превентивной войне» гитлеровской Германии против СССР // Военно-исторический журнал, 1991, № 5, с.16-21.
14. 1939 год: Уроки истории / АН СССР. Ин-т всеобщей истории; В.К.Волков, Р.М.Илюхина, А.А.Кошкин и др. Отв. ред. О.А.Ржешевский. – Москва, Мысль, 1990, 509 с.

САБИНА БАБАЗАДЕ
Руководитель отдела научно-популярных вопросов
Музея независимости Азербайджана при Министерстве культуры Азербайджанской Республики

ТРАГЕДИЯ ЧЕЛОВЕЧЕСТВО - ВТОРАЯ МИРОВАЯ ВОЙНА

Вторая мировая война, начавшаяся 1 сентября 1939 года с нападения нацистской Германии на Польшу, унесла жизни около 80 миллионов человек и поэтому считается одной из величайших катастроф в истории человечества. Конфликт, начавшийся с агрессии нацистской Германии, охватил почти весь мир и привел к разрушению целых стран, экономическому кризису и неизмеримым человеческим потерям.

Вторая мировая война, со всеми ее важнейшими проблемами, стала объектом многочисленных научных исследований. Даже в 81-ю годовщину ее окончания Вторая мировая война не утратила своей актуальности в военно-политическом плане. Актуальность темы заключается в том, что представители различных военно-политических блоков и коалиций, а также все народы планеты непосредственно заинтересованы в оценке политических уроков прошлой войны. Новые поколения, выросшие после Победы, хотят знать правду о войне. Это стало одним из главных источников военно-патриотического воспитания молодежи. В представленной статье рассматриваются начало и последствия Второй мировой войны.

Ключевые слова: Первая мировая война, глобальный конфликт, фашизм, нацизм, гуманитарная катастрофа.

SABİNA BABAZADEH
Head of the Department of Popular Science
Azerbaijan Independence Museum under the Ministry of Culture of the Republic of Azerbaijan.

THE TRAGEDY OF HUMANITY - WORLD WAR II

World War II, which began on September 1, 1939, with Nazi Germany's invasion of Poland, claimed the lives of approximately 80 million people and is therefore considered one of the greatest catastrophes in human history. The conflict, which began with Nazi Germany's aggression, engulfed almost the entire world and led to the destruction of entire countries, economic crisis, and immeasurable human losses.

World War II, with all its crucial problems, has become the subject of numerous scholarly studies. Even on the 81st anniversary of its end, World War II has not lost its relevance in military and political terms. The topic's relevance lies in the fact that representatives of various military-political blocs and coalitions, as well as all peoples of the planet, are directly interested in assessing the political lessons of the past war. New generations, raised after the Victory, want to know the truth about the war. This has become one of the main sources of military-patriotic education for young people. This article examines the beginning and consequences of World War II.

Keywords: World War II, global conflict, fascism, Nazism, humanitarian catastrophe.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 14 mart 2026-cı il.
Məqalənin çapa qəbul olunma tarixi: 21 may 2026-cı il.
Rəyçilər: t.ü.f.d. Yeganə Hacıyeva, t.ü.f.d Məmmədağa Bəxışov.

UOT 94(479.24); UOT 930

GÜNEL QULUZADƏ
İnşaat və Memarlıq Universiteti nəzdində İnşaat Kollecinin tarix müəllimi
günel.quluzade@icloud.com

HEYDƏR ƏLİYEV VƏ TARİX ELMİ

DOI: https://doi.org/10.36719/2708-065X/113/131-133

Məqalədə Azərbaycanın görkəmli dövlət xadimi Heydər Əliyevin tarix elminin inkişafındakı rolu araşdırılır. Onun rəhbərliyi dövründə milli tarixşünaslığın formalaşması,tarix elminin ideoloji təsirlərdən azad edilərək obyektiv əsaslar üzərində inkişafı xüsusi diqqət mərkəzində olmuşdur. Nəticə olaraq göstərilir ki, Heydər Əliyevin fəaliyyəti Azərbaycan tarix elminin müasir inkişaf mərhələsinin əsasını təşkil etmişdir.

Açar sözlər: Heydər Əliyev, tarix, təhsil, elm, irs.

Giriş. Tarix elmi hər bir xalqın milli yaddaşının formalaşmasında və dövlətçilik ənənələrinin araşdırılmasında mühüm rol oynayır. Azərbaycan tarixşünaslığının inkişafında müxtəlif mərhələlər müşahidə olunsa da, XX əsrin II yarısından etibarən bu sahədə sistemli dövlət siyasətinin həyata keçirilməsi xüsusi əhəmiyyət kəsb etmişdir. Bu siyasətin formalaşmasında və həyata keçirilməsində Heydər Əliyev mühüm rol oynamışdır. Bu baxımdan Heydər Əliyevin siyasi fəaliyyəti dövründə tarix elminə göstərilən diqqət və həyata krçirilən islahatlar Azərbaycan tarixşünaslığının inkişafında yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilir.

Əsas hissə. Bəşər cəmiyyətinin yaranmasında insan amili mühüm rol oynayıb. Bu işdə insanların toplum və fərd olaraq fəaliyyəti ön plana çıxır.Ona görə də bəşər tarixinin yaranmasında xüsusi xidməti olan görkəmli şəxsiyyətlər anlayışı meydana gəlir.Tarix yaradan şəxsiyyətlər arasında Ulu Öndər Heydər Əliyevin öz dəsti-xətti var. Heydər Əliyev tarix elmini milli ideologiyanın əsas komponentlərindən biri kimi dəyənləndirmişdir. Onun fikrinə görə tarix "xalqın yaddaşı"olmaqla yanaşı,həm də dövlətçilik ənənələrinin elmi əsaslarla təqdim edilməsini təmin edən vasitədir [1, s.138].

Azərbaycan SSR-yə rəhbərliyi dövründə Heydər Əliyev tarix elminin inkişafını diqqət mərkəzində saxlamışdır. AMEA Tarix institutunda milli ideologiyanın formalaşmasında mühüm rol oynayan bir sıra mövzuların tədqiqi işini nəzarətdə saxlamışdır [2, iş 56, v.7].

Heydər Əliyevin təşəbbüsü ilə elmi kadrların hazırlanması istiqamətində mühüm addım atılmışdır. Bu dövrdə aspirantura və doktorantura pilləsi inkişaf etdirilmişdir.Tarixçi kadrların hazırlanması üçün SSRİ-nin müxtəlif nüfuzlu universitetilərinə tələbə qəbulu həyata keçirilmişdir [3, iş 234, v.5-9].

Müstəqillik dövründə tarix elminin transformasiyası baş verdi. Heydər Əliyevin Müstəqil Azərbaycan Respublikasına pəhbərliyi dövründə elmin digər sahələri ilə yanaşı tarix elminin inkişafına dövlət qayğısı artırıldı. Tarixşünaslıq sovet metodologiyasının təsir dairəsindən çıxdı, yeni dərsliklər yazıldı, arxiv materiallarının dövriyyəsi genişləndi və milli tarix konsepsiyası hazırlandı [4, iş 78, v.22-30]. Bu konsepsiya çərçivəsində Azərbaycan dövlətçilik tarixinin qədim kökləri, milli azadlıq hərəkatları ön plana çıxarılmışdır.

Heydər Əliyev siyasətində tarixi irsin qorunması mühüm yer tutmuşdur. Onun təşəbbüsü ilə tarixi abidələrin bərpası, arxeoloji tədqiqatların genişləndirilməsi və beynəlxalq elmi konfransların təşkili həyata keçirilmişdir [5, iş 234, v.8].

Müstəqillik dövründə Azərbaycan tarix elmi beynəlxalq elmi mühitə inteqrasiya etməyə başlamışdır. Bu istiqamətdə xarici elmi əlaqələr genişlənmiş, beynəlxalq konfranslarda iştirak sayı artmış və xarici dillərdə nəşrlərin şəbəkəsi mühüm əhəmiyyət kəsb etmişdir [7, s.4].

Heydər Əliyev rəsmi mədəniyyət tədbirlərində çıxışlarında tarix elminin inkişafı ilə bağlı məsələyə xüsusi diqqət yetirmişdir. Bu çıxışlar tarix elmi üçün zəngin mənbə bazasıdır. Heydər Əliyevin məşhur "tarixini bilməyən xalq, gələcəyini qura bilməz" ifadəsi statusundan asılı olmayaraq hər bir vətəndaş üçün bir örnəkdir [8, 1cild, s.45-47].

Tarix elmi insanların fəaliyyəti nəticəsində meydana gələn hadisə və prosesləri öyrənir. Tarixin təbiəti insandır, istər fərd olsun,istərsədə cəmiyyət hər iki halda əsas yaradıcı qüvvə insandır. Odur ki, bəzi araşdırmaçı alimlər hesa edirlər ki,tarix böyük işlər görmüş şəxsiyyətlərin fəaliyyəti, insanların bacardığı işlərin, yer üzərində çalışmış böyük adamların tarixidir. Dünyada qazanılmış uğurlar görkəmli adamların fikir və düşüncələrinin konkret maddi nəticələridir. Bu mövqedən yanaşdıqda dünya tarixinin ruhunu böyük insanlar təşkil edir. Həmin insanlar dahilər, dühalar və ya qəhrəmanlar olaraq qiymətləndirilir [7, s.4]. Hər bir xalq öz tarixi şəxsiyyətləri ilə fəxr edir. Müasir dünya yaranandan bəri böyük şəxsiyyətlər yaşayıb yaratdıqları, fəaliyyət göstərdikləri siyasi, iqtisadi və sosial-mənəvi prosesləri öz xalqlarının gələcəyi naminə irəliyə aparmaqla adlarını əbədi olaraq tarixə yazmışlar. Bu tarixi şəxsiyyətlərin irsi gələcək nəsillər üçün Milli inkişaf konsepsiyasıdır.

Müasir Azərbaycan Respublikasının banisi, xalqının və dövlətinin müstəqilliyi, inkişafı naminə böyük işlər görmüş, bununla bağlı tarixi proseslərə təsir göstərmiş Heydər Əliyev hər zaman qürur hissi ilə xatırlayacağımız dahi şəxsiyyətdir [14, №134, s.5]. Heydər Əliyev Azərbaycan xalqının və dövlətinin taleyükiü problemlərini həll edən tarixi şəxsiyyət olmaqla yanaşı,həm də tarixi yaradan şəxsiyyətdir. Ulu Öndərin Azərbaycan tarixinə bəxş etdiyi əzəmətli bayram günlərindən biri də məhz 15 iyun Qurtuluş günüdür.1993-cü il 15 iyun günü dövlətçilik tarixi üçün başlanğıc olmaqla yeni bir mərhələdir. Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrində dönüş yarandı, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı [1, s.138; 11, 7-ci kitab, s.189; 9, s.110].

XX əsr Azərbaycanın görkəmli şəxsiyyətləri içərisində Heydər Əliyev irsi xüsusi rol oynayır. Dövlətçilik tarixi, Müstəqillik ideyası, Milli Təhlükəsizlik, Milli inkişaf strategiyası, milli-mənəvi dəyərlərin qiymətləndirilməsi və hərbi vətənpərvərlik kursu Heydər Əliyev irsinin təməl prinsipidir. Bu dəyərlər sistemi əsasında milli dövlətçilik konsepsiyası hazırlanmışdır.

Nəticə. Aparılan tədqiqatlar göstərir ki, Heydər Əliyevin fəaliyyəti Azərbaycan tarix elminin inkişafında mühüm rol oynamışdır. Nəticədə tarixşünaslığın elmi-tədqiqat bazası güclənmiş və milli tarix konsepsiyası formalaşmışdır. Bu baxımdan Heydər Əliyevin fəaliyyəti Azərbaycan tarix elminin inkişafında mühüm mərhələ kimi qiymətləndirilməlidir.

Azərbaycan Respublikası 35 illik müstəqillik tarixində bir çox inkişaf etmiş dövlətlərin onilliklər boyu keçdiyi inkişaf mərhələlərini sürətlə geridə qoymuşdur. Azərbaycan iqtisadi inkişaf tempinə görə artıq qüdrətli bir dövlətə çevrilmişdir. Azərbaycan Respublikası öz müstəqilliyinə qovuşduqdan sonra ölkənin davamlı inkişafını şərtləndirəcək idarəetmə sisteminin qurulması istiqamətində davamlı addımlar başlamışdır. Qeyd edildiyi kimi, Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra səmərəli idarəetmənin konseptual əsaslarının yaradılması, normativ-hüquqi bazasının zənginləşdirilməsi istiqamətində ciddi tədbirlər həyata keçirilmişdir.

ƏDƏBİYYAT

1. Naxçıvan Ensiklopediyası. Bakı, Uniprint Basım San. ve Tic.A.Ş. S.337
2. Azərbaycan Milli Kitabxanası. Əlyazma və nadir fond materialları, f.12, siy.3, iş 56.
3.Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA), f.1, siy.89, iş 45.
4. Azərbaycan Respublikas Dövlət Arxivi f.101, siy.2, iş78, v.22-30. .
5.Azərbaycan Respublikası Dövlət Arxivi f.57, siy.1, iş 234, v.5-9.
6.Azərbayca Respublikası Dövlət Arxivi f.1, siy.89, iş 45, v.12-18.
7. Abbasov E., Ağahüseynli R. Azərbaycan: tarix və zaman. Baku, Uniprint, 2015, s. 200.
8. Azərbaycan tarixi məsələləri. Bakı, Elm nəşriyyatı 2002, s.280.
9. Heydər Əliyev. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Bakı, Azərbaycan nəşriyyatı 2001, s.395.
10. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Bakı, Azərnəşr, 1997-2003. I cild, s.588.
11. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. 1997-2000. 7-ci kitab, s.189.
12. Həsənov Ə Beynəlxalq münasibətlər. Bakı, Bakı Dövlət Universiteti nəşriyyatı 2005, s.600.
13. Əliyev İ. Azərbaycanın siyasi tarixi. Bakı, Elm nəşriyyatı 2003, s.390.

14. Məmmədov Nuru. Heydər Əliyev və Azərbaycan tarixi / "Respublika"qəzeti, 2019, 23 iyun, №134, s.5.

ГЮНЕЛЬ ГУЛУЗАДЕ
Преподаватель истории в Колледже строительства при Университете гражданского строительства и архитектуры

ГЕЙДАР АЛИЕВ И ИСТОРИЧЕСКАЯ НАУКА

В данной статье рассматривается роль выдающегося государственного деятеля Гейдара Алиева в развитии исторической науки Азербайджана. Отмечается, что в период его руководства особое внимание уделялось формированию национальной историографии и освобождению исторической науки от идеологических ограничений. Делается вывод о том, что деятельность Гейдара Алиева заложила основу современного этапа развития исторической науки Азербайджана.

Ключевые слова: Гейдар Алиев, история, образование, наука, наследие.

GUNEL GULUZADE
History teacher at the College of Construction under the University of Civil Engineering and Architecture

HEYDAR ALIYEV AND HISTORY SCIENCE

This article examines the role of Haydar Aliev, an outstanding statesman of Azerbaijan, in the development of historical science. It highlights his contribution to the formation of national historiography and the promotion of an objective, ideology-free approach to historical research. It concludes that Heydar Aliyev`s activities laid the foundation for the modern development of historical science in Azerbaijan.

Keywords: Heydar Aliyev, history, education, science, heritage.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 30 mart 2026-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 21 may 2026-cı il.
Rəyçilər: t.ü.f.d. Ələmdar Şahverdiyev, t.e.d. İbrahim Zeynalov.

UOT 94(479.24); UOT 94; UOT 32:93/94

ZƏHRA CƏFƏRLİ
Bakı Dövlət Universiteti I kurs doktorantı
zehradjafarli@gmail.com

AZƏRBAYCAN – ÖZBƏKİSTAN MÜNASİBƏTLƏRİNDƏ MƏDƏNİ DİPLOMATİYA VƏ YUMŞAQ GÜC

DOI: https://doi.org/10.36719/2708-065X/113/134-138

Məqalə Sovet İttifaqının dağılmasından sonra formalaşan yeni beynəlxalq münasibətlər sistemində Türk dünyası dövlətlərinin mədəni diplomatiya və yumşaq güc siyasətini Azərbaycan-Özbəkistan münasibətləri nümunəsində araşdırır. Tədqiqatda Türk dünyasında mədəni inteqrasiyanın əsas alətləri, beynəlxalq və regional təşkilatların fəaliyyəti, eləcə də Azərbaycan və Özbəkistan arasında mədəni, elmi və təhsil sahəsində əməkdaşlıq nümunələri təhlil olunur. Məqalədə ortaq mədəni tədbirlər, mədəniyyət günləri, festivallar, mədəni mərkəzlərin fəaliyyəti və təhsil mübadiləsi yumşaq güc siyasətinin mühüm elementləri kimi qiymətləndirilir. Azərbaycan və Özbəkistan arasında mədəni və elmi əməkdaşlıq Türk dünyasında qarşılıqlı etimadın möhkəmlənməsinə və regional inteqrasiyanın dərinləşməsinə xidmət etməsi əsaslandırılır.

Açar sözlər: Azərbaycan-Özbəkistan münasibətləri, Türk Dünyası, Yumşaq güc, mədəni diplomatiya, TÜRKSOY, Beynəlxalq Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi fondu, Daşkənddə Heydər Əliyev adına Mədəniyyət Mərkəzi.

Giriş. Sovet Rusiyasının süqutu ilə beynəlxalq aləmdə qlobal kataklizm və geosiyasi reallıqlar fonunda yeni münasibətlər sisteminin formalaşması çoxqütblü bir dünya nizamının yaranması ilə nəticələndi. Türk dünyası bu nizamda yeni bir tərəf olaraq çıxış edə bilmək, dəyişən güc balansları arasında öz sözünü deyə bilmək üçün ikitərəfli və çoxtərəfli münasibətlərin inkişafına böyük əhəmiyyət verir. Müasir dövrdə sürətlə inkişaf edən Özbəkistan və Türk dünyasının mərkəzi sayılan Azərbaycan XX əsrin sonundan başlayan və XXI əsrdə daha da intensivləşən əlaqələr ilə Türk dünyasında baş verən inteqrasiya prosesində fəal iştirak etmişlər. Qədim tarixə, yaxın adət-ənənələrə malik bu iki dövlət arasında münasibətlər hələ SSRİ-nin tərkibində olarkən ortaq mədəni təməllər üzərində formalaşmışdır. Müasir dövrdə bu münasibətlərin tərkib hissəsi kimi mədəni əlaqələr hər iki dövlətin uzaqgörən liderlərinin fəaliyyəti və keçirilən ortaq tədbirlər çərçivəsində inkişaf etməkdədir.

Türk dünyası daxili əməkdaşlıqda mədəni diplomatiya və yumşaq güc siyasəti. Türk dünyası ifadəsi ilk baxışda siyasi bir termin kimi görünsə də, mədəni konseptlə daha çox səsləşən bir anlayış kimi qəbul edilir. Bu termin Türk dövlətlərinin sərhədlərini aşaraq ortaq dil, mədəniyyət və tarixə malik bütün türk xalqlarını əhatə edir. Diplomatiyanın bütün digər növləri kimi mədəni diplomatiya da xarici siyasətdə alət olaraq istifadə edilir. Mədəni diplomatiya zamanla yüksələn və digər xalqlara təhdid yaradan hegemoniyaya qarşı öz varlığını qorumağın vasitəsi kimi və ya sivilizasiyaların toqquşmasının qarşısını alan bir alət kimi xidmət göstərə bilər. Bu baxımdan Türk dövlətləri mədəni diplomatiyadan effektiv şəkildə istifadə edərək regionda dinc birgəyaşayışı təmin edir [1]. 1993-cü ildə Türkiyə, Azərbaycan, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan Respublikalarının Mədəniyyət Nazirlikləri tərəfindən əsası qoyulan TÜRKSOY Türk dünyasında ortaq mədəniyyəti inkişaf etdirərək qardaşlıq və əməkdaşlıq əlaqələrini gücləndirməyi hədəf götürmüşdür. Beynəlxalq Türk Akademiyası və Türk Mədəniyyəti və İrsi fondu ilə birgə fəaliyyət göstərən TÜRKSOY həyata keçirdiyi layihələrdə UNESCO, ICESCO, MDB-nin iştirakçısı olan ölkələrin Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondu kimi beynəlxalq təşkilatlarla əməkdaşlıq edir [2]. Yeni dünya nizamında qloballaşmanı sürətləndirən amillərdən biri olaraq görülən yumşaq güc mədəni və siyasi dəyərlərin, həyat tərzinin digər ölkələr tərəfindən qəbul edilməsinə xidmət edir. Başqa sözlə müasir dövrdə dövlətlər öz geosiyasi mövqeyinin təhlükəsizliyi üçün hərbi güc əvəzinə mədəni və ideoloji təsirdən istifadə edirlər. Azərbaycan və Mərkəzi Asiya türk dövlətlərinin müstəqilliyini əldə etdikdən sonra qarşılarında duran əsas məsələlərdən biri xarici siyasət xəttinin müəyyən edilməsi və milli kimlik məsələsi olmuşdur.

SSRİ-nin dağılması bir tərəfdən Türkiyənin bölgədə təhlükəsizliklə bağlı narahatlığını azaltmışsa, digər tərəfdən postsovet məkanında, xüsusən Mərkəzi Asiyada təsirini artırmağa şərait yaratmışdır. Mərkəzi Asiya türk dövlətlərini iqtisadi inkişaf və infrastrukturun yaxşılaşdırılması baxımından dəstəkləyən TİKA, buradakı təhsil müəssisələri ilə əməkdaşlıq edən Yunus Əmrə İnstitutu, Türkiyə Diyanət Vəqfi və başqa qurumlar həm də Türkiyənin yumşaq güc siyasətini həyata keçirməyə xidmət göstərir. Mədəniyyət, ideologiya, institut və təşkilatlarla sıx bağlı bir anlayış olan yumşaq güc bunların zəngin olduğu bir dövlət üçün daha təsirli alətə çevrilir. Bu mənada Azərbaycan hərbi gücdən yalnız özünü müdafiə üçün istifadə edərək xarici siyasətdə diasporanın yaradılması, digər dövlətlərlə mədəni əlaqələrin gücləndirilməsi, din, incəsənət, idman, humanitar və digər sahələrdə tədbirlərin, konfransların keçirilməsi çərçivəsində yumşaq gücdən istifadə edir [3]. 2016-cı ildən bəri xarici siyasətdə yumşaq güc strategiyası formalaşdıran Özbəkistan bu sahədə turizm, tarixi şəxsiyyətlər və ənənələri özündə əks etdirən tədbirlər, festivallar və regionda digər dövlətlərlə güclənən əlaqələri vasitəsilə Mərkəzi Asiyada Qazaxıstandan sonra liderliyi ələ ala bilmişdir [4].

Azərbaycan-Özbəkistan münasibətlərində mədəni diplomatiya – ortaq mədəni tədbirlər. Zəngin tarixi ənənələrə malik Özbəkistan və Azərbaycan Respublikaları arasında məndəni əlaqələrin güclənməsi Türk dünyasının birliyinə, mədəni diplomatiyanın inkişafına əhəmiyyətli töhfədir. İki qardaş xalq arasında mədəni əlaqələr sovet dönəmində də xeyli inkişaf etmişdir. 1979-1980-ci illərdə Azərbaycanda Özbəkistanın, Özbəkistanda isə Azərbaycanın ədəbiyyat və incəsənət günləri keçirilmişdir. Hazırda 70 minə yaxın azərbaycanlı Özbəkistan cəmiyyətinin sosial, ictimai, iqtisadi və digər sahələrində iştirak edir [5]. Müstəqilliyin əldə edilməsindən sonra hər iki dövlət arasında mədəni əlaqələr yeni mərhələyə qədəm qoydu. Bu əlaqələr qarşılıqlı "Mədəniyyət günləri"nin, ortaq media forumları və mədəni mərkəzlərin fəaliyyətləri vasitəsilə sürətlə inkişaf edir. Bundan başqa Azərbaycanda keçirilən "Xarı Bülbül" beynəlxalq festivalı, "Vaqif pozeiya günləri"ndə özbək sənətçilər, Özbəkistanda keçirilən "Şərq təranələri", "Şəhrisəbz" Beynəlxalq muğam festivallarında isə azərbaycanlı sənətçilər iştirak etmişlər [12, s.36]. Təsadüfi deyil ki, Azərbaycanın ilk mədəni mərkəzi 2010-cu ildə məhz Daşkəndin Mirovad rayonunda, Ümumilli lider Heydər Əliyevin adını daşıyan küçədə açılmışdır. Mərkəzin əsas vəzifələri Özbəkistanla humanitar və mədəni əlaqələrin yaradılması, həmiçinin Azərbaycan dili və ədəbiyyatının öyrənilib təbliğ edilməsidir. Mərkəzin layihəsi ilə hər il Özbəkistanda Azərbaycanın öyrənilməsinə diqqət və marağı artıran "Azərbaycan haqqında ilin ən yaxşı məqaləsi" müsabiqəsi təşkil olunur [6]. 2017-ci ildə Özbəkistanda fəaliyyət göstərən Beynəlxalq Babur Fondunun Azərbaycan bölməsi açılmışdır. 2022-ci ilin 16-22 oktyabr tarixlərində Özbəkistanın Daşkənd, Buxara, Nəvai və Səmərqənd şəhərlərində "Azərbaycan mədəniyyəti və ədəbiyyatı günləri" keçirilmişdir [7]. 1-4 avqust 2023-cü ildə Azərbaycanda keçirilən Özbəkistan mədəniyyət günləri çərçivəsində tanınmış özbək sənətçilərinin iştirakı ilə konsert proqramı, teatr tamaşalarının nümayişi və kitab sərgisində özbək ədəbiyyatının görkəmli nümayəndəsi Abdulla Qədirinin "Ötən günlər" əsərinin Azərbaycan dilində yeni tərcümə olunmuş nəşrinin təqdimat mərasimi keçirilmişdir [8]. Növbəti ilin iyun ayında isə Daşkənddə Azərbaycan mədəniyyət günləri keçirilmişdir. Həmin günlər Özbəkistan Yazıçılar ittifaqında "Məhəmməd Füzuli və Əlişir Nəvai: ortaq ədəbi-mədəni dəyərlər" mövzusunda keçirilən konfrans, sərgi və tamaşalarla yadda qalmışdır [9].

Azərbaycan-Özbəkistan münasibətlərində elm və təhsil yumşaq güc siyasətinin aləti kimi. Müasir dövrdə dövlətlər təhsil mübadiləsi və təqaüdündən əlaqələr yaratmaq, beynəlxalq prestiji artırmaq üçün istifadə etdiyindən deyə bilərik ki, təhsilin yumşaq güc siyasətində rolu böyükdür. Xaricdə təhsil, təhsil proqramı və mübadiləsi üçün imkanlar yaradan təhsil diplomatiyası dövlətlərarası diplomatik münasibətlərin və beynəlxalq əməkdaşlığın yaradılmasında ən effektiv üsullardan biridir. Müstəqillikdən sonra Türkiyənin də təşəbbüsü ilə Azərbaycan və Mərkəzi Asiya türk dövlətləri ilə elmi-texniki sahədə əməkdaşlıq formalaşdı. Hələ 1996-cı ildə Azərbaycanda rəsmi səfərdə olan İslam Kərimovla iki dövlət arasında təhsil əlaqələrinin inkişafı barədə müqavilə imzalanmışdır. Günümüzdə Azərbaycan və Özbəkistan arasında elm və təhsil mübadiləsi, birgə elmi konfranslar və müsabiqələr çərçivəsində əlaqələr inkişaf etməkdədir. 2024-cü ildə Azərbaycan Dövlət Pedaqoji Universiteti ilə Daşkənd Pedaqogika və İqtisadiyyat İnstitutu arasında imzalanmış memorandum birgə elmi konfransların, tələbə-müəllim mübadiləsinin həyata keçirilməsi və elmi, pedaqoji istiqamətlərdə əməkdaşlığın genişlənməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Özbəkistan həmçinin Qarabağın işğaldan azad

edilmiş ərazilərində bərpa və yenidənqurma işlərinə yardım təşəbbüsü göstərən ilk dövlət olmuşdur. 30 ildən sonra ilk tədris ilinin zəngi çalınan məktəblərdən biri də Özbəkistan tərəfindən hədiyy olaraq inşa edilmiş Mirzə Uluqbəy adına məktəb oldu. 2025-ci ilin iyul ayında Azərbaycan Respublikasının Təhsil naziri E. Əmrullayevin Özbəkistan Respublikasının nümayəndə heyəti ilə görüşündə qeyd etdiyi kimi, Azərbaycan və Özbəkistan arasında təhsil sahəsində ciddi və dərin əməkdaşlıq mövcuddur. Görüş çərçivəsində "Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında elm, peşə təhsili, ali təhsil sahəsində əməkdaşlığa dair Saziş" imzalanmış, Özbəkistanda 50-ə yaxın azərbaycanlı tələbənin təhsil aldığı vurğulanmışdır [10]. Həmin ilin dekabrında isə Bakı Mühəndislik Universiteti və Mirzə Uluqbəy adına Özbəkistan Milli Universiteti arasında razılıq əldə olunmuşdur. Rektorların görüşü zamanı ikili diplom proqramlarının təşkili və akademik mobil imkanlarının genişləndirilməsi kimi məsələlər müzakirə edilmişdir [11]. 2026-cı ilin yanvar ayında Azərbaycan və Özbəkistan arasında birgə elm müsabiqəsi elan edilib. Müsabiqənin məqsədi hər iki ölkədən alimlərin birgə elmi layihələrin hazırlanmasına təşviq olunmasıdır. 2025-2026-cı tədris ilindən Özbəkistanın bir sıra universitetlərində Azərbaycan dilinin tədrisi təşkil edilməkdədir [12, s.37]. Son illərdə Azərbaycan ali məktəblərini flaqmanı Bakı Dövlət Universiteti də Özbəkistanın ali təhsil müəssisələri ilə əməkdaşlığını artıqmaqdadır. Bu çərçivədə 20-dən artıq Özbəkistan universiteti ilə müqavilələr imzalanmışdır [12, s.37].

Azərbaycan-Özbəkistan mədəni münasibətlərində həmçinin qardaşlaşmış şəhərlər layihəsi də əhəmiyyətli yer tutmaqdadır. Ümumilikdə, Azərbaycan və Özbəkistanın 10 şəhəri arasında qardaşlaşma müqaviləsi imzalanmışdır: İsmayıllı – Riştan (noyabr 2018), Gəncə - Səmərqənd (fevral 2023), Şuşa -Xivə (fevral 2023), Lənkəran – Buxara (fevral 2023), Şəki – Kokand (fevral 2023), Mingəçevir – Namanqan (may 2024), Füzuli – Gülüstan (may 2024), Biləsuvar – Termez (may 2024), Quba – Cizak (avqust 2024), Beyləqan – Səhrisəbz (avqust 2024) [12, s.40-41].

Nəticə. XX əsrin sonlarından etibarən müstəqil xarici siyasət yeridən türk dövlətləri yeni dünya nizamında Mərkəzi Asiya və Qafqaz regionunun böyük güc dövlətləri arasında rəqabət bölgəsinə çevrilməsi ilə ikitərəfli və çoxtərəfli əlaqələri genişləndirmiş, Türk Dövlətləri Təşkilatı və TÜRKSOY vasitəsi ilə siyasi və mədəni sahədə birliyi təmin etməyə çalışmışlar. Mədəni sahədə görülən ortaq tədbirlər Mərkəzi Asiyanın sadəcə coğrafi ad olaraq deyil, həmçinin ticarət, turizm və mədəniyyət mərkəzi kimi tanınmasına gətirib çıxarır. Azərbaycan və Özbəkistan arasında mədəni əlaqələr bir tərəfdən Türk Dünyasında gedən inteqrasiya prosesinə təkan verərkən digər tərəfdən qlobal səviyyədə mədəni diplomatiya və yumşaq güc siyasətinin tərkib hissəsi olaraq inkişaf edir. Bu baxımdan iki dövlət arasındakı münasibətlər mədəni sahədə strateji ortaqlıq səviyyəsinə yüksəlmişdir.

ƏDƏBİYYAT

1. Fırat Purtaş: Cultural diplomacy initiatives of Turkic Republics // Perceptions, Spring 2017, Volume XXII, Number 1, pp.91-114. https://dergipark.org.tr/en/download/article-file/815555 [10.04.2026].
2. Ferhat Can Ozar: TÜRKSOY'UN Türk kültür diplomasisine katkıları ve geleceği / XI Beynəlxalq Türk Dünyası Araşdırmaları Simpoziumu, 11-13 iyun 2024. Bakı, s.165-173. - https://www.utudas.org/Makaleler/2128563602_XI.%202C.%2021.pdf [10.04.2026].
3. Bahar Özsoy: Soft Power concept and cultural cooperation of Azerbaijan with the Central Asian Turkic states // Turkish Studies – Economics Finance Politics, January 2024, Volume 19, Issue 3, p.997-1016. - https://www.researchgate.net/profile/Bahar-Oezsoy/publication/384679472_Yumusak_Guc_Anlayisi_ve_Azerbaycan%27in_Orta_Asya_Turk_Devletleriyle_Kulturel_Is_Birligi/ [10.04.2026].
4. Yeni Özbekistan'ın yumuşak gücü / Analiz gazetesi, 20.12.2023. - https://analizgazetesi.com.tr/haber/yeni-ozbekistanin-yumusak-gucu-5597/ [10.04.2026].
5. Türk Dünyasının birliyinə əhəmiyyətli töhfə - Azərbaycan-Özbəkistan münasibətləri / Azərbaycan qəzeti, 22 avqust 2023, s.4. - https://anl.az/down/meqale/azerbaycan/2023/avqust/863193(meqale).pdf [10.04.2026].

6. Samir Abbasov: Özbəkistan-Azərbaycan ədəbi-mədəni əlaqələrinin inkişafında Heydər Əliyev adına Mədəniyyət Mərkəzinin rolu // Müqayisəli ədəbiyyatşünaslıq, 2020, №1, s.30-35. - https://www.anl.az/down/meqale/muq_edebiyyat/2020/01/775117(meqale).pdf [10.04.2026].
7. Azərbaycan-Özbəkistan mədəni əlaqələri tarixi təməllər üzərində inkişaf edir və zənginləşir / AZƏRTAC, 31.07.2023. - https://news.milli.az/culture/1135614.html [10.04.2026].
8. Milli kitabxanada "Azərbaycanda Özbəkistan mədəniyyəti günləri" çərçivəsində "Özbəkistan ədəbiyyatı və incəsənəti" guşəsinin açılışı və özbək ədəbiyyatının görkəmli nümayəndəsi Abdulla Qədirinin "Ötən günlər" əsərinin təqdimat mərasimi keçirildi / Azərbaycan Milli Kitabxanası, Avqust 02.2023. - https://www.millikitabxana.az/news/ozbek-gunleri-tedbiri [10.04.2026].
9. Özbəkistanda Azərbaycan mədəniyyət günləri başlayır / AZƏRTAC, 10.06.2024. - https://azertag.az/xeber/ozbekistanda_azerbaycan_medeniyyeti_gunleri_baslayir-3048666 [10.04.2026].
10. Nazir:Azərbaycanla Özbəkistan arasında təhsil sahəsində ciddi və dərin əməkdaşlıq mövcuddur / Azərbaycan müəllimi, 03.07.2025. - https://muallim.edu.az/nazir-azerbaycanla-ozbekistan-arasinda-tehsil-sahesinde-ciddi-ve-derin-emekdasliq-movcuddur [10.04.2026].
11. Azerbaijan, Uzbekistan forge partnesrhip for education and research / AZERNEWS, 01.12.2025. - https://www.azernews.az/culture/250970.html [10.04.2026].
12. Sevinc Ruintən. Müstəqillik illərində Azərbaycan-Özbəkistan mədəni əlaqələrinin inkişafinda qardaşlaşmiş şəhərlərin yeri və rolu / "O'zbekiston-Ozarbayjon Adabiy Aloqalar va Hamlkorlik İstiqbolları" mavzusindagi xalqaro ilmiy-amaliy konferensiya materialları. 10 oktyabr 2025. T.: "Best-publish" nashriyoti, 2025, s.33-48. - DOI: 10.5281/zenodo.17657509

ЗАХРА ДЖАФАРЛИ
Докторант Бакинского государственного университета

КУЛЬТУРНАЯ ДИПЛОМАТИЯ И МЯГКАЯ СИЛА В АЗЕРБАЙДЖАНО-УЗБЕКСКИХ ОТНОШЕНИЯХ

После распада Советского Союза формирование нового многополярного мирового порядка способствовало активизации двусторонних и многосторонних отношений государств тюркского мира. В этом контексте Азербайджан и Узбекистан, опираясь на общие исторические, культурные и духовные ценности, укрепляют сотрудничество посредством культурной дипломатии и политики «мягкой силы». В статье с теоретической точки зрения анализируется роль культурной дипломатии и мягкой силы в тюркском мире, а также рассматривается их значение для углубления регионального взаимодействия. На примере азербайджано-узбекских отношений исследуются совместные культурные мероприятия, дни культуры, фестивали, деятельность культурных центров, а также сотрудничество в сфере науки и образования. В результате становится ясно, что культурная дипломатия и образовательное сотрудничество играют важную роль в выводе двусторонних отношений на стратегический уровень и в укреплении интеграционных процессов в тюркском мире.

Ключевые слова: Азербайджанско-узбекские отношения, тюркский мир, мягкая сила, культурная дипломатия, TURKSOY, Международная тюркская академия, Фонд тюркской культуры и наследия, Культурный центр Гейдара Алиева в Ташкенте.

ZAHRA JAFARLİ
PhD student, Baku State University

CULTURAL DIPLOMACY AND SOFT POWER IN AZERBAIJAN-UZBEKISTAN RELATIONS

After the collapse of the Soviet Union, the emergence of a new multipolar world order encouraged the states of the Turkic world to prioritize the development of bilateral and multilateral relations. In this context, Azerbaijan and Uzbekistan have strengthened their cooperation based on shared histo-

rical, cultural, and spiritual values through cultural diplomacy and soft power policies. This article analyzes the role of cultural diplomacy and soft power in the Turkic world from a theoretical perspective and examines their importance in deepening regional cooperation. Using the example of Azerbaijan–Uzbekistan relations, the study explores joint cultural events, cultural days, festivals, cultural centers, as well as cooperation in science and education. As a result that cultural diplomacy and educational cooperation play a significant role in elevating bilateral relations to a strategic level and in strengthening integration processes within the Turkic world.

Keywords: Azerbaijan-Uzbekistan Relations, Turkic World, Soft Power, Cultural Diplomacy, TURKSOY, International Turkic Academy, Turkic Culture and Heritage Foundation, Heydar Aliyev Cultural Center in Tashkent.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 10 aprel 2026-cı il.
Məqalənin çapa qəbul olunma tarixi: 21 may 2026-cı il.
Rəyçilər: t.e.d. Əsməd Muxtarova, t.e.d. İsmayıl Məmmədov.

UOT 94(479.24)

BƏXTİYAR ƏLİYEV
Ağcəbədi Pedaqoji Kollecinin müəllimi
Vətən Müharibəsi qazisi
TarixVeOnunProblemleri@gmail.com

TÜRKİYƏ VƏ AZƏRBAYCAN ARASINDA HƏRBİ-STRATEJİ ƏMƏKDAŞLIĞIN SİYASİ-NƏZƏRİ MƏSƏLƏLƏRİ

DOI: https://doi.org/10.36719/2708-065X/113/139-145

"Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı əbədidir, sarsılmazdır. Biz çalışacağıq ki, bu dostluğu, qardaşlığı gündən-günə möhkəmlədək və yüksəklərə qaldıraq".

Ümummilli lider Heydər Əliyev

Məqalədə Türkiyə və Azərbaycan arasında hərbi-siyasi əməkdaşlıq barədə tarixi məlumatlar yer alır. Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda aparılan hərbi əməliyyatlar və strateji müttəfiq olan Türkiyə Respublikası ilə davamlı əməkdaşlıq barədə fikirlər də həmçinin bu yazıda göstərilmişdir. İki dövlət arasında hərbi-strateji əməkdaşlıq regional təhlükəsizlik ehtiyacları nəzərə alınmaqla inkişaf etdirilməsi, eyni zamanda Azərbaycan və Türkiyənin hər sahədə tam bir müttəfiq olmaları məqalədə vurğulanmışdır.

Açar sözlər: Əməkdaşlıq, siyasət, regional təhlükəsizlik, doktrina, hərbi təcavüz, ərazi bütövlüyü.

Giriş. Azərbaycan və Türkiyə arasında münasibətlər ortaq tarixi köklər, milli-mədəni dəyərlər və qarşılıqlı etimada əsaslanan unikal xarakter daşıyır. Bu münasibətlər təkcə siyasi və iqtisadi sahələrlə məhdudlaşmayaraq, xüsusilə hərbi-strateji əməkdaşlıq müstəvisində dərin və sistemli şəkildə inkişaf etmişdir. Ümummilli lider Heydər Əliyev tərəfindən səsləndirilən "bir millət, iki dövlət" konsepsiyası Azərbaycan-Türkiyə əlaqələrinin ideoloji əsasını təşkil edərək, bu əməkdaşlığın strateji mahiyyətini müəyyənləşdirmişdir.

Müstəqilliyin ilk illərindən etibarən Türkiyə Azərbaycanın dövlət quruculuğu prosesində mühüm rol oynamış, beynəlxalq aləmdə mövqelərinin möhkəmlənməsinə, təhlükəsizliyinin təmin olunmasına və müdafiə qabiliyyətinin artırılmasına hərtərəfli dəstək vermişdir. Bu əməkdaşlıq zaman keçdikcə yeni mərhələyə qədəm qoyaraq regional və qlobal təhlükəsizlik sisteminin mühüm elementlərindən birinə çevrilmişdir.

Xüsusilə, hərbi-strateji əməkdaşlıq sahəsində əldə olunan nailiyyətlər, birgə hərbi təlimlər, müdafiə sənayesi üzrə tərəfdaşlıq, NATO standartlarının tətbiqi və qarşılıqlı müdafiə öhdəlikləri bu münasibətlərin institusional və praktik əsaslarını gücləndirmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən imzalanmış Şuşa Bəyannaməsi isə bu əməkdaşlığı müttəfiqlik səviyyəsinə yüksəldərək yeni geosiyasi reallıqlar formalaşdırmışdır. Bu baxımdan, təqdim olunan elmi məqalədə Türkiyə və Azərbaycan arasında hərbi-strateji əməkdaşlığın siyasi-nəzəri əsasları, inkişaf mərhələləri və regional təhlükəsizlik sistemində rolu geniş şəkildə təhlil edilir.

Müstəqilliyin ilk illərində Türkiyə iki qardaş ölkə arasında qarşılıqlı faydalı əməkdaşlıq prinsiplərini əsas tutaraq dövlət quruculuğu yolunda respublikamızın səylərini daim dəstəkləməklə, hərtərəfli əlaqələrin inkişafına geniş yardım göstərmişdir.

Azərbaycanın dünya birliyinə inteqrasiyasında, regional təhlükəsizliyin qorunmasında, ümumiyyətlə, ölkəmizin siyasi-iqtisadi və elmi-mədəni maraqlarının reallaşmasında Türkiyə dövləti ilə hərtərəfli əməkdaşlığın genişlənməsinə xüsusi əhəmiyyət verən ümummilli lider Heydər Əliyev 1993-cü ildə yenidən hakimiyyətə qayıtdıqdan sonra bu istiqamətdəki kursun yüksələn xətt üzrə inkişafını təmin etdi. Azərbaycan Prezidenti kimi Heydər Əliyevin Türkiyəyə 1994-cü il fevralın 4-dən 11-dək davam edən ilk rəsmi səfəri ikitərəfli əlaqələrin inkişafına yeni təkan verdi. Səfər zamanı

Azərbaycanla Türkiyə arasında əməkdaşlıq və qarşılıqlı yardım haqqında protokol, iqtisadi, elmi-texniki və mədəni sahələrdə əməkdaşlıq haqqında saziş, dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə müqavilə və digər məsələlər haqqında 16 mühüm sənəd imzalandı.

1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi"nin xarici neft şirkətlərinin konsorsiumunda "Türk petrolları" şirkətinin təmsil olunması Türkiyə ilə Azərbaycan arasında strateji əməkdaşlığın inkişafının ilk əsas təzahürü idi.

1995-ci il dekabrın 7-9-da Türkiyə Prezidenti S.Dəmirəlin Azərbaycana rəsmi səfəri zamanı imzalanmış birgə bəyanatda beynəlxalq əlaqələrdə BMT-nin rolunun gücləndirilməsinin, regiondakı münaqişənin aradan qaldırılmasının və qlobal problemlərin həlli yollarının araşdırılmasına daha fəal təsir göstərməsinin vacibliyi vurğulanmaqla yanaşı, bir daha Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarını dərhal və qeyd-şərtsiz azad etməsi tələbi öz əksini tapdı. Bundan əlavə, iqtisadi əməkdaşlıq haqqında memorandum dostluq münasibətlərini müəyyənləşdirən prinsiplərin və əlaqələrin inkişaf istiqamətlərinin sarsılmaz olduğunu bir daha təsdiq etdi. 1996-cı il aprelin 14-15-də Türkiyə Respublikasının Baş naziri M.Yılmazın başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana səfəri zamanı "Azərbaycan-Türkiyə birgə bəyanatı" imzalandı. Bununla yanaşı, 1996-cı il ərzində iki ölkə arasında hərbi, texniki və elm sahələrində əməkdaşlığa dair bir sıra sənədlərin imzalanması Azərbaycan-Türkiyə əməkdaşlığının əhatə dairəsini daha da genişləndirdi.

Azərbaycan Prezidenti Heydər Əliyevin 1997-ci il mayın 5-8-də Türkiyəyə rəsmi səfəri ölkəmizin Türkiyə ilə münasibətlərin daha da inkişafına xüsusi əhəmiyyət verdiyini göstərdi. Belə ki, səfər çərçivəsində "Azərbaycan Respublikası hökuməti və Türkiyə Respublikası hökuməti arasında strateji əməkdaşlığın dərinləşdirilməsi haqqında bəyannamə", eləcə də iki ölkə arasında münasibətləri yüksək səviyyəyə qaldırmış və müxtəlif sahələri əhatə edən ümumilikdə 9 sənəd imzalandı.

1999-cu il noyabrın 18-də İstanbulda keçirilmiş ATƏT-in zirvə toplantısı çərçivəsində XX əsrin çox mühüm layihəsi hesab edilən və mübahisəli müzakirələrə səbəb olan "Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsilə Azərbaycan, Gürcüstan, Türkiyə ərazilərindən xam neftin nəql edilməsinə dair saziş"in Azərbaycan, Gürcüstan, Türkiyə və ABŞ prezidentləri tərəfindən imzalanması region ölkələrinin strateji əməkdaşlığı və Avropaya inteqrasiyası sahəsində mühüm addım oldu. Eyni vaxtda, adı çəkilən dövlətlərin prezidentləri tərəfindən bu qlobal layihəni müdafiə edən İstanbul bəyannaməsinin qəbul edilməsi Azərbaycan dövlətinin, xüsusilə ümummilli lider Heydər Əliyevin yeni neft strategiyasının həyata keçməsi istiqamətində, eləcə də Türkiyə dövləti ilə dostluğun və əməkdaşlığın daimi olmasını təsdiq edən çox əhəmiyyətli bir sənəd idi. Qeyd olunub ki, müdafiə sənayesi sahəsində əməkdaşlıq əlaqədar şirkətlər arasında, beynəlxalq müqavilələr çərçivəsində həyata keçirilir. Türkiyə və Azərbaycan arasında müdafiə sənayesi sahəsində əməkdaşlığın hüquqi təməldə həyata keçirilməsini təmin etmək məqsədilə iki ölkə arasında 20 sentyabr 2000-ci ildə “Müdafiə sənayesi sahəsində əməkdaşlıq haqqında” müqavilə imzalanıb.

Bundan əlavə, İstanbul zirvə toplantısında regionda sülhün və təhlükəsizliyin təmin edilməsi istiqamətində Azərbaycanın və Türkiyənin iştirakı ilə "Qafqaz paktı" yaradılması ideyası irəli sürüldü. Bu ideyanın həyata keçirilməsi üçün Azərbaycanın regional təhlükəsizliyə dair daha bir təşəbbüsü 2002-ci il aprelin 29-30-da Azərbaycan, Türkiyə və Gürcüstan prezidentlərinin Türkiyənin Trabzon şəhərində keçirilən zirvə görüşündə reallaşdı. Görüşün nəticəsi olaraq 3 dövlət arasında "Terrorizm, mütəşəkkil cinayətkarlıq, qanunsuz narkotik, psixotrop maddələrin qaçaqmalçılığı, silah, insan alveri və digər mühüm cinayətlərlə mübarizə haqqında müqavilə" imzalandı [1].

Azərbaycan ilə Türkiyə arasında hərbi sahədə əməkdaşlıq yalnız Azərbaycan Silahlı Qüvvələrinin gücləndirilməsi deyil, eyni zamanda, bölgədə sülh və təhlükəsizliyin təmini baxımından mühüm əhəmiyyət kəsb edir. Türkiyə Azərbaycanın Avroatlantik məkana inteqrasiyası çərçivəsində işləri dəstəkləyir. Azərbaycan Türkiyənin hərbi təhsil sahəsində ən sıx əməkdaşlığının olduğu və Türkiyə Silahlı Qüvvələri tərəfindən təhsil dəstəyinin təmin edildiyi ölkələr arasında ön sıradadır. 11 avqust 1992-ci ildə imzalanmış “Hərbi təhsil sahəsində əməkdaşlıq haqqında” müqavilə və 10 iyun 1996-cı ildə imzalanmış “Hərbi sahədə təhsil, texniki və elmi əməkdaşlıq razılaşması” çərçivəsində Türkiyə ilə Azərbaycan hərbi təhsil sahəsində əməkdaşlıq edir. Hazırda azərbaycanlı hərbçilərin bir qrupu bizim təhsil müəssisələrimizdə təhsillərini davam etdirir. Azərbaycan Silahlı Qüvvələrinin yenidən

təşkilinə kömək etmək məqsədilə hər il müəyyən kvotalar daxilində Türkiyədə azərbaycanlı hərbi qulluqçular təhsil alırlar.

Məlumdur ki, Türkiyədə NATO standartları mövcuddur. Məhz bu standartlar Türkiyə Silahlı Qüvvələrinə Azərbaycanın NATO ilə birgə iş potensialının inkişaf etdirilməsinə töhfə vermişdir[2]. Azərbaycan Silahlı Qüvvələrinin şəxsi heyəti Türkiyənin keçirdiyi hərbi təlimlərdə müşahidəçi qismində dəvət olunur, həmçinin, iki ölkə arasında ikitərəfli əsasda xüsusi təlimlər də icra edilir. Azərbaycanın müstəqilliyini qazanmasından sonra iki ölkə arasında ortaq tarixi və mədəni əlaqələr əsasında çox istiqamətli həmrəylik çərçivəsində Türkiyə-Azərbaycan münasibətləri sürətlə inkişaf edərək bir tərəfdaşlıq səviyyəsinə çatmışdır.

Türkiyə Azərbaycanı regionda çox əhəmiyyətli bir strateji tərəfdaş olaraq görür və möhkəm təməllərə əsaslanan müxtəlif sahələrdə əhatəli əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün səy göstərir. Türkiyə və Azərbaycanın müdafiə sənayesi sahəsində əməkdaşlığı yüksək səviyyədə aparılan hərbi dialoq çərçivəsində həyata keçirilir. ASELSAN tərəfindən Azərbaycan ordusunun müasir avadanlıqlar və texnika ilə təmin edilməsi məqsədilə 1998-ci ildə Azərbaycanda "ASELSAN-Bakı" şirkəti yaradılıb. Şirkət hərbi məhsulların təmiri və texniki dəstəklə yanaşı, mülki məhsulların satışı və digər xidmətlər göstərir [3].

Ümummilli lider Heydər Əliyevin xarici siyasət kursunu novatorcasına, dinamik şəkildə, eləcə də çox uğurla davam etdirən Azərbaycan Prezidenti cənab İlham Əliyev qardaş Türkiyə dövləti ilə münasibətləri yüksələn xətt üzrə inkişaf etdirərək strateji müttəfiqlik səviyyəsinə qalxmasında əhəmiyyətli rol oynadı. Belə ki, Azərbaycan-Türkiyə əlaqələrinin inkişafında Prezident İlham Əliyevin 2004-cü il aprelin 13-15-də dövlət başçısı kimi ilk rəsmi səfəri zamanı iki dövlət arasında birgə bəyanat, mülki aviasiya və mədəniyyət sahələrində əməkdaşlığa dair protokollar, ümumilikdə isə 5 mühüm sənəd imzalandı.

Bundan sonra Azərbaycan dövlət başçısı İlham Əliyevin ardıcıl olaraq 2006, 2007 və 2008 illərdə davamlı səfərlərində əməkdaşlığın səviyyəsi daha da intensivləşmişdir.

2009-cu il oktyabrın 10-da Sürixdə Türkiyə-Ermənistan münasibətlərinin normallaşdırılmasını özündə əks etdirən protokolların imzalanmasından sonra isə Baş nazir Rəcəb Tayyib Ərdoğanın rəsmən bəyan etdiyi sözlər qardaş dövlətin Azərbaycanın milli maraqlarına zidd olacaq qərar qəbul etməyəcəyinə olan inamı daha da artırdı: "Ermənilər işğal altındakı Azərbaycan torpaqlarını azad etməsə, protokolların parlamentdə təsdiqlənməsi mümkün olmayacaq". Türkiyənin dövlət rəsmiləri də Azərbaycanla münasibətləri yüksək qiymətləndirərək bəyan etmişlər ki, "Azərbaycan strateji ortağımızdır və qardaş ölkənin milli maraqlarına zidd olaraq hər hansı bir addım atmayacağıq".

2010-cu il mayın 16-da Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan Azərbaycana səfəri zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində Türkiyənin qətiyyətli addımlarının davam etdiriləcəyini bildirərək qeyd etmişdir ki, Azərbaycanın bu probleminə qardaş Türkiyənin əhəmiyyət verməməsi mümkün deyildir.

Ümumiyyətlə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ilk günlərindən Türkiyə dövləti daim Azərbaycanın haqlı tələblərini ardıcıl müdafiə etmiş, mütəmadi olaraq Ermənistanın işğal etdiyi tarixi Azərbaycan torpaqlarından dərhal və qeyd-şərtsiz çıxması tələbi ilə çıxış edərək, ölkəmizin ərazi bütövlüyünün təmin olunması istiqamətində səylər göstərmişdir. Münaqişənin həlli yolunun yalnız Azərbaycanın razılaşacağı şərtlər çərçivəsində qəbul edəcəyini bildirən Türkiyə bu məsələ öz ədalətli həllini tapmayana qədər Ermənistan ilə diplomatik münasibətlər qurmayacağı və heç bir iqtisadi əlaqə yaratmayacağı barədə öz prinsipial mövqeyindən dönməyəcəyini ən yüksək dövlət və hökumət nümayəndələri səviyyəsində dəfələrlə bəyan etmişdir.

Azərbaycan Prezidenti mərhum Heydər Əliyevin "bir millət, iki dövlət" kimi tərif verdiyi Türkiyə-Azərbaycan əməkdaşlığında arzu edilən və hədəflənən bir nöqtəni, hətta bir zirvəni bu gün həyata keçirir. Türkiyə və Azərbaycan arasında Yüksək Səviyyəli Strateji Tərəfdaşlıq Şurası haqqında sənəd imzalanmışdır.

2010-cu il 21 dekabr tarixində "Çırağan" sarayında Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın görüşündən sonra "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının qurulması haqqında Birgə Bəyannamə"nin imzalanması mərasimində çıxış edən Prezident İlham Əliyev qeyd etmişdir:

"Bu saziş bütün sahələri əhatə edir - siyasi əlaqələri, hansılar ki, bu gün ən yüksək zirvədədir. Ticarət əlaqələri, qarşılıqlı sərmayə qoyuluşu, enerji, neft-qaz sahələrindəki əməkdaşlıq, nəqliyyat, dəmir yolu layihələri, mədəniyyət, humanitar sahələr - yəni elə bir sahə yoxdur ki, bu sazişdən kənarda qalsın. Bu bizə imkan verəcək ki, Türkiyə ilə Azərbaycanın əlaqələri bundan sonra da uğurla, sürətlə və daha da mütəşəkkil qaydada irəliyə getsin və xalqlarımız daha da birləşsin, daha da sıx əməkdaşlıq etsin".

İlham Əliyev: Əlbəttə ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi daim Türkiyə ilə Azərbaycan arasındakı danışıqların mövzusudur. Bu gün də bu mövzu ilə bağlı hörmətli cənab Baş nazir ilə geniş fikir mübadiləsi apardıq. Bildiyiniz kimi, Türkiyə bütün dövrlərdə Azərbaycanın haqq işini dəstəkləyir, bütün dövrlərdə, müxtəlif formalarda Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi üçün böyük səylər göstərir. Bu gün bu məsələ ilə bağlı gedən danışıqlar nəticəyə gətirib çıxarmalıdır. Nəticə də ondan ibarətdir ki, Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan ərazi bütövlüyü bərpa edilsin. Dağlıq Qarabağ Azərbaycanın əzəli torpağıdır. Əsrlər boyu xalqımız o ərazidə yaşamışdır, yaratmışdır. Azərbaycanlılar o bölgədən qovuldular. Dağlıq Qarabağda və ətraf bölgələrdə bir nəfər də olsun azərbaycanlı qalmadı. Onların hamısı etnik təmizləmə siyasətinə məruz qaldılar. Bizim bütün tarixi, dini abidələrimiz ermənilər tərəfindən dağıdılıbdır. Bu, böyük ədalətsizlikdir. Bu, beynəlxalq hüquq normalarına zidd olan bir addımdır. Əlbəttə ki, bundan sonra da Türkiyə ilə Azərbaycan münasibətlərində bu mövzu daim gündəlikdə olacaqdır [4].

Məhz bu dövrdən etibarən iki ölkə arasında hərbi əməkdaşlığın strateji cəhətdən qarşıda duran məsələləri 3 istiqamətdə müəyyənləşdirldi:

Birincisi, NATO ilə əməkdaşlıq sənədləri. Bu çərçivədə NATO-nun aparıcı ölkələrindən olan Türkiyə Azərbaycan Silahlı Qüvvələrinin modernləşdirilməsinə kömək göstərir;

İkincisi, Azərbaycanın təhlükəsizlik sənədləri və iki ölkə arasında imzalanmış strateji müqavilələr. Nəzərə alınmalıdır ki, Azərbaycanın Milli Təhlükəsizlik Konsepsiyası və Hərbi Doktrinasında Türkiyənin adı Azərbaycanın milli təhlükəsizliyinin təminatçısı rolunda göstərilməsə də Azərbaycan ərazisində xarici hərbi iştirakın mümkünlüyünə dair məqamlar öz əksini tapıb. Xüsusilə də iki ölkənin prezidentləri tərəfindən ötən il Bakıda imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında" müqavilədə nəzərdə tutulanlar Türkiyə-Azərbaycan hərbi əməkdaşlığının güclənməsinə təkan verir;

Üçüncüsü, Türkiyənin milli regional maraqları və həmçinin, qardaş ölkənin milli təhlükəsizlik sənədləri ilə bağlıdır. Nəzərə alınmalıdır ki, 2009-cu ildən etibarən Türkiyənin milli təhlükəsizlik sənədlərində dəyişiklik prosesi başlayıb. Bu sənədlər dünyada və bölgədə mövcud olan reallıqlara uyğunlaşdırılır. Sözügedən sənədlərdə Cənubi Qafqaz bölgəsi də Ankara üçün strateji prioritetlərdən hesab edilir. Bu baxımdan Cənubi Qafqaz ölkələri ilə, xüsusilə də Azərbaycanla hərbi əməkdaşlığın dərinləşdirilməsi Türkiyənin dövlət və milli maraqlarından irəli gəlir [5].

21 dekabr 2010 tarixində Azərbaycan Milli Məclisində, 2 Fevral 2011 tarixində də Türkiyə Böyük Millət Məclisi tərəfindən müqavilənin ratifikasiyası həyata keçirilmişdir. Bu müqavilənin bir şərtinə görə, Türkiyə və Azərbaycan ölkələrindən birinə qarşı hərbi hücum və ya hücum vəziyyətində hücuma uğramayan ölkə "bütün imkanlarını istifadə edərək" hücuma uğrayan ölkəni dəstəkləyəcək. Razılaşmanın 23 maddə və beş hissədən ibarətdir: "Hərbi-siyasi və təhlükəsizlik problemləri", "Hərbi və hərbi-texniki əməkdaşlıq, 2013-cü ildən Azərbaycan və Türkiyə Silahlı Qüvvələri arasında birgə hərbi təlimlərin keçirilməsi başlamışdır.

2018-ci ilin dekabr ayında 11-ci Yüksək Səviyyəli Hərbi Dialoq İclasının sonunda "Azərbaycan Respublikası hökuməti ilə Türkiyə Respublikası hökuməti arasında hərbi-tibb sahəsində təhsil və əməkdaşlıq haqqında" protokol imzalanmışdır.

2019-cu ildə hərbi təlimlərin sayı 13-ə çatmışdır. 2019-cu il mayın 1-dən 3-dək "Mustafa Kamal Atatürk-2019", iyunun 7-dən 11-dək isə "Sarsılmaz qardaşlıq-2019 birgə hərbi təlimləri keçirilmişdir.

2020-ci ildə Azərbaycanla Türkiyə ordusu arasında 20-yə yaxın birgə təlim həyata keçirilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində, işğal olunmuş torpaqların azad olunmasında, Ermənistanın 30 illik təcavüzünə son qoyulmasında Türkiyənin mənəvi-siyasi dəstəyi xalqımız tərəfindən yüksək qiymətləndirilir. Hazırda Qafqaz regionunda sabitliyin və təhlükəsizliyin möhkəm-

ləndirilməsi, bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası, eləcə də region dövlətləri arasında münasibətlərin normallaşdırılması və uzunmüddətli sülhün təmin edilməsi istiqamətində ölkələrimizin birgə təşəbbüsləri bu sahədə səylərin artırılmasının zəruriliyini göstərən ən gözəl nümunədir. Eyni zamanda, Qarabağda Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin fəaliyyəti regionda sülhün bərqərar olunmasının təsirli mexanizmi kimi diqqət çəkir.

15 iyun 2021-ci il tarixində***"Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"*** imzalanmışdır. Bəyannamənin məhz Azərbaycan xalqının Qurtuluş Günü - 15 iyun tarixinə və Qarabağ, Zəngəzur üçün çox vacib sayılan Qars müqaviləsinin 100-cü ildönümünə təsadüf etməsinin xüsusi rəmzi mənası var. Biz tarixin təkrarlanmasının və oxşar hadisələrin yenidən baş verməsinin şahidiyik. İndi də bölgə uğrunda ABŞ, Rusiya, Britaniya, Fransa, İran kimi dövlətlərin açıq mübarizəsi müşahidə olunmaqdadır. Lakin bu dəfə fərq ondan ibarətdir ki, hadisələr Azərbaycanın xeyrinə və maraqlarına uyğun cərəyan edir. Təsadüfi deyil ki, mətbuata verdiyi bəyanatda Azərbaycanın dövlət başçısı Şuşa Bəyannaməsinə münasibət bildirərkən Qars müqaviləsini xatırlatdı: "Tarixi Qars müqaviləsi düz yüz il əvvəl imzalanıb. Bu da böyük rəmzi məna daşıyır. Şuşa şəhərində müttəfiqlik haqqında imzalanmış birgə bəyannamə bizim gələcək işbirliyimizin istiqamətini göstərir. Bəyannamədə bir çox önəmli məsələlər öz əksini tapır. Beynəlxalq müstəvidə birgə əməkdaşlıq, fəaliyyətimiz, siyasi əlaqələr, iqtisadi, ticarət əlaqələri, mədəniyyət, təhsil, idman, gənclər siyasəti, demək olar ki, bütün sahələr əhatə olunur. Cənub Qaz dəhlizinin Türkiyə, Azərbaycan, dünya üçün önəmi göstərilir. Hər bir məsələ çox böyük önəm daşıyır".

Prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan tərəfindən imzalanmış Şuşa Bəyannaməsi bütün dünyanın barışmalı olduğu tarixi gerçəklikdir. Hər iki ölkənin ümumi maraqlarının qorunmasında imkanların birləşdirilməsinə, eləcə də müştərək maraq kəsb edən regional və beynəlxalq strateji məsələlərdə fəaliyyətlərinin qarşılıqlı şəkildə əlaqələndirilməsinə istiqamətlənən saziş başlanğıcdır. Bu, regionda 200 ilə yaxın davam edən geosiyasi konfiqurasiyaların dağıdılması və bundan sonra Azərbaycan-Türkiyənin rəhbərliyi altında davam edəcək yeni regional düzənin başlanğıcı deməkdir. Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi iki ölkə arasında hərbi-strateji əməkdaşlığın perspektivləri baxımından mühüm əhəmiyyət kəsb edir. Bu bəyannamə ilə qardaş ölkələrimiz bütün istiqamətlərdə əməkdaşlığını gücləndirəcək, birgə fəaliyyətlər üzrə illik və perspektiv planlar hazırlayacaqlar. Hər iki qardaş dövlət kadr hazırlığında, təlimlərdə, hərbi texnologiyaların inkişafında, hərbi-elmi tədqiqatlar sahəsində birgə fəaliyyət göstərəcək, hərbi sənayenin inkişafında bir-birinə dəstək olacaq, bir millət kimi müştərək planlar quraraq qarşıda qoyulan hədəflərə bir yerdə nail olacaqlar.

Bəyannamədə diqqəti çəkən ən vacib məqamlardan biri hərbi sahədə əməkdaşlıq və müttəfiqliklə bağlıdır. Burada qeyd edilir ki, "Tərəflərdən hər hansı birinin fikrincə, onun müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, Tərəflər birgə məsləhətləşmələr aparacaq və bu təhdid və ya təcavüzün aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüs həyata keçirəcək, bir-birinə BMT Nizamnaməsinə uyğun zəruri yardım göstərəcəklər. Bu yardımın həcmi və forması təxirə salınmadan keçirilən müzakirələr yolu ilə müəyyən edilərək birgə tədbirlər görülməsi üçün müdafiə ehtiyaclarının ödənilməsinə qərar veriləcək və Silahlı Qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyəti təşkil olunacaqdır".

Bu müddəanın Bəyannamədə qeydə alınması bu gün Ermənistandakı revanşist qüvvələrdən tutmuş, ayrı-ayrı qonşu və qeyri-regional dövlətlər üçün çox mühüm ismarışdır. Şuşa Bəyannaməsi ilə Türkiyə açıq şəkildə Azərbaycanın ərazi bütövlüyünün pozulması, dövlət sərhədlərinə təhdid kimi baş verməsi halında, ordu ilə ölkəmizin yanında yer alacağını beynəlxalq ictimaiyyətin diqqətinə çatdırır.

Şuşa Bəyannaməsinə görə tərəflər müdafiə qabiliyyətlərinin və hərbi təhlükəsizliyin möhkəmləndirilməsinə yönələn şəxsi heyət mübadiləsini, birgə təhsil və təlimlərin keçirilməsini, iki ölkənin silahlı qüvvələrinin birlikdə fəaliyyət qabiliyyətinin artırılmasını, müasir texnologiyalara əsaslanan silah və sursatların idarə olunmasında sıx əməkdaşlığı və bu məqsədlə səlahiyyətli struktur və qu-

rumların əlaqəli fəaliyyətinin təmin olunmasını təşviq edəcəklər. Azərbaycan və Türkiyə digər dost dövlətlərin orduları ilə birlikdə hərbi təlimlərin keçirilməsini dəstəkləyəcəklər [6].

Azərbaycanın hərbi baxımdan və müxtəlif sahələrdə inkişafı, coğrafi mövqeyini gücləndirməsi, eyni zamanda, Türkiyənin güclənməsi deməkdir. İki dövlət arasında hərbi-strateji əməkdaşlıq regional təhlükəsizlik ehtiyacları nəzərə alınmaqla, inkişaf etdirilməlidir. Azərbaycan və Türkiyə hər sahədə tam bir müttəfiqdirlər. Bu mənada həm hərbi-strateji, həm də digər sahələrdə əməkdaşlığın davamlı inkişafı bu müttəfiqliyin ayrılmaz hissəsidir.

Hazırda Azərbaycanla Türkiyə arasında hərbi-strateji əməkdaşlıq uğurla davam etməkdədir. 2025-ci il sentyabrın 15-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov müdafiə nazirinin birinci müavini – Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyevin dəvəti ilə ölkəmizdə işgüzar səfərdə olan Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ordu generalı Selçuk Bayraktaroğlu və onun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir. Müdafiə Nazirliyində keçirilən görüşdə general-polkovnik Z.Həsənov qonaqları salamlayıb və onları ölkəmizdə görməkdən məmnun olduğunu bildirib. Azərbaycan və Türkiyə arasında dərin tarixi köklərə, ortaq dəyərlərə və qarşılıqlı etimada əsaslanan əlaqələrin iki qardaş ölkənin dövlət başçılarının dostluq münasibətləri nəticəsində daha da inkişaf etdiyini qeyd edib. Türkiyənin hər zaman ölkəmizə dəstəyini yüksək qiymətləndirən nazir 15 sentyabr - Bakının daşnak-bolşevik işğalından azad edilməsi gününün xalqımız üçün tarixi əhəmiyyətinə toxunub [7].

Nəticə. Aparılan təhlillər göstərir ki, Azərbaycan və Türkiyə arasında hərbi-strateji əməkdaşlıq təkcə iki dövlətin milli maraqlarına xidmət etmir, eyni zamanda regionda sabitliyin və təhlükəsizliyin təmin olunmasında mühüm rol oynayır. Bu əməkdaşlıq ortaq tarix, dil və mədəniyyət amilləri ilə yanaşı, müasir dövrdə formalaşmış qarşılıqlı siyasi iradə və strateji baxışın məhsuludur. Xüsusilə Şuşa Bəyannaməsi ilə təsbit olunan qarşılıqlı yardım öhdəlikləri, birgə hərbi fəaliyyət mexanizmləri və müdafiə sənayesi sahəsində inteqrasiya perspektivləri iki ölkənin təhlükəsizlik arxitekturasını daha da möhkəmləndirmişdir. Mövcud geosiyasi şəraitdə Azərbaycan-Türkiyə hərbi-strateji əməkdaşlığı regionda güc balansının qorunmasına, mümkün təhdidlərin qarşısının alınmasına və uzunmüddətli sülhün təmin olunmasına xidmət edən əsas faktorlardan biri kimi çıxış edir. Bu əməkdaşlıq modeli həm də digər region ölkələri üçün nümunəvi strateji tərəfdaşlıq forması kimi qiymətləndirilə bilər.

Nəticə etibarilə, Azərbaycan və Türkiyə arasında hərbi-strateji əməkdaşlığın gələcəkdə daha da dərinləşəcəyi, yeni sahələri əhatə edəcəyi və beynəlxalq müstəvidə təsir imkanlarını genişləndirəcəyi gözlənilir. İki qardaş ölkənin birgə fəaliyyəti regionun təhlükəsizlik və inkişaf perspektivlərinin formalaşmasında həlledici rol oynamaqda davam edəcəkdir.

ƏDƏBİYYAT

1. “Azərbaycan-Türkiyə strateji tərəfdaşlığı yüksələn xətlə inkişaf edir” Elçin Əhmədov / 525-ci qəzet. 07.11.17. - https://525.az/news/89221-azerbaycan-turkiye-strateji-terefdasligi-yukselen-xetle-inkisaf-edir [06.04.2026].
2. Abbasbəyli A. Dünya siyasəti. Bakı, 2011, s.465.
3. “Azərbaycan və Türkiyə arasında hərbi əməkdaşlıq inkişaf etdirilməlidir” Türkiyənin Müdafiə naziri Vecdi Gönülün “Trend”ə müsahibəsi / 525-ci qəzet.- 2011.- 11 mart.- S.5.
4. 2010-cu il 21 dekabr tarixində “Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının qurulması haqqında Birgə Bəyannamə” nin imzalanması mərasimində Prezident İlham Əliyevin çıxışından: - https://president.az/az/articles/view/721 [06.04.2026].
5. “Azərbaycan-Türkiyə hərbi əməkdaşlığı bölgədə təhlükəsizliyin təmini baxımından vacibdir” Yusif Bağırzadə / “İki Sahil” 08 aprel 2021. - https://ikisahil.az/post/210037-azerbaycan-turkiye-herbi-emekdashligi-bolgede-tehlukesizliyin-temini-baximindan-vacibdir [06.04.2026].
6. “Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında” Şuşa Bəyannaməsinin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu: - https://eqanun.az/framework/49147 [06.04.2026].

7. Azərbaycan-Türkiyə hərbi əməkdaşlığı inkişaf etdirilir / Azərtac- 15.09.2025. - https://azertag.az/xeber/azerbaycan_turkiye_herbi_emekdasligi_inkisaf_etdirilir-3744515 [06.04.2026].

БАХТИЯР АЛИЕВ
Преподаватель педагогического колледжа Агджабади
Ветеран Отечественной войны

ПОЛИТИКО-ТЕОРЕТИЧЕСКИЕ ВОПРОСЫ ВОЕННО-СТРАТЕГИЧЕСКОГО СОТРУДНИЧЕСТВА МЕЖДУ ТУРЦИЕЙ И АЗЕРБАЙДЖАНОМ

В статье содержится историческая информация о военно-политическом сотрудничестве между Турцией и Азербайджаном. В данной статье также представлены идеи о военных операциях, проводимых для обеспечения территориальной целостности Азербайджанской Республики, и о продолжении сотрудничества с Турецкой Республикой, стратегическим союзником. В статье подчеркивается, что военно-стратегическое сотрудничество между двумя государствами должно развиваться с учетом потребностей региональной безопасности, и что Азербайджан и Турция являются полноправными союзниками во всех областях.

Ключевые слова: Сотрудничество, политика, региональная безопасность, доктрина, военное вторжение, территориальная целостность.

BAKHTIYAR ALIYEV
Teacher at Agjabadi Pedagogical College
Veteran of the Patriotic War

POLITICAL AND THEORETICAL ISSUES OF MILITARY-STRATEGIC COOPERATION BETWEEN TURKİYE AND AZERBAIJAN

The article contains historical information about the military-political cooperation between Turkiye and Azerbaijan. This article also presents ideas about military operations conducted to ensure the territorial integrity of the Republic of Azerbaijan, and about the continuation of cooperation with the Republic of Turkiye, a strategic ally. The article emphasizes that the military-strategic cooperation between the two states should be developed taking into account the needs of regional security, and that Azerbaijan and Turkiye are full allies in all areas.

Keywords: Cooperation, politics, regional security, doctrine, military aggression, territorial integrity.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 06 aprel 2026-cı il.
Məqalənin çapa qəbul olunma tarixi: 21 may 2026-cı il.
Rəyçilər: t.e.d. Qabil Əliyev, t.ü.f.d. Məmmədağa Baxışov.

UOT 94(479.24); UOT 32:93/94

RASİM RZAXANOV
Bakı Dövlət Universitetinin dissertantı,
Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kollecinin müəllimi
https://orcid.org / 0009-0001-0340-0291
rasimrzaxanov@mail.ru

AZƏRBAYCANDA MÜASİR MİQRASİYA SİYASƏTİ VƏ İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRƏ "BÖYÜK QAYIDIŞ" PROQRAMININ HƏYATA KEÇİRİLMƏSİ

DOI: https://doi.org/10.36719/2708-065X/113/146-152

Məqalədə Azərbaycanda müasir miqrasiya siyasətinin formalaşması və inkişafı, eləcə də işğaldan azad edilmiş ərazilərə "Böyük qayıdış" proqramının həyata keçirilməsi məsələləri elmi-politoloji aspektdən təhlil edilir. Tədqiqatda XX əsrin sonlarından etibarən ölkədə baş verən miqrasiya prosesləri, xüsusilə deportasiya və məcburi köçkünlük problemləri, onların demoqrafik və sosial-iqtisadi vəziyyətə təsiri araşdırılır. Eyni zamanda Azərbaycanın demoqrafik inkişaf siyasətinin əsas istiqamətləri, Dövlət Miqrasiya Xidmətinin yaradılması, Miqrasiya Məcəlləsinin qəbul edilməsi və miqrasiya proseslərinin hüquqi tənzimlənməsi məsələləri geniş şəkildə izah olunur, eləcə də beynəlxalq təşkilatlarla əməkdaşlığın miqrasiya siyasətinin təkimilləşdirilməsində rolu da xüsusi qeyd edilir. 44 günlük Vətən müharibəsindən sonra işğaldan azad edilmiş ərazilərin bərpası və məcburi köçkünlərin doğma torpaqlarına qayıdışını nəzərdə tutan "Böyük Qayıdış" Dövlət Proqramının məqsədləri, əsas prioritetləri və mərhələləri təhlil olunur. Araşdırma göstərir ki, həyata keçirilən dövlət proqramları və institusional islahatlar miqrasiya proseslərinin səmərəli idarə olunmasına və ölkənin demoqrafik inkişafına mühüm töhfə verir.

Açar sözlər: miqrasiya siyasəti, demoqrafik proseslər, Miqrasiya Məcəlləsi, Böyük Qayıdış proqramı, Qarabağ və Şərqi Zəngəzur, əhalinin məskunlaşdırılması.

Giriş. XX əsrin sonlarında postsovet məkanının digər regionlarında olduğu kimi, Cənubi Qafqazda da daxili və xarici miqrasiya prosesləri əvvəllər müşahidə edilməyəcək dərəcədə gücləndi. Keçən əsrin 90-cı illərinin birinci yarısına qədər ümumilikdə Azərbaycanda miqrasiyanın üç istiqamətini göstərmək olar: birinci istiqamət, Qərbi Azərbaycandan zorakılıqla deportasiya edilən soydaşlarımız; ikinci istiqamət, Dağlıq Qarabağ və ətrafındakı işğal edilmiş 7 rayondan qovulan vətəndaşlarımız; üçüncü istiqamət, Mesheti (Ahıska) türklərinin respublikamızın ərazilərinə köç etməsi. Azərbaycanda gedən miqrasiya proseslərinin başlıca xüsusiyyətləri hər üç istiqamətin məcburi (zorakı) xarakter daşımasında idi.

AZƏRTAC-ın Dövlət Statistika Komitəsinin heabatına əsasən yayımladığı xəbərdə 2024-cü il avqustun 1-nə olan məlumata görə, respublika əhalisinin ümumi sayı 0,2 faiz artaraq 10 milyon 204 min 247 nəfərə çatmışdır. Statistikaya görə, əhalinin 54,5 faizi şəhərlərdə, 45,5 faizi isə kənd yerlərində yaşayır [2], urbanizasiya prosesləri əhali yerdəyişməsini əsasən şəhərlərə və rayon mərkəzlərinə yönəldiyini göstərir. Daxili miqrasiyada üç şəhər – Bakı, Sumqayıt və Gəncə şəhərləri mühüm yer tutur və bu baxımdan Bakı şəhəri artıq meqopolisə çevrilmişdir, qeyri rəsmi statistikaya görə, Bakı şəhərinin rayonlarında 4 mln nəfərdən yuxarı əhali yaşamaqdadır [12]. Azərbaycanda demoqrafik situasiyaya təsir göstərən amillərin içərisində qaçqınlar və məcburi köçkünlərlə yanaşı, qaçqınlara oxşar vəziyyətdə olan daha bir miqrant kateqoriyası da mövcud idi. Bu kateqoriyaya müxtəlif səbəblərdən Qazaxıstanı 1989-cu ildə tərk edən 1,6 min nəfər, az sonra Rusiyanı tərk edən 6 min nəfər, İran İslam Respublikasından gələn 3 min nəfərə yaxın soydaşımız məcburi yaşadıqları yeri tərk etmişdilər. Məcburi miqrantların sırasına Əfqanıstan, İraq və digər ölkələrdən gələn daha 334 nəfəri aid etmək olar. Qaçqınlara oxşar vəziyyətdə olan miqrantların sırasına Gürcüstandan gələn azərbaycanlıları da aid etmək olar. Bu kateqoriyadan olan miqrantların respublikanın ərazisində daimi yerləşməsi, onların yaşayış və həyat şəraitinin təşkili o dövr üçün ağır və ağrılı problemlərdən birinə çevrilmişdi [21, s.78-79].

Azərbaycanda miqrasiya və demoqrafiya siyasəti. Azərbaycan hökumətinin demoqrafiya siyasəti öz əksini "Azərbaycan Respublikasının Demoqrafik İnkişaf Konsepsiyası"nda tapmışdı. Konsepsiya 1999-cu il dekabrın 9-da Prezident H.Əliyev tərəfindən təsdiq edilmiş, sonralar isə şəraitə uyğun olaraq ona əlavələr və dəyişikliklər edilmişdi. Azərbaycan Respublikasında müasir demoqrafik vəziyyətin qiymətləndirilməsi Konsepsiyada mühüm yer tutur və 1897-1997-ci illəri əhatə edən 100 illik dövrün xarakteristikası verilir. Sənədə görə, iki əsrdə 1,5 mln nəfərdən çox azərbaycanlıların zorakı deportasiyaya məruz qalması öz əksini tapmışdı [9]. Azərbaycanda yaranmış siyasi və sosial-iqtisadi sabitlik miqrasiya proseslərinin idarə edilməsi məsələsinə də aydınlıq gətirilməsini tələb edirdi. Məhz yaranmış zərurət 2004-cü ilin iyulunda Azərbaycan Respublikasının Dövlət Miqrasiya İdarəetmə Siyasəti konsepsiyasının hazırlanması və qəbulunu şərtləndirdi. Sənəddə dünyada miqrasiyanıın mövcud vəziyyəti təhlil edilir və dünya əhalisinin 175 mln nəfərinin miqrant olduğu şəraitdə miqrasiya proseslərinin idarə edilməsi siyasətinin hazırlanmasının vacibliyi əsaslandırılır. Azərbaycanda daxili və xarici miqrasiyanın mövcud vəziyyətinin səciyyəsinin verildiyi Konsepsiyada bu proseslərin tənzimlənməsinin məqsədləri, prinsipləri və vəzifələri müəyyənləşdirilir ki, bu baxımdan sənəd konkret fəaliyyət proqramı hesab edilə bilər [10].

Dövlət miqrasiya xidməti. Dövlət Miqrasiya Xidməti haqqında əsasnamənin qəbulu və Miqrasiya Xidmətinin hazırlanması miqrasiya proseslərinin tənzimlənməsi və idarə edilməsində mühüm əhəmiyyətə malik idi. Azərbaycan Prezidenti İ.Əliyevin 19 mart 2007-ci il tarixli fərmanı ilə təsdiq edilmiş əsasnaməyə əsasən, DMX-nın yaradılmasının hüquqi/siyasi bazası müəyyənləşdirilir, fəaliyyət istiqamətləri, vəzifələri, hüquqları, fəaliyyətinin təşkili kimi məsələlərə aydınlıq gətirilirdi [16]. 2013-cü ilin iyulunda qəbul edilmiş Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi bu sahədə qəbul edilmiş qanunvericilik toplusudur. 15 fəsil və 95 maddədən ibarət məcəllədə bu sahədə əsas anlayışların xarakteristikası verilir və mahiyyət açılıb göstərilir. Məcəllə Azərbaycana gəlmə və getmə, mühacirlərin uçot və qeydiyyatının aparrılması, soydaşlarımızın xarici ölkələrdə əmək fəaliyyətinin tənzimlənməsi, əcnəbilərin, vətəndaşlığı olmayan şəxslərin və qanunsuz miqrantların problemləri, habelə miqrasiya qanunvericiliyinin pozulmasına görə məsuliyyət kimi məsələlərə aydınlıq gətirirdi. Beynəlxalq praktikaya uyğun olaraq qəbul edildikdən sonra Miqrasiya Məcəlləsinə dəfələrlə müxtəlif düzəlişlər və əlavələr edilmişdir [7]. Dövlət Miqrasiya Xidmətinin müasir texniki vasitələrlə təchiz edilməsinin gedişində yaradılan Vahid Miqrasiya Məlumat Sisteminin əhəmiyyəti böyük idi. Xidmətdə 24 saat fasiləsiz Çağrı Mərkəzi, eləcə də 27 istiqamət üzrə elektron xidmətlər fəaliyyət göstərir. Dövlət Miqrasiya Xidmətinin strukturuna aparatla yanaşı, 2 regional miqrasiya baş idarəsi, 7 regional miqrasiya idarəsi, 3 müvəqqəti yerləşdirmə mərkəzi, Təlim-tədris mərkəzi və tibb müəssisəsi daxildir. Eyni zamanda, Xidmət tərəfindən bütün "ASAN Xidmət" mərkəzlərində də müvafiq xidmətlər göstərilir [3]. Azərbaycanın Dövlət Miqrasiya Xidməti beynəlxalq və regional qurumlarla sıx əməkdaşlıq şəraitində fəaliyyət göstərir. Bu sıraya BMT-nin müvafiq orqanları, Avropa İttifaqı, Beynəlxalq Miqrasiya Təşkilatı, Beynəlxalq Qızıl Xaç və Aypara Cəmiyyətləri İttifaqı kimi qurumlar daxildir. Postsovet məkanında miqrasiya proseslərinin tənzimlənməsi məqsədilə MDB-nin Miqrasiya Siyasəti Mərkəzi yaradılmış və beynəlxalq status almışdı. Təsadüfi deyil ki, bu prosesdə MDB Miqrasiya Siyasəti Mərkəzi mühüm rol oynayırdı [17].

Miqrasiya sahəsində beynəlxalq əməkdaşlıq. Azərbaycan rəhbərliyi dövlət müstəqilliyinin ilk vaxtlarından etibarən beynəlxalq və regional təşkilatlarla miqrasiya sahəsində əməkdaşlığa xüsusi əhəmiyyət verirdi. Çünki Qərb-Şərq və Şimal-Cənub nəqliyyat yollarının üzərində yerləşən respublikamız üçün miqrasiya problemləri taleyüklü məsələ idi. Məhz buna görə də, Azərbaycan hökuməti 1996-cı il iyulun 9-da BMT-nin Qaçqınlar üzrə Ali Komissarı ilə əməkdaşlıq və humanitar proqramların həyata keçirilməsi, qarşılıqlı güzəşt və imtiyazlar haqqında ikitərəfli saziş imzalamışdı [6]. Beynəlxalq sahədə əməkdaşlığın təşviqi və genişləndirilməsi məqsədi ilə 2000-ci il fevralın 8-də Azərbaycan hökuməti ilə Beynəlxalq Miqrasiya Təşkilatı arasında 15 maddədən ibarət hərtərəfli əməkdaşlıq sazişi imzalanmış, tərəflərin hüquq, vəzifə və öhdəlikləri müəyyənləşdirilmişdi [4]. Avropa məkanının bir hissəsi kimi Miqrasiya siyasətinin inkişafı üzrə Beynəlxalq Mərkəzlə də diplomatik-siyasi münasibətlər qurmuşdu. Belə ki, 2006-cı il iyunun 27-də Bakıda Azərbaycan hökuməti ilə Beynəlxalq Mərkəz arasında əməkdaşlıq sazişi imzalanmışdı. 5 bənddən ibarət Sazişin məqsədi miqrasiya məsələləri üzrə informasiya mübadiləsinin genişləndirilməsinə, Azərbaycan Respublikasının miqrasiya siyasətinin Avropa

İttifaqının "Yeni Qonşuluq Siyasəti" kontekstində Avropa standartlarına uyğunlaşdırılmasına, miqrasiya, repatriasiya, sığınacaq, viza siyasəti, sərhəd nəzarəti və nəzarətsiz miqrasiyaya qarşı birgə mübarizənin aparılmasından ibarət idi [5]. Qeyd edək ki, Azərbaycan dövlətinin miqrasiya siyasəti davamlı inkişaf və təkmilləşdirmə dövrünü yaşamaqdadır. Bu prosesdə iki amil mühüm əhəmiyyətə malikdir, birincisi, müvafiq milli qurumların təcrübəsindən istifadə olunması və ikincisi, qonşu dövlətlər və beynəlxalq təcrübədən istifadə olunması. Azərbaycan Beynəlxalq Miqrasiya Təşkilatı vasitəsi ilə həyata keçirilən tədbirlərdə fəal iştirak edir, beynəlxalq müqavilələrə qoşulur, beynəlxalq təcrübənin öyrənilməsi və elektron texniki xidmətlərin təkmilləşdirilməsinə yatırımlar edirdi. Təsadüfi deyil ki, mobilliyi baxımından Azərbaycan Miqrasiya Xidməti dünyada öncül mövqelərdədir [22, s.87-90].

Böyük qayıdışa dair Dövlət Proqramı. Ermənistanın 30 illik işğalından azad edilmiş torpaqların realibitasiyası və "Böyük qayıdış" proqramına start verilməsi 44 günlük Vətən müharibəsinin başlıca yekunu idi. Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin apardığı ümumiləşdirməyə görə, Ermənistanla Azərbaycan arasındakı münaqişə Cənubi Qafqazda təhlükəsizlik və sabitlik üçün əsas təhdid təşkil edirdi. Bu münaqişə insanların əziyyət çəkməsinə və əhalinin bir yerdən başqa yerə köçməsinə səbəb olmuşdu. Ərazi bütövlüyünü bərpa edən Azərbaycan Cənubi Qafqazın hüdudlarından kənara çıxır və alınan dərslər beynəlxalq ictimaiyyət üçün də aktualdır [18, s.6]. Bu aktuallıq ilk növbədə Azərbaycanın yaratdığı presedentlə bağlıdır, yəni ərazi bütövlüyünün diplomatiyadan istifadə və hərbi yolla təmin edilməsi II dünya müharibəsindən sonrakı dövrün nadir təsadüf edilən hadisəsidir.

Azərbaycan dövlətinin ərazi bütövlüyü və suverenliyinin təmin edilməsində, beynəlxalq mövqelərinin möhkəmlənməsində, habelə "böyük qayıdış" strategiyasının həyata keçirilməyə başlanmasında Azərbaycan Prezidenti və Ali Baş Komandan İ.Əliyevin rəhbərliyi altında milli ordumuzun 44 gün və 23 saat 48 dəqiqə davam edən hərbi əməliyyatlarının tarixi əhəmiyyəti var idi. Belə ki, tədqiqatçılardan Q.Hacıyevin qeyd etdiyi kimi, Prezident İ.Əliyevin bütün çıxışlarında Dağlıq Qarabağ probleminin həllindən bir an da kənarlaşmayacağı, Qarabağ torpaqlarının azad edilməsi üçün bütün vasitələrdən istifadə edəcəyi, hətta hərbi yolla həll edə biləcəyini vurğulaması və müdafiədən hücuma keçməyin vaxtı çatdığını bildirməsi Vətən müharibəsində zəfərimizin əsasını təşkil edirdi [19, s.338]. İşğaldan azad edilmiş ərazilərdə quruculuq işlərinin sistemli və məqsədyönlü həyata keçirilməsi məqsədi ilə "Böyük qayıdış" adını almış I Dövlət proqramı hazırlanmışdı. Proqramın təsdiq edilməsi haqqında Azərbaycan Prezidenti İ.Əliyevin sərəncamına görə, işğaldan azad edilmiş ərazilərə böyük qayıdış respublikamızın 2030-cu ilədək beş milli prioritetindən biri kimi qəbul edilmişdi. Sərəncamda deyilirdi ki, bu milli prioritetlərə əsasən "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyası" yeni inkişaf mərhələsindəki hədəfləri müəyyənləşdirir, məqsəd Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sürətlə dirçəlməsi, əhalinin dayanıqlı məskunlaşması və davamlı iqtisadi aktivliyin təmin edilməsidir [11].

Dövlət proqramının I mərhələsini həyata keçirildiyi 2022-2026-cı illər ərzində Qarabağ və Şərqi Zəngəzura 140 min nəfər məcburi köçkünün geriyə qayıtması nəzərdə tutulmuşdu [13]. AZƏRTAC-ın yaydığı məlumata görə ilk köçün "ağıllı kənd" layihəsinə əsasən Zəngilan rayonunun Ağalı kəndinə ediləcəyi planlaşdırılırdı. Qeyd edək ki, erməni işğalına qədər bu inzibati ərazidə üç kənd birləşmişdi, 1-ci Ağalıda 40 ailə, 2-ci Ağalıda 60 ailə, 3-cü Ağalıda isə 161 ailə yaşayırdı. Hazırda bu kəndlərdən olan ailələrin sayı 352-dir, yəni 1504 nəfərdən ibarətdir. Nəzərdə tutulmuşdu ki, Yeni Ağalı kəndinə dörd mərhələdə 41 ailə köçürülməli, ilk köçürülmə isə 10 ailədən ibarət olmalı idi. Mətbuatın yaydığı xəbərlərə görə, "Böyük Qayıdış" siyasətinə 2022-ci il uylun 19-da start verilmişdi. Belə ki, Abşeron rayonu Masazır qəsəbəsində yerləşən Zəngilan şəhərciyindən 10 ailə doğma kəndlərinə yola salınmışdı. Prezidentin Şərqi Zəngəzur rayonu üzrə nümayəndəsi V.Hacıyev bildirmişdi ki, 4 mərhələdə 200 nəfərin köçürülməsi nəzərdə tutulmuşdur ki, onların həyat şəraiti tamamilə təmin olunacaqdır [20].

İşğaldan azad edilmiş əraziləri məskunlaşdırılması prosesinin plana uyğun şəkildə həyata keçirilməsi nəzərdə tutulmuşdur. Belə ki, işğaldan azad olunmuş 5 şəhərin Baş planı təsdiq edilmişdir ki, bunlarda kompleks şəkildə yenidənqurmanın həyata keçirilməsi nəzərdə tutulmuşdur. Bir il ərzində Ağalı kəndinə 86 ailə, 420 nəfər köçürülmüşdü, kənddə 360 şagird yerlik məktəb və 60 yerlik uşaq bağçası tikilib istifadəyə verilmişdi, 150 evin tikilməsi isə nəzərdə tutulmuşdu. Əhalinin məşğulluğunu təmin etmək məqsədi ilə suvarma sistemi yaradılmışdı ki, bu sistemlərlə 157 hektar sahə suvarıla bilərdi [23]. Dövlət proqramında işğaldan azad edilmiş ərazilərin yol-nəqliyyat infrastrukturunun qurulması

mühüm yer tuturdu, bu məqsədlə 15 istiqamətdə avtomabil yolunun tikintisi həyata keçirilməli idi. 2021-ci il mayın 26-da uzunluğu 44,5 km olan strateji Bərdə-Ağdam yolunun tikintisinə başlanmışdı, bir qədər əvvəl isə Füzuli-Şuşa avtomabil yolunun təməlqoyma mərasimi olmuşdu, uzunluğu 101,5 km, eni 37,7 metr olan bu yolun Füzuli, Xocavənd və Xocalı rayonlarından keçməsi nəzərdə tutulmuşdu, 13 km uzunluğunda olan Füzuli-Hadrut yoluna da məhz o zaman start verilmişdi. Qısa müddətə Füzuli və Zəngilan beynəlxalq hava limanları tikilərək istifadəyə verilmişdi. Qarabağ və Şərqi Zəngəzur "yaşıl enerji zonası" elan edilmiş və bu ərazilərin Azərbaycanın enerji sisteminə qovuşması sahəsində konkret addımların atılmasına başlanmışdı. Köç planında Şuşaya qayıdış mühüm yer tuturdu. Belə ki, şəhərə 2020 nəfərin köçürülməsi nəzərdə tutulsa da, 10 may 2024-cü il üçün 20 ailədən ibarət 88 nəfəri köçürmək mümkün olmuşdu. 2023-cü ilin martında Talış kəndinə 20 ailə, avqustda Füzuli şəhərinə 90 nəfərdən ibarət 25 ailə köçürülmüşdü. 2024-cü il 24 iyun statistikasına görə Xankəndində 3000 nəfərdən çox Azərbaycan vətəndaşı yaşayırdı [13].

Şərqi Zəngəzur iqtisadi rayonunda tikinti-quruculuq işləri həyata keçirildikdən sonra 2023-cü ilin mayında Laçın şəhərinə ilk köç baş vermiş, 20 laçınlı ailə (97 nəfər) doğma yurdlarına qayıtmışdı. Həmin ilin avqustunda isə Laçının Zabux kəndinə ilk köç baş vermiş, bir şəhid ailəsi də daxil olmaqla 88 nəfərdən ibarət 20 ailə geri dönmüşdü. Şərqi Zəngəzurda Laçın rayonunun Sus kəndinə ilk qayıdış 2024-cü ilin mayında, Cəbrayıla ilk qayıdış 2024-cü ilin sentyabrında, Xocalıya ilk qayıdış 2024-cü ilin mayında baş tutmuşdu. İşğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulmasında Türkiyə, Macarıstan, Rusiya, İsrail, İtaliya və digər ölkələrin şirkətləri yaxından iştirak edirlər. Füzuli rayonunda Özbəkistanın sərmayəsi ilə Mirzə Uluqbəy məktəbi tikilərək istifadəyə verilmiş, Qazaxıstan isə Yaradıcılıq Mərkəzi tikmək öhdəliyi götürmüşdü. Türkiyə Şuşada qurduğu seysmoloji stansiyanı Azərbaycana hədiyyə etmiş, Qırğızıstanın sərmayəsi ilə Ağdamın Xıdır kəndində orta məktəbin inşa edilməsinə başlanmışdı [13]. Dövlət proqramına uyğun olaraq qayıdışın coğrafi arealı sürətlə genişlənməkdədir. Belə ki, 2024-cü il üçün bu areala 20 kənd və qəsəbə, habelə 7 şəhər olmaqla 27 yaşayış məskəni daxil edilmişdir. 2023-cü ilin 11 ayı ərzində ümumilikdə 901 ailə, yəni 3516 nəfər öz ana yurdlarına qayıtmışdı. 2023-cü ildə Füzuli şəhərinə 308 ailə, Laçın şəhərinə 363 ailə, Zəngilan rayonunun Ağalı kəndinə 109 ailə, Laçın rayonunun Zabux kəndinə isə 121 ailə köçürülmüşdü. Ümumilikdə, 44 günlük Vətən müharibəsinin bitməsindən 2023-cü ilin dekabrına qədər 987 ailə azad edilmiş torpaqlara köçürülmüşdü. İlin sonunadək daha 215 ailə doğma torpaqlarına qayıtmışdı. 2025-ci ildə isə 34500 ailənin tarixi vətənlərinə geri qayıtması planlaşdırılırdı [15]. Statististikaya görə, təkcə 2024-cü ildə 10 min nəfərə yaxın keçmiş məcburi köçkün geri qayıtmışdı. Hazırda azad edilmiş ərazilərdə 30 min nəfərdən çox insan yaşayır və fəaliyyət göstərməkdədir. Hər iki iqtisadi rayonun bərpasına isə hazırkı dövrə qədər 19 mlrd manatdan çox vəsait yönəldilmişdi.

Bütün bunlar göstərir ki, işğaldan azad edilmiş ərazilərə qayıdışla bağlı I Dövlət proqramı uğurla həyata keçirilməkdədir. Bu baxımdan 2025-ci il ən uğurlu il kimi nəzərdən keçirilir [1]. Hazırda azad edilmiş ərazilərdə Ağdam Sənaye Parkı, Cəbrayıl rayonunda "Araz Vadisi İqtisadi Zonası", Zəngilanda "Dost Aqropark" və s. müəsissələr fəaliyyət göstərir. Proqram çərçivəsində ərazidə olimpiya İdman Komplekslərinin və Gənclər Evlərinin inşası da nəzərdə tutulub. Ərazilərdəki yaşayış məntəqələrində "ASAN Xidmət" və "DOST" mərkəzləri yaradılacaqdır. Ümumilikdə 49 Ailə Sağlamlıq Mərkəzi və 39 tibb məntəqəsi tikiləcək. İşğaldan azad edilmiş ərazilərə mərhələli formada ümumilikdə 34500 ailənin köçürülməsi nəzərdə tutulur. 2026-cı ilin sonuna qədər "Böyük Qayıdış" proqramının I mərhələsinin tamamlanacağı və bu mərhələdə 140 min məcburi köçkünun Qarabağ və Şərqi Zəngəzura qayıdacağı planlaşdırılır. Bütövlükdə "Böyük Qayıdış" proqramının birinci mərhələsində bütün azad olunmuş şəhərlərdə daxil olmaqla, 100 yaşayış məntəqəsinin yenidən qurulması və məskunlaşdırılması nəzərdə tutulur. "Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası üçün 2022-2026-cı illərdə ümumilikdə təqribən 32 milyard manatdan artıq vəsait tələb olunur. "Böyük Qayıdış" proqramının ikinci mərhələsi isə üç fazadan ibarət olmaqla, 2026-2040-cı illəri əhatə edəcək və proses 2040-cı ilə qədər yekunlaşacaq [14]. 30 may 2025-ci ildə Prezident İlham Əliyev tərəfindən "Azərbaycan Respublikasının 2027-2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın və "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərzilərinə Böyük Qayıdışa dair II Dövlət Proqramı" nın hazırlanması haqqında Sərəncam imzalanmışdır [8]. Böyük Qayıdışın başlanmasının beynəlxalq əhəmiyyəti tarixi zəfər nəticəsində əldə edilmiş yeni dövrün reallıqlarının dünyaya tanıdılmasıdır.

Nəticə. Aparılan tədqiqat göstərir ki, Azərbaycanda miqrasiya siyasətinin formalaşması və inkişafı dövlətin sosial-iqtisadi və demoqrafik strategiyasının mühüm istiqamətlərindən biri kimi çıxış edir. Qəbul edilmiş normativ-hüquqi sənədlər, yaradılmış institusional mexanizmlər və beynəlxalq təşkilatlarla əməkdaşlıq miqrasiya proseslərinin səmərəli idarə olunmasına və bu sahədə dövlət siyasətinin təkmilləşdirilməsinə imkan yartmışdır. Xüsusilə 44 günlük Vətən müharibəsindən sonra işğaldan azad edilmiş ərazilərin bərpası və məcburi köçkünlərin öz doğma torpaqlarına qayıdışı Azərbaycanın demoqrafik və regional strategiyasında mühüm yer tutur. Böyük Qayıdış proqramının həyata keçirilməsi yalnız əhalinin tarixi yurdlarına qayıdışını təmin etmir, həm də Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sosial-iqtisadi dirçəlişinə, dayanıqlı məskunlaşmanın təmin edilməsinə və regionun ümumi inkişafına şərait yaradır. Bu proses, eyni zamanda, Azərbaycanın ərazi bütövlüyünün bərpasından sonra yeni inkişaf mərhələsinə qədəm qoyduğunu və dövlətin strateji məqsədlərinin ardıcıl şəkildə həyata keçirildiyini nümayiş etdirir.

ƏDƏBİYYAT

1. Azad torpaqlara qayıdış bu il daha da sürətlənəcək /08.01.2025/ musavat.com/news/azad-torpaqlara-qayidis-bu-il-daha-da-surelenecek_1134490.html [19.03.2026].
2. Azərbaycan əhalisinin sayı açıqlandı /13.09.2024 - /azertag.az/xeber/azerbaycan _ ehalisinin_sayi_achiqlanib_3178270 [19.03.2026].
3. Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı. 19 mart 2007-ci il, № 560/ - https://www. migration.gov.az/az/about/54 [19.03.2026].
4. Azərbaycan Respublikası hökuməti və Beynəlxalq Miqrasiya Təşkilatı arasında Əməkdaşlıq Sazişi, 8 fevral 2000-ci il.
5. Azərbaycan Respublikası hökuməti və Miqrasiya Siyasətinin inkişafı üzrə Beynəlxalq Mərkəz (MSİBM) arasında Əməkdaşlıq Sazişi, 27 iyun 2006-cı il.
6. Azərbaycan hökuməti ilə Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığı arasında Saziş, 9 iyul 1996-cı il.
7. Azərbaycan Respublikası Miqrasiya Məcəlləsi, 2 iyul 2013-cü il.
8. Azərbaycan Respublikasının 2027-2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyasının və Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair II Dövlət Proqramının hazırlanması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərncamı. - https://president.az/az/articles/view/69040 [19.03.2026].
9. Azərbaycan Respublikasının Demoqrafik İnkişaf Konsepsiyası. - president/az/ 09.12.1999 [19.03.2026].
10. “Azərbaycan Respublikasının Dövlət Miqrasiya İdarəetmə siyasəti konsepsiyasının” təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı, 13 iyul 2004-cü il.
11. Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük qayıdışa dair I Dövlət proqramı, 16 noyabr 2022-ci il. - e-qanun.az/tramework/52757 [19.03.2026].
12. Azərbaycanda miqrasiya proseslərinin ölkə üzrə qeyri-rasional yayılmasının..... /13.09.2024/ azertag.az/ xeber/azerbaycan_ehalisinin_sayi_ achiqlanib_3178270 [19.03.2026].
13. Böyük Qayıdış. - az.wikipedia/org/wiki/Böyük_Qayıdış [19.03.2026].
14. Böyük Qayıdış. - https://azerbaijan.az/information/911 [19.03.2026].
15. “Böyük Qayıdış”ın 2024-cü ilə aid ən böyük hədəfinə doğru gedirik /14.02.2025. - baki-xeber.com/siyaset/210311.html [19.03.2026].
16. Dövlət Miqrasiya Xidməti haqqında Əsasnamə, 19 mart 2007-ci il.
17. Dövlət Miqrasiya Xidməti. - https://www.migration.gov.az/az/useful/23 [19.03.2026].
18. 44 günlük Qarabağ müharibəsi: mülahizə və nəticələr. Bakı: Cir Center, 2021, 33 s.
19. Hacıyev Q. Heydər Əliyev və Azərbaycan Respublikasının ərazi bütövlüyü. Bakı: Füyuzat, 2023, 368 s.
20. Qarabağa Böyük Qayıdış: Ağalı kəndinin ilk sakinləri yola salınıb/ 19.07.2022. - azertag.az/xeber/ qarabaga_boyuk_qayidis_ [19.03.2026].

21. Muradov Ş. Azərbaycan Respublikası əhalisinin dinamikası və quruluşu: əsas demoqrafik və etnodemoqrafik dəyişikliklər (1897-2007-ci illər). Bakı: Elm, 2008, 236 s.
21. Nəsibov E.M. Miqrasiyanın əsasları. Miqrasiologiya. Miqrasiya prosesləri. Dünya miqrasiya mərkəzləri. I kitab. Bakı: Elm və Təhsil, 2014, - 240 s.
23. Zəngilan rayonunun Ağalı kəndinə ilk köçün bir ili tamam olur/ 19.07.2023. - oxu.az/ cemiyyet/ zengilan-rayonunun-agali-kendine- [19.03.2026].

РАСИМ РЗАХАНОВ
Диссертант Бакинского Государственного Университета,
преподаватель Музыкального колледжа при Азербайджанской Национальной Консерватории

СОВРЕМЕННАЯ МИГРАЦИОННАЯ ПОЛИТИКА В АЗЕРБАЙДЖАНЕ И РЕАЛИЗАЦИЯ ПРОГРАММЫ “ВЕЛИКОЕ ВОЗВРАЩЕНИЕ” НА ОСВОБОЖДЕННЫЕ ОТ ОККУПАЦИИ ТЕРРИТОРИИ

Текст статьи анализирует формирование и развитие современной миграционной политики в Азербайджане, а также реализацию программы “Великое возвращение” на освобожденные от оккупации территории с научно-политологической точки зрения. В исследовании рассматриваются миграционные процессы, происходящие в стране с конца XX века, особенно проблемы депортации и вынужденного переселения, а также их влияние на демографическую и социально-экономическую ситуацию. Одновременно подробно объясняются основные направления демографической политики развития Азербайджана, создание Государственной миграционной службы, принятие Миграционного кодекса и вопросы правового регулирования миграционных процессов. В статье также особо отмечается роль сотрудничества с международными организациями в совершенствовании миграционной политики. После 44-дневной Отечественной войны анализируются цели, основные приоритеты и этапы Государственной программы “Великое возвращение” предусматривающей восстановление освобожденных от оккупации территорий и возвращение вынужденных переселенцев на родные земли. Исследование показывает, что реализуемые государственные программы и институциональные реформы вносят важный вклад в эффективное управление и миграционными процессами и демографическое развитие страны.

Ключевые слова: миграционная политика, демографические процессы, Миграционный кодекс, программа “Великое возвращение”, Карабах и Восточный Зангезур, расселение населения.

RASIM RZAKHANOV
Doctoral Candidate at Baku State University
teacher at the Music College under the Azerbaijan National Conservatory

MODERN MIGRATION POLISY IN AZERBAIJAN AND THE IMPLEMENTATION OF THE “GREAT RETURN” STRATEGY TO THE TERRITORIES LIBERATED FROM OCCUPATION

This article examines the formation and development of modern migration policy in the Republic of Azerbaijan and analyzes the implementation of the “Great Return” program to the territories liberated from occupation. The study explores the migration processes that intensified in the late twentieth century, particularly forced migration, deportation, and the problem of internally displaced persons, as well as their impact on the country’s demographic and socio-economic situation. Special attention is paid to the legal and institutional framework of migration management, including the Demographic Devolopment Concept, the establishment of the State Migration Service, and the adoption of the Migration Code. The article also highligts Azerbaijan’s cooperation with international organizations in regulating migration processes. Furthermore, the objectives and priorities of the “Great Return” State

Programaimed at the reconstruction of liberated territories and the resettlement of displaced populations are analyzed. The research concludes that the effective implementation of migration policy and return programs plays an important role in ensuring sustainable regional development and demographic stability.

Keywords: migration policy, demographic processes, Migration Code, “Great Return” program, Karabakh and East Zangezur, population resettlement.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 19 mart 2026-cı il.
Məqalənin çapa qəbul olunma tarixi: 21 may 2026-cı il.
Rəyçilər: t.ü.f.d. Qurban Məmmədov, t.ü.f.d. Məmmədağa Baxışov.

UOT 94(479.24)

РАМИЛА АГАЛАРОВА
Докторант Бакинского государственного университета
ORCİD İD: 0009-0005-6916-282X
alr.aghalarova@gmail.com

ВЕТЕРАНЫ КАРАБАХСКИХ ВОЙН В ОБЩЕСТВЕННОМ ПРОСТРАНСТВЕ АЗЕРБАЙДЖАНА (1991–2025)

DOI: https://doi.org/10.36719/2708-065X/113/153-159

В статье рассматривается, как в общественной жизни Азербайджана в 1991–2025 гг. формировался и изменялся образ ветерана Карабахской войны. Показано, что в первые постсоветские годы память о воинах Первой Карабахской войны существовала главным образом на уровне семейных историй, местных инициатив и неформальных практик памяти. С начала 2000-х годов память о войне всё активнее закрепляется в государственной политике: учреждаются памятные даты, поддерживаются ветеранские организации, расширяется система социальной помощи, а тема войны становится важным элементом официальной символики. Мемориальные комплексы, государственные церемонии и общественные инициативы постепенно закрепляют образ ветерана в общественном и культурном пространстве страны. Победа в Отечественной войне 2020 года стала поворотным моментом: фигура ветерана начала восприниматься не только как свидетель тяжёлого военного опыта, но и как символ национального триумфа и восстановленной исторической справедливости. В результате образ ветерана прошёл путь от локальной памяти и личных историй к одному из значимых элементов современной национальной идентичности Азербайджана.

Ключевые слова: Карабахская война; ветераны войны; общественное пространство; политика памяти; национальная идентичность.

Введение. Карабахские войны стали одним из тех исторических событий, которые заметно изменили общественную ткань современного Азербайджана. Их последствия проявились не только в политике и международных отношениях, но и в том, как общество воспринимает собственную историю, формирует символы памяти и определяет фигуры национального героизма. В этом контексте особое место занимает образ ветерана - человека, чья личная биография связана с войной и одновременно становится частью более широкой исторической картины.

На протяжении последних десятилетий этот образ постепенно выходит за рамки индивидуального военного опыта. Ветераны становятся заметными участниками общественной жизни: их присутствие фиксируется в мемориалах и памятниках, в названиях улиц и школ, в государственных церемониях и памятных датах. Через такие символические формы память о войне закрепляется в культурном и городском ландшафте, превращаясь в устойчивый элемент общественного сознания.

Особенно заметные изменения произошли после 2020 года. Победа во Второй Карабахской войне придала теме ветеранов новое смысловое измерение. Если ранее общественное восприятие войны во многом определялось памятью о потерях и травмах 1990-х годов, то в последние годы всё чаще звучит иной тон — тон победы, восстановленной справедливости и национальной гордости.

Цель настоящего исследования — проследить, как менялось общественное представление о ветеранах Карабахских войн в Азербайджане с начала 1990-х годов до середины 2020-х годов, и какие институциональные и культурные практики сопровождали этот процесс. Особое внимание уделяется тому, каким образом память о ветеранах закрепляется в общественной жизни — через памятники и мемориалы, государственные инициативы и общественные формы увековечения памяти.

Научная новизна исследования заключается в том, что ветераны Карабахских войн рассматриваются не только как социальная категория или объект социальной политики, но и как важный элемент символической структуры общественной памяти современного Азербайджана.

Формирование общественного образа ветеранов Карабахской войны в 1990-е годы. Первая Карабахская война разворачивалась в условиях экономического кризиса, политической нестабильности и масштабного гуманитарного кризиса. По различным оценкам, более одного миллиона граждан страны были вынуждены покинуть свои дома и стать внутренне перемещёнными лицами, что существенно осложнило социальную ситуацию и ограничило возможности государства по поддержке участников войны [11, с. 285–286]. В этих обстоятельствах ветераны возвращались в общество, которое само переживало глубокую трансформацию и лишь начинало формировать устойчивую систему государственных институтов.

В первой половине 1990-х годов память о воинах карабахского фронта формировалась прежде всего на уровне семейных и локальных сообществ. Истории о погибших и выживших участниках боёв передавались в устных рассказах, школьных мероприятиях и местных памятных встречах. В различных регионах страны по инициативе жителей устанавливались мемориальные доски и небольшие памятники. Подобные инициативы фиксируются в ряде городов и районов, где средства на установку памятных знаков собирались местными жителями и родственниками погибших [12, с. 145-155].

В этот же период постепенно возникало и ветеранское движение. Уже в середине 1990-х годов бывшие участники боевых действий начали объединяться в общественные организации, ставившие своей целью защиту социальных прав ветеранов и поддержку семей погибших. Еще в сентябре 1987 года в большинстве районов Азербайджана были созданы организации ветеранов, что привело к основанию Республиканской организации ветеранов 21 сентября того же года, в рамках которой формировались отдельные объединения участников карабахского конфликта. Позднее появились специализированные ветеранские союзы, такие как объединения ветеранов Карабахской войны и ассоциации инвалидов войны [1]. Эти организации выполняли несколько функций: они представляли интересы ветеранов в диалоге с государственными структурами, участвовали в благотворительных инициативах и становились площадками для сохранения памяти о погибших товарищах.

Заметную роль в общественном признании ветеранов сыграл Гейдар Алиев, вернувшийся к власти в 1993 году. В условиях продолжающегося конфликта он стремился придать теме защитников страны важное место в формирующейся государственной идеологии. В своих выступлениях президент неоднократно подчёркивал, что участники войны составляют «золотой фонд народа» и что государство обязано проявлять к ним постоянную заботу и уважение [6, с. 153–154]. Подобная риторика постепенно закрепляла представление о ветеранах как о моральной опоре государства и носителях особого общественного авторитета.

Практическим шагом в этом направлении стало принятие в 1994 году закона Азербайджанской Республики «О ветеранах», который закрепил правовой статус участников боевых действий и определил основные формы социальной поддержки — пенсионные льготы, медицинское обслуживание и ряд других социальных гарантий. Хотя экономические возможности государства в тот период оставались ограниченными, сам факт законодательного признания ветеранов имел важное символическое значение. В то же время исследования социальных и психологических последствий карабахского конфликта показывают, что многие ветераны сталкивались с трудностями адаптации к мирной жизни. Последствия боевых травм, проблемы трудоустройства и необходимость социальной реабилитации становились предметом общественных обсуждений и научных исследований [14].

Таким образом, в 1990-е годы общественное представление о ветеранах Карабахской войны складывалось постепенно и во многом неформально. Оно формировалось на пересечении личного опыта участников войны, локальных форм увековечения памяти и первых шагов государства по признанию их заслуг. Именно в этот период возникали основы ветеранского движения и складывались первоначальные механизмы общественного уважения к участникам боевых

действий, которые в последующие десятилетия получат развитие в рамках государственной политики памяти и программ социальной поддержки.

Укрепление общественной памяти о ветеранах Карабахской войны в 2000-е годы. Начало 2000-х годов стало периодом заметных изменений в отношении государства и общества к участникам Карабахской войны. Одним из ключевых шагов стало развитие законодательной базы, регулирующей социальный статус участников боевых действий. Вышеупомянутый Закон «О ветеранах», в 2000-е годы получил дальнейшее развитие через ряд президентских указов и правительственных решений, уточнявших систему льгот и социальных выплат. В частности, были введены дополнительные пенсионные надбавки для ветеранов войны и членов семей погибших военнослужащих, расширены возможности медицинского обслуживания и санаторного лечения [16, с.178-188]. Позднее, в 2019 году отдельным указом Президента Азербайджана была учреждена ежемесячная государственная стипендия для ветеранов войны. В последующие годы система поддержки ветеранов дополнялась и другими мерами, включая единовременные выплаты отдельным категориям участников войны и членам семей погибших военнослужащих [3].

Параллельно усиливается роль государственных и общественных организаций, занимающихся поддержкой ветеранов. В этот период активно развивается сеть ветеранских объединений, которые взаимодействуют с органами государственной власти и участвуют в общественных мероприятиях. Подобные организации становятся важным посредником между государством и участниками войны, участвуя в обсуждении социальных проблем ветеранов, организации памятных мероприятий и благотворительных инициатив [10].

В этот же период тема ветеранов постепенно занимает более заметное место в официальной риторике государства. В публичных выступлениях руководства страны участники Карабахской войны всё чаще упоминаются как люди, сыгравшие ключевую роль в защите независимости и территориальной целостности Азербайджана. В частности, в своих выступлениях Президент Азербайджанской Республики Ильхам Алиев неоднократно подчёркивал, что государство обязано проявлять постоянную заботу о тех, кто защищал Родину [7]. В результате фигура ветерана всё чаще воспринимается не только как участник военных событий, но и как символ гражданского мужества и служения государству.

Важным направлением становится и содействие профессиональной интеграции ветеранов. Одним из примеров таких инициатив является проект «Qarabağ KOB-ları»**.** Программа предусматривает обучение ветеранов, членов семей шехидов и других социально уязвимых категорий основам предпринимательства. Участники проходят курсы по финансовому планированию, бухгалтерскому учёту, управлению персоналом, маркетингу и организации продаж. После завершения обучения государственные структуры предоставляют победителям программы оборудование и стартовую поддержку для создания собственного бизнеса [5].

Таким образом, в 2000-е годы память о ветеранах Карабахской войны постепенно выходит за пределы локальных инициатив и становится частью системной государственной политики. Законодательные решения, мемориальные проекты и развитие ветеранских организаций формируют более устойчивую модель общественного признания участников войны. Этот процесс создаёт основу для дальнейшей трансформации образа ветерана, которая особенно заметно проявится после Отечественной войны 2020 года.

Ветераны в мемориальном и топонимическом пространстве Азербайджана. Одним из наиболее заметных способов закрепления памяти о Карабахских войнах стало её присутствие в мемориальном и топонимическом пространстве страны. Памятники, мемориальные комплексы и названия городских объектов формируют своеобразный «ландшафт памяти», в котором события войны и судьбы её участников становятся частью повседневной городской среды.

Ключевым мемориальным центром страны остаётся Аллея шехидов (Şəhidlər xiyabanı) в Баку. В течение последних десятилетий она превратилась в один из главных символических пантеонов национальной памяти [15, с.14-16]. Здесь проходят государственные церемонии, дипломатические визиты и ежегодные памятные мероприятия. Аллея стала местом, где сосре-

доточена память не только о событиях января 1990 года, но и о погибших в Карабахских войнах военнослужащих.

Помимо центральных мемориальных пространств, память о ветеранах закрепляется и через памятники национальным героям. Так, в Баку установлен памятник Чингизу Мустафаеву, военному журналисту и Национальному герою Азербайджана. В Гяндже и Баку увековечена память Альберта Агарунова, танкиста и Национального героя Азербайджана, погибшего в ходе боёв за Шушу. В Билясуваре установлен памятник Мубаризу Ибрагимову, погибшему в 2010 году и ставшему одним из символов военного героизма [13, с.251-267]. Эти мемориалы выполняют важную функцию персонализации памяти, связывая историю войны с конкретными биографиями.

Значительную роль в закреплении памяти о войне играет и топонимика. В Баку и других городах страны улицы и общественные объекты получили имена участников Карабахских войн. В различных регионах Азербайджана школы и образовательные учреждения также носят имена участников карабахских боёв. Подобные решения позволяют интегрировать память о войне в повседневную жизнь общества: имена ветеранов и героев становятся частью городских адресов, школьных программ и общественных пространств.

Важным элементом мемориальной политики после Второй Карабахской войны стало создание в Баку Парка Победы (Zəfər Parkı) - масштабного мемориального комплекса, посвящённого событиям войны 2020 года. Центральной архитектурной доминантой парка стала триумфальная арка высотой 44 метра, символизирующая продолжительность военных действий. Мемориальный ансамбль включает музейные пространства и памятные композиции, посвящённые участникам войны. Одним из наиболее выразительных элементов мемориала является композиция, посвящённая 44-м дням войны. В её структуре предусмотрены 44 каменные плиты, каждая из которых символизирует отдельный день военных действий [4]. На плитах размещаются имена погибших военнослужащих, благодаря чему мемориальный объект приобретает характер своеобразной книги памяти. Подобная форма мемориализации подчёркивает не только историческое значение победы, но и человеческое измерение войны, фиксируя память о конкретных судьбах её участников.

Таким образом, мемориальные и топонимические практики становятся важным инструментом общественного признания ветеранов. Через памятники, названия улиц и мемориальные комплексы память о Карабахских войнах получает устойчивое пространственное выражение. В результате образ ветерана превращается в один из заметных элементов культурного и символического пространства Азербайджанской государственности.

Трансформация общественного восприятия ветеранов (2020–2025). Победа Азербайджана во Второй Карабахской войне в 2020 году стала важным рубежом в общественном восприятии ветеранов. Если на протяжении предыдущих десятилетий память о карабахском конфликте во многом формировалась вокруг опыта утрат, разрушенных городов и судьбы вынужденных переселенцев, то после 2020 года в общественной риторике всё чаще доминирует тема победы и восстановления территориальной целостности государства. Эти изменения неизбежно отразились и на образе ветерана в общественном сознании.

Одним из наиболее заметных символических событий стал Парад Победы 10 декабря 2020 года в Баку, в котором приняли участие военнослужащие, участвовавшие в боевых действиях [8]. Парад стал не только военным мероприятием, но и важным актом общественного признания участников войны. В выступлениях официальных лиц подчеркивалось, что именно благодаря мужеству азербайджанских солдат была восстановлена историческая справедливость и завершился один из самых сложных этапов новейшей истории страны.

Новые формы общественного признания проявились и в системе государственных наград. После окончания войны были учреждены специальные медали, среди которых «Qarabağ Fatehi» («Победитель Карабаха») и «Vətən müharibəsi iştirakçısı» («Участник Отечественной войны»). Эти награды получили тысячи военнослужащих, принимавших участие в боевых действиях. Одновременно в общественном пространстве активно обсуждались биографии отдельных героев войны - например, Худаяра Юсифзаде, чья песня, исполненная на фронте, стала одним

из символов войны. Подобные фигуры стали частью нового героического пантеона современной азербайджанской истории.

После 2020 года государство значительно расширило программы помощи ветеранам и семьям погибших военнослужащих. Важную роль в этой системе играет фонд «YAŞAT», созданный по инициативе Ильхам Алиева. Фонд оказывает финансовую помощь семьям шехидов и раненым военнослужащим, финансирует лечение и реабилитацию ветеранов, а также реализует образовательные программы для детей погибших [2].

Наряду с институциональными мерами заметно меняется и общественный язык описания войны. Если в 1990-е годы участники конфликта чаще воспринимались как свидетели трагических событий и тяжёлых испытаний, то после 2020 года всё чаще используется образ «поколения победителей». В средствах массовой информации, документальных фильмах и культурных проектах ветераны Второй Карабахской войны представлены как люди, благодаря которым удалось завершить один из наиболее болезненных конфликтов постсоветской истории региона.

Дополнительным фактором изменения общественного восприятия стало участие ветеранов в восстановлении освобождённых территорий. В рамках государственной программы «Böyük Qayıdış» («Большое возвращение») бывшие участники боевых действий активно вовлекаются в процессы реконструкции региона, участвуют в строительстве инфраструктуры и развитии новых населённых пунктов [9]. Тем самым ветераны становятся не только символами военной победы, но и участниками мирного восстановления региона.

Заключение. Проведённое исследование показывает, что общественный образ ветеранов Карабахских войн в Азербайджане формировался в тесной связи с изменениями исторической памяти, государственной политики и общественно-политической жизни страны. Со временем фигура ветерана вышла за рамки индивидуального военного опыта и стала важным элементом символического пространства общества.

В 1990-е годы память о карабахском конфликте существовала главным образом в форме личных воспоминаний, локальных мемориальных инициатив и деятельности ветеранских объединений. Ветераны воспринимались прежде всего как участники трагических событий недавнего прошлого, а их общественное признание складывалось постепенно и не имело устойчивой государственной поддержки. Однако уже в последующие годы память о войне всё активнее включалась в систему государственной политики памяти. Законодательные решения, социальные программы, мемориальные проекты и топонимические практики способствовали укреплению общественного статуса ветеранов и формированию устойчивых форм их признания.

Качественные изменения произошли после Второй Карабахской войны 2020 года. Победа Азербайджана существенно трансформировала общественное осмысление конфликта. Если в предыдущие десятилетия коллективная память во многом строилась вокруг опыта утрат, разрушенных городов и гуманитарных последствий войны 1990-х годов, то после 2020 года всё заметнее утверждается иной акцент - мотив победы и восстановления исторической справедливости. Таким образом, происходит переход от модели «памяти поражения» к модели «памяти победы», в рамках которой ветераны начинают восприниматься не только как свидетели трагических событий прошлого, но и как представители поколения, благодаря которому была достигнута победа. В результате образ ветерана приобретает более сложное символическое значение. Он объединяет память о жертвах и испытаниях войны с представлением о национальном триумфе и восстановлении территориальной целостности государства. Это превращает ветеранов Карабахских войн в одну из ключевых фигур современной исторической идентичности Азербайджана и важный элемент общественного и мемориального пространства страны.

ЛИТЕРАТУРА

1. Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı. Təşkilat haqqında. URL: https://veteran.gov.az/az/about (müraciət tarixi: 03.04.2026).
2. Azərbaycan Respublikası Prezidentinin Fərmanı. “YAŞAT” Fondunun yaradılması haqqında.” 8 dekabr 2020-ci il // *Azərbaycan Respublikasının Qanunvericilik Toplusu.* 2020.

3. Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları: "Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi zamanı zərər çəkmiş şəxslərə birdəfəlik maddi yardım göstərilməsi haqqında." 19 aprel 2018-ci il; "Müharibə veteranları üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında." 11 iyun 2019-cu il, № 728 // *Azərbaycan Respublikasının Qanunvericilik Toplusu.* 2018–2019.
4. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı şəhərində Vətən müharibəsi memorial kompleksinin və Zəfər muzeyinin yaradılması haqqında. 3 dekabr 2020-ci il // *Azərbaycan Respublikasının Qanunvericilik Toplusu.* 2020. № 12. Maddə 1435.
5. "Qarabağ KOB-ları" layihəsi – şəhid ailələri və müharibə iştirakçıları və onların ailə üzvlərinin məşğulluğuna və biznes təşəbbüslərinə dəstək. URL: https://smb.gov.az/az/all-news/qarabag-kob-lari-layihesi-sehid-aileleri-muharibe-istirakcilari-ve-onlarin-aile-uzvlerinin-mesgulluguna-ve-biznes-tesebbuslerine-destek (дата обращения: 02.04.2026).
6. Əliyev H. Veteranlarla görüşdə çıxış. *Müstəqilliyimiz əbədidir*: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. III kitab. Bakı: Azərnəşr, 1997. S. 153–154. Bakı: Azərnəşr, 1997, 488 s.
7. Əliyev İ. H. Şəhid ailələrinə və müharibə əlillərinə mənzillərin və avtomobillərin təqdim edilməsi mərasimində çıxış. Bakı, 26 avqust 2021-ci il. URL: https://president.az/ru/articles/view/52975 (müraciət tarixi: 02.04.2026).
8. Əliyev İlham Heydər oğlu. Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradında İlham Əliyevin nitqi. Bakı, 10 dekabr 2020-ci il. URL: https://president.az/az/articles/view/48793 (müraciət tarixi: 10.04.2026).
9. Azerbaijan reveals number of martyr families, Karabakh war veterans receiving aid under self - employment program. 15 July 2022. URL: https://www.trend.az/azerbaijan/society/3621191.html (дата обращения: 30.03.2026).
10. Danilova N. The Politics of War Commemoration in the Post-Soviet Space: The Case of Veteran Organizations. London: Routledge, 2015. P. 97–100.
11. De Waal T. Black Garden: Armenia and Azerbaijan Through Peace and War. New York: New York University Press, 2013. P. 285–286
12. Garagozov R. Collective Memory in Ethnopolitical Conflicts: The Case of Nagorno-Karabakh. *Central Asia and the Caucasus.* 2006. №5. P. 145–155.
13. Memory Politics and the Karabakh Conflict in Azerbaijan. *Caucasus Survey.* 2018. Vol. 6. No. 3. P. 251–267
14. Musavi N. The Human Cost of Conflict: Psychological Trauma in Azerbaijan after the Karabakh Wars. Heinrich Böll Stiftung South Caucasus, 2024. URL: https://ge.boell.org (дата обращения: 02.04.2026).
15. Sayfutdinova L. The Alley of Martyrs: Deaths, Memory and the Nation // *Caucasus Analytical Digest.* 2014. No. 66. P. 14–16
16.Агаларова Р. Р. Формирование и реализация государственной политики социальной защиты ветеранов Первой Карабахской войны в Азербайджане // *Turan: материалы международной научной конференции.* Баку, 2025. С. 178–188.

AĞALAROVA RAMİLA
Bakı Dövlət Universitetinin doktorantı

QARABAĞ MÜHARİBƏLƏRİ VETERANLARI AZƏRBAYCANIN İCTİMAİ MƏKANINDA (1991–2025)

Məqalədə 1991–2025-ci illərdə Azərbaycan cəmiyyətində Qarabağ müharibələri veteranlarının necə xatırlandığı və ictimai məkanın bir hissəsinə çevrildiyi araşdırılır. Tədqiqat göstərir ki, 1990-cı illərdə Birinci Qarabağ müharibəsinin iştirakçıları haqqında kollektiv yaddaş əsasən ailə xatirələri, yerli icmaların təşəbbüsləri və qeyri-rəsmi anım mərasimləri vasitəsilə formalaşırdı. 2000-ci illərdən etibarən bu yaddaş tədricən dövlət siyasətinin predmetinə çevrilir: anım günləri təsis olunur, veteran təşkilatları yaranır, sosial dəstək mexanizmləri genişlənir və müharibənin xatirəsi rəsmi simvolika

vasitəsilə ictimai məkanın görünən hissəsinə daxil edilir. Memorial komplekslər, küçə və məktəb adları, dövlət mərasimləri veteran obrazını gündəlik həyatın tanış elementinə çevirir. 2020-ci il Vətən müharibəsindən sonra isə bu obraz yeni məna qazanır: veteran artıq yalnız keçmiş döyüşlərin iştirakçısı deyil, həm də milli qələbənin və müasir Azərbaycan dövlətçiliyinin simvolu kimi təqdim olunur. Beləliklə, məqalə göstərir ki, Qarabağ müharibələri veteranlarının obrazı spontan xalq yaddaşından başlayaraq dövlət tərəfindən formalaşdırılan geniş ictimai narrativə qədər inkişaf etmiş və müasir milli kimliyin mühüm komponentinə çevrilmişdir.

Açar sözlər: Qarabağ müharibəsi; müharibə veteranları; ictimai məkan; yaddaş siyasəti; memorializasiya; milli kimlik.

RAMILA AGALAROVA
Doctoral student of Baku State University

VETERANS OF THE KARABAKH WARS IN THE PUBLIC SPACE OF AZERBAIJAN (1991–2025)

The article examines how the image of the Karabakh war veteran was formed and gradually transformed in the public life of Azerbaijan between 1991 and 2025. It shows that in the early post-Soviet years the memory of the participants of the First Karabakh War existed mainly at the level of family narratives, local initiatives, and informal commemorative practices. Since the early 2000s, the memory of the war has increasingly been incorporated into state policy: commemorative dates have been established, veterans' organizations supported, and the system of social assistance expanded, while the theme of war has become an important element of official state symbolism. Memorial complexes, state ceremonies, and civic initiatives have gradually embedded the figure of the veteran in the country's public and cultural space. The victory in the Patriotic War of 2020 became a turning point in this process: the veteran came to be perceived not only as a witness to the hardships of war, but also as a symbol of national triumph and the restoration of historical justice. As a result, the image of the veteran has evolved from local memory and personal stories into one of the significant elements of modern Azerbaijani national identity.

Keywords: Karabakh war; war veterans; public space; memory politics; memorialization; national identity.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 10 aprel 2026-cı il.
Məqalənin çapa qəbul olunma tarixi: 21 may 2026-cı il.
Rəyçilər: t.e.d. İbrahim Zeynalov, t.e.d. İsmayıl Məmmədov.

UOT 94(479.24); UOT 94

GÜNEL YUSİFOVA
Bakı Dövlət Universitetinin doktorantı
ORCID: 0009-0004-5226-0514
gu_nel@yahoo.com

ASİYA ÖLKƏLƏRİ İLƏ AZƏRBAYCAN SSR ARASINDA İNCƏSƏNƏT ƏLAQƏLƏRİ

DOI: https://doi.org/10.36719/2708-065X/113/160-165

1970-1980-ci illərdə beynəlxalq münasibətlər tarixində mədəni diplomatiyanın xüsusi çəkisinin artdığı bir mərhələ kimi xarakterizə olunur. Soyuq müharibə şəraitində ölkələr siyasi və ideoloji maraqlarını hərbi və iqtisadi əlaqələrlə deyil, mədəni əməkdaşlıqlar vasitəsilə də genişləndirməyə çalışırdılar. Buna görə də Asiya ölkələri Hindistan, İran, Pakistan, Əfqanıstan ilə Azərbaycan SSR arasında formalaşan mədəni əlaqələr beynəlxalq münasibətlər sisteminin tərkib hissəsi kimi xüsusi əhəmiyyət kəsb edirdi. Azərbaycan SSR müstəqil xarici siyasət yürütmək imkanına malik olmasa da, SSRİ-nin tərkibində olan bir respublika kimi beynəlxalq mədəni proseslərdə iştirak edirdi. SSRİ-nin Asiya ölkələrinə yönəlmiş xarici siyasət strategiyasında milli respublikaların tarixi, dini və mədəni xüsusiyyətlərindən istifadə olunurdu. Şərq sivilizasiyası ilə bağlılığı, islam mədəni mühiti ilə yaxınlığı və ortaq tarixi irs amili Azərbaycan SSR-ni bu siyasətdə əsas iştirakçıya çevirirdi. Azərbaycan SSR bir növ körpü rolunu oynayaraq SSRİ ilə Asiya ölkələri arasında qarşılıqlı anlaşmanın formalaşmasına töhfə verirdi. Beləliklə, bu münasibətlər yalnız humanitar xarakter daşımır, eyni zamanda beynəlxalq münasibətlərdə siyasi-strateji məqsədlərə xidmət edirdi. Aparılan araşdırma göstərir ki, Asiya ölkələri ilə Azərbaycan SSR arasında mövcud olmuş mədəni əlaqələr, əməkdaşlıqlar bu ölkələr arasındakı münasibətlərin dayanıqlı və daha uzun illər ərzində mövcud olmasında həlledici rol oynamışdır. Bu baxımdan 1970-1980-ci illərin mədəni əlaqələri beynəlxalq münasibətlər sistemində funksional və uzunmüddətli təsir gücünə malik olmuşdur.

Açar sözlər: mədəni diplomatiya, Hindistan, ədəbi görüşlər, beynəlxalq əlaqələr, Azərbaycan SSR, teatr.

Giriş: Dünya sistemində maddi həyatın qloballaşması ilə yanaşı xalqlar arasında mənəvi əlaqələr güclənərək insanlar arasında qarşılıqlı münasibətlərin əsas vasitələrindən birinə çevrilir. Mədəni münasibətlər beynəlxalq münasibətlər sisteminin əsas tərkib hissəsidir. Buraya ədəbiyyat, idman, turizm, incəsənətin müxtəlif sahələri, kütləvi informasiya vasitələri və başqa sahələr üzrə beynəlxalq əməkdaşlıq və mübadilə prosesləri daxildir. Hər bir ölkənin xarici siyasətində müəyyən etdiyi strategiyanı həyata keçirməkdə mədəni əlaqələrin bu formaları mühüm rol oynayır. Azərbaycanın strateji baxımdan mühüm ərazidə yerləşməsi, eləcə də milli mədəniyyətimizin zənginliyi həm Şərq, həm Qərb ölkələrinin diqqətini çəkmişdir. Eləcə də şərq xalqlarının mədəni irsi Azərbaycanda maraqla qarşılanırdı. Mədəniyyət xalqların ünsiyyət əlaqəsi kimi ümumi inkişaf üçün geniş imkanlara malikdir. Mədəni əməkdaşlıqlar xalqları bir-birinə daha da yaxınlaşdıraraq bəşəriyyətin tərəqqisinə, dünya mədəniyyətlərinin zənginləşməsinə səbəb olur. Fərqli ölkələrə xas olan mədəniyyətlər belə həmişə qarşılıqlı təsir şəraitində formalaşmış, digər mədəniyyətlərin təsiri ilə daha da inkişaf etmişdir. Belə mübadilələr ayrı-ayrı xalqların, cəmiyyətlərin inkişafına real zəmin yaratmışdır. Mədəni əməkdaşlığın inkişafı siyasi gərginliyin azalması və dövlətlər arasında stabil münasibətlərin qurulması nəticəsində baş verir. Yeni mədəniyyətlə sülh arasında ayrılmaz bir əlaqənin olduğu açıq şəkildə göstərilir. XX əsrin II yarısından başlayaraq mədəni əlaqələr müharibələrdən, ayrı-ayrı ölkələrin müstəmləkəçilik siyasətindən kənar inkişaf edərək ümumbəşəri xarakter almışdır. Xalqların müasir mədəni əlaqələri bütövlükdə beynəlxalq münasibətlərin yaxşılaşması nəticəsində mümkün olub, öz növbəsində onların daha da tərəqqisinə, nəticə etibarilə bütün dünyada sülh və əmin-amanlığın təmin olunmasına həlledici pay gətirir [7, s.3].

XX əsrdə baş verən Dünya müharibələri, xüsusilə II Dünya müharibəsi bir çox dövlətlərin mədəniyyətlərinə ciddi zərbələr vurmuş, onların beynəlxalq mədəni münasibətlərinin inkişafını məhdud-

laşdırmışdı. Müharibədən sonrakı dövrdə dünya dövlətlərinin SSRİ və ona daxil olan xalqlara maraq nəzərə çarpacaq dərəcədə artmış və SSRİ ilə mədəni əlaqələr qurmaq üçün xüsusi cəmiyyətlər yaratmışdılar. II Dünya müharibəsindən sonra ABŞ və müttəfiqləri kommunizm ideyalarının yayılmasının qarşısını almaq üçün sosialist ölkələrinə qarşı sədd çəkərək onlara qarşı psixoloji müharibələr aparmışlar. Bu "Soyuq müharibə" dövrünə təsadüf edib, nəticədə Şərq və Qərb ölkələri arasında mədəni və sosial əlaqələr kəskin şəkildə azalmışdı. Lakin bu mübarizəni uzun müddət aparmaq mümkün deyildi. Sosialist və kapitalist ölkələri arasında münasibətlər yenidən normallaşaraq yeni əlaqələrlə tədricən genişlənməyə başlamışdır.

Beynəlxalq münasibətlər sistemində bu dövrdə Azərbaycanın 150-dən çox ölkə ilə mədəni əlaqələri qurulmağa başlamışdı. Əlbəttə bu əlaqələrin qurulmasında Azərbaycan xalqının tarixi keçmişi, adət-ənənələri, mədəni dəyərləri vacib rol oynamış, digər xalqlarla beynəlxalq miqyasda əməkdaşlığının genişlənməsinə töhfə vermişdir. Beynəlxalq miqyasda əməkdaşlığın inkişaf etdirilməsində, eləcə də mədəni mübadilələrin həyata keçirilməsində bir sıra qurumlar, ictimai təşkilatlar fəal rol oynamış, onlardan Xarici İşlər Nazirliyi, Mədəniyyət Nazirliyi, "Vətən Cəmiyyəti", bir sıra xarici ölkələrlə, eləcə də Hindistan, İran, Əfqanıstan, Pakistan ilə mədəni əlaqələri inkişaf etdirmək üçün yaradılan Xarici Ölkələrlə Dostluq və Əməkdaşlıq Cəmiyyətləri və digərlərinin fəaliyyətini qeyd etmək lazımdır. Beynəlxalq münasibətlərdə mədəni əməkdaşlığı inkişaf etdirmək üçün müxtəlif üsullardan istifadə edilmişdir. Bunlara misal olaraq müxtəlif mədəniyyət günlərinin keçirilməsi, ədəbi əməkdaşlıqların qurulması, teatr və musiqi sahəsində qastrol səfərlərin olması, kinematoqrafiya, rəssamlıq və digər sahələrdə əlaqələrin qurulması bu ölkələrlə mədəni əlaqələrin inkişafını əyani sübut edir.

XX əsrin 70-80-ci illəri Hindistan, İran, Pakistan, Əfqanıstan ilə Azərbaycan SSR-nin mədəni əlaqələrinin inkişafında özünəməxsus yer tutmuşdur. Asiya ölkələri ilə Azərbaycan SSR arasında beynəlxalq mədəni əlaqələr sistemində ilk növbədə incəsənətin rolunu müəyyən edəcəyik. Qeyd olunan dövlətlərin müxtəlif janr və sahələrində çalışan mədəniyyət xadimləri Azərbaycana gəlmiş, eləcə də Azərbaycan mədəniyyətinin yüzlərlə, minlərlə nümayəndəsi, onlarla bədii yaradıcı kollektivləri, aktyor qrupları xaricdə olmuşdur [6, s.167].

Teatr sahəsində qurulan qarşılıqlı əlaqə. İncəsənətin müxtəlif sahələrindən olan mədəniyyət nümayəndələri və yaradıcı heyətin mübadiləsi, müxtəlif şair, yazıçıların yaradıcılığından olan əsərlərin qarşılıqlı nəşr etdirilməsi və təbliği ilə bağlı tədbirlər keçirilirdi. Beynəlxalq əməkdaşlıq çərçivəsində mədəniyyət günləri, festival və sərgilər keçirilmiş, dram və musiqi kollektivləri arasında yaradıcı əlaqələr qurulmuş, jurnalistlərin qarşılıqlı səfərləri həyata keçirilmiş, kino filmlərin, radio və televiziya verilişlərinin mübadiləsi təşkil edilmişdir. İlk zamanlar əlaqələr zəif olsa da, zamanla inkişaf etməyə başlamışdır. İncəsənətin bir növü olan teatr xalqlar arasında əlaqələrin qurulmasında vasitəçi rolunu oynayır. Teatr incəsənətin bir növüdür ki, o dil və mənsubiyyətindən asılı olmayaraq bütün dünya xalqlarını öz əhatəsində ala bilər [6, s.183]. Yəni teatr tamaşaları hər kəs tərəfdən anlaşılır. Hər bir ölkə öz milli əsərləri ilə yanaşı dünyaca məşhur olan digər əsərləri də öz səhnələrində canlandıra bilirlər. Bu beynəlxalq mədəni əlaqələrin formalaşmasında mühüm üsullardan biri kimi teatr sənətində xarici repertuardan istifadə olunması mühüm rol oynamışdır. 1974-cü ildə Azərbaycan Dövlət Opera və Balet Teatrın SSRİ xalq artisti Qəmər Almaszadənin rəhbərlik etdiyi teatr qruppası Hindistana qastrol səfərdə olmuş, geniş proqramla çıxış edən həmyerlilərimiz həm yerli, həm xarici bəstəkarların yaradıcılığından, eləcə də xoreoqrafik miniatürlər, müxtəlif baletlərdən parçalar istifadə edərək iştirak etmişdilər. Hind mədəniyyəti, incəsənətini, xüsusilə də, kino və musiqisinə böyük marağı olan Azərbaycan vətəndaşları Hindistanın məşhur sənətkarları ilə- aktyor və rejissor Caşvant Thaker, müğənnilər Puşna Upender Trivedi, Lakhaç Bran Qindiv, Priça Devi, Hafiz Əhmədxan, musiqiçilər Lətif Əhməd, Mahmud Mirzə Səbri xan və digərləri ilə görüşlərə tükənməz şəkildə can atırdılar [4, s.22].

Bu ölkələrdə Azərbaycanın bir sıra əsərləri teatr səhnələrində göstərilmişdi. Bunlara misal olaraq, Mirzə Fətəli Axundovun "Müsyo Jordan və Dərviş Məstəli şah", "Molla İbrahim Xəlil kimyagər" əsərləri, "Qaynana" komediyasını göstərmək olar. İranda da Azərbaycanın görkəmli dramaturqu M.F. Axundovun "Hacı Qara" (1971) əsəri, Ü.Hacıbəyovun "Arşın mal alan" operattası göstərilmişdir. Hindistanda isə Səməd Vurğunun "Vaqif" pyesi böyük rəğbətlə tamaşaçılar tərəfindən qarşılanmışdır. Hind yazıçısı Rabindranat Taqorun "Çitraxandra" əsəri əsasında Niyazi dünya şöhrətli "Çitra" baletini yaratmışdı. Bu fəaliyyətinə görə Niyazi "Cəvahirləl Nehru" mükafatına layiq görülmüşdür.

Qastrol səfərlərinin həyata keçirilməsi. Mədəni əlaqələrin inkişafından danışarkən, ölkələrin mədəniyyət nümayəndələrinin qastrol səfərləri keçirilən beynəlxalq tədbirlərdə iştirak edilməsindən də danışmaq olar. 70-80-ci illərdə bu tədbirlər daha çox olmuşdur. 70-ci illərin əvvəllərində Azərbaycanın bir sıra incəsənət nümayəndələri Elmira Rəhimova, İslam Rzayev, Əhsən Dadaşov, Habil Əliyev, Şəfiqə Eyvazova, "Qaya" qrupu Hindistanda səhnə almışdılar. Tarzən Ramiz Quliyev Əfqanıstanda, Habil Əliyev isə öz əsrarəngiz ifaları Əfqanıstan, İran və başqa ölkələrdə sevilirdi. İranda baş tutan mühüm konsertlərdən biri Müslüm Maqomayevin 1971-cildə baş tutan konserti idi. Qastrol səfərləri 1975-ci ildə də davam etmişdir. Nəzakət Məmmədova, Afaq Məlikova, Arif Babayev, Qorxmaz Qurbanov və digərləri Əfqanıstanın Kabil şəhərində 20000 tamaşaçı tutan stadionunda konsert vermişdilər. Ölkəmizin incəsənət nümayəndələri ümumilikdə 10 gün olduqları Əfqanıstanda 12 konsert vermişdilər. 1976-cı ildə Azərbaycanın dünya şöhrətli bəstəkarı Üzeyir Hacıbəyovun 90 illik yubileyi Hindistanın bir sıra şəhərlərində Bombey, Kəlküt, Mədrəsdə qeyd olunmuşdur. Bu tədbirdə çıxış edən Azər Rzayev öz çıxışında demişdir: "Böyük Üzeyir Hacıbəyovun yaradıcılığına həsr olunmuş yubiley gecələri əsl musiqi və xalqlar dostluğu bayramına çevrilmişdir. Hind dostlar Azərbaycan peşəkar musiqisinin banisinə hörmətlərini izhar etməklə Azərbaycan bəstəkarlıq məktəbinin müvəffəqiyyətlərinə və beynəlxalq aləmdəki nailiyyətlərinə sevinclərini bildirirdilər [1, s. 87-88]. 1976-cı ildə Azərbaycan musiqiçilərinin (Z.Xanlarova, Fidan qasımova, İslam Rzayev, Elmira Rəhimova) İrana musiqi səfərləri olmuş, verilən konsertlər uzun müddət İran mətbuatında canlandırılmışdı. Digər mədəni əlaqələrlə yanaşı, musiqi ilə bağlı əlaqələr İran inqilabı dövründə zəifləmişdi. Lakin inqilabdan sonra bu əlaqələr yenidən bərpa olunmağa başladı. Buna misal olaraq Azərbaycan incəsənət xadimlərinin İranda baş tutan Azərbaycan mədəniyyət günlərində iştirak etmələrini göstərmək olar.

1977-ci ildə Azərbaycan SSR xalq artisti, pianoçu Tamilla Mahmudova elmi və mədəni əməkdaşlıq proqramı çərçivəsində Kabildə səfərdə olmuş. Sənətçimiz Kabildə çıxış edərkən dünya şöhrətli Çaykovski, Şopen, Debüssinin əsərlərinə, eləcə də F.Əmirov, Q.Qarayev, Ü.Hacıbəyovun bəstələrini məharətlə ifa etmişdir. 1978-ci ildə yenidən incəsənət nümayəndələri Əfqanıstanda 22 konsert vermişdir. Zeynəb Xanlarova, Afaq Məlikova, İslam Rzayev "sülh elçiləri" kimi Əfqanıstanda hörmətlə qarşılanmışdılar. Bu konsertlərdə SSRİ və Əfqanıstan siyasət nümayəndələri də iştirak etmişdilər. SSRİ tərəfdən SSRİ Ət Süd Sənayesinin naziri S.F.Antonov, eləcə də Əfqanıstandakı rus səfiri Puzanov, Əfqanıstan tərəfdən isə dövlət başçısı, İnqilab Şurasının sədri Bəbrək Karmel də iştirak etmişdilər. 1980-ci ildə Hindistanda keçirilən beynəlxalq kukla teatrı festivalında Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla teatrının üzvləri Ü.Hacıbəyovun "Məşədi İbad" və X.Əlibəylinin "Çunquş" əsərləri ilə çıxış etmişdilər. 1982-ci ildə Hindistanın Dehli, Bombey, Kəlküttə, Aqra və başqa şəhərlərində Azərbaycan rəqqaslarının çıxışı olmuşdur. 1983-cü ildə Əfqanıstanda və Pakistanda Azərbaycan nümayəndələrinin böyük konserti olmuşdur. Əfqanıstana gedən heyətdə Nisə Qasımova, Teymur Mustafayev, Pakistana isə Rəşid Behbudovun rəhbərlik etdiyi Mahnı Teatrı getmişdir. Onlar Pakistanın bir sıra şəhərlərində İslamabad, Lahor, Karaci və Feysəlabadda konsert vermişdilər. Bu konsertlərə ölkənin siyasi xadimləri və prezident də gəlmişdir.

Mədəni əməkdaşlığın inkişaf etdirilməsində ədəbiyyat günləri, müxtəlif festivalların keçirilməsi, dekada və həftələrin həyata keçirilməsi mühüm əhəmiyyət kəsb etmişdir. Bunlara misal olaraq Azərbaycan və Əfqan yazıçılarının 1982-ci ildə birgə keçirdiyi "Əfqan ədəbiyyatı günləri"-ni göstərmək olar. Azərbaycanda Nizaminin 850 illik, Nəsiminin 600 illik, Füzulinin 400 illik, Vaqifin 250 illik, M.F.Axundovun 150 illik, Cəlil Məmmədquluzadənin 100 illik yubileylərində İranın görkəmli yazıçı və şairlərinin iştirakı, eyni zamanda qonşu ölkədə Əbdürrəhman Caminin 500 illik və Seyid Nəfisinin 100 illik yubileylərində Azərbaycan nümayəndələrinin iştirakı Azərbaycan-İran ədəbi əlaqələrinin möhkəmlənməsinə dəlalət edir [3, s. 93].

Asiya ölkələri ilə Azərbaycan SSR arasında beynəlxalq mədəni əlaqələrin inkişafında kino da xüsusi yer tutur. Belə ki, müxtəlif ölkələrin kinofestivalları keçirilirdi və bunlar içərisində bu ölkələrin də kinolarının nümayişi keçirilirdi. 1971-ci ildə Bakıda və Sumqayıtda İran filmləri həftəsi keçirildi. Bununla əlaqədar İranın Mədəniyyət nazirinin nümayəndəsi Tehran şəhəri kinoteatrları sindikatının direktoru, Birinci Beynəlxalq Tehran kinofestivalının Baş katibi A.A.Aştiani Azərbaycanda bir sıra görüşlərdə iştirak edib [3, s.103]. Kino festivalları keçirilirdi ki, onlardan 1974-cü ildə Bakıda keçirilən İran kino filmləri, 1984-cü ildə Hindistan kinofilmləri həftəsini qeyd etmək olar. 70-80-ci illərə aid

bəzi İran filmləri "Tarla bülbülü", "Mazandaran pələngi", "Avropalı gəlin" azərbaycan dilində mavi ekranlarda göstərilmişdi. Eləcə də Azərbaycan filmləri İran tamaşaçıları tərəfindən maraqla izlənirdi. Bu əlaqələr sonrakı illərdə də davam etdi. Hindistanın Trivandrum şəhərində 1988-ci ildə beynəlxalq kino festivalı günü keçirilmişdi ki, burada Azərbaycan kino rejissorlarının filmləri göstərilmişdi. Nümayiş olunan filmlər arasında Bakı eyvanları, Başqa bir həyat filmlərini misal göstərmək olar. 1989-cu ildə "Azərbaycanfilm" kinostudiyası ilə "Y.S. Aqrofarma LTD" birgə "AZİNDA" müəssisəni qurdular [2, s.88]. Bu müəssisə fəaliyyəti dövründə Hindistana filmlər göndərir, eləcə də oranın yerli filmlərini alaraq Azərbaycana göndərirdi.

XX əsrin 70-ci illərində rəssamlar arasında əlaqələrin yeni mərhələsi başlamışdı. Azərbaycan rəssamlarının əsərləri bu ölkələrdə nümayiş edilmişdi. Bu əlaqələrin yeni inkişaf mərhələsinə qədəm qoyması nəticəsində qarşılıqlı saziş və müqavilələr imzalanıb, çoxsaylı əməkdaşlıqlar edilmişdi. Əfqanıstanda keçirilən Azərbaycan günləri tərkibində görkəmli rəssamların əsərləri də paylaşılmışdı. Əfqanıstanla yanaşı, Hindistanda da festivallar keçirilmiş, burada Azərbaycan SSR rəssamı K.Əliyevin xalçaları göstərilmişdi. Hindistan rəssamlarının əsərləri Azərbaycanda keçirilən sərgilərdə nümayiş etdirilmişdi. Azərbaycan rəssamı Ç.Fərzəliyevin 20 əsəri nümayiş olundu bu əsərlər Hindistana həsr olunmuşdu. Azərbaycanın görkəmli rəssamı Mikayıl Abdullayevin Hindistana dəfələrlə səfəri olmuşdur. Belə səfərlərdən biri 1970-ci ildə baş tutmuşdur. Belə səfər zamanı o, yeni əsərini "Hindistanla ikinci görüşü" təqdim etmiş, bu naturanı Hindistanın gözəl təbiətinə, əhalinin həyatına həsr etmişdir. Bundan başqa Abdullayevin "İndira Qandinin portreti" əsərini baş nazir İndira Qandiyə təqdim edilmiş və Qandi onu Cəvahirlər Nehru beynəlxalq mükafatı ilə təltif etmişdir. Dəfələrlə onun sərgisi olmuşdur. Azərbaycanlı rəssamlarla yanaşı hind rəssamları da Azərbaycana qonaq gəlmişdir. Buna misal olaraq M.S.Hüseyn, Qulam Şeyx, Ramacandranı göstərmək olar. Onların Azərbaycanda sərgiləri olmuşdur. Hindistana səfər edən rəssamlar içərisində Tahir Salahov, Toğrul Nərimanbəyov, Elbəy Rzaquliyev, Asəf Cəfərovun adını da qeyd etmək lazımdır. Onlar Hindistanla bir sıra rəsm əsərləri yaratmışdılar.

1970-1980-ci illərdə ölkələr arasında baş tutan mədəniyyət və dostluq günləri, ongünlüklər beynəlxalq əlaqələrin möhkəmlənməsində böyük rol oynayıb. Hindistanda 1983-cü ildə SSRİ günləri keçirilmiş, 1986-cı ildə Azərbaycanda əfqan mədəniyyət günləri keçirilməsi bu iki xalq arasında olan münasibətləri daha da dərinləşdirmişdi. Növbəti ildə Əfqanıstanda Azərbaycan mədəniyyət günlərinin keçirilməsi beynəlxalq əlaqələrin inkişafında xüsusi hadisə oldu. 1988-ci ildə Azərbaycanda İran mədəniyyət günlərinin keçirilməsi, 1989-cu ildə isə İranda keçirilən SSRİ-İran mədəniyyət günləri məhz Azərbaycan SSR-nin bu ölkə ilə qurduğu dostluq münasibətlərinin səyi nəticəsində baş tutmuşdur. Yəni bir məsələni qeyd etmək lazımdır ki, xarici ölkələrdə keçirilən mədəniyyət günlərinin çoxu Azərbaycan mədəniyyəti və incəsənətinin nümunəsində baş tuturdu. 1980-ci illərdə dünyada keçirilən mədəniyyət günlərində yüzlərlə Azərbaycan incəsənət nümayəndələri iştirak etmiş, konsertlər vermişdilər.

Mədəni mübadilənin inkişafında bəstəkarların fəaliyyəti də mühüm rol oynamışdır. Həmkarlar bir-birinə xarici səfərlər edərək sənət mübadiləsi aparmışdılar. Yeni fikirlərin, ideyaların formalaşmasında bir-birinə böyük fayda vermişdilər. İlk olaraq, bu fəaliyyətdə biz Fikrət Əmirovun adın qeyd edə bilərik. O, İrana səfər etmiş və İranın xalq musiqisi ilə yaxından tanış olmuş, eləcə də üzərində işlədiyi əsəri üçün məlumat və materiallar toplamışdı. Bu səfəri zamanı o, İrana həsr etdiyi yeni əsərini "Gülüstan-bayatı Şiraz"-ı təqdim etmişdir. Digər görkəmli incəsənət nümayəndəmiz olan Niyazi hind xalqının həyatını tərənnüm edən "Çitra" baletini yazmışdı. Bu baleti o, məşhur hind yazarı Rabindranat Taqorun "Çitraxandra" əsərindən təsirlənərək ərsəyə gətirmişdir. Niyazi bu fəaliyyətinə görə beynəlxalq mükafat hesab edilən Cəvahirlel Nehru mükafatına layiq görülmüşdü. Azərbaycan musiqi xadimlərinin səfərləri ilə yanaşı, bu dövlətlərin gənc kadrları da Azərbaycan musiqi mədəniyyəti ilə tanış olmaq və azərbaycanlı mütəxəssislərin təcrübəsindən faydalanmaq üçün Azərbaycana səfər etmişdilər. Onlardan hind bəstəkarı Vinulas Şirəli, Antser Lobonu, əfqan musiqiçisi Əsmətulla Ansarini, hind rəqqası Rani Karnaanı misal göstərmək olar.

Nəticə. XX əsrin 70-80-ci illərində Asiya ölkələri ilə Azərbaycan SSR arasında qurulan əlaqələr içərisində mədəni əlaqələrin, əməkdaşlıqların əvvəlki illərlə müqayisədə yüksələn inkişaf üzrə getdiyini tədqiqat zamanı görmək mümkündür. Bu dövrdə qurulan incəsənət əlaqələri hər bir ölkə üçün yeni

inkişaf pəncərələri açaraq həm daxili mədəniyyətin perspektivini artırdı, həm də ölkələrin beynəlxalq aləmdə tanınmasına kömək etdi. Bu əməkdaşlıqların qarşılıqlı təsiri nəticəsində incəsənət nümayəndələrinin bir-birilə sənət mübadiləsi aparması onların daha da böyük təcrübələr qazanmasına, eləcə də incəsənətin bu sahələrinin daha da inkişaf etməsinə səbəb olmuşdur. Azərbaycan SSR-in mədəni irsi İran, Pakistan, Əfqanıstan, Hindistanda tanıdılması və bu ölkələrin mədəniyyətinin ölkəmizdə tanıdılması mədəni dialoqun yaranmasında mühüm rol oynamışdır. Nəticədə XX əsrin 70-80-ci illərinin mədəni əməkdaşlıqları Azərbaycan SSR-in beynəlxalq aləmdə mədəni inteqrasiyasının əsas hissəsi kimi göstərilə bilər.

ƏDƏBİYYAT

1. Hacıyev H. Dostluq və əməkdaşlıq telləri. Bakı, Azərnəşr, 1985, s.112.
2. Гасымлы, М.Дж. Азербайджан в международных культурных связях (1946-1990 гг.). Тбилиси, изд. Артануч, 2005, с.300.
3. Qəniyev H. Q. SSRİ-İran iqtisadi və mədəni əlaqələrində Azərbaycanın iştirakı. Bakı. Mütərcim, 2017, 152 s.
4.Manafova, M.C. Azərbaycanın Şərqi Asiya ölkələri ilə mədəni əlaqələri. Bakı, Sabah, 2008, s.36.
5.Manafova M.C., Əfəndiyeva N.T. Beynəlxalq mədəni əlaqələr. Bakı: Sabah nəşriyyatı, 2008, s. 660.
6.Sayadov S. XX əsr: Azərbaycan və dünya. Bakı, Elm, 2006, s.186.
7.Vəkilov C.M. Azərbaycan Respublikası və İran 40-cı illər. Bakı, Elm,1991, s.136.

ГЮНЕЛЬ ЮСИФОВА
Бакинский государственный университет

ХУДОЖЕСТВЕННЫЕ СВЯЗИ МЕЖДУ АЗЕРБАЙДЖАНСКОЙ ССР СТРАНАМИ АЗИИ

1970-1980-е годы характеризуются в истории международных отношений как этап возрастания роли культурной дипломатии. В условиях холодной войны государства стремились расширять свои политические и идеологические интересы не только посредством военных и экономических инструментов, но и через культурное сотрудничество. В этом контексте культурные связи, сформировавшиеся между странами Азии Иран, Пакистан, Индия, Афганистан и Азербайджанская ССР, приобретали особое значение как составная часть системы международных отношений.

Хотя Азербайджанская ССР не обладала возможностью проводить самостоятельную внешнюю политику, она, будучи союзной республикой в составе СССР, участвовала в международных культурных процессах. В стратегии советской внешней политики, ориентированной на азиатское направление, активно использовались исторические, религиозные и культурные особенности национальных республик. Связь с восточной цивилизацией, близость к исламской культурной среде и общность исторического наследия превращали Азербайджанскую ССР в одного из ключевых участников данной политики.

Выступая своеобразным мостом между СССР и странами Азии, Азербайджанская ССР способствовала формированию взаимопонимания и культурного диалога. Таким образом, данные отношения носили не только гуманитарный характер, но и служили реализации политико-стратегических целей в системе международных отношений. Проведённое исследование показывает, что культурные связи и формы сотрудничества между Азербайджанской ССР и странами Азии сыграли решающую роль в обеспечении устойчивости и долговременности двусторонних отношений. В этом аспекте культурные контакты 1970–1980-х годов обладали функциональным и долгосрочным влиянием в международной системе.

Ключевые слова: культурная дипломатия, Индия, литературные встречи, международные связи, Азербайджанская ССР, театр.

GUNEL YUSIFOVA
Baku State University

ARTISTIC RELATIONS BETWEEN THE AZERBAIJAN SSR AND ASIAN COUNTRIES

The 1970s–1980s are characterized in the history of international relations as a period marked by the growing significance of cultural diplomacy. During the Cold War, states sought to advance their political and ideological interests not only through military and economic instruments but also by expanding cultural cooperation. In this context, the cultural ties formed between the Asian countries Iran, Pakistan, India Afghanistan and the Azerbaijan SSR acquired particular importance as an integral component of the international relations system.

Although the Azerbaijan SSR did not possess the authority to conduct an independent foreign policy, it participated in international cultural processes as a union republic within the USSR. In the Soviet foreign policy strategy directed toward Asia, the historical, religious, and cultural characteristics of the national republics were actively utilized. Its connection to Eastern civilization, proximity to the Islamic cultural sphere, and shared historical heritage positioned the Azerbaijan SSR as a key participant in this policy framework.

Acting as a bridge between the USSR and Asian countries, the Azerbaijan SSR contributed to the development of mutual understanding and cultural dialogue. Thus, these relations were not limited to a humanitarian dimension but also served political and strategic objectives within the broader system of international relations. The research demonstrates that the cultural ties and forms of cooperation established between the Azerbaijan SSR and Asian countries played a decisive role in ensuring the sustainability and long-term continuity of bilateral relations. In this regard, the cultural contacts of the 1970s–1980s exerted a functional and lasting influence within the international system.

Keywords: cultural diplomacy, India, literary meetings, international relations, Azerbaijan SSR, theatre.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 14 mart 2026-cı il.
Məqalənin çapa qəbul olunma tarixi: 21 may 2026-cı il.
Rəyçilər: t.ü.f.d. İqbal Ağayev, t.e.d. İsmayıl Məmmədov.

UOT 930

BALAMİRZƏ MƏMMƏDLİ
Bakı Dövlət Universitetinin doktorantı
balamirzamammadli@gmail.com

"AZADLIĞI MÜDAFİƏ AKTI"NA 907-Cİ DÜZƏLİŞİN SƏBƏBLƏRİNİN TARİXŞÜNASLIĞI

DOI: https://doi.org/10.36719/2708-065X/113/166-173

35 illik tarixə malik Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları münasibətləri bu gün yüksək səviyyəli siyasi dialoq və strateji qarşılıqlı fəaliyyətlə xarakterizə olunur. 2025-ci ilin avqustunda Vaşinqton sammiti və onun nəticələri, 2026-cı ilin fevralın 10-da iki ölkə arasında Strateji Tərəfdaşlıq haqqında Xartiya imzalanması bunu aydın surətdə təsdiq edir. Lakin Azərbaycan-ABŞ münasibətlərinin inkişafı heç də həmişə hamar getməmiş, tarixən bu inkişaf yolunda müxtəlif maneələr meydana çıxmışdır. Xüsusilə, ikitərəfli münasibətlərin yenicə qurulduğu illərdə yaranmış belə əngəllərdən biri "Azadlığı müdafiə aktı"na 907-ci düzəliş olmuşdur. Məqalə postsovet dövründə ABŞ-nin Azərbaycanla bağlı ən mübahisəli qanunvericilik aktlarından biri və ya birincisi olan 907-ci düzəlişin səbəblərinin tarixşünaslığına həsr edilmişdir. ABŞ Konqresinin 1992-ci ilin oktyabrında qəbul etdiyi bu düzəliş uzun müddət Azərbaycana birbaşa dövlət yardımının göstərilməsinə qadağa qoyaraq Azərbaycan-ABŞ münasibətlərinin inkişafına nəraçarpan təsir göstərmişdir. Məqalədə "Azadlığı müdafiə aktı"na 907-ci düzəlişin səbəblərinə dair həm milli, həm də xarici tarixşünaslıq şərhləri müqayisəli təhlil edilir, ABŞ-dəki etnik lobbi qruplarının fəaliyyəti və Azərbaycanın o vaxtkı xarici siyasətinin xüsusiyyətlərinə dair tədqiqat yanaşmalarına xüsusi diqqət yetirilir.

Açar sözlər: Azərbaycan, ABŞ, "Azadlığı müdafiə aktı"na 907-ci düzəliş, lobbiçilik, xarici siyasət, tarixşünaslıq.

Giriş. Azərbaycan-ABŞ münasibətlərinin ilk mərhələsi Vətən tarixşünaslığında anlaşılmaz, ziddiyyətli və mürəkkəb münasibətlər kimi xarakterizə edilir ki, bunun növbəti ən mühüm səbəbi ABŞ Konqresində "Azadlığı müdafiə aktı"nın 907-ci maddəsinin (tez-tez 907-ci düzəliş, Kerri düzəlişi kimi də qeyd olunur) qəbul edilməsidir. Məsələni aydınlaşdırmaq üçün əvvəlcə "Azadlığı müdafiə aktı"nın (*Freedom Support Act*) mahiyyətinə qısa nəzər salaq. Bu akt SSRİ-nin mövcudluğuna xitam verilməsindən təqribən 3 ay sonra – 1992-ci ilin martın 24-də ABŞ Konqresində Dante Faskel tərəfindən qanun layihəsi kimi irəli sürülmüşdür. Aprelin 7-də "S.2532" adı altında senator Kleyborn Pellin dəstəyi ilə Senata daxil olmuş, iyulun 2-də 20 səsə qarşı 76 səslə qəbul edilmiş və oktyabrın 24-də ABŞ Prezidenti C.Buş tərəfindən imzalanmışdır. Bu qanunvericilik aktı postsovet məkanındakı yeni müstəqil dövlətlərin demokratiya, liberalizm və bazar iqtisadiyyatı yolunda irəliləməsi məqsədilə onlara ABŞ tərəfindən göstərilən maliyyə, texniki və digər yardımları nizamlamağa və sistemləşdirməyə xidmət edirdi. Sözügedən akt ABŞ-nin postsovet ölkələrinə 460 milyon dollarlıq nəhəng yardım paketini özündə ehtiva edirdi. Fikrimizcə, bununla ABŞ həm də yeni müstəqil respublikaların əvvəlki vahid mərkəzə (yəni Moskvaya) tabe etdirilməsinin qarşısını almaq, öz nüfuzunu keçmiş sovet respublikaları arasında yaymaq və yeni təsir rıçaqları əldə etmək istəyirdi. Buna baxmayaraq, istənilən halda Sovet İttifaqının qalıqları üzərində ayağa qalxaraq öz dövlət müstəqilliyini möhkəmləndirməyə çalışan yeni respublikalar üçün hər cür xarici yardım həyati əhəmiyyət kəsb edirdi. Lakin "Azadlığı müdafiə aktı"na əlavə edilən 907-ci maddə (*Section 907*) Azərbaycana yardım edilməsinə rəsmən qadağa qoydu. Beləcə, Azərbaycan ABŞ-nin dövlət yardımından qanunvericilik yolu ilə məhrum edilən yeganə postsovet ölkəsi oldu. Elə buna görədir ki, səfir H.Paşayev haqlı olaraq sözügedən aktı "Azadlığı inkar aktı" adlandırır [33, s.104].

Vətən tarixşünaslığında əsas yanaşmalar. Hərtərəfli siyasi, iqtisadi və humanitar yardıma ehtiyacı olan Azərbaycanın heç bir obyektiv əsas olmadan bu yardımdan məhrum edilməsi ağlasığmaz bir akt idi. ABŞ Konqresi sanksiyanın səbəbini rəsmi olaraq belə açıqlayırdı: "*Birləşmiş Ştatların Azərbaycana iqtisadi yardımı o zamana qədər mümkün olmayacaq ki, ABŞ Prezidenti müəyyən etmiş olsun*

ki, Azərbaycan hökuməti bütün blokadaları, Ermənistana və Dağlıq Qarabağa qarşı zor gücünün istifadəsini dayandırmaq üçün əməli iş görür". Konqresin reallığı təhrif edən belə bir absurd açıqlaması, ədalətsiz qanunvericilik aktının əslində hansı səbəbdən qəbul edilməsi ilə bağlı Vətən tarixşünaslığında qızğın müzakirələr doğurmuşdur və tarixçilər məsələyə iki fərqli prizmadan yanaşırlar:

1) ABŞ-dəki erməni diasporu və lobbisinin Konqresə təsiri,
2) O vaxtkı Azərbaycan hökumətinin səriştəsiz xarici siyasəti.

Birinci yanaşma, yəni Vətən tarixşünaslığında demək olar ki, bütün tədqiqatçılar tərəfindən təsdiqlənir. Çünki bir çox iri dövlətlərdə, o cümlədən ABŞ-də mövcud olan nəhəng erməni diasporu güclü lobbi yaradaraq, tarixən antitürk və antiazərbaycan xarakterli fəaliyyətləri ilə ictimai-siyasi fikrə təsir göstərmişdir. Bu, Sovet İttifaqının dağılmasından sonrakı informasiya müharibəsi zamanı daha kəskin xarakter almışdır. Belə ki, 1989-1992-ci illərdə ABŞ-nin dövlət katibi olmuş C.Beyker öz əsərində yazır ki, o zaman beynəlxalq media erməni diasporunun təsiri altında idi [38, s.629]. E.Nəsirov erməni lobbisi və diasporunun xüsusilə ABŞ-də çox geniş imkanlar diapazonuna malik olduğunu vurğulayaraq, məhz bu amili 907-ci düzəlişin əsas səbəblərindən biri kimi xarakterizə edir [31, s.48-49]. Müəllif yazır ki, həmin dönəmdə ABŞ-də Azərbaycan icması azsaylı və gənc olub, hələ daxili həmrəylik, uyğunlaşma və inteqrasiya mərhələsində idi ki, bu da ermənilərin öz mövqeyini daha da möhkəmləndirməsinə səbəb olurdu. 1997-ci ilin avqustun 4-də Prezident Heydər Əliyevin Çikaqoda Azərbaycan icması ilə görüşü zamanı erməni diasporunun ABŞ-də böyük imkanlara malik olduğunu söyləyərək, soydaşlarımıza Amerikada yaşayan türklərlə güclərini birləşdirməyi tövsiyə etməsi bunu təsdiq edir [15, s.81]. Beynəlxalq münasibətlərdə diasporların rolunu ayrıca araşdırmış Z.Əliyevin qənaətinə görə, həm erməni diasporu və lobbisinin güclü təsiri, həm də Azərbaycan lobbisinin zəifliyi 907-ci düzəlişin qəbul edilməsində mühüm rol oynamışdır [11, s.121; 12, s.74]. Eyni mövqeyə H.Cabbarlı və İ.Hüseynovun əsərlərində də rast gəlirik [5, s.18; 16, s.41].

ABŞ də daxil olmaqla bütün dünyaya yayılan erməni lobbisinin müasir dövrdə həmişəkindən daha güclü olmasını dönə-dönə vurğulayan akademik Y.Mahmudov yazır ki, güclü vasitələrə, mühüm mövqelərə və geniş maliyyə imkanlarına malik olan erməni lobbisi yaşadıqları ölkələrin xarici siyasətinə fəal təsir göstərir, onların Azərbaycanla münasibətlərinin yaxşılaşmasına ciddi əngəllər törədir [24, s.101]. Bu baxımdan, G.Paşayeva, S.Quliyev, B.Bayramova, T.Cəfərov 907-ci düzəlişin səbəbi kimi erməni lobbisi amilini önə çəkirlər [48, s.4; 23, s.49; 4, s.188; 6, s.137]. Tarixçi E.Arif məsələyə daha kəskin yanaşaraq yazır ki, hətta erməni lobbisi ABŞ Konqresini 907-ci düzəliş kimi bir qərar qəbul etməyə məcbur etmişdir [2, s.190].

Vətən tarixşünaslığında M.Qasımlı, R.Dadaşova, V.Cəfərova, F.Həsənoğlu, N.Bədəlbəyli, X.Hacıyeva kimi bir çox tarixçilərin qənaətinə görə, 907-ci düzəlişin qəbul edilməsinə təsir edən əsas amil erməni diasporu və lobbisinin təbliğat kampaniyası apararaq Azərbaycan həqiqətlərindən kifayət qədər məlumatlı olmayan ABŞ qanunvericilərini inandırmaları olmuşdur [22, s.61; 8, s.138; 7, s.27; 14, s.138; 52, s.102]. X.Hacıyeva 907-ci düzəlişi "*təşkilatlanmış erməni təbliğat maşınının böyük qələbəsi*" adlandırır [13, s.82]. Maraqlıdır ki, bunu erməni siyasi elitası özü də etiraf edir. Məsələn, 1994-1995-ci illərdə Ermənistanın milli təhlükəsizlik naziri olmuş D.Şahnazaryan 907-ci düzəlişi nəzərdə tutaraq, sonradan yazırdı: "*Dağlıq Qarabağ münaqişəsinin ilk illərində Ermənistanın əldə etdiyi uğurlardan biri də ermənilərin Azərbaycanı "aqressor-ölkə" kimi təqdim edə bilməsi olmuşdur*" [27, s.200-201]. Beləliklə, erməni təbliğatının əsl niyyəti Qərb siyasi və media diskursuna Azərbaycanı "təcavüzkar", Ermənistanı və Dağlıq Qarabağda yaşayan erməniləri isə öz müqəddəratını təyin etmək uğrunda mübarizə aparan "qurbanlar" kimi təqdim etməklə, yəni 180 dərəcə əksinə qurulan "təcavüzkar-qurban" modeli ilə Ermənistanın işğalçılıq siyasətini pərdələmək, Azərbaycana qarşı isə sanksiya və birtərəfli məhdudiyyətləri legitimləşdirmək idi. Erməni təbliğatında ən absurd iddialardan biri Azərbaycanın guya Ermənistanı blokadada saxlaması barədə idi. Halbuki, Azərbaycan Ermənistanla həmsərhəd olan yeganə ölkə olmadığına görə, blokada coğrafi baxımdan qeyri-mümkündür. Elə buna görədir ki, haqlı olaraq E.Nəsirov ABŞ-də geniş yayılmış blokada iddiasını həqiqətin tərsinə yozulması adlandırır [31, s.46].

907-ci düzəliş kimi qərəzli qərar ABŞ-nin öz daxilində də çaşqınlığa və geniş müzakirələrə səbəb olmuşdur. Tarixçilər bunu təsdiq edən fakt kimi ABŞ-nin dövlət və ictimai-siyasi xadimlərinin, habelə

iş adamları və media təmsilçilərinin etiraflarını göstərirlər. Məsələn, İ.Musa ABŞ-nin yeni müstəqil dövlətlərə yardım üzrə koordinatoru Riçard Armitac və ABŞ Dövlət Departamentinin nümayəndəsi Ceyms Rubindən sitat gətirir. R.Armitac 1994-cü ildə ABŞ Konqresindəki çıxışında: "*Biz qabiliyyətsizliyimiz ucbatından bu qanunvericilik aktını qəbul etməklə Azərbaycana təsir imkanlarından özümüzü məhrum etdik*", C.Rubin: "*Mən bu dəhşətli qanunvericilik aktının Senatda necə hazırlanmasında iştirak etmişəm və biz sadəcə olaraq nə etdiyimizi anlamırdıq*" – deyə, etiraf edirdi [28, s.509-510].

Vətən tarixşünaslığındakı ikinci yanaşma, yəni 907-ci düzəlişin ABŞ Konqresi tərəfindən qəbul edilməsində o vaxtkı Azərbaycan hökumətinin sərişdəsiz xarici siyasətinin mühüm rol oynaması bir çox tədqiqatçı tərəfindən xüsusi vurğulanır. Belə ki, N.Məmmədov "Xarici siyasətin Azərbaycan modeli" əsərində 907-ci düzəlişi ABŞ-nin "cəza aktı" kimi qiymətləndirərək onu "*cəbhə-müsavat hakimiyyətinin yarıtmaz xarici siyasət fəaliyyəti*" ilə izah edir [26, s.403-404]. İ.Hüseynova da 907-ci düzəlişi bir il ərzində hakimiyyətdə olmuş Xalq Cəbhəsinin uğursuz xarici siyasətinin nəticəsi kimi səciyyələndirir [17, s.337]. M.Atakişiyevin fikrincə, Elçibəy hökuməti dövründə ABŞ Azərbaycanla münasibətlərin inkişafına təkan verən bəzi addımlar atmağa cəhd göstərsə də, rəsmi Bakının qeyri-ardıcıl və məntiqsiz siyasəti bu addımların uğuruna təminat yaratmamışdır [1, s.172-173]. G.Əliyev qeyd edir ki, o vaxtkı iqtidarın xarici siyasət sahəsində naşılığı 907-ci düzəlişin qəbul edilməsində mühüm rol oynamışdır [10, s.33]. Tarixçi Ə.Nəsibova 907-ci düzəlişin qəbul edilməsini Elçibəy hökumətinin ABŞ ilə münasibətlərindəki ən böyük uğursuzluğu kimi xarakterizə edərək başlıca səbəbi onun diplomatik sərişdəsizliyində görür və bu məsələdə erməni lobbisi amilinin həlledici olmadığını belə əsaslandırır: "*ABŞ-nin siyasi sistemində lobbi hərəkatları önəmli rol oynayır və qanunverici hakimiyyətin fəaliyyətinə müəyyən dərəcədə təsir etmə gücünə malikdir. Lakin yalnız müəyyən dərəcədə. Belə ki, dünyanın ən aparıcı dövləti olan ABŞ-nin xarici siyasətinin prioritet məsələlərinə, onun hər hansı bölgədəki geosiyasətinə ciddi təsir etmək erməni lobbisinin imkanları daxilində deyil. Əks halda, ABŞ-nin fövqəldövlət olması fikri də şübhə altına düşərdi*" [30, s.51-52]. F.İsmayılov ümumilikdə müstəqilliyin ilk illərində (1991-1993) Azərbaycandakı iqtidarların xarici siyasət kursunda ciddi yanlışlıqlara yol verməsinin ABŞ ilə münasibətlərə mənfi təsir göstərdiyini yazaraq 907-ci düzəlişi bunun nəticəsi hesab edir [20, s.69]. Bu tezisi davam etdirən Ə.Zeynalabdinov 907-ci düzəlişin daxili və xarici siyasi vəziyyətin getdikcə ağırlaşması şəraitində qəbul edilməsi qənaətinə gəlir [36, s.198]. Ümumiləşdirilmiş əsərlərdə də oxşar şərhlərə rast gəlinir. Məsələn, 7 cildlik "Azərbaycan tarixi"ndə 907-ci düzəliş "*AXC-Müsavat tandeminin xarici siyasətdə ciddi qüsurlara yol verməsinin nəticələrindən biri*" kimi nəzərdən keçirilir [3, s.259].

Yuxarıdakı yanaşma ilk növbədə o vaxtkı Azərbaycan hökumətinin yürütdüyü xarici siyasətin sistemsizliyi, dəqiq formalaşdırılmış uzunmüddətli strategiyanın olmaması faktından qaynaqlanır. Belə ki, xarici siyasət reaktiv idi, yəni baş verən hadisə və prosesləri (böhranlar, xarici təzyiqlər və s.) qabaqlaya biləcək proaktiv addımlar deyil, artıq olub keçmiş hadisələrə cavab olan reaktiv addımlar atılırdı.

Vətən tarixşünaslığında 907-ci düzəlişin səbəbi ilə bağlı ən mübahisəli yanaşma isə tədqiqatçı U.Hüseynova, R.Novruzoğlu və onlarla həmfikir olan E.Nəsibov tərəfindən irəli sürülür. Bu müəlliflərin fikrincə, 1992-ci ilin oktyabrın 12-də Prezident Ə.Elçibəyin Moskvaya rəsmi səfər edərək B.Yeltsinlə görüşü və Azərbaycan ilə Rusiya arasında "dostluq, əməkdaşlıq, qarşılıqlı təhlükəsizlik haqqında" müqavilə imzalanması ABŞ-nin geosiyasi maraqlarına zidd olduğuna görə, Konqresin narazılığına səbəb olmuş, erməni lobbisi də məhz bu şəraitdən məharətlə istifadə etmişdir [53, s.79; 32, s.189-190; 29, s.55]. Bu fikrin nə dərəcədə həqiqətə uyğun olub-olmaması şübhə doğurur. Çünki amerikalı müəllif Q.Körtissin qeyd etdiyi kimi: "*Müqavilə imzalansa da, Elçibəy Rusiyanı Ermənistana yardım etməkdə, Rusiya isə Elçibəyi Azərbaycandakı rus azlığına qarşı pis rəftar etməkdə ittiham edirdi*" [37, s.140-141]. Yəni ikitərəfli əlaqələr kifayət qədər gərgin idi. Üstəlik, müqaviləni tərəflərin heç biri ratifikasiya etməmişdi [40, s.30]. Bu o deməkdir ki, müqaviləyə Azərbaycanı Rusiyanın geosiyasi orbitinə daxil edən akt kimi yanaşmaq əsassızdır. Digər tərəfdən, müqayisə apardıqda görürük ki, Ermənistan yenicə müstəqillik qazandığı dönəmdə Rusiya ilə hərbi və siyasi əməkdaşlıq sahəsində bir çox müqavilələr bağlamışdır: 29 dekabr 1991-ci ildə "Dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında", 3 noyabr 1994-cü ildə "Hava hücumundan müdafiə sahəsində əməkdaşlıq haqqında", 16 mart 1995-ci ildə

"Ermənistan ərazisində rus hərbi bazasının yaradılması haqqında" və s. Amma buna rəğmən, ABŞ Konqresində Ermənistana qarşı sanksiya xarakterli hər hansı qanunvericilik aktı qəbul edilməmişdir.

Xarici tarixşünaslıqdakı mövqelər. 907-ci düzəlişin qəbul edilməsində erməni diasporu və lobbisinin ABŞ Konqresinə təzyiqinin həlledici rolu xarici tarixşünaslıqda dominant mövqe kimi sərgilənir. Amerikalı S.Hantinqton, T.Qolts, M.Kruassan, B.Aras, H.Qreqq, R.Kontreras, britaniyalı T.Vaal, C.Bruder, isveçli S.Kornell, türkiyəli N.İyikan, A.Merdan və d. çoxsaylı tədqiqatçılar bu barədə qəti qənaətə gəlirlər [44, s.289; 39, s.86; 43, s.343; 42, s.359; 21, s.259; 25, s.66]. Samuel Hantinqton "Sivilizasiyaların toqquşması və dünya düzəninin yenidən qurulması" adlı məşhur əsərində yazır: "*Qərbi Avropa və Şimali Amerikadakı iri, varlı və nüfuzlu erməni diasporu Ermənistanın əsas dəstək mənbəyi olmuşdur. 90-cı illərdə Amerikadakı erməni icmasının Ermənistana göndərdiyi ianələr hər il 50-75 milyon dollar təşkil etmişdir. Diasporçular yaşadıqları ölkənin hökumətlərinə də ciddi siyasi təsir göstərmişdirlər. ABŞ-nin Kaliforniya, Massaçusets və Nyu-Cersi kimi böyük ştatlarında nəhəng erməni icmaları mövcuddur. Onların fəaliyyəti nəticəsində Konqres Azərbaycana bütün xarici yardımları qadağan etmiş, Ermənistan isə adambaşına düşən ABŞ yardımının üçüncü ən böyük alıcısına çevrilmişdir*" [46, s.280-281]. Sözügedən təsir nəticəsində ABŞ-nin Cənubi Qafqaz siyasətinin XX əsrin sonlarında təhrifə məruz qaldığını qeyd edən Tomas de Vaalın fikri də diqqətəlayiqdir: "*ABŞ Konqresindəki erməni lobbisinin faəliyyətləri xarici siyasət sahəsində ən anormal qanunvericilik aktlarından birinin – "Azadlığı müdafiə aktı"nın 907-ci maddəsinin qəbul edilməsinə gətirib çıxardı*" [51, s.365-366].

Xarici tarixşünaslıqda 907-ci düzəliş həm də Vaşinqtonun həmin vaxt birtərəfli siyasətinin nəticəsi kimi tənqidi rakursdan qiymətləndirilir. Məsələn, amerikalı tarixçi Marta Olkott "ABŞ-nin Cənubi Qafqazda siyasəti" adlı elmi məqaləsində yazır: "*90-cı illərdən azərbaycanlıların ABŞ-ni öz ölkələrinə daha çox cəlb etmək üçün gərgin şəkildə çalışmalarına və Azərbaycanın əhəmiyyətli neft ehtiyatlarına malik olmasına baxmayaraq, Qarabağla bağlı Azərbaycan-Ermənistan mübahisəsində Vaşinqtonun ilkin meyli Ermənistana yönəldi. "Azadlığı müdafiə aktı"nın 907-ci maddəsinin qəbul edilməsi bunun ən böyük təzahürü oldu*" [47, s.59]. Göründüyü kimi, müəllif 90-cı illərin əvvəlində ABŞ-nin Cənubi Qafqaz siyasətini – Qarabağ problemi məsələsində Azərbaycana deyil, Ermənistana tərəf yönəlməsini bir növ təəccüblə qarşılayır. Çünki Ermənistandan fərqli olaraq, Azərbaycanın zəngin enerji ehtiyatlarına sahib olması və ABŞ ilə münasibətlərə fəal həvəs göstərməsi fonunda Ağ Evin mövqeyi paradoksal idi. Bu baxımdan, Kaliforniya-Berkli Universitetinin tədqiqatçısı Devid Hoffman XX əsrin sonlarında ABŞ-nin Avrasiya siyasətinin ziddiyyətli yolla getdiyini, belə bir hala son qoyulması üçün 907-ci düzəlişin ləğvinin zəruriliyini qeyd edir: "*907-ci düzəlişin tətbiqi sovet varisləri arasında məhz Azərbaycanı təklənmiş dövlət kimi hədəfə aldı. Halbuki Azərbaycan Vaşinqtonun Şərq-Qərb nəqliyyat dəhlizi səylərinin əsas dayaq nöqtəsidir. Xəzər regionunda enerji təhlükəsizliyinin möhkəmləndirilməsi üçün 907-ci düzəliş ləğv edilməlidir*" [45, s.87].

Nəticə. Beləliklə, tarixşünaslıq yanaşmalarını ümumiləşdirərək və təhlilləri dərinləşdirərək belə qənaətə gəlmək olar ki, "Azadlığı müdafiə aktı"na 907-ci düzəlişin səbəbləri aşağıdakılardır:

Birincisi, erməni diasporu və lobbisinin təsiri. ABŞ-nin siyasi sistemində lobbiçilik qanunverici hakimiyyətin qərarlarına təsir etmək imkanlarına malikdir. Lobbiçilik fəaliyyəti ölkənin bir qisim ştatlarında məhdudlaşdırılsa da, bütövlükdə leqaldır. O, ABŞ-də 1946-cı ildə qəbul edilmiş "Lobbiçiliyin federal tənzimlənməsi aktı" (*Federal Regulation of Lobbying Act*), 1995-ci ildən isə "Lobbiçiliyin aşkarlığı aktı" (*Lobbying Disclosure Act*) ilə tənzimlənir ki, bu akta görə Konqresdə və federal agentliklərdə lobbiçilik edənlər rəsmi qeydiyyatdan keçərək, öz fəaliyyəti ilə bağlı rüblük açıqlama verirlər. ABŞ-də hələ 1918-ci ildən "Amerika ermənіləri milli komitəsi" (*Armenian National Committee of America*), 1972-ci ildən "Amerika ermənіləri assembleyası" (*Armenian Assembly of America*) kimi lobbi təşkilatları fəaliyyət göstərirlər. Onlar əsasən ABŞ-də yaşayan varlı və nüfuzlu ermənilərdən nəhəng ianələr almaqla maliyyələşirlər. Təsadüfi deyildir ki, Qərb tədqiqatçıları erməni lobbisini ABŞ-də ən yaxşı təşkilatlanan və maliyyələşən iki lobbidən biri kimi xarakterizə edirlər [49, s.3]. Bu lobbi daim ABŞ-nin Türkiyə və Azərbaycanla münasibətlərini pozmaq, Ermənistana maliyyə yardımlarının ayrılması, uydurma erməni soyqırımının tanıdılması istiqamətində fəaliyyət göstərmişdir [50, s.143]. Hələ sovet dövründə – 1988-ci ildə erməni lobbisinin təkidi ilə ABŞ Spitak zəlzələsinin nəticələrini əsas gətirərək Ermənistana maddi yardım göstərmişdir. Halbuki soyuq müharibə dövründə ABŞ-nin hər hansı bir sovet respublikasına birbaşa yardımı son dərəcə qeyri-adi hal idi. Bunun ardınca, 19 iyul

1989-cu ildə Senat "Sovet Ermənistanı xalqının istəklərinə uyğun olaraq Dağlıq Qarabağ ətrafında mübahisənin sülh yolu ilə həllinə ABŞ-nin köməyi haqqında" ermənipərəst qətnamə qəbul etmişdir. 1990-cı ilin 20 yanvarında xalqımıza qarşı törədilən hərbi təcavüz aktına bəraət qazandıran erməni lobbisinin təsiri nəticəsində ABŞ sovet ordusunun Bakıya müdaxiləsini "humanitar müdaxilə" kimi qiymətləndirmişdir [35, s.88]. ABŞ tərəfindən 1999-2013-cü illərdə qondarma DQR-ə 70 milyon dollara yaxın, 2000-ci illərin əvvəlində Ermənistana illik 90 milyon dollar maliyyə yardımı ayrılması və "erməni soyqırımı"nın rəsmən tanınmasına (2019-cu ildə ABŞ Senatının S.Res.150, 2021-ci ildə Nümayəndələr palatasının H.Res.296 adlı qətnamələri) erməni lobbisinin birbaşa təsiri olmuşdur. Bu lobbinin təsir gücü həm də müxtəlif ştatlarda (məsələn, Kaliforniya, Massaçusets) erməni elektoratının sıx olması və Konqresə seçkilər zamanı səslərdə ciddi dəyişikliklər yarada bilməsindən qaynaqlanır. Buna bariz nümunə kimi konqresmen Adam Şiffin məhz erməni əsilli ABŞ vətəndaşlarının səslərinin çoxluğu hesabına öz rəqibi Cim Roqanı məğlub etməsini göstərmək olar. A.Şiff uzun illər ABŞ Konqresində ermənilərin müdafiəçisi kimi çıxış etmiş və bu "xidmətlərinə" görə hətta Ermənistanın dövlət mükafatları (2011-ci ildə "Mxitar Qoş" medalı, 2021-ci ildə "Dostluq" ordeni) ilə təltif edilmişdir.

İkincisi, o dövrkü Azərbaycan hökumətinin sistemsiz və qeyri-ardıcıl xarici siyasəti. Elçibəy hökumətinin diplomatik təcrübəsizliyi, xüsusilə ölkə həqiqətlərini dünya ictimaiyyətinə lazımınca çatdıra bilməməsi 907-ci düzəlişin meydana gəlməsinə münbit şərait yaratmışdır. Prezident Ə.Elçibəyin öz müsahibələrindən birində söylədiyi fikirlər bunu təsdiq edir: "*Təəssüf ki, Azərbaycan və Amerika arasında geniş əlaqələrin olmasından danışa bilmərik. ABŞ-nin ölkəmiz haqqında aldığı məlumatın 98%-i Ermənistandan gedir*" [34, s.136]. Həmin dövrdə respublikadakı daxili vəziyyətin son dərəcə kritik – böhran həddində olmasının xarici siyasətə mənfi təsirləri danılmazdır. Lakin hələ XIX əsrdə uğurlu xarici siyasətin xüsusilə gənc dövlətlər üçün həyati əhəmiyyətindən bəhs edən görkəmli diplomat Taleyranın təbirincə desək, daxili çətinliklər heç bir halda dövlətin öz diqqətini beynəlxalq fəaliyyətdən yayındırmasına bəraət qazandıra bilməz.

Üçüncüsü, bir çox amerikalı parlamentarinin qərəzli mövqeyi. 907-ci düzəlişin əsas təşəbbüskarı – Massaçusets ştatından senator olan Con Kerrinin birtərəfli, yəni ermənipərəst konqresmen olduğunu amerikalı tədqiqatçılar dönə-dönə vurğulayırlar. Raul Loueri Kontreras niyə Ermənistan Azərbaycanın geniş ərazilərini işğal etməsinə rəğmən hələ də ABŞ yardımlarını almaqda davam edirdi? sualını irəli sürərkən yazır: "*Bu suala iki sadə cavab var. 1992-ci ildə erməni diasporunun böyük hissəsinin Massaçusets seçki dairəsində yaşaması və 907-ci düzəlişin sponsoru senator Con Kerrinin öz erməni seçicilərinin güclü təsiri altında kor olması*" [41, s.130]. 907-ci düzəlişin qəbul edilməsi və uzun müddət qüvvədə qalmasında böyük fəallıq göstərən digər məşhur siyasi xadim Delaver ştatından senator olmuş Co Bayden idi. Təsadüfi deyildir ki, onun sonradan vitse-prezident (2009-2017), xüsusilə prezident (2021-2025) olduğu dönəmdə Azərbaycan-ABŞ münasibətlərinə soyuqluq gətirən bir sıra hallar baş vermiş, hətta 907-ci düzəliş bərpa edilmişdir [18]. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bunu 2026-cı ilin yanvarın 5-də televiziya kanallarına verdiyi müsahibədə belə ifadə etmişdir: "*Co Bayden 907-ci düzəlişin qəbul edilməsində çox böyük fəallıq göstərmişdir. Təkcə bu fakt kifayətdir ki, hər kəs anlasın, nə üçün bizim həm Obama-Bayden, həm Bayden-Blinken administrasiyası ilə münasibətlərimiz istənilən səviyyədə olmayıb*" [19].

Dördüncüsü, ABŞ-nin xarici siyasətində ikili standartlar və ayrı-seçkilik elementlərinin mövcudluğu. Beynəlxalq siyasətdə demokratiyanı, münaqişələrin sülh yolu ilə həllini, iqtisadi inkişafı dəstəkləyən ABŞ-nin Qarabağda qanlı müharibənin getdiyi bir vaxtda regional sülhü və insan haqlarını pozan Ermənistana maliyyə yardımı göstərməkdə davam etməsi, Azərbaycanı isə analoji yardımdan birbaşa məhrum etməsi ikili standartların təzahürünə klassik nümunədir. O zaman Ağ Evin hətta sonralar "şər üçbucağı"na (*Axis of evil*) daxil etdiyi Şimali Koreyaya belə yardımlar etməsi göstərir ki, ABŞ xarici siyasət normalarını seçici və qeyri-bərabər tətbiq edir. Uzun illər ABŞ prezidentlərinin sərəncamı ilə hüquqi qüvvəsi dayandırılan 907-ci düzəlişin Konqres tərəfindən hələ də ləğv edilməməsi bunu təsdiq edir.

ƏDƏBİYYAT

1. Atakişiyev, M.C. Azərbaycanın yeni neft siyasəti və iqtisadi yüksəliş. – Bakı, Azərbaycan, 2004. – 264 s.

2. Arif, E. Ermənistan-Azərbaycan münaqişəsi sivilizasiyalararası münasibətlər kontekstində. – Bakı: Elm və təhsil, 2011. – 324 s.
3. Azərbaycan tarixi: [7 cilddə]. – Bakı: Elm, – c. 7. – 2008. – 608 s.
4. Bayramova, B.Ə. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində "907-ci maddə" həll olunmamış problem kimi // Bakı: Tarix və onun problemləri, – 2011, №3, – s.188-192.
5. Cabbarlı, H.Q. Ermənistanın xarici siyasəti (1991-2012). – Bakı: ATSAM, 2014, – 422 s.
6. Cəfərov, T.V. Erməni diasporu. – Bakı: Elm və təhsil, 2019. – 232 s.
7. Cəfərova, V.M. Dünya dövlətlərinin siyasi sistemi: ABŞ. Bakı: Elm, 2000. – 31 s.
8. Dadaşova, R.B. Azərbaycan Respublikasının BMT Təhlükəsizlik Şurasının daimi üzvləri ilə əməkdaşlığı. – Bakı: ADMİU-nun mətbəəsi, 2021. – 344 s.
9. Ələsgərova, S.T. ABŞ-da Azərbaycan lobbisinin fəaliyyəti // Bakı: Pedaqoji Universitetin Xəbərləri (humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası), – 2021, c. 69, № 1, – s. 67-76.
10. Əliyev, G.A. Cənubi Qafqazda geosiyasi maraqlar və Azərbaycanın sülh diplomatiyası. / siyasi elmlər üzrə fəlsəfə doktoru dis. / – Bakı, 2009. – 162 s.
11. Əliyev, Z.B. Beynəlxalq münasibətlərdə diasporların rolu. – Bakı: Nurlan, 2001. – 150 s.
12. Əliyev, Z.B. Dünya diasporları. – Bakı: Qismət, 2005. – 349 s.
13. Hacıyeva, X.Z. Azərbaycan Respublikasının xarici siyasətində aparıcı Qərb dövlətləri və NATO (1991-1995) / tarix üzrə fəlsəfə doktoru dis. / – Bakı, 2001. – 168 s.
14. Həsənoğlu, F. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ probleminin konfliktoloji aspektləri // Qarabağ: suallar və faktlar. – Bakı: Qismət, 2005. – 156 s.
15. Həziyeva, S.A. Dünya azərbaycanlılarının həmrəyliyi yolunda diaspor təşkilatları (XX əsrin sonu, XXI əsrin əvvəlləri). – Bakı: ADPU, 2023. – 167 s.
16. Hüseynov, İ.A. Azərbaycanın ABŞ-da tanıdılması: maraq qrupları və diaspor. // Bakı: Geostrategiya, – 2016, № 5 (35), – s.40-42.
17. Hüseynova, İ.M. Müstəqil Azərbaycan dövlətinin qurucusu. – Bakı: Təhsil, 2004. – 472 s.
18. İlham Əliyev "Əl-Ərəbiyyə" telekanalına müsahibə verib. - https://president.az/az/articles/view/69968 [19.03.2026].
19. İlham Əliyev yerli televiziya kanallarına müsahibə verib/ - https://president.az/az/articles/view/71213 [19.03.2026].
20. İsmayılov, F.C. Qarabağ konflikti ABŞ-ın qlobal siyasəti kontekstində. – Bakı: Azərbaycan Milli Ensiklopediyası nəşriyyatı, 2001. – 152 s.
21. İyikan, N. ABD'nin Azerbaycan ilişkilerine etki eden parametreler. – Konya: Selçuk Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, – 2009, №21, – s.255-267.
22. Qasımov (Qasımlı), M.C. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991-1995-ci illər). – Bakı: Gənclik, 1996. – 135 s.
23. Quliyev, S.F. Azərbaycan Respublikasının neft strategiyası və Qafqazda təhlükəsizlik problemləri. – Bakı: BMU nəşriyyatı, 2018. – 236 s.
24. Mahmudov, Y.M. Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti. – Bakı: Təhsil, 2002. – 328 s.
25. Merdan, A.S. Azerbaycan-ABD ilişkileri ve Azerbaycan'da ABD imajı (1991-2010). Ankara: Nobel Bilimsel Eserler, 2023. – 332 s.
26. Məmmədov, N.İ. Xarici siyasətin Azərbaycan modeli. – Bakı: Çaşıoğlu, 2012. – 464 s.
27. Məmmədov, S.S., Məmmədov, T.S. Qarabağ: mif və həqiqət. – Bakı: Təhsil, 2021. – 480 s.
28. Musa, İ. Azərbaycanın xarici siyasəti: [3 hissədə]. – Bakı: Bakı Universiteti, h.3 – 2011. – 776 s.
29. Nəsibov, E.M. ABŞ və Türkiyənin Qafqaz geosiyasi regionunda strateji maraqları və Azərbaycan Respublikası. – Bakı: Çıraq, 2006. – 311 s.
30. Nəsibova, Ə.Ş. Azərbaycan Respublikasının neft strategiyası və ABŞ-ın Qafqaz siyasəti (1991-2008-ci illər) / tarix üzrə fəlsəfə doktoru dis. / – Bakı, 2014. – 158 s.
31. Nəsirov, E.X. Azərbaycan Respublikası-ABŞ münasibətləri (1991-1997-ci illər). / tarix üzrə fəlsəfə doktoru dis. / – Bakı, 2000. – 166 s.
32. Novruzoğlu, R. XXI əsr. Azərbaycan dövlətçiliyinin təhlükə mənbələri: [5 cilddə]. – Bakı: Nura, – c.1 – 2004. – 492 s.

33. Paşayev, H.M. Bir səfirin manifesti. – Bakı: Şərq-Qərb, 2007. – 248 s.
34. Tahirzadə, Ə.Ş. Prezident Elçibəy. – Bakı: Yeni Müsavat, 2001. – 420 s.
35. Veliyev, C. ABD'nin Azerbaycan politikası: neoliberal aktörler açısından analizi. / Doktora tezi / – Ankara, 2013, – 315 s.
36. Zeynalabdinov, Ə.A. ABŞ-Azərbaycan münasibətlərini şərtləndirən amillər (1991-2022) // Bakı: Dünya azərbaycanlıları: tarix və müasirlik (elmi-nəzəri toplu), –2022/2023, IX buraxılış, –s.196-200.
37. Armenia, Azerbaijan, and Georgia: country studies. Edited by Glenn E. Curtis. – Washington: U.S. Government Printing Office, 1995. – 298 p.
38. Baker, J., DeFrank, T. The politics of diplomacy: revolution, war and peace 1989-1992. – New York: G.P. Putnam's Sons, 1995. – 687 p.
39. Bruder, J. The US and the New Eastern Europe (Ukraine, Belarus, Moldova, Georgia, Armenia, and Azerbaijan) Since 1991 // Managing Security Threats along the EU's Eastern Flanks. – Cham: Palgrave Macmillan, 2020. – pp.69-97.
40. Cherniavskiy, S. Russia and Azerbaijan: the special features and main vectors of interstate cooperation in the post-soviet period // Baku: The Caucasus & Globalization, – 2010, Vol.4, issue 1-2, – pp. 26-35.
41. Contreras, R. Murder in the mountains: war crime in Khojaly and the Nagorno-Karabakh conflict. – San Bernardino: Berkeley Press, 2016. – 204 p.
42. Cornell, S. Small nations and great powers: a study of ethnopolitical conflict in the Caucasus. – London: Curzon Press, 2001. – 480 p.
43. Croissant, M., Aras, B. Oil and Geopolitics in the Caspian Sea Region. – Westport: Praeger, 1999. – 328 p.
44. Goltz, T. Azerbaijan Diary: A Rogue Reporter's Adventures in an Oil-Rich, War-Torn, Post-Soviet Republic. – New York: M.E. Shapre, 1998. – 496 p.
45. Hoffman, D. Oil and Development in Post-Soviet Azerbaijan. // NBR Analysis, – 1999, № 10 (3), – p. 87-110.
46. Huntington, S. The Clash of Civilizations and the Remaking of World Order. – New Delhi: Penguin Books, 1996. – 368 p.
47. Olcott, B. Marta. U.S. Policy in the South Caucasus // Connections: the quarterly journal, – 2002, Vol. 1, No. 3, – p. 59-66.
48. Pashayeva, G. Promoting enduring US-Azerbaijan ties // Baku: Azerbaijan in the world (ADA biweekly newsettler), Vol.3, No.18, 2010. – p.3-6.
49. Paul, D., Paul, R. Ethnic Lobbies and US Foreign Policy. – Boulder: Lynne Rienner Publishers, 2009. – 261 p.
50. Turkish-American Relations: Past, Present and Future / Editors Mustafa Aydın, Çağrı Erhan. – London: Routledge, 2004. – 280 p.
51. Waal, T. Black Garden: Armenia and Azerbaijan through peace and war. New York: New York University Press, 2003. – 337 p.
52. Бадалбейли, Н.Р. Становление и формирование политических отношений между Азербайджанской Республикой и США в 90-е годы XX века // Алматы: Вестник КазНПУ, – 2012, №1(32), – с.101-106.
53. Гусейнова, У.И. Азербайджан-США: перспективы сотрудничества (90-е годы). – Баку: Нурлан, 2000. – 176 с.

БАЛАМИРЗА МАМЕДЛИ
Докторант Бакинского Государственного Университета

ИСТОРИОГРАФИЯ ПРИЧИН ПРИНЯТИЯ 907-Й ПОПРАВКИ К «АКТУ ПОДДЕРЖКИ СВОБОДЫ»

Отношения между Азербайджанской Республикой и Соединёнными Штатами Америки, имеющие 35-летнюю историю, в настоящее время характеризуются высоким уровнем полити-

ческого диалога и стратегического взаимодействия. Это наглядно подтверждают Вашингтонский саммит в августе 2025 года и его результаты, а также подписание Хартии о стратегическом партнёрстве между двумя странами 10 февраля 2026 года. Однако в первые годы становления двусторонних отношений их развитие сопровождалось рядом серьёзных политических препятствий. Одним из наиболее значимых из них стала 907-я поправка к Акту поддержки свободы. Данная статья посвящена историографии причин принятия 907-й поправки - одного из наиболее дискуссионных законодательных актов США в отношении Азербайджана в постсоветский период. Поправка, принятая Конгрессом США в октябре 1992 года, оказала значительное влияние на развитие азербайджано-американских отношений, запретив предоставление прямой государственной помощи Азербайджану. В статье представлен сравнительный анализ как национальных, так и зарубежных историографических интерпретаций причин принятия данной поправки. Особое внимание уделяется различным исследовательским подходам к деятельности этнических лоббистских групп в США и особенностям внешнеполитического курса Азербайджана в этот период.

Ключевые слова: Азербайджан, США, 907-я поправка к Акту поддержки свободы, лоббизм, внешняя политика, историография.

BALAMIRZA MAMMADLI
PhD student at Baku State University

A HISTORIOGRAPHY OF THE REASONS FOR SECTION 907 OF THE FREEDOM SUPPORT ACT

Relations between the Republic of Azerbaijan and the United States of America, which have a history of 35 years, are currently characterized by a high level of political dialogue and strategic interaction. This is clearly demonstrated by the Washington summit held in August 2025 and its outcomes, as well as by the signing of the Charter on Strategic Partnership between the two countries on 10 February 2026. However, during the initial stage of the development of bilateral relations, their progress was accompanied by a number of serious political obstacles. One of the most significant of these was Section 907 of the Freedom Support Act. This article examines the historiography of the reasons behind the adoption of Section 907 – one of the most controversial legislative acts of the United States toward Azerbaijan in the post-Soviet period. The amendment, adopted by the U.S. Congress in October 1992, had a significant impact on the development of Azerbaijani–American relations by prohibiting the provision of direct U.S. government assistance to Azerbaijan. The article presents a comparative analysis of both national and foreign historiographical interpretations of the reasons for the adoption of this amendment. Particular attention is paid to various research approaches to the activities of ethnic lobbying groups in the United States and to the specific features of Azerbaijan's foreign policy course during this period.

Keywords: Azerbaijan, USA, Section 907 of the Freedom Support Act, lobbying, foreign policy, historiography.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 19 mart 2026-cı il.
Məqalənin çapa qəbul olunma tarixi: 21 may 2026-cı il.
Rəyçilər: t.e.d. Tahirə Həsənzadə, t.e.d. Anar İsgəndərov.

UOT 94(479.24)

ŞƏBNƏM HÜSEYNZADƏ
Bakı Dövlət Universiyeti
"Azərbaycan tarixi (humanitar fakultələr üzrə)" kafedrasının doktorantı
shabnamhuseynzade19@gmail.com

AZƏRBAYCANDA MİLLİ AZLIQLAR: TARİXİ İNKİŞAF VƏ MÜASİR REALLIQLAR

DOI: https://doi.org/10.36719/2708-065X/113/174-179

Bu məqalədə Azərbaycanda milli azlıqların tarixi inkişafı və müasir dövrdəki vəziyyəti araşdırılır. Yazıda müxtəlif etnik qrupların ölkə ərazisində formalaşması, onların cəmiyyətin sosial və mədəni həyatındakı rolu geniş şəkildə izah olunur. Xüsusilə, Azərbaycan Xalq Cümhuriyyəti dövründə milli azlıqlara münasibət və onların hüquqlarının qorunması məsələlərinə diqqət yetirilir. Məqalədə həmçinin müasir Azərbaycanda milli azlıqların hüquqlarının dövlət tərəfindən təmin edilməsi, qanunvericilik bazası və bu sahədə həyata keçirilən siyasət təhlil edilir. Müxtəlif xalqların – ləzgilər, talışlar, udinlər, yəhudilər və digərlərinin – dili, mədəniyyəti və adət-ənənələrinin qorunması istiqamətində görülən işlər vurğulanır. Bundan əlavə, yazıda Azərbaycanın multikultural mühiti, tolerantlıq ənənələri və fərqli etnik qrupların birgə yaşayış modeli nümunə kimi təqdim olunur. Ümumilikdə, məqalə Azərbaycanda milli azlıqların həm tarixi inkişafını, həm də müasir reallıqlarını əhatə edərək, ölkədə multikultural dəyərlərin əhəmiyyətini ön plana çıxarır.

Açar sözlər: milli azlıqlar, dövlət siyasəti, Azərbaycan multikulturalizmi, tolerantlıq, etnik müxtəliflik.

Giriş. Azərbaycan qədim dövrlərdən öz təbiəti, coğrafi mövqeyi baxımdan həmişə digər dövlətlər və xalqlar tərəfindən diqqət mərkəzində olmuşdur. Bu baxımdan da müxtəlif dövrlərdə bu əraziyə fərqli etnik qruplardan axın olmuşdur. Bu özünəməxsusluq Azərbaycanda müxtəlif dövrlərdə yaranan dövlətlərin formalaşmasına xüsusi təsir göstərmişdir. Əsası qoyulan dövlətlər siyasi və sosial mövqeyini öz ərazisində yaşayan millətlərin, sosial mühitin xarakteristikasına uyğun olaraq formalaşdırmışdır. Azərbaycan Respublikasının ərazisində etnik müxtəlifliyin çoxluğu onu əzəldən demokratik və multikultural dəyərlər fonunda siyasi mövqe göstərməyə zəmin yaratmışdır. Azərbaycan tərkibini əsasən etnik baxımdan türk əsilli tayfalar təşkil etsə də eyni zamanda kürdlər, buduqlar,udilər, avarlar, talışlar, ləzgilər, ingiloylar, tatlar, yəhudilər, ruslar və s. millətlərin də vətəndaşı olduğu müstəqil bir dövlətdir.

Azərbaycanda milli azlıqların hüquqlarının dövlət təminatı. Qloballaşan mənzərə də kiçik etnik qrupların böyük xalqlar içərisində yox olacağına inanılması və kosmopolit insanın formalaşması Azərbaycanda yaşayan milli azlıqların öz kimliklərini saxlaması bəzən çox təəccüb doğurur. Halbuki, dünyaya son dövrlərdə atılan "multikultural dəyər" anlayışı 1918-ci il 28 may tarixində əsası qoyulan Azərbaycan Xalq Cümhuriyyəti dövründən öz hüquqi əsasını tapmışdı. Azərbaycan Xalq Cümhuriyyətinin 6 maddəlik "İstiqlal bəyannaməsi"nin 4 və 5-ci maddələri açıq-aşkar dövlət siyasətinin multikultural dəyərlərə əsaslandığını göstərir. Belə ki, bu Bəyannamənin IV maddəsində də qeyd olunur ki, Azərbaycan Xalq Cümhuriyyəti dinindən, etnik və sosial mənsubiyyətindən, cinsindən asılı olmayaraq bütün vətəndaşlarının hüquq bərabərliyini təmin edir. Həmçinin, V maddədə AXC ərazisində yaşayan bütün əhalinin sərbəst inkişafı üçün şərait yaradıldığı təsbit olunmuşdur [1].

Azərbaycan maarifçilik hərəkatının fəaliyyəti nəticəsində mədəni azərbaycançılıq formalaşandan sonra Xalq Cümhuriyyətinin hüquqi müstəvidə siyasi azərbaycançılığı dəstəkləməsi azərbaycanlıların öz etnik və mədəni birlik uğrunda mübarizəsinin qələbəsi idi. AXC dövrünə diqqət yetirdikdə, "İstiqlal bəyannaməsi"ndə əks olunan qeyd edilən məsələlərin yalnız hüquqi deyil, həmçinin faktiki olaraq icra olunduğunun şahidi ola bilərik. AXC hökumətinin, parlamentinin tərkibinə baxdıqda ərazisində yaşayan Azərbaycan vətəndaşı olan bütün millətlərə bərabər hüquqlar tanıdığını görmək mümkündür. AXC parlamentində 80 yer Azərbaycan türklərinə ayrılsa da, digər yerlərin isə rus, polyak,

gürcü, ukraynalı, alman, yəhudi və hətta Azərbaycan vətəndaşı olan ermənilərə ayrıldığını və sadalanan xalqların parlament və hökumətdə təmsil olunduğu görə bilərik. M.Ə.Rəsulzadə bununla bağlı parlamentin açılışında demişdir: "Millət məhkumluğu acısını dadmış olan Azərbaycan türkü məhkum millət yaratmaz". Parlamentin tərkibi ilə bağlı qəbul edilmiş qanuna görə, Azərbaycan parlamentində hər 24 min nəfəri təmsil edən bir deputat olmalı idi. Buna baxmayaraq, sayları 24 min nəfərə çatmayan polyak, yəhudi, alman, ukraynalıya da belə şans verildi və onlar parlamentdə Milli azlıqlar fraksiyasında birləşərək təmsil olundular. Paralel olaraq, AXC hökumət kabinetində qeyri-azərbaycanlı olan nazirlər də iştirak etmişdir [5, s.209].

Öz varlığını 23 ay sürdürən Xalq Cumhuriyyəti Şərqdə ilk demokratik respublika olması ilə bütün humanist dəyərləri əsasəndə milli ideologiyanın formalaşmasında müasir azərbaycan üçün mənbə rolunu oynadı. Bununla əlaqədar ümummilli lider Heydər Əliyev deyirdi: "Cəmi 23 ay fəaliyyət göstərməsinə baxmayaraq, ilk respublika dövründə həyata keçirilən tədbirlər müstəqil dövlətçiliyimizin əsaslarının yaradılması və gələcək inkişaf yolunun müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb etdi" [8, s.4].

Azərbaycan ərazisində sovet dövründə aparılan etnodemoqrafik siyasət əhalinin say tərkibinin tamamilə yalnış göstərilməsi,azsaylı etnik qrupların statistikada daha çox və digərlərinin daha az göstərilməsi tarixi araşdırma zamanı çox uyğunsuzluq və maneə yaradır. Aşağıda verilmiş statistik cədvəllərdə aşkar görmək olur ki, bütün bu rəsmi rəqəmlər fərqli siyasi maraqların xeyrinə saxtalaşdırılmışdır. Məsələn: əgər DQMV-də ermənilərin sayı 1970-1979-cu illər ərzində cəmi 1,9 min nəfər və ya 1,6% artmışdırsa, 1979-1989-cu illər ərzində birdən birə 22,4 min nəfər və ya 18,2% artmışdı. Əksinə, azərbaycanlıların sayı 1970-1979-cu illərdə ermənilərə nisbətən 5 dəfə çox, yəni 10 min nəfər və ya 36,8% artmışdısa, 1979-1989-cu illərdə ermənilərə nisbətən 6,4 dəfə az, yəni cəmi 3,5 min nəfər və ya 9,4% artmışdı [9, s.19].

Azərbaycan əhalisinin milli tərkibi (1979 və 1989-cu il əhali sayımlarına görə)

milliyyətlər	**1979 il**		**1989 il**	
	min nəfər	**%**	**min nəfər**	**%**
azərbaycanlılar	4708,8	78,1	5805,0	82,7
ruslar	475,3	7,9	392,3	5,6
ermənilər	475,5	7,9	390,5	5,6
ləzgilər	158,1	2,6	171,4	2,4
avarlar	36,0	0,6	44,1	0,6
ukraynalılar	26,4	0,4	32,3	0,5
yəhudilər	35,5	0,6	30,8	0,4
tatarlar	31,4	0,5	28,0	0,4
talışlar	-	-	21,2	0,3
axıska türkləri	7,9	0,13	17,7	0,25
gürcülər	11,4	0,19	14,2	0,2
saxurlar	8,5	0,14	13,3	0,19
kürdlər	5,7	0,09	12,2	0,17
tatlar	8,8	0,15	10,2	0,15
beloruslar	4,8	0,08	7,8	0,11
udilər	5,8	0,1	6,1	0,09
başqaları	26,6	0,44	24,1	0,34
Bütün əhali	**6.026,5**	**100**	**7.021,2**	**100**

Azərbaycan ərazisində yaşayan milli azlıqlar təkcə öz etnik köklərinə görə yox həmçinin adət-ənənə, mədəniyyət, dini inanc və ən əsası dillərinə görə də fərqlənirlər. Etnik azlıqlar öz fərqliliklərini hər zaman qoruyub və sərbəst şəkildə , heç bir müdaxilə olmadan yaşayışlarını sürdürürlər. 1995-ci il

12 noyabr tarixində qəbul edilmiş Azərbaycan Respublikasının Kostitusiyasının 25-ci maddəsində Bərabərlik hüququ ilə bağlı III bənddə xüsusilə milli və etnik fərqliliyin Azərbaycan Respublikasının vətəndaşlığına heç bir maneə törətməməsi vurğulanır. Dövlət hər bir Azərbaycan vətəndaşının hüquqlarının bərabərliyinə təminat verir. Həmin maddənin III bəndində təsbit olunur ki, Azərbaycan vətəndaşının hüquqları dinindən, irqindən, milliyyətindən, cinsindən, sosial mənsubiyyətindən asılı olmayaraq məhdudlaşdırıla bilməz və bu, qanunla qadağandır. Həmçinin konstitusiyanın 44, 45, 47 və 69-cu maddələrində də Azərbaycan Respublikasının vətəndaşlarının milli mənsubiyyəti, ana dilindən istifadə hüququ, fikir və söz azadlığı, milli kimlik məsələləri kifayət qədər dəqiq və konkret hüquqi cəhətdən dövlət tərəfindən qorunduğuna dair öz təsdiqini tapır [2].

Azərbaycan Respublikasında bir çox milli azlıq yaşamasına baxmayaraq sayları daha çox olan bir neçə xalq haqqında ətraflı məlumatı aşağıdakı abzaslarda verməyə çalışacağam. Bunlardan dördü haqqında udinlər, talışlar, yəhudilər və kürdlər barəsində etnoqrafik və tədqiqat yönümlü qeyd və aşağıdakı materiallar göstərilmişdir:

Azərbaycanda udinlər, talışlar, yəhudilər və kürdlər. Azərbaycan ərazisində yaşayan azsaylı xalqlar əsasən kompakt şəkildə müxtəlif rayonlarda yaşayırlar. Onlardan ən fərqlisi və daha çox maraq doğuran xalqlardan biri Udinlərdir. Udinlər xüsusilə Qəbələ, Oğuz, Qax rayonunda yaşayırlar. Qəbələnin Nic kəndi xüsusi vurğulanmalıdır. Bu qəsəbə də 6800 nəfər sakin yaşayır. Burada udinlərlə birgə azərbaycanlılar, ləzgilər də yaşayır [4]. Bu o deməkdir ki, ərazidə insanlar multikultural dəyərləri öncül hesab edərək yaşayırlar. Udinlər Qafqaz Albaniyasının varisləri sayılırlar. Elə adlarının da Albaniyanın Uti vilayətinin adından götürülməsi buna bariz nümunədir. Alban dövlətinin süqut etməsinə baxmayaraq , müxtəlif tarixi dəyişiklik və proseslər baş versə də onlar assimilyasiya olunmamış və öz etnik kimliklərini qoruyub saxlaya bilmişlər.

Həmçinin, udinlər öz dillərində danışıb ünsiyyət qururlar. Udi dilinin özünəməxsus leksik və qramatik quruluşu var. Bu dil Şimali Qafqaz xalqlarından olan ləzgi və avarların dilləri ilə bənzər xüsusiyyətlərə malikdir. Udinlərin dini görüşləri provaslav xristian inancıdır. Onlar dini rituallarını Alban-udi kilsə və monastırlarında rahatlıqla həyata keçirdirlər. Qəbələnin Nic kəndində Müqəddəs Məryəm kilsəsi udinlərin toplaşdığı dini mərkəz rolunu oynayır.

Udinlər əsasən Şimali Qafqaz coğrafiyasına uyğun olaraq kənd təsərüfatı, üzümçülük, xalçaçılıq və dülgərliklə məşğul olurlar. Etnik qrupun fərqli folklor mədəniyyəti, musiqisi və rəqs elementləri mövcuddur.

Hal-hazırda Nic qəsəbəsində iki təşkilat fəaliyyət göstərir. Bunlardan biri "Orayin" (Bulaq) Mədəniyyət Mərkəzi, digəri isə Alban-Udin Xristian İcmasıdır. Alban-Udin Xristian kilsəsi Albanyada xristianlığın ilk təbliğatçılarından olmuşlar. Sovet dövründən udinlərin xristian olduğu üçün erməni kimi qələmə verməyə çalışsalarda buna nail ola bilmədilər. Çünki, udinlər Qafqaz Albaniyasının ən qədim varislərindən biridirlər. Udin dilinin lüğətində heç bir dənə də olsun erməni mənşəli söz yoxdur, amma azərbaycan dilinə yaxın xeyli sözlər var. Fəaliyyət göstərən mədəniyyət mərkəzləri Udin dilinin və mədnəniyyətinin qorununb saxlanılması üçün xeyli işlər görür və bunun üçün dövlətdən hər bir dəstəyi əldə edirlər. "2007-ci ildə "Orayin" Mədəniyyət Mərkəzi öz növbəti iclasında qərara gəldi ki, məktəbdə tədris edilən udin dilində olan proqram və dərsliklərə yenidən baxılsın və onlar latın qrafikası ilə hazırlansın. Artıq "Nanay-Muz" (Ana dili) dərsliyi hazırlanıb. Lakin hazırlanan əlifba ancaq 3-cü sinfə kimi nəzərdə tutulub. Əlifba uşaqlara elm öyrətmək üçün yox, sadəcə dili unutmamaq üçün nəzərdə tutulub. Artıq 1-ci sinif üçün dərsliklər uşaqlara paylanıb" [4].

Azərbaycanda yaşayan ən böyük etnik azlıqlardan biri də "talışlardır". Talış xalqı udinlərin əksinə olaraq Azərbaycan ərazisinin cənub hissəsində məskunlaşıblar. Talışlar Astara, Lənkəran, Lerik, Masallı rayonlarında kompakt halda məskunlaşıblar. Bu xalq da digər milli azlıq nümayəndələri kimi təkrarolunmaz mədəni dəyərlərə malik olan Azərbaycan Respublikasının köklü əhalisidir. Talışların dini inancları islam dinidir. Talışlar sərbəst olaraq məişətdə və ictima həyatda talış dilindən istifadə edirlər. Talış dili Hind-Avropa dil ailəsinin Hind_İran dilləri qolunun İran dilləri qrupuna aiddir. Bəzi alimlər talışların qədim köklərini kadusilərlə bağlayırlar. Tarix elmləri doktoru Qiyasəddin Qeybullayev "Azərbaycan türklərinin təşəkkülü tarixindən" kitabında yazır: "Atropatenada irandilli etnoslar da yaşayırdılar. Onların ən böyüyü talışların ulu əcdadları olan kadusilər idi" [6, s.221].

Talışların Azərbaycan xalqına güclü inteqrasiyasına baxmayaraq spesifik xüsusiyyətlərini saxlamaqları onların köklü mədəniyyətə sahib olmalarının göstəricisidir. Talışların zəngin mətbəx mədəniyyətləri, kulinariya örnəkləri xüsusən balıq yeməkləri və növ-növ plov təamları tək talış mətbəxini yox Azərbaycan kulinariyasını da zənginləşdirir. Talışların folklor nümunələrindən olan "Halay" rəqs mahnıları, "Nənələr" folklor ansamblı Azərbaycan mədəniyyəti üçün misilsiz xəzinədir [9, s.130].

Azərbaycanda yaşayan xalqlardan biri də yəhudilərdir. Yəhudilərin Azərbaycanda üç subetnik qrupu var: dağ yəhudiləri, aşkenazilər (Avropa yəhudiləri) və gürcü yəhudiləri. Onlardan Azərbaycanda yaşayan dininə, dilinə görə yerli xalqdan tam fərqlənən "Dağ yəhudiləri" təxminən 4 min nəfər təşkil edir. Quba rayonunun Qırmızı qəsəbəsində məskunlaşan milli azlıqları həm də "cuhur" adlandırırlar. XIX əsrdə Qafqazı işğal edən ruslar onları "dağ yəhudiləri" adlandırmışlar. Bəzən bu yaşayış məskəni "Kiçik İsrail" kimi də adlandırılır [3].

Yəhudilər yerli xalqla birgə sakit həyat tərzi sürür. Qəsəbənin orta məktəbində azərbaycan dili ilə yanaşı ivrit dili də tədris olunur. Azərbaycanda yaşayan yəhudilər dini icmasının rəhbəri Milix Yevdayev "The Jewish Journal" nəşrində "Qafqazın Yerusəlimi: əfsanəvi Qırmızı qəsəbə" məqaləsində qeyd etmişdir: "Bura xalqım üçün dünyanın tək-tük məkanlarından biridir ki, əmin-amanlıq içərisində yaşaya bilir. Bura bizim Vətənimizdir, bizim Qırmızı qəsəbəmizdir" [7]. Bu onun göstəricisidir ki, 90-ci illərdə I Qarabağ müharibəsinə xeyli sayda dağ yəhudisi qoşulmuşdur. Mili qəhrəman adı verilən Albert Aqarunov da yəhudi xalqının nümayəndəsidir. O, "yəhudi buterbrodu" taktikası ilə döyüşlərdə şücaət göstərmiş və şəhid olmuşdur. Artıq 290 yaşı olan bu qəsəbənin əhalisi Azərbaycanı sığınacaq kimi yox öz vətənləri kimi görməkdədirlər.

Azərbaycanda yaşayan yəhudilərin digər qrupu "gürcü yəhudiləri" adlanır. Onlar Gürcüstan ərazisindən bizim coğrafiyamıza gəlib məskunlaşdıqları üçün belə adlanır. Özlərini *"ebraeli"* və ya *"israeli"* adlandırırlar, dağ yəhudiləri kimi onlar da dini baxımdan seferad yəhudiləridir. Azərbaycanda yaşayan yəhudi qruplarından biri də aşkenazilərdir. Onlar Avropadan gələrək XIX əsrdən burada məskunlaşmışlar. Bakıda hər üç yəhudi qrupuna məxsus sinaqoq və eyni zamanda dini icma mövcuddur. Azərbaycan ərazisi üzrə isə 7 sinaqoq və 8 yəhudi dini icması fəaliyyət göstərməkdədir [3]. Dünyanın bir çox yerlərində yəhudilər diskrimasiyaya məruz qalsalar da, antisemitizmlə üzləşsələr də, Azərbaycanda belə hala rast gəlinməmişdir. Əksinə, yuxarıda qeyd edilən faktlardan da məlum olduğu kimi, yəhudilər Azərbaycanda sərbəst yaşamış və Azərbaycan vətəndaşı kimi bütün hüquq və azadlıqlardan istifadə hüququ əldə etmişlər. Azərbaycanın ilk parlamentindən bugünə kimi hər çağırışda parlamentdə yəhudi əslli deputat seçilmiş və Azərbaycan vətəndaşı kimi mövqe nümayiş etdirmişdir.

Azərbaycan Respublikasının etnomədəni məkanına daxil olan böyük xalqlardan biri də kürdlərdir. Kürd sözünün mənası "pəhləvan", "mərd" kimi tərcümə olunur. Kürdlər etnik azlıq kimi xüsusilə dağlıq qərb rayonlarında Laçın, Kəlbəcər Qubadlı, Zəngilan, Naxçıvan MR bölgələrində məskunlaşmışdılar. 90-cı illərdə baş verən Qarabağ müharibəsində yerli əhali məcburi sürətdə köç etdikdən sonra Azərbaycan Respublikasının müxtəlif bölgələrində müvəqqəti yerləşdirilmişdilər. 2009-cu il rəsmi siyahıyaalmasına əsasən kürdlərin sayı 6100 nəfər təşkil edir. Azərbaycanda yaşayan kürdlərin dini inancları İslam dininin şiəlik məshəbinə məxsusdur. Onlar kürd dilində danışıb ünsiyyət qura bilirlər. Bir çox tədqiqatçılar kürdlərin yerli xalqdan heç də fərqlənmədiyini qeyd edirlər. Kürdlərin geyim, mətbəx, folklor nümunələri ad olaraq fərqli olsa da mahiyyət olaraq çox uyğunluq təşkil edir. Məsələn rus tədqiqatçısı S.Zelinski XIX əsrin 80-ci illərində yazırdı: "Kürdün nə xarici görkəmində , nə də geyimində fərqləndirici xüsusiyyət var. O, adi tatar paltarı geyinir. Buradaki kürdlər o dərəcə tatarlaşmışlar ki, hətta qonşu ermənilər onları bir birindən ayıra bilmirdilər. Çoxları isə Zəngəzurda kürdlərin mövcudluğundan xəbərsiz idilər" [9, s.84].

Kürdlərin Qarabağ müharibəsindən sonra kompakt şəkildə yaşadıqları ərazilərdən məhrum olmaları yerli əhali ilə daha çox qaynayıb-qarışmasına səbəb oldu. Ona görə də kürdlərin, əsasəndə gənc nəsil kürd dilində ünsiyyət qurmaqda çətinlik çəkirlər. Amma bu onların etnik fərqliliklərinin qarşısını kəsmir. Təsadüfi deyil ki, Ötən əsrin 70-ci illərində Azərbaycanın Laçın bölgəsində ekspedisiyada olmuş qocaman etnoqraflardan biri yerli sakinlərlə ibrətamiz söhbətini belə xa- tırlayır: «Bölgədə Azərbaycan türklərinin və kürdlərin birgə yaşadıqları kənd- lərdən birində oldum, burada ağsaqqallarla, ağbirçəklərlə xeyli söhbətlər etdim. Qədim rəvayətləri, dastanları, bayatıları, adət-ənənələri barədə dediklərini maqnitafon lentinə köçürdüm. Sonra qeydiyyat üçün bir-bir müsahiblərin milli mənşəyini

soruşmaq istədim. Ağsaqqallardan biri bu sualımdan sonra gülüm- səyib dağ adamlarına xas yumorla mənə belə cavab verdi: «Sən nahaq yerə bu- rada türk-kürd axtarırsan. Biz də axtarmırıq. Bir-birimizə qaynayıb-qarışmışıq. Kənddə nə türk, nə də ki kürd taparsan. Burada ancaq türkləşmiş kürdləri və bir də kürdləşmiş türkləri görə bilərsən» [9, s.77].

Nəticə. Dünyada mövcud olan etnokonfessional səhnədə Azərbaycan multikultural bir ölkə kimi çıxış edir. Ərazisində yaşayan bir çox milli azlıqların olmasına baxmayaraq hər bir vətəndaşına sahib çıxan Azərbaycan Respublikası bəşər tarixi üçün nümunədir. Tarixi-etnoqrafik araşdırmalar şaxələndikcə tədqiqatların nəticəsi burada yaşayan etnik azlıqların spesifik mədəniyyətə sahib olduqlarını aşkarca göstərir. Zamanla assimilyasiya olmasına baxmayaraq dövlətin etnik ferqliliyi qoruyub saxlamaqları üçün milli azlıqlara dəstək olması, tolerant və multikultural dəyərlərin dövlətçilik ənənəsində kök saldığının şahidi oluruq. Ona görə də bir çox fərqliliklərə –dil,din, folklor xüsusiyyətlərinə baxmayaraq, onlar Azərbaycanın tam hüquqlu vətəndaşları olduqlarını dərk edib vətənə sahib çıxırlar. Azərbaycan Respublikası hər bir vətəndaşının siyasi və hüquqi təminatçısıdır.

ƏDƏBİYYAT

1.Azərbaycanın Müstəqil Dövlət elan edilməsi haqqında Azərbaycan Milli Şurasının qərarı // [Elektron resurs] - https://axc.preslib.az/az/page/iKYoaVNIsO [06.04.2026].
2. Azərbaycan Respublikasının Konstitusiyası // [Elektron resurs] - https://e-qanun.az/framework/897 [06.04.2026].
3. Azərbaycanda yəhudilik // [Elektron resurs] - https://multikulturalizm.gov.az/az/post/1136/azerbaycanda-yehudilik.html [06.04.2026].
4. Hüseynzadə F. Udinlər: "Bizim əlifbamızı, yazılarımızı ermənilər məhv ediblər", 23 may 2013 // [Elektron resurs] - https://udi.az/az/0180.html [06.04.2026].
5. Ismayilova A., Bashirli, N., Azimov S. The pearl of democracy of the east - parliament of the Azerbaijan democratic republic. // - Prag: Scientific Collection «InterConf+», (13(109), - 2022, - p.207-214. - https://doi.org/10.51582/interconf.19-20.05.2022.027 [06.04.2026].
6. Qeybullayev Q. Azərbaycan türklərinin təşəkkülü tarixindən. – Bakı: Azərnəşr. - 1994. - 248 s.
7. Qəribli M. Azərbaycanda yəhudi icması - dünya ölkələrində bütün milli azlıqların həsəd apardığı toplum... // - Bakı Xəbər. - 2021. - 3 mart. - № 40. - S. 10.
8. Nəcəfov E. Azərbaycan Xalq Cümhuriyyəti dövrü azərbaycançılıq məfkurəsinin inkişafının mühüm mərhələsi kimi // - Bakı, Xalq qəzeti, - 27 may 2018-ci il, - s.4.
9. Paşayeva M.T., Qurbanov A. Biz azərbaycanlıyıq (qısa etnoqrafik oçerklər). - Bakı: COSTCO Company, - 2018, - 232 s.

ШАБНАМ ГУСЕЙНЗАДЕ
Докторант Бакинского государственного университета

НАЦИОНАЛЬНЫЕ МЕНЬШИНСТВА В АЗЕРБАЙДЖАНЕ: ИСТОРИЧЕСКОЕ РАЗВИТИЕ И СОВРЕМЕННЫЕ РЕАЛИИ

В данной статье рассматриваются историческое развитие и современное положение национальных меньшинств в Азербайджане. Описывается формирование различных этнических групп на территории страны, а также их роль в социальной и культурной жизни общества. Особое внимание уделяется отношению к национальным меньшинствам в период Азербайджанской Демократической Республики и защите их прав. В статье также анализируется государственное обеспечение прав национальных меньшинств в современном Азербайджане, включая законодательную базу и реализуемую политику в этой сфере. Подчеркиваются меры по сохранению языков, культур и традиций различных народов, таких как лезгины, талыши, удины, евреи и другие. Кроме того, в работе рассматриваются мультикультурная среда Азербайджана, традиции толерантности и модель сосуществования различных этнических групп. В целом

статья охватывает как историческое развитие, так и современные реалии национальных меньшинств в стране, подчеркивая значимость мультикультурных ценностей.

Ключевые слова: национальные меньшинства, государственная политика, азербайджанский мультикультурализм, толерантность, этническое многообразие

SHABNAM HUSEYNZADE
Doktoral student of Baku State University

NATIONAL MINORITIES IN AZERBAIJAN: HISTORICAL DEVELOPMENT AND CONTEMPORARY REALITIES

This article examines the historical development and the current situation of national minorities in Azerbaijan. It explains the formation of various ethnic groups within the country and their role in the social and cultural life of society. Special attention is given to the attitude toward national minorities during the Azerbaijan Democratic Republic period and the protection of their rights. The article also analyzes the state guarantee of the rights of national minorities in modern Azerbaijan, including the legal framework and policies implemented in this field. It highlights the efforts made to preserve the languages, cultures, and traditions of different groups such as Lezgins, talysh, udins, jews and others. In addition, the article presents Azerbaijan's multicultural environment, traditions of tolerance, and the model of coexistence of different ethnic groups as an example. Overall, the article covers both the historical development and modern realities of national minorities in Azerbaijan, emphasizing the importance of multicultural values in the country.

Keywords: national minorities, state policy, Azerbaijani multiculturalism, tolerance, ethnic diversity.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 6 aprel 2026-cı il.
Məqalənin çapa qəbul olunma tarixi: 21 may 2026-cı il.
Rəyçilər: t.ü.f.d. Azad Rzayev, t.e.d. İbrahim Zeynalov.

UOT 94(479.24); UOT 32:93/94

SƏBUHİ QULİYEV
Bakı Dövlət Universiteti, Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi kafedrasının doktorantı
quluyevsebuhi67@gmail.com

MƏRKƏZİ ASİYA ÖLKƏLƏRİNİN 44 GÜNLÜK VƏTƏN MÜHARİBƏSİNƏ REAKSİYASI

DOI: https://doi.org/10.36719/2708-065X/113/180-183

Mərkəzi Asiya ölkələri müharibəyə əsasən ehtiyatlı və balanslı yanaşdılar. Qazaxıstan və Qırğızıstan KTMT öhdəliklərinə görə rəsmi neytral mövqe saxladılar. Türkmənistan tam neytrallıq nümayiş etdirərək yalnız sabitlik çağırışları etdi. Özbəkistan isə balanslı şəkildə Azərbaycanın ərazi bütövlüyü prinsipini ön plana çıxardı. Bütün ölkələr münaqişənin diplomatik yolla həll olunmasını dəstəklədilər. 10 noyabr razılaşmasından sonra isə Azərbaycanla münasibətlərini daha da genişləndirməyə yönəldilər.

Açar sözlər: Azərbaycan, Qarabağ, Cənubi Qafqaz, Türk Şurası, Bişkek.

Giriş. 2020-ci ilin payızında Cənubi Qafqaz sanki yenidən oyandı. Uzun illərdir dondurulmuş, bəzən alovlanıb yenidən səssizə dönən Qarabağ konflikti bu dəfə Azərbaycan üçün qətiyyətli dönüş nöqtəsinə çevrilmişdi. 27 sentyabr səhəri başlayan Vətən müharibəsi təkcə regionun deyil, Avrasiyanın geniş siyasi məkanının diqqətini özünə çəkdi. Azərbaycanın döyüş meydanındakı irəliləyişi, beynəlxalq hüquqa əsaslanan mövqeyi və işğalda olan torpaqlarının azad olunması uğrunda apardığı mübarizə Mərkəzi Asiyanın dövlətləri tərəfindən də ciddi müşahidə olunurdu. Bu dövlətlər üçün Qarabağ məsələsi sadəcə Cənubi Qafqazda baş verən müharibə deyildi, bu, həm də onların tarixi köklərindən, etnik qardaşlıq bağlarından, türk kimliyindən və geosiyasi balansdan doğan bir məsələ idi.

Müharibə başlayanda Mərkəzi Asiyada ilk və ən səmimi reaksiya Özbəkistandan gəldi. Hələ 1989-1992 Qarabağ hadisələri zamanı belə Özbəkistan mətbuatı Azərbaycanın tərəfində dayanırdı. Son illərdə siyasi açılım dövrünü yaşayan Özbəkistan Ş.M.Mirziyoyevin rəhbərliyi altında türk dünyası ilə əlaqələri prioritet etmiş, Türk Şurasına yeni nəfəs gətirmişdir. Buna görə də Qarabağda ədalətin bərpası Özbəkistanda doğma bir proses kimi qəbul olunurdu. Müharibənin ilk həftələrindən Özbəkistan XİN-nin açıqlamasında Azərbaycanın ərazi bütövlüyünə açıq dəstək ifadə edildi [9]. Açıq, cəsarətli və qardaşcasına dəstək 2020 ci ilin oktyabrının ilk həftəsində Özbəkistan XİN tərəfindən bəyan edildi. "Özbəkistan beynəlxalq hüquqa uyğun olaraq Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir. Bu, Mərkəzi Asiyada ən açıq və ən kəskin dəstək idi. Mirziyoyev və İlham Əliyev arasında telefon danışığı 6 oktyabr tarixində baş tutdu. Mirziyoyevin "Azərbaycanın sabitliyi türk dünyası üçün vacibdir" deməsi regionda çox ciddi siyasi mesaj idi. Müharibədən sonra isə Füzuli–Şuşa yolunun tikintisinə dəstək, Şuşada Özbəkistan məktəbinin açılması, sənaye və enerji layihələri həyata keçirildi [10].

Qazaxıstanın mövqeyi isə daha mürəkkəb və geosiyasi cəhətdən ölçülüb-biçilmiş idi. Qazaxıstan böyük Avrasiya məkanında daim balansı qoruyan dövlət kimi tanınır. Rusiya ilə güclü sərhəd əlaqələri, KTMT üzvlüyü, həmçinin Çinin bölgədə artan rolu Astananın açıq şəkildə heç bir regional müharibədə tərəf tutmamasını şərtləndirirdi. Buna baxmayaraq, Qazaxıstan heç zaman Ermənistanın mövqeyində dayanmadı. Müharibənin ilk günlərində Qazaxıstan XİN "münaqişənin beynəlxalq hüquq çərçivəsində həllinə sadiqlik" haqqında rəsmi bəyanat verir və dolayısı ilə Azərbaycanın mövqeyinə uyğun mesaj ötürürdü. Qazax mətbuatı isə Azərbaycanın döyüş meydanındakı uğurlarını və Ermənistan ordusunun ard-arda geri çəkilməsini faktlarla işıqlandırırdı. Qazaxıstan Türk Şurasında Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən sənədlərə imza ataraq müharibənin siyasi nəticələrində Bakının yanında dayanan əsas ölkələrdən biri oldu. Müharibədən sonra Qazaxıstan Zəngilanda müasir məktəb inşa etdi, Azərbaycanın azad olunmuş bölgələri ilə işgüzar missiyalar təşkil etdi. Bu əməkdaşlıq göstərdi ki, Qazaxıstan müharibə zamanı açıq danışmasa da, müharibədən sonrakı dövrdə Azərbaycanın yanında dayanan əsas türk dövlətlərindən birinə çevrilmişdi [6]. Müharibənin ilk gü-

ündə Astananın susqunluğu (27–30 sentyabr). 27 sentyabrda döyüşlər başlayanda Qazaxıstan XİN-i dərhal reaksiya verməsi. Bunun iki səbəbi vardı:

1. Ermənistanla birlikdə eyni hərbi alyans – KTMT-nin üzvü idilər.
2. Rusiyanın Qafqazdakı siyasətinə zidd addım atmaq istəmirdilər.

Lakin Qazaxıstan cəmiyyəti açıq şəkildə Azərbaycanı dəstəkləyirdi. "Facebook", "Instagram", "Vkontakte" üzərində Qazax ictimaiyyəti 'Qarabağ Azərbaycandır' hashtagları ilə paylaşımlar edirdi. 5 oktyabr 2020-ci ildə ilk rəsmi mövqe nümayiş olundu. Qazaxıstan XİN sözçüsü Aybek Smadiyarov 5 oktyabr bəyanatında deyirdi: "Qazaxıstan beynəlxalq hüququ, xüsusilə BMT Təhlükəsizlik Şurasının Qarabağla bağlı qətnamələrini əsas tutur və tərəfləri atəşi dayandırmağa çağırır". Bu, əslində Azərbaycanın ərazi bütövlüyünə dolayı dəstək idi, çünki həmin qətnamələr Ermənistan qoşunlarının Azərbaycan torpaqlarından çıxarılmasını tələb edirdi [7].

Türk Şurasının açıq dəstəyi. Türk Şurasında açıq mövqe nümayiş olunaraq Türk Şurası (indiki TDT) 3 oktyabr və 6 oktyabr bəyanatları ilə Azərbaycanın suverenliyini, ərazi bütövlüyünü, haqlı mübarizəsini dəstəklədiyini açıqladı. Qazaxıstan bu bəyanatlara imza atdı. Bu, Qazaxıstanın faktiki siyasi dəstəyi idi. N.Nazarbayevin Qarabağa dair mövqeyi hələ 1992-ci ildə Almatıda keçirilmiş sammitdə ilk dəfə "münaqişə Azərbaycan ərazisində gedir" fikri olmuşdur. 2013-cü ildə Bakıda olduqda isə o, "Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir" demişdi. Müharibədən sonra böyük yaxınlaşma özünü göstərdi. 2021–2022-ci illərdə Qazaxıstan Qarabağda Şuşa məktəbi layihəsinə, Zəngilan "ağıllı kənd" proqramına, Orta Dəhlizin genişləndirilməsinə qoşuldu [8, 12].

Türkmənistan və Qırğızıstanda Vətən müharibəsinə reaksiya. Türkmənistanın davranışı digər Mərkəzi Asiya ölkələrindən tamam fərqli idi. Türkmənistanın dövlət siyasətinin əsasında yerləşən "mütləq bitərəflik" doktrinası bu ölkənin heç bir münaqişədə tərəf tutmamasını zəruri edir. Buna görə də Qarabağ müharibəsi zamanı Aşqabad yalnız "sülh və sabitlik" çağırışları ilə çıxış edirdi. Türkmənistanın bu neytrallığının arxasında həm regional balans, həm də öz daxili təhlükəsizlik siyasəti dayanırdı. Lakin maraqlı olan budur ki, müharibə bitdikdən sonra Türkmənistan Azərbaycanla münasibətlərini xeyli fəallaşdırdı. Xəzərin enerji resursları ilə bağlı "Dostluq" yatağı üzrə əldə olunan razılaşma illərlə davam edən anlaşılmazlıqları aradan qaldırdı. Türkmənistan Prezidenti S.Berdiməhəmmədovun Azərbaycana ardıcıl səfərləri, Azərbaycan-Türkmənistan-Türkiyə üçtərəfli enerji əməkdaşlığı formatının yaranması göstərirdi ki, Türkmənistan müharibə vaxtı susan, amma müharibədən sonra açılan engin bir səhifə ilə Azərbaycanın yanında yer alan ölkəyə çevrildi. "Daimi Neytrallıq" siyasəti 1995-ci ildə BMT tərəfindən tanınmış Daimi Neytral Dövlət kimi Türkmənistanın hərbi münaqişələrə münasibəti həmişə eyni olmuşdur, yəni tərəf tutmamaq və sülh çağırmaq. 44 günlük müharibədə də belə oldu. Rəsmi mövqe 28–29 sentyabr tarixində özünü göstərdi. Türkmənistan XİN "Siyasi-diplomatik həll yeganə çıxış yoludur" – deyə açıqlama yaydı. Müharibədən sonra yaxınlaşma özünü göstərdi. Belə ki, 2021-də "Dostluq" yatağının birgə işlənməsi razılaşdırıldı. 2022-ci ildə Xəzəryanı sammitdə Türkmənistan açıq şəkildə Azərbaycanla strateji tərəfdaşlıq yüksəlmiş, 2023–2024-ci illərdə isə Orta Dəhliz və enerji marşrutları üzrə əməkdaşlıq genişlənmişdir [12, 320-322].

Qırğızıstanda isə Qarabağ müharibəsi elə bir dövrə təsadüf etdi ki, ölkə daxili siyasi gərginliyin içində idi. 2020-ci ilin oktyabrında keçirilən parlament seçkiləri ölkədə böyük kütləvi etirazlara səbəb oldu, paytaxt Bişkekdə dövlət binaları zəbt edildi, prezident istefa verdi və bir neçə gün ərzində hakimiyyət tamamilə dəyişdi. Bu səbəbdən Qırğızıstanın müharibəyə reaksiyası çox zəif, lakin müsbət tonlu oldu. Qırğızıstan XİN yalnız atəşkəs və danışıqlar çağırışı etdi və Azərbaycana qarşı negativ açıqlama verməsi. Müharibədən sonra Qırğızıstan-Azərbaycan münasibətləri xüsusilə Orta Dəhliz layihəsi çərçivəsində genişləndi. Bu, müharibədən sonrakı dövrdə türk dövlətlərinin iqtisadi birliyinin daha da gücləndiyini nümayiş etdirdi. 30 sentyabr tarixində Qırğızıstan XİN "Atəşi dayandırmağa çağırırıq" məzmununda çağırış səsləndirdi. Müharibə gedərkən Qırğızıstanda 7 oktyabr 2020-də dövlət çevrilişi, prezidentin istefası, küçə toqquşmaları yaşanırdı. Bu səbəbdən ölkənin xarici siyasəti iflic vəziyyətdə idi. Buna baxmayaraq, Qırğız insanların sosial şəbəkələrində "Azərbaycan haqlıdır", "Qarabağ türk torpağıdır" kimi paylaşımlar çox idi. Həmçinin Qırğızıstan Türk Şurasının Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən bəyanatına imza atmışdır. Bu, rəsmi səviyyədə dolayı dəstək idi [1, 32-34].

Tacikistan isə regionda ən ehtiyatlı mövqe tutan ölkələrdən biri oldu. Tacikistanın Ermənistanla uzun illərdir davam edən hərbi-texniki əməkdaşlığı, KTMT çərçivəsində ortaq fəaliyyəti və Ermənistanın Tacikistana silah satışı fonunda Düşənbə siyasi balansı qorumağı seçdi. Tacikistanın sərhəd boyu təhlükəsizliyi, Əfqanıstan riskləri və Rusiyanın bölgədə dominant təsiri ona müharibə zamanı daha çox susmağa vadar edirdi. Buna baxmayaraq, Tacikistan Ermənistanı dəstəkləmədi, bunun əvəzinə yalnız "sülh və dialoq" çağırışları ilə çıxış etdi. Müharibədən sonra isə Düşənbə-Bakı əlaqələri genişlənməyə başladı, iqtisadi əməkdaşlıq və humanitar layihələr daha aktiv mərhələyə keçdi. Tacikistanın ilk reaksiyası 28–29 sentyabr tarixlərində XİN səviyyəsində oldu. "Dərhal atəşkəs" çağırışı edildi. Tacikistan Prezident Administrasiyası isə "Azərbaycanın sabitliyi region üçün vacibdir" -deyə açıqlama verdi [5].

Müharibə dövründə və ondan sonra Türk Dövlətləri Təşkilatı bütün türk dünyasını birləşdirən siyasi mərkəzə çevrildi. 2020-ci ilin oktyabrında təşkilatın qəbul etdiyi bəyanat Azərbaycanın ərazi bütövlüyünə tam dəstəyi ifadə etmişdi. Bu, təkcə diplomatik sənəd deyildi, bu, türk coğrafiyasının Qarabağ məsələsində siyasi birliyinin manifestinə çevrildi. Müharibədən sonra təşkilatın Türk Dövlətləri Təşkilatına çevrilməsi, Şuşa Bəyannaməsinin imzalanması, Zəngəzur dəhlizinin türk dünyası üçün strateji prioritetə çevrilməsi Mərkəzi Asiya ölkələrinin Azərbaycanla münasibətlərini yeni dövrə daşıdı [12, 220].

Nəticə. Beləliklə, 44 günlük Vətən müharibəsi Mərkəzi Asiya coğrafiyasında yalnız siyasi reaksiyalar deyil, həm də türk dövlətləri arasında emosional, tarixi və geosiyasi bağların güclənməsi ilə nəticələndi. Özbəkistanın açıq qardaş dəstəyi, Qazaxıstanın balanslı, amma Azərbaycana yaxın mövqeyi, Türkmənistanın susqun, amma sonradan fəallaşan münasibəti, Qırğızıstanın siyasi qarışıqlıq fonunda müsbət tonu və Tacikistanın ehtiyatlı diplomatik dili Mərkəzi Asiyanın bütövlükdə Azərbaycanla münasibətlərinin gələcək istiqamətini müəyyən etdi. Bu gün Qarabağ yalnız Azərbaycan üçün deyil, bütün türk dünyası üçün birlik və güc rəmzinə çevrilib və Mərkəzi Asiya ölkələrinin reaksiyaları bu rəmzin formalaşmasında mühüm rol oynayıb.

ƏDƏBİYYAT

1. AIR Center. 44 Günlük Qarabağ müharibəsi: mülahizə və nəticələr. Bakı, 2021, 52 s.
2. Azərbaycan Respublikası Prezidenti İnstitutu. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi: tarixi və hüquqi aspektlər. Bakı, 2020, 128s.
3. Azərbaycan Respublikası Prezidenti İnstitutu. Ermənistan-Azərbaycan münaqişəsi üzrə yenilənmiş analitik hesabat. Bakı, 2021, 136 s.
4. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi. Joint Statement by the President of Azerbaijan, Prime Minister of Armenia and President of Russia, 10 noyabr 2020, 8 s. – https://mfa.gov.az/en/news/no40620-statement-by-the-president-of-the-republic-of-azerbaijan-the-prime-minister-of-the-republic-of-armenia-and-the-president-of-the-russian-federation-enru [Müraciət tarixi: 13.09.2025].
5. Agkaya, Onur. Conflict Areas in the Caucasus and Central Asia. Lexington / Bloomsbury, 2024. 468 s. - https://www.bloomsbury.com/us/conflict-areas-in-the-caucasus-and-central-asia-9781793651273/ [Müraciət tarixi: 25.12.2025].
6. Kazakhstan, Ministry of Foreign Affairs. Statement over the escalation of the Armenian-Azerbaijani conflict, 27 sentyabr 2020, 2 s. - https://en.apa.az/nagorno-garabagh/Kazakhstan%27s-MFA-issues-statement-over-escalation-of-the-Armenian-Azerbaijani-conflict-331316 [Müraciət tarixi: 05.10.2025].
7. Kazakhstan, Ministry of Foreign Affairs. Statement on negotiations on the Peace Agreement between Azerbaijan and Armenia, 2020, 3 s. - https://www.kt.kz/eng/international_affair/statement_of_the_ministry_of_foreign_affairs_of_1377975465.html [Müraciət tarixi: 07.10.2025].
8. Türk Şurası (Türkdilli Dövlətlər Təşkilatı). 2020 Qarabağ Müharibəsi ilə bağlı mövqeyi // "Diplomatiya Aləmi" jurnalı, № 56, 2020, 12 s.

9. Uzbekistan, Ministry of Foreign Affairs. Statement of the Ministry of Foreign Affairs of the Republic of Uzbekistan, 28 sentyabr 2020, 2 s. - https://yuz.uz/en/news/statement-of-the-ministry-of-foreign-affairs-of-the-republic-of-uzbekistan [Müraciət tarixi: 01.10.2025].
10. Uzbekistan, Ministry of Foreign Affairs. Uzbekistan urges Azerbaijan and Armenia to end hostilities and start diplomatic relations to settle the conflict, 28 sentyabr 2020, 3 s. - https://kun.uz/en/news/2020/09/28/uzbekistan-urges-azerbaijan-and-armenia-to-end-hostilities-start-diplomatic-relations-to-settle-the-conflict [Müraciət tarixi: 03.10.2025].
11. Uzbekistan, Ministry of Foreign Affairs. Uzbekistan calls on Azerbaijan and Armenia to end hostilities as soon as possible, 27 sentyabr 2020, 2 s. - https://www.uzdaily.uz/en/uzbekistan-calls-on-azerbaijan-and-armenia-to-end-hostilities-as-soon-as-possible-and-start-diplomatic-negotiations/ [Müraciət tarixi: 07.11.2025].
12. Ələkbərli, Əzizağa. Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə elmi əlaqələri (1920-1991). Bakı, AMEA Tarix və Etnologiya İnstitutu, 2023, 408 s.

САБУХИ ГУЛИЕВ
Докторант кафедры современной и новейшей истории европейских и американских стран Бакинского государственного университета.

РЕАКЦИЯ СТРАН ЦЕНТРАЛЬНОЙ АЗИИ НА 44-ДНЕВНУЮ ОТЕЧЕСТВЕННОЙ ВОЙНУ

Страны Центральной Азии в целом подошли к войне осторожно и сбалансированно. Казахстан и Кыргызстан сохраняли официальную нейтральную позицию в связи со своими обязательствами перед ОДКБ. Туркменистан продемонстрировал полный нейтралитет и лишь призвал к стабильности. Узбекистан, с другой стороны, сбалансированно выдвинул на первый план принцип территориальной целостности Азербайджана. Все страны поддержали дипломатическое решение конфликта. После соглашения от 10 ноября они сосредоточились на дальнейшем расширении своих отношений с Азербайджаном.

Ключевые слова: Азербайджан, Карабах, Южный Кавказ, Тюркский совет, Бишкек.

SABUHI GULIYEV
Doctoral student at the Department of Modern and Contemporary History of European and American Countries, Baku State University

THE REACTION OF CENTRAL ASIAN COUNTRIES TO THE 44-DAY PATRIOTIC WAR

The Central Asian countries generally approached the war cautiously and balanced. Kazakhstan and Kyrgyzstan maintained an official neutral position due to their CSTO obligations. Turkmenistan demonstrated complete neutrality and only called for stability. Uzbekistan, on the other hand, balancedly brought to the fore the principle of Azerbaijan's territorial integrity. All countries supported a diplomatic solution to the conflict. After the November 10 agreement, they focused on further expanding their relations with Azerbaijan.

Keywords: Azerbaijan, Karabakh, South Caucasus, Turkic Council, Bishkek.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 20 fevral 2026-cı il.
Məqalənin çapa qəbul olunma tarixi: 21 may 2026-cı il.
Rəyçilər: t.ü.f.d. Hüseyn Hüseynli, t.e.d. İsmayıl Məmmədov.

UOT 32:93/94

KAMİL MİRİYEV
Azərbaycan Milli Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunun doktorantı
Orcid İD: 0009-0003-8335-9106
kamilmiri@gmail.com

ABŞ-IN ORTA ŞƏRQ SİYASƏTİNDƏ TRANSFORMASİYA: REALİST VƏ KONSTRUKTİVİST YANAŞMALARIN SİNTEZİ KONTEKSTİNDƏ REGİONAL SABİTLİK MODELLƏRİ

DOI: https://doi.org/10.36719/2708-065X/113/184-190

Bu məqalədə ABŞ-ın Orta Şərq siyasətində son onilliklər ərzində baş verən transformasiyalar beynəlxalq münasibətlər nəzəriyyələri – realizm və konstruktivizm çərçivəsində təhlil edilir. Araşdırmada göstərilir ki, ABŞ siyasəti təkcə güc balansına əsaslanmır, həm də normativ dəyərlərin, sosial identikliyin və ideoloji təsirin formalaşdırılması ilə xarakterizə olunur. Realizm ABŞ-ın regional maraqlarının qorunmasını və hərbi-strateji balansı təmin etməyi əsaslandırarkən, konstruktivizm bu siyasətin dəyərlər və normativ elementlər vasitəsilə legitimləşdirilməsini izah edir. Məqalədə bu iki paradiqmanın sintezi nəticəsində ABŞ-ın "transformativ sabitlik modeli" adlandırılan yeni yanaşmasının formalaşdığı elmi əsaslarla göstərilir.

Açar sözlər: ABŞ siyasəti, Orta Şərq, realizm, konstruktivizm, sabitlik modeli, beynəlxalq münasibətlər, ideoloji təsir, transformasiya.

Giriş. XXI əsrdə beynəlxalq münasibətlər sistemində baş verən dərin transformasiyalar xüsusilə Orta Şərq regionunda qlobal güclərin siyasətinin yenidən formalaşmasına səbəb olmuşdur. Bu proseslərin mərkəzində duran əsas aktorlardan biri olan Amerika Birləşmiş Ştatlarının (ABŞ) Orta Şərq siyasəti təkcə geosiyasi maraqların ifadəsi deyil, həm də beynəlxalq münasibətlər nəzəriyyələrinin – realizm və konstruktivizmin – qarşılıqlı təsirinin praktik təzahürü kimi qiymətləndirilə bilər. Müasir mərhələdə ABŞ-ın regiondakı strategiyası təkcə enerji təhlükəsizliyi, hərbi iştirak və müttəfiqlik sistemləri ilə məhdudlaşmır; bu siyasət eyni zamanda normativ dəyərlərin – demokratiya, insan haqları və institusional islahatların – ixracını özündə birləşdirən çoxşaxəli ideoloji və sosial mühəndislik modeli kimi formalaşır.

Soyuq müharibə dövründən bəri ABŞ-ın Orta Şərqə yanaşması klassik realist paradiqma çərçivəsində güc balansının qorunmasına əsaslanırdı. Lakin XXI əsrin əvvəllərindən etibarən, xüsusilə "11 Sentyabr hadisələri" və "Ərəb baharı" kimi dönüş nöqtələrindən sonra bu siyasət tədricən dəyərlər yönümlü və konstruktivist məzmun kəsb etmişdir. ABŞ beynəlxalq münasibətlərin subyektlərini təkcə maraq daşıyıcıları kimi deyil, həm də normativ identiklik formalaşdıran aktorlar kimi qəbul etməyə başlamışdır. Bununla belə, regiondakı xaotik siyasi struktur, dərin etnik və dini parçalanmalar, habelə xarici aktorların rəqabəti ABŞ-ın tətbiq etdiyi "transformasiya" və "sabitlik" modellərinin effektivliyini məhdudlaşdırmışdır [1, s.12].

Son onilliklərdə ABŞ siyasətinin transformasiyası iki əsas istiqamətdə müşahidə olunur: birincisi, klassik realist güc siyasətinin elementləri qorunmaqla, təhlükəsizlik və enerji nəzarəti prioritet olaraq qalır; ikincisi, konstruktivist yanaşmanın təsiri altında "yumşaq güc" və "dəyərlər diplomatiyası" vasitəsilə ictimai legitimliyin və sosial sabitliyin yaradılmasına yönəlmiş yeni strategiyalar meydana çıxır. Bu baxımdan ABŞ siyasətinin mahiyyətini yalnız güc balansı və maraq ziddiyyətləri çərçivəsində deyil, həm də identiklik, dəyərlər və ideoloji transformasiya kontekstində araşdırmaq vacibdir.

Mövcud elmi ədəbiyyatın təhlili göstərir ki, ABŞ-ın Orta Şərqdəki strategiyasının davamlılığı və transformasiyası məsələsində realizm və konstruktivizm yanaşmaları arasında ciddi epistemoloji boşluq mövcuddur. Realizm ABŞ-ın maraq yönümlü siyasətini əsaslandırarkən, konstruktivizm onun normativ və ideoloji təsir mexanizmlərini izah etməyə çalışır. Halbuki müasir mərhələdə bu iki nəzəri istiqamətin sintezi ABŞ-ın regionda tətbiq etdiyi kompleks siyasətin daha dərin elmi izahını verir.

ABŞ-ın hərbi güc, iqtisadi təsir və ideoloji legitimlik arasında yaratdığı tarazlıq modeli regiondakı sabitlik və qeyri-sabitlik dinamikalarını anlamaq üçün yeni tədqiqat yanaşmalarına ehtiyac yaradır.

Bu baxımdan tədqiqatın məqsədi ABŞ-ın Orta Şərq siyasətində realizm və konstruktivizmin qarşılıqlı təsirini nəzəri və empirik səviyyədə araşdırmaq, həmçinin bu sintez çərçivəsində formalaşan regional sabitlik modellərinin elmi əsaslarını müəyyənləşdirməkdir. Araşdırma eyni zamanda ABŞ siyasətinin transformasiya mərhələlərini – Soyuq müharibə sonrası liberal ekspansionizm, "demokratiya ixracı" və "regional balans" strategiyalarını – müqayisəli təhlil edərək, müasir beynəlxalq sistemdə güc və dəyər siyasətinin uzlaşdırılma mexanizmlərini müəyyən etməyə yönəlmişdir [2, s.27].

Təhlil. ABŞ-ın Orta Şərq siyasətinin təkamülü onun beynəlxalq sistemdə tutduğu qlobal güc statusu və dəyişən ideoloji istiqamətləri ilə sıx bağlıdır. Soyuq müharibə dövründən başlayaraq ABŞ regionda öz maraqlarını qorumaq məqsədilə əsasən realist paradiqma çərçivəsində hərəkət etmişdir. Bu yanaşma beynəlxalq münasibətləri anarxik sistem kimi qəbul edir və dövlətlərin davranışını güc balansının qorunması zərurəti ilə izah edir. ABŞ üçün Orta Şərq ilk növbədə enerji resurslarına nəzarət, strateji kommunikasiya yollarının açıq saxlanması və rəqib güclərin təsirinin məhdudlaşdırılması baxımından həyati əhəmiyyət daşıyırdı. Bu səbəbdən ABŞ uzun illər ərzində regionda sabitliyi hərbi iştirak, təhlükəsizlik alyansları və siyasi nəzarət mexanizmləri vasitəsilə təmin etməyə çalışmışdır [4, s.41].

Lakin zaman keçdikcə hərbi gücə əsaslanan bu siyasət həm iqtisadi, həm də sosial baxımdan istənilən nəticəni verməmişdir. ABŞ-ın İraqda və Əfqanıstanda apardığı əməliyyatlar, eləcə də regionda demokratiya quruculuğu proseslərinə zorakı müdaxilələr uzunmüddətli sabitlik yaratmaq əvəzinə, sistemli xaosa və dərin sosial parçalanmalara gətirib çıxarmışdır. Bu proseslər Vaşinqtonun siyasətində nəzəri baxımdan dönüş nöqtəsi yaratmış, yəni güc balansına əsaslanan realist yanaşmadan normativ və dəyərlər yönümlü konstruktivist baxışa keçidi sürətləndirmişdir.

Konstruktivist paradiqma ABŞ siyasətinin ideoloji və sosial əsaslarını anlamaq üçün mühüm analitik çərçivə yaradır. Bu yanaşmaya görə, dövlətlərin davranışı yalnız maddi maraqlarla deyil, həm də mənəvi dəyərlər, identiklik və beynəlxalq normativ sistemlərlə müəyyən olunur. ABŞ-ın Orta Şərqdə "demokratiya ixracı", "rejim dəyişikliyi" və "yumşaq güc" siyasətləri məhz bu nəzəriyyənin praktik təzahürü kimi formalaşmışdır. Vaşinqton bu regionda təkcə siyasi və iqtisadi təsirini deyil, həm də ideoloji nüfuzunu genişləndirmək məqsədilə sivilizasiyalı idarəetmə modeli, hüququn aliliyi və liberal dəyərlər kimi anlayışları beynəlxalq siyasətin ayrılmaz hissəsinə çevirməyə çalışmışdır.

Lakin bu cəhdlərin reallıqla toqquşduğu məqamlar da az olmamışdır. ABŞ-ın region ölkələrində demokratik institutlar yaratmaq istiqamətindəki təşəbbüsləri çox vaxt sosial strukturun, dini kimliyin və yerli siyasi mədəniyyətin xüsusiyyətlərini nəzərə almadan həyata keçirilmişdir. Nəticədə, bu siyasət bəzi hallarda sabitlikdən çox, qeyri-sabitliyə səbəb olmuş, region dövlətlərində anti-amerikan meyllərin güclənməsinə gətirib çıxarmışdır. Beləliklə, konstruktivist ideyalar praktik səviyyədə tam uğur qazana bilməmiş, ABŞ-ın dəyərlər əsasında qurulan təsir modeli normativ müstəvidə qalmışdır [7, s.50].

ABŞ-ın Orta Şərq siyasətində realizm və konstruktivizmin qarşılıqlı təsiri onun strategiyasına ikiqat xarakter qazandırır. Bir tərəfdən, Vaşinqton regionda öz maraqlarını qorumaq üçün hərbi gücə, iqtisadi sanksiyalara və təhlükəsizlik alyanslarına əsaslanır. Digər tərəfdən, bu siyasət dəyərlər, identiklik və normativ təsir vasitəsilə legitimlik qazanmağa çalışır. Başqa sözlə, ABŞ regionda həm güc, həm də mənəvi təsir mexanizmləri üzərində qurulan hibrid sabitlik modeli tətbiq etməyə çalışır. Bu modelin mahiyyəti ondan ibarətdir ki, hərbi-siyasi nəzarət ideoloji təsir və sosial transformasiya ilə tamamlanır.

Bu sintez ABŞ-ın Orta Şərqdəki strategiyasını ənənəvi güc siyasətindən fərqləndirir, lakin onun nəticələri çox zaman ziddiyyətli olmuşdur. ABŞ-ın enerji təhlükəsizliyi və regional liderlik maraqları ilə dəyərlər yönümlü xarici siyasət arasında daim gərgin balans mövcuddur. Bir tərəfdən, regionun sabitliyi üçün təhlükəsizlik mexanizmlərinin saxlanılması vacib sayılır, digər tərəfdən isə həmin mexanizmlər demokratik transformasiyanın qarşısında baryer yaradır. Bu ziddiyyət ABŞ-ın regiondakı təsirinin həm struktur, həm də ideoloji səviyyədə məhdudlaşmasına gətirib çıxarmışdır. ABŞ siyasətinin transformasiyası təkcə uğursuzluqlar deyil, həm də yeni sabitlik modellərinin formalaşması baxımından təcrübə yaratmışdır. Bu modellər bir tərəfdən realizmin güc balansına əsaslanır, digər tərəfdən konstruktivizmin normativ və identiklik yanaşmalarını özündə birləşdirir. ABŞ-ın regionda yaratdığı

ittifaqlar sistemi, enerji layihələrinə nəzarət mexanizmləri və diplomatik təsir alətləri bu sintez yanaşmasının praktiki ifadəsidir. Bu səbəbdən, Orta Şərqdə sabitliyin saxlanılması artıq yalnız hərbi güclə deyil, həm də sosial-iqtisadi inteqrasiya, dəyərlər diplomatiyası və ideoloji mübadilə vasitəsilə həyata keçirilir.

ABŞ-ın Orta Şərq siyasəti son onilliklərdə həm realist güc siyasətinin, həm də konstruktivist ideologiyanın təsiri altında formalaşan mürəkkəb, çoxlayihəli bir sistemə çevrilmişdir. Bu sistemin mahiyyəti təkcə maraqların müdafiəsində deyil, həm də beynəlxalq legitimliyin əldə edilməsində özünü göstərir. ABŞ-ın regional sabitlik modeli, əslində, gücün və dəyərlərin qarşılıqlı təsirindən doğan strateji hibriddir. Bu baxımdan, onun Orta Şərqdəki rolu sadəcə hegemon təsir faktoru deyil, həm də normativ sabitliyin yeni konsepsiyası kimi qiymətləndirilə bilər [10, s.40].

Cədvəl 1.

Realist və konstruktivist yanaşmaların ABŞ-ın Orta Şərq siyasətində müqayisəli təhlili

Meyar	Realist yanaşma	Konstruktivist yanaşma	ABŞ siyasətində təzahür forması
Əsas məqsəd	Güc balansının qorunması, milli maraqların müdafiəsi	Normativ dəyərlərin və ideoloji təsirin yayılması	Regional sabitliyin həm təhlükəsizlik, həm də sosial legitimlik əsasında qurulması
Təhlükəsizlik anlayışı	Hərbi güc və strateji nəzarət vasitəsilə təmin olunur	Sosial-mədəni identiklik və dəyərlər üzərindən formalaşır	Hərbi ittifaqlar (NATO, koalisiyalar) və eyni zamanda demokratik transformasiya təşəbbüsləri
Əsas vasitələr	Hərbi müdaxilə, sanksiyalar, enerji və ticarət nəzarəti	Diplomatiya, "yumşaq güc", media və QHT-lər vasitəsilə təsir	İraq və Əfqanıstan əməliyyatları, "demokratiya ixracı" və "Orta Şərq tərəfdaşlığı" proqramları
İdeoloji baza	Realizm, neokonservatizm	Konstruktivizm, liberal institusionalizm	Güc və dəyər siyasətinin paralel tətbiqi
Sabitlik modeli	Güc balansına əsaslanan qoruyucu sabitlik	Dəyərlərin paylaşılmasına əsaslanan transformativ sabitlik	ABŞ-ın hibrid sabitlik konsepsiyası: güc + ideologiya sintezi
Təsir mexanizmi	Güc tətbiqi və deterrensiya (çəkinmə effekti)	Sosial legitimlik və normativ cazibə	Regional aktorların davranışına həm təzyiq, həm də ideoloji adaptasiya yolu ilə təsir
Zəif cəhətlər	Uzunmüddətli sabitliyi təmin etmir, sosial qarşıdurmaları artırır	Dəyərlərin yerli reallıqlara uyğunlaşdırılmaması effektivliyi azaldır	Hər iki modelin ziddiyyətli nəticələri ABŞ siyasətinin ikili xarakterini gücləndirir
Elmi nəticə	Güc mərkəzli siyasət qısamüddətli sabitlik yaradır	Normativ siyasət sosial inteqrasiya üçün əsasdır	ABŞ-ın siyasəti hər iki modelin sintezindən ibarətdir və bu sintez yeni sabitlik paradigması yaradır

Mənbə : Ahmad, M. M. F. (2020, October). The Theory of Constructivism in International Relations. International Research Journal of Commerce and Law, https://www.ijmr.net.in/current/2020/OCTOBER%2C-2020/z51PtGX6iPTbzIx.pdf

Nəticə. İraq və Suriyadakı hadisələr birbaşa Türkiyənin maraqları ilə bağlıdır. Hər iki ölkə Osmanlı İmperiyasından qoparılmış və Qərbin imperiya məqsədlərinə uyğun olaraq qurulmuş dövlətlərdir. Skeptizm hər iki ölkənin, hətta Türkiyə ilə münasibətlərində həmişə üstünlük təşkil edib. Hər iki ölkənin əraziləri terror təşkilatları tərəfindən istifadə olunur. Bir əsr əvvəl bu ölkələrdə qurulan imperiya nizamı artıq çökür və kənar qüvvələrin Ərəb Baharı adı altında hadisələri manipulyasiya etmək səyləri davam edir. Keçmişdə daha asan qurulan imperiya nizamının qurulması bu gün çətinləşir və arzuolunmaz hadisələrə gətirib çıxarır. Bundan əlavə, demokratiya, azadlıq, bərabərlik, plüralizm, rifah, resursların ədalətli bölüşdürülməsi və ləyaqət hissi uğrunda kampaniya kimi başlayan Ərəb Baharı, hakimiyyətə gəlməsi və radikal din xadimlərinin fərqli münasibətləri səbəbindən "Ərəb Qışı"na çevrilmək üzrədir. İraqa işğal ABŞ-ın qlobal birqütblü və ya "yeni dünya nizamını" sınağa çəkdi. Digər tərəfdən, 11 sentyabr hadisəsi ABŞ-ın dünyanı yenidən formalaşdırmaq və enerji resurslarına nəzarət etmək əməliyyatları üçün əlverişli bir mühit yaratdı. Lakin, işğalın ilk üç ilində ABŞ-ın inzibati və hərbi səhvləri nəticəsində qarşılaşılan müqavimət, ABŞ-ın Yaxın Şərqdəki sonrakı hərəkətlərinin qarşısını almış və ya gecikdirmiş kimi görünür. İraqda neft və təbii qaz gəlirlərinin bölüşdürülməsi, Kərkük də daxil olmaqla mübahisəli bölgələrin sərhədlərinin müəyyənləşdirilməsi, mərkəzi hökumət daxilində etnik elementlərin hakimiyyət bölgüsü və davam edən müqavimət və etniklərarası münaqişələr İraqda sabitliyin kövrək qalmasına səbəb olmağa davam edir.

Həm İraqda, həm də Suriyada on il fasilələrlə baş verən problemli hadisələr Türkiyənin həyati maraqlarına birbaşa təsir göstərib. Türkiyə bu çətinliklərə qarşı beynəlxalq legitimliyə, siyasi və hərbi vəziyyətə, daxili siyasi inkişaflara, Türkiyənin iqtisadi vəziyyətinə və terror təşkilatlarının mövcudluğuna əsaslanaraq mövqe tutub [18]. Hazırda Türkiyə həm İraq mərkəzi hökuməti, həm də Suriya hökuməti ilə eyni vaxtda gərginlik yaşayır. Bu, çətin bir vəziyyətdir. BMT Təhlükəsizlik Şurasının qətnaməsi Suriyaya mümkün hər hansı bir müdaxilənin legitimliyi üçün vacibdir. Qaçqınlara, xüsusən də humanitar yardımla lazımi dəstək verilməlidir, lakin öz torpaqları başqa bir ölkəyə hücum üçün bazaya çevrilməməlidir.

Problemin yeniliyi və praktik əhəmiyyəti. Yaxın Şərqdəki geosiyasi vəziyyətin öyrənilməsi bir sıra ədəbiyyat nümunələrində öz əksini tapmışdır. Lakin bu sahədə müqayisəli tədqiqatların aparılması və gələcək tədqiqatlara təkan verilməsi yenilikdir. Hazırlanmış məqalə bu sahədə çalışan tədqiqatçılar, tələbələr və mütəxəssislər üçün faydalı ola bilər. Xüsusilə, problemin təhlilinin davam etdirilməsi sonrakı tədqiqatlar üçün zəmin yaradacaq.

ƏDƏBİYYAT

1. Akbaş, Z. (2012), Yeni Arap Dünyası'nda Batı ile ilişkiler: Süreklilik değişiyor mu? Uluslararası Orta Doğu Kongresi, 1-2 Kasım 2011. bildiri kitabı, cilt ı, Kocaeli. ss.200-223.
2. Altunışık, M. B. (2009). Ortadoğu ve ABD: yeni bir döneme girilirken, Ortadoğu etütleri, (1)1, 69-81.
3. Arı, T. (2004). Geçmişten günümüze Orta Doğu- siyaset, savaş ve diplomasi. İstanbul: Alfa yayınları.
4. Bayraktar, G. (2008). Orta Asya ve Türkiye'nin güvenlik stratejileri. İstanbul: Bilgeoğuz yayınları. 70-85
5. Bourtman, I. (2006). Putin and Russia's Middle Eastern Policy, Middle East review of ınternational affairs, vol. 10, No. 2, pp. 1-15.
6. Demir, S. (2012). Irak Ve Suriye Krizlerinin Karşılaştırmalı Analizi: Nedenler, Gelişmeler, Sonuçlar Ve Türkiye Üzerine Etkileri. *Türk Dünyası İncelemeleri Dergisi*, *12*(2), 553-578.
7. Ekin, C. (2012) Küresel hegemonya mücadelesi açısından deniz yetki alanları: Örnek olay Doğu Akdeniz, Uluslararası Orta Doğu Kongresi, 1-2 Kasım 2011. Bildiri Kitabı, Cilt I, Kocaeli. ss.72-97.
8. Ertuğral, Y. (2015). Rusya'nın Arap baharı politikası (2010 – 2014), - Akademik Perspektif - erişim tarihi: 12 Şubat 2016, http://akademikperspektif.com/2015/02/18/rusyanin-arap-bahari-politikasi-2010-2014/ [27.02.2026].

9. Harunoğulları, M. (2017). Orta Doğu jeopolitiji ve küresel güçlerin enerji mücadilesi. Humanitas - Uluslararası Sosyal Bilimler Dergisi, 5(9), 121-137. https://doi.org/10.20304/humanitas.318517
10. Kadıoğlu, İ. A. (2020). Suriye iç savaşı ve Türkiye: Çatışma, güvenlik ve sığınma. *OPUS International Journal of Society Researches*, *16*(29), 2179-2213.
11. Koç, M., Görücü, İ., & Akbıyık, N. (2015). Suriyeli sığınmacılar ve istihdam problemleri. *Birey ve Toplum Sosyal Bilimler Dergisi*, *5*(1), 63-94.
12. Jenkins, B. M. (2015). *How the current conflicts are shaping the future of Syria and Iraq*. Rand Corporation.
13. Jian, Z. (2011). China's energy security: Prospects, challenges, and opportunities. The brookings ınstitution center for Northeast Asian policy studies, cnaps visiting fellow working paper, 1775 Massachusetts avenue, NW Washington D.C. 20036-2188, pp. 1-32.
14. Leenders, R. (2008). Iraqi Refugees in Syria: causing a spillover of the Iraqi conflict? *Third World Quarterly*, *29*(8), 1563-1584.
15. Niray, N. (2003). Bölgesel ve küresel gelişmeler ışığında Orta Doğu'da oluşan siyasal gelişmeler ve Türkiye'nin yeri, F.Ü. Orta Doğu Araştırmaları merkezi birinci Orta Doğu semineri (s.9-20), Elazığ, 29-31 Mayıs.
16. Sen, K., Hussain, H., & Al-Faisal, W. (2016). Ethics in times of conflict: some reflections on Syria, in the backdrop of Iraq. *BMJ global health*, *1*(3), e000149.
17. Özey, R. (2012). Dünya denkleminde Orta Doğu coğrafyası, İstanbul: Aktif kitapevi.
18. Ministry of Foreign Affairs of Turkey (2016) https://www.mfa.gov.tr/joint-statement-by-the-foreign-ministers-of-the-islamic-republic-of-iran_-the-russian-federation-and-the-republic-of-turkey-on-agreed-steps-to-revitalize-the-political-process-to-end-the-syrian-conflict_-20-december-2016_-moscow.en.mfa [27.02.2026].

ХАЛИДА МАЛИКОВА
Бакинский государственный университет,
докторант по специальности История международных отношений

АНАЛИЗ СИРИЙСКОГО И ИРАКСКОГО КОНФЛИКТОВ: ПРИЧИНЫ, ПОСЛЕДСТВИЯ И РОЛЬ ТРЕТЬИХ ГОСУДАРСТВ

Во время Первой мировой войны Великобритания оккупировала Ирак, а Франция – Сирию в рамках империалистического плана раздела страны. После 1950-х годов в обеих странах начался процесс государственного строительства. Хотя попытки Ирака отделиться от британского правления начались гораздо раньше, обе страны обрели подлинную независимость после Второй мировой войны. До начала этих событий общей чертой правительств обеих стран было сочетание арабского социализма и национализма, а также концентрация власти в руках одного человека с диктаторскими наклонностями. В обеих странах в основном правили религиозные меньшинства. Сунниты в Ираке и алавиты – арабы-алавиты в Сирии, хотя и не составляли большинства, занимали основные руководящие должности.

Причины и развитие событий в Ираке и Сирии существенно различаются. Однако события в обеих странах имеют сходство с точки зрения их прямого влияния на безопасность Турции. События в Ираке за последние два десятилетия и в Сирии за последние два года напрямую затрагивают жизненно важные интересы Турции. Таким образом, анализ событий, развернувшихся в Сирии в ходе Первой и Второй операций США в Ираке, а также «Арабской весны», будет проведён с точки зрения интересов Турции. В рамках этого анализа будут рассмотрены процесс возникновения этих событий, внутренние и внешние факторы, способствовавшие их развитию, а также то, как события в регионе повлияли на Турцию.

Ключевые слова: Ближний Восток, Сирия, Ирак, конфликт, третье промежуточное государство, Турция, компромисс.

KHALIDA MALIKOVA
Baku State University,
doctoral student on the history of international relations

ANALYSIS OF THE SYRIAN AND IRAQI CONFLICTS: CAUSES, CONSEQUENCES AND THE ROLE OF THIRD STATES

During World War I, Britain occupied Iraq, and France occupied Syria, as part of an imperialist partition plan between Britain and France. Both countries experienced a process of nation-building after the 1950s. Although Iraq's efforts to separate from British rule began much earlier, both countries achieved true independence after World War II. Until the initial stages of these events, the common characteristic of the governments in both countries was their combination of Arab socialism and nationalism, and the concentration of power in a single individual with a dictatorial identity. Both countries were governed mostly by minority sects. Sunnis in Iraq and Alawites, the Arab Alawites in Syria, although not the majority, held the primary positions of power.

The causes and developments in Iraq and Syria are quite different. However, the developments in both countries share similarities in terms of their direct impact on Turkey's security. Developments in Iraq over the past two decades and Syria over the past two years directly impact Turkey's vital interests. Therefore, an analysis of the events that unfolded in Syria during the US's First and Second Operations in Iraq, as well as the Arab Spring, will be conducted from the perspective of Turkey's interests. This analysis will cover the process by which these events emerged, the internal and external factors that contributed to these developments, and the ways in which Turkey was affected by developments in the region.

Keywords: Middle East, Syria, Iraq, conflict, third intermediary state, Turkey, compromise.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 27 fevrla 2026-cı il.
Məqalənin çapa qəbul olunma tarixi: 21 may 2026-cı il.
Rəyçilər: t.ü.f.d. Qurban Məmmədov, t.ü.f.d. Məmmədağa Baxışov.

UOT 32:93/94

ELNARƏ RƏHİMLİ
AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun doktorantı
ORCİD ID: 0009-0001-4928-3326
h_elnara@yahoo.com

MÜASİR MÜNAQİŞƏLƏRDƏ ETNİK VƏ DİNİ AMİLLƏRİN QARŞILIQLI ƏLAQƏSİ: NƏZƏRİ YANAŞMALAR

DOI: https://doi.org/10.36719/2708-065X/113/215-220

Məqalədə müasir beynəlxalq münasibətlərdə beynəlxalq təhlükəsizlik sistemini tamamilə dəyişən və ona təsir göstərən münaqişələrdən, xüsusilə etnodini konfliktlərin mahiyyətindən bəhs edilir. Burada etnik kimliyin və dini mənsubiyyətin bir-biri ilə əlaqəsi, bu qarşılıqlı münasibətlərin münaqişələrin eskalasiya və davam etməsinə, eyni zamanda başqa şəkil almasına təsirləri nəzəri əsasda təhlil edilmişdir. Məqalədə müasir münaqişələrlə bağlı üç əsas paraqdiqma – primordializm, instrumentalizm və konstruktivizm aspektindən etnodini amillərin qarşılıqlı əlaqəsi araşdırılır. Primordialist nəzəriyyə baxımından təhlil zamanı münaqişələrin baş verməsinin əsasında kimlik amillərinin dayanması müddəası nəzərdən keçirilir. İnstrumentalizm aspektindən təhlil aparılan zaman dini və etnik mənsubiyyətin elitalar tərəfindən istifadə olunması resurslara nəzarət vasitəsi kimi araşdırılmışdır. Konstruktivist yanaşmada münaqişələrin əsas səbəblərinə kimlik faktorunun dayanması, dost və düşmən kimliklərinin formalaşması kimi məsələlərin təsir etməsi göstərilmişdir. Məqalədə "Sivilizasiyaların toqquşması", din və münaqişə nəzəriyyələrinin münaqişələrin meydana gəlmə səbəbləri ilə bağlı əsas müddəaları da öz əksini tapmışdır. Müəllif belə bir nəticəyə gəlir ki, müasir münaqişələrin həll edilməsi üçün siyasi və iqtisadi vasitələr kifayət etmir, bunun üçün tərəflərin etnik-dini qavrayışları və kimliklə bağlı yaşanan hadisələri, tarixi prosesləri nəzəri alan yanaşmaların meydana gəlməsi zəruridir.

Açar sözlər: etnodini münaqişə, primordializm, instumentalizm, konstruktivizm, kimlik, dini amil, sivilizasiyalar, nəzəriyyələr.

Giriş. XX əsrdə dünyada, müxtəlif dövlətlərdə onlarla etnik silahlı münaqişə baş vermiş və bu qarşıdurmalar yüz minlərlə insan itkisinə, milyonlarla qaçqın və humanitar böhranların yaranmasına səbəb olmuşdur. Buna görə də, XX əsr alimlər və tədqiqatçılar üçün üsyankar etnik qruplaşmalar əsri kimi qəbul edilmişdir. Eyni zamanda XXI əsrdə millətlərarası və dini münaqişələr müasir dünyanın üzləşdiyi ən mürəkkəb problemlərdən biri kimi çıxış etmişdir [0, s.158-159].

Müasir dünyada konfliktərdən etnik və dini münaqişələr həm beynəlxalq münasibətlərə, həm də regional inkişaf proseslərinə daha çox təsir göstərir. Etnik və dini münaqişələr dövlətlərin siyasi sistemi, daxili inkişaf xüsusiyyətləri, eyni zamanda kimlik faktorlarından qaynaqlanır. Bu tipli münaqişələr nəinki baş verdiyi ərazilərdə, eyni zamanda regional və qlobal miqyasda dünya siyasətinə, iqtisadi inkişaf proseslərinə, valyuta göstəricilərinə təsir göstərir. Bu münaqişələr həlli daha çətin olan konfliktlər hesab olunur, çünki onlar ilk növbədə, kimlik faktoruna əsaslanır. Buna görə də, bu münaqişələrin təbiətini və mahiyyətini anlamaq üçün onları öyrənmək, araşdırmaq vacibdir. Etnik və dini əsasda baş verən münaqişələri araşdırmaq həm də dövlətçilik, vətəndaş kimliyini formalaşdırmaq baxımından vahid konsepsiyanın yaradılmasında əhəmiyyətlidir.

Münaqişələrin yaranmasında etnik və dini kimliyin rolu. Soyuq müharibənin başa çatmasından sonra beynəlxalq təhlükəsizlik üçün əsas təhdidlərdən biri dini və etnik münaqişələr olmuşdur. XX əsrin 90-cı illəri müxtəlif dinləri təmsil edən etnik qruplar arasında qarşıdurmalarla xarakterizə olunur. Bu etnik-dini münaqişələrə Əfqanıstanda vətəndaş müharibəsi, Livanda münaqişə, keçmiş Yuqoslaviyada monoetnik münaqişələr, Fələstin – İsrail münaqişəsi, Şimali İrlansiyadakı iğtişaşlar, Ermənistan – Azərbaycan münaqişəsi, rus-çeçen müharibəsi, Hindistanın Kəşmir vilayətində üsyan, İndoneziyaya qarşı Şərqi Timor üsyanı, Şri-Lankadakı Tamil üsyanı, Çinə qarşı Tibet müqaviməti, İranın Bəhai azlığına qarşı təzyiqlər və Sudanın cənubundakı üsyanları aid etmək olar.

Din bəzi etnodini münaqişələrdə əhəmiyyətli rol oynasa da, bunu bütün qarşıdurmalar haqqında demək olmaz. Etnodini münaqişələrin əksəriyyətində etnik məsələlər dini amilləri üstələyir [0, s.143-144]. Etnik-dini münaqişələr müəyyən bir dövlət üçün mənfi və təhlükəli hadisə hesab olunur, çünki o, bəzən cəmiyyətin bütün sahələrində dağıdıcı nəticələrə gətirib çıxarır.

Münaqişə tərəflərindən ən azı biri etnik qrup adından danışırsa və ya ictimai rəy, günahkarları və onların qurbanlarını etnik baxımdan təsvir edirsə, münaqişə etnik əsaslı hesab olunur [0, s.5].

Münaqişə subyektləri qismində millət, icma və etnik qruplar çıxış edir. Bir millət ilə dil, mədəniyyət və ya din baxımından fərqlənən siyasi icma və etnik qrup arasında fərq qoymaq məqsədəuyğundur. Bu mənada bir millət bir neçə fərqli etnik qrupu əhatə edə bilər və sonra etnik qarşıdurma milləti parçalanma ilə təhdid edir. Buna görə də, məsələn, Hindistan millətçiliyi daxili məzhəb münaqişələrinə hər cür müqavimət göstərməyə çalışır. Eyni səbəbdən, Amerika millətçiliyi irqi və ya etnik münaqişələrin kəskinləşməsinin qarşısını effektiv şəkildə alan güclü bir qüvvədir [0, s.5].

Etnik münaqişələr bir sıra xüsusiyyətlərə malikdir:

- burada ilk növbədə, münaqişə edən qruplar etnik əlamətlər üzrə bölünür;
- tərəflər etnik cəhətdən qohum və ya dost icmalardan dəstək axtarırlar;
- bəzi etnik münaqişələrdə etnik amil siyasiləşməyə can atır;
- yeni iştirakçılar, bu mövqe onların mövqeyinə yaxın olmasa belə, ortaq etnik kimliyə əsaslanaraq münaqişə tərəflərindən biri ilə həmrəy olurlar;
- etnik münaqişələr əksər hallarda dəyərlərə əsaslanmır, müəyyən obyektlər və qrup maraqları ətrafında baş verir [0, s.73-74].

Ted Gurr tərəfindən hazırlanmış Azlıq Riski layihəsi çərçivəsində yaradılan model, bəlkə də etnik münaqişələrin ən geniş və dinamik şəkildə əhatə edir. Azlıq Riski modeli, yaşadıqları dövlətlərdə etnik azlıqlar ilə hakim qruplar arasında münaqişələrin dinamikasını qiymətləndirmək baxımından əhəmiyyətlidir. Burada təhlil olunan əsas vahid, dövlət içərisindəki etnik azlıqdır, məsələn, kürdlər kimi qruplar, Türkiyə, İran və İraqda müxtəlif şəkildə qiymətləndirilir, çünki kürdlərlə müəyyən dövlətin hakim qrupu arasında münasibət hər bir dövlətdə fərqlidir. Həmçinin, müəyyən dövlətdə bir çox müxtəlif etnik azlıqlar mövcud ola bilər və onların hər biri fərqli statusa malik olur [0, s.146].

Azlıq Riski modelinin əsas çatışmazlıqlarından biri dini amilləri nəzərə almamasıdır, halbuki din bir çox etnik münaqişələrdə mühüm rol oynayır. Azlıq Riski modelini din və münaqişə nəzəriyyəsi ilə birləşdirmək bu problemi aradan qaldırır. Lakin bu zaman din və münaqişə nəzəriyyəsinin bəzi çatışmazlıqları üzə çıxır. Bu nəzəriyyə tam və dinamik bir çərçivəyə daxil edilməmiş və ümumi münaqişə nəzəriyyəsi ilə əlaqələndirilməmişdir. Din və münaqişə nəzəriyyəsi dinin münaqişəyə birbaşa necə səbəb ola biləcəyini araşdırır. Bu, ya bir qrupun dini inanc sərhədlərinə reaksiya olaraq, ya da həmin çərçivənin qayda və davranış standartlarının tələbləri səbəbindən baş verə bilər.

Din və münaqişə nəzəriyyəsinin əsas aspektləri onun üç əsas müddəasında öz əksini tapmışdır:

- Hər hansı bir dini çərçivəyə yönəlmiş təhdid, həmin dinə mənsub olanların müdafiə xarakterli və çox vaxt münaqişəli cavab vermə ehtimalını artırır.
- Həmin qrupun dini çərçivəsindən qaynaqlanan hərəkətləri, eyni dini paylaşmayan digər qruplara təsir edərək, onların münaqişəli reaksiyasını doğura bilər.
- Dini çərçivədəki qayda və davranış standartları çox vaxt elə şəkildə şərh olunur ki, bu, müqəddəs müharibə kimi münaqişəli hərəkətləri tələb edir [0, s.150].

Amerikalı sosioloq və politoloq Samuel Hantinqton vurğulamışdır ki, XXI əsrdə münaqişələrin əsas mənbəyi ideologiya və ya iqtisadiyyat deyil, fərqli sivilizasiyalara mənsub millətlər və sosial qruplar arasında münaqişələr olacaq. Sivilizasiyalar arasındakı əsas fərq dini dəyərlərdir. Dünyanın mənzərəsi bir neçə əsas sivilizasiyanın – Qərb, Konfutsi, Yapon, İslam, Hindu, Pravoslav-Slavyan, Latın Amerikası və ehtimal ki, Afrikanın etnodini qarşılıqlı təsiri ilə formalaşacaq [0]. S. Hantinqton sivilizasiya müharibələrinin baş verəcəyini bir sıra amillərlə əsaslandırırdı:

Birincisi, müxtəlif sivilizasiyalardan olan insanlar Tanrı ilə insan, fərd ilə qrup, vətəndaşla dövlət, valideynlərlə uşaqlar və ər-arvad arasındakı münasibətlərə fərqli baxırlar.

İkincisi, müxtəlif sivilizasiyaların xalqları arasında qarşılıqlı əlaqə güclənir. Bu, sivilizasiya özünüdərkinin artmasına, sivilizasiyalar arasındakı fərqlərin və onların daxilindəki ortaq cəhətlərin daha dərindən başa düşülməsinə gətirib çıxarır.

Üçüncüsü, dünyada iqtisadi modernləşmə və sosial dəyişikliklər insanların yaşayış yerləri ilə ənənəvi identifikasiyasını pozur və eyni zamanda millət-dövlətin kimlik mənbəyi kimi rolu zəifləyir. Yaranan boşluqlar əsasən din tərəfindən doldurulur və çox vaxt fundamentalist hərəkatlar şəklində olur.

Dördüncüsü, sivilizasiya özünüdərkinin yüksəlişi Qərbin rolunun ikili olması ilə əlaqədardır. Bir tərəfdən Qərb öz gücünün zirvəsindədir, digər tərəfdən isə, bəlkə də məhz bu səbəbdən, qeyri-Qərb sivilizasiyaları öz köklərinə qayıdırlar.

Beşincisi, mədəni müxtəliflik və xüsusiyyətlər iqtisadi və siyasi fərqlərə nisbətən dəyişikliklərə daha az həssasdır, buna görə də, həll etmək və ya güzəştə getmək daha çətindir.

Din insanları etnik mənsubiyyətə nisbətən daha kəskin şəkildə bölür. İnsan yarı fransız, yarı ərəb, hətta hər ikisinin vətəndaşı ola bilər. Yarı katolik və yarı müsəlman olmaq isə daha çətindir.

Nəhayət, iqtisadi regionalizm artır. Bir tərəfdən, uğurlu iqtisadi regionalizm vahid sivilizasiyaya mənsubluq hissini gücləndirir. Digər tərəfdən, iqtisadi regionalizm yalnız ortaq sivilizasiyaya əsaslandığı təqdirdə uğurlu ola bilir [0].

Etnik və dini amillərin qarşılıqlı təsir xüsusiyyətləri. XVI-XVII əsrin əvvəllərində dünyada əsas ziddiyyətlər dini əsasda baş verirdi. XVII - XVIII əsrlərin əsas qarşıdurmaları sülalə hakimiyyətlərində, XIX əsrdə dövlət mənafelərinin toqquşmasında, XX əsrdə Şərqlə Qərbin ideoloji ziddiyyətlərində özünü göstərirdi. [0].

Son illərdə isə müharibələrin, eləcə də etnosiyasi və dini münaqişələrin baş verməsi arealı dəyişdi. 1970-ci illərdə Şərqi və Cənub-Şərqi Asiya regionu öz yerini Orta Şərq və Tropik Afrikaya verdi. 1980-ci illərdə Şimali Afrika, Cənubi və Mərkəzi Asiya bölgələri münaqişələr bölgəsinə daxil oldu. XXI əsrdə beynəlxalq müdaxilə və vətəndaş qarşıdurmalarının baş verdiyi yeni bir bölgə meydana gəldi. Bu, "Ərəb baharı"nın baş verdiyi Şərq və Şimali Afrika ölkələrinin İslam dünyasıdır [0, s. 627-628].

Etnik zəmində baş verən münaqişələr bir sıra tədqiqatçılar tərəfindən identikliklərin qarşıdurması kimi xarakterizə olunur. Onlar belə hesab edirlər ki, etnik münaqişənin əsas iştirakçıları müxtəlif tarixi keçmişə, qan yaddaşına, fərqli dünyagörüşünə, adət-ənənəyə, psixologiya və özünüdərkə malik iki etnik qrupdur. Eyni zamanda tədqiqatlar göstərir ki, sırf etnik, dini və ərazi münaqişələrinə müasir dövrdə rast gəlmək mümkün deyil. Belə ki etnik münaqişələr zamanı ziddiyyətlər siyasi, ərazi, dini mübahisələrlə vəhdət təşkil edir [0].

Amerikalı tədqiqatçılardan N. Qleyzer və D. Moynihan etnik mənsubiyyətin cəmiyyətin sinfi təbiətindən daha çox təbəqələşmənin daha fundamental mənbəyi olduğu və buna görə də, etnik mənsubiyyət və etnik münaqişənin bu gün və gələcəkdə də aktuallığını qoruyub saxlayacağı barədə qəti nəticəyə gəlmişlər [0, s.53].

Etnik münaqişələrin yaranması və genişlənməsi səbəblərinin izah edilməsində etnik mənsubiyyət haqqında əsas nəzəriyyələr – primordializm, instrumentalizm və konstruktivizm faydalıdır. Primordialist yanaşma çərçivəsində etnik qarşıdurma ümumiyyətlə qədim düşmənçilik – ilkin qruplararası ziddiyyətlər və yalnız avtoritar rejimlərin gücü və ya xarici təzyiq tərəfindən yatırıla bilən bir təzahür kimi qəbul edilir. Rejim zəifləyəndə qədim düşmənçilik yenidən güclü şəkildə özünü göstərir. Bu məntiqə görə, serblər və xorvatlar arasındakı münaqişə, bu xalqların nümayəndələrinin bir-birinə qarşı bəslədiyi nifrətlə izah olunur. Bu nəzəriyyədə, eynilə Ermənistan – Azərbaycan münaqişəsi də ermənilərlə azərbaycanlılar arasında tarix boyu yaranan nifrətlə izah edilir [0, s.630].

Etnik kimlik doğuşdan təyin olunur, insan təbiətinin bir hissəsidir və nəsildən-nəsilə, genetik olaraq ötürülür. Beləliklə, primordializmə görə, etnik kimlik zamanla sabit qalır, hər bir etnik qrupla ortaq olan ümumi qan vasitəsilə müəyyən edilir. Etnik kimliklər arasındakı fərqliliklərin irqlərarası nifrət, qorxu və münaqişələrin əsas mənbəyi olduğunu vurğulayan primordialistlər belə hesab edirlər ki, etnik cəhətdən heterogen dövlətlər qaçılmaz şəkildə etnik münaqişələr yaşayacaq [0].

Konstruktivist yanaşma da etnodini münaqişələrin yaranma səbəbi kimi kimlik faktorunu göstərir, etnik münaqişəni izah edərkən etnik kimliyin formalaşması, onun əsaslandırılması və dəyişməsinə xüsusi diqqət yetirir. Burada fərdi və qrup yaradıcılığı, qrupun bütövlüyü, suverenliyi, mövcudluğu daha çox diqqət mərkəzində olur [0, s.631].

Konstruktivizmə görə, etnodini münaqişələr, elitalar tərəfindən siyasi hakimiyyət uğrunda səfərbər edilmiş sosial cəhətdən qurulmuş, dəyişkən kimliklərdir. Kimliklər və qrup sərhədləri diskurs, sim-

vollar və hekayələr vasitəsilə yaradılır və çox vaxt münaqişə zamanı daha da şiddətlənir. Konstruktivist nəzəriyyə etnik kimliyi sosial olaraq qurulmuş, dəyişkən bir varlıq kimi qəbul edir və bu identiklik fəth, müstəmləkəçilik və ya miqrasiya kimi müxtəlif vasitələrlə formalaşa bilər. Konstruktivistlər üçün dilin, tarixin, simvolların və mədəniyyətin rolu etnik rəqabətin qızışdırılmasında və davam etdirilməsində əhəmiyyətlidir.

Nəticə etibarilə, etnik münaqişə konkret tarixi proseslərin məhsuludur və tarixdəki bu təsirlər etnik qruplar arasındakı münasibətlərə təsir edərək onlar arasında düşmənçiliyə səbəb olur. 1980-ci illərin sonlarında başlayan Azərbaycan və Ermənistan arasında Dağlıq Qarabağ münaqişəsi adətən konstruktivist prizmadan təsvir olunur [0, s.149].

Etnik münasibətlərdə din qarşıdurma yaradan faktor kimi çıxış edir. Əgər milli azlıq dövlətin titul xalqının mənsub olduğu dinə mənsubdursa, münaqişə ehtimalı olduqca aşağıdır. Əks-təqdirdə, dini ziddiyyətlərin baş verməsi daha kəskin formada özünü göstərə bilər.

ABŞ-da 2001-ci il 11 sentyabr hadisələri, amerikalı keşişin "Quran"ı yandırmağa cəhd etməsi, Danimarkada Məhəmməd peyğəmbərin karikaturalarının dərc edilməsi və digər hadisələr ictimai-siyasi proseslərdə din amilinin təsirinin artmasını göstərir [0].

İnstrumentalist yanaşmanın tərəfdarları etnikliyi ilkin mahiyyət kimi deyil, qruplar arasında rəqabət zamanı istifadə edilən bir vasitə və resurs kimi izah edirlər. Etnik mənsubiyyət, münaqişənin səbəbi hesab olunmur, bu münaqişələr qrup kimliklərinin uyğunsuzluğundan deyil, iqtisadi və ya təbii sərvətlər uğrunda qruplararası rəqabətin nəticəsi kimi qəbul edilir. Qruplar hakimiyyətə, sərvətə və sosial statusa qeyri-bərabər çıxış əldə etdikdə münaqişələr qaçılmaz olur [0, s.630].

İnstrumentalistlərə görə, etnik mənsubiyyət və millətçilik müasir dövrün uydurma ideoloji fenomenidir. Bu nəzəriyyə etnik münaqişənin əsas mənbələrini modernləşmə, iqtisadi amillər və elit ambisiyalarla izah edir. Modernləşmə sosial inteqrasiyanı və məlumatlılığı artırır, bu da etnik qrupların üzvləri arasındakı fərqləri aşkar edir. Bu fərqlər bir etnik qrup üçün əlverişsiz hallar və ya bir etnik qrupun üzvlərinə qarşı ayrı-seçkilik və eksklüziv siyasət yarada bilər. Əlverişsiz vəziyyətdə olmaq və ya ayrı-seçkiliyə məruz qalmaq qrup üzvləri arasında etnik narazılıqlar yaradır və etnik münaqişə ehtimalını artırır. Digər tərəfdən, iqtisadi inkişaf, cəmiyyətdə, əmək bazarında etnik qruplar arasında rəqabətə və iqtisadi şikayətlərə səbəb olur. Bu baxımdan nisbi məhrumiyyət nəzəriyyəsi iqtisadi rifahın və həyat səviyyəsinin aşağı olmasının etnik hərəkatların əsas müəyyənediciləri olduğunu bildirir [0].

Nəticə. Tədqiqat göstərir ki, etnik və dini faktorlar münaqişələrin hərəkətverici qüvvəsi və struktur elementdir. Müasir etnik və dini əsaslı münaqişələri yalnız vahid nəzəriyyə əsasında izah etmək mümkün deyil. Etnik və dini amillər bu tipli münaqişələrin əsasını təşkil etsə də, onların səbəbləri kimi daha çox siyasi manipulyasiya və sosial inşa, kimlik amilləri çıxış edir. Münaqişələrə dini amil əlavə olunduqda, bu tip müharibələr müqəddəs amallar uğrunda mübarizə kimi təqdim olunur və burada güzəşt imkanları məhdudlaşır, onların həll edilməsi çətinləşir. Müasir münaqişələrin tənzimlənməsi yalnız maddi yardım göstərməklə mümkün deyil. Bunun üçün düşmən kimliyini aradan qaldırmaq, mədəniyyətlərarası dialoqu inkişaf etdirmək və inteqrasiya modellərini tətbiq etmək vacibdir.

ƏDƏBİYYAT

1. Nəcəfov, Z. XXI əsrdə etnik münaqişələrin geosiyasi xüsusiyyətləri: [Onlayn] / Strategiya. az. - 02.12.2018. - URL: https://az.strategiya.az/news.php?id=140840 [02.02.2026].
2. Амелин, В. Этнополитические и религиозные конфликты в современном мире / В. Амелин, К. Моргунов // Россия и мусульманский мир, – 2014. №1 (259), – с.158-168.
3. Корм, Ж. Религиозный вопрос в XXI веке. Геополитика и кризис постмодерна / Ж. Корм, – Москва: Институт общегуманитарных исследований, – 2012. – 288 с.
4. Рязанцева, С. В. Формирование и прявление этнорелигиозных конфликтов // – Москва: Научный портал МВД России, – 2012. № 1, – с. 73-78.
5. Хантингтон, С. Столкновение цивилизаций? [Onlayn] / pravo33. wordpress.com. - URL: https://pravo33.wordpress.com/wp-content/uploads/ 2012/05/1994-1-huntington-stolknovenie_civiliacij.pdf [02.02.2026].

6. Этничность и религия в современных конфликтах / отв. ред. В. А. Тишков, В. А. Шнирельман / Ин-т этнологии и антропологии им. Н.Н. Миклухо-Маклая РАН. – Москва: Наука, – 2012. – 651с.
7. Che, A. M. Linking Instrumentalist and Primordialist Theories of Ethnic Conflict: [Onlayn] / e-ir.info. - URL: https://www.e-ir.info/pdf/64013. [02.02.2026].
8. Duygu, N. Romine, J. Instrumental and symbolic sources of ethnic conflict: application to the Kurdish conflict in Turkey: [Onlayn] / pol.illinoisstate.edu. - URL:https://pol.illinoisstate.edu/downloads/student-life/conferences/Eriten 2008.pdf. [02.02.2026].
9. Fox, J. Ethnoreligious conflict in the late twentieth century. A general theory. – Lanham, Boulder, NewYork, Oxford: Lexington Books, – 2002. – 253 p.
10. Glazer, N. Ethnicity: Theory and Experience / N. Glazer, D. Moynihen. – Cambridge (Mass.), – 1975. – 531 p.
11. Williams, D.U. How Useful are the Main Existing Theories of Ethnic Conflict? // Academic Journal of Interdisciplinary Studies, – March 2015. Vol. 4, №1, – p. 147-152.

ЭЛЬНАРА РАГИМЛИ
Докторант Института философии и социологии НАНА

ВЗАИМОСВЯЗЬ ЭТНИЧЕСКИХ И РЕЛИГИОЗНЫХ ФАКТОРОВ В СОВРЕМЕННЫХ КОНФЛИКТАХ: ТЕОРЕТИЧЕСКИЕ ПОДХОДЫ

В статье рассматриваются конфликты, которые кардинально меняют и влияют на международную систему безопасности в современных международных отношениях, особенно сущность этнорелигиозных конфликтов. Здесь на теоретической основе анализируется взаимосвязь между этнической идентичностью и религиозной принадлежностью, влияние этих взаимосвязей на эскалацию и продолжение конфликтов, а также их трансформацию. В статье рассматривается взаимодействие этнорелигиозных факторов с точки зрения трех основных парадигм, связанных с современными конфликтами – примордиализма, инструментализма и конструктивизма. С точки зрения примордиалистской теории, анализ рассматривает предпосылку, что факторы идентичности лежат в основе возникновения конфликтов. При анализе с точки зрения инструментализма рассматривается использование религиозной и этнической принадлежности элитами как средства контроля над ресурсами. В конструктивистском подходе показано, что на основные причины конфликтов влияют такие факторы, как фактор идентичности и формирование идентичности друга и врага. В статье также отражены основные положения теории «Столкновения цивилизаций» и теории религии и конфликта в отношении причин конфликтов. Автор приходит к выводу, что политических и экономических средств недостаточно для разрешения современных конфликтов; для этого необходимо разработать подходы, учитывающие этнорелигиозные представления, события и исторические процессы, связанные с идентичностью.

Ключевые слова: этнорелигиозный конфликт, примордиализм, инструментализм, конструктивизм, идентичность, религиозный фактор, цивилизации, теории.

ELNARA RAHIMLI
Doctoral student at the Institute of Philosophy and Sociology of ANAS

THE INTERACTION OF ETHNIC AND RELIGIOUS FACTORS IN MODERN CONFLICTS: THEORETICAL APPROACHES

The article discusses the conflicts that completely change and affect the international security system in modern international relations, especially the essence of ethno-religious conflicts. Here, the relationship between ethnic identity and religious affiliation, the effects of these mutual relations on the escalation and continuation of conflicts, as well as their transformation, are analyzed on a theoretical basis. The article examines the interaction of ethno-religious factors from the perspective of three

main paradigms related to modern conflicts - primordialism, instrumentalism and constructivism. From the perspective of primordialist theory, the analysis considers the premise that identity factors are at the root of the occurrence of conflicts. From the perspective of instrumentalism, the analysis examines the use of religious and ethnic affiliation by elites as a means of controlling resources. In the constructivist approach, the main causes of conflicts are shown to be influenced by issues such as the identity factor and the formation of friend and enemy identities. The article also reflects the main provisions of the "Clash of Civilizations", religion and conflict theories regarding the causes of conflicts. The author concludes that political and economic means are not sufficient to resolve modern conflicts; for this, it is necessary to develop approaches that take into account the ethnic-religious perceptions and identity-related events and historical processes.

Keywords: ethno-religious conflict, primordialism, instrumentalism, constructivism, identity, religious factor, civilizations, theories.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 20 fevral 2026-cı il.
Məqalənin çapa qəbul olunma tarixi: 21 may 2026-cı il.
Rəyçilər: t.ü.f.d. Samirə İmanova, t.ü.f.d. Məmmədağa Baxışov.

UOT 35.08:004.9

MÜŞVİQ MEHBALIYEV

Azərbaycan Turizm və Menecment Universitetinin
Sosial menecment fakültəsinin Humanitar və sosial elmlər kafedrasının doktorantı
mehbalimusviq@gmail.com

DÖVLƏT İDARƏÇİLİYİNDƏ KADR POTENSİALININ FORMALAŞMASINDA KADR TEXNOLOGİYALARININ ROLU

DOI: https://doi.org/10.36719/2708-065X/113/221-225

Dövlət idarəçiliyində insan resursları sisteminin modernləşdirilməsi son illərdə strateji idarəetmə islahatlarının əsas istiqamətlərindən birinə çevrilmişdir. Kadr potensialının formalaşdırılması prosesində innovativ kadr texnologiyalarının tətbiqi idarəetmə fəaliyyətinin effektivliyinin yüksəldilməsinə bilavasitə təsir göstərir. Məqalədə kadr texnologiyalarının mahiyyəti, dövlət idarəçiliyində onların tətbiq mexanizmləri və idarəetmə sisteminin keyfiyyətinə göstərdiyi təsirlər elmi əsaslarla təhlil edilir. Tədqiqatın nəticələri göstərir ki, rəqəmsal texnologiyalara əsaslanan kadr idarəçiliyi modeli dövlət qulluğunda şəffaflığı artırır, qərarların qəbulunu məlumatlaşdırır və xidmət keyfiyyətinin yüksəldilməsinə şərait yaradır.

Açar sözlər: Dövlət idarəçiliyi, kadr potensialı, kadr texnologiyaları, insan resursları, rəqəmsallaşma, kompetensiya modeli.

Giriş. Müasir qlobal idarəetmə mühiti dövlət orqanlarını daha çevik, innovativ və vətəndaş yönümlü fəaliyyəti təmin etməyə şərait yaradır. XXI əsrdə dövlət idarəetməsinin inkişaf konsepsiyaları göstərir ki, insan resurslarının səmərəli idarə olunması idarəetmə funksiyalarının həyata keçirilməsində ən mühüm institusional dayaqdır. Kadr potensialının formalaşdırılması yalnız işə qəbul, yerləşdirmə və qiymətləndirmə fəaliyyətlərini deyil, həm də kadrların inkişafını, motivasiya mexanizmlərini, bilik idarəçiliyini və idarəetmə mədəniyyətinin qurulmasını əhatə edir. Bu çərçivədə kadr texnologiyalarının tətbiqi idarəetmədə innovativlik prinsipinin reallaşdırılmasına şərait yaradır. Rəqəmsal transformasiya dövründə ənənəvi kadr yanaşmalarının funksionallığı məhdudlaşdığı üçün dövlət idarəetməsi daha səmərəli texnoloji alətlərə inteqrasiya olunmağa ehtiyac duyur.

Tədqiqat metodları. Məqalənin hazırlanmasında bir neçə elmi-metodoloji yanaşmadan istifadə olunmuşdur. İlk növbədə, beynəlxalq təşkilatların dövlət idarəçiliyi və insan resurslarının idarə olunması sahəsində təqdim etdiyi normativ və analitik sənədlər üzərində məzmun analizi aparılmışdır. Müqayisəli təhlil metodu vasitəsilə müxtəlif ölkələrin dövlət qulluğu sistemlərində tətbiq olunan kadr texnologiyaları araşdırılmış və onların üstünlükləri müəyyən edilmişdir. Sistemləşdirmə metodu isə əldə olunan məlumatların konseptual şəkildə ümumiləşdirilməsi üçün istifadə edilmişdir. Tədqiqatın metodoloji bazasını idarəetmə nəzəriyyəsi, resurs yanaşması, kompetensiya əsaslı idarəetmə modeli və rəqəmsal transformasiya nəzəriyyələri təşkil etmişdir.

Elmi yenilik. Aparılan araşdırmanın elmi yeniliyi ondan ibarətdir ki, məqalədə dövlət idarəçiliyində kadr texnologiyalarının tətbiqi vahid sistem yanaşması çərçivəsində izah olunur. Bu yanaşma texnologiyaların yalnız texniki vasitə deyil, bütövlükdə idarəetmə mədəniyyətinin transformasiyası üçün strateji resurs olduğunu göstərir. Məqalədə kadr texnologiyalarının tətbiqinin dövlət qulluğunda institusional dayanıqlıq, şəffaflıq və məsuliyyətliliyin artırılmasına təsir mexanizmləri yeni analitik çərçivədə qiymətləndirilir. Bununla yanaşı, kompetensiya əsaslı kadr idarəçiliyi ilə rəqəmsal analitika yanaşmasının inteqrasiya konsepsiyası da elmi yenilik kimi təqdim olunur.

Əsas hissə. Dövlət idarəçiliyində kadr texnologiyaları dedikdə insan resurslarının idarə olunması proseslərinin rəqəmsal platformalar, avtomatlaşdırılmış qərar qəbuletmə sistemləri, kompetensiya modelləri və elektron qiymətləndirmə alətləri vasitəsilə həyata keçirilməsi nəzərdə tutulur. Müasir dövlət orqanları işə qəbul zamanı elektron müsabiqə sistemlərindən, test və müsahibə mərhələlərinin avtomatlaşdırılmış qiymətləndirmə mexanizmlərindən istifadə etməklə obyektivliyi təmin edir. Bu texnologi-

yalar subyektiv amillərin təsirini minimuma endirir, insan kapitalının daha dəqiq seçilməsinə imkan yaradır.

"Dövlət Qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu dövlət idarəçiliyində çalışan kadrların peşəkarlığının, şəffaflığın və səmərəliliyin təmin olunmasına yönəlmiş əsas normativ bazadır. Bu qanun dövlət xidmətinə qəbulun, qulluğun keçilməsinin, qiymətləndirilmənin və karyera inkişafının müəyyən olunmuş standartlar əsasında həyata keçirilməsinə imkan yaradır. Məhz bu hüquqi çərçivə dövlət orqanlarında müasir kadr texnologiyalarının tətbiqinə şərait yaradır və idarəçilikdə insan resurslarının effektiv formalaşdırılması üçün mühüm baza rolunu oynayır [1].

Kompetensiya əsaslı idarəetmə modeli dövlət qulluqçularının funksional bacarıqlarını strukturlaşdırır və onların inkişaf istiqamətlərini müəyyənləşdirir. Bu model vasitəsilə hər bir vəzifə üçün tələb olunan bilik, bacarıq və davranış indikatorları daha dəqiq müəyyən olunur və kadr siyasətində vahid standart yaranır. Bununla yanaşı, elektron təlim platformaları dövlət qulluqçularının daimi inkişafını təmin edən modul əsaslı təlim proqramlarının tətbiqini genişləndirir [2].

Kadr analitikası dövlət orqanlarında kadr qərarlarının daha məlumatlandırılmış şəkildə qəbul edilməsinə imkan yaradır. Analitik platformalar əməkdaşların performansını, motivasiya səviyyəsini, rotasiya ehtiyaclarını və kadr dövriyyəsi göstəricilərini qiymətləndirərək idarəetmə üçün proqnozlaşdırıcı məlumatlar təqdim edir. Bu isə insan resurslarının optimallaşdırılması və idarəetmə xərclərinin azaldılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Bütün bu texnologiyalar dövlət idarəçiliyində şəffaflığı gücləndirir, vətəndaş məmnuniyyətinin artmasına, xidmətlərin çevik təqdim olunmasına və dövlət orqanlarının institusional dayanıqlığının yüksəlməsinə töhfə verir [3].

1. Kadr texnologiyalarının növləri və onların dövlət idarəçiliyinə inteqrasiyası. Müasir dövlət idarəçiliyində kadr texnologiyaları bir neçə istiqamət üzrə qruplaşdırıla bilər: rəqəmsal seçmə texnologiyaları, kompetensiya əsaslı idarəetmə modelləri, elektron performans qiymətləndirmə sistemləri, kadr analitikası və rəqəmsal təlim-məşq platformaları. Seçmə texnologiyaları süni intellektə əsaslanan testlər, psixometrik ölçmə alətləri və avtomatlaşdırılmış müsahibə sistemləri vasitəsilə daha obyektiv kadr seçiminə imkan yaradır. Bu texnologiyaların dövlət orqanlarına inteqrasiyası seçim prosesində subyektivliyin azalmasına, kadr əlçatanlığının genişlənməsinə və qiymətləndirmə meyarlarının standartlaşdırılmasına gətirib çıxarır.

2. Kompetensiya əsaslı idarəetmə modelinin tətbiqi və üstünlükləri. Dövlət qulluğunda kompetensiya əsaslı idarəetmə modelinin tətbiqi hər bir vəzifə üzrə tələb olunan bilik, bacarıq və davranış göstəricilərinin dəqiq müəyyənləşdirilməsinə şərait yaradır. Bu model əməkdaşların iş fəaliyyətinə uyğun seçilməsini təmin etməklə yanaşı, onların inkişaf ehtiyaclarının aşkarlanmasına, təlim strategiyalarının fərdiləşdirilməsinə və karyera yüksəlişinin obyektiv əsaslarla tənzimlənməsinə imkan verir. Bu texnologiyanın üstün cəhətlərindən biri də idarəetmədə nəticəyönümlü yanaşmanı gücləndirməsidir. Beləliklə, dövlət xidmətlərinin keyfiyyəti yüksəlir, ölkə üzrə vahid insan resursları idarəetmə standartları formalaşır.

3. Rəqəmsal təlim sistemləri və dövlət qulluqçularının peşəkar inkişafı. Son illərdə dövlət idarəetməsində rəqəmsallaşma istiqamətində aparılan islahatlar təlim və inkişaf siyasətində də öz əksini tapmışdır. Elektron təlim platformaları, mikro-modul əsaslı kurslar, distant təlim metodları və simulyasiya proqramları dövlət qulluqçularının daimi bilik yenilənməsi prosesini sürətləndirir. Bu yanaşma həm zaman, həm də maliyyət baxımından səmərəli olmaqla, böyük kadr kontingentinin eyni vaxtda fasiləsiz təlimini təmin edir. Müasir təlim texnologiyaları əməkdaşların yalnız nəzəri deyil, həm də praktiki bacarıqlarını artırır və onların innovativ idarəetmə metodlarına adaptasiyasını asanlaşdırır.

4. Kadr analitikası və idarəetmədə məlumat əsaslı qərar qəbuletmə. Kadr analitikası innovativ texnologiyaların ən strateji komponentlərindən hesab olunur. Bu analitik sistemlər əməkdaşların performans göstəricilərini, motivasiya səviyyəsini, peşəkar inkişaf dinamikasını və kadr dövriyyəsini real vaxt rejimində təhlil edir. Əldə olunan məlumatlar dövlət orqanlarında idarəetmə qərarlarının daha dəqiq verilməsinə, risklərin minimallaşdırılmasına və insan resurslarının optimal bölüşdürülməsinə yardım edir. Kadr analitikası şəffaflıq və hesabatlılıq prinsiplərini gücləndirərək idarəetmənin institusional dayanıqlığını artırır.

5. Süni intellekt və avtomatlaşdırılmış idarəetmə mexanizmlərinin tətbiqi. Süni intellekt əsaslı alətlər dövlət qulluğunda kadr idarəetməsinin müxtəlif mərhələlərinə artıq daxil edilmişdir. Mətn analizinə əsaslanan CV skrininq sistemləri, işə qəbul zamanı video-müsahibələrin avtomatik emalı, davranış indikatorlarının təhlili və performans proqnozlaşdırılması süni intellektin tətbiq sahələrindəndir. Bu texnologiyalar kadr seçimində sürəti artırır, insan faktoru ilə bağlı riskləri azaldır və obyektiv göstəricilər əsasında qərar qəbulunu dəstəkləyir. Avtomatlaşdırılmış sistemlər həmçinin dövlət idarəçiliyində bürokratik yükün azalmasına, əməliyyat xərclərinin optimallaşdırılmasına və insan resursları xidmətlərinin çevik idarə olunmasına şərait yaradır.

6. Kadr texnologiyalarının tətbiqində institusional çətinliklər və risklər. Kadr texnologiyalarının tətbiqi bir sıra üstünlüklərlə yanaşı, müəyyən çətinliklərlə də müşayiət olunur. Əsas məhdudiyyətlərə rəqəmsal savadlılığın bərabər olmaması, texnoloji sistemlərin standartlaşdırılmamış strukturu, təhlükəsizlik və məlumat məxfiliyi riskləri daxildir. Eyni zamanda, bəzi dövlət orqanlarında dəyişikliklərə müqavimət, innovativ idarəetmə mədəniyyətinin zəif olması və kadr texnologiyalarının tətbiqi üçün maliyyə resurslarının məhdudluğu problemlərə səbəb ola bilər. Bu çətinliklərin aradan qaldırılması üçün institusional hazırlıq, normativ baza və davamlı təlim siyasəti tələb olunur.

7. Dövlət idarəçiliyində kadr texnologiyalarının iqtisadi və sosial təsirləri. Kadr texnologiyalarının tətbiqi yalnız idarəetmə proseslərinin daxili optimallaşdırılması ilə məhdudlaşmır, həm də sosial-iqtisadi sistemin səmərəliliyinə müsbət təsir göstərir. Effektiv insan resursları idarəçiliyi dövlət xidmətlərinin keyfiyyətini artırır, vətəndaş məmnuniyyətini yüksəldir və dövlətin institusional reytinqinə müsbət təsir edir. İqtisadi baxımdan bu texnologiyalar kadr xərclərinin azalmasına, resursların daha rasional bölüşdürülməsinə və işçi dövriyyəsinin azaldılmasına gətirib çıxarır. Nəticədə dövlət idarəçiliyinin ümumi funksional məhsuldarlığı artır [5].

Kadr texnologiyalarının tətbiqi ilk növbədə işə qəbul prosesində özünü göstərir. Müasir dövlət idarəçiliyində namizədlərin seçimi artıq kompetensiya əsaslı testlər, strukturlaşdırılmış müsahibələr və psixometrik qiymətləndirmə vasitəsilə həyata keçirilir. Bu isə subyektiv yanaşmaların azalmasına, real bacarıqlara əsaslanan kadr seçiminin təmin olunmasına imkan yaradır. Bununla yanaşı, elektron kadr idarəetmə sistemlərinin tətbiqi də son illərdə genişləmişdir. Bu sistemlər əməkdaşların məlumat bazasının elektron formatda formalaşdırılmasına, fəaliyyət göstəricilərinin izlənməsinə, təlim ehtiyaclarının müəyyən edilməsinə şərait yaradır və idarəetmə prosesini sürətləndirir.

Bundan başqa, kadrların inkişafı istiqamətində 360° qiymətləndirmə, onlayn təlim platformaları, sertifikatlaşdırma proqramları və mentorluq kimi texnologiyalar mühüm rol oynayır. Bu texnologiyalar dövlət qulluqçularının peşəkarlıq səviyyəsini yüksəldir, onların analitik düşünmə, qərarvermə və idarəetmə bacarıqlarını gücləndirir. Həmçinin ehtiyat kadr mexanizmi də dövlət idarəçiliyində gələcək rəhbər şəxslərin erkən müəyyənləşdirilməsi və hazırlanması üçün istifadə olunan vacib texnologiyalardandır.

Bu prosesin konkret nümunəsi kimi Vergilər Xidmətini göstərmək olar. Bu qurumda işə qəbul tam şəkildə kompetensiya əsaslı testlərlə və strukturlaşdırılmış müsahibələrlə aparılır ki, bu da ən uyğun namizədlərin seçilməsini təmin edir. Eyni zamanda, qurum daxilində elektron kadr sistemləri fəaliyyət göstərir və əməkdaşların fəaliyyət göstəriciləri avtomatik şəkildə izlənir. Vergi müfəttişlərinin peşəkarlığının artırılması üçün 360° qiymətləndirmə texnologiyasından istifadə edilir, təlimlər elektron platformalar vasitəsilə təşkil olunur. Rəhbər vəzifələrə potensial namizədlərin müəyyən edilməsi üçün ehtiyat kadr siyahıları formalaşdırılır və onlar üçün xüsusi inkişaf proqramları hazırlanır [4].

Beləliklə, kadr texnologiyaları dövlət idarəçiliyində kadr potensialının formalaşmasının əsas alətlərindən biri kimi çıxış edir. Onların tətbiqi dövlət orqanlarının fəaliyyətinin səmərəliliyini, çevikliyini və şəffaflığını artırır, peşəkar insan kapitalının inkişafına güclü təkan verir.

Bu istiqamət üzrə aparılan araşdırmalar zamanı müəyyən etdik ki, bu sahəyə dair bir sıra ali təhsil müəssisələrində silsilə şəkilində tədbirlər keçirilmişdir. Nümunə olaraq qeyd edə bilərik ki, *"2019-cu ildə iyunun 21-də Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında "Dövlət qulluğunun aktual problemləri" mövzusunda elmi-praktik konfrans keçirilib. Dövlət Qulluqçularının Peşə Bayramı Gününə həsr edilən konfrans Dövlət İdarəçilik Akademiyası və Dövlət İmtahan Mərkəzinin (DİM) birgə təşkilatçılığı ilə reallaşıb. Konfrans "Dövlət qulluqçularının peşə bayramı gününün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamına uyğun olaraq,*

Prezident Administrasiyası rəhbərinin "Dövlət qulluqçularının peşə bayramı gününün qeyd edilməsi ilə bağlı tədbirlər planı" nın təsdiq edilməsi haqqında Sərəncamı əsasında keçirilib" [6].

Müasir tələblər səviyyəsində bu istiqamət üzrə ərsəyə gətirilmiş əsərlər sırasında "Davamlı inkişaf naminə kadr potensialının təkmilləşdirilməsi: Azərbaycan modeli" ni qeyd edə bilərik ki, burada göstərilir ki, "*İslahatların uğurlu nəticələnməsi bilavasitə idarəetmə sahəsində yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasından və kadr potensialının təkmilləşdirilməsindən asılıdır. Məhs bu sahəyə aid məsələlər təqdim olunan kitabda təhlil olunmuşdur. Kitab kadr potensialının idarə edilməsi sahəsində çalışan və bu məsələləri tədqiq edən mütəxəssislər üçün, o cümlədən bu profilli ali təhsil ocaqları və elmi tədqiqat institutlarının əməkdaşları, doktorant və tələbələr üçün nəzərdə tutulmuşdur*" [7].

Nəticə. Tədqiqatın nəticələri göstərir ki, dövlət idarəçiliyində kadr texnologiyalarının tətbiqi yalnız idarəetmə proseslərini optimallaşdırmır, həm də kadr potensialının keyfiyyətcə yenilənməsini təmin edir. Rəqəmsal alətlərin və kompetensiya əsaslı yanaşmaların sintezi idarəetmə sisteminin funksional səmərəliliyini artırır, qərarların daha dəqiq və məlumat əsaslı qəbul edilməsinə imkan yaradır. Bu isə dövlət idarəçiliyinin modernləşməsi və vətəndaşlara göstərilən xidmətlərin keyfiyyətinin yaxşılaşdırılması baxımından strateji əhəmiyyət daşıyır.

1. Dövlət orqanlarında kadr texnologiyalarının tətbiqi üzrə vahid metodoloji standartlar hazırlanmalı və bütün qurumlarda tətbiq edilməlidir.
2. Dövlət qulluqçularının rəqəmsal bacarıqları üzrə davamlı təlim və ixtisasartırma proqramları genişləndirilməlidir.
3. İnsan resursları idarəçiliyi üçün inteqrasiya olunmuş elektron HRM sistemləri yaradılmalı və real vaxt analitikasına çıxış təmin edilməlidir.
4. Kadr texnologiyalarının tətbiqi nəticələrinin monitorinqi və qiymətləndirilməsi üçün institusional mexanizmlər formalaşdırılmalıdır.
5. Dövlət qurumları ilə akademik və özəl sektor arasında əməkdaşlıq gücləndirilərək kadr texnologiyalarının yenilənməsi davamlı xarakter almalıdır.

ƏDƏBİYYAT

1. Dövlət Qulluğu haqqında Azərbaycan Respublikasının Qanun. – Bakı, 2000, 21 iyul. https://e-qanun.az/framework/4481 [27.02.2026].
2. Armstrong, M. Human Resource Management Practice. – London: Kogan Page, 2014. – 688 s.
3. OECD. Public Service Leadership and Capability Report. – Paris: OECD Publishing, 2019. – 110s.
4. Osborne, D., Gaebler, T. Reinventing Government: How the Entrepreneurial Spirit is Transforming the Public Sector. – New York: Plume, 1993. – 427 s.
5. Davenport, T. H. Human Capital Analytics: Using Analytics to Plan and Optimize Your Learning and Development Investments. – San Francisco: Wiley, 2013. – 256 s.
Numismatic evidence from Azerbaijani territories confirms the region's central position within the Safavid imperial framework and highlights its role in transmitting ideological norms to peripheral areas. Regional variations in coin production coexisted with standardized theological content, reflecting a balance between administrative flexibility and centralized control. The principal scholarly contribution of this article lies in its systematic interpretation of Safavid numismatics as a unified semiotic-ideological system. By integrating Persian-language sources with Azerbaijani archaeological evidence, the study advances interdisciplinary approaches to Islamic history, material culture, and political theology.

The findings offer valuable perspectives for future research on the relationship between religious ideology and monetary practices in premodern Islamic societies and contribute to broader discussions on the role of material culture in state formation.

REFERENCES

1. موسوی، سجاد. سکه‌شناسی دوره صفوی. – تهران: سازمان میراث فرهنگی، ۱۳۹۴ – 312 ص.
2. جعفریان، رسول. تشیع در تاریخ ایران. – قم: نشر معارف، ۱۳۹۶. – 284 ص.
3. اقبال آشتیانی، عباس. تاریخ صفویه. – تهران: انتشارات علمی، ۱۳۹۰. – 367 ص.
4. نصیری، محمدرضا. نظام ضرب سکه در ایران صفوی. – تهران: پژوهشگاه علوم انسانی، ۱۳۹۷. – 240 ص.
5. اعتمادالسلطنه، محمدحسن خان. مرآت البلدان. – تهران: امیرکبیر، ۱۳۹۲. – 198 ص.

6. Lane-Poole S. The Coins of the Safavid Dynasty. London: British Museum, 2004, 280 p.
7. Album S. Checklist of Islamic Coins. Santa Rosa: Stephen Album Rare Coins, 2011, 410 p.
8. Floor W. Safavid Government Institutions. Washington: Mage Publishers, 2001, 376 p.
9. Newman A. Safavid Iran: Rebirth of a Persian Empire. London: I.B. Tauris, 2006, 312 p.
10. Soudavar A. Art of the Persian Courts. New York: Rizzoli, 1992, 264 p.
11. Yıldız H. Safevî Devletinde Para Sistemi // Türk Kültürü İncelemeleri Dergisi. 2018. № 39. s. 85–104.
12. Sarraf M. Shiʿi Iconography on Safavid Coins // Iranian Studies, 2020. Vol.53, №4, p.621-645.
13. Раджабли А. Монетное дело Азербайджанского государства Сефевидов. Баку, «Зия», 2014, 232 с.
14. Сейфеддини М.Нумизматика Азербайджана. Т.2.Баку: Елм, 1999, 324 стр.
15. Пиргулиева Г. Основы нумизматики. Баку: Агрыдаг, 2009, 124 стр.
16. Tabatabai, M. Catalogues of Safavid Coin Legends. Tehran: Iranian Numismatic Society, 1973, 246 s.

QANIRA PIRQULIYEVA
Bakı Dövlət Universitetinin dosenti, tarix üzrə fəlsəfə doktoru

SƏFƏVİ SİKKƏLƏRİNİN İDEOLOJİ VƏ SEMIOTİK ÖLÇÜLƏRİ (farsdilli mənbələr və Azərbaycan numizmatik materialları əsasında)

Bu məqalə Səfəvi dövrü sikkələrinin ideoloji, semantik və sakral funksiyalarının Azərbaycan ərazisində aşkar edilmiş numizmatik materiallar və farsdilli elmi mənbələrin müqayisəli təhlili əsasında araşdırılmasına həsr olunmuşdur. Tədqiqat prosesində Səfəvi sikkələrinin yalnız iqtisadi mübadilə vasitəsi kimi deyil, həm də şiə teokratik dövlətinin legitimləşdirilməsində effektiv ideoloji mexanizm kimi fəaliyyət göstərdiyini əsaslandırılmışdır. Araşdırmada şah titulaturası, imamət doktrinasını əks etdirən epiqrafik formullar, dua və sakral ifadələrin semantik strukturu, eləcə də İran zərbxanalarının siyasi mərkəzləşmə prosesində rolu təhlil edilir. Xüsusi diqqət yazıların və simvolik elementlərin dini hakimiyyət və sülalə legitimliyini vahid semiotik sistem çərçivəsində necə kodlaşdırmasına yönəldilmişdir. Tədqiqatın nəticələri göstərir ki, Səfəvi sikkələri vizual-sakral informasiya daşıyıcısı kimi çıxış edərək şiə ideologiyasını gündəlik pul dövriyyəsi vasitəsilə kütləvi şüura ötürmüşdür. Bu baxımdan, sikkə zərbi siyasi hakimiyyətlə dini doktrina arasında simvolik birliyi təmin edən ideoloji kommunikasiya vasitəsi funksiyasını yerinə yetirmişdir. İşin elmi yeniliyi Səfəvi numizmatikasının yalnız iqtisadi və ya təsviri-tarixi fenomen kimi deyil, semiotik kodlar vasitəsilə strukturlaşdırılmış inteqrasiya olunmuş ideoloji sistem kimi şərh edilməsindədir.Əldə olunan nəticələr orta əsr Azərbaycan və İranın siyasi mədəniyyətinin daha dərindən anlaşılmasına töhfə verir, eyni zamanda maddi mədəniyyətlə dini ideologiya arasındakı qarşılıqlı əlaqələr haqqında təsəvvürləri genişləndirir.

Açar sözlər: Səfəvi sikkələri, şiə ideologiyası, numizmatika, imamət, İran zərbxanaları, semiotika.

ГАНИРА ПИРГУЛИЕВА
Доцент Бакинского Государственного Университета, доктор философии по истории

ИДЕОЛОГИЧЕСКИЕ И СЕМИОТИЧЕСКИЕ АСПЕКТЫ САФАВИДСКОЙ МОНЕТНОЙ КОЛЛЕКЦИИ (на основе персидскоязычных источников и азербайджанских нумизматических материалов)

Данная статья посвящена исследованию идеологических, семантических и сакральных функций сефевидской чеканки на основе сравнительного анализа персоязычных научных источников и нумизматических материалов, обнаруженных на территории Азербайджана. Сефе-

видские монеты функционировали не только как инструменты экономического обмена, но и как идеологические механизмы легитимации шиитского теократического государства, созданного династией. В работе анализируются царская титулатура, эпиграфические формулы, отражающие доктрину имамата, семантическая структура молитвенных и сакральных выражений, а также роль иранских монетных дворов в процессе политической централизации. Особое внимание уделяется тому, каким образом надписи и символические элементы кодировали религиозную власть и династическую легитимность в рамках целостной семиотической системы. Результаты исследования показывают, что сефевидские монеты выступали носителями визуально-сакральной информации, транслируя шиитскую идеологию в массовое сознание через повседневный экономический оборот. В этом смысле чеканка выполняла функцию средства идеологической коммуникации, укрепляя единство политической власти и религиозной доктрины. Научная новизна работы заключается в рассмотрении сефевидской нумизматики как интегрированной идеологической системы, структурированной посредством семиотических кодов, а не исключительно как экономического или описательного исторического явления. Полученные результаты способствуют более глубокому пониманию политической культуры средневекового Азербайджана и Ирана, а также расширяют представления о взаимосвязи материальной культуры и религиозной идеологии в исламских обществах.

Ключевые слова: сефевидские монеты, шиитская идеология, нумизматика, имамат, иранские монетные дворы, семиотика.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 05 mart 2026-cı il.
Məqalənin çapa qəbul olunma tarixi: 21 may 2026-cı il.
Rəyçilər: t.ü.f.d. Hicran Mahmudova, t.e.d. Əmrah Dadaşov.

UOT 94(479.24)

GÜLŞƏN HÜSEYNOVA
tarix üzrə fəlsəfə doktoru.
Azərbaycan Hərb tarixi muzeyində şöbə rəisi
yupiter57@mail.ru

AZƏRBAYCAN HƏRB TARİXİ MUZEYİ – SİLAH VƏ TEXNİKALARDA YAŞAYAN TARİX

DOI: https://doi.org/10.36719/2708-065X/113/251-257

Məqalədə Azərbaycan Hərb tarixi muzeyinin yaradılması və inkişaf tarixi, onun silah kolleksiyası, Açıq və daxili ekspozisiyalarda nümayiş etdirilən qədim tarixə malik texnika və silah nümunələri haqqında məlumatlar mötəbər mənbə və ədəbiyyatlar əsasında təhlil olunmuşdur. Azərbaycan Hərb tarixi muzeyi yalnız eksponatlarla dolu sərgi salonu deyil, həm də xalqımızın döyüş ruhunu, qələbə əzmini nümayiş etdirən bir tərbiyə ocağıdır. Burada nümayiş olunan silah və hərbi texnikaların hər biri bir dövrün, bir müharibənin, bir qəhrəmanlıq tarixinin canlı şahidləridir. Bu gün muzeyin hər iki ekspozisiyasında eksponat kimi sərgilənən bu maddi mədəniyyət abidələri vaxtilə düşmənə qarşı səngərlərdə vuruşan əsgərlərimizin silahdaşları olmuşdur. Onlar bir növ canlı tarix kimi tamaşaçılarla "danışırlar".

Açar sözlər: Azərbaycan Hərb tarixi muzeyi, daxili ekspozisiya, açıq səma altında ekspozisiya, silah kolleksiyası, soyuq silahlar, odlu silahlar, texnikalar.

Giriş. Tariximiz yadelli işğalçıların aramsız hücumları, amansız savaşlar və çətinliklərlə doludur. Azərbaycan xalqı əsrlər boyu saysız-hesabsız sınaqlardan keçmiş, hər dəfə öz azadlığını, milli kimliyini, adət ənənələrini, hərbi ənənəsini, mədəniyyətini qoruyaraq tarix səhnəsində layiqli yer tutmağı bacarmışdır. Ata-babalarımızın bizə miras qoyduğu qəhrəmanlıq ənənələri bu gün də ruhumuzda, tariximizdə və hərbi strategiyamızda yaşayır. Bu zəngin və şərəfli irs bizim milli qürurumuzun təməlidir. Babəklərdən Cavad xanlara, Koroğlu dastanlarından müasir dövrün qəhrəmanlarına qədər uzanan bu yol, bir xalqın mübarizə əzminin, vətən sevgisinin və azadlıq eşqinin bariz nümunəsidir. Onların hər biri bir qəhrəmanlıq nümunəsi, bir irs, bir məktəbdir. Bu çətin, amma eyni zamanda şərəfli yol isə bu gün – müstəqil Azərbaycanın qüdrətli Ordusu ilə davam etdirilir. Məhz bu şəxsiyyətlərin və onların silahdaşlarının misilsiz xidmətləri sayəsində müasir Azərbaycan Ordusunun bünövrəsi qoyulmuşdur.

Tarixi qəhrəmanlıq səhifələrimiz təkcə keçmişi əks etdirmir, həm də gələcək nəsillər üçün yol göstərən bir mayakdır. Azərbaycan gəncliyi bu qəhrəmanlıq ruhu ilə böyüyür, tarixini öyrənir, vətəni qorumağın müqəddəs bir borc olduğunu anlayır.

Zaman keçdikcə şanlı hərb tariximizin qəhrəmanlıqlarla dolu səhifələri yazılmışdır. Tarix boyu formalaşmış və inkişaf etmiş hərbi ənənələrimiz təkcə döyüş meydanlarında deyil, həm də hərb elminin formalaşmasında öz sözünü demiş, beləliklə də, hərb tariximizin araşdırılması, öyrənilməsi və təbliğinə böyük zəmin yaranmışdır.

33 illik tarixi olan Azərbaycan Hərb tarixi muzeyi milli-mənəvi dəyərlərimizin, hərb tariximizin həqiqətlərinin, döyüş meydanlarında qazanılan təcrübənin və qələbənin, qədim dövrdən bugünədək döyüşlərdə istifadə olunmuş hərbi texnika, silah və sursat nümunələrinin toplanması, tədqiqi və cəmiyyətin bütün yaş qruplarına geniş təbliği sahəsində əməli iş aparır.

Azərbaycan Hərb tarixi muzeyi Azərbaycan Respublikası Müdafiə Nazirinin 1992-ci il oktyabrın 29-da “Müstəqil Dövlətlər Birliyinin VI Ordu Qarnizonunun “Döyüş Şöhrəti” Muzeyinin Təhvil Alınması haqqında 418 №-li əmrinə əsasən” 1992-ci il dekabr ayının 10-da keçmiş "Salyan Kazarması” deyilən, indiki "Qızıl Şərq” hərbi şəhərciyi adlanan ərazidə təşkil olunmuşdur [3, v.1].

Təhvil-təslim zamanı “Döyüş şöhrəti” muzeyindən alınan eksponatlar bütünlüklə sovet ordusunun tarixinə aid idi [3, v.1]. I Qarabağ müharibəsinin başlandığı ərəfədə fəaliyyətə başlayan muzeydə ilk illər tariximizin müxtəlif dövrlərinə aid eksponatların toplanılması və komplektləşdirilməsi işi həyata keçirilmişdir. Belə ki, muzeyin əməkdaşları respublikada fəaliyyət göstərən arxiv, kitabxana və

müxtəlif rayonlara ezamiyyətlərə göndərilmiş, Azərbaycan tarixi və onun tərkib hissəsi olan hərb tarixi ilə bağlı foto, sənəd nümunələri və xatirə əşyaları əldə olunaraq muzeyin fonduna təhvil verilmişdirlər. Bu işdə muzeyə Müdafiə Nazirliyi, Heydər Əliyev Fondu, Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Antropologiya İnstitutu, Respublika və Bakı şəhər Veteran Şuraları, H.Aslanov adına Ordu, İdeoloji İş və Mədəniyyət Mərkəzi və respublikada fəaliyyət göstərən tarix profilli muzeylər yaxından köməklik göstərmişdirlər [21].

Toplama işində muzeyin elmi işçilərinin aparmış olduğu tədqiqatlar əsasında muzeyin emalatxana hissəsində hazırlanan qədim və orta əsrlər dövründə insanların istifadə etdikləri soyuq silah nümunələrinin əslinə yaxın mulyajları, o cümlədən Azərbaycan ərazisində mövcud olmuş dövlətlərin yadellilərə qarşı həyata keçirdiyi döyüş əməliyyatlarından bəhs edən rəsm əsərləri, sərkərdələrimizin portretləri böyük rol oynamışdır. Hal-hazırda muzeyin qədim, erkən və son orta əsrlər dövründə stendlərdə nümayiş olunan eksponatların, diaramaların, rəsm əsərlərinin böyük hissəsini həmin tədqiqatların məhsulu olan eksponatlar təşkil edir.

1992-2007-ci illərdə toplama işi bir qədər də genişləndirilərək muzeyin elmi işçiləri (mərhum t.ü.f.d. Əsgər Əliyev, Ərəstun Baxşəliyev və b.) AMEA-nın Arxeologiya və Antropologiya İnstitutu ilə birlikdə müxtəlif rayonlarda aparılan ekspedisiyalara cəlb olunmuş, oradan tapılmış eksponatların bir hissəsinin İnstitut tərəfindən muzeyə hədiyyə qismində təqdim olunmasında böyük dəstək nümayiş etdirmişdirlər [7, s.5].

2007-ci ildən Muzeyin elmi-tədqiqat fəaliyyətinin genişləndirilməsi məqsədi ilə müxtəlif qurumlarda çalışan tarixçi və muzeyşünas alimlərdən təşkil olunmuş elmi-metodiki şura fəaliyyət göstərir. AMEA-nın Tarix və Etnoqrafiya İnstitutundan mərhum t.e.d. professor, Mirheydər Mirzəyev, t.ü.f.d., professor, Prezident mükafatçısı Hacı Həsənov, t.e.d. Nərminə Əmirbəyova, t.ü.f.d. Vahid İsmayılov, t.ü.f.d., dosent Zəfər Kərimov, Arxeologiya və Antropologiya İnstitutundan t.ü.f.d. Əsgər Əliyev, BDU-nun dosenti, t.e.d. Nuru Məmmədov, Rusiyalı tədqiqatçı alim mərhum professor Rudolf İvanov, tarix elmləri doktorları Pərvin Dərəbadi, Qasım Hacıyev, Oqtay Əfəndiyev və başqa görkəmli alimlərlə muzeyin elmi metodiki şurasının üzvləri kimi elmi iş fəaliyyətinin yüksəldilməsi, muzey fondunun eksponatlarla zənginləşdirilməsi məqsədi ilə geniş və hərtərəfli işin təşkil olunmasında yaxından istirak etmişdilər [7, s.5].

Azərbaycan Hərb Tarixi Muzeyi Açıq və daxili olmaqla 2 ekspozisiyadan ibarətdir. Muzeyin ən maraqlı bölmələrindən biri "Açıq səma altında ekspozisiya"sıdır. Bu ekspozisiya Azərbaycan Respublikası Müdafiə Nazirliyinin 324 nömrəli əmrinə əsasən 2004-cü il iyulun 12-də yaradılmışdır [14; 15; 16; 17; 18].

Muzeyin geniş ərazisi – 2 hektarlıq meydan – elə təşkil olunmuşdur ki, ziyarətçi sadəcə baxmır, həm də hiss edir**,** yaşayır və anlayır**.** Ekspozisiyanı gəzən insanların böyük bir qismi özlərini sanki döyüş meydanında hiss etdiklərini qeyd edirlər. Nələr yoxdur bu meydanda? – İkinci Dünya müharibəsində iştirak etmiş tanklar, artilleriya qurğuları, katyuşalar, helikopter nümunələri, I Qarabağ və II Vətən müharibələrində respublikanın müdafiəsində istifadə olunmuş onlarla hərbi texnika və qurğular. Bu silah və qurğular ölkəmizin ərazi bütövlüyünün qorunub saxlanılmasında böyük rol oynamışdır [5; 8; 11; 12; 13].

Açıq səma altında ekspozisiyada ümumilikdə, müxtəlif illərdə döyüş növbətçiliyinə qəbul edilmiş 130 adda silah, texnika və qurğular – tanklar, piyadanın döyüş maşınları, zirehli transportyor və döyüş kəşfiyyat maşınları, hava hücumundan müdafiə üzrə döyüş maşınları, zenit-raket qurğuları, döyüş-nəqliyyat helikoplerləri, təyyarələr, eləcə də hava hücumundan müdafiə sistemləri və digər hərbi vasitələr sərgilənir. Nümayiş etdirilən hərbi texnikaların hər birinin yanında məlumat lövhələri qoyulmuşdur. Bu lövhələr vasitəsilə texnikaların istehsal ili, istifadə sahələri, texniki xüsusiyyətləri, döyüşlərdə iştirakı haqqında məlumat əldə etmək olar. Ekspozisiya ziyarətçilərə Azərbaycanın hərb tarixi və Silahlı Qüvvələrin inkişaf mərhələləri haqqında dolğun təsəvvür yaratmaqla yanaşı, ölkənin müdafiə potensialını da əyani şəkildə nümayiş etdirir [1; 3,v.1-5].

Açıq səma altında ekspozisiyada sərgilənən ən qədim eksponat – XVIII əsrə aid dəniz toplarıdır. Bu nadir nümunələr qədimliyinə görə hər zaman ziyarətçilərin böyük marağına səbəb olur. Dəniz topları 2009-cu ildə Bakının Bayıl qəsəbəsində Bayraq Muzeyinin inşası zamanı aparılan qazıntılar za-

manı aşkar edilmişdir. 2024-cü ildə isə Mədəniyyət və Turizm Nazirliyinin yaxından dəsyəyi ilə təmir və bərpa olunaraq muzeyin ekspozisiyasında yerini almışdır [19, v.46; 20, v.13].

Dəniz topu kustar üsulla çuqundan hazırlanmış və onun çəkisi 30 funtdur. Top 20 kalibr uzunluğundadır, yəni lüləsinin uzunluğu istifadə olunan top gülləsinin 20 diametri qədərdir. Bu tip toplar əsasən bombardıman gəmilərində, avarların altında yerləşdirilirdi. Dəniz topları XIX əsrin ortalarına qədər dəniz döyüşlərində əsas atəş vasitəsi kimi istifadə olunmuşdur. [23].

"Açıq səma altında ekspozisiya"da nümayiş olunan texnikaların böyük bir hissəsi İkinci Dünya müharibəsi, Birinci Qarabağ müharibəsi və İkinci Vətən müharibəsində döyüş əməliyyatlarında iştirak etmiş, müharibənin canlı şahidlərinə çevrilmişdir.

Ekspozisiyada 5 ədəd tank yer alır. Onların arasında xüsusi yer tutan **T-34 tankı**, İkinci Dünya müharibəsi dövründə iki dəfə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş, tank qoşunları general-mayoru Həzi Aslanovun məşhur 17 nömrəli tankıdır [5, v.2].

Sərgidə, həmçinin İkinci Dünya müharibəsində istifadə olunmuş SU-100, BM 13, M-30, ZİS-3, AZP-37 adlı texnikalar nümayiş etdirilir. Bunlardan ən maraqlısı İS-3 tankıdır. İkinci Dünya müharibəsinin sonunda SSRİ tərəfindən istehsal olunan və müharibədən sonrakı dövrdə Sovet ordusunun güc simvoluna çevrilən ağır tank modelidir. Adını Sovet lideri İosif Stalindən almış bu tank, xüsusilə dizaynı və döyüş gücü ilə dövrünün ən qorxulu zirehli texnikalarından biri hesab edilirdi. El arasında belə bir əfsanə dolaşır ki, İkinci Dünya müharibəsi başa çatdıqdan sonra keçmiş müttəfiqlər getdikcə güclənməkdə olan SSRİ-yə qarşı müharibəyə başlamaq və həmin müharibədə əsir almanlardan da istifadə etmək istəyirlərmiş. Lakin 1945-ci il sentyabrın 7-də SSRİ-nin Berlində keçirilən qələbə paradında ilk dəfə özünün İS-3 tipli yeni, ağır tanklarını nümayiş etdirir. Bu tankları görən müttəfiqlər SSRİ-yə qarşı müharibəyə başlamaq fikrindən çəkinirlər [5, v.3].

Açıq Səma altında ekspozisiyanı I Qarabağ və II Vətən müharibələrində ordumuzun silahlanmasında iştirak etmiş T 72, T 62, T 55 tankları, PDM -1 və PDM 2 piyada döyüş maşınları, ZTR -80, ZTR-70, ZTR 60 zirehli döyüş maşınları, BRDM-2 zirehli kəşviyyat dozor maşını, ZSU-23-4 "Şılka", 9K-35 Strela10, KS-19, D-44, D-30, M-30, 2S9 "NONA", PM-38, ASU-85, Mİ 24 adlı artilleriya qurğuları və Mİ 8 helikopteri də bəzəyir. Bunlardan T 72 tankı, PDM-2 piyada döyüş maşını, ZTR 80 və ZTR 70 adlı zirehli döyüş maşınları, həmçinin BRDM-2 Zirehli kəşviyyat dozor maşını, D 30, PM-38 artilleriya qurğuları, S-125 zenit-raket kompleksi, AN 2 təyyarəsi və Mİ 24 və Mİ 8 adlı helikopterlər həm də II Vətən müharibəsində ordumuzun silahlanmasına daxil edilərək tarixi Zəfərimizin qazanılmasında yaxında iştirak etmişdirlər [5, v.12-22].

T-72 tankı - Rusiya tərəfindən 1960-cı illərin sonunda hazırlanmış və 1973-cü ildən etibarən istehsalına başlanmış əsas döyüş tankıdır. O, həm texniki göstəriciləri, həm də geniş yayılması baxımından dünyanın ən tanınmış və ən çox istifadə olunan tanklarından biridir. Çəkisi 41 ton olan T-72 125 mm-lik topu həm adi mərmilər, həm də idarə olunan raketlər ata bilir. T-72 tankı bu günə qədər 40-dan çox ölkədə İran–İraq (1980–1988), Körfəz (1991), Çeçenistan müharibələrində, Yaxın Şərq və Şimali Afrika münaqişələri, Ukrayna–Rusiya müharibəsi (həm Rusiya, həm də Ukrayna ordusunda istifadə olunub), həmçinin ölkəmizdə I Qarabağ və II Vətən müharibələrində istifadə olunmuşdur. Halhazırda tank modernləşdirilmiş versiyaları ilə (Türkiyə və İsrail mütəxəssislərinin yardımı ilə təkmilləşdirilmiş formada) ordu arsenalına daxildir [5, v.1].

Rusiya istehsalı olan PDM-2 (Piyada Döyüş Maşını-2) zirehli piyada döyüş maşını 1966-cı ildən tanınır. Onun orijinal adı BMP-2 (*Boevaya Mashina Pekhoty-2*) olsa da, Azərbaycanda və bir sıra digər postsovet ölkələrində PDM-2 kimi adlandırılır. PDM-2 əsasən piyada bölmələrinin döyüş meydanına daşınması, onlara atəş dəstəyi verilməsi və zirehli manevrlər üçün istifadə olunur. Əsasən Əfqanıstan (1979–1989), Çeçenistan müharibələrində, Yaxın Şərq münaqişələri, Ukrayna müharibəsi və I Qarabağ və II Vətən müharibələrində geniş istifadə olunmuşdur [5, v.3].

TR-70 və ZTR-80 sovet və postsovet ölkələrində geniş istifadə olunan, zirehli döyüş maşınlarıdır. Bu maşınlar əsasən piyada bölmələrinin döyüş meydanına daşınması, onları atəş dəstəyi ilə təmin etmək və qısa məsafəli döyüş əməliyyatlarında istifadə üçün nəzərdə tutulmuşdur. ZTR-70 (BTR-70) 1972–1980-ci illərdən, ZTR-80 (BTR-80) isə 1986-cı ildən bugünədək istehsal edilir [5, v.4-5].

Sovet İttifaqı tərəfindən istehsal edilən BRDM-2 zirehli kəşfiyyat və dozor maşının əsas rolu kəşfiyyat aparmaq, düşmənin mövqelərini izləmək, səngərlərdən keçmək və düşmənə qarşı qorunmanı

təmin etməkdir. Yüngül zireh, kiçik silah atəşi və şrapneldən qorunmanı təmin edən BRDM-2 suda da hərəkət etməyə qadirdir. Müasir dövrdə Kəşfiyyat, zirehli transportyor, komanda maşını, NBC (nüvə, bioloji, kimyəvi) kəşfiyyat və s. növləri də istehsal olunur [5, v.7].

D-30 Rusiya istehsalı olan 122 mm-lik haubitsa (yüksək bucaqlı atəş üçün nəzərdə tutulmuş) artilleriya qurğusudur. 1960-cı illərdən etibarən istehsal olunmağa başlamış və uzun illər ərzində bir çox ordular tərəfindən istifadə edilmişdir. D-30-un səciyyəvi xüsusiyyətləri üçtəkərli dayaq sistemi (360° döndürülə bilir), çox sabit və sürətli yerləşdirmə imkanı və mexaniki və optik nişangahlarla təchiz olunmasıdır [5, v.15].

Rusiya tərəfindən 1938-ci ildə istehsal olunmuş PM-38 120 mm-lik minaatan (mortira) sistemidir. Xüsusilə II Dünya müharibəsi dövründə geniş istifadə olunmuşdur. Sadə, etibarlı və yığcam quruluşlu olması, partlayıcı, tüstü, işıqlandırıcı və s. müxtəlif mina tipləri ilə istifadə olunurması onun əsas xüsusiyyətlərindəndir [5, v.21].

S-125 Rusiya tərəfindən 1961-ci ildə hazırlanmış qısa və orta mənzilli zenit-raket kompleksidir. Adətən "Neva" (yerüstü) və "Pechora" (ixrac variantı) kimi tanınır. Suriya, Misir, 1970-ci illərdə Yaxın Şərq münaqişələrində uğurla tətbiq olunmuşdur. 1999-cu ildə Yuqoslaviyada ABŞ-ın F-117 "Stealth" təyyarəsinin vurulmasında da S-125 kompleksi iştirak etmişdir. Texnikadan I qarabağ və II Vətən Müharibələrində geniş istifadə olunmuşdur [5, v.8].

AN-2 ("Annushka") Rusiyada konstruktor Antonov tərəfindən istehsal edilən çoxməqsədli, yavaş sürətli, piston mühərrikli, ikiqat qanadlı (biplan) təyyarədir. Dünyada ən uzun müddət istehsalda olan təyyarə kimi tanınır. İlk uçuşu 1947-ci il avqustun 31-də həyata keçirilmişdir. Əsasən Kənd təsərrüfatı, sərnişin daşıma, paraşüt hazırlığı, yük daşıma, yanğınsöndürmə və s istifadə olunur [5, v.12].

Hərbi Hava Qüvvələrinə məxsus Mi-24 "Hind" döyüş və transport helikopteri Rusiyanın Mil Moskva Helikopter Zavodu tərəfindən 1969-cu ildə istehsal edilmiş, 1972-ci ildən istifadəyə verilmişdir. Ön burun topu (12.7 mm və ya 23 mm-lik toplar), ATGM raketləri (məsələn, 9M17 "Phalanga", 9M114 "Shturm"), NURS (raket blokları), bəzi versiyalarda isə bombalarla silahlanır. Mi-24-dən tank əleyhinə döyüşdə və piyadanın hava dəstəyi üçün istifadə olunur. Əsasən Əfqanıstan müharibəsi, Afrika, Yaxın Şərq, Ukrayna, I Qarabağ və II Vətən Müharibələrində və s. - geniş istifadə olunmuşdur [5, v.13].

Mi-8 "Hip" — Transport, çoxməqsədli helicopteri Rusiyanın Mil Moskva Helikopter Zavodu tərəfindən1961-ci ildə istehsal edilmiş, 1967-ci ildə istifadəyə verilmişdir. Əsasən Əfqanıstan müharibəsi, Afrika, Yaxın Şərq, Ukrayna, I Qarabağ və II Vətən Müharibələrində və s. geniş istifadə olunmuşdur [5, v.13].

Yuxarıda haqqında məlumat verilən bu texnikalar, həm tarixi əhəmiyyətinə, həm də nadirliyinə görə daim ziyarətçilərin maraq obyektinə çevrilmişdir.

Azərbaycan Hərb tarixi muzeyinin daxili ekspozisiyası isə 2004-cü ildə bərpa edilərək istifadəyə verilən tarixi binada yerləşir. Bina ötən əsrin əvvəllərində hərbi məqsədlər üçün inşa olunmuşdur. 2007-2015-ci illər və 2018-2020-ci illərdə iki dəfə daxili ekspozisiyanın bədii-tərtibat işləri aparılmışdır. Daxili ekspozisiyada qədim dövrdən müasir dövrədək hərb tarixinin öyrənilməsinə, təbliğinə və vətənpərvərlik ideyalarının yüksəldilməsinə xidmət edən 13 zal fəaliyyət göstərir. Burada ümumilikdə, 5 mindən çox eksponat mühafizə və nümayiş olunur ki, onlardan 415 ədədi silah nümunələridir. Bu silah nümunələri tipoloji xüsusiyyətlərinə görə soyuq və odlu silahlara bölünür. Daxili ekspozisiyada 301 ədəd soyuq, 114 ədədi isə odlu silah nümunələri sərgilənir [4, v.17, 18, 23, 24, 25, 26, 27, 31, 32, 39, 50; 6].

Muzeyin ekspozisiyasında yerləşən daş baltalar, çapacaqlar, ox ucluqları, döyüş arabaları, ilk ordu tüfəng, müxtəlif silah növləri, müasir dövrə aid hərbi texnikaların maketləri, cümhuriyyət ordusunda piyada və süvari qoşun növü üçün nəzərdə tutulan silah nümunələri, 1991-1918-ci illəri əhatə edən müasir dövr zalında müxtəlif çaplı silah və sursat nümunələri muzeyə gələnlərin diqqətini daha çox cəlb edir [9; 21].

Muzeyin emalatxanasında hazırlanan qədim və erkən orta əsrlər dövrünə aid hərb sənətinin nümunələri, döyüş arabaları, arxeoloji qazıntılar nəticəsində aşkarlanmış soyuq silahlar - ox ucluqları, nizələr, qalxan və qılınclar və digər eksponatlar qədim və erkən orta əsrlər dövrü zalının ekspozisiyasında nümayiş olunur.

1847-1917-ci illər zalının XVIII-XIX əsrə aid dəhrə, XIX əsrə aid xəncər qını, ilk atıcı silahlardan 1863-cü il nümunəli “Albini-Baranov”, 1871-ci il nümunəli “Vetterli-Vitali” tüfəngi, 1898-ci il nümunəli “Mosin” karabini muzeyin maraqlı eksponatlarındandır.

1918-1920-ci illər zalını köhnə nümunəli karabin silahının maketləri, “TT” və “Naqan” tipli odlu silah nümunələri bəzəyir.

1920-39-cu illər zalında dövrə aid revolver "Naqan", həmçinin o dövrün güclü silah növü sayılan “Maksim” pulemyotu və s. nümayiş etdirilir.

“Azərbaycanlılar II Dünya müharibəsində” adlı zalda da dövrə aid silah nümunələri, şəxsi əşyalar muzeyin qiymətli eksponatları hesab olunur.

Daxili ekspozisiyanın Quru Qoşunları, Hərbi Hava Qüvvələri adlı Hərbi Dəniz Qüvvələri adlı zallarında da silah nümunələri mövzu ekspozisiya planına uyğun şəkildə yerləşdirilmişdir [10;11;12].

Muzeyin eksponatları arasında Azərbaycan Ordusunun tarixi Qələbəsi ilə başa çatan 44 günlük Vətən müharibəsində istifadə edilən odlu silah nümunələri də xüsusilə maraq doğurur.

2021-ci ilin aprelindən Vətən müharibəsində Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış Şanlı Qələbəyə həsr olunmuş “Zəfər” və “Antiterror” sərgilərində qəhrəman ordumuz tərəfindən Ermənistan ordusundan hərbi qənimət kimi götürülmüş “Faqot” buraxıcı qurğusu, “KORD” pulemyotu, M-93 snayper tüfəngi, kustar üsulla hazırlanmış dron, AQS qumbaraatanı, artilleriya qurğuları – minaatanlar və digər silahlar yer alıb [9; 14;15].

Azərbaycan Hərb tarixi muzeyi 2018-ci ildən Müdafiə Nazirliyini beynəlxalq tədbirlərdə də layiqincə təmsil edir. Belə ki, ADEX Beynəlxalq Müdafiə Sərgisində 2020-ci ildə "Azərbaycan silahının təkamülü", 2022-ci ildə "Zəfərimiz silahların izi ilə", 2024-cü ildə isə "Zəfərimiz ANBAAN!" adlı ekspozisiyalarla iştirak etmiş və ən çox ziyarətçisi olan sərgi kimi diplom və sertifikatlara layiq görülmüşdür [2, v.13, 27, 36].

Nəticə. Beləliklə, böyük qürur hissi ilə deyə bilərik ki, Azərbaycan Hərb tarixi muzeyi yalnız eksponatlarla zəngin sərgi salonu deyil, həm də xalqımızın döyüş ruhunu, qələbə əzmini nümayiş etdirən bir tərbiyə ocağıdır. Burada nümayiş olunan silah və hərbi texnikaların hər biri bir dövrün, bir müharibənin, bir qəhrəmanlıq tarixinin canlı şahidləridir. I Qarabağ və II Vətən müharibələrində qəhrəmancasına vuruşan, vətənin müdafiəsi uğrunda canını fəda edən igidlərimizin izi bu muzeyin hər bir guşəsində hiss olunur. Həmin texnikalar bu gün eksponat olsa da, vaxtilə düşmənə qarşı səngərlərdə vuruşmuş əsgərlərimizin silahdaşları olmuşdur. Onlar bir növ canlı tarix kimi tamaşaçılarla "danışır". Ordumuzun bu günkü qüdrəti keçmişin şanlı səhifələrinə söykənir. Tariximizin bu qəhrəmanlıq səhifələri, döyüş meydanlarında qazanılmış zəfərlər unudulmamalı, gələcək nəsillərə çatdırılmalıdır.

ƏDƏBİYYAT

1. Abbasov E. Azərbaycan Hərb tarixi muzeyinin 20 yaşı tamam oldu / Xalq qəzeti, 22 dekabr 2012-ci il, № 186 (20216).
2. Azərbaycan Hərb tarixi muzeyinin ADEX-2022 Beynəlxalq Müdafiə sərgisində iştirakına dair məktublar. // Azərbaycan Respublikası Müdafiə Nazirliyi. Azərbaycan Hərb tarixi muzeyi. Göndərilən sənədlərin qovluğu. İş № 6, cild II, İnv № 289. 21.06.2022 -30.12.2022, 284 v., v.13, v.27, v.36, v.97.
3. Azərbaycan Respublikası Müdafiə Nazirliyi. Azərbaycan Hərb tarixi muzeyinin Əmrlər qovluğu, İş №3, 01.01.1992-30.12.1992, 172 v., v.1-5.
4. Azərbaycan Respublikası Müdafiə Nazirliyi. Azərbaycan Hərb tarixi muzeyinin Təhvil-təslim Aktları qovluğu. İş № 25, cild № 1, 01.01.2025-30.12.2025. AHTM rəisi vəzifəsinin təhvil və qəbulu haqqında. Akt № 1989, 07.02.2025, v.17, 18, 23, 24, 25, 26, 27, 31, 32, 39, 50.
5. Azərbaycan Hərb tarixi muzeyinin Açıq Səma altında ekspozisiyasının siyahıyalınması jurnalı, Bakı, Hərbi nəşriyyat, 2024-cü il, 33v.
6. Azərbaycan Hərb tarixi muzeyinin daxili Ekspozisiya hissəsinin siyahıyalınması jurnalı. Bakı, Hərbi nəşriyyat, 2024-cü il, 570 v.
7. Azərbaycan Hərb tarixi muzeyinin Elmi heyətinin 1992-2024-cü illər ərzində elmi fəaliyyətinin hesabatı. Bakı, Hərbi nəşriyyat, 2024-cü il.73s.

8. Azərbaycan Hərb tarixi muzeyi 27-06-2023. - https://fact-info.az/18700-azerbaycan-herb-tarixi-muzeyi.html [19.03.2026].
9. Azərbaycan Hərb Tarixi Muzeyi: 31 illik tarix, 13 min eksponat – reportaj video. - https://azertag.az/xeber/azerbaycan_herb_tarixi_muzeyi_31_illik_tarix_13_min_eksponat____reportaj_video-2676421 [19.03.2026].
10. Əlioğlu Məhərrəm. İyirmi üç illiyini qeyd edəcək Azərbaycan Hərb tarixi muzeyi böyük inkişaf yolu keçib.Video. 11.02.2015. - https://azertag.az/xeber/iyirmi_uch_illiyini_qeyd_edecek_azerbaycan_herb_tarixi_muzeyi_boyuk_inkisaf_yolu_kechib_video-831368 [19.03.2026].
11. Hadıyev E. Eksponatların dili ilə danışan tarix... Azərbaycan Hərb tarixi muzeyində müxtəlif dövrlərə aid nümunələr var / Azərbaycan, 30 sentyabr, 2015-ci il, s.7.
12. Hərb tarixi muzeyinin yaradılmasından 23 il ötür // Azərbaycan ordusu, 12 dekabr 2015-ci il, s.4/
13. Hüseynli Orxan. Hərb Tarixi Muzeyinə ekskursiya. Azərbaycan Ordusu, 21 noyabr, 2018. - https://mod.gov.az/az/pre/24967.html [19.03.2026].
14. Hüseynova L. Hərb tariximizi yaşadan muzey| (fotolar). Azərbaycan Ordusu, 9 dekabr 2024. - https://ordu.az/az/news/341996/herb-tariximizi-yasadan-muzey%7C-5-minden-cox-eksponat-muhafize-ve-numayis-olunur-fotolar [19.03.2026].
15. Hüseynova L. Hərb tariximiz yaşadan muzey // Azərbaycan orsudu, 27 noyabr 2024-cü il, № 89 (2900), s.4-5.
16. İsabalayeva İ. Çaxmaq daşından pilotsuz uçuş aparatlarına qədər... Hərb Tarixi Muzeyi xalqımızın hərbi salnaməsinin parlaq daşıyıcısıdır // Azərbaycan, 11 iyul 2021-ci il, s.4.
17. Müdafiə Nazirliyi tərəfindən Azərbaycan Hərb Tarixi Muzeyi mediatur təşkil olunub. - https://525.az/news/195299-azerbaycan-herb-tarixi-muzeyine-mediatur-teskil-olunub. [19.03.2026].
18. 11 minə yaxın eksponatı ilə zəngin olan Azərbaycan Hərb Tarixi Muzeyi – FOTOREPORTAJ. - https://oxu.az/ordu/11-mine-yaxin-eksponati-ile-zengin-olan-azerbaycan-herb-tarixi-muzeyi-fotoreportaj. [19.03.2026].
19. XVIII əsrə aid dəniz toplarının Azərbaycan Hərb tarixi muzeyinə gətirilməsi haqında Müdafiə Nazirliyinin Katibliyinə ünvanlanmış məktub // Azərbaycan Respublikası Müdafiə Nazirliyi. Azərbaycan Hərb tarixi muzeyi. Göndərilən sənədlərin qovluğu. İş № 6, cild II, İnv № 289. 21.06.2022 - 30.12.2022, 71 v, v. 46.
20. XVIII əsrə aid dəniz toplarının Azərbaycan Hərb tarixi muzeyinə gətirilməsi ilə bağlı məktub. - Azərbaycan Respublikası Müdafiə Nazirliyi. Azərbaycan Hərb tarixi muzeyi. Xaric olan sənədlərin qovluğu. İş № 5, cild II, İnv № 239. 05.01.2021 -30.12.2021, 380 v, v.13.
21. Sultanova Aysel. Azərbaycan hərb tarixinin araşdırılması və öyrənilməsi ordu quruculuğunun tərkib hissəsidir 18.12.2013. - https://olimpnews.az/post/2680/azerbaycan-herb-tarixinin-arashdirilmasi-ve-oyrenilmesi-ordu-quruculuğunun-terkib-hissesidir-2680. [19.03.2026].
22. Şirinli E. Bakının mərkəzindəki tanklar–fotoreportaj. - https://web.archive.org/web/20190504121854/https://oxu.az/war/70426. [19.03.2026].
23. Морская артиллерия. - https://topwar.ru/229140- morskaja-artillerija.html. [19.03.2026].

ГЮЛЬШАН ГУСЕЙНОВА
Начальник отдела Военной истории
Военно-Исторического Музея Азербайджана, к.и.н.

МУЗЕЙ ВОЕННОЙ ИСТОРИИ АЗЕРБАЙДЖАНА – ЖИВАЯ ИСТОРИЯ В ОРУЖИИ И ТЕХНИКИ

В статье дан анализ истории создания и развития Музея Военной истории Азербайджана, информация о его коллекции старинного вооружения и техники, основании достоверных исторических документальных источников. Азербайджанский военно-исторический музей – это не только выставочный зал, полный экспонатов, но и исторический центр, демонстрирующий боевой дух и решимость нашего народа во время защиты свободы и независимости своей Родины.

Представленные здесь образцы техники и вооружения – живые свидетели эпохи, войны и героической истории нашей Родины. Материальные культурные памятники, представленные в обеих экспозициях музея, когда-то были боевыми товарищами наших воинов, сражавшихся с врагами. Они «общаются» с посетителями, как живая история.

Ключевые слова: Музей военной истории Азербайджана, внутренняя экспозиция, экспозиция под открытым небом, коллекция оружия, холодное оружие, огнестрельное оружие, снаряжение.

GULSHAN HUSEYNOVA
PhD, Head of the Military History Department
Military History Museum of Azerbaijan

THE MUSEUM OF MILITARY HISTORY OF AZERBAIJAN – LIVING HISTORY IN WEAPONS AND EQUIPMENT

The article provides an analysis of the history of the creation and development of the Museum of Military History of Azerbaijan, information about its collection of ancient weapons and equipment, the basis of reliable historical documentary sources. The Azerbaijan Military History Museum is not only an exhibition hall full of exhibits, but also a historical center demonstrating the fighting spirit and determination of our people during the defense of the freedom and independence of their homeland. The samples of equipment and weapons presented here are living witnesses of the era, war and heroic history of our homeland. The material cultural monuments presented in both expositions of the museum were once comrades in arms of our soldiers who fought with enemies. They “communicate” with visitors as living history.

Keywords: Museum of Military History of Azerbaijan, indoor exposition, open-air exposition, collection of weapons, bladed weapons, firearms, equipment.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 19 mart 2026-cı il.
Məqalənin çapa qəbul olunma tarixi: 21 may 2026-cı il.
Rəyçilər: t.ü.f.d. Hacı Həsənov, t.e.d. Qabil Əliyev.

UOT 9

NELLA MƏMMƏDOVA
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
https://orcid.org/0009-0005-2430-4644
nellammmdova@gmail.com

ŞƏMKİR ORTA ƏSR ŞƏHƏRİNİN QORUQ STATUSUNDA MÜHAFİZƏ YOLLARI VƏ ARXEOPARKIN TƏŞKİLİ İMKANLARI

DOI: https://doi.org/10.36719/2708-065X/113/258-262

Məqalədə orta əsr Şəmkir şəhərciyinin Dövlət Tarix-Mədəniyyət Qoruğu kimi qorunması və inkişaf perspektivləri müzakirə olunur. Son onilliklərdəki arxeoloji tədqiqatların təhlili əsasında abidənin tarixi və arxeoloji xüsusiyyətləri, stratiqrafik quruluşu, istehkam sisteminin xüsusiyyətləri və maddi mədəniyyət aşkar edilmişdir. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq formalaşmış obyektin mühafizəsinin hüquqi mexanizmlərinə, həmçinin aşkar edilmiş memarlıq konstruksiyalarının təhlükəsizliyi problemlərinə xüsusi diqqət yetirilir. Passiv qorunmadan ərazinin arxeopark formatında aktiv muzeyləşdirilməsinə keçid zərurəti əsaslandırılır. Elmi qoruma, turizm infrastrukturunun yaradılması, arxeoloji tədqiqatların davam etdirilməsi və yerli icmanın cəlb edilməsi daxil olmaqla hərtərəfli bir yanaşma təklif olunur. Belə bir nəticəyə gəlinir ki, abidənin mədəni turizm sisteminə inteqrasiyası və mərhələli muzeyləşdirilməsi tarixi orijinallığın qorunub saxlanmasını və obyektin Azərbaycanın tarixi-mədəni irsinin mühüm mərkəzi kimi davamlı inkişafını təmin edəcəkdir.

Açar sözlər: Şəmkir, orta əsr şəhəri, arxeoloji irs, dövlət qoruğu.

Giriş. Şəmkir şəhərinin yaxınlığında Şəmkirçay çayının sol sahilində yerləşən orta əsr Şəmkir şəhəri Cənubi Qafqazda şəhər mədəniyyətinin formalaşması proseslərini əks etdirən Azərbaycanın əhəmiyyətli arxeoloji abidələrindən biridir. Qədim ticarət yollarının kəsişməsindəki əlverişli mövqeyi sayəsində şəhər XII – XIII əsrin əvvəllərində ən yüksək zirvəyə çatan bölgənin iqtisadi və inzibati sistemində mühüm rol oynamışdır. Abidənin çox qatlı stratiqrafiyası onu şəhərləşmə, istehkam tikintisi və orta əsrlər cəmiyyətinin sosial-iqtisadi inkişafının öyrənilməsi üçün dəyərli bir mənbəyə çevirir.

Arxeoloji tədqiqatların əhəmiyyətli həcminə baxmayaraq, şəhərin hərtərəfli qorunması, muzeyləşdirilməsi və müasir şəraitə uyğunlaşdırılması məsələləri kifayət qədər inkişaf etməmiş qalır. Qazıntılar zamanı memarlıq strukturlarının açıqlanması onların məhv edilməsi proseslərini gücləndirir ki, bu da obyektin dövlət tarixi və mədəni Qoruğu kimi fəaliyyət göstərməsi şəraitində elmi cəhətdən əsaslandırılmış qorunma strategiyasının hazırlanmasını tələb edir.

Məqalənin məqsədi Şəmkir şəhər yerinin səmərəli mühafizəsi yollarının təhlili və arxeopark formatında onun təşkili imkanlarının əsaslandırılmasıdır. Tədqiqatın elmi yeniliyi abidənin mədəni irsin idarə edilməsi sisteminin elementi kimi konservasiya, muzeyləşdirmə və davamlı inkişafı birləşdirən inteqrasiya olunmuş qorunma modelinin təklifi ilə hərtərəfli nəzərdən keçirilməsindən ibarətdir.

Abidənin tarixi və arxeoloji xüsusiyyətləri. Orta əsr Şəmkir şəhərinin sistematik arxeoloji tədqiqatları 2006-cı ildə T.M.Dostiyevin rəhbərliyi altında aparılmışdır. Qazıntıların ilk mərhələlərinin nəticələri müəllifin nəşrlərində ümumiləşdirilmişdir, burada stratiqrafik müşahidələr, açıq sahələrin düzəni və maddi mədəniyyətin xüsusiyyətləri təqdim olunur [9, s.35]. Sahə işləri zamanı ayrı-ayrı sektorlarda 6-7 m-ə çatan mədəni təbəqələşmələrin güclü çoxqatlı strukturu aşkar edilib ki, bu da yaşayış məntəqəsinin uzun və fasiləsiz mövcudluğunu göstərir.

Orta əsr şəhərinin sahəsi ən yüksək çiçəklənmə dövründə XII – XIII əsrin əvvəllərində təxminən 30 hektar idi [8, s.50-51]. Planlaşdırma quruluşuna möhkəmləndirilmiş qala (Narınqala) və bitişik məhəllələr daxil idi. Müdafiə strukturlarının təhlili göstərir ki, XI əsrin qala divarları bölgənin istehkam qurma ənənələrinə uyğun olaraq bişmiş kərpicdən, çay daşından və əhəng məhlulundan tikilmişdir. Bu cür müdafiə sistemləri Azərbaycanın orta əsr şəhərlərinin xarakterik xüsusiyyəti idi [10, s.23-24].

Qazıntı materialları inkişaf etmiş sənətkarlıq və ticarət fəaliyyətlərini göstərir. Şəmkirin regional iqtisadi əlaqələrdə fəal iştirakını təsdiq edən metal məmulatları, şüşə qabların fraqmentləri, müxtəlif

keramika və numizmatik tapıntılar aşkar edilmişdir. Bu məlumatlar Orta əsr Azərbaycan şəhər mədəniyyətinin ümumi xüsusiyyətlərinə uyğundur.

1230-cu illərdə şəhərin dağıdılması məlumatları orta əsr mənbələrində qeydə alınan Monqol istilası ilə əlaqələndirilir [7, s. 13-14]. Arxeoloji olaraq bu mərhələ yanğın izləri və məhv edilmiş tikinti kompleksləri ilə əks olunur. Sonrakı dövrdə, XIX əsrdə., hərbi hadisələr zamanı istehkamların qalıqları yenidən zərər görmüş, bu da Rusiya istehsalı olan artilleriya və güllə tapıntıları ilə təsdiqlənir.

Dərinliyi 11 m-dən çox olan kütləvi daş pilləkən və zindan kimi şərh olunan dəmir mötərizəli kamera da daxil olmaqla yeraltı tikililər xüsusi maraq doğurur. Bu obyektlər şəhərin inkişaf etmiş mühəndislik infrastrukturunu göstərir. Əhəmiyyətli bir memarlıq abidəsi, epiqrafik yazı ilə təsdiqlənən 1099/1100 tarixli minarədir. Onun memarlıq xüsusiyyətləri Azərbaycanın memarlıq tarixinə dair yazılarda təhlil edilir.

Beləliklə, arxeoloji tədqiqatların nəticələri göstərir ki, Şəmkir şəhəri şəhər mədəniyyətinin erkən dövrlərdən son orta əsrlərə qədər təkamülünü əks etdirən çox qatlı kompleksdir. Stratiqrafik doyma, inkişaf etmiş istehkam sistemi və maddi mədəniyyətin müxtəlifliyi abidəyə müstəsna elmi əhəmiyyət verir və onu Azərbaycan ərazisində urbanizasiya proseslərinin öyrənilməsinin əsas obyektlərindən biri hesab etməyə imkan verir.

Abidənin hüquqi statusu, mövcud vəziyyəti və qorunmasının əsas istiqamətləri. 22 oktyabr 2019-cu il tarixində Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Qədim Şəmkir şəhəri" Dövlət Tarix-Mədəniyyət Qoruğunun yaradılması haqqında qərar imzalanmış və bu arxeoloji obyektin mühafizə sisteminin institusionalizasiyasında əsas mərhələ olmuşdur [4]. Bu Sərəncama uyğun olaraq, orta əsr şəhərciyinin ərazisi rəsmi olaraq xüsusi dövlət himayəsi altında olan obyektlərin siyahısına daxil edilmişdir. Hüquqi mühafizə rejimi mədəni irs obyektlərinin istifadəsi, qorunması və bərpası qaydasını tənzimləyən "Mədəniyyət haqqında" Azərbaycan Respublikası Qanununun (1998) [1]və "tarixi və mədəni abidələrin qorunması haqqında" qanunun (1998) müddəalarına əsaslanır [2].

Qoruq statusunun verilməsi mühafizə zonalarının qurulmasını, şəhərciyin ərazisində təsərrüfat fəaliyyətinin qadağan edilməsini, abidənin vəziyyətinin daimi monitorinqinin aparılmasını və mədəniyyət orqanlarının və yerli icra strukturlarının idarələrarası koordinasiyasını təmin etmişdir. Mədəniyyət Nazirliyi yanında xüsusi mədəni irsin qorunması xidmətinin yaradılması arxeoloji obyektlərin qorunması üçün institusional mexanizmləri gücləndirdi [11]. Ümumilikdə, bu tədbirlər tarixi-mədəni irsin qorunması üzrə dövlət siyasətinə uyğundur və bu siyasət çərçivəsində indiyədək altı mindən çox tarix və memarlıq abidəsi mühafizə altına alınmışdır [4].

Normativ hüquqi bazanın formalaşmasına və nəzarətin gücləndirilməsinə baxmayaraq, aşkar edilmiş arxeoloji strukturların təhlükəsizliyi problemi aktual olaraq qalır. Əsrlər boyu yeraltı olan tikililər arxeoloji parçalanmadan sonra atmosfer amillərinin intensiv təsirinə məruz qalır. Kərpic işlərinin aşınması, əhəng məhsulunun məhv edilməsi, eroziya və strukturların tədricən tökülməsi baş verir. Bu cür proseslər bölgənin əksər orta əsr arxeoloji obyektləri üçün xarakterikdir və müasir qorunma metodlarının istifadəsini tələb edir.

Bu baxımdan abidənin qorunmasının prioritet istiqaməti elmi cəhətdən əsaslandırılmış konservasiya və açıq strukturların qismən bərpasıdır. Ziyarətçilərin qəbulundan əvvəl memarlıq qalıqlarının uzunmüddətli sabitliyini təmin etmək lazımdır. Arxeoloji qoruma təcrübəsi, enjeksiyonun qorunması üsulu ilə hörgünün möhkəmləndirilməsini, tərkibində tarixi olanlara yaxın olan əhəng məhlulunun istifadəsi, gücləndirici elementlərin quraşdırılmasını və ən həssas ərazilər üzərində qoruyucu örtüklərin quraşdırılmasını əhatə edir. Bu tədbirlər fiziki məhv proseslərini azaltmağa və strukturların orijinallığını qorumağa imkan verir.

Müdaxilənin icazə verilən formalarından biri anastiloz hesab edilə bilər. Anastiloz - irsin qorunması üzrə beynəlxalq təcrübəyə və Venesiya Xartiyasının prinsiplərinə uyğun olaraq, abidənin dağıdılmış hissələrinin mövcud orijinal elementlər əsasında elmi cəhətdən əsaslandırılmış şəkildə bərpasıdır.

Bu metodun istifadəsi, qala divarının və ya yaşayış binalarının ayrı-ayrı hissələrinin yenidən qurulması zamanı, materialın qorunma dərəcəsi bərpanın etibarlılığını təmin etməyə imkan verdikdə mümkündür. Bu yanaşma eyni zamanda obyektin tarixi həqiqiliyini qorumağa və ekspozisiya ifadəliyini artırmağa imkan verir.

Beləliklə, Şəmkir şəhər yerinin müasir mühafizə sistemi dövlət tənzimlənməsinin hüquqi mexanizmlərini və konservasiyanın elmi metodlarını birləşdirir. Bununla birlikdə, abidənin qorunmasının daha da səmərəliliyi hərtərəfli bərpa tədbirləri proqramının ardıcıl həyata keçirilməsindən, strukturların vəziyyətinin daimi monitorinqindən və arxeoloji sahənin mədəni irsin idarə edilməsinin sabit modelinə inteqrasiyasından asılıdır.

Arxeopark infrastrukturunun formalaşması, tədqiqatların davam etdirilməsi və sosial-mədəni məkana inteqrasiya. Orta əsr Şəmkir şəhərinin ərazisinin inkişafının növbəti məntiqi mərhələsi əsasən qoruyucu fəaliyyət rejimindən Aktiv muzeyləşməyə və arxeoparkın yaradılmasına keçiddir. Arxeopark, obyektlərin elmi qorunmasını ziyarətçilər üçün əlçatan bir İnfrastrukturun təşkili ilə birləşdirən arxeoloji irsin qorunması və təqdimatının hərtərəfli forması kimi başa düşülür.

İnfrastrukturun formalaşdırılması arxeoloji konstruksiyaların təhlükəsizliyi, müşahidə platformalarının təchiz edilməsi, hasarların və təhlükəsizlik sistemlərinin quraşdırılması, habelə Azərbaycan, rus və ingilis dillərində informasiya stendlərinin yerləşdirilməsi nəzərə alınmaqla düşünülmüş yürüyüş yolları sisteminin yaradılmasını nəzərdə tutur. Layihənin vacib elementi açıq səma altında nümayiş üçün nəzərdə tutulmayan tapıntıların nümayiş etdiriləcəyi muzey pavilyonu olan ziyarət mərkəzi olmalıdır. Ekspozisiya konsepsiyası şəhərin inkişafının bütün mərhələlərini,yəni erkən arxeoloji üfüqlərdən orta əsrlərin çiçəklənmə dövrünə qədər əhatə etməli və ərazinin tarixi dinamikasının vahid qavranılmasını təmin etməlidir.

Muzey təfsirinin müasir metodları qədim şəhər planlarının, rəqəmsal 3D yenidənqurma işlərinin, multimedia panellərinin və interaktiv vizual vasitələrin istifadəsini əhatə edir. Bu, arxeoloji qalıqların parçalanmasını kompensasiya edəcək və strukturların ilkin görünüşü haqqında daha əyani bir fikir verəcəkdir. Arxeoparkın infrastrukturuna park sahəsi, istirahət yerləri, naviqasiya nişanları, sanitariya obyektləri və mütəşəkkil Turizm qruplarının qəbulu üçün şərait daxil edilməlidir. Bu model Azərbaycanın arxeoloji mərkəzlərində uğurla həyata keçirilib ki, bu da elmi baza və turizm infrastrukturunun birləşməsinin effektivliyini təsdiqləyir [3].

Arxeoparkın yaradılması elmi tədqiqatların dayandırılmasını nəzərdə tutmur. Bunun əksinə olaraq, obyektin ictimai formatda işləməsi ziyarətçilərin müəyyən fəsillərdə arxeoloqların işini izləmək imkanına malik olduğu "açıq qazıntı" təcrübəsinin inkişafına kömək edə bilər. Bu günə qədər şəhər ərazisinin 15%-dən azı tədqiq edilmiş, yaşayış məhəllələrinin planlaşdırılması, şəhər qapılarının lokallaşdırılması və erkən dövrlərin stratiqrafiyasının dəqiqləşdirilməsi məsələləri həll olunmamış qalır. Bu baxımdan muzey konsepsiyası mərhələli olmalı və yeni sahələr öyrənildikcə ekspozisiya zonalarının tədricən genişləndirilməsini təmin etməlidir. Zəruri şərt sistematik Foto fiksasiya, rəqəmsal Xəritəçəkmə, Elektron Məlumat bazasının yaradılması və tədqiqat məlumatlarının uzunmüddətli saxlanmasını təmin edən elmi arxivin formalaşdırılmasıdır.

Layihənin inkişafının əhəmiyyətli istiqaməti arxeoparkın regional turizm marşrutlarına inteqrasiyasıdır. Şərab təsərrüfatlarının və Alman müstəmləkə irsi obyektlərinin ərazi yaxınlığı bölgənin turizm potensialını artırır və hərtərəfli mədəni və tarixi marşrutlar yaratmağa imkan verir. Arxeoloji parkların beynəlxalq təcrübəsi göstərir ki, hətta əsas infrastruktur ziyarətçi axınını əhəmiyyətli dərəcədə artıra və beynəlxalq turizm tərəfindən böyük maraq göstərilməsinə səbəb ola bilər.

Layihənin davamlılığının əsas amili yerli icmanın iştirakıdır. Şəmkir rayon sakinlərinin arxeoparkın fəaliyyətinə cəlb edilməsi iş yerlərinin yaradılmasına (bələdçilər, muzey əməkdaşları, mühafizə, xidmət personalı), kiçik sahibkarlığın inkişafına, məktəblilər üçün təhsil proqramlarının təşkilinə və mədəni turizm sahəsində yerli mütəxəssislərin hazırlanmasına kömək edir [5]. Mədəni irs obyektlərinin idarə edilməsi təcrübəsi göstərir ki, abidənin dəyərini dərk etdikdə vandalizm və qanunsuz qazıntı səviyyəsi əhəmiyyətli dərəcədə azalır və əhali onun qorunması prosesində fəal iştirak edir.

Beləliklə, Şəmkir şəhər yerinin bazasında arxeoparkın formalaşması infrastruktur inkişafı, elmi tədqiqatların davam etdirilməsi, turizm inteqrasiyası və layihənin sosial adaptasiyası da daxil olmaqla çoxsəviyyəli prosesdir. Bu yanaşmanın mürəkkəbliyi abidənin həqiqiliyinin qorunması ilə Cəmiyyətə açıqlığı arasında bir tarazlıq təmin edir.

Nəticə. Orta əsr Şəmkir şəhəri Azərbaycan ərazisində şəhər mədəniyyətinin çoxəsrlik təkamülünü əks etdirən unikal arxeoloji kompleksdir. Təhlil göstərir ki, abidənin effektiv qorunması yalnız dövlət müdafiəsinin hüquqi mexanizmləri, elmi əsaslı konservasiya, ardıcıl muzeyləşdirmə və yerli icma-

nın fəal iştirakı ilə mümkündür. Arxeopark modelinə keçid, obyektin yalnız bir tədqiqat sahəsindən çoxfunksiyalı bir mədəniyyət və təhsil mərkəzinə çevrilməsinə imkan verir. Eyni zamanda, əsas şərt tarixi həqiqiliyin qorunması və həddindən artıq yenidənqurmanın yolverilməzliyi olaraq qalır. Elmi dəstək, ekspozisiyanın mərhələli şəkildə genişləndirilməsi və müasir vizuallaşdırma texnologiyalarının tətbiqi layihənin davamlı inkişafını təmin edəcəkdir. Arxeoparkın regional turizm marşrutlarına və bölgənin sosial-iqtisadi quruluşuna inteqrasiyası tarixi kimliyin möhkəmlənməsinə və mədəni turizmin inkişafına töhfə verən yeni bir mədəniyyət klasterinin formalaşması üçün ilkin şərtlər yaradır.

Beləliklə, təklif olunan tədbirlərin həyata keçirilməsi "qədim Şəmkir şəhəri" nin ölkənin aparıcı tarixi-mədəniyyət mərkəzlərindən birinə çevrilməsinə imkan verəcək, onun arxeoloji irsinin gələcək nəsillər üçün qorunub saxlanılmasını təmin edəcək və eyni zamanda onu müasir mədəni və elmi məkana daxil edəcək.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının “Mədəniyyət haqqında” Qanunu : 6 fevral 1998-ci il, № 430-IQ // Azərbaycan Respublikasının Qanunvericilik Toplusu. - 1998. - №2. - Maddə 70. - URL: http://www.e-qanun.az/framework/430 [müraciət tarixi: 17.10.2025].
2. Azərbaycan Respublikasının “Tarixi və mədəni abidələrin mühafizəsi haqqında” Qanunu : 10 aprel 1998-ci il, № 470-IQ // Azərbaycan Respublikasının Qanunvericilik Toplusu. - 1998. - № 4. - Maddə 213. - URL: http://www.e-qanun.az/framework/470 [müraciət tarixi: 17.10.2025].
3. Azərbaycan Respublikası Prezidentinin Fərmanı. “Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin yaradılması haqqında” : 18 dekabr 2014-cü il // Azərbaycan Respublikasının Qanunvericilik Toplusu. - 2014. - № 12. - Maddə 1576.
4. AZƏRTAC. “Azərbaycanda 6 mindən çox tarix və memarlıq abidəsi dövlət qeydiyyatına alınıb”. - Bakı, 18.04.2022. - URL: https://azertag.az [müraciət tarixi: 17.10.2025].
5. 1news.az. “Qədim Şəmkir şəhəri Dövlət Tarix-Mədəniyyət Qoruğu yaradıldı”. - Bakı, 22.10.2019. - URL: https://1news.az [müraciət tarixi: 17.10.2025].
6. Авалов Э. В. Архитектура Азербайджана. Средние века. - Баку : Элм, 1980. - 112 с.
7. Баладзори А. Китаб Футух аль-Булдан. - М. : Изд-во АН СССР, 1927. - 192 с.
8. Достиев Т. М. Средневековый город Шемкир. - Баку: Чатыоглу, 2013. - 180 с.
9. Достиев Т. М. Шемкирская археологическая экспедиция (2008–2010). - Баку: Элм və Təhsil, 2010. - 35 с.
10. Мусали Х. Археологические памятники Азербайджана в средние века. - Баку : Элм, 2009. - 150 с.
11. Trend News Agency. Президент Илхам Алиев подписал распоряжение о создании Государственных историко-культурных заповедников «Чыраггала-Шабран», «Древний город Шамкир» и «Средневековый город Агсу». - Баку, 22.10.2019. – URL: https://az.trend.az [дата обращения: 17.10.2025].

НЕЛЛА МАММАДОВА
Азербайджанский Государственный Университет Культуры и Искусств

ПУТИ ОХРАНЫ ПОСЁЛКА ШАМКИР В СТАТУСЕ ЗАПОВЕДНИКА И ВОЗМОЖНОСТИ ОРГАНИЗАЦИИ АРХЕОПАРКА

В статье рассматриваются перспективы сохранения и развития средневекового городища Шамкир как государственного историко-культурного заповедника. На основе анализа археологических исследований последних десятилетий выявлены историко-археологические особенности памятника, его стратиграфическое строение, особенности системы укреплений и материальной культуры. Особое внимание уделяется правовым механизмам охраны объекта, сформированным в соответствии с законодательством Азербайджанской Республики, а также проб-

лемам безопасности выявленных архитектурных конструкций. Обоснована необходимость перехода от пассивной охраны к активной музеефикации территории в формате Археопарка. Предлагается комплексный подход, включающий сохранение науки, создание туристической инфраструктуры, продолжение археологических исследований и вовлечение местного сообщества. Делается вывод, что интеграция памятника в систему культурного туризма и поэтапная музеефикация обеспечат сохранение исторической самобытности и устойчивое развитие объекта как важного центра историко-культурного наследия Азербайджана.

Ключевые слова: Шамкир, средневековый город, археологическое наследие, государственный заповедник.

NELLA MAMMADOVA
Azerbaijan State University of Culture and Arts

WAYS TO PROTECT THE VİLLAGE OF SHAMKİR İN THE STATUS OF A NATURE RESERVE AND THE POSSİBİLİTY OF ORGANİZİNG AN ARCHEOPARK

The article examines the prospects for the preservation and development of the medieval settlement of Shamkir as a state historical and cultural reserve. Based on the analysis of archaeological research in recent decades, the historical and archaeological features of the monument, its stratigraphic structure, features of the fortification system and material culture have been identified. Special attention is paid to the legal mechanisms for the protection of the facility, formed in accordance with the legislation of the Republic of Azerbaijan, as well as to the safety problems of the identified architectural structures. The necessity of the transition from passive protection to active museification of the territory in the format of an Archeopark is substantiated. An integrated approach is proposed, including the preservation of science, the creation of a tourist infrastructure, the continuation of archaeological research and the involvement of the local community. It is concluded that the integration of the monument into the cultural tourism system and phased museification will ensure the preservation of the historical identity and sustainable development of the site as an important center of historical and cultural heritage of Azerbaijan.

Keywords: Shamkir, medieval city, archaeological heritage, state nature reserve.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 19 mart 2026-cı il.
Məqalənin çapa qəbul olunma tarixi: 21 may 2026-cı il.
Rəyçilər: t.ü.f.d. Anar Ağalarzadə, t.e.d. Əmrah Dadaşov.

UOT 930

AYDIN MƏMMƏDOV
Bakı Dövlət Universitetinin Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru
aydin.mmmdov.67@ mail.ru

TƏDQİQAT ANALİTİKASININ AKTUAL MƏSƏLƏLƏRİNƏ DAİR

DOI: https://doi.org/10.36719/2708-065X/113/263-274

Məqalədə tarix elmi kontekstində tədqiqat analitikasının aktual məsələləri təhlil edilir. Tarix elmində analitik işin metodoloji əsasları, səbəb-nəticə təhlilinin xüsusiyyətləri, fakt və şərh arasındakı əlaqə və tarixi proseslərin yenidən qurulmasında konseptual modellərin rolu araşdırılır. Tarixi biliklərin obyektivliyinə, tədqiqatçı mövqeyinin təsirinə, rəqəmsallaşma, mənbə bazasının genişləndirilməsi kontekstində analitik vasitələrin transformasiyasına diqqət yetirilir. Məqalədə ənənəvi tarixi tədqiqat metodlarını müasir analitik strategiyalarla birləşdirən elmlərarası yanaşmanın zəruriliyi əsaslandırılır. Tədqiqat analitikasının tarixi proseslərin qanunauyğunluqlarının daha dərindən başa düşülməsinə və keçmişin şərhinin elmi əsaslandırılmasına mühüm töhfə verməsi qənaətinə gəlinir. Məqalə tədqiqatın analitikası sahəsində Azərbaycan tarixşünaslığında ilk elmi məqalədir.

Açar sözlər: tədqiqat analitikası, tarixi proses, səbəb-nəticə təhlili, tarixi biliyin obyektivliyi, tarix fəlsəfəsi, elmlərarası yanaşma, analitik metodlar.

Giriş. Bəşər tarixinin məzmununu ibtidai cəmiyyətdən çağdaş dövrümüzə qədər olan insanın ətraf mühit, təbiət və cəmiyyətlə bağlı bütün fəaliyyət sahələrinin özündə əks etdirən böyük zaman intervalında artıq baş vermiş və baş verməkdə davam edən proseslərin məzmunu təşkil edir. Bu gün cərəyan edən hadisələrə əslində keçmişdə baş vermiş hadisələrin məntiqi davamı kimi yanaşsaq, o zaman gələcəkdə cərəyan edəcək hadisələrin əsas səbəb-nəticə əlaqələrinin mahiyyət etibarilə keçmişdən qaynaqlandığı qənaətinə gəlmiş olarıq. Elə sözügedən məqalədə də tarixi faktlar, bu faktların real həyatda baş verməsini labüd edən səbəb-nəticə əlaqələrinin mahiyyəti, onların üzərində aparılan analizin və onun əsas məqsədinin, yaxud məqsədlərininin nədən ibarət olması araşdırılır. Məqalənin yazılmasında əsas məqsəd icə saysız-hesabsız, qalaq-qalaq faktlardan ibarət tarix elminin öyrənilməsində və tədqiqində tarixin analitikası deyilən bu idrak fəaliyyətinin əhəmiyyəti, onun hansı fərqli, spesifik xüsusiyyətlərə malik olması, hansı metodlardan ibarət olması kimi məsələləri konkret faktlarla tədqiq və təqdim etməkdir.

Bəşər övladı yarandığı ilk gündən onun fiziki varlığına qarşı yönələ biləcək hər hansı bir təhlükədən, təbiətin sərt qüvvələrindən özünü qorunmaq üçün ətraf aləmdə mövcud olan bütün gerçəklikləri axtarıb-aramaq, öyrənmək məcburiyyətində idi. Məhz bu axtarışlar insan övladını əmək alətlərini hazırlaya bilmək üçün ən zəruri biliklərlə təmin etdi, ona odu, alovu ram etmək, qoruyub saxlamaq kimi vərdişlər aşıladı, nəticə etibarı ilə heyvanlar aləmindən ayıraraq istehsal prosesinə qoşulmaq imkanlarını reallığa çevirdi. Əslində insanın təbiətlə ilk ünsiyyətindən, ilk münasibətlər sistemi qurmaq üçün etdiyi ilk cəhətlərdən başlayan məhz bu axtarışları bəşər övladının apardığı ilk tədqiqat prosesi kimi də səciyyələndirmək olar. Məhz bu mənada tədqiqat bəşər övladının məşğul ola bildiyi ən faydalı, səmərəli əqli fəaliyyət növüdür desək yanılmarıq. Ümumiyyətlə, tədqiqat, yaxud tədqiqat prosesi dedikdə nəzərdə tutulur? Tədqiqat dünya, bizi əhatə edən ətraf aləmdəki gerçəkliklər, hadisələr və ya obyektlər haqqında yeni biliklər əldə etmək üçün məqsədyönlü, sistemli axtarış, araşdırma aparmaq prosesdir.

Tədqiqatın məqsədləri: ətraf gerçəklikdə bizim şüurumuzdan asılı olmayaraq obyektiv sürətə mövcud olan bütün hadisə və proseslərin baş vermə səbəblərini, qanunauyğunluqları müəyyənləşdirmək, izah etmək həmin hadisə və proseslərə dair ən müxtəlif fərziyyələri sınaqdan keçirmək, onlarla bağlı yeni nəzəriyyələrin və ya praktik bilgiləri əldə etməklə, mövcud problemlərin ən optimal həlli yollarını taparaq elmi biliklərin əhatə dairəsini daha da genişləndirmək,onun inkişafına nail olmaqdır.

Başqa sözlə desək, tədqiqat hər hansı bir problemin həlli yollarını araşdırıb tapmaq üçün mütəşəkkil bir axtarış prosesidır.

Tədqiqat prosesinin mahiyyəti. Tədqiqat prosesinin mahiyyətini ilk növbədə problemlərin həlli yolu ilə əldə edilən səmərəli nəticələrdən konkret biliyə doğru ardıcıl və əsaslı inkişafa nail olmaqdır. Bu, sadəcə məlumat toplamaq deyil, əksinə: problemi müəyyənləşdirmək, fərziyyə irəli sürmək, metodlar seçmək, məlumatları təhlil etmək və nəticə çıxarmağa yönəli məqsədyönlü əqli fəaliyyətdır. Ona görə də istənilən tədqiqat prosesinin səmərəli və uğurlu nəticələnməsi, qarşıya qoyulan problemin mahiyyətini açmaq, tədqiqatçının gəldiyi elmi nəticələri sübut etmək üçün zəruri faktların ardıcıl sürətdə üzə çıxarılması vacib amil kimi dəyərləndirilir. Eynilə, başqa bir şəxs tərəfindən ətraf gerçəkliyin bu və ya digər hadisəsi, obyekti haqqında söylədiyi söz, fikr, fikirləri, ifadə, və yaxud da ifadələri anlamaq, təyin olunmuş istiqamətə, sahəyə "zehni müraciət" və müvafiq dil ifadələrində təyin olunmuş elementlərin və əlaqələrin dərk edilməsi, başa düşülməsi ilk növbədə fikrin təmərküzləşməsini və təfəkkür prosesinin aktiv surətdə işə salınmasını tələb edir. Əslində bu proses insan beyininin, insan təfəkküründün bəşər tarixinin ilk günlərindən yaşadığımız zəmanəyə qədər unikal bir şəkildə formalaşması, təkamülü ilə bağlı əqli əməliyyatlar sistemidir. Bu sistem empirik problemlərin həll zamanı öz əhəmiyyətini daha qabarıq göstərir. Empirik problemləri həll edərkən, adətən sxemlər, ontoloji təsvirlər (Ontologiya – fəlsəfənin varlığın və mövcudluğun təbiətini öyrənən bir qoludur. Termin olaraq ilk dəfə antik yunan filosofu Aristotel tərəfindən istifadə olunmuş, mahiyyət və məzmununa dair elmi fikirlər sonralar Martin Haydegger, Jan-Pol Sartr kimi filosoflar tərəfindən fəal şəkildə inkişaf etdirilmişdir. – A.M.). Ontoloji rəsmlərə gəlincə, onlar varlığın, mövcudluğun elmi-fəlsəfi, fundamental mahiyyətinə dair: Varlıq mövcudluq nədir və onun mahiyyəti nədən ibarətdir? Gerçəklik nədir? İnsanın dünyada yeri rolu nədən ibarətdir? Tanrı, həyat, ölüm və zaman nədir? kimi sualları araşdıran sənət əsərləridir. Qeyd etmək lazımdır ki, varlıq və mövcudluqla bağlı problemlərin həllinə yönləri ixtiyarı sənət əsəri ontoloji məzmun kəsb edərək, ontoloji təsvir ola bilər. – A.M.) və s. daxil olmaqla bir neçə müxtəlif növ alətlərdən istifadə edirik və problemin həllini və müvafiq olaraq öyrənilən obyektin təsvirini əldə etmək üçün onları müxtəlif yollarla birləşdiririk.

Sxemlərin və biliklərin həm tək bir növ daxilində, həm də müxtəlif növlər arasında birləşməsi, bir tərəfdən, öyrənilən obyektin ümumi intuitiv təsvirinə uyğun olaraq, digər tərəfdən isə alətlərin özlərinin daxili məntiqinə uyğun olaraq baş verir. Məsələn, alətlər empirik materialda və öyrənilən empirik obyektdə müəyyən vahidləri və elementləri təcrid edən müəyyən elementar sxemlər təyin edirsə, onda onların daha mürəkkəb struktur formasiyalara birləşməsi alətlər sistemi daxilində mümkün və əvvəlcədən müəyyən edilmiş kombinasiyaların məntiqinə uyğun olaraq baş verir.

Bu halda, öyrənilən empirik reallığın vahid təsvirinə nail olmaq üçün bu elementar sxemlər arasında müəyyən əlaqələr qururuq. Bundan əlavə, əgər bəzi alətlər obyekt sahəsinin funksional bölgüsünü müəyyən edirsə, məsələn, başqa bir növ alətlər funksional olaraq fərqləndirilən elementlərin daxili məzmununun morfoloji strukturunu təsvir edirsə və ya müxtəlif funksional yerlərin "məzmunları" arasındakı əlaqələri əks etdirirsə, onda obyektin təsvirləri və onun haqqında biliklər də müxtəlif növlərin təsvirləri ilə onlarda ifadə olunan məzmun arasındakı müəyyən əlaqələri və ümumi, ortaq cəhətləri əks etdirə bilər. Bütün bu ortaq cəhətlər, asılılıqlar və əlaqələr, eləcə də onların təsvirləri alətlərdə əvvəlcədən müəyyən edilməyib və obyektin vahid təsvirini əldə etmək zərurətindən əmələ gəlir. Bu zaman yaddaş fenomeninə söykənən unikal əqli düşüncə sistemi, əslində əqli fəaliyyətimizi haqqında söhbət gedən obyektə yönəltmədən, həmin obyekt və yaxud da hadisə haqqında əvvəllər malik olduğumuz biliklər sistemini xatırlamadan və yeni informasiyanı əldə etdiyimiz, topladığımız informasiya ilə səbəb-nəticə əlaqələrinə əsaslanaraq müqayisəli təhlil, analiz, sintez, etmədən heç bir analitik təhlildən söhbət gedə bilməz. Beləliklə, başqa sözlə desək, ümumiyyətlə, təyin olunmuş sahədə sırf həmin sahəyə aid spesifik xüsusiyyətləri müəyyənləşdirmədən, konkret detallar haqqında malik olduğunuz biliklər sisteminə müraciət etmədən və sözügedən problem haqqında artıq nəyi, nələri bilib, (onun elementlərini, əlaqələrini və obyektiv əlaqələrini müəyyən etmədən) nəyi, nələri bilməməyimizi aydınlaşdırmadan analitik təhlil praktik olaraq mümkün deyildir.

Qeyd etmək lazımdır ki, bu zaman aldığımız informasiyaya aid olan müəyyən elementlərin konkret xüsusiyyətlərinin bizim üçün mübahisəli olub, olmaması tam təbii və obyektiv bir prosesdir. Belə bir halla, proseslə elmin demək olar ki, bütün sahələrində qarşılaşmaq mümkündür. Məsələn,

ixtiyari tarixi hadisə ilə bağlı hər hansısa bir konkret faktla qarşılaşdığımız, yaxud onunla bağlı hər hansı bir məlumatı eşitdiyimiz zaman beynimiz onu qavramağa, dərk etməyə cəhd göstərir. Lakin, bu məlumatın, normal olaraq obyektiv şəkildə, düzgün məlumat kimi qəbul edilməsi onun təhlilini, analitikasını tələb edir. Başqa sözlə desək, bu beynimizin hətta hər hansı bir təhlil prosesindən sonra düzgün olaraq qəbul etdiyi faktın obyektiv bir fenomen olması anlamına gəlmir. Hər şeydən əvvəl bu həmin faktla işləyən insanın ümumi dünyagörüşündən, elmi - analitik, akademik və məntiqi təfəkkürə malik olub - olmamasından, faktla bağlı malik olduğu məlumatlar toplusunun kəmiyyət və keyfiyyət xüsusiyyətlərindən, fakta olan münasibətindən, ona hansı dərəcədə obyektiv yanaşa bilməsi mədəniyyətindən, və bir çox digər obyektiv - subyektiv amillərdən ciddi surətdə asılıdır. Belə ki, keçmişdə baş verən hadisələr həmişə, ən yaxşı hallarda, elm adamlarının, alimlərin və ya geniş ictimaiyyətin özünə spesifik xüsusiyyətləri ilə obyektiv şəkildə tam təfərrüatları, dolğunluğu ilə təqdim olunmur və heç kim zəmanət vermir ki, sabah, birisi gün, bir ay sonra, müəyyən bir vaxtdan sonra əvvəlki informasiyadan fərqli, həmin informasiya oxşar və yaxud da ona daban-dabana zidd olan, onu təkzib edən yeni məlumatlarla qarşılaşmayacağıq, həmin obyekt haqqında sosial-iqtisadi, ictima-siyasi, tarixi-mənəvi və bir çox digər amillərdən asılı olaraq getdikcə daha çox yeni məlumat almayacağıq, əldə etməyəcəyik.

Texniki elmlərə aid başqa bir misala müraciət edək. Məsələn, hər hansı birimizə təyyarə təkəri haqqında nələri bilirik, - deyə sual olunsa o zaman, təbii ki, şüurumuzda ilk növbədə yaxud gözlərimiz önündə, adi təkər haqqında malik olduğumuz ümumi biliklər toplusu canlanacaq. Tədqiqatçıların fikrincə, təkər təxminən eramızdan əvvəl 3500–4000-ci illərdə (təxminən 5500–6000 il əvvəl) icad edilmişdir. Əksər alimlər onun mənşəyini Mesopotamiyaya – şumerlərə aid edirlər, burada onlar əvvəlcə dulusçu çarxı kimi, daha sonra isə arabalar üçün istifadə edilmişdir. Karpat dağlarında təkərlə bağlı aşkar edilən arxeoloji artefaktlara əsasən bir qisim alimlər arasında olan digər fikir müxtəlifliyinə, nəzəriyyələrə görə isə təkərin özündən, yaxud təkər elementlərindən daha erkən dövrlərdə istifadə edilmişdir. Təbii ki, təkərlər haqqında bütün bu ümumiləşdirilmiş biliklər bizə bəzi faydalı məlumatlar versə də konkret olaraq təyyarə təkərinin spesifik xüsusiyyətlərini xarakterizə etmir. Qeyd etmək lazımdır ki, təyyarə təkərlərinin elə spesifik xüsusiyyətləri vardır ki, bunlar olmadan bu çox ağır hava gəmisi - layneri yerə enə bilməz. Çünki uçuş-enmə zolağına toxunduqda bu təkərlər dərhal 50 km/saat sürətlə fırlanmağa başlayır ki, bu da ən güclü sürtünməyə səbəb olur. Güclü sükunət-sürtünmə qüvvəsi isə təkərlərin son dərəcə yüksək dərəcədə qızmasına səbəb olur ki, bu da onların ani olaraq, bir saniyədə partlamasına səbəb ola bilər. Amma xoşbəxtlikdən bu baş vermir. Niyə? Çünki təyyarənin təkərləri ən qısa müddətdə isinən adi hava ilə deyil azot qazı ilə doldurulur. Bu o deməkdir ki, azota məxsus xüsusiyyətlər və onu adi havanın fiziki-kimyəvi xüsusiyyətlərindən fərqləndirən spesifik cəhətləri ilə baş verə biləcək arzu olunmaz hadisələri əngəlləyən bütün hadisələrin zəruri səbəblər toplusunu təşkil edir. Təyyarə təkərləri ilə əlaqəli analitik prosesi daha dərindən araşdırsaq, təkərlərin niyə hələ yerdə bu qədər yüksək istiliyə, 10 km hündürlükdə isə, soyumağa (Bu yüksəklikdə havanın temperaturu -65-70°-yə düşür. – A.M.) və donmağa qarşı davamlı olduğunu anlamalı olarıq. Bu o deməkdir ki, təyyarə təkərləri fərqli bir texnologiyadan istifadə edilərək hazırlanır. Əslində, təyyarə təkərləri çoxqatlı, xüsusi işlənmiş materiallardan hazırlanır ki, bu da təyyarələrin yerə 350-400 dəfə enişi zamanı təhlükəsizliyinin təmin edə bilir. Beləliklə, texniki elmlər sahəsində apardığımız analitik əməliyyat humanitar elmlər üzrə ixtisaslaşmış bir tarixçi üçün də faydalı ola bilər. Məsələn, İkinci Dünya Müharibəsi zamanı müxtəlif cəbhələrdə döyüşən təyyarələrin texniki imkanları haqqında ən adi, elementar məlumatlara malik olmayan bir tarixçi müharibə edən tərəflərin hava üstünlüyünü obyektiv şəkildə izah edə bilməz. Bu nümunəyə əsasən belə bir nəticəyə gələ bilərik ki, analitika ilk növbədə tədqiqatçıdan ciddi surətdə problemlərə çoxşaxəli yanaşma tələb edir.

Qeyd etmək lazımdır ki, əslində biz bütün həyatımız boyu ixtiyarı ən mürəkkəb ictimai-siyasi hadisələrdə iştirakımızdan tutmuş, ta ki, ən adi məişət hadisələrinə olan münasibətimizədək hər şeydən əvvəl beynimizdə həmin hadisələrlə bağlı təhlillər, analizlər aparırıq. Məsələn, hər hansı bir teatr tamaşasına getməzdən əvvəl, şüuraltı olaraq, bir neçə vacib aspekti: janr, tamaşanın konkret olaraq hansı rejissor tərəfindən səhnəyə qoyulması, səhnə tərtibatının hansı rəssam tərəfindən işlənilməsi, hansı bəstəkarın musiqi bəstələməsi, rolların hansı aktyorlar tərəfindən oynanılması, aktyorların peşəkarlığı, səhnədə hansı zaman müddətində oynanılması, tamaşaya bizdən qabaq baxan tamaşaçıların

rəyləri, bizdə oyada biləcək psixoloji ab-hava, əhval-ruhiyyə və bir çox bu kimi vacib məqamlar haqqında düşünməli, təhlillər aparmalı oluruq. Və yaxud, özümüzə smartfon alarkən onun performansını, dizaynını, qiymətini, kamera xüsusiyyətlərini və blogger rəylərini nəzərə alaraq, qərarımızı götürqoy edir, bu amilləri intuitiv olaraq reytinqlər və qiymət kimi bizim üçün ən vacib olan kateqoriyalar üzrə qruplaşdırırıq. Almaq istədiyimiz əşya haqqında əldə etdiyimiz hər bir məlumat, hər bir xırda detal, hər bir meyar seçimiz haqqında çoxsaylı və qeyri-dəqiq fikirləri konkretləşdirməyə və daha düzgün qərar verməyimizə kömək edir.

Hadisələrin təhlili və analitikasının əhəmiyyəti ondadır ki, müəyyən bir hadisəyə xas olan bir neçə əlamət sayəsində həmin hadisənin mahiyyətini məntiqi əməliyyatlar aparmaq vasitəsi ilə üzə çıxarmağa, izah etməyə imkan yaradır. Başqa sözlə desək, analitika, o cümlədən tarixi analitika sayəsində cəmiyyətdə baş verən ixtiyari ictimai-siyasi proseslərin, o cümlədən tarixi hadisələrin vacib və fərqli əlamətlərinin səciyyələndirən bir çox xüsusiyyətlərini müəyyən zaman kəsiyində formalaşaraq meydana gəlməsinə təsir edən bir neçə daha sadə və daha az aşkar element vasitəsilə izah edilə bilməsi mümkün olur. Buradan belə bir qənaətə gəlmək olar ki, tarixi analitika təhlili və başa düşülməsi daha asan olan bir neçə əsas aspekti vurğulamaqla məlumat bankını sadələşdirməyə imkan verir. Tədqiqat, o cümlədən tarixə dair, analitik proseslərin aparılması, yaxud tarixi analitika vaxtı ikən baş vermiş bu və yaxud digər prosesə dair bütün həqiqətləri həmişə asan, tam, dolğun və real şəkildə üzə çıxara bilmir. Lakin, ilk baxışda görünməyən müxtəlif, lakin bir-biri ilə ciddi səbəb-nəticə əlaqələrinə malik xüsusiyyətlərini obyektiv şəkildə üzə çıxarmaq üçün, tədqiqinə hər zaman ehtiyac duyulan, müəyyən mövcud göstəriciləri gündəmə gətirərək, elmi dövriyyəyə daxil edə bilir. Təbii ki, tarixçi hadisələri təhlil edərkən həmin hadisəni doğuran ən müxtəlif, saysiz səbəblərlə qarşılaşır. Bu saysız səbəblərin hər birisi konkret tarixi hadisənin ən müxtəlif fraqmentləri, bəzən hətta ən kiçik, o cümlədən müxtəlif məqamları üçün daşıdığı informasiya yükünün miqyası, diapazon və əhəmiyyətinə görə son dərəcə mühüm əhəmiyyət kəsb edir. Hər bir səbəb özündə hadisənin son nəticəsini ehtiva etdiyinə görə səbəb-nəticə əlaqələri ilə işləmək bacarığı analitik proseslərdə tədqiqatçıdan tələb olunan ən mühüm vacib dəyərlərdən, bacarıqlardan biri hesab olunur.

Səbəb-nəticə əlaqələrindən istifadə metodu. Səbəb-nəticə əlaqələrinin tədqiqat analitikasında tətbiqi digər metodların da səmərəli istifadəsinə əlverişli zəmin yaradır. Səbəb - nəticə əlaqələrindən yararlanmaq hər şeydən öncə faktların sadə təsvirindən onların məzmunun izahına şərait yaratdığına, imkan verdiyinə görə analitik proseslərin aparılması kimi əqli fəaliyyət əməliyyatlarında də son dərəcə mühüm, vacib rollardan birini oynayır, çünki bu, Sadə dillə desək, təhlil hadisələrin siyahısı deyil, onların niyə və nəyə gətirib çıxardığının izahıdır. Məsələn, tarix elminə dair tədqiqatların analitikası prosesində səbəb - nəticə əlaqələrindən istifadə sadəcə hadisələrin, xronoloji faktların ardıcıl düzümü deyil düzümü deyil, onların nə üçün baş verməsi məsələlərini, mahiyyətini araşdırmaq üçün mühüm açar rolunu oynayır.

Təbii ki, tarixçi hadisələri təhlil edərkən həmin hadisəni doğuran ən müxtəlif, saysiz səbəblərlə qarşılaşır. Bu saysız səbəblərin ayrı - ayrılıqda hər biri konkret tarixi hadisənin ən müxtəlif fraqmentləri, bəzən hətta ən kiçik, o cümlədən müxtəlif məqamları üçün daşıdığı informasiya yükünün miqyas, diapazon və mənasına görə son dərəcə mühüm əhəmiyyət kəsb edir. Məhz belə hallarda analitik proseslərin malik olduğu potensialdan faydalanmaqla tarixçi hadisələrin baş verməsinə təsir edən bütün çoxsaylı səbəblərin içərisindən mahiyyət etibarı ilə bütün səbəblərə xas olan və yaxud bütün səbəblərdə rast gəlinə biləcək elementləri özündə ehtiva edə bilən vacib səbəbi üzə çıxara bilir.

Analitik proseslər nəticəsində məlum olur ki, bir çox hallarda, hadisələrin baş verməsinə təsir edən bir çox səbəblərin müxtəlifliyi yalnız eyni xüsusiyyətə xas olan vahid bir səbəbdə birləşir, yaxud həmin çoxsaylı səbəbləri yalnız bir xüsusiyyət birləşdirir. Məsələn, Hind okeanından Pireney yarımadasına qədər Ərəb xilafəti tərəfindən fəth edilən geniş ərazidə yaşayan çoxsaylı xalqların üsyanlarının əsas səbəblərindən biri geniş kütlələrin xilafətin vergi siyasətindən narazılığı idi. Məhz bu narazılıqlar Ərəb Xilafətinin təməllərinin zəifləməsinə səbəb oldu. Nəticədə, IX əsrin ikinci yarısı və XI əsrin əvvəllərində Ərəb Xilafətinin dağılması nəticəsində xilafətinin bir çox yerində, o cümlədən Azərbaycan ərazisində Məhz bu narazılıqlar Ərəb Xilafətinin təməllərinin zəifləməsinə səbəb oldu. Nəticədə, IX əsrin ikinci yarısı və XI əsrin əvvəllərində Ərəb Xilafətinin dağılması nəticəsində xilafətinin bir çox yerində, o cümlədən Azərbaycan ərazisində Şirvanşahlar, Sacilər, Salarilər, Şəd-

dailər, Rəvvadilər kimi müstəqil feodal dövlətləri yarandı. müstəqil feodal dövlətləri yarandı. Yaxud, yoxsulluq, maddi çətinlik və ya kütlələr arasındakı digər vəziyyət Avropanı bürüyən kəndli üsyanları dalğasına səbəb oldu: 1358-ci il Jakeriya, 1381-ci il Uot Tayler üsyanı, 1524-1526-cı illərdə Almaniyada kəndli müharibəsi, 1549-cu ildə Robert Kettin Şərqi İngiltərədəki üsyanı, 1606-1607-ci illərdə İvan Bolotnikovun üsyanı və s.

Buradan belə bir qənaətə gələ bilərik ki, istənilən ictimai-siyasi vəziyyətdə hadisənin baş verməsi səbəbinin əsas xüsusiyyəti, (yaxud səbəbin səbəbi. A.M.) həmişə konkret amillərlə bağlı olmasındadır. Deməli, ümumiyyətlə, konkret kontekstdən kənarda heç bir səbəb yoxdur. Məsələn, Qəznəvilər dövlətində mövcud olan daxili ziddiyyətlər, xalqın hakim dairələrdən narazılığı, o cümlədən türk qulamlarının səlcuqlara rəğbət bəsləmələri 1040 -cı il my ayının 23-də baş vermiş Dəndənəkan döyüşündə Səlcuqların qəznəvilər üzərində qazandıqları qələbənin konkret və əsas səbəbləri kimi dəyərləndirilə bilər. Belə ki, Qəznəvi dövlətinin ən güclü hökmdarlarından biri olan Sultan Mahmudun hakimiyyəti dövründə uzun sürən müharibələrin süni suvarma sistemlərini praktik olaraq məhv etdiyi, yeritdiyi ağır vergi siyasətinin isə onsuz da sosial-iqtisadi çatışmamazlıqlar səbəbindən əziyyət çəkən xalqın vəziyyətini daha da ağırlaşdırdığı üçün dövlətin tərəqqisi və inkişafı zahiri, formal xarakter daşıyırdı. Təbii ki, belə bir şəraitdə dövlət kütlələr arasında sosial-siyasi dəstəyini çox itirir, məmur özbaşınalığı güclənir, dövlətin iqtisadi və müdafiə gücü isə kəskin şəkildə azalır. Məhz yuxarıda sadalanan səbəblər çoxluğunun mahiyyətcə bir-birinə oxşarlığı, eyniyyət təşkil etməsi, ümumi, vahid məcrada çulğalaşması əsas səbəbin xüsusiyyətləri kimi qeyd oluna bilər. Bu zaman biri-biri ilə eyniyyat təşkil edən səbəblər və onların oxşar xüsusiyyətlərini riyazi çoxluğun elementləri kimi də qeyd etmək olar. Bir riyazı çoxluğun ən azı bir elementi digər bir çoxluqda da olarsa bu bu ortaq element yaxud xüsusiyyət, həmin çoxluqlar arasında funksional asılılığın göstəricisi kimi çıxış edir. Belə bir şəraitdə, riyazi analiz proseslərinə istinad etsək, əminliklə deyə bilərik ki, bir riyazi çoxluğun xüsusiyyəti digər çoxluqlarda da mövcuddur; O zaman hər hansı bir hadisənin səbəblərini xarakterizə edən eyni xüsusiyyətin və ya xüsusiyyətlər çoxluğunun oxşar səbəb və xüsusiyyətlərini digər hadisələrdə də mövcud olduğunu fərz edə bilərik. Məsələn, Sultan Mahmudun hakimiyyəti dövrünə xas olan xüsusiyyətləri və yaxud da həmin xüsusiyyətlərin daşıdığı, xarakterizə etdiyi səbəbləri digər Qəzinəvi sultanlarının da hakimiyyəti dövründə axtarıb tapa bilərikmi? Məsələn, Sultan Mahmudun (998-1030) hakimiyyəti dövründə dövlət idarəçiliyində və hakimiyyətdə mövcud olan boşluqları qardaşı Sultan Məsudun (1030-1041) hakimiyyəti dövründə də müşahidə etmək olur. Belə ki, hakimiyyəti dövründə dövlət idarəçiliyinə az maraq göstərən Sultan Məsud siyasi səhnədə öz mövqeyini möhkəmləndirmək üçün əsasən saray məmurlarının və hərbiçilərinin köməyinə arxalanırdı. Onun dövlət idarəçiliyi ilə az məşğul olması səbəbindən ölkədə hakimiyyət vergiləri şəxsi maraqları üçün daima artıran bacarıqsız məmurların əlinə keçmiş və təbii ki belə bir hal, sadə xalq kütlələrinin narazlığının artmasına, mərkəzi hakimiyyətin və ölkənin hərbi qüdrətinin zəifləməsinə münbit şərait yaratmışdır. Öz növbəsində ölkənin hərbi-siyasi qüdrətinin qüdrətinin sarsılması daxili ziddiyyətlərinin artmasına və bir sıra ərazilərin məsələn, Xarəzmin Qəzinəvilərdən ayrılmasına gətirib çıxarmışdır. Əgər sözügedən nümunədə problemə, yaxud yaranmış vəziyyətə nəticə baxımından yanaşsaq, deyə bilərik ki, hadisələrin belə bir məcrada inkişafına şərait yaradan səbəblər, həmçinin təkan verən amillər Qəznəvi dövlətinin süqutunun açıq göstəricisidir. Beləliklə, əgər Qəznəvilər dövlətinin süqutuna gətirib çıxaran amilləri aydınlaşdırmalı olsaydıq, aşağıdakı səbəbləri müəyyən edə bilərik:

- ✓ siyasi hakimiyyətdəki boşluqdan məharətlə yararlanan məmur özbaşınalığının güclənməsi;
- ✓ vergilərin artırılması;
- ✓ sosial-iqtisadi vəziyyətin ağırlaşması fonunda daxili ziddiyyətlərinin artması;
- ✓ mərkəzləşmiş dövlət aparatının zəifləməsi fonunda ölkənin hərbi müdafiə qüdrətinin sarsılması;

Burada bir məsələyə diqqət yetirək: əgər ölkənin qüdrətlənməsinə təsir edən amillər sırasında biz "güclənmə", "artma", "çoxalma" kimi sözlərin bu fikrin tam əksini ehtiva edən ifadələrdə işlənməsi ilə rastlaşırıqsa, o zaman həmin sözlərin ölkənin zəifləməsi anlamını ehtiva etməsinin aydın şəkildə şahidi oluruq. Məsələn, yuxarıda istifadə edilən nümunədə ölkədə məmur özbaşınalığının, daxili ziddiyyətlərin güclənməsi ilə sosial-iqtisadi və hərbi müdafiə qüdrətinin zəifləməsi əks istiqamət-

lərdə lakin, paralel şəkildə baş verir. Beləliklə, Qəznəvilər dövlətinin təməllərinin sarsılması və zəifləməsi barədə mühakimə yürüdərkən belə bir nəticəyə gəlirik ki, Səlcuq qoşunları yuxarıda sadalanan məhz həmin səbəblərdən - çatışmazlıqlardan istifadə edərək onlar üzərində qələbə qazandılar.

Qeyd etmək lazımdır ki, bəzi tarixçilər, (məsələn, Mixail Roberts) haqlı olaraq hesab edirlər ki, bütün dövrlərdə, xüsusən də orta əsrlər dövründə vergilərin artırılması geniş xalq kütlələri üçün yeni və çox vaxt aclıq, xəstəliklər kimi dözülməz çətinliklər yaratdığına görə ümumi narazılığa və üsyanlara səbəb olub. Mixail Roberts hesab edir ki, çoxsaylı kütləvi orduların ilk dəfə döyüş meydanına çıxması ilə səciyyələnən Otuzillik Müharibə iştirak edən dövlətlərin hər biri hərbi xərcləri artırması səbəbindən əhalidən daha çox vergilər almaq məcburiyyətində qaldı. Nəticə etibarı ilə Avropanın əksər monarxları vergiləri artırmağa və mülk sahiblərinin imtiyazlarını pozmağa məcbur oldular ki, bu da tarixə «XVII əsrin böhranı» adı altında düşmüş, İspaniya və İtaliyada iri miqyaslı üsyanların və sosial yönümlü digər hərəkatların başlanmasına səbəb olmuşdur. Gördüyünüz kimi, gətirilən nümunədə hadisənin baş verməsinə təkan verən səbəbin doğurduğu nəticənin özü sonradan də digər proseslərin başlanması üçün səbəb rolunu oynayır. Digər tərəfdən, gətirlən nümunə səbəb-nəticə əlaqələrinin mahiyyət etibarı ilə bir - biri ilə qırılmaz, sıx dialektik vəhdətini, hadisələrin gedişi, inkişaf dinamikası zamanı birinin digəri ilə əvəz olunmasını aydın bir şəkildə nümayiş etdirir.

Belə ki, birincisi, yeni nizami orduların yaranması ilə bir vaxtlar cəmiyyətdə mötəbər mövqeyə malik olan cəngavər milislərinin öz nüfuzunu itirərək dövlətə tabe olmasına bu isə monarxiyanın öz mövqelərini möhkəmləndirməsinə, başqa sözlə desək, monarxist tipli dövlətlərin, dövlət quruluşlarının meydana gəlməsinə səbəb oldu. İkincisi, resursların dövlət mənafelərinin xeyrinə elita və xalqın ziyanına genişmiqyaslı yenidən bölüşdürülməsi qaydasını möhkəmləndirdi ki, bu da cəmiyyətdə tez-tez müxtəlif böhranların baş verməsinə səbəb olurdu [2, s.3, 10-11, 56, 77-78].

Tədqiqatlarda şəbəkə analiz metodu. Son onillikdə elektron rabitənin və xüsusilə də internetin artan rolu ilə əlaqədar sosial şəbəkələrin müxtəlif növlərinin öyrənilməsinə maraq, əhəmiyyətli dərəcədə artmışdır (M.Castellsə görə, şəbəkənin yaradılması prosesi şəbəkə cəmiyyətini formalaşdırır). Bununla belə, sosioloqlar təxminən bir əsrdir ki, sosial şəbəkələrin təhlilini inkişaf etdirirlər və XX əsrin ortalarından etibarən (ingilisdilli ədəbiyyatda bu sosioloji yanaşma SNA – Social Network Analysis. – sosial şəbəkə təhlili kimi geniş tanınır. – A.M.) bu yanaşma müasir dünyamızda bir çox fundamental elmlər tərəfindən analitik proseslərin ən vacib metod və üsullarından biri kimi qəbul edilir.

Tarixçilər tərəfindən SNA – sosial şəbəkələrin təhlili konsepsiyalarından istifadənin mövcud (hələ çox məhdud) təcrübəsi, ilk növbədə, fərdi şəbəkələrdə məlumatları ehtiva edən bir mənbə ilə işləyərkən yaranan mikroanaliz vəzifələrini müəyyən etməyə imkan verir. Bu məlumat ya açıq şəkildə (məsələn, hər hansısa bir icma üzvlərinin şəxsi yazışmalarını öyrənərkən) və ya gizli şəkildə (məsələn, şəxsi birlikləri öyrənərkən) təqdim edilə bilər. Qurulmuş qrafiklərin şəbəkə təhlili mürəkkəb münasibətlər strukturunda klasterləri, "körpüləri" (klasterlər arasında əlaqəni təmin edən fərdlər) aşkar edə bilər, həmçinin mərkəzlilik (müəyyən bir node və ya klasterin "təsir" dərəcəsi A.M.) və şəbəkə sıxlığı təxminlərini əldə edə, "klikləri" (hər bir fərdin digərinə birbaşa bağlı olduğu çoxluqları) müəyyən edə bilər. Şəbəkə təhlili tarixi tədqiqatlarda getdikcə daha çox istifadə olunur, çünki o, keçmişi təkcə ayrı-ayrı hadisələr və fərdlər vasitəsilə deyil, onlar arasındakı əlaqələr şəbəkəsi vasitəsilə öyrənməyə imkan verir. Başqa sözlə desək, şəbəkə təhlili adından da göründüyü kimi bir növ tədqiq olunan hər hansısa bir şəxs, obyekt və hadisə haqqında kompleks məlumatlar sistemini özündə ehtiva edir. Bu, qarşılıqlı əlaqə, təsir və ideyaların yayılmasının vacib olduğu yerlərdə xüsusilə faydalıdır. adından da göründüyü kimi bir növ tədqiq olunan hər hansısa bir şəxs, obyekt və hadisə haqqında kompleks məlumatlar sistemini özündə ehtiva edir. Şəbəkə təhlili sisteminin vasitəsi ilə bir şəxsin vasitəsiylə digər şəxs haqqında maraqlı faktlar, çoxsaylı məlumatlar əldə edə bilirik. Məsələn, 1842-ci ilin əvvəllərində evlənən Mirzə Kazım bəy həyat yoldaşı haqqında yazırdı: "*Nişanlımın 25 yaşı var, o, Kazanda (yaxud, Qazan. – A.M.) ən dürüst kişinin qızıdır, soyadı Koslivtsevdir. Biz elə də varlı olmayacağıq, amma tamamilə xoşbəxt olacağıq* [5, s.38]. Artıq Mirzə Kazım bəyin verdiyi bu məlumat əsasında biz onun qayınatası Aleksandr Pyotroviç Kostlivtsevin Kazan şəhərinin ən nüfuzlu, dürüst, halal bir şəxs olması haqqında məlumat əldə etmiş oluruq. Həqiqətən də A.P.Kostlivtsevin haqqında digər SNA məlumatlarını araşdırarkən onun 1798-ci ildə İngiltərəyə ezam olunması,

1798-1802-ci illərdə İngiltərənin Hərbi Dəniz Qüvvələrində xidmət etməsi və Tulon yaxınlığında Fransız eskadrasına qarşı döyüşlərdəiştirak etməsi barədə məlumatlar əldə etmiş oluruq. SNA məlumatlarından bəlli olur ki, A.P.Kostlivtsev təqaüdə çıxdıqdan sonra 1816-cı ildən ömrünün sonuna qədər Kazanda məskunlaşmış, Kazan Kasıblar Komitəsinin qəyyumu, daha sonra, 1841-ci ildən isə bu komitənin sədri və Kazan İqtisadi Cəmiyyətinin üzvü kimi fəaliyyət göstərmişdir. Qeyd etmək lazımdır ki, şəbəkə təhlili sistemi kiminsə haqqında məlumatı ötürən və haqqında məlumat əldə etdiyimiz şəxsin özünün də əks səbəb-nəticə əlaqəsi ilə məlumatı verən haqqında bilgiləri zənginləşdirməkdə də böyük rol oynayır.

Yuxarıda təqdim olunan nümunədə həm Mirzə Kazım bəyin məlumatlarına, həm də SNA-nın onun qayınatası haqqında verdiyi məlumatlara görə, biz Azərbaycan xalqının bu mütəfəkkir övladının seçimi əsasınında həyat fəlsəfəsi haqqında dürüst, obyektiv bilgilərə yiyələnir, onun haqqındakı təəssüratlarımız bir qədər də zənginləşir. İnanırıq ki, həqiqətən də o, başqa cür hərəkət edə bilməzdi.

Tarixdə şəbəkə analizinin əsas tətbiqləri.

1. Sosial və Elit Şəbəkələrin Təhlili

Tarixçilər öyrənmək üçün şəbəkə analizindən istifadə edirlər:

qohumluq əlaqələri (sülalələr, nikahlar, klanlar); patronaj münasibətləri (patron-müştəri); intellektual və elmi icmalar.

2.Siyasi təsir və gücün öyrənilməsi ilə bağlı tədqiqatlarda məsələn, Səfəvilər dövlətində mərkəzi dövlət hakimiyyətinin zəifləməsinə təsir edən amilləri tədqiq edərkən şəbəkə təhlili bizə aşağıda sadalanan məsələlərin öyrənilməsində yardımçı ola bilər:

Səfəvilər dövlətində həqiqətən də mühüm qərarları kim qəbul edirdi; Qızılbaş hökmdarlarının mərkəzi dövlət hakimiyyətinin möhkəmləndirilməsinə qarşı apardıqları siyasətə hansı türk tayfaları arasındakı ara müharibələri, çəkişmələr mane olurdu;

mərkəzi dövlət hakimiyyətinə qarşı koalisiyaların və müxalifətlərin necə qurulduğunu; qruplar arasında vasitəçilərin rolu və s.

Mərkəzçilik – Metrika metodu. kimi ölçülər müxtəlif siyasi mərkəzləri, partiyaları, qrupları, düşərgələri birləşdirən rəqəmləri ortaya qoyur.

Şəbəkə nəzəriyyəsində mərkəzlilik bir qovşağın şəbəkədə nə qədər vacib və ya "mərkəzi" mövqedə olduğunu kəmiyyət və keyfiyyət xüsusiyyətləri əsasında araşdırır – “ölçür”. Mərkəzçilik metodunun müxtəlif növləri mövcuddur:

1. Dərəcə mərkəzlilik metodunun - bir qovşağın neçə bağlantısı ilə əlaqəsinin mövcudluğunu araşdıran metod. Məsələn, bu metodun tətbiqi ilə Azərbaycan ərazisində neolit və ya eneolit dövrlərinə aid arxeoloji qazıntılar nəticəsində əldə edilən artefaktların Cənubi Qafqazın və ya Qafqazın hər hansısa bölgələrində tapılan artefaktlarla oxşar xüsusiyyətlərə malik olduğunu aşkar edə bilərik.

2. Yaxınlıq mərkəzliliyi - bir qovşağın bütün digər qovşaqlara nə qədər yaxın olmasını araşdıran metod. Məsələn, bu metodun tətbiqi ilə Azərbaycan ərazisində neolit və ya eneolit dövrlərinə aid arxeoloji qazıntılar nəticəsində əldə edilən artefaktların Cənubi Qafqazın və ya Qafqazın məhz hansı bölgələrində tapılan artefaktlarla daha çox oxşar xüsusiyyətlərə malik olduğunu aşkar edə bilərik 3. Aralıq mərkəzlilik - bir qovşağın malik olduğu əlverişli mövqeyinə görə digər qovşaqlarla ən qısa, optimal yollarla hansı tezlikdə əlaqədə olmasını araşdıran metod. Məsələn, bu metodun tətbiqi ilə Azərbaycanın tarixən coğrafi nöqteyi nəzərdən son dərəcə əlverişli geostrateji mövqedə yerləşməsini nəzərə alaraq Vətənimizin ərazisində neolit və ya eneolit dövrlərinə aid arxeoloji qazıntılar nəticəsində əldə edilən artefaktların Cənubi Qafqazın və ya Qafqazın digər bölgələri ilə yanaşı daha hansı yaxın, orta, hətta bir qədər uzaq guşələri ilə, deyək ki Yaxın və Orta Şərqin məhz hansı bölgələrində tapılan artefaktlarla daha çox oxşar xüsusiyyətlərə malik olduğunu aşkar edə bilərik.

Yazışmaların və kommunikasiyaların təhlili metodu. Məktublar, gündəliklər və arxiv yazışmalarına bir şəbəkə kimi baxmaq olar. O zaman: müəlliflər və ünvançılar arasından mövcud olan – qovşaqlar - əlaqələr - yazışma faktları bir çox problemlərinin elmi obyektiv müstəvidə öyrənilməsinə yardımçı ola bilər;

Hərbi tarixinə dair tədqiqat işlərinin aparılması zamanı şəbəkə yanaşması bizə: komanda strukturları; dövlətlərarası ittifaqlar; sözügedən dövrdə mövcud olan logistik zəncirlərin araşdırılması üçün geniş imkanlar yarada bilər. Məsələn, Birinci Dünya müharibəsi ərəfəsində müstəmləkələr, xü-

susən də dənizlərdə möhkəmlənmək uğrunda mübarizə, hərbi dəniz sahəsindəki rəqabət İngiltərə-Almaniya münasibətlərini ifrat həddə çatdırmışdır. Xüsusən də, 1905-ci ildə Almaniyada dənizlər haqqında qəbul edilən əlavə qanun bu ziddiyyətlərinin daha da kəskinləşməsi ilə nəticələndi. Belə ki, bu qanunun həyata keçirilməsi Almaniyanı güclü dəniz dövlətinə çevirə bilərdi. İngiltərə buna cavab olaraq nəhəng hərbi gəmilərin istehsalına başladı.

Beləliklə, adları çəkilən hər iki dövlətin gəmilərlə bağlı yeni logistik sistemlərinin yaradılmasına dair sənədlərin öyrənilməsi bizə sözügedən problemin daha geniş, ən xırda təfərrüatlarına qədər elmi-obyektiv müstəvidə tədqiqinə münbit şərait yaratmış olardı. Nəticə etibarı ilə bu, bizə ordunun və ya ittifaqın dayanıqlığını qiymətləndirməyə imkan verir.

Tarixi tədqiqatlarda şəbəkə üsulundan istifadəyə dair daha bir konkret nümunəyə nəzər salaq: Məsələn, Fransada maarifçilik hərəkatının yayılmasında Volter, Didro, Russo və digər mütəfəkkirlər arasında olan yazışmaların, həmçinin onların müxbirlərindən alınan məktubların roluna nəzər salaq. Bu zaman tarixçinin vəzifəsi intellektual şəbəkədə mərkəzi fiqurun kim olduğunu və maarifçilik ideyalarının necə yayıldığını anlamaqdır. Tarixçi təxminən aşağıdakı alqoritmə əsaslanan şəbəkə quruluşunda yararlana bilər.

Şəbəkə quruluşu:

Düyünlər – fərdlər (filosoflar, naşirlər, himayədarlar);

Əlaqələr – yazışma faktı (bir və ya daha çox məktub).

Nəticələr: Volter yalnız bir müəllif deyil, həm də müxtəlif Avropa intellektual dairələri arasında mərkəz və vasitəçi olur;

Bəzi az tanınan fiqurlar ideyaların "ötürücüləri" kimi əsas rol oynayır;

Paris, Cenevrə və Amsterdam sıx bir ünsiyyət nüvəsi təşkil edir.

Nəticə: Tarixə təsir yalnız “böyük adlar”la deyil, həm də əlaqələrin strukturu ilə müəyyən edilir.

Diffuziya metodu. Tarixi təhlildə diffuziya metodu obyektlərin tarixini müəyyənləşdirmək, autentifikasiya etmək və saxlama şəraitini öyrənmək üçün istifadə olunur. O, maddələrin (su, qazlar, ionlar) zaman keçdikcə materiallara müntəzəm nüfuz etməsinə əsaslanır və bizə artefaktların yaşını və mənşəyini müəyyən etməyə imkan verir. Tarixi analitikada (tarix, arxeologiya, bərpa, mənbəşünaslıq) diffuziyaya əsaslanan üsullar dolayı yolla, lakin kifayət qədər geniş şəkildə – tarixi obyektlərin tarixini müəyyənləşdirmək, həqiqiliyini və saxlama şəraitini müəyyən etmək üçün istifadə olunur. Diffuziya Zaman keçdikcə maddələr yavaş-yavaş materialın (daş, metal, şüşə, keramika) daxilində yayılır. Məsələn, obsidian havadan su şüşəyə yayılır → nəmlənmiş təbəqə əmələ gəlir. Qat qalınlığı $\propto$ vaxt → artefaktın yaşını təyin etmək. Yaxud, keramika məsamələrdə duzların və nəmin yayılması dəfn müddətini təxmin etməyə imkan verir.

Diffuziya necə istifadə olunur? Mürəkkəb kağızın və ya perqamentin liflərinə nüfuz edir (diffuziya edir).Nüfuz dərəcəsi və dərinliyi aşağıdakılardan asılıdır:

mürəkkəbin tərkibi;

sənədin yaşı.

Praktik tətbiq

əsli saxta sənədlərdən ayırmaq;

yazıların eyni vaxtda və ya müxtəlif vaxtlarda edildiyini müəyyən etmək.

3. Metalların korroziyasının öyrənilməsi

Diffuziya mexanizmi Oksigen, nəm və ionlar metala yayılır; korroziya təbəqələri əmələ gəlir. Tarixçilər və bərpaçılar nəyi müəyyənləşdirirlər?Korroziya yaşı;

Saxlama şəraiti (torpaq, rütubət, hava);

Obyekt qədim və ya süni köhnəlmiş olsun.

4. Piqment və boya analizi

Diffuziya baş verdiyi yerdə. Boya komponentləri zamanla təbəqələr arasında miqrasiya edir;

bağlayıcı maddələr dəstəyə (kətan, gips) yayılır.

İstifadə olunur: orijinal rəngləmə qatlarının müəyyən edilməsi;

sonrakı bərpaların müəyyən edilməsi;

materialların tarixi dövrünün yoxlanılması.

Stoxastik metod. Stoxastik metod nədir nə analiz və təhlillərin aparılmasında əhəmiyyəti nədən ibarətdir? Təsadüfi (stoxastik) proses, davranışı deterministik olmayan bir prosesdir və belə bir sistemin sonrakı vəziyyəti həm proqnozlaşdırıla bilən, həm də təsadüfi dəyişənlərlə təsvir olunur. İlk öncə qeyd etmək lazımdır ki, stoxastiklik (məqsəd, fərziyyə) təsadüfilik deməkdir. Riyaziyyatda "stoxastiklik" termininin istifadəsi V.Bortkieviçin əsərlərinə aid edilir. V. Bortkieviç bu termini "fərziyyələr irəli sürmək" mənasında işlədirdi və bu da öz növbəsində qədim yunan filosoflarına, eləcə də Yakob Bernullinin "Ars Conjectandi" (latıncadan tərcümədə "fərziyyə sənəti" demək olub, mücərrədi tapmaq, müəmmalı olanı aydınlaşdırmaq anlamlarına uyğun gəlir) əsərinə gedib çıxır. Süni intellektdə stoxastik proqramlar ehtimal metodlarından istifadə etməklə işləyir. Bu cür alqoritmlərə nümunə olaraq simulyasiya edilmiş tavlama, stoxastik neyron şəbəkələri, stoxastik optimallaşdırma və genetik alqoritmlər daxildir. Bu halda stoxastiklik həm problemin özündə, həm də qeyri-müəyyənlik altında planlaşdırmada tətbiq edilə bilər. Simulyasiya agenti üçün deterministik mühit stoxastik mühitdən daha sadədir. Qeyd etmək lazımdır ki, determinizm fəlsəfə və elmdə insan psixikası və təbii hadisələr də daxil olmaqla baş vermiş və yaxud baş verə biləcək hər bir hadisə və prosesin müəyyən səbəblər və qanunlar çərçivəsində baş verdiyini iddia edən bir nəzəriyyədir. Bu nəzəriyyəyə görə, istər təbiət, istərsə də cəmiyyətdə baş vermiş və yaxud baş verə biləcək hər bir hadisənin özündən əvvəl, yaxud reallaşa biləcəyindən əvvəlki səbəbləri var və bu səbəblər müəyyən bir nəticəyə gətirib çıxarır. Və başqa cür ola da bilməz.

Görkəmli alman fliosofu Karl Yaspers (1883-1969) yazırdı ki, dünya tarixi təsadüfi hadisələrin xaotik toplanması – dərinliklərdəki burulğan kimi nizamsız toplanması kimi qəbul edilə bilər. *"O, güclənir, bir burulğan digərini izləyir, bir fəlakət digərini izləyir; bir anlıq - xoşbəxtlik parıltıları, müvəqqəti olaraq cərəyandan xilas olan adalar, lakin tezliklə onlar da suyun altında yox olurlar* [6, s.275]".

Determinizm nəzəriyyəsinə görə, insan tarixinin mahiyyəti onun gedişatının təsadüfi olmayıb, obyektiv qanunlar və əvvəlki səbəblər, iqtisadi, (iqtisadi determinizm), sosial (sosial determinizm), təbii, (təbii qüvvələr, coğrafi determinizm.) istər ilahi (teoloji determinizm), istərsə də digər universal qanunlar tərəfindən əvvəlcədən müəyyən olunmasından ibarətdir. Bəs tarixi determinizm nədir? Tarixi determinizm dedikdə bir sıra tədqiqatçılar belə hesab edirlər ki, gələcək nəticənin nə olacağını bilən müəyyən bir maariflənmiş fərdlər qrupu tərəfindən gələcək hadisələrin, adətən hansısa ezoterik və ya iqtisadi qüvvə tərəfindən əvvəlcədən müəyyən edilməsi fikri kimi başa düşülür. Tarixi determinizm problemi tarix elminin nəzəriyyəsi və metodologiyasında xüsusi yer tutur. Bu ilk növbədə, "determinizm" kateqoriyasının elmi baxımdan gerçəklikdə cərəyan edən hadisə və obyektlər, həmçinin hadisə və proseslər arasında obyektiv şəkildə mövcud olan bir-biri ilə əlaqəli və qarşılıqlı asılılığı haqqında ümumi bir doktrinanı təmsil etməsi ilə əlaqədardır. Determinizmin təbiəti, əsl mahiyyəti ilk növbədə hadisə və proseslərin baş verməsinə ciddi surətdə təsir göstərən obyektiv səbəb - nəticə əlaqələri və inkişaf qanunauyğunluqları ilə bağlıdır. Determinizm anlayışları (tarixi, sosial, iqtisadi, coğrafi, demoqrafik, riyazi və s.) elmi metodun strukturunun bir hissəsidir. Bu metod ixtiyari elm sahəsində aparılan tədqiqat işləri ilə bağlı problemləri təbiətdə, cəmiyyətdə insan təfəkküründə və düşüncəsində baş verən hər hansı bir dəyişikliyin şərtlərini, həmin hadisə və prosesləri doğuran obyektiv səbəb - nəticə əlaqələrini, o cümlədən qanunauyğunluqlarını təhlil və aşkar etmək üçün son dərəcə əlverişli , münbit zəmin yaradırlar.

Təsadüfi (stoxastik) proses davranışı deterministik olmayan bir prosesdir və belə bir sistemin sonrakı vəziyyəti həm proqnozlaşdırıla bilən, həm də təsadüfi dəyişənlərlə təsvir olunur. Lakin, M. Katz və R. Nelsona görə, bir prosesin zamanla inkişafı (istər deterministik, istərsə də ehtimal) ehtimallar baxımından təhlil edildikdə təsadüfi bir prosesdir [1]. Nəzərə alsaq ki, hər bir hadisə, hər bir proses öz inkişafı zamanı müəyyən bir müddət tələb edir, bu müddət qısa, uzun və ya qeyri-müəyyən müddətə inkişaf edə bilər, onda hadisələrin inkişafının müəyyən məqsədyönlü və təsadüfi təbiətə malik olduğunu düşünə bilərik. Belə ki, inkişafının ilkin anındandan tutmuş tamamlanmasına qədər hər hansı bir hadisə və ya proses obyektiv və təsadüfi olan bir çox amillərə görə əvvəlcədən düşünülmüş nəticələri ilə səciyyələnən məqsədinə çatmaya, yaxud başqa proseslərin baş verməsinə təkan verə biləcək nəticələri ilə seçilə bilər.Başqa sözlə desək, problemə məhz bu baxımdan yanaşıldıqda,

belə bir qənaətə gəlmək, yaxud hesab etmək olar ki, zamanla inkişaf edən bütün proseslər, ehtimal nəzəriyyəsi baxımından, stoxastikdir.

Ümumiyyətlə, bütün bunlar tamamilə Maks Veberin təsəvvürünün ruhuna uyğundur: "*Dünya tarixi Şeytanın dağıdılmış dəyərlərlə döşədiyi bir yola bənzəyir. Həqiqətən də, tarixin elmi şəkildə anlaşılması onu xaos, Braun hərəkəti kimi qiymətləndirməklə uyğun gəlmir*" [3]. Məhz bu mənada, tarixin elmi - obyektiv müstəvidə analitik təhlil zəminində tədqiq edilməsi, eyni məsələ ilə bağlı bir-biri ilə kəskin ziddiyyət təşkil edən problemlərin anlaşılmasına, bu elm sahəsində nizam və qanuna-uyğunluqların mövcud olmasına zəmin yaradır. Bütövlükdə bəşər tarixi insan cəmiyyətinin hər an inkişafa doğru son dərəcə sürətlə dəyişən, yüksək aktivliyə, dinamikliyə malik səbəb-nəticə əlaqələrinin – determinizmin, dominantlıq dairəsidir.

Bəzi amillərin rolunu təhlil etmək çətin, digərlərinin təsirləri çox qeyri-müəyyən idi. Nəhayət, "təbii seçmə" vasitəsilə geniş tarixi məlumatlardan istifadə etməklə onların sistematik xarakterini izləmək mümkün olan amillər kompleksi meydana çıxdı. Müasir sosial fəlsəfə dərsliklərində çox vaxt dörd amil fərqləndirilir: coğrafi, demoqrafik, iqtisadi və texnoloji və onların təsirlərini təsvir edən anlayışlar müvafiq olaraq coğrafi, demoqrafik, iqtisadi və texnoloji determinizm adlanır. Hər bir konsepsiya müxtəlif müəlliflər tərəfindən hazırlanmış bir qrup nəzəriyyəni əhatə edir, bəzən eyni amilin müxtəlif təzahürlərini vurğulayır, lakin ümumiyyətlə onun müəyyənedici rolunu qəbul edir.

Tarixi proseslərdə texnoloji faktorun rolu. Hərbi inqilablar nəzəriyyəsi. Maykl Roberts 1967 ci ildə Londonda nəşr olunan "İsveç tarixinə dair oçerklər" adlı əsərində belə bir ideyanı aşlamağa çalışır ki, son üç minillik ərzində dünyada baş vermiş hərbi inqilabların hər biri bəşər tarixində yeni mərhələnin başlanğıcını qoyub. Müəllifin fikrincə, cəmiyyətdə böyük dəyişikliklərin baş verməsi ilə müşayiət olunan, nəticələnən hərbi texnologiya sahəsində baş vermiş inqilabı dəyişikliklər danılmaz tarixi həqiqətlərdirlər. E.ə. II minilliyin ortalarında ağır süvarilərin qələbəsinə imkan yaradan atlı arabaçılardan ibarət yeni qoşun növün meydana gəlməsi bilavasitə e.ə. IV əsrdə elmi sahədə əldə edilən nailiyyətlərlə bağlıdır. Bu gün hərb sənayesində yeni silahların ixtirasi ilə bağlı bütün hadisələr bəşər tarixində mühüm dönüş nöqtələri kimi tanınır [2]. (Burada Qazan xanın apardığı hərbi islahatları o cümlədən birinci şah Abbasın səfəvi dövlətini odlu silahla təmin etməsinə dair islahatlarını misal kimi göstərmək olar və lazımdır).

M.Roberts hərbi inqilablardan yalnız birini - XVII əsrin ortalarını ətraflı təhlil etmişdir. Bu inqilab əsasən yüngül artilleriyanın inkişafı ilə əlaqələndirilmişdir. Əvvəlki dövrlərdə tökmə keyfiyyəti aşağı idi və top lülələrinin o qədər qalın hazırlanmasına məcbur edirdi ki, hətta kiçik kalibrli topları belə döyüş meydanından keçirmək çətin idi. İsveç kralı Qustav Adolf (1611–1632) tökmə keyfiyyətinin yaxşılaşdırılması potensialını qəbul etdi və yüngül sahə artilleriyası yaratmaq üçün birgə səylərə başladı. Bu iş on ildən çox davam etdi və nəhayət, 1629-cu ildə yüngül "alay topu" olan regement-stycke yaradıldı [2, s.142-143].

Müəllif fikrinə bəraət qazandırmaq üçün yazır ki, Otuz illik müharibədə alay topu İsveç ordusunun "qələbə silahı"na çevrildi; hər alaya bu toplardan bir neçəsi verildi. Alay topunun yaradılması və eyni zamanda yüngül tüfənglərin tətbiqi hərbi taktika və strategiyada inqilaba səbəb oldu. Sıx döyüş birləşmələri, "döyüşlər" və ya "tercios" tədricən tərk edildi və piyada kolon taktikaları xətti taktikalarla əvəz olundu [2, s.231-248].

Nəticə. Tədqiqat analitikası ilk növbədə, tədqiq olunan problemlə bağlı məlumatların toplanması, onların arasından elmi-obyektiv baxımdan böyük önəm kəsb edən məlumatların səbəb-nəticə, analiz-sintez, o cümlədən müqayisəli təhlil kimi məntiqi əməliyyatların aparılması yolu ilə seçərək, ən vacib, zəruri olanları müəyyən etmək və nəticələr çıxarmaq prosesidir. Analitika elmi və əqli fəaliyyət prosesində tədqiq olunan problemlə bağlı sırf həmin tədqiqat obyektinə xas olan, artıq malik olduğumuz spesifik elmi biliklər toplusundan fərqlənən, ən yeni, aktuallıq və praktik əhəmiyyət kəsb edən vacib xüsusiyyətləri üzə çıxarmağa, onu elmi digər problemlərin həlli ilə sinkretik şəkildə əlaqələndirməyə zəmin yaradan vacib körpü rolunu oynayır. Başqa sözlə desək, analitika elmi biliklərin tədqiqi, toplanması və elmi nəticələrin çıxarılması arasında dialektik vəhdəti təşkil edən, inkişaf dinamikasını təmin edən, əqli fəaliyyət prosesini kamil bir şəkildə yaradan, formalaşdıran sistem funksiyasını daşıyır.

Problemlə məhz bu nöqteyi-nəzərdən yanaşıldıqda ixtiyari tədqiqat prosesi analitika aparılmadan yeni biliklərin əldə olunması, onların əsasında kamil elmi nəticələrin çıxarılmasına deyil, sadəcə faktların mexaniki toplanmasına xidmət etmiş olardı. Əqli fəaliyyətin ən mühüm və vacib sahələrindən birini təşkil edən tədqiqat analitikası fənninin tədris olunması bakalavr və magistrlərimizə istər tədris prosesində, elmi mahiyyətini daha dərindən tərk etmələrinə, qarşılaşdıqları problemlərə elmi-yaradıcı baxımdan yanaşmalarında, istərsə də gələcək elmi-pedaqoji və tədqiqat prosesində yaratdığı geniş təhlil imkanları ilə yardımçı ola bilər.

ƏDƏBİYYAT

1. Nelson R. Probability, Stochastic Processes, and Queueing Theory. Berlin: Springer-Verlag, 1995.
2. Roberts M. Essays in Swedish History. Londres, Weidenfeld and Nicolson, 1967, 358 p.
3. Вебер М. Наука как призвание и профессия. Москва: Прогресс, 1990, 808 с.
4. Понкин И.В., Лаптева А.И. Методология научных исследований и прикладной аналитики. Москва: Буки Веди, 2022, 754 с.
5. Рзаев А.К. Мухаммед Али М.Казем-бек. Москва: Наука, 1989, 199 с.
6. Ясперс К. Смысл и назначение истории. Москва: Политиздат, 1991, 527 с.

АЙДЫН МАМЕДОВ
Доцент кафедры «Источниковедения, историографии и методики» Бакинского Государственного Университета, д.ф.п.и.

К АКТУАЛЬНЫМ ВОПРОСАМ ИССЛЕДОВАТЕЛЬСКОЙ АНАЛИТИКИ

Статья посвящена анализу актуальных проблем исследовательской аналитики в историческом контексте. Рассматриваются методологические основания аналитической деятельности в исторической науке, специфика причинно-следственного анализа, соотношение факта и интерпретации, а также роль концептуальных моделей в реконструкции исторических процессов. Особое внимание уделяется вопросам объективности исторического знания, влиянию ценностных установок исследователя и трансформации аналитического инструментария в условиях цифровизации и расширения источниковой базы. В работе обосновывается необходимость междисциплинарного подхода, сочетающего традиционные методы исторического исследования с современными аналитическими стратегиями. Делается вывод о том, что развитие исследовательской аналитики способствует углублению понимания закономерностей исторического процесса и повышению научной обоснованности интерпретаций прошлого. Данная статья является первой научной статьей в азербайджанской историографии в области исследовательского анализа.

Ключевые слова: исследовательская аналитика, исторический процесс, причинно-следственный анализ, объективность исторического знания, философия истории, междисциплинарный подход, аналитические методы.

AYDIN MAMMADOV
Associate Professor of the Department of Source Study, Historiography and Methodology of Baku State University, PhD in History

ABOUT CURRENT ISSUES OF RESEARCH ANALYTICS

This article analyzes current issues in research analytics in a historical context. It examines the methodological foundations of analytical work in historical science, the specifics of cause-and-effect analysis, the relationship between fact and interpretation, and the role of conceptual models in reconstructing historical processes. Particular attention is paid to the objectivity of historical knowledge, the influence of researcher values, and the transformation of analytical tools in the context of digitali-

zation and the expansion of the source base. The paper substantiates the need for an interdisciplinary approach that combines traditional historical research methods with modern analytical strategies. It concludes that the development of research analytics contributes to a deeper understanding of the patterns of historical processes and enhances the scientific validity of interpretations of the past. This article is the first scientific article in Azerbaijani historiography in the field of research analysis.

Keywords: research analytics, historical process, cause-and-effect analysis, objectivity of historical knowledge, philosophy of history, interdisciplinary approach, analytical methods.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 20 fevral 2026-cı il.
Məqalənin çapa qəbul olunma tarixi: 21 may 2026-cı il.
Rəyçilər: t.e.d. Anar İsgəndərov, t.e.d. Qabil Əliyev.

UOT 94(479.24), UOT 930

SEVİNC ZEYNALOVA
Bakı Dövlət Universiteti
Qədim dünya və orta əsrlər tarixi kafedrasının baş müəllimi
sevinc_zeynalova@hotmail.com

RUSİYA TARİXŞÜNASLIĞINDA SƏFƏVİ-OSMANLI MÜNASİBƏTLƏRİNİN ARAŞDIRILMASINA DAİR

DOI: https://doi.org/10.36719/2708-065X/113/275-280

Məqalədə XVI-XVII əsrlərdə Səfəvi və Osmanlı dövlətləri arasında mövcud olmuş münasibətlərin Rusiya tarixşünaslığında araşdırılması məsələləri təhlil olunur. Tədqiqat çərçivəsində Rusiya tarixşünaslığında problemin öyrənilməsi üç əsas mərhələ üzrə: imperiya, sovet və post-sovet dövrləri kontekstində nəzərdən keçirilir. Nəzərdən keçirilən hər mərhələ üçün formalaşmış metodoloji yanaşmalar, ideoloji çərçivələr və konseptual istiqamətlər müqayisəli şəkildə qiymətləndirilir. Məqalədə konfessional, geosiyasi, sosial-iqtisadi və sivilizasiya yanaşmaların xüsusiyyətləri müəyyənləşdirilir, onların qarşılıqlı əlaqəsi və transformasiya prosesi təhlil olunur. Eyni zamanda, Rusiya tarixşünaslığında adı çəkilən məsələlərlə bağlı mövcud metodoloji məhdudiyyətlər və fərqli interpretasiya problemləri tənqidi baxımdan araşdırılır. Nəticə etibarilə göstərilir ki, Rusiya tarixşünaslığı Səfəvi-Osmanlı münasibətlərinin öyrənilməsində mühüm mənbəşünaslıq bazası yaratmış, lakin müxtəlif dövrlərdə siyasi-ideoloji kontekst mövzunun bəzi hallarda qərəzli araşdırılmasına yol açmışdır.

Açar sözlər: Səfəvilər, Osmanlılar, Rusiya tarixşünaslığı, metodoloji yanaşma, tarixi interpretasiya.

Giriş. XVI-XVII əsrlərdə Yaxın və Orta Şərqin siyasi dövlətçilik tarixində mühüm yer tutan Səfəvi və Osmanlı dövlətləri arasında bərqərar olmuş münasibətlər regionun geosiyasi mənzərəsinin formalaşmasında həlledici rol oynamışdır. Bu iki böyük türk müsəlman dövləti arasında baş verən hərbi-siyasi qarşıdurmalar, diplomatik münasibətlər və ideoloji rəqabət yalnız Yaxın Şərq tarixini deyil, həm də Qafqazın, eləcə də Avropanın etnik və siyasi xəritəsinə ciddi təsir göstərmişdir. Bu səbəbdəndir ki, Səfəvi-Osmanlı münasibətləri tarixşünaslıqda geniş şəkildə araşdırılmış olub, hələ də tarixçilərin diqqət mərkəzində qalmaqdadır.

Səfəvi və Osmanlı dövlətlərinin tarixi, o cümlədən iki dövlət arasındakı münasibətlər Rusiya tarixşünaslığında da geniş araşdırılan mövzulardandır. Əvvəlki məqalələrimizdə Rusiya tarixşünaslığında Səfəvi tarixi ilə bağlı araşdırmaların müvafiq qisimlərinə baxmışdıq (1; 2). Səfəvilərin Osmanlı dövləti ilə münasibətlərinin araşdırılmasına gəlincə, bu mövzu ilk növbədə Rusiyanın Osmanlı tarixinə olan siyasi və strateji marağı ilə bağlıdır. Qeyd edək ki, bu diqqət hələ XVIII əsrin əvvəllərindən başlamış, Osmanlı tarixi üzrə araşdırmaların təməli atılmışdır. Sonrakı əsrdə bu araşdırmalar daha intensiv şəkil almış, XX əsrdə isə fundamental tədqiqatlar ortaya çıxmışdır. Bu araşdırmalar gedişində Osmanlı dövlətinin siyasi tarixi ilə yanaşı, qonşu dövlətlərlə, o cümlədən Səfəvilərlə münasibətləri də diqqət mərkəzinə alınmışdır.

Əlbəttə, Rusiya tarixşünaslığında adı çəkilən mövzuya bu qədər geniş yer verilməsinin bəzi səbəbləri vardır. Birincisi, Rusiya coğrafi baxımdan regiona yaxın dövlətdir və XVI əsrdən etibarən Cənubi Qafqaz və Xəzər hövzəsi istiqamətində siyasi maraqlar nümayiş etdirmişdir. İkincisi, Səfəvilərin Osmanlı dövləti ilə münasibətləri Rusiyanın özü üçün hər zaman aktual məsələ olmuş, rus diplomatiyası və siyasəti Səfəvi-Osmanlı münasibətlərini yaxından izləmişdir. Bu da öz növbəsində Osmanlı ilə bağlı ən xırda detala belə Rusiya siyasətçilərinin, eləcə də tədqiqatçılarının diqqət yetirməsini zəruri etmişdir. Başqa sözlə desək, rus tarixçilərinin Səfəvi-Osmanlı münasibətlərinə yanaşmaları təkcə elmi deyil, həm də müəyyən siyasi-ideoloji kontekst çərçivəsində formalaşmışdır. Türkiyə tarixçiləri Y.Çağlayan və E.Çağlayanın da qeyd etdikləri kimi, Rusiya "Şərq siyasəti çərçivəsində Şərq xalqlarının tarixi və mədəniyyətinin öyrənilməsini bu siyasətin önəmli tərəflərindən biri kimi görməyə başlamışdır" (3, s.27). Məqsədimiz bu istiqamətdə aparılan bütün tədqiqatları ayrı-ayrılıqda izləmək deyildir; məqalənin həcmi nəzərə alınaraq, biz bu tədqiqatların müəlliflərinin adlarını çək-

məklə kifayətlənməyi, bunun əvəzində isə həmin tədqiqatların təhlili əsasında Rusiya tarixşünaslığında Səfəvi-Osmanlı münasibətlərinin araşdırılması prosesini mərhələlər üzrə təhlil etməyi, müxtəlif dövrlərdə formalaşmış konseptual yanaşmaları müqayisəli şəkildə qiymətləndirməyi və bu sahədə əsas tendensiyaları müəyyənləşdirməyi məqsədəuyğun gördük. Bu məqsədlə məqalədə imperiya, sovet və müasir dövr rus tarixşünaslığı sistemli şəkildə təhlil olunur, istifadə edilən metodoloji prinsiplər və interpretasiya modelləri araşdırılır.

Rusiya tarixşünaslığında Səfəvi-Osmanlı münasibətlərinin öyrənilməsinin mərhələləri. Rusiya tarixşünaslığında Səfəvi və Osmanlı dövlətləri arasındakı münasibətlərin araşdırılması bir neçə mərhələdən keçmişdir. Bu mərhələlər həm metodoloji yanaşmaların, həm də siyasi-ideoloji kontekstin dəyişməsi ilə xarakterizə olunur. Ümumilikdə, bu prosesi şərti olaraq üç əsas dövrə ayırmaq mümkündür: imperiya dövrü, sovet dövrü və müasir (post-sovet) mərhələ.

1. İmperiya dövrü rus tarixşünaslığı (XIX əsr – XX əsrin əvvəlləri). Bu mərhələ Rusiya imperiyasında şərqşünaslıq məktəbinin formalaşması ilə səciyyələnir. Bu dövrdə Səfəvi-Osmanlı münasibətləri əsasən diplomatik sənədlər, səyyah qeydləri və hərbi-siyasi mənbələr əsasında öyrənilirdi. Tədqiqatların əsas diqqət mərkəzində regionun geosiyasi vəziyyəti və Rusiyanın Cənubi Qafqaz siyasəti dayanırdı. İmperiya tarixşünaslığında Səfəvi-Osmanlı müharibələri daha çox Rusiya dövlətinin regional maraqları kontekstində şərh olunur, hadisələrə imperiya geosiyasətinin prizmasından yanaşılırdı. Bu mərhələnin xarakterik xüsusiyyəti ondan ibarət idi ki, qeyd etdiyimiz mövzunun araşdırılmasında dini qarşıdurma (şiə - sünni ziddiyyəti) əsas izah modeli kimi qəbul edilirdi. Lakin təhlillərdə siyasi maraqlar və ərazi ekspansiyası da mühüm yer tuturdu.

Həmin mərhələnin başlanğıcında (XIX əsrin birinci yarısı) ortaya çıxan fundamental əsərlər içərisində A.Muxlinski, V.Smirnov və P.Çixaçovun tədqiqatları diqqət cəlb edir. Bu tədqiqatlar birbaşa Səfəvi-Osmanlı münasibətlərini araşdırmasa da, Osmanlının regional siyasətinin izahında bu iki dövlət arasındakı münasibətlərin müəyyən məqamlarının izahı üçün zəruri olan mənbələrin araşdırılmasına yer verilirdi (4; 5-8; 9). Ümumiyyətlə, bu mərhələdə tədqiqatlar daha çox müntəxabat səciyyəsi daşımışdır ki, bu da Rusiya imperiyasının xarici siyasətində sənədlərin təhlilinə verilən böyük əhəmiyyəti göstərirdi. Həmin dövrdə Sankt-Peterburq, Moskva, Kazan və Odessa Rusiya imperiyasının ən böyük şərqşünaslıq mərkəzlərinə çevrilməyə başlayır (bu barədə daha geniş bax: 10).

XIX əsrin sonlarından etibarən bu istiqamətdə tədqiqatlar daha elmi-analitik səciyyə almağa başlayır və XX əsrin əvvəllərində fundamental tədqiqatlar ortaya çıxır. Bu mərhələdə Rusiya tarixşünaslığında V.Qordlevski, A.Krımski və V.Bartold kimi şərqşünasların tədqiqatları ortaya çıxır. Bu şərqşünasların tədqiqatlarının ortaya çıxdığı dönəm Birinci dünya müharibəsi öncəsi və illərini əhatə etmiş olub, dövrün siyasi hadisələrinin böyük həcmdə onları təsiri altına aldığı müşahidə edilir. Ələlxüsus Osmanlı dövlətinin xarici siyasət məsələlərinin araşdırılmasında hər üç tədqiqatçının əsərlərində siyasi qərəzdən qaça bilmədiklərini vurğulamağımız lazımdır (11; 12-13; 14). Bununla yanaşı, bu tədqqiqatların bir qismi, aktuallığını saxlamaqdadır.

2. Sovet dövrü tarixşünaslığı (1920-1991). Məlum olduğu kimi, Sovet hakimiyyəti dövründə tarix elmi marksist metodologiya əsasında yenidən qurulmuş, tarixi hadisələrə, o cümlədən Səfəvi-Osmanlı münasibətlərinə sinfi yanaşma üstünlük təşkil etmişdir. Sovet tarixçilərinin əsərlərində müharibələr və dövlətlərarası qarşıdurmalar feodal dövlətlərin iqtisadi maraqları və ticarət yolları uğrunda mübarizəsi kimi izah edilmiş, sosial-iqtisadi faktorlar ön plana çıxarılmışdır. Bu dövrdə aparılan araşdırmalarda Səfəvi-Osmanlı qarşıdurması daha çox feodal istismar sistemlərinin toqquşması kimi təqdim edilmişdir. Eyni zamanda, Qafqaz uğrunda iri dövlətlərin mübarizəsi məsələsi də iqtisadi-strateji baxımdan şərh olunmuşdur. Bu tədqiqatların içərisində yuxarıda adını çəkdiyimiz V.V.Bartold, İ.P.Petruşevski, N.A.İvanov, A.F.Miller, A.D.Noviçev kimi müəlliflərin tədqiqatlarını qeyd etmək olar (14; 15; 16; 17; 18). Bu tarixçilər də, bütün üstün tərəflərinə baxmayaraq, əsərlərində siyasi spekulyasiyalardan qaça bilməmiş, Səfəvilərin və Osmanlıların tarixini birtərəfli araşdırmaqla, iki dövlət arasındakı münasibətlərin mahiyyətini tam açıqlaya bilməmişlər.

Bütün bunlarla yanaşı, sovet tarixşünaslığında adı çəkilən tədqiqatların mənbəşünaslıq bazası geniş olmuş, ideoloji çərçivəyə baxmayaraq, mənbə materiallarının sistemli şəkildə dövriyyəyə daxil edilməsi bu mərhələnin mühüm elmi nailiyyətlərindən olmuşdur. Sovet tarixşünaslığının özəlliklərindən biri də tədqiqat mərkəzlərinin coğrafiyasının genişləməsi, müttəfiq respublikalarda tədqiqatların

aparılması üçün imkanların artması olmuşdur. Həmin dövrdə Səfəvi-Osmanlı münasibətlərini araşdıran məktəblər ortaya çıxmış, o cümlədən Bakı bu məktəblərin mərkəzlərindən birinə çevrilmişdir. Bu məktəblərin arasında O.Ə.Əfəndiyevin və Y.M.Mahmudovun məktəbləri xüsusi qeyd edilməlidir (daha geniş bax: 19, s.75-79).

3. Müasir Rusiya tarixşünaslığı (1991-ci ildən sonra). SSRİ-nin dağılmasından sonra Rusiya tarixşünaslığında metodoloji plüralizm güclənmiş, amma sovet dövrünün ideoloji məhdudiyyətləri qalxmış olsa da, Rusiya tarixçilərinin bəzi məsələlərlə bağlı, o cümlədən türk müsəlman dövlətləri olan Səfəvi və Osmanlı dövlətləri ilə bağlı siyasi qərəzləri saxlanmışdır. Bununla yanaşı, post-sovet dövründə Səfəvi-Osmanlı münasibətlərinə yanaşma daha kompleks xarakter almış, tədqiqatlarda geosiyasi, konfessional və diplomatik aspektlər paralel şəkildə araşdırılmağa başlamışdır. Bu tədqiqatlarda yeni mənbələrin, o cümlədən Osmanlı türkcəsində və farsca mənbələrin müqayisəli şəkildə istifadəsinə xüsusi diqqət göstərilməsi, iki dövlət arasındakı münasibətlərə çoxfaktorlu yanaşma müşahidə olunur.

Nəzərdən keçirdiyimiz mərhələlərin təhlilində Rusiya tarixşünaslığında Səfəvi-Osmanlı münasibətlərinin öyrənilməsinin imperiya geosiyasi yanaşmasından sovet marksist interpretasiyasına, oradan isə metodoloji plüralizmə doğru inkişaf etməsi nəzərə çarpır. Hər mərhələ öz dövrünün siyasi-ideoloji şərtlərini əks etdirmiş, lakin eyni zamanda problemin elmi baxımdan dərinləşdirilməsinə müəyyən imkanlar qazandırmışdır. Bu mənada deyə bilərik ki, Rusiya tarixşünaslığında Səfəvi-Osmanlı münasibətlərinin öyrənilməsi metodoloji transformasiya nümunəsi kimi qəbul edilə bilər:

- İmperiya dövründə geosiyasi və konfessional izah modeli üstünlük təşkil etmişdir.
- Sovet mərhələsində sinfi yanaşma dominant olmuşdur.
- Post-sovet dövrdə isə metodoloji plüralizm və çoxfaktorlu analiz ön plana çıxmışdır.

Rusiya tarixşünaslığı bu mövzunun öyrənilməsində mühüm empirik baza formalaşdırsa da, hər mərhələdə siyasi-ideoloji kontekst interpretasiyalara müəyyən təsir göstərmişdir. Problemin obyektiv dəyərləndirilməsi üçün bu tarixşünaslıq ənənəsinin tənqidi təhlili vacibdir ki, aşağıdakı bölmədə bunlara diqqət yetiriləcəkdir.

Mövzu ilə bağlı müasir Rusiya tarixşünaslığında konseptual yanaşmalar. Yuxarıda da qeyd etdiyimiz kimi, SSRİ-nin süqutundan sonra Rusiya tarixşünaslığında metodoloji mühit əhəmiyyətli dəyişikliklərə məruz qalmış, tarix elmi ideoloji məhdudiyyətlərdən nisbətən azad olmuşdur. Bu mərhələdə tədqiqatçılar daha geniş mənbə bazasından istifadə etmək və müxtəlif metodoloji istiqamətləri tətbiq etmək imkanı əldə etmişlər. Nəticədə Səfəvi-Osmanlı münasibətlərinin araşdırılması sahəsində əvvəlki dövrlərlə müqayisədə daha kompleks və çoxşaxəli yanaşmalar formalaşmışdır. Müasir Rusiya tarixşünaslığında bu mövzunun interpretasiyasında konfessional, geosiyasi, sosial-iqtisadi və sivilizasiya yanaşmaları əsas konseptual istiqamətlər kimi diqqəti cəlb edir.

Konfessional yanaşma müasir Rusiya tarixşünaslığında müəyyən dərəcədə öz aktuallığını qorumaqda davam edir. Bu istiqamətin tərəfdarları Səfəvi-Osmanlı qarşıdurmasının ideoloji əsaslarını şiə və sünni dini doktrinaları arasındakı fərqlərlə əlaqələndirirlər. Lakin müasir tədqiqatlarda bu faktor daha geniş siyasi və ideoloji kontekst daxilində izah edilir. Bu baxımdan dini faktor yalnız ideoloji müstəvidə deyil, dövlət quruculuğu və siyasi identiklik problemləri ilə əlaqəli şəkildə təhlil olunur.

Müasir Rusiya tarixşünaslığında geniş yayılmış istiqamətlərdən biri, heç şübhəsiz, geosiyasi yanaşmadır. Bu yanaşmaya görə Səfəvi-Osmanlı qarşıdurması XVI-XVII əsrlərdə Yaxın Şərq və Cənubi Qafqaz regionunda regional hegemonluq uğrunda aparılan imperiyalararası rəqabətin təzahürü kimi qiymətləndirilir. Bu istiqamətdə aparılan tədqiqatlarda xüsusilə strateji ərazilərə nəzarət məsələsinə diqqət yetirilir. Anadolu, Cənubi Qafqaz və Xəzəryanı regionlar yalnız hərbi-strateji baxımdan deyil, həm də mühüm tranzit ticarət yollarının keçdiyi ərazilər kimi xüsusi əhəmiyyət kəsb etmişdir. Bu baxımdan Səfəvi və Osmanlı dövlətlərinin region uğrunda mübarizəsi imperiya miqyaslı siyasi rəqabətin mühüm elementi kimi şərh olunur.

Müasir Rusiya tarixşünaslığında Səfəvi-Osmanlı münasibətləri ilə bağlı araşdırmalar T.K.Korayev, B.R.Rahimzyanov, A.V.Vinoqradov, R.S.Astaşkin, K.Fursov kimi tədqiqatçıların əsərlərində müəyyən dərəcədə öz əksini tapmışdır. Bu tədqiqatlarda mövzu əsasən regional geosiyasi proseslər, diplomatik münasibətlər və Avrasiya siyasi sisteminin formalaşması kontekstində araşdırılır. Məsə-

lən, T.K.Korayev Moskva dövləti ilə Səfəvilər arasındakı münasibətləri araşdırarkən Xəzəryanı bölgənin geosiyasi əhəmiyyətini xüsusi vurğulayır və bu bölgənin XVI-XVII əsrlərdə müxtəlif siyasi güclərin maraq dairələrinin kəsişdiyi mühüm strateji məkan olduğunu qeyd edir. Onun fikrincə, Səfəvi-Osmanlı qarşıdurması yalnız iki dövlət arasında baş verən müharibələr sistemi kimi deyil, həm də daha geniş regional güc balansının tərkib hissəsi kimi qiymətləndirilməlidir (20).

Bənzər yanaşma B.Rəhimzyanovun tədqiqatlarında da müşahidə olunur. O, Moskva dövləti ilə türk-tatar siyasi dünyası arasındakı münasibətləri araşdırarkən regionun siyasi sistemində qarşılıqlı əlaqələrin mürəkkəb xarakterini göstərir və Səfəvi-Osmanlı münasibətlərini Avrasiya siyasi məkanında formalaşan geniş diplomatik və hərbi münasibətlər sisteminin tərkib hissəsi kimi təhlil edir (21).

Müasir Rusiya tarixşünaslığında məlum məsələyə sosial-iqtisadi yanaşma isə müəyyən mənada sovet tarixşünaslıq ənənəsinin davamı kimi qiymətləndirilə bilər. Lakin post-sovet dövrdə bu yanaşma əvvəlki dövrlərlə müqayisədə daha balanslı və ideoloji çərçivələrdən azad şəkildə tətbiq olunmağa başlamışdır. Bu istiqamətdə aparılan tədqiqatlarda Səfəvi-Osmanlı münasibətləri iqtisadi maraqlar, ticarət yolları və regional bazarlar uğrunda mübarizə kontekstində izah edilir. Xüsusilə İpək yolu üzərində yerləşən şəhərlərə nəzarət məsələsi iki dövlətin iqtisadi strategiyalarında mühüm rol oynamışdır. Müasir rus tarixçilərinin fikrincə, Cənubi Qafqaz və İran əraziləri yalnız hərbi-strateji deyil, həm də mühüm iqtisadi əhəmiyyətə malik olmuşdur ki, bu da region uğrunda rəqabətin güclənməsinə səbəb olmuşdur (22, c.132-238; 23, c.32-38; 24, s. 99-102).

Post-sovet dövrdə diqqəti cəlb edən digər konseptual istiqamət sivilizasiya yanaşmasıdır. Bu yanaşma çərçivəsində Səfəvi və Osmanlı dövlətləri yalnız siyasi qurumlar kimi deyil, həm də fərqli siyasi-mədəni modelləri təmsil edən imperiya sistemləri kimi təhlil edilir. Bu istiqamətin tərəfdarları hesab edirlər ki, iki dövlət arasındakı münasibətlərin izahı yalnız hərbi və iqtisadi amillərlə məhdudlaşdırıla bilməz. Burada siyasi legitimlik, dini ideologiya, imperiya idarəetmə strukturu və mədəni identiklik kimi faktorlar da mühüm rol oynayır. Bu baxımdan Səfəvi və Osmanlı dövlətləri İslam dünyasında siyasi liderlik və ideoloji nüfuz uğrunda rəqabət aparan iki böyük imperiya modeli kimi qiymətləndirilir.

Müasir Rusiya tarixşünaslığının mühüm xüsusiyyətlərindən biri də metodoloji plüralizmdir. Əgər sovet dövründə marksist metodologiya dominant mövqe tuturdusa, post-sovet mərhələdə müxtəlif metodoloji istiqamətlərin paralel şəkildə tətbiq edilməsi müşahidə olunur. Müasir tədqiqatlarda dini, siyasi, iqtisadi və mədəni faktorlar bir-birindən təcrid olunmuş şəkildə deyil, qarşılıqlı əlaqə daxilində araşdırılır. Bu isə Səfəvi-Osmanlı münasibətlərinin daha kompleks şəkildə izah edilməsinə imkan yaradır.

Bununla yanaşı, müasir Rusiya tarixşünaslığında mənbəşünaslıq bazasının genişləndirilməsi də diqqəti cəlb edən mühüm xüsusiyyətlərdəndir. Tədqiqatçılar yalnız rus və Avropa mənbələri ilə kifayətlənməyərək, Osmanlı türkcəsində və fars dilində yazılmış mənbələrdən də istifadə etməyə başlamışlar. Bu isə hadisələrin daha obyektiv və müqayisəli şəkildə araşdırılmasına şərait yaratmışdır. Bununla yanaşı, arxiv materiallarının və diplomatik sənədlərin sistemli şəkildə tədqiqi Səfəvi-Osmanlı münasibətlərinin bəzi mühüm aspektlərinin daha dərindən araşdırılmasına imkan vermişdir.

Müasir Rusiya tarixşünaslığında Səfəvi-Osmanlı münasibətlərinin interpretasiyasında müxtəlif konseptual yanaşmaların paralel şəkildə mövcud olduğu müşahidə olunur. Konfessional, geosiyasi, sosial-iqtisadi və sivilizasiya yanaşmaları bir-birini inkar etmədən, əksinə bir çox hallarda qarşılıqlı şəkildə tamamlayır və mövzunun daha çoxşaxəli şəkildə araşdırılmasına imkan yaradır.

Nəticə. Rusiya tarixşünaslığında Səfəvi-Osmanlı münasibətlərinin araşdırılması müəyyən mübahisəli və problemli məqamlarla müşayiət olunmuşdur. Birinci problem imperiya ideologiyasının təsiri ilə bağlıdır. XIX əsr tədqiqatlarında Osmanlı və Səfəvi dövlətləri çox vaxt Rusiya dövlətinin regional siyasəti fonunda qiymətləndirilmiş, hadisələrə imperiya maraqları prizmasından yanaşılmışdır. Bu isə müəyyən hallarda obyektivlik səviyyəsini məhdudlaşdırmış və qərəzliliyi ortaya çıxarmışdır. İkinci problem sovet dövründə ideoloji çərçivənin sərtliyi ilə bağlıdır. Marksist metodologiyanın dominantlığı dini və ideoloji faktorların rolunu azaltmış, hadisələri iqtisadi determinizm və sinfi mübarizə çərçivəsində izah etməyə üstünlük vermişdir, bu da öz növbəsində çoxşaxəli tarixi proseslərin sadələşdirilmiş şərhinə səbəb olmuşdur. Üçüncü məqam müasir dövrdə geosiyasi kontekstin təsiridir. Bəzi hallarda XVI-XVII əsrlərə aid hadisələrin müasir beynəlxalq münasibətlərlə paralellərin aparılması yanlış elmi nəticələrin çıxarılmasına səbəb olur, tarix elmində anaxronizm riskini yaradır.

Beləliklə, müxtəlif dövrlərdə siyasi və ideoloji kontekstin təsiri Rusiya tarixşünaslığında bu mövzunun interpretasiyasına müəyyən dərəcədə təsir göstərmişdir. Bu səbəbdən Səfəvi-Osmanlı münasibətlərinin öyrənilməsi prosesində mövcud tarixşünaslıq ənənələrinin tənqidi təhlili xüsusi əhəmiyyət kəsb edir. Bu cür yanaşma mövzunun daha obyektiv şəkildə qiymətləndirilməsinə və regionun siyasi tarixinin daha dolğun şəkildə rekonstruksiya edilməsinə imkan yarada bilər.

ƏDƏBİYYAT

1. Zeynalova S.Ə. Azərbaycan Ağqoyunlu dövlətinin milli mənsubiyyəti məsələsinin rus(sovet) tarixşünaslığında öyrənilməsinə dair // Tarix və onun problemləri, 2025 № 3, s.300-304.
2. Zeynalova S.Ə. XVI əsrdə Rusiyanın Xəzəryanı bölgədə müstəmləkəçilik siyasəti məsələlərinin Rusiya tarixşünaslığı (XX əsrin ortaları-XXI əsrin əvvəlləri) // Bakı Dövlət Universitetinin Xəbərləri. Humanitar seriyası, 2025 № 2, s.99-108
3. Çağlayan Y., Çağlayan E. Rus Tarihçilerinin Eserlerinde Güneydoğu Anadolu'nun Orta Çağ Tarihinin Araştırılmasına Dair (Batman Örneğinde) // Uluslararası Batman Sempozyumu (Batman, 28-29 Eylül 2022). Bildiri Kitabı, Batman Üniversitesi Yayınları, s.26-35.
4. Мухлинский А. Османская хрестоматия для университетского преподавания. Ч.1. Санкт-Петербург: Типография Императорской Академии, 1858 – 210 с; Ч. 2, 1859 – 270 с.
5. Смирнов В.Д. Крымское ханство под верховенством Оттоманской Порты до начала XVIII века. Санкт-Петербург: Университетская типография, 1887 – 774 с.
6. Смирнов В.Д. Кучибей Гомюрджинский и другие османские писатели XVII века о причинах упадка Турции. Санкт-Петербург: Типография В.Демакова, 1873 – 275 с.
7. Смирнов В.Д. Очерк истории турецкой литературы. Санкт-Петербург: Типография М.М. Стасюлевича, 1891 – 130 с.
8. Смирнов В.Д. Сборник некоторых важнейших известий и официальных документов касательно Турции, России и Крыма. Санкт-Петербург: 1881 – 356 с.
9. Чихачёв П.А. Страница о Востоке / Пер.с франц. и предисл.В.В.Цыбульского; Коммент. А.А. Кожуховской и М.В.Цыбульской. Москва: Наука. Главная редакция восточной литературы, 1982. – 216 с.
10. Данциг Б. М. Изучение Ближнего Востока в России (XIX-начало XX в.). Москва: Издательство «Наука», Главная редакция восточной литературы, 1968 – 212 с.
11. Гордлевский В. А. Избранные сочинения. Том 4. Исторические работы. Москва: Издательство «Наука», Главная редакция восточной литературы, 1960 – 551 с.
12. Крымский А. Е. История Турции и её литературы: В 2 т. Том 1. От возникновения до начала расцвета. Москва, 1916 – 279 с.
13. Крымский А. Е. История Персии, её литературы и дервишской теософии: В 3 т. Изд., перераб. совместно с Н.Фрейтагом. Том 3. От эпохи монголов Джингиз хана до водворения Сефевидов в Иране и Великих Моголов в Индии XVI-XVIII вв. Москва: Типография Улицкого и Голованского, 1917 – 468 с.
14. Бартольд В.В. Сочинения. Т. 2 (1). Общие работы по истории Средней Азии. Работы по истории Кавказа и Восточной Европы. Москва: Издательство «Наука», Главная редакция восточной литературы, 1963 – 1020 с.
15. Петрушевский И.П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI - начале XIX вв. Ленинград: Издательство Ленинградского Университета, 1949 – 182 с.
16. Иванов Н.А. Османское завоевание арабских стран. Москва: Издательство «Наука», Главная редакция восточной литературы, 1984 – 291 с.
17. Миллер А.Ф. Турция. Актуальные проблемы новой и новейшей истории. Москва: Главная редакция восточной литературы, 1983. – 281 с.
18. Новичев А.Д. История Турции. Том 1. Эпоха феодализма. Ленинград, Издательство Ленинградского Университета, 1963. – 314 с.
19. Gözəlova Y. H. Tarix elmində Yaqub Mahmudov məktəbi. Bakı: Təhsil, 2013 – 648 s.
20. Кораев Т.К. Московская Русь и Сафавидский Иран в Прикаспии XVI –XVII веков: соседство, соперничество, сосуществование // Исторический вестник, 2015, т. 11, с. 154-199.

21. Рахимзянов Б. Москва и татарский мир. Сотрудничество и противостояние в эпоху перемен. XV-XVI вв. Москва: Евразия, 2017 - 516 с.
22. Виноградов А.В. Внешняя политика Ивана IV Грозного // История внешней политики России. Т.1. Москва: Академический проект; Парадигма, 2018, s.132-238.
23. Асташкин Р.С. Позиция Персии по проблеме «русского транзита» в XVI-XVII вв.: сюжет о ширванских городах // Вестник Самарского университета. История, педагогика, филология, 2024, т.30, 3, с.32-38.
24. Fursov K.A. Russia and the Ottoman Empire: The Geopolitical Dimension, Russian Studies in History, 2018, 57, 2, pp.99-102.

СЕВИНДЖ ЗЕЙНАЛОВА
Старший преподаватель Бакинского государственного университета

ИССЛЕДОВАНИЕ СЕФЕВИДО-ОСМАНСКИХ ОТНОШЕНИЙ В РОССИЙСКОЙ ИСТОРИОГРАФИИ

В статье анализируются вопросы исследования отношений между Сефевидами и Османским государством в XVI-XVII веках в российской историографии. В рамках исследования рассмотрено изучение проблемы в российской историографии в три основных этапа: имперский, советский и постсоветский. На каждом этапе сравнительном образе оцениваются сформировавшиеся методологические подходы, идеологические рамки и концептуальные направления. В статье определены особенности конфессионального, геополитического, социально-экономического и цивилизационного подходов, проанализированы их взаимосвязь и процесс трансформации. Одновременно критически рассматриваются существующие методологические ограничения и проблемы интерпретации в российской историографии. В результате указано, что российская историография создала важную источниковедческую базу для изучения сефевидо-османских отношений, однако в разные периоды политико-идеологический контекст оказывал определённое влияние на научные подходы.

Ключевые слова: Сефевиды, Османское государство, российская историография, методологический подход, историческая интерпретация.

SEVINJ ZEYNALOVA
Senior lecturer at the Baku State University

THE STUDY OF SAFAVID-OTTOMAN RELATIONS IN RUSSIAN HISTORIOGRAPHY

The article examines the study of relations between the Safavid state and the Ottoman Empire in the XVI-XVII centuries within Russian historiography. The research considers the problem through three main stages of Russian historical scholarship: imperial, Soviet, and post-Soviet. At each stage, the methodological approaches, ideological frameworks, and conceptual directions are comparatively evaluated. The study identifies the characteristics of confessional, geopolitical, socio-economic, and civilizational approaches, analysing their interrelations and transformation over time. Simultaneously, the methodological limitations and interpretative challenges in Russian historiography are critically assessed. The findings demonstrate that Russian scholarship has established a significant empirical basis for studying Safavid-Ottoman relations, although political and ideological contexts have influenced scholarly interpretations at different historical periods.

Keywords: Safavids; Ottoman Empire; Russian historiography; methodological approach; historical interpretation.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 4 aprel 2026-cı il.
Məqalənin çapa qəbul olunma tarixi: 21 may 2026-cı il.
Rəyçilər: t.ü.f.d. Sayad Mehti-zadə, t.e.d. Anar İsgəndərov.

UOT 94(479.24)

ORUC QULİYEV
tarix üzrə fəlsəfə doktoru
AMEA-nın Mərkəzi Elmi Kitabxanasının Rəqəmsallaşma, innovasiya və elektron xidmətlər üzrə direktor müavini
oruj_guliev@mail.ru

BİR ƏSRİN İZİ İLƏ: AMEA MƏRKƏZİ ELMİ KİTABXANA – 100

DOI: https://doi.org/10.36719/2708-065X/113/281-288

Məqalə Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasının yüzillik inkişaf tarixini, elmi-informasiya mühitində tutduğu mövqeni və rəqəmsal transformasiya proseslərini sistemli şəkildə əks etdirir. Məqalədə kitabxananın formalaşma mərhələləri, struktur quruluşu və ənənəvi fondlarla yanaşı rəqəmsal resursların yaradılması və idarə olunması təhlil olunur. Dövlət səviyyəsində kitabxana işinin inkişafına göstərilən diqqət, Ulu Öndər Heydər Əliyevin milli-mədəni irsin qorunması və kitabxanaların strateji əhəmiyyətinin artırılması istiqamətində formalaşdırdığı siyasət, Prezident İlham Əliyevin rəhbərliyi dövründə isə rəqəmsallaşma, elektron kitabxana sistemlərinin qurulması və innovativ layihələrin həyata keçirilməsi məqalədə xüsusi vurğulanır. MEK-də elektron kataloqun formalaşdırılması, nadir və qiymətli nəşrlərin rəqəmsallaşdırılması, elektron kitabxana və uzaqdan xidmət modellərinin tətbiqi, beynəlxalq elmi məlumat bazalarına inteqrasiya kitabxananın fəaliyyətini keyfiyyətcə yeni mərhələyə yüksəltmişdir. Bununla yanaşı, innovativ elektron xidmətlərin tətbiqi, onlayn oxucu xidmətləri və elmi resurslara operativ çıxış imkanları MEK-in müasir rəqəmsal elmi-informasiya mərkəzi kimi mövqeyini möhkəmləndirmişdir. Beynəlxalq əməkdaşlıq çərçivəsində birgə rəqəmsal layihələrin icrası, xarici tərəfdaşlarla məlumat mübadiləsi və və s. kitabxananın qlobal elmi məkanla inteqrasiyasını təmin edən əsas amillər kimi təqdim olunur.

Açar sözlər: AMEA Mərkəzi Elmi Kitabxana; rəqəmsallaşma; elektron kitabxana xidmətləri; dövlət kitabxana siyasəti; beynəlxalq əməkdaşlıq; innovativ layihələr.

Giriş. Azərbaycanda kitabxana mədəniyyətinin tarixi cəmiyyətin mədəni və elmi inkişafı ilə paralel şəkildə formalaşmışdır. Kitabxana mədəniyyətinin təşəkküründə əsasən yazı mədəniyyətinin yayılması, əlyazmaların toplanması və qorunması, maarifçilik hərəkatı və ictimai kitabxana ənənələrinin meydana gəlməsi mühüm rol oynamışdır. Müasir dövrdə isə kitabxanaların modernləşdirilməsi, elektron resursların yaradılması, informasiya texnologiyalarının tətbiqi və beynəlxalq şəbəkələrə inteqrasiya kitabxana mədəniyyətini yeni mərhələyə yüksəltmişdir.

Azərbaycanda kitabxana işinin inkişafı dövlət siyasətinin mühüm istiqamətlərindən biri olmuşdur. Xüsusilə ulu öndər Heydər Əliyevin siyasi fəaliyyətində kitabxanaların rolu xüsusi əhəmiyyət kəsb etmişdir. Onun dövlətçilik konsepsiyasında kitabxanalar yalnız mədəniyyət müəssisəsi deyil, həm də maarifçilik, elmi informasiya və milli irsin qorunması mərkəzi kimi qiymətləndirilmişdir. 1970–1980-ci illərdə respublikanın sosial-iqtisadi və mədəni inkişafına dair qəbul olunmuş dövlət proqramlarında kitabxana şəbəkəsinin genişləndirilməsi və maddi-texniki bazasının möhkəmləndirilməsi əsas vəzifələrdən biri kimi müəyyənləşdirilmişdir [7, s.7]. Həmin dövrdə müxtəlif kitabxana fondlarının zənginləşdirilməsi, region kitabxanalarının yaradılması və onların oxucular üçün daha əlçatan olması istiqamətində mühüm addımlar atılmışdır. 1993-cü ildə Heydər Əliyevin xalqın tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdışından sonra kitabxana işi yeni mərhələyə qədəm qoydu. 1995-ci ildə qəbul edilən Azərbaycan Respublikasının ilk Konstitusiyasında hər kəsin məlumat əldə etmək hüququ təsbit olunaraq, kitabxana xidmətlərinin inkişafı üçün hüquqi baza yaradılmışdır. 1995-ci il sentyabr ayının 29-da isə ulu öndər Heydər Əliyev tərəfindən "Azərbaycan Respublikasında 1995-1998-ci illər dövlət mülkiyyətinin özəlləşdirilməsinin dövlət proqramının təsdiq edilməsi haqqında" fərman imzalandı [7, s.7]. Bu fərmanın birinci bölməsində özəlləşdirilməsi qadağan olunan müəssisə və obyektlərin siyahısı verilirdi. Bu siyahıya kitabxanaların daxil edilməsi onları özəlləşdirilmək və binalarının əllərindən alınması bəlasından xilas etdi. Ölkədə kitabxanaların qorunub saxlanması uğrunda mübarizə

başlandı. Qeyd edilənlərdən əlavə, Heydər Əliyevin təşəbbüsü ilə milli-mənəvi irsin qorunmasına xidmət edən layihələr həyata keçirilmiş, dünya və Azərbaycan ədəbiyyatının geniş oxucu kütləsinə çatdırılması istiqamətində dövlət dəstəyi təmin olunmuşdur. Xüsusilə, "Kitabxana işi haqqında" [4] Azərbaycan Respublikasının 1998-ci ildə qəbul edilmiş Qanunu bu sahədə sistemli dövlət siyasətinin əsasını qoymuşdur.

Ümummilli lider Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkənin sosial-iqtisadi və mədəni inkişafı ilə yanaşı, kitabxana işinin modernləşdirilməsi istiqamətində də ardıcıl və məqsədyönlü siyasət həyata keçirmişdir. Onun rəhbərliyi dövründə kitabxana sahəsində həyata keçirilən dövlət siyasəti müasir informasiya texnologiyalarının tətbiqi, rəqəmsallaşdırma, beynəlxalq inteqrasiya və regional inkişaf kimi mühüm istiqamətlərlə xarakterizə olunur. İlham Əliyevin son dövrlərdə kitab və kitabxana işinə dair imzaladığı böyük strateji əhəmiyyət kəsb edən sərəncamları və Dövlət Proqramları: "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında", "2005-2006-cı illərdə Azərbaycan dilində latın qrafikası ilə çapı nəzərdə tutulan əsərlərin siyahısının təsdiq edilməsi haqqında", "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)", "Bakı şəhərinin qəsəbələrinin sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair proqramı" və "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı" dediklərimizə parlaq sübutdur [9, s.6]. Xüsusilə, 6 oktyabr 2008-ci ildə qəbul olunmuş "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı" [2] kitabxana sistemində köklü islahatların hüquqi bazasını formalaşdırmışdır.

Əsas mətn. Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanası (MEK) ölkənin elmi ictimaiyyəti, xüsusilə alimlər və tədqiqatçılar üçün mühüm informasiya təminatı mərkəzidir. Bir əsrlik fəaliyyəti dövründə MEK keçmişlə gələcək arasında körpü rolunu oynayan nüfuzlu elm ocağına çevrilmişdir. 1925-ci ilin avqustun 19-unda "Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti"nin Mərkəzi Şurasının qərarı ilə Kitabxana-Biblioqrafiya Bürosu yaradılmışdır [13]. Bu addımın məqsədi elmi materialların sistemli şəkildə toplanması, işlənməsi və biblioqrafik təsnifatının təmin edilməsi olmuşdur. Kitabxana fəaliyyətə başladığı zaman fondunda cəmi 432 nüsxə sənəd mövcud olsa da, bir il sonra bu göstərici əhəmiyyətli dərəcədə artaraq 20 min nüsxəni keçmişdir. Yeni quruma həmin dövrdə elmi və mədəni mühitin tanınmış nümayəndəsi Hənəfi Zeynallı rəhbərlik etmişdir. Mərkəzi Elmi Kitabxana 1929-cu ildə Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin bazasında təşkil edilmiş Azərbaycan Elmi-Tədqiqat İnstitutunun, 1932-ci ildə Azərbaycan Dövlət Elmi Tədqiqat İnstitutunun əsasında yaradılan SSRİ Elmlər Akademiyası Zaqafqaziya filialı Azərbaycan şöbəsinin, 1935-ci ildən SSRİ Elmlər Akademiyası Azərbaycan filialının kitabxanası olaraq tarixi bir yol keçmişdir. Daha sonra 1945-ci ildə Azərbaycanda müstəqil Elmlər Akademiyasının yaradılması kitabxananın inkişaf tarixində yeni və strateji bir mərhələnin başlanğıcı olmuşdur [13]. Bu dövrdən etibarən kitabxanaya keçmiş Sovetlər Birliyində nəşr edilən bütün ədəbiyyatın məcburi pullu nüsxələrini əldə etmək səlahiyyəti verilmiş və bununla da fondun məqsədyönlü şəkildə komplektləşdirilməsi üçün geniş imkanlar yaranmışdır. Həmçinin həmin ildə kitabxananın adı dəyişdirilərək Azərbaycan SSR Elmlər Akademiyasının Əsaslı Kitabxanası adlandırılmışdır. 1972-ci ildə Mərkəzləşmiş Kitabxana Sisteminə çevrilən kitabxana 1978-ci ildən respublika miqyasında təbiət və dəqiq elmlər üzrə əsas depozitar kitabsaxlayıcı kimi fəaliyyət göstərmişdir, 1984-cü ildən isə Mərkəzi Elmi Kitabxana (MEK) adı ilə fəaliyyətini davam etdirmişdir. Azərbaycan Milli Elmlər Akademiyasının Nizamnaməsinin (Azərbaycan Respublikası Prezidentinin 4 yanvar 2003-cü il tarixli fərmanı ilə təsdiq olunmuş) 5-ci maddəsinin 54-cü bəndinə əsasən 2003-cü ildə MEK rəsmi şəkildə elmi müəssisə statusu almışdır [1]. Bu hüquqi status kitabxananın yalnız mədəniyyət müəssisəsi kimi deyil, həm də ölkə miqyasında fundamental elmi fəaliyyət göstərən təşkilat kimi mövqeyini möhkəmləndirmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan Milli Elmlər Akademiyasının, o cümlədən Mərkəzi Elmi Kitabxananın fəaliyyətinə göstərdiyi ardıcıl diqqət və dövlət qayğısı bu qurumun inkişafında mühüm əhəmiyyət kəsb etmişdir. Bu siyasətin praktiki təzahürü olaraq, 29 aprel 2011-ci il tarixində Prezident tərəfindən AMEA Mərkəzi Elmi Kitabxanası üçün müasir standartlara uyğun yeni binanın inşası barədə Sərəncam imzalanmış və beləliklə, elmi informasiya mühitinin yenilənməsi və infrastruktural imkanlarının genişləndirilməsi üçün yeni mərhələ açılmışdır.

2014-cü il mayın 5-də istifadəyə verilmiş MEK-in yeni binasının açılışında Azərbaycan Respublikasının Prezidentinin şəxsən iştirakı kitabxananın dövlət səviyyəsində strateji əhəmiyyətini bir daha təsdiqləmişdir [11].

1925-ci ildə Hənəfi Zeynallının rəhbərliyi ilə fəaliyyətə başlayan Mərkəzi Elmi Kitabxana bu gün artıq yüzillik zəngin inkişaf yolu keçmiş elmi-informasiya mərkəzi kimi tanınır. Həmçinin bu sahənin inkişafında görkəmli ədəbiyyatşünas-biblioqraf, professor Aleksandr Baqrinin də mühüm elmi və metodoloji töhfələri olmuşdur. Onun fəaliyyəti kitabxana-biblioqrafiya proseslərinin təkmilləşdirilməsi və elmi informasiya təminatının yüksəldilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Müxtəlif dövrlərdə kitabxanaya Fərrux Şabanov, Sofiya Kaplan, Aleksandr Skalovski, Aleksey Klimov, Sadıq Yəhyazadə, Mariya Karpinskaya, Yunis Tahirov, Nazim Axundov, Rasim Kazımov, Məhbubə Həsənova, Tamara Sadıqova, Əmin Əfəndiyev, Aybəniz Kəngərli, Leyla İmanova, Sevil Zülfüqarova, Məmməd Əliyev rəhbərlik etmişlər [14]. Onların hər biri fəaliyyət göstərdiyi dövrün tələblərinə uyğun şəkildə MEK-in strukturlaşdırılması, fondların zənginləşdirilməsi, elmi-biblioqrafik xidmətin təkmilləşdirilməsi, yeni texnoloji imkanların tətbiqi və beynəlxalq əlaqələrin genişləndirilməsi istiqamətində mühüm təşəbbüslər həyata keçirmişdir.

2024-cü il aprelin 2-də AMEA prezidentinin əmri ilə texnika elmləri doktoru, dosent Hüseyn Hüseynov Mərkəzi Elmi Kitabxananın direktoru vəzifəsinə təyin edilmişdir [12]. Onun rəhbərliyi dövründə kitabxananın fəaliyyəti müasir elmi-informasiya təminatının tələblərinə uyğunlaşdırılmış, rəqəmsal transformasiya proseslərinin sürətləndirilməsi istiqamətində mühüm addımlar atılmışdır.

AMEA-nın Mərkəzi Elmi Kitabxanasının (MEK) təşkilati-struktur quruluşu kitabxananın müasir inkişaf strategiyasına uyğun şəkildə formalaşdırılmışdır. Hal-hazırda MEK-in strukturunda "Komplektləşdirmə", "Kataloqlaşdırma", "Kitabxana fondlarının təşkili, mühafizəsi və istifadəsi", "Azərbaycanşünaslıq və Milli Rəqəmsal Yaddaş", "Heydər Əliyev və Azərbaycan dövlətçiliyi", "Biblioqrafiya" "Oxuculara xidmət", "Elektron resurslar", "Elektron xidmətlər", "Kitabxana resurslarının rəqəmsallaşdırılması və idarə edilməsi", "Reproqrafiya", "Beynəlxalq əlaqələr" və digər kitabxana xidmətləri üzrə ixtisaslaşmış şöbələr fəaliyyət göstərir. Bu şöbələrin hər biri kitabxananın funksional imkanlarını genişləndirir.

MEK hazırda respublikanın ən zəngin kitabxana fondlarından (1 milyon yarımdan çox) birini idarə edir. Fondun komplektləşdirilməsi məcburi nüsxə, nəşriyyat-poliqrafiya müəssisələrinin təqdim etdiyi ədəbiyyat, kitab ticarəti, beynəlxalq kitab mübadiləsi və şəxsi hədiyyələr hesabına həyata keçirilir. Kitabxanada "Nadir kitablar fondu", "Azərbaycan dilində ədəbiyyat fondu", "Dissertasiya və avtoreferatlar fondu", "Mübadilə fondu", "Xarici dillərdə ədəbiyyat fondu", "Qarabağ müharibəsi qəhrəmanları fondu" mövcuddur ki, bu fondlar oxucuların müxtəlif elmi və mədəni informasiya tələbatlarını ödəmək, həmçinin milli-mənəvi irsin qorunub saxlanılması və gələcək nəsillərə çatdırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

AMEA Mərkəzi Elmi Kitabxana son illərdə informasiya xidmətlərini kökündən yeniləyərək rəqəmsal dövrün çağırışlarına uyğunlaşdırmışdır. 2024-cü ilin sentyabrında AMEA prezidentinin iştirakı ilə kitabxananın həm yenilənmiş saytı, həm də yenilənmiş elektron kitabxanası istifadəyə verildi. Növbəti il, 2025-ci ilin iyul ayında isə elektron kitabxananın daha geniş funksionallıqlarla təkmilləşdirilmiş versiyası təqdim edildi. Artıq istifadəçilər kitabxanaya fiziki olaraq gəlmədən, istənilən yerdən və istənilən vaxt elektron xidmətlərdən faydalana bilirlər ki, bu da müasir informasiya dövrünün tələb etdiyi çevikliyi təmin edir [5, s.6].

Son iki il ərzində MEK-in rəsmi saytı tam şəkildə yenidən qurulmuş və müasir tələblərə uyğunlaşdırılmışdır. Yenilənmə çərçivəsində saytın kompüterlə yanaşı müxtəlif smart qurğularda da stabil və funksional şəkildə işləməsini təmin edən adaptiv dizayn tətbiq edilmişdir. Saytda MEK-in fəaliyyətini əks etdirən yeni rubrikaların yaradılması nəticəsində istifadəçilər kitabxananın şərəfli tarixi, nizamnaməsi, strukturu, rəhbərliyi, elmi-metodiki şurası, fondları və kolleksiyaları, maddi-texniki bazası haqqında geniş və sistemli məlumat əldə edə bilirlər. Eyni zamanda, kitabxananın fəaliyyətinin əsas istiqamətləri, onun tarixən formalaşmış "ilkləri" və digər kitabxanalardan üstünlükləri, eləcə də göstərilən xidmətlərin tam təsviri sayt vasitəsilə açıq şəkildə təqdim olunur. Saytın media bölməsi kitabxananın yenilikləri barədə ictimaiyyətin operativ şəkildə məlumatlandırılmasına xidmət edir.

Elektron kitabxananın yeni versiyası tamamilə fərqli imkanlar təqdim edir. Bu funksiyalar Azərbaycan kitabxana sistemində ilk dəfə olaraq yalnız MEK-də reallaşdırılıb. Azərbaycan Respublikası Prezidentinin 19 mart 2025-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün Süni İntellekt Strategiyası"na [3] uyğun olaraq, ölkənin kitabxana sistemində ilk dəfə olaraq elektron kitabxananın formalaşdırılmasında süni intellekt texnologiyalarından istifadə həyata keçirilmişdir. Bu çərçivədə süni intellekt əsaslı səs ilə ədəbiyyat axtarışı funksiyası tətbiq edilmiş, istifadəçilərin informasiya resurslarına daha operativ və əlçatan şəkildə çıxışını təmin edən innovativ xidmət modeli yaradılmışdır. Hazırda süni intellekt əsaslı ədəbiyyatın avtomatik təsnifatlaşdırılması sisteminin hazırlanması istiqamətində tədqiqatlar aparılır. Bununla yanaşı, inklüziv kitabxana xidmətlərinin genişləndirilməsi məqsədilə süni intellekt texnologiyalarının tətbiq perspektivləri araşdırılır. Oxucu sorğularının təhlili göstərmişdir ki, istifadəçilərin süni intellekt sahəsinə dair elmi-tədqiqat materiallarına marağı artmışdır. Bu tələbatı qarşılamaq üçün beynəlxalq tam mətn bazalarına və açıq girişli elmi jurnallara çıxış imkanları təmin edilmişdir.

Tətbiq olunan yeni funksiyalara daxildir: səsli axtarış, süni intelektə əsaslanan "Kitabxana bələdçisi", inklüziv xidmətlər ("Audio resurslar", "danışan kitablar" və "interaktiv audio materiallar"). Səsli axtarış vasitəsiylə oxucular sorğularını tez cavab əldə etmiş olurlar, süni intellekt əsaslı bələdçi isə kitabxananın resurslarını və xidmət imkanlarını intuitiv şəkildə təqdim edir. Həmçinin, kitabxana inklüziv xidmətləri ilə də fərqlənir. "Audio resurslar", "danışan kitablar" və "interaktiv audio materiallar" daha çox gözdən əlil və xüsusi ehtiyacı olan oxucuların rahat istifadə etməsi üçün nəzərdə tutulmuşdur.

Bunlardan əlavə, kitabxananın saytında e-kitabxana, e-kataloq, e-layihələr, e-sərgilər, audio fayllar, avtoreferatlar, xəritələr, e-jurnallar, e-biblioqrafiyalar və digər elektron materiallar istifadəçilərin ixtiyarına verilmişdir. MEK həmçinin oxuculara beynəlxalq elmi mənbələrə çıxış imkanı yaradır; sayt vasitəsilə 300-ə yaxın aparıcı kitabxanaya və 60 xarici elmi bazaya birbaşa keçid mövcuddur. Bu resurslar vasitəsilə istifadəçilər müxtəlif elmi sahələrdə axtarış aparmaq, məqalələri oxumaq və tədqiqat işləri üçün məlumat toplamaq imkanına malikdirlər.

Mərkəzi Elmi Kitabxananın e-layihələr bölməsi Azərbaycan elminin və mədəniyyətinin görkəmli simalarının irsini rəqəmsal mühitdə qorumaq və geniş ictimaiyyətə təqdim etmək məqsədi daşıyır. Bu istiqamətdə hazırlanmış "Akademik Zərifə Əliyeva" və "Bəxtiyar Vahabzadə" adlı layihələr xüsusi əhəmiyyət kəsb edir. "Akademik Zərifə Əliyeva" e-layihəsi tanınmış oftalmoloq alim, akademik Zərifə Əliyevanın həyat və fəaliyyətini əhatə edir. Burada alimin elmi tədqiqatları, nəşrləri, foto və video materialları, həmçinin xatirə resursları sistemləşdirilmiş şəkildə təqdim olunur. "Bəxtiyar Vahabzadə" e-layihəsində isə xalq şairi Bəxtiyar Vahabzadənin ədəbi irsinin, ictimai və pedaqoji fəaliyyətinin rəqəmsal mühitdə toplanmasına xidmət edir. Layihədə şairin əsərləri, yaradıcılıq arxivindən materiallar, audio və video məzmunlar, həmçinin onun şəxsiyyətinə dair mənbələr əksini tapır.

Elektron kitabxanada həmçinin "e-sərgi" adlı xüsusi bölmə fəaliyyət göstərir ki, burada müxtəlif mövzulara həsr olunmuş virtual sərgilər təqdim olunur. Bu sərgilər sırasında "Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev", "Mehriban Əliyeva", "Milli Musiqi Günü", "Xocalı soyqırımı", "Qərbi Azərbaycan", "Yaşıl dünya naminə həmrəylik ili", "20 Yanvar", "Azərbaycan Milli Elmlər Akademiyası – 80", "Konstitusiya və suverenlik ili", "Seyid Əzim Şirvani" və "Üzeyir Hacıbəyli – 140" kimi mövzulara dair virtual sərgilər yer alır.

Qeyd etmək lazımdır ki, elektron kitabxanada müxtəlif elm sahələrinə aid tammətnli kitablarla yanaşı, ölkəmizin siyasi, tarixi və mədəni yaddaşını əks etdirən xüsusi nəşrlər də yer alır. Xüsusilə, "Heydər Əliyev: Müstəqilliyimiz əbədidir" çoxcildliyi müstəqil dövlətçiliyimizin banisinin irsini öyrənmək üçün mühüm mənbədir. Eyni zamanda, "İlham Əliyev: İnkişaf məqsədimizdir" çoxcildliyi müasir Azərbaycanın siyasi, iqtisadi və sosial inkişaf yolunu əks etdirən qiymətli toplu kimi diqqəti cəlb edir.

Elektron kitabxanada həm də elmi və tarixi baxımdan əvəzsiz hesab olunan "Nadir kitablar" fondu istifadəçilərin ixtiyarına verilir. Bu bölmədə ölkənin elmi-mədəni irsi üçün xüsusi əhəmiyyət daşıyan, çap tarixi baxımından qədim və nadir nümunələr toplanmışdır. Bundan başqa, "Coğrafi, tarixi xəritələr" bölməsi də tədqiqatçılar, tələbələr və maraqlanan oxucular üçün olduqca dəyərli resurs sayılır.

Yenilənərək oxucuların istifadəsinə verilmiş elektron kitabxana istifadəçilərə yalnız kitab və xüsusi nəşrlərə çıxış imkanı yaratmaqla kifayətlənmir, həm də müxtəlif elmi və hüquqi bazalara birbaşa çıxışı təmin edir. Elektron kitabxana vasitəsilə respublikada ilk dəfə olaraq geniş sənəd kütləsini özündə birləşdirən 50 tammətnli məlumat bazasına çıxış imkanı yaradılmışdır. Bu bazalara misal olaraq EBSCO dissertasiya bazası, DOAB – Açıq giriş kitablar kataloqu, POLPRED – KİV icmalı, Ulusal Tez Merkezi, İksad yayın evi və Qanunvericilik bazası göstərilə bilər. Bundan əlavə, rəqəmsal kitabxanalar, IMF eLibrary, Open TextBook Library, Artefakt, Jurnal zalı və Project Gutenberg kimi resurslar da elektron kitabxanada mövcuddur. Patent və ixtira araşdırmaları üçün də geniş imkanlar təqdim edilir. Buraya Patent axtarışı, Avrasiya patent axtarış sistemi, Espacenet (150 milyondan çox patent), Rospatent axtarış sistemi, FPO IP Research Communities və PATENTSCOPE axtarış sistemi daxildir.

AMEA Mərkəzi Elmi Kitabxanasının (MEK) oxucuları artıq "ProQuest Central" multidissiplinar akademik məlumat bazasından limitsiz istifadə edə bilirlər. Bu imkan Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi ilə "Clarivate" şirkəti arasında bağlanmış müqavilə çərçivəsində yaradılıb. "ProQuest Central" dünyanın aparıcı nəşriyyatlarının (Cambridge Press, The New York Times, Springer, Sage, Elsevier, Emerald və s.) resurslarını birləşdirən geniş elmi bazadır. Platforma 43 min jurnal, 2.5 milyon konfrans materialı, 380 min dissertasiya, 470 min sənaye və ölkə hesabatı, 24 min audio-video material, 340 min situasiya araşdırması, 3.3 milyon preprint və 900-dən artıq xəbər mənbəyini əhatə edir [10].

Həmçinin, AMEA-nın institut və filiallarının fondlarının rəqəmsallaşdırılması məqsədilə "Korporativ Elektron Kitabxana İnformasiya Sisteminin yaradılması" layihəsi üzrə işlərə başlanmışdır. Bu sistem hər bir kitabxanaya öz rəqəmsal resurslarını səmərəli şəkildə kataloqlaşdırmağa, məlumatları rahat və operativ formada Verilənlər bazasına əlavə etməyə, onları etibarlı şəkildə mühafizə etməyə və bu resurslara operativ əlçatanlığı təmin etməyə imkan verəcək. Hazırda Ədəbiyyat İnstitutu bu sistemə qoşulmuşdur və institut kitabxanası öz rəsmi saytı vasitəsilə oxuculara xidmət göstərir. İlin sonunadək Fəlsəfə İnstitutunun da AMEA-nın Korporativ Elektron Kitabxana İnformasiya şəbəkəsinə qoşulmasının tamamlanması planlaşdırılır.

Bu günə qədər e-kitabxana üçün 55000-dən artıq tam mətnli kitab hazırlanmış, onlardan 41000-dən çoxu sayt vasitəsilə oxucuların istifadəsinə təqdim edilmişdir. Qeyd etmək lazımdır ki, 2024-cü ilin aprel ayına qədər bu göstərici cəmi 2700 nüsxə təşkil edirdi. Elektron kataloqda isə resursların sayı 805000-ə çatmışdır. Sürətli inkişafın təmin olunmasında son bir ildə alınmış yeni skan aparatlarının tətbiqi xüsusi əhəmiyyət kəsb etmişdir. 2025-ci ildə açıqlanan rəsmi hesabatda MEK-in fəaliyyət istiqamətlərinə dair bir sıra mühüm məqamlar qeyd olunub. Beləki, elektron kitabxanada hal-hazırda 32 mindən çox tammətnli resurs yerləşdirilmişdir. Bunlardan 21042-ni e-kitab, 587-ni biblioqrafiya, 116-nı nadir kitablar, 9044-nü avtoreferat, 2799-nu jurnal və digər resurslar əhatə etməkdədir [6, s.8].

Kitabxanada ilk dəfə tətbiq olunan innovativ xidmət növlərindən biri də infoköşklər vasitəsilə oxuculara təqdim edilən sərbəst axtarış imkanlarıdır. Bu sistem kitabxanaçı və ya biblioqrafın birbaşa köməyinə ehtiyac olmadan istifadəçilərə axtardıqları informasiya resurslarının kitabxana fondlarında mövcudluğunu müstəqil şəkildə müəyyənləşdirməyə şərait yaradır. Əlavə olaraq, əgər axtarılan mənbə kitabxanada mövcuddursa, oxucular elektron sistem üzərindən şəxsi oxucu biletlərindən istifadə etməklə həmin materialı rahat və operativ şəkildə sifariş edə bilirlər. Həmçinin oxucu bundan əlavə mail və whatsapp vasitəsi ilə də biblioqraf ilə birbaşa əlaqə yaradaraq istənilən sorğusuna cavab əldə edə bilər.

Mərkəzi Elmi Kitabxananın 100 illik yubileyi çərçivəsində həyata keçirilən yenidənqurma işləri çərçivəsində Akademiklər zalı modernləşdirilərək tam elektron kitabxana standartlarına uyğun formada təşkil edilmişdir.

Eyni zamanda qeyd etmək lazımdır ki, son zamanlarda Mərkəzi Elmi Kitabxana beynəlxalq əməkdaşlıq fəaliyyətini davamlı şəkildə genişləndirməyə başlamışdır. Kitabxana bu çərçivədə xarici elmi və mədəni təşkilatlarla, ali təhsil müəssisələri ilə, həmçinin Azərbaycandakı və xaricdəki diplomatik nümayəndəliklərlə qarşılıqlı əlaqələr qurur, birgə layihələr icra edir və təcrübə mübadiləsi aparır. Hazırda MEK 46 ölkədən 129 təşkilat və 88 elmi nəşrlə əlaqələrini möhkəmləndirib və ölkəmizin xaricdəki diplomatik strukturları ilə müntəzəm əməkdaşlıq edir.

Kitabxana-informasiya sahəsi üzrə fəaliyyət göstərən beynəlxalq təşkilatların rəhbərlərinin, məsul şəxslərinin Mərkəzi Elmi Kitabxanaya mütəmadi olaraq səfərləri olmuşdur. Belə təşkilatlara nümunə olaraq, EBSCO-nun MDB üzrə meneceri Aleksandr Rıtov, "İnformascope" şirkətinin Türkiyədə elektron bazalar üzrə satış müdiri, Elsevier nəşr evinin təmsilçisi Ümid Yonter, ANKOS prezidenti İsmail Çetinkaya, Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin (TİKA) Bakı proqram koordinatoru Hayrettin Özçelik, Türkiyənin "Kobikom telekommunikasiya" şirkətinin idarə heyətinin sədri Orxan Kirman və s. göstərilə bilər. Bu səfərlər çərçivəsində əməkdaşlığın genişləndirilməsi, təcrübə mübadiləsi və gələcək birgə layihələrin reallaşdırılması məqsədilə işgüzar görüşlər təşkil olunmuşdur. Eləcə də, kitabxananı müəyyən dövrlərdə ziyarət edən tanınmış və nüfuzlu simaların – Nobel mükafatı laureatı Əziz Sancarın, Şimali Kipr Türk Cümhuriyyətinin təhsil naziri Nazim Çavuşoğlunun, Qazaxıstan Sənaye və tikinti nazirinin müavini Raxımjan İsakulovun, İraq Respublikasının Strateji Araşdırmalar Mərkəzinin rəhbəri Mutaz Muhi Əbdülhəmidin, Sinqapur və Asiya Məktəbləri Riyaziyyat Olimpiadasının prezidenti Henri Ongun və s. şəxslərin - iştirakı qurumun həm milli, həm də beynəlxalq miqyasda elm, informasiya və mədəniyyət məkanı kimi yüksək nüfuz qazandığını göstərən mühüm göstəricilərdən biridir.

Kitabxananın elmi və mədəni proseslərdə aktiv iştirakının bariz göstəricilərindən biri də onun müxtəlif tədbirlərə ev sahibliyi etməsidir. Əlamətdar tədbirlərin, kitab təqdimatlarının və digər elmi-mədəni proqramların mütəmadi olaraq burada keçirilməsi isə kitabxananın elmi ictimaiyyət üçün əhəmiyyətli intellektual mühit formalaşdırdığını nümayiş etdirir.

MEK-in yüzillik yubileyi ilə bağlı müxtəlif formatlarda həyata keçirilən tədbirlər də diqqətəlayiqdir. Yubiley çərçivəsində maarifləndirici materialların nəşri, televiziya süjetlərinin hazırlanması və tematik sərgilərin təşkili kitabxananın tarixi inkişaf yolunu, zəngin fondlarını və beynəlxalq tərəfdaşlıq əlaqələrini ictimaiyyətə daha geniş şəkildə təqdim edib. Bundan əlavə, yubiley münasibətilə həyata keçirilən onlayn təşəbbüslər sırasında "100 yaşlı kitabxana" adlı virtual sərgi və kitabxananın 100 illik yubileyinə həsr olunmuş sənədli film xüsusi maraq doğurub. Həmçinin 21 noyabr tarixində Mərkəzi Elmi Kitabxananın 100 illik yubileyi ilə əlaqədar Beynəlxalq Elmi Konfrans da keçirilib. Beynəlxalq Elmi Konfransda 7 ölkənin – Azərbaycan, Türkiyə, Özbəkistan, Qazaxıstan, Polşa, Belarus və Rusiyanın 38 təşkilatı iştirak edirdi.

Digər əhəmiyyətli yeniliklərdən biri Mərkəzi Elmi Kitabxananın hər ayın ilk iki iş günü həyata keçirdiyi "Açıq qapı" günləri layihəsidir. Bu təşəbbüs, MEK-in cəmiyyətin informasiya təminatının səviyyəsini yüksəltmək və istifadəçi bazasını genişləndirmək məqsədilə həyata keçirdiyi tədbirlər kompleksinin mühüm komponenti kimi xüsusi əhəmiyyət kəsb edir. Eyni zamanda, respublikamızın davamlı inkişafında əhəmiyyətli rol oynayan könüllülük hərəkatı da ilk dəfə AMEA-nın Mərkəzi Elmi Kitabxanasında reallaşdırılmışdır.

Mərkəzi Elmi Kitabxananın yüzillik yubileyi bu gün yalnız bir müəssisənin tarixi yolunun qeyd olunması ilə məhdudlaşmır, eyni zamanda Azərbaycanda elmin, mədəniyyətin və maarifçiliyin inkişafında onun oynadığı mühüm rolu nümayiş etdirir. Yubiley tədbirləri kitabxananın zəngin fondlarını, müasir informasiya resurslarını, beynəlxalq əməkdaşlıq imkanlarını və rəqəmsal xidmətlərini geniş ictimaiyyətə təqdim etməklə, onun cəmiyyətin intellektual həyatında əvəzsiz bir mərkəz olduğunu bir daha təsdiqləyir.

Nəticə. Hazırda Mərkəzi Elmi Kitabxananın yüzillik yubileyi kitabxana tarixində mühüm bir mərhələ olaraq çıxış edir və bu hadisə kitabxananın təkcə keçmişi deyil, həm də gələcək inkişaf hədəflərini cəmiyyətə nümayiş etdirməsinə imkan yaradır. MEK qazanılan uğurlarla kifayətlənmir. Gələn il üçün süni zəka əsaslı mobil Elektron kitabxana layihəsinin istifadəyə verilməsi planlaşdırılır. Həmçinin Azərbaycanın görkəmli Elm və mədəniyyət xadimlərini dünyaya daha yaxından tanıtdırmaq məqsədilə onlara aid sillsilə elektron layihələrin yaradılması planlaşdırılır. Beləliklə, MEK bu gün milli-mədəni yaddaşın qorunması, elmin inkişafına dəstək və maarifçilik missiyasının həyata keçirilməsi baxımından öz mövqeyini möhkəmləndirir və yeni əsrə daha güclü addımlarla daxil olur.

ƏDƏBİYYAT

1."Azərbaycan Milli Elmlər Akademiyasının Nizamnaməsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı

2.“Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı”nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı
3.“Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt Strategiyası”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı
4.“Kitabxana işi haqqında” Azərbaycan Respublikasının Qanunu
5.Günel. AMEA-nın Mərkəzi Elmi Kitabxanası: elmi və mədəni dəyərlər xəzinəsi //525-ci qəzet.- 2011.- 2 mart.- S.6.
6.Əliyeva, A. Rəqəmsal bilik xəzinəsinə doğru //Xalq qəzeti.- 2025.- 14 avqust (№169).- S.8.
7.Xələfov, A. Heydər Əliyev və Azərbaycanda kitabxana işi.- Bakı: Azərnəşr, 2006.- 312 s.
8.Quliyev, O. Azərbaycan elminin biliklər xəzinəsi //Xalq qəzeti.- 2025.- 6 dekabr.- S.12.
9.Tahirov, K. Kitabxana sahəsinə dövlət qayğısı //Azərbaycan.- 2008.- 18 noyabr.- S.6.

Elektron resurslar

10.Tarixi. - https://mek.org.az/tar.php [28.02.2026].
11. İlham Əliyev Azərbaycan Milli Elmlər Akademiyası Mərkəzi Kitabxanasının yeni binasının açılışında iştirak etmişdir.- https://president.az/az/articles/view/11646 [28.02.2026].
12. AMEA Mərkəzi Elmi Kitabxanasına yeni direktor təyin olunub.- https://report.az/elm-ve-tehsil-xeberleri/huseyn-huseynov-amea-merkezi-elmi-kitabxanasinin-direktoru-vezifesine-teyin-olunub [28.02.2026].
13. Mərkəzi Elmi Kitabxananın inkişaf mərhələləri. - https://science.gov.az/az/news/open/31935 [28.02.2026].
14. MEK oxucularına “ProQuest Central” akademik məlumat bazasından istifadə imkanını təqdim edir. - https://science.gov.az/az/news/open/33642 [28.02.2026].

ОРУДЖ ГУЛИЕВ
Заместитель директора по цифровизации, инновациям и электронным услугам Центральной научной библиотеки АНАН

НА ПУТИ СТОЛЕТИЯ: ЦЕНТРАЛЬНАЯ НАУЧНАЯ БИБЛИОТЕКА ANAS – 100

В статье систематически отражена столетняя история развития Центральной научной библиотеки Азербайджанской национальной академии наук, ее место в научно-информационной среде и процессы цифровой трансформации. Анализируются этапы формирования библиотеки, ее структурная целостность, а также создание и управление цифровыми ресурсами наряду с традиционными фондами. Особое внимание уделяется развитию библиотечной работы на государственном уровне, политике, проводимой Великим Вождем Гейдаром Алиевым по защите национального культурного наследия и повышению стратегического значения библиотек, а также цифровизации, созданию электронных библиотечных систем и реализации инновационных проектов во время руководства Президента Ильхама Алиева. Формирование электронного каталога в Центральной научной библиотеке, оцифровка редких и ценных публикаций, применение моделей электронной библиотеки и дистанционного обслуживания, а также интеграция в международные научные базы данных подняли деятельность библиотеки на качественно новый уровень. Одновременно с этим, применение инновационных электронных сервисов, онлайн-сервисов для читателей и оперативного доступа к научным ресурсам укрепило позиции Центральной научной библиотеки как современного цифрового научно-информационного центра. В качестве основных факторов, обеспечивающих интеграцию библиотеки в глобальное научное пространство, представлены реализация совместных цифровых проектов в рамках международного сотрудничества, обмен информацией с зарубежными партнерами и т.д.

Ключевые слова: Центральная научная библиотека НАНА; цифровизация; электронные библиотечные услуги; государственная библиотечная политика; международное сотрудничество; инновационные проекты.

ORUJ GULIYEV
Deputy Director for Digitization, Innovation and Electronic Services of the Central Scientific Library of ANAS

IN THE FOOTSTEPS OF A CENTURY: ANAS CENTRAL SCİENTİFİC LİBRARY - 100

The article systematically reflects the century-long development history of the Central Scientific Library of the Azerbaijan National Academy of Sciences, its position in the scientific-information environment, and digital transformation processes. The article analyzes the stages of the formation of the library, its structural structure, and the creation and management of digital resources along with traditional funds. The attention paid to the development of library work at the state level, the policy formulated by the Great Leader Heydar Aliyev to protect the national cultural heritage and increase the strategic importance of libraries, and the digitization, establishment of electronic library systems, and implementation of innovative projects during the leadership of President Ilham Aliyev are especially emphasized in the article. The formation of an electronic catalog in the Central Scientific Library, the digitization of rare and valuable publications, the application of electronic library and remote service models, and integration into international scientific databases have raised the library's activities to a qualitatively new level. At the same time, the application of innovative electronic services, online reader services, and operational access to scientific resources have strengthened the position of the Central Scientific Library as a modern digital scientific-information center. Implementation of joint digital projects within the framework of international cooperation, information exchange with foreign partners, etc. are presented as the main factors ensuring the integration of the library into the global scientific space.

Keywords: ANAS Central Scientific Library; digitization; electronic library services; state library policy; international cooperation; innovative projects.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 28 fevral 2026-cı il.
Məqalənin çapa qəbul olunma tarixi: 21 may 2026-cı il.
Rəyçilər: p.ü.f.d. Nadir İsmayılov, t.e.d. İbrahim Zeynalov.

Yubileylər, xatirələr
Bizdən ayrı düzənlərə borcumuzdur bu ehtiram ...

ŞÖVQİ GÖYÇAYSKİ
Bakı Dövlət Universitetinin professoru,
Coğrafiya elmləri doktoru

ZƏHMƏTKEŞ ALIM, QAYĞIKEŞ MÜƏLLIM, DƏYƏRLI ZIYALI: SABİR KƏRİMOV - 100

DOI: https://doi.org/10.36719/2708-065X/113/289-291



Keçmiş nəsillərin yaratdığı maddi mədəniyyət abidələri, ənənələr, muğamlarımız, milli ornamentlərimiz, xalq mahnılarımız, təbii nemətlərimiz və sərvətlərimiz, milli mətbəximiz və s. öyrənilir və qorunur. Göstərilənlərin bir çoxunu yaşadan insanlar, onların təcrübələri, əmək vərdişləri, vətənpərvərliyi, dözümlüyü, ruhaniliyi aparıcı rola malik olmuşdur. Belə insanları yada salmaq, onun keçmişindən bəhs etmək özü də bir mənəvi borcdur.

Zaman amansız olsa da, bəzi insanlar öz əməlləri və şəxsiyyətləri ilə ona qalib gəlməyi bacarırlar. Bu il Azərbaycanın görkəmli tarixçi alimi, təhsil fədaisi, şərəfli ömür yolu keçmiş Sabir Mülküm oğlu Kərimovun anadan olmasının 100 illiyi qeyd olunur.

Sabir müəllimi tanıyan hər kəsə məlumdur ki, o, universitet divarları arasında yalnız bir müəllim deyil, həm də zəhmətkeş alim, nəcib ziyalı, əsl vətəndaş və sadiq dost idi. Alim ömrünün 50 ilini Azər-

baycan tarix elminin müxtəlif problemlərinin araşdırılmasına, vətən tarixinin təbliğinə, tədrisinə sərf etmişdir. O, ləyaqətin, comərdliyin canlı timsalı idi. Məhz ona görə də ona yaxın olanlar, dostları, sevdikləri onunla fəxr etmişlər. Sabir müəllimin oturub-durduğu istər cavan, istər yaşlı adamlar onun təbiətinə yaxın idilər. Onun münasibətlərində təmənna ola bilməzdi. Valideynləri üçün dəyərli övlad idi.

Həyat elə gətirdi ki, bizim nəsil 1990-cı illərdə zamanın dəyişdiyini, ruzigarın soyuq üzünü gördük. Doğma, dost saydıqlarımızın bir çoxu ögeyləşdilər. Sabir müəllim isə dürüst insan kimi elə Sabir müəllim olaraq qaldı.

Sabir Kərimov 12 fevral 1926-cı ildə Quba rayonunun Digah kəndində anadan olmuşdur. 1941-ci ildə kənd orta məktəbini bitirmişdir. 1946-cı ildə Quba Dövlət İnstitutunun dil-ədəbiyyat fakültəsini qurtardıqdan sonra Azərbaycan Dövlət Universitetinin (indi BDU) Tarix fakültəsinə daxil olmuşdur. 1951-ci ildə universiteti bitirdikdən sonra Nügədi kənd orta məktəbində tarix müəllimi, həm də dərs hissə müdiri vəzifəsində işləmişdir. 1955-ci ildən 1959-cu ilədək S.Kərimov Quba şəhər 1 və 3 saylı orta məktəblərində tarix müəllimi, Quba şəhər 8 saylı Kənd Təsərrüfatının Mexanikləşdirilməsi məktəbində siyasi fənn müəllimi və siyasi tərbiyə işləri üzrə direktorun köməkçisi vəzifələrində çalışmışdır. 1959-cu ildə o, Quba rayon mədəniyyət şöbəsinin müdiri vəzifəsinə təyin edilmişdir.

1961-ci ildə S.Kərimovun həyatında yeni mərhələ başlamışdır. O, həmin il BDU-nun "SSRİ tarixi" kafedrasının aspirantı, aspirant müddəti başa çatdıqdan sonra həmin kafedranın baş laborantı, çox keçmədən müəllim, baş müəlim, 1975-ci ildən isə dosent olmuşdur. 1973-1976-cı illərdə S.Kərimov universitetin Tarix fakültəsinin dekan müavini vəzifəsində çalışmışdır. 1986-cı ildə Azərbaycan Dövlət Universitetində Tarix fakültəsinin partiya təşkilatının katibi vəzifəsində fəaliyyət göstərmişdir.

Göstərilən məsuliyyətli dövlət və ictimai işləri ilə yanaşı, o, daim elmi tədqiqatları ilə də məşğul olmuşdur. 1973-cü ildə böyük müvəffəqiyyətlə "Azərbaycan kəndində mədəni quruculuq" (1922-1932) mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. Apardığı elmi tədqiqatları və dərc etdirdiyi əsərləri ilə o, adını mədəni quruculuq sahəsində Azərbaycan tarixşünaslığı salnaməsinə həkk etdirmişdir. S.Kərimov ən müxtəlif mövzularda yazılan tematik məcmuələrin, kafedra əməkdaşlarının əsərlərinin redaktoru olmuşdur. Eyni zamanda tələbələr üçün tədris-metodiki ədəbiyyatın hazırlanıb buraxılmasında da fəallıq göstərmişdir.

Postsovet məkanında hər bir məsələnin Moskvada həll olunduğu kimi, dərs vəsaitləri və dərsliklər də rus dilində hazırlanırdı. Onların Azərbaycan dilinə tərcümə edilməsində S.Kərimov böyük əmək sərf etmişdir. Onun iştirakı ilə İ.B.Berxinin keçmiş ittifaqa dair 2 hissədən ibarət "SSRİ tarixi" dərsliyi, 1980-1982-ci illərdə, P.L.Kabanovun rəhbərliyi ilə yenə 2 hissədən ibarət "SSRİ tarixi" 1985-ci ildə çapdan çıxmışdır. Bununla böyük bir kursun nəşrinə səy göstərmişdir. Kitabların tərcüməsində və nəşrində Sabir müəllimin əməyi böyük olmuşdur.

Respublikanın ali məktəblərinin hazırlıq şöbələrinin pedaqoq və dinləyiciləri üçün tarix fənni üzrə proqramın tərtibi və nəşr edilməsi də S.Kərimovun adı ilə bağlıdır. O, həmin illərdə tarixçi kadrların hazırlanmasının keyfiyyətcə yüksəldilməsi, tarix elminin tədrisinin yenidən qurulması, tədris planlarının təkmilləşdirilməsi üçün genişmiqyaslı fəaliyyət göstərmişdir.

Ümumiyyətlə, S.Kərimovun elmi fəaliyyətində 1920-ci illərin sonu - 1930-cu illərin əvvəllərində Azərbaycan kəndində mədəni-maarif işi, savadsızlığın ləğvi uğrunda aparılan mübarizə, 1920-1975-ci illərdə kənd əhalisinin sosial-peşə tərkibi və təhsil səviyyəsi, Azərbaycan SSR əhalisinin milli tərkibi, alman faşistləri üzərindəki qələbəyə Azərbaycan alimlərinin töhfəsi və başqa məsələlər əsas istiqamətlər kimi üstünlük təşkil etmişdir. "Azərbaycanda orta ixtisas təhsilinin inkişafı" adlı 1990-cı ildə 36.6 çap vərəqi həcmində nəşr edilmiş sanballı tədqiqat əsərinin həmmüəlliflərindən biri olmuşdur.

S.M.Kərimov dəfələrlə müxtəlif səviyyədə elmi forumlarda dəyərli, sanballı məruzələrlə çıxış etmiş, Azərbaycan tarix elmini ləyaqətlə təmsil etmişdir. Onun Polşanın Lodz Universitetində keçirilən beynəlxalq simpoziumda "Azərbaycan SSR-də tələbə gənclərin beynəlmiləl tərbiyəsi" mövzusunda çıxışı iştirakçıların böyük rəğbətinə səbəb olmuşdur.

S.Kərimovun həyatında elmi-tədqiqat işləri mühüm yer tutmuşdur. Lakin onun fəaliyyətinin əsas qayəsini müəllimlik işi təşkil etmişdir. O, bu müqəddəs peşəyə qəlbinin hərarətini, zəngin intellektual potensialını, sınaqlardan çıxmış təcrübəsini gətirə bilmişdir. Odur ki, onun yüksək ixtisasa sahib olan keçmiş tələbələri bu gün cəmiyyət həyatının müxtəlif sahələrində uğurla çalışırlar.

Onun keçmiş tələbələri S.Kərimovun istər "SSRİ tarixi", istərsə də 1991-ci ildən adı dəyişdirilib "Türk və Qafqaz xalqlarının tarixi" kafedrasının dosenti kimi oxuduğu mühazirələri dərin elmi məziyyətinə, izahların səlisliyinə görə məmnuniyyətlə xatırlayırlar. Onun mühazirələri yalnız elmi biliklərin ötürülməsi deyil, həm də həyat fəlsəfəsinin, mənəviyyatın və vətənpərvərliyin aşılanması idi. Hər bir dərsinə bir bayram əhvali-ruhiyyəsi ilə gələr, auditoriyanı öz intellekti və xarizması ilə fəth edərdi. S.Kərimov işinə məsuliyyətlə, xüsusi prinsipiallıqla yanaşmaqla bahəm, həm də çox qayğıkeş, humanist, beynəlmiləl məramlı bir insan idi.

S.Kərimov məhsuldar elmi-pedaqoji fəaliyyətinə görə dəfələrlə təşəkkürlər almış, fəxri-fərmanlarla təltif edilmişdir. Bakı Dövlət Universitetinin 75 illiyi münasibətilə ona xatirə medalı təqdim olunmuşdur. Əlbəttə, bunlar Sabir Kərimovun həyatına əbədiyyət möhürü vuran sənədlər idi. Amma onun ömrünün əsl ölməzlik göstəriciləri yetişdirdiyi tələbələri və övladları olmuşdur. Böyük oğlu Rafiq Kərimov şərqşünaslığı özünə peşə seçərək hazırda Moskvada fəaliyyət göstərir. Kiçik oğlu Elmar Kərimov isə hüquqşünasdır. Çox fərəhli haldır ki, Sabir müəllimin çoxsaylı tələbələri kimi, doğma qızı Tamilla xanım da onun yolunun layiqli davamçısı olmuşdur. Tamilla Kərimova-Kocayeva hazırda AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçisidir. O da mədəniyyət tariximizin çox zəhmətkeş tədqiqatçılarından biridir. Alim "Azərbaycan Milli Elmlər Akademiyasının tarixindən" (rus dilində, Bakı, 2005), "Azərbaycan Milli Elmlər Akademiyasının yaradılması" (Bakı, 2015) adlı və 15 fundamental elmi əsərlərin müəllifidir. Tamilla xanımın əsərləri bütövlükdə Azərbaycan tarixşünaslığına, ən başlıcası isə, atası Sabir müəllimin ruhuna layiqli bir hədiyyədir. O, tarix elmləri doktorudur. Sabir müəllimin qoyub getdiyi irs - yetişdirdiyi minlərlə mütəxəssis, yazdığı dəyərli əsərlər və qəlblərdə qurduğu mənəvi taxt onu hər zaman yaşadır.

Bu il fevral ayında Sabir Mülküm oğlu Kərimovun anadan olmasının 100 ili tamam olur. S.Kərimov onun təhsil aldığı və yenidən müəllim kimi sıralarına qayıtdığı Bakı Dövlət Universitetinin Tarix fakültəsinin ən qabaqcıl fakültələrindən olmuşdur. Fakültə kollektivinin ənənələrinə sadiq qalaraq Sabir müəllim və onun həmkarları Universitetin adını şərəflə və layiqincə qorumuşlar. Onlardan sonra gələnlərin çoxsaylı tələbələrinin, ənənələrə sadiq olduğundan məmnunluq duyuruq.

Sabir Kərimov layiqli tələbə, fədakar müəllim, nüfuzlu tarixçi alim olmaqla yanaşı, həm də çox alicənab, mərd, təvazökar, təmiz, saf, xeyirxah, zəngin elmi yaradıcılıq düşüncəsinə malik insan idi, gözəl ailə başçısı, qayğıkeş ata, səmimi dost, övlad, qardaş idi. Sabir müəllim bütün hallarda ədalətdi idi. Ziyalılığı bütün hallarda hiss olunurdu. Eyni zamanda prinsipial, qorxmaz idi. Kişilik meydanında geri çəkilən deyildi... Ruhu şad olsun!

Məqalə redaksiya heyətinin qərarı ilə nəşr edilib.

Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən elmi nəşrlər qarşısında qoyulan tələblər

- Məqalələrdə müəllif(lər)in adı və soyadı açıq şəkildə, elmi adı və dərəcəsi, işlədiyi müəssisə, həmçinin elektron poçt ünvanı göstərilməlidir.

- Məqalələr Azərbaycan, rus və ingilis dillərində çap oluna bilər. Məqalənin yazıldığı dildə annotasiya, əlavə digər 2 dildə xülasə verilməlidir. Xülasənin üstündə məqalənin adı mütləq göstərilməlidir. Xülasələr bir-birinin eyni olmalı və məqalənin məzmununu əks etdirməli, elmi və qrammatik baxımdan ciddi redaktə olunmalıdır.

- Məqalələrin mətnləri azərbaycan dilində latın əlifbası, rus dilində kiril əlifbası və ingilis dilində (ABŞ) əlifbası ilə Times New Roman-14 şrifti ilə, 1,5 intervalla 8-12 səhifə həcmində qəbul edilir (A4 format, səhifənin ölçüləri: yuxarı – 2 mm, aşağı – 2,5 mm, sol – 3 mm, sağ – 1,5 mm).

- Məqalədə UOT indekslər, 3 dildə açar sözlər göstərilməlidir.

- Məqalə Giriş, Əsas mətn (yarımbaşlıqlar göstərilməklə) və Nəticə hissələrindən ibarət olmalıdır. Məqalədə elm sahəsinin xarakterinə uyğun olaraq elmi işin yeniliyi, müəllifin gəldiyi nəticə aydın şəkildə verilməlidir.

- Mövzu ilə bağlı elmi mənbələrə istinadlar olmalıdır. Məqalənin sonunda verilən ədəbiyyat siyahısı ya əlifba ardıcıllığı ilə, ya da mətndə rast gəlindiyi ardıcıllıqla və [1] və ya [1, s.119] kimi nömrələnməlidir. Eyni ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad olunarsa, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir.

- Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Elmi məqalələrə, simpozium, konfrans və digər nüfuzlu elmi tədbilərin materiallarına və ya tezislərinə istinad edərkən məqalənin, məruzənin və ya tezisin adı göstərilməlidir. İstinad olunan mənbənin biblioqrafik təsviri verilərkən Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının "Dissertasiyaların tərtibi qaydaları" barədə qüvvədə olan təlimatının "İstifadə edilmiş ədəbiyyat" bölməsinin 10.2 – 10.4.6. tələbləri əsas götürülməlidir.

- Məqalələrin sonundakı ədəbiyyat siyahısında son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və s. istinadlara üstünlük verilməlidir.

- Ədəbiyyat siyahısı avtomatik nömrələmə ilə yığılmış məqalələr qəbul edilməyəcəklər.

- Məqaləyə mütləq 1 mütəxəssis rəyi (rəyçinin adı (tam şəkildə), elmi dərəcəsi, elmi adı və elmi titulu, iş yeri), məqaləni çapa tövsiyə edən müəssisənin elmi şurasının (kefedranın, şöbənin) iclas protokolundan çıxarış əlavə olunmalıdır.

- Elmi jurnallarda "*əvvəli ötən sayımızda*", *"ardı növbəti nömrədə"*adı altında seriya məqalələrin dərs olunmasına icazə verilmir.

- Texniki baxımdan düzgün tərtib edilməyən, həmçinin plagiatlıq faktı aşkar edilən məqalələr çap olunmayacaq.

***Redaksiya ilə əlaqə*:**
TarixVeOnunProblemleri@gmail.com

Требования к оформлению научных публикаций

- В статье должны быть указаны место работы и адрес, электронный адрес автора (авторов).

- Статьи могут быть опубликованы на Азербайджанском, турецком, русском и английском языках. Резюме статьи должно быть на двух языках, помимо языка написания статьи. Оба резюме должны быть одинаковыми и отображать содержание статьи. В резюме должны быть показаны научный результат, научная новизна, практическая ценность и др. Резюме должно быть научно и грамматически отредактировано. В резюме должны быть полностью указаны название статьи, имя автора (авторов).

- Текст статьи должен быть набран шрифтом Times New Roman, кегль 14, 1,5 интервал латинской графикой для статей на азербайджанском турецком языках и английском, кириллицей для статей на русском языке.

- В статье должны быть указаны UOT индексы или коды типа PACS, а также ключевые слова. Ключевые слова должны быть на трех языках (на языках написания статьи и резюме).

- В конце статьи должны быть даны научная новизна, практическая ценность, экономический результат и др.

- В статье должны быть даны ссылки на научные источники. Список литературы должен быть либо по порядку (например, [1] или [1, с.119]) или же по порядку шифра. Если дается сноска на ту же литературу в другом месте текста, тогда номер сноски должен быть таким же как и прежде.

- Информация о каждой сноске, данной в списке литературы, должна быть полной и точной. Библиографическое описание источника должно быть дано в соответствии с его видом (монография, учебник, научная статья и т.д.). При ссылке на статью, материалы симпозиумов, конференций и других научных изданий, должно быть указано название доклада или тезиса. При библиографическом описании ссылаемых источников должны браться за основу требования 10.2-10.4.6 отдела «Используемая литература» действующей инструкции по «Правилам составления диссертационных работ» Высшей Аттестационной Комиссии при Президенте Азербайджанской Республики.

- В статье преимущество должно быть дано научным статьям, монографиям и другим источникам, опубликованным в течении последних 5-10 лет.

- Статьи, список литературы которых набраны в режиме автоматической нумерации, не принимаются.

- К статье должны быть приложены 1 рецензия (с указанием имени, научной степени, научного звания и научного титула, места работы рецензента), выписка из протокола научного совета (кафедры, отдела) учреждения, рекомендующего публикацию статьи.

- Статьи, которые не являются технически корректными, а также содержат плагиат, не будут опубликованы.

Электронный адрес журнала "История и ее проблемы":
TarixVeOnunProblemleri@gmail.com

Requirements for scientific publications

- The place of work and the address, e-mail address of the author(s) should be indicated in the article.

- Articles may be published in Azerbaijani, Turkish, Russian and English. The summary of the article should be in two languages, in addition to the language of the article. Both summaries should be the same and display the content of the article. The summary should show the scientific result, scientific novelty, practical value, etc. The summary should be scientifically and grammatically edited. The summary should contain the full title of the article, the name of the author(s).

- The text of the article should be typed in Times New Roman, 14, 1.5 interval, Latin script for articles in Azerbaijani Turkish and English, Cyrillic for articles in Russian.

- The article should indicate UOT indexes or PACS type codes, as well as keywords. Keywords should be in three languages (in the languages of the article and resume writing).

- At the end of the article scientific novelty, practical value, economic result, etc. should be given.

- The links to the scientific sources should be given in the article. References should be either in order (for example, [1] or [1, p.119]) or in order of cipher. If a footnote is given for the same literature elsewhere in the text, then the footnote number should be the same as before.

- Information about each footnote given in the list of references should be complete and accurate. The bibliographic description of the source should be given in accordance with its type (monograph, textbook, scientific article, etc.). When referring to an article, materials of symposia, conferences and other scientific publications, the title of the report or thesis should be indicated. In the bibliographic description of the referenced sources, the "Used literature" section 10.2-10.4.6 of the current instruction on the "Rules for writing dissertations" of the Higher Attestation Commission under the President of the Republic of Azerbaijan should be taken as the basis.

- In the article, the advantage should be given to the scientific articles, monographs and other sources published in the last 5-10 years.

- The article should be accompanied by 1 review (indicating the name, scientific degree, academic title and scientific title, place of work of the reviewer), an extract from the protocol of the scientific council (chair, department) of the institution that recommends publication of the article.

- Articles that are not technically correct, as well as plagiarism, will not be published.

Email: **TarixVeOnunProblemleri@gmail.com**

Çapa hazırlayanlar: ***Sevinc Ruintən*** – Bakı Dövlət Universiteti
Zəhra Cəfərli – Bakı Dövlət Universiteti
Şəbnəm Cəfərova – Bakı Dövlət Universiteti
Elmar Axundov – Bakı Dövlət Universiteti
İlham Məmmədov – Bakı Dövlət Universiteti
Şəhla Xələfova – Bakı Dövlət Universiteti
Tərcüməçi radaktorlar: ***Anar Kərimov*** – Bakı Dövlət Universiteti
Aynur Məmmədova – Bakı Dövlət Universiteti
Web-redaktor: ***Ramil Dadaşov*** – Azərbaycan Texniki Universiteti

Yığılmağa verilmişdir: 21.05.2026. Çapa imzalanmışdır: 23.05.2026.
Redaksiyanın ünvanı: Bakı – 370148, akad.Z.Xəlilov küç.23
Bakı Dövlət Universiteti, Tarix fakültəsi. Tel.: 539 08 56
E-mail: TarixVeOnunProblemleri@gmail.com